

Vasif Həzərxan oğlu SƏMƏDOV Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir. Müxtəlif illərdə Azərbaycan Dövlət Televiziya və Radio verilişləri Komitəsində redaktor, "Kommunist" qəzetində müxbir, Rusiyanın nüfuzlu və populyar mətbuat orqanlarında - "İzvestiya" qəzetinin Azərbaycan Respublikası üzrə xüsusi müxbiri, "Literaturnaya qazeta"nın, "Energiya Vostoka" və "Oqonyok" jurnallarının Mərkəzi və Qərbi Asiya ölkələri üzrə müxbirlər bürosunun müdiri vəzifələrində işləyərək ölkəmizin informasiya blokadasından çıxarılmasında müstəsna xidmətləri olmuş və hazırda bu sahədə jurnalistlik fəaliyyətini davam etdirir.

Respublikanın Əməkdar jurnalistidir. Azərbaycan Jurnalistlər Birliyinin "Qızıl qələm", H.B.Zərdabi adına mükafatları ilə təltif edilmiş, "Araz", "Azərbaycan Bayrağı" Ali ədəbi və jurnalistika üzrə bir sıra Beynəlxalq müsabiqələrin mükafatları laureatıdır. Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin, Beynəlxalq Jurnalistlər Konfederasiyasının üzvüdür.

Jurnalist kadrlarının hazırlanmasında Bakı Avroasiya Universitetinin professoru kimi pedaqoji fəaliyyətlə də məşğuldur. Bir neçə publisistik və dərs vəsaiti kitablarının müəllifidir. Ailəlidir.

Rövşən Novruz oğlu VƏLİZADƏ uzun müddət dövlət qurumlarında və xüsusi xidmət orqanlarında işləmişdir. Siyasi elmlər üzrə fəlsəfə doktoru, professor R.Vəlizadə AMEA-nın İnsan Hüquqları İnstitutunun əməkdaşıdır. 24 kitabın müəllifidir. Bir neçə kitabı müxtəlif xalqların dillərinə tərcümə olunub nəşr edilmişdir.

Dağlıq Qarabağ mövzusunda «Qarabağ: Nəzarətsiz zona», «Qarabağ: terror edilmiş torpaq», «Genosid», «Erməni terroru və çirkli pullar», «Genosid, Ekosid», korrupsiya mövzusunda isə «Narkokorrupsiya», «Çirkli pulların yuyulması», «Korrupsiya, narkotika, terror», «İqtisadi kəşfiyyatda informasiya», «Bank təhlükəsizliyi və çirkli pulların anatomiyası» kitablarının müəllifidir.

O, Kanada, ABŞ və İtaliya universitetlərində fəaliyyət göstərən Strateji Araşdırmalar Mərkəzlərinin həmsədridir.

Əfqanıstan və Qarabağ müharibələrinin iştirakçısıdır. Azərbaycan Jurnalistlər və Yazıçılar Birliklərinin üzvüdür. Jurnalistika sahəsində fəaliyyətinə görə AJB-nin «Qızıl qələm» mükafatına layiq görülmüş, elmi tədqiqat əsərlərinə görə isə bir sıra müxtəlif mükafatların laureatıdır. Ailəlidir.

VASİF SƏMƏDOV
RÖVŞƏN VƏLİZADƏ

LEYLA ƏLİYEVA: «XOCALIYA ƏDALƏT!»
(BEYNƏLXALQ ERMƏNİ TERRORUNA QARŞI YENİ STRATEJİ MODEL)

III CİLD

VASİF SƏMƏDOV
RÖVŞƏN VƏLİZADƏ

LEYLA ƏLİYEVA:
«XOCALIYA ƏDALƏT!»
(BEYNƏLXALQ ERMƏNİ TERRORUNA QARŞI YENİ STRATEJİ MODEL)

III CİLD

AZƏRBAYCAN RESPUBLİKASI QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ İNSAN HÜQUQLARI İNSTİTUTU

"XOCALIYA ƏDALƏT!" BEYNƏLXALQ TƏBLİĞAT VƏ MƏLUMATLANDIRMA KAMPANİYASI

«KASPİAN İZVESTİYA» BEYNƏLXALQ İNFORMASİYA AGENTLİYİ

VASİF SƏMƏDOV

RÖVŞƏN VƏLİZADƏ

LEYLA ƏLİYEVA:
"XOCALIYA ƏDALƏT!"

(BEYNƏLXALQ ERMƏNİ TERRORUNA QARŞI YENİ STRATEJİ MODEL)

ÜÇ CİLDDƏ

III CİLD

Monoqrafiya AMEA-nın İnsan Hüquqları İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr edilmişdir.

Bakı – 2014

Araşdırmaya xüsusi rəy və ön sözün müəllifi:
Rafael HÜSEYNOV
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, AŞPA-dakı Azərbaycan nümayəndə heyətinin üzvü, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor

Baş elmi məsləhətçi:
Aytən MUSTAFAYEVA
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, AMEA-nın İnsan Hüquqları İnstitutunun direktoru, hüquq üzrə fəlsəfə doktoru, professor

Elmi redaktorlar:
İbrahim QULİYEV
Milli Aviasiya Akademiyasının Hüquqşünaslıq kafedrasının müdiri, hüquq elmləri doktoru, professor
Cəbi BƏHRAMOV
AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru, professor

Elmi məsləhətçilər:
Ziyafət ƏSGƏROV
Azərbaycan Respublikası Milli Məclisinin deputatı, hüquq üzrə fəlsəfə doktoru, professor
Nazim HÜSEYNLİ
Bakı Avrasiya Universitetinin rektoru, fəlsəfə elmləri doktoru, professor
Namiq AXUNDOV
Azərbaycan Respublikası Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının magistratura şöbəsinin dekanı, tarix elmləri doktoru, professor
İlkin CAMALOV
Azərbaycan Respublikası Prezidentinin Xüsusi Tibb Xidmətinin böyük məsləhətçisi, hüquq üzrə fəlsəfə doktoru

Redaktorlar:
Rahid ULUSEL,
Fəlsəfə elmləri doktoru, professor
Leyla MƏMMƏDOVA
Bakı Dövlət Universiteti jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının doktorantı

Vasif Səmədov, Rövşən Vəlizadə

Leyla Əliyeva: "Xocalıya Ədalət!" *(Beynəlxalq erməni terroruna qarşı yeni strateji model).* Üç cilddə. III cild. Bakı.2014. 480 səh., şəkilli.

Üç cildlik bu kitabda beynəlxalq terrorun bir qolu olan erməni terrorçularının müxtəlif tarixi dövrlərdə Azərbaycan torpaqlarında, xüsusilə ötən əsrin son illərində Ermənistan və onların havadarlarının köməyilə işğal olunmuş Dağlıq Qarabağ ərazisində, o cümlədən, Xocalı yaşayış məntəqəsində törətdikləri kütləvi qırğınlardan, vəhşiliklərdən, soyqırımdan bəhs edilir. Kitabda Heydər Əliyev Fondunun vitse-prezidenti, Fondun RF-dakı Nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın «Xocalıya Ədalət!» kampaniyası çərçivəsində beynəlxalq aləmdə həyata keçirilən təqdirəlayiq tədbirlərdən söhbət açılır. Zəngin fakt və sənədlərlə, sübutlarla əhatələnmiş bu kitab dünyada terrora və zülmə, işgəncəyə və amansız qətliamlara qarşı mübarizədə tarixi həqiqətlərin önəmli bir toplusu kimi oxucuların diqqət mərkəzində olacaqdır.

Müəllif hüquqları toxunulmazdır və qanunla qorunub saxlanılır. Kitab və onun bolmələrinin qrafik, elektron, fotonüsxələrinin çıxarılması və ya nəşr edilməsi müəlliflərin razılığı olmadan qadağandır.

ISBN: 978-9952-487-51-0

© Vasif Səmədov, Rövşən Vəlizadə, 2014



Kitab “Xocalıya Ədalət!” Beynəlxalq təbliğat və məlumatlandırma kampaniyasının 5 illiyi münasibətilə nəşr edilmişdir.

“Xocalıya Ədalət!” kampaniyasının yaradılması təşəbbüsü 2008-ci il 8 may tarixində, Şuşanın işğalının ildönümü günü Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyeva tərəfindən irəli sürülmüşdür. Hal-hazırda faciənin mənəvi, siyasi və hüquqi müstəvidə tanınmasına yönəlmiş bu kampaniya dünyanın 40-dan çox ölkəsində uğurla həyata keçirilməkdədir.

Bu gün öz tarixinin məsul və şərəfli oyanış mərhələsini yaşayan dünya Azərbaycanlıları vahid bir xalqı, bir milləti, bir tarixi Vətəni təmsil edir.

Azərbaycan dövlətinin milli ideologiyasının özəyini, əsasını təşkil edən azərbaycançılıqdır.

Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!

HEYDƏR ƏLİYEV
Azərbaycan xalqının Ümummilli Lideri

Mən heç şübhə etmirəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik, vətəndaşlarımızı doğma dədə-baba torpaqlarına qaytaracağıq. O torpaqlarda yeni həyat başlanacaq, şəhərlər bərpa olunacaqdır. O bölgələr, bu gün işğal altında qalan torpaqlar, bax, ölkəmizin başqa bölgələri kimi çiçəklənəcəkdir. Mən buna əminəm, buna şübhə etmirəm və hamımız işimizlə o günü yaxınlaşdırmalıyıq.

İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

“Azərbaycanın olduğu kimi təqdimatı işində, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin geniş mənada dünya birliyinə düzgün şəkildə çatdırılması işində Heydər Əliyev Fondunun rolunu mən çox yüksək qiymətləndirirəm. Bu fond sübut etdi ki, əgər istək olarsa, əgər iradə olarsa və əgər xoş niyyət olarsa, istənilən sahədə istənilən məsələ həll ola bilər. Bu fondun çoxşaxəli fəaliyyətini əgər bir sözlə xarakterizə etmək mümkündürsə, mən “Xoş niyyət” deyərdim. Çünki bütün sahələrdə biz bunu görürük”.

MEHRİBAN ƏLİYEVA
Heydər Əliyev Fondunun prezidenti,
Azərbaycan Respublikası Milli Məclisinin deputatı,
UNESCO və İSESCO-nun xoşməramlı səfiri

Xocalıda azərbaycanlılara qarşı törədilmiş soyqırım Azərbaycan tarixinə ən dəhşətli və qara səhifələrdən biri kimi həmişəlik yazılmış faciədir.

Xocalının dinc sakinlərinə qarşı bu qəddarlığın, bu vəhşiliyin səbəbi nə idi? Axı onlar, heç bir silahlı müqavimət göstərmədən geri çəkilirdilər. Deməli, bu, qəsdən törədilmiş aksiya, Azərbaycan xalqına qarşı əsl soyqırım, kütləvi vahimələndirmə aksiyası idi.

Lakin zaman göstərdi ki, Azərbaycan xalqının əzmi qırılmamışdır və heç vaxt qırıla bilməz.

Biz, sağ qalanlar, bu faciə haqqında həqiqəti bütün dünyaya çatdırmalı, baş vermiş hadisəyə beynəlxalq siyasi və hüquqi qiymət verilməsinə nail olmalıyıq.

"Xocalıya Ədalət!" kampaniyası həqiqətə, ədalətə, bütün dünyaya, bütün lazım olan ümumbəşəri dəyərlərə istiqamətlənmişdir.

Azərbaycan xalqının hər bir nümayəndəsi kimi, mən də əminəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tezliklə ədalətli yolla həll ediləcək, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır. Lakin biz ədalətin təntənəsi uğrunda mübarizəmizi bundan sonra da davam etdirəcəyik.

LEYLA ƏLİYEVA
Heydər Əliyev Fondunun vitse-prezidenti,
Fondun RF-dakı Nümayəndəliyinin rəhbəri

“Xocalıya ədalət” kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin

SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Beynəlxalq səviyyədə keçirilən “Xocalıya ədalət” kampaniyasının əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 fevral 2014-cü il.

ELMİ REDAKTORDAN

MÜASIR TARİX VƏ BEYNƏLXALQ HÜQUQ XOCALI SOYQIRIMINA ÖZ ƏDALƏTLİ HÖKMÜNÜ VERMƏLIDİR

Tarixi faktlar göstərir ki, XX əsrdə Azərbaycan xalqına və dövlətinə qarşı ermənilər tərəfindən davamlı şəkildə dəhşətli soyqırımlar törədilmişdir. «Böyük Ermənistan» yaratmaq xülyası ilə imperialist və neoimperialist qüvvələrin havadarlığına arxalanan erməni millətçiləri XX yüzilliyin ayrı-ayrı dövrlərində Azərbaycan xalqına qarşı qəddarcasına terror, etnik təmizləmə, soyqırım siyasəti həyata keçirmişlər. Erməni separatçılarının xüsusi qəddarlıqla törətdikləri cinayətlər nəticəsində bütövlükdə ayrı-ayrı dövrlərdə azərbaycanlılar kütləvi şəkildə soyqırıma məruz qalmış, onlardan bir qismi amansızlıqla öldürülmüş, bir qismi ağır işgəncələrlə şikəst edilmiş, bir qismi də yaşadıqları doğma yurdlarından etnik təmizləmə siyasəti nəticəsində qovularaq didərgin vəziyyətinə salınmışlar. Çox təəssüflər olsun ki, erməni millətçilərinin Azərbaycan xalqına qarşı törətdikləri bu qanlı cinayətlər beynəlxalq təşkilatlar və mərkəzlər tərəfindən araşdırılmamış, dünya ictimaiyyəti tərəfindən qınanılmamış, onların bu əməllərinə beynəlxalq hüquqi və siyasi qiymət verilməmişdir. Xalqımıza açıq düşmənçiliklə bu dəhşətli cinayəti törədən şəxslər, qruplar öz layiqli cəzalarını almadıqları üçün onlar tərəfindən daha böyük miqyaslı terror aktları və soyqırımlar törədilməsi davam etmişdir. Və nəticədə, erməni terroru dünyada mövcud olan peşəkar terrorçuluğun tərkib hissəsinə çevrilərək, onun "avanqardına" çevrilmişdir. Lakin artıq zaman yetişib: erməni terrorçuluğu iki istiqamətdə (dövlət terrorizmi və qrup terrorizmi kimi) – həm

dövlətlərarası münasibətlərin, həm də insan hüquqlarının prinsiplərini pozduğu üçün beynəlxalq cinayət hüququnun subyektinə çevrilməlidir. Heydər Əliyev Fondunun vitse-prezidenti, Fondun Rusiya Nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə yaradılmış "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kampaniyasının 5 il ərzində apardığı mübarizə də bütün faktlar arsenalı ilə erməni terrorçuluğunun əsil mahiyyətini üzə çıxararaq, onu bu şəkildə beynəlxalq cinayət hüququnun hədəfinə gətirir!

Hər bir xalqın tarixində sınaqlı günlər yaşanır. Belə ağır çağlar xalqı daha da mətinləşdirir, milli dirilik uğrunda mübarizədə onu daha əzmkar edir. Azərbaycan xalqı əsrlər boyu tarixin bu çətin sınaqlarından şücaətlə çıxaraq, müstəqillik uğrunda savaşını yenilmədən davam etdirmişdir. Sonda azadlığa qovuşaraq öz müstəqil Azərbaycan dövlətini yaratmışdır.

Ötən əsrin əvvəllərində Rusiya imperiyasının havadarlığı ilə ermənilərin Azərbaycana təcavüzü baş vermiş, onlar burada Sovet hakimiyyətini qurmaq pərdəsi altında bir sıra şəhər və rayonlarda, xüsusilə Bakı, Şamaxı, Quba, Zəngəzur, Naxçıvan, Lənkəran, Zəngilan, Təbriz, Neftçalada xalqımıza qarşı xüsusi qəddarlıqla soyqırım həyata keçirmişlər. Nəticədə, həmin ərazilərdə dinc əhali kütləvi sürətdə qətlə yetirilmiş, çoxsaylı tarixi abidələr dağıdılıb məhv edilmişdir.

Xalqımıza qarşı erməni separatçıları tərəfindən ayrı-ayrı böyük dövlətlərin dəstəyi ilə aparılan terror, etnik təmizləmə və soyqırım siyasətinin əsas məqsədi və məramı Böyük Ermənistan dövləti yaratmaq olmuşdur. Bunun nəticəsidir ki, XX əsrin müxtəlif dövrlərində ermənilər onlara havadarlıq edənlərin köməyi ilə xalqımıza qarşı qanlı cinayətlər törətmiş, tarixi torpaqlarımızın bir hissəsini mərhələ-mərhələ zəbt etmişlər. Erməni millətçilərinin bütün bu dövrlərdə törətdikləri dəhşətli cinayətlərə, vandalizmə beynəlxalq təşkilatlar və aparıcı dövlətlər tərəfindən vaxtında heç bir hüquqi, siyasi, sosial qiymət verilməmiş, bu cinayəti törədən şəxslərin beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilməsi üçün heç bir təşəbbüs göstərilməmiş, əksinə, onlara dayaq və dəstək verməklə təkrar qırğınların törədilməsinə şərait yaradılmışdır.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra da, yəni SSRİ-nin tərkibində olduğumuz dövrlərdə də ermənilər ərazi iddialarından əl çəkməmişlər. Mərkəzi hakimiyyətin Azərbaycan Respublikasına və Azərbaycan xalqına qarşı etdikləri ardıcıl təzyiqlər nəticəsində erməni millətçiləri etnik təmizləmə siyasətini həyata keçirərək, azərbaycanlıları Ermənistan ərazisindən deportasiya etmişlər. Faktlar da təsdiq edir ki, azərbaycanlıların yaşadıqları torpaqlarından, Ermənistan adlanan ərazidən deportasiya olunmaları haqqında SSRİ Nazirlər Sovetinin qərarları olmuşdur. Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağa burada yaşayan ermənilərin say tərkibinin az olmasına baxmayaraq, qeyri-qanuni şəkildə həmin dövrdə muxtariyyət statusu verilmişdir. Ermənistan və Gürcüstan respublikalarının ayrı-ayrılıqda hər birində bir milyona yaxın azərbaycanlının yaşamasına baxmayaraq, onlara muxtariyyət statusunun verilməməsi mərkəzi hakimiyyət orqanlarının ermənilərə açıq dəstəyindən, azərbaycanlılara münasibətdə isə tarixi ədalətsizliyindən xəbər verir. Bütün bunlarla kifayətlənməyən erməni millətçiləri Sovet hakimiyyətinin bütün dövrlərində Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsinə cəhd göstərmişlər. Xüsusilə, bu proses 1987-ci ildən başlayaraq daha da sürətlənmişdir. Çox təəssüflər olsun ki, SSRİ-nin rəhbərliyi bu prosesin qarşısını almaq üçün heç bir siyasi, hüquqi tədbirlər görməmiş və şəxsən M.S.Qorbaçov bu istiqamətdə nəinki pozitiv siyasi iradə nümayiş etdirməmiş, əksinə, Dağlıq Qarabağ Muxtar Vilayətinin, o cümlədən, Ermənistanın ərazisində erməni separatizminin daha da güclənməsi və inkişafı üçün münbit şərait yaratmışdır. Beləliklə, erməni separatçılarının azərbaycanlılara qarşı aqressivliyi daha da güclənmişdir.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni separatçılarının terrorçu dəstələri rus hərbi hissələrinin bilavasitə iştirakı ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində əvvəlcədən hazırlanmış ssenari əsasında azərbaycanlıların kompakt yaşadıqları Xocalı şəhərində xüsusi qəddarlıqla soyqırım cinayətini törətmişlər. Bu hadisə XX əsrdə erməni separatçıları tərəfindən azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə və soyqırım siyasətinin ən qanlı səhifəsidir. Erməni separatçılarının Dağlıq Qarabağı Ermənistana birləşdirilmək məqsədi ilə Xocalı şəhərində dinc azərbaycanlı əhaliyə qarşı törətdikləri bu soyqırım cinayəti miqyas baxımından ən dəhşətlisidir. Bu soyqırım nəticəsində 613

nəfərin, o cümlədən 106 qadının, 63 uşağın, 70 qocanın həyatına son qoyulmuş, 487 nəfər ağır yaralanaraq əlil olmuş, 1275 nəfər Xocalı şəhərinin əhalisi əsir götürülmüş, 150 nəfər itkin düşmüş, 8 ailə və 3 nəsil tamamilə məhv edilmişdir. 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə Xocalıda baş vermiş bu amansız cinayətin qabaqcadan düşünülmüş qaydada milli və dini mənsubiyyətinə görə həmin şəhərdə yaşayan azərbaycanlıların qətlə yetirilməsi niyyəti ilə həyata keçirilməsi beynəlxalq hüquq və milli hüquq normalarına əsasən soyqırım aktı olduğunu sübut edir. Xocalı şəhərində azərbaycanlıların kütləvi şəkildə qırılması faktı vəhşilik və vandalizm hərəkətləri ilə müşayiət olunan, bütün dünyanın, bəşəriyyətin genosid olaraq tanıdığı Xolokost, Xatın və s. dəhşətli faciələr kimi eyni səviyyədə qiymətləndirilməlidir.

Yeri gəlmişkən, qeyd etməliyəm ki, tarixi keçmişimizdə Azərbaycan xalqına qarşı törədilmiş qətliamlarla bərabər, müasir dövrümüzdə Xocalıda baş vermiş bu dəhşətli insan qırğınını üzv olduğumuz Birləşmiş Millətlər Təşkilatı, o cümlədən, digər beynəlxalq təşkilatlar, dünya birliyi və bəzi dövlətlər soyqırım statusunda tanımamış və bu faciəyə münasibətlərini birmənalı olaraq bildirməmişlər. Eyni zamanda, Azərbaycan hakimiyyəti də o dövrlərdə baş vermiş bu dəhşətli hadisənin beynəlxalq təşkilatlar tərəfindən soyqırım aktı kimi tanınması istiqamətində zəruri tədbirləri görməmişdir. Beynəlxalq hüquqa görə, soyqırım cinayəti sülh və bəşəriyyət əleyhinə yönələn ən ağır beynəlxalq cinayətlərdən biri sayılır. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin 11 dekabr 1946-ci il 96 (I) saylı qətnaməsində qeyd olunur ki, soyqırım insan qruplarının yaşamaq hüququnu tanımamaqla insan mənliyini təhqir edir, bəşəriyyəti insanlar tərəfindən yaradılan maddi və mənəvi dayaqlarından məhrum edir. İnsanlıq əleyhinə qarşı törədilən belə cinayətlər Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin 1948-ci il tarixli 260 saylı (III) qətnaməsi ilə qəbul edilmiş «Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında» Konvensiyanın 2-ci bəndində təsbit olunmuş şərtlər də Xocalı faciəsinin məhz soyqırım aktı kimi tanınmasına əsas verirdi. BMT-nin «Soyqırım cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında» 9 dekabr 1948-ci il tarixli Konvensiyasında isə soyqırım cinayətinin mahiyyəti tam olaraq öz əksini tapmışdır. 12 yanvar 1951-ci ildə qüvvəyə minmiş bu konvensiyada ilk dəfə olaraq beynəlxalq hüquqda insan qruplarının milli,

etnik, irqi, dini fərqlərinə görə kütləvi məhv edilməsinə yönələn cinayətlər soyqırım adlandırılmışdır. Qeyd etməliyəm ki, həmin Konvensiyaya qoşulmuş bütün dövlətlərin üzərinə cinayətin qarşısının alınması üçün bu cinayəti törədənlərin cəzalandırılması onların qarşısında ümdə bir vəzifə kimi qoyulmuşdur.

Xocalıda baş vermiş faciənin bir adı var: Azərbaycan millətinin müəyyən bir hissəsinin qırılması və həmin millətin nümayəndələrinin yaşadığı torpağın ələ keçirilməsi ilə nəticələnən soyqırım! Məlum olduğu kimi, indi beynəlxalq hərbi tribunallarda başqa ölkələrin rəhbərləri törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb ediliblər. Maraqlıdır, nə üçün bilavasitə Xocalı soyqırımında iştirak etmiş, əlləri Azərbaycan xalqının qanına bulanmış Ermənistanın keçmiş və indiki rəhbərlərinin mühakimə edilmələri üçün beynəlxalq tribunal təşkil olunmur? Məgər beynəlxalq qurumlarda ikili standartların mövcudluğuna dəlalət edən bu fakt ədalətsiz mövqeyin bariz nümunəsi deyilmi? Təəssüflə qeyd etmək lazımdır ki, erməni separatçılarının bu qatı cinayətlərinə nə beynəlxalq təşkilatlar, nə də ki həmin konvensiyaya qoşulmuş dövlətlər beynəlxalq hüquq normalarına uyğun olaraq qiymət verməmişlər. Günahkar şəxslərin cəzalandırılması üçün heç bir tədbir görülməmişdir. Yalnız Azərbaycan xalqının təkidli tələbi ilə 1993-cü ildə ikinci dəfə hakimiyyətə gələn Ulu Öndərimiz Heydər Əliyev erməni separatçıları, terrorçuları tərəfindən azərbaycanlılara qarşı törədilmiş bütün cinayətləri, o cümlədən Xocalı şəhərində baş vermiş amansız soyqırım hadisəsini geniş kontekstdə təhlil etməklə bərabər, bu dəhşətli hadisəyə hüququ və siyasi qiymət verilməsi üçün lazımi tədbirlər görmüşdür. Belə ki, hüquqi əsas olduğuna görə, Xocalı faciəsinə soyqırım kimi hüququ qiymət verilməsi üçün, eyni zamanda Yuqoslaviya üzrə beynəlxalq cinayət tribunalının Nizamnaməsini, Ruanda üzrə beynəlxalq tribunalın Nizamnaməsinin I maddəsini, Beynəlxalq Cinayət Məhkəməsinin statusunu əsas götürərək Azərbaycan Respublikası Prezidenti mərhum Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası Milli Məclisinin 24 fevral 1994-cü il tarixində «Xocalı soyqırımı günü haqqında» qərar qəbul edilmişdir. Eyni zamanda, Azərbaycan Respublikası Prezidenti «Azərbaycanlıların soyqırımı haqqında» 26 mart 1998-ci ildə fərman vermişdir. Erməni millətçilərin azərbaycanlılara qarşı tarixən həyata keçirdikləri soyqırımlar,

deportasiyalar, işgəncələr və qeyri-qanunu insani rəftar, eyni zamanda Avropa İnsan Hüquqları Konvensiyasının, işgəncələrə qarşı BMT və Avropa Şurası konvensiyalarının və digər aktların kobud şəkildə pozulması faktları bu fərmanda öz əksini tapmışdır. Ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü və 31 may 1996-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikası BMT-nin 9 dekabr 1948-ci il tarixli «Soyqırım cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında» Konvensiyasına qoşulmuş və bu sənəd ratifikasiya olunmuşdur. Eyni zamanda, Azərbaycan Respublikasının qanunvericiliyində beynəlxalq hüquq normalarına uyğunlaşdırılması istiqamətində bir sıra tədbirlər də həyata keçirilmişdir. Belə ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsində «soyqırım» (103 maddə), «soyqırım törədilməsinə təhrik etmə» (104 maddə) maddələri daxil edilmişdir. Bununla yanaşı, Konvensiyanın zəruri tələbləri, prinsipləri də nəzərə alınmışdır.

Bir daha xüsusi olaraq vurğulayıram ki, erməni separatçıları tərəfindən xalqımızın başına gətirilən digər faciələr kimi Xocalı soyqırımına da, o cümlədən, torpaqlarımızın 20%-nin işğal olunması faktına beynəlxalq aləm və beynəlxalq təşkilatlar bu günə qədər universal hüquq normaları çərçivəsində lazımi səviyyədə siyasi və hüquqi qiymət verməyiblər. Bunun əsas səbəbi də beynəlxalq aləmdə ikili standart siyasətinin mövcud olmasıdır. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan xalqı və hakimiyyəti, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Xocalı faciəsinin dünya birliyinə çatdırılması üçün bütün istiqamətlərdə ardıcıl olaraq tədbirlər həyata keçirir. Dövlət başçımızın xarici siyasətinin əsas istiqamətlərindən biri və başlıcası da budur. Bu sahədə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan həqiqətlərinin, o cümlədən, Xocalı soyqırımının beynəlxalq aləmə çatdırılması üçün apardığı məqsədyönlü işlər ölkəmizə uğur qazandırmaqdadır. Eyni zamanda, Heydər Əliyev Fondunun vitse-prezidenti və Fondun Rusiya nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü və bilavasitə rəhbərliyi ilə ardıcıl həyata keçirilən tədbirlər və "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyası artıq beynəlxalq ictimaiyyətin bu məsələyə diqqətini cəlb edə bilmişdir. Azərbaycan Respublikasında elmi ictimaiyyət, eyni zamanda, xarici siyasətlə məşğul olan qurumlar bu istiqamətdə öz fəaliyyətlərini

əlaqələndirməklə beynəlxalq səviyyədə zəruri təbliğatı daha da gücləndirməlidir. Yaxşı olardı ki, aşağıda təklif etdiyim tezislər nəzərə alınmaqla məqsədəuyğun prinsiplər əsasında təbliğat işləri ardıcıl və sistemli şəkildə həyata keçirilsin:

Diplomatik danışıqlar zamanı Dağlıq Qarabağ ərazisinin Azərbaycanın əzəli torpağı olması faktı ümumi ifadə və sözlərlə yox, elmi araşdırmalar nəticəsində əldə olunmuş arxiv materiallarına, inandırıcı faktlara və arqumentlərə söykənməklə aparılmalıdır. Tarixçilərimiz və beynəlxalq hüquq üzrə alim-mütəxəssislərimiz qarşısında duran əsas vəzifə Dağlıq Qarabağın tarixi ilə bağlı beynəlxalq tələblərə cavab verən sanballı elmi-analitik əsərlərin yazılmasını və təbliğini həyata keçirməlidir. Müvafiq qurumlar Dağlıq Qarabağla bağlı bütün tarixi məlumatların, hadisələrin xronikasının internet və digər beynəlxalq və yerli kütləvi informasiya vasitələri ilə mütəmadi olaraq dünya ictimaiyyətinə çatdırılmasına nail olmalıdırlar. Respublika elmi ictimaiyyəti və aidiyyəti qurumlar Dağlıq Qarabağ hadisələri ilə bağlı ölkəmizdə və xaricdə keçirilən beynəlxalq konfranslarda peşəkar mütəxəssislərin və alimlərin fikir ortaqlığı ilə Dağlıq Qarabağ probleminin elmi və siyasi əsaslarla, faktlarla iştirakçılara çatdırılmasına nail olmalıdırlar. Beynəlxalq danışıqlar zamanı Ermənistanın işğalçı dövlət olmasını birbaşa sübut edən faktlar, arqumentlər, sübutlar mütəmadi olaraq səsləndirilməli və bu zaman əldə edilmiş tarixi mənbələrə istinad olunmalıdır.

Ermənistan Respublikasının işğalçı dövlət olmasını sübut edən ən başlıca dəlil – Dağlıq Qarabağ ərazisinin işğalı ilə yanaşı, həmin inzibati əraziyə daxil olmayan əlavə yeddi rayonun da zəbt edilməsidir. Eyni zamanda, bu ərazilərdən bir milyondan artıq insanın məcburi köçkün vəziyyətinə düşməsi – həmin işğalçılıq faktını büsbütün təsdiq edir. Rəsmi İrəvan bütün beynəlxalq danışıqlarda, beynəlxalq tədbirlərdə öz işğalçılıq siyasətlərinə haqq qazandıraraq göstərir ki, guya, onlar bunu BMT-nin əsas prinsiplərindən biri hesab olunan – millətlərin öz müqəddəratını təyinetmə müddəasından çıxış edərək müstəqillik uğrunda mübarizə aparırlar. Lakin hamıya aydındır ki, onlar həmin prinsipi də təhrif edərək, əslində, öz millətçilik və separatçılıq niyyətlərini həyata keçirirlər. Bu prinsiplə "qaydasız oyun" Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisinin işğalı

faktını ört-basdır etsə də, mahiyyətcə beynəlxalq hüquq normalarına tam zidd olmaqla bərabər, tamamilə qanunsuz şəkildə, başqa bir dövlətin ərazisini işğal etmək, soyqırım törətməklə həyata keçirilməsi göz qabağındadır. Belə ki, Ermənistan dövləti Dağlıq Qarabağın ərazisində yaşayan Azərbaycan vətəndaşlarının da öz müqəddəratını təyinetmə hüququnu kobud sürətdə pozmaqla yanaşı, Azərbaycan Respublikası ilə bağlı BMT-nin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipini də kobud surətdə tapdamışdır. Həm də Ermənistan tərəfi bütün danışıqlarda iddia edir ki, münaqişə yalnız Dağlıq Qarabağın inzibati ərazisinə şamil olunur. Onda sual olunur: hansı beynəlxalq hüquq normaları çərçivəsində Ermənistan Dağlıq Qarabağın inzibati ərazisindən kənarda yeddi inzibati rayonu da işğal etmişdir, bu işğalçılıq siyasəti hansı beynəlxalq hüquq normalarına uyğundur? Göstərilən bu fakt heç bir əlavə şərhə zərurət yaratmadan, Ermənistan dövlətinin işğalçılıq siyasəti yürütdüyünü, işğalçı dövlət olduğunu sübut edir. Bütün beynəlxalq danışıqlarda, tədbirlərdə və beynəlxalq elmi konfranslarda bu fakt ən ciddi arqument kimi qabarıq formada daim səslənməlidir.

Hesab edirəm ki, Ermənistan Respublikasının Azərbaycana qarşı uzun illər apardığı işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın zəbt edilməsi, bir milyondan artıq Azərbaycan vətəndaşının öz doğma yurdlarından qovularaq məcburi qaçqın və köçkün vəziyyətinə salınması, Azərbaycana dəymiş mənəvi, fiziki, psixoloji və maddi ziyanın kifayət qədər böyük olması xüsusunda Beynəlxalq Məhkəməyə müraciətin vaxtı çatmışdır. Bunun üçün kifayət qədər maddi və hüquqi sübutlar vardır.

Dağlıq Qarabağ probleminin həlli istiqamətində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə elmi ictimaiyyət daim dəstək olmalıdır. Eyni zamanda, bu proseslə bağlı elmi ictimaiyyət mütəmadi olaraq torpaqlarımızın işğaldan azad olunması yönündə öz təklif və ideyalarını bildirməlidir. Biz öz fəaliyyətimizlə, əməli işimizlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Dağlıq Qarabağ problemi ilə bağlı apardığı siyasətin arxasında var qüvvəmizlə dayanmaqla, Ali Baş Komandanımıza yaxından kömək etməliyik. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Xocalı soyqırımı ilə bağlı irəli sürdüyü «Biz müdafiədə deyil, hücumda olmalıyıq» – strategiyası ətrafında hamımız, bütün Azərbaycan xalqı, xüsusilə elmi

ictimaiyyətimiz səfərbər olmalıdır. Bəli, biz hücumda olmalıyıq ki, mübarizədə qalib olaq və bizim haqq səsimizi beynəlxalq ictimaiyyət eşitsin. İnanırıq ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü və uğurla həyata keçirdiyi müdrik xarici siyasət sayəsində erməni işğalçıları tərəfindən zəbt edilmiş torpaqlarımız azad ediləcək, vətəndaşlarımızın hüquqları bərpa ediləcək, onlar öz dədə-baba torpaqlarına qayıdacaqlar.

Erməni işğalçıları özlərinə yalandan bir "böyük keçmiş" düzəltmək istəyirdilər, ancaq Həqiqətə söykənmədikləri üçün onların nə keçmişi, nə indisi (onların bu gününə baxın!), nə də gələcəyi vardır. Təkcə Azərbaycana qarşı deyil, həm də Həqiqətə qarşı savaş açdıqları üçün, İnsanlığa dayaq olan Ədaləti ayaqlar altına atdıqları üçün onlar məğlubiyyətə məhkumdurlar. Bu gün Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təməlini qoyduğu "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kampaniyası məhz ədalətli mübarizə yolu ilə erməni millətçiliyini tərksilah etməkdədir. Ədalətin silahı Cəhalətin silahına qalib gəlməlidir. Leyla Əliyevanın əlində getdikcə itilənən, al Günəş altında bərq vuran, labüd şəkildə qalibiyyətə aparan belə bir kəsərli silah vardır – Ədalət!

İbrahim QULİYEV
Milli Aviasiya Akademiyasının
"Hüquqşünaslıq" kafedrasının müdiri,
hüquq elmləri doktoru, professor

İNSANLIQ MEYARI İLƏ

"Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kampaniyasının 5 ili tamam oldu

Heydər Əliyev Fondunun vitse-prezidenti, Fondun Rusiya Nümayəndəliyinin rəhbəri, Dialoq və Əməkdaşlıq Uğrunda Islam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə yaradılmış "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kampaniyası 5 il ərzində dünyanın aparıcı humanitar aksiyalarından birinə çevrilmişdir.

İnsanların dərdinə yanan bir qəlbi var Azərbaycan Prezidentinin qızı Leyla Əliyevanın. O, son beş il ərzində insanlıq meyarı ilə düşünüb fəaliyyət göstərməyin bu gün faciələri səngimək bilməyən dünya üçün nə qədər gərək olduğunu sübut edir. Heç şübhəsiz ki, humanizm – bütün zamanlar üçün sivilizasiyanın ən böyük dəyəri, bəşəriyyətin inkişafının ən mühüm şərtidir. Humanizm fəlsəfəsinin tərəqqisi ilə beynəlxalq insan hüquqları müasir dünya siyasətinin aparıcı platformasına çevrilməkdədir. Buna görə də hazırda dünya ictimaiyyəti qlobal konfliktlərə qarşı qlobal həmrəyliyi yeganə alternativ kimi təqdir edir. Bu gün bütün dünyada həyata keçirilən humanitar aksiyalar arasında belə bir həmrəylik platformasından çıxış edən, humanizm prinsiplərini özünün başlıca meyarına çevirən bir gənc hərəkat da var: "Xocalıya ədalət!"

"Xocalıya Ədalət!" – ədalətsizliyə üsyan deməkdir. 5 il ərzində getdikcə böyüyən, beynəlxalq miqyasda tərəfdarlarının sayını artıran bu hərəkatın başında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva

dayanır. Leyla xanım Əliyevanın üzərinə götürdüyü missiya milli-siyasi mənafelərimizin, ərazi bütövlüyümüzün qorunması vəzifələrinə bilavasitə bağlı olsa da, daha geniş beynəlxalq spektrdə insan hüquqları ideyasını möhkəmləndirən məzmun kəsb edir. Belə ki, bu aksiyaların həyata keçirilməsi ilə dünya insanları imperiya caynağından qopan, yeni yaranmış müstəqil dövlətlərə kobud müdaxilə ilə separatçılıq meyllərini qızışdırmağın, yerli vətəndaşları terrora, qaçqınlığa, heç nə ilə əvəz olunmayan böyük itkilərə məruz qoymağın necə ağır nəticələr verdiyinə şahid olurlar. İnsanların bir-birinə mərhəmət, şəfqət, xeyirxahlıq hissi oyanır, şərə, ədalətsizliyə, haqsızlığa müqavimət hissi səfərbər olur. Azərbaycanlı qızı Leyla xanım Əliyeva Xocalı faciəsi timsalında insanlıq dramına siyasətçilərdən tutmuş adi vətəndaşlara qədər hamını həssas münasibət göstərməyə çağırır.

Heydər Əliyev Fondunun vitse-prezidenti, Fondun Rusiya Nümayəndəliyinin rəhbəri Leyla Əliyeva rəhbərlik etdiyi hərəkatın 5 illik fəaliyyətinin nəticələrini yığcam şəkildə dilə gətirərək deyir: "**"Xocalıya Ədalət!"** kampaniyası çərçivəsində bu müddət ərzində böyük iş görülmüş və nəticələr əldə edilmişdir. Mən son 5 ildə bu kampaniyanın başlıca layihələrindən və nailiyyətlərindən sizə danışmaq istərdim. Ötən 5 ildə dünyanın 70-dən çox ölkəsində hər il Xocalı ilə bağlı konfranslar, sərgilər təşkil olunur. Kampaniyanın saytı 5 dildədir. Bu gün "Xocalıya ədalət!" kampaniyasının çağırışı BMT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) tribunalarından, dünyanın hər yerində universitetlərdə, gənclər klublarında, habelə məscidlərdə, kilsələrdə və sinaqoqlarda səslənir. Bu çağırış cavabsız qalmamışdır. Kampaniya nəticəsində 6 ölkənin və ABŞ-ın 14 ştatının parlamentləri Xocalı faciəsini soyqırımı aktı kimi tanımışdır. Bir neçə gün bundan əvvəl İƏT-in üzvü olan 53 ölkənin parlamentləri xüsusi qətnamə ilə təsdiq etmişlər ki, Xocalıda soyqırımı törədilmişdir. Bundan əvvəl İƏT-in üzvü olan 57 dövlətin başçıları tərəfindən analoji sənədlər qəbul olunmuşdur. Ankara, Sarayevo, Haaqa, Mexiko şəhərlərində Xocalı abidələri ucaldılmışdır... Xocalı haqqında müntəzəm olaraq kitablar çap edilir, bukletlər, məlumatlar nəşr olunur, filmlər çəkilir... Bu gün kampaniyamızın fəaliyyətinin yeni mərhələsi başlanır. Biz əldə etdiklərimizlə kifayətlənmək niyyətində deyilik, irəlidə hələ çox layihələrimiz və tədbirlərimiz vardır. İnanıram ki, dünyada Xocalı hadisələrini soyqırımı kimi tanıyan ölkələrin sayı ildən-ilə artacaqdır. Tezliklə isə dünya birliyi bu faciəyə ədalətli hüquqi və mənəvi qiymət verəcəkdir. XXI əsrdə kütləvi qətllərə, qanlı qırğına və soyqırımına yer olmamalıdır... Zaman göstərmişdir ki, Azərbaycan xalqının ruhu

qırılmamışdır. Çünki, Azərbaycan xalqının ruhunu heç vaxt heç kim heç nə ilə qıra bilməz. İnanıram ki, Azərbaycanın ərazi bütövlüyü tezliklə bərpa olunacaq, bütün qaçqınlar və məcburi köçkünlər doğma yurd-yuvalarına, doğma torpaqlarına qayıdacaqlar" **(http://www.leyla-aliyeva.az/activity?cat =7#.Uz5Jjqh_tyw).**

Leyla Əliyevanın fəaliyyətinin əsas platformasını təşkil edən humanizm – müharibə və konfliktlərin yaratdığı faciələrə sipər çəkmək iradəsini əks etdirdiyi üçün, görün ətrafına dünyada nə qədər tərəfdaş (onların da ön cinahını gənclər – gələcəyin mübarizləri təşkil edir) toplayıb! Kampaniyanın Xocalı faciəsini soyqırım aktı və insanlığa qarşı cinayət kimi tanımaq tələbi irəli sürən Müraciətini artıq bütün dünyada on minlərlə insan imzalayıb! Azərbaycan milli mənəviyyatının ən yaxşı dəyərlərini – vicdan, ədalətlilik, mübarizlik, insansevərlik keyfiyyətlərini özündə birləşdirən Leyla xanım Əliyevanın fəaliyyəti həqiqətən də dünya birliyində, siyasətdə və əxlaqda humanizm tendensiyasını dərinləşdirən proseslərin mühüm tərkib hissəsidir. Leyla xanım Əliyevanın humanitar istiqamətdəki fəaliyyəti mədəniyyət və incəsənət sferalarını da əhatə etdikcə, həmin fəaliyyətin konturları genişlənir, ideya və məzmun cəhətdən konseptuallaşır. Onun təqdimatında qoyulan problemlər həmişə ürəkdən gəldiyi və reallığı əks etdirdiyi üçün, auditoriyanın da yüksək səmimiyyəti və ilıq reaksiyası ilə qarşılanır. Leyla xanım Əliyeva beynəlxalq məclislərdə Azərbaycan həqiqətlərindən, Azərbaycanın Qarabağda tapdalanan haqqından danışır. Bu sözlər zərif bir azərbaycanlı qadının dilindən deyilsə də, qılınc kimi kəsərli olur. Onun nitqlərinin məntiqi qarşısında insanlığa düşmənliyin çürük ideologiyası tərksilah vəziyyətinə düşür. Leyla xanım Əliyevanın müasir dünyanın mütərəqqi humanizmini dəstəkləyən və irəli aparan fəaliyyəti gerçəkdən güclü iradənin və tükənməz enerjinin təcəssümüdür.

Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunun Elmi Şurasının qərarı ilə nəşr edilmiş yazıçı-publisist, əməkdar jurnalist Vasif Səmədov və tanınmış alim, professor Rövşən Vəlizadənin "Leyla Əliyeva: "Xocalıya Ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model)" 3 cildlik monumental kitabı da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi altında fəaliyyət göstərən "Xocalıya ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kampaniyasının 5 illiyinə həsr edilmişdir. Bu yaxınlarda geniş elmi ictimaiyyətin, dövlət nümayəndələrinin iştirakı ilə həmin üçcildliyin ilk iki cildinin təqdimatı keçirilmişdir. Aktual mövzu və

problematikası ilə diqqəti cəlb edən bu kitab haqqında Azərbaycan və xarici kütləvi informasiya vasitələrində sanballı məqalə və resenziyalar çap edilmiş, dolğun rəylər səslənmişdir. Mənim məmnuniyyətlə redaktoru olduğum üçüncü cildi də artıq nəşr olunur. ***Sonuncu cildin özünəməxsusluğu ondadır ki, burada "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kampaniyasının beş illik fəaliyyətinin nəticələrinin dəyərləndirilməsinə xüsusi diqqət verilmiş, əgər belə demək mümkünsə, 100 illik erməni təbliğatını alt-üst edən beş yaşlı "Xocalıya ədalət!" hərəkatının milli, regional və beynəlxalq səviyyələrdə gördüyü işlərin əhəmiyyəti üzə çıxarılmışdır.***

"Xocalıya Ədalət!" Kampaniyasının rəhbəri Leyla xanım Əliyevanın sərrast qeyd etdiyi kimi, ermənilər bu cinayətləri "XX əsrin sonlarında, düz Avropanın kandarında törətmişlərsə", deməli, erməni separatçıları dünyaya sırımaq istədikləri yalanların tam əksinə olaraq, bəşəriyyəti irəli aparanların – suverenitet və demokratiyaya ehtiram bəsləyənlərin, insanlıq dəyərlərini uca tutanların, müharibəyə "Yox!" deyənlərin deyil, bəşəriyyəti geriyə çəkənlərin – daim savaş və konfliktlərdən bəhrələnənlərin, qan və göz yaşlarına susayanların, humanizmin bütün əxlaqi, mənəvi və siyasi dəyərlərini əzib-tapdalayanların yanındadırlar. Kitabın ortaya qoyduğu danılmaz faktlar bir daha sübut edir: əslində, "Böyük Ermənistan" və "fövqəlermәniçilik"– arxaik imperializmin bir fiksiyasıdır ki, hamıdan çox elə ermənilərin özü bu xəstə təxəyyüllərinin ilğım-obrazından ziyan çəkmişlər. Ermənilər tarix boyu dövlətlərarası münasibətlərin qaydalarını riyakarlıqla pozduqlarından və ən yaxın qonşularına belə xəyanətkar pusquda durduqlarından, özlərinə heç bir etibarlı dost-xalq qazana bilməmiş, həmişə böyük dövlətlərin yedəyində getməyə, daha doğrusu, sürünməyə özlərini məhkum etmişlər. Ona görə də qonşularının torpaqları hesabına "böyük dövlət" olmaq arzuları həmişə gözlərində qalmışdır. Ancaq bu arzu öz nüvəsində kin, nifrət, qəddarlıq, hiylə, yalan, rəzalət, düşmənçilik, siyasi əxlaqsızlıq alovunu kükrədərək həmişə ətrafına zəhər saçmışdır. Bu zəhərin region dövlətlərinin sağlam atmosferini bütün mənalarda (psixoloji, siyasi, diplomatik, hərbi-ekspansionist, bakterioloji...) necə korladığını kitab əyani faktlarla sübuta yetirir.

"Leyla Əliyeva: "Xocalıya Ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model)" əsəri, ilk növbədə, Azərbaycanın ayrılmaz parçası Qarabağın işğaldan azad edilməsi uğrunda ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən ideoloji-diplomatik mübarizənin

hazırkı mərhələsində həmin prosesə təkzibolunmaz fakt və dəlillər arsenalı verməsinə görə böyük əhəmiyyət daşıyır. Bu kitab, heç bir şübhə yeri qoymadan, tam mənası ilə sübut edir ki, Ermənistan və onun havadarlarının qabaqcadan planlaşdırılmış ssenari əsasında Azərbaycanın Qarabağ ərazisini işğal etmələri əvvəldən axıradək qanlı cinayətlərlə baş tutan proses olmuşdur; torpağı zəbt edilən bir ölkənin müdafiəsiz insanları, ən elementar beynəlxalq hüquq normaları tapdalana-tapdalana, ən antihumanist üsulların amansız tətbiqi ilə qırılıb-çatılmışdır; burada yalnız bir məqsəd olub: İnsanları öldürmək və onların yaşadığı Torpağı ələ keçirmək! Bu prosesin hər iki xəttində – həm müstəqil bir dövlətin – Azərbaycanın Qarabağ ərazisinin işğal edilməsində, həm də hərbi konfliktdə iştirak etməyən silahsız dinc əhalinin soyqırıma uğradılmasında Ermənistan və onun havadarları beynəlxalq hüququn bütün prinsiplərini pozmaqla, azərbaycanlılar nümunəsində bütün insanlığa qarşı böyük cinayət işləmişlər. – İndi zaman çatıb: Dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da qanlı cinayətlərə yol vermiş İnsanlıq Qatilləri cəzalandırılmalı və yalnız özgə torpaqlarını tutmaq məqsədləri ilə həyata keçirilən işğalçılıq faktı qətiyyətlə təsdiq edilərək, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır.

Bu mənada Vasif Səmədov və Rövşən Vəlizadənin müəllifləri olduğu bu kitab Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin irəli sürdüyü (Cənab Prezident bəyan edir: "Bu gün dövlətin rəsmi qurumları ilə yanaşı, bütün vətəndaşlarımız, soydaşlarımız, geniş ictimaiyyət Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı siyasəti haqqında həqiqətlərin və faktların dünya parlamentlərinə, beynəlxalq ictimaiyyətə çatdırılması üçün ardıcıl və davamlı fəaliyyət göstərməlidirlər") vəzifələri tam yerinə yetirir və Leyla Əliyevanın 5 il öncə başladığı və artıq dünyanın 50-dən artıq ölkəsinin qoşulduğu "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının humanist mahiyyətini bütün aspektləri ilə göstərərək, insanlığın bu çağırışına daha biganə qalmağın mümkün olmadığını və ermənilərin həm episentr kimi Azərbaycan ərazisində, həm də dünyanın başqa yerlərində törətdiyi beynəlxalq terror aktlarına qanunla adekvat tədbir görülməsi tələbindən çıxış edir.

Vasif Səmədov və Rövşən Vəlizadə ermənilərin soyqırım siyasətinin anatomiyasını açaraq, ədalətə söykənən insanlığı həmin siyasətin yeridilməsi prosesində baş verən hadisələrə, işlədilən amansız texnologiyalara diqqət yetirməyə çağırırlar. Bu faktlar göstərir ki, ermənilər öz məqsədlərinə

çatmaq üçün heç nədən çəkinməmişlər. Müəlliflər Dağlıq Qarabağda, Xocalıda qırğınlar törətmiş 366-cı alaydakı 02270 saylı hərbi hissənin əks-kəşfiyyat şöbəsinin rəisi Vladimir Savelyevin 8 il ərzində (1992 – 2000) BMT, Avropa Şurası, Baş Kəşfiyyat İdarəsi və s. instansiyalara təqdim etdiyi "Məxfi arayışı" və onun ətrafında cərəyan edən hadisələri analitik təhlildən keçirirlər. Xocalı genosidindən dəhşətə gəlmiş bir hərbçi-kəşfiyyatçının bu etiraf-sənədi rus və ermənilərdən ibarət olan həmin alayın necə və hansı şəraitdə yalnız azərbaycanlılardan ibarət olan bu yaşayış məntəqəsini və onun çoxsaylı əhalisini məhv etməsini bəlli edir.

Kitabın müəllifləri araşdırmaları ilə o reallığa da aydınlıq gətirirlər ki, həqiqətən də erməni terrorizminin episentri – Azərbaycandır və bu dağıdıcı zəlzələnin dalğaları bütün dünyaya yayıldığından, o, mahiyyətcə beynəlxalq terrorizmdir: beynəlxalq erməni terrorizmi dünyanın bir çox ölkələrində şəbəkələnmiş, başlıca olaraq, dünyanın türk dövlətlərinə (əsasən, Azərbaycan və Türkiyəyə) qarşı funksiyalaşdırılmış cinayətkar bir qurumun təhlükəli ideologiyasıdır; beynəlxalq erməni terrorizmi sözün əsl mənasında təkcə ayrı-ayrı dövlətləri təhdid edən hadisə deyil, beynəlxalq təhlükəsizliyin özünü sarsıdan, beynəlxalq səviyyədə sabitliyi, dinc-yanaşı yaşamaq prinsiplərini pozan, dövlətlərarası münasibətləri dramatikləşdirən, dünya birliyinə doğru inkişafı ləngidən və xüsusilə milli dövlətlərin suverenliyinə yönəlmiş fəaliyyətləri təhrik edən antihumanist təmayüldür.

Kitabın əsas mövzusu Xocalı soyqırımı olsa da, əslində, o, bütün Qarabağ faciəsini bütün spektrləri və kəskinliyi ilə əks elətdirir. Burada nə tarix, nə psixologiya unudulur: bəlli edilir ki, ermənilərin Azərbaycana qarşı torpaq iddiaları, azərbaycanlılara qarşı əsassız qisasçılığı və absurd düşmənçiliyi etnopsixologiyanın dərin qatlarında cücərdilərək, zaman-zaman yeni nəsillərə ötürülür. Bu isə tarixdə bənzəri olmayan xəstə erməni mənəviyyatının hər dəfə yeni riyakarlıq qiyafəsində, lakin köhnə xislətində peyda olmasına gətirib çıxarır. Ona görə də 1918-ci ildə yenə də rus şovinistlərinin əli və silahı ilə Azərbaycanda qırğınlar törətmiş erməni ilə 1992-ci ilin fevralında Xocalıda soyqırımını həyata keçirən erməni arasında heç bir fərq yoxdur. Müəlliflər hətta genetikanı zədələyən səbəbləri ortaya çıxararkən, alimlərin gəldiyi müvafiq elmi nəticələrə də istinad edirlər. İngilis psixoloqu Maykl Frayd Rusiya Federasiyasının erməni məktəblərində apardığı tədqiqatları digərləri ilə müqayisə edərək yazır: "Rusiya Federasiyasında günəşin rəngini, Orta Asiyada Ay işığından tökülən rəngi, Ermənistanda qara rəngi, Gürcüstanda narıncı rəngi, Azərbaycanda isə

dənizin tünd mavi rəngini çox sevirlər. Mənim ən çox qorxduğum qara rəngdir. Çünki qara rəng gen kodlarını terrora hazırlayır" (I c., s. 181).

Kitabın müəllifləri də ermənilərin qara rəngli beynəlxalq terrorunu insanlığa yağı kəsilmiş təhlükə mənbəyi kimi xarakterizə edərək, onların bütün əməllərinin "düyün nöqtəsi" olaraq Xocalı faciəsini önə çəkirlər. Müəlliflər göstərilən fakt üzrə Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunun Ekspert Komissiyasının hazırladığı siyasi-hüquqi sənədə istinad edərək, Xocalı soyqırımının beynəlxalq cinayət kimi səciyyəsini verir, həmin soyqırımın belə bir statusda tanınmasının beynəlxalq hüquqi bazasını və nəticələrini müəyyən edirlər: "...Beləliklə, ermənilər tərəfindən Xocalı əhalisi olan etnik azərbaycanlılara qarşı törədilmiş bütün əməllər beynəlxalq hüquq sənədlərinə uyğun olaraq soyqırım kimi qiymətləndirilir və beynəlxalq hüquq prinsiplərinə görə bəşəriyyətə qarşı cinayət sayılır" (I c., s. 175).

Ümumən Qarabağda, konkret olaraq Xocalıda törədilən müharibə cinayətlərinin, soyqırım aktlarının tarixi köklərini və hazırkı reallıqlarını təhlil edən müəllif-analitiklər həmin cinayətlər prosesinə və 20 ildən artıq davam edən işğal faktına dünya ictimaiyyətinin diqqətini yönəldərək, beynəlxalq erməni terroruna qarşı müqavimət hərəkatını formalaşdırmış "Xocalıya Ədalət!" kampaniyasının həm xalqımız, həm də bütövlükdə tərəqqipərvər bəşəriyyət üçün böyük önəm daşıyan fəaliyyətini qiymətləndirirlər. ***Göstərirlər ki, "Xocalıya ədalət!" strateji proqramı – bütün platformasına görə zülmə, ədalətsizliyə qarşı fəal mübarizə hərəkatının layihəsidir; "Xocalıya Ədalət!" beynəlxalq aksiyası – bütün dünyada əzilən, günahsız, təqib olunan, qaçqın və köçkün halına düşən, evlərini, yurdlarını, doğmalarını itirən, işgəncələrə məruz qoyulan milyonlarla insanın faciəli həyat durumuna həssaslığı özündə əks etdirən humanist ideologiyanın həyata keçirilməsidir; "Xocalıya Ədalət!" nidası – bir körpənin belə qana boyanmış telini görmək istəməyənlərin, əksinə, terroru, qanı, dağıntını, fəlakəti vasitə sayanları haqq divanına çəkməyə qüdrəti çatanların getdikcə güclənən səsidir; "Xocalıya Ədalət!" harayı – 2012-ci ilin 22 noyabrında Vatikan qəzetinin yazdığı kimi, "bəşəriyyətin, bütün əsrlərin çağırışıdır"; «Xocalıya Ədalət!" çağırışı – XXI əsrin dövlətləri və xalqlarının bir-birinə ehtiram ruhunda inkişaf edən münasibətlərinə sədaqətin ifadəsidir! Azərbaycan öz kökündən, tarixindən gələn məhz belə yenilməz mənəviyyata, mərd mübarizə əxlaqına malikdir!***

Həmin mübariz əxlaqa sədaqətlə yazılmış kitabın üçüncü cildi hələ ictimaiyyətə bəlli olmayan bir çox faktların üzə çıxarılması baxımından olduqca əhəmiyyətlidir. Məsələn, kitabın "Millətçi ermənilər ifşa edən faktlar, etiraflar" bölümündə tanınmış erməni mütəfəkkiri, öz milli tarixinə şovinist həmvətənlərindən fərqli olaraq, tamamilə realist yanaşan Ovanes Tumanyanın 1910-cu ildə çap edilmiş "Bədnam xalq" əsəri təqdim olunur. Bu tipli faktlar bir daha təsdiqləyir ki, erməni riyakarlığı hətta onların özlərinin əsil ziyalılarını, yaradıcı adamlarını da bezdirib və ümumiyyətlə, erməni ictimai-siyasi dünyagörüşü dərin ziddiyyət və böhranlar içərisində boğulur. "Erməni mənşəli dünya alimləri və elmi ictimaiyyət tarixi həqiqətləri saxtalaşdırmaqda erməni həmkarlarını ittiham edirlər" bölümündə isə mövzunun adından da göründüyü kimi, erməni saxtakarlığına qarşı onların öz dilindən amansız faktlar ortaya çıxarılır, elmi meyarlara ehtiram bəsləyən dünya alimləri tərəfindən ermənilərin quraşdırdığı "tarix" və "həqiqət" rədd edilir. Ermənilərin ardıcıl olaraq rədd edilən, yalnız gerçək tarix və həqiqətin təhrif edilməsindən ibarət olan mövqelərini bu gün "dəstəkləmək" artıq dünya alimləri, siyasətçiləri, publisistləri tərəfindən absurd sayılır və getdikcə mümkünsüzləşir. Müasir dünyanın dəyişən və yeniləşən siyasəti də Azərbaycanın bütün cinahlar üzrə apardığı böyük və yenilməz mübarizənin nəticəsi olaraq, təbii şəkildə yalan təməlli erməni mövqeyini qorumaq üçün artıq heç bir dayağın qalmadığı reallığına və dövlətimizin haqq işini müdafiə etməyin zərurətinə gəlməkdədir.

Geniş ictimaiyyətə təqdim olunan bu üçcildlik kitabın müasir tariximiz və mədəniyyətimiz üçün, eləcə də gənclərimizin hərbi-vətənpərvərlik ruhunda tərbiyə edilməsində əhəmiyyəti həqiqətən böyükdür: ondan orta və ali məktəb müəllimlərindən, şagird və tələbələrdən, əsgər və zabitlərdən tutmuş dövlət məmurlarına, diplomatlara qədər hamı yetərincə istifadə edə bilər. Buna görə də onun Mədəniyyət və Turizm Nazirliyinin, Təhsil Nazirliyinin xətti ilə ölkəmizin bütün kitabxanalarına yerləşdirilməsi, xüsusilə müəllim və tələbələrin, şagirdlərin mütailə etmələri və eyni zamanda tədris vəsaiti kimi istifadə olunması, Xarici İşlər Nazirliyinin xətti ilə beynəlxalq təşkilatlara, elmi-siyasi tədqiqat mərkəzlərinə, diplomatik korpuslara çatdırılması, Diasporla İş üzrə Dövlət Komitəsinin xətti ilə dünya azərbaycanlıları arasında yayılması, beynəlxalq konfransların aktual mövzu və problemlər sferasına gətirilməsi və xüsusilə, Birləşmiş Millətlər Təşkilatının rəsmi dillərinə tərcümə edilməsi zəruridir. **Qan yaddaşı ilə yazılmış bu əsər həm ölkəmizdə, həm də xaricdə milli dünyagörüşünə malik olan, Vətən**

torpağının bütövlüyünü düşünən və onun uğrunda fədakar mübarizəsini əsirgəməyən hər bir azərbaycanlının stolüstü kitabı olmalıdır.

Vasif Səmədov və Rövşən Vəlizadənin «Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının faktlar qaynağı saydığımız bu sanballı tədqiqatı Qarabağ uğrunda **vuruşan kitab-silah** funksiyasında nəinki indi, nəinki Qarabağ işğaldan azad edilən prosesdə, hətta azad edildikdən sonra da gərəyimiz olacaq. Çünki ermənilər çox məkrlidir. Azərbaycanın ərazi bütövlüyü bərpa olunandan sonra da məhz belə güclü faktlar arsenalı ilə gələcək mübarizələrə hazır olmalıyıq!.. *Qarabağ uğrunda mübarizənin yeni mərhələsində beynəlxalq erməni terroruna qarşı mükəmməl strateji platformanı modelləşdirən bu əsər danılmaz tutarqalar toplusu, hədəf müəyyənliyi ilə Azərbaycan dövlətinin müstəqilliyinə və ərazi bütövlüyünə yönəlmiş və yönələcək hər cür təxribat və təhdidləri önləməyə, ifşa etməyə açar verən bir ideoloji-diplomatik silahdır əlimizdə.*

Rahid ULUSEL
Fəlsəfə elmləri doktoru, professor
Fəlsəfə Cəmiyyətlərinin Beynəlxalq Federasiyasının üzvü

REDAKTORDAN

ƏDALƏT UĞRUNDA MÜBARİZƏNİN BEŞ İLİ

Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü...

Hüseyn Cavid.

Torpaq bizim and yerimiz, vətənimiz, güvəncimiz, taleyimiz, həm də tariximizdir. Dünyaya gələndə beşiyimiz, dünyadan gedəndə məzarımızdır torpaq. Dünən də belə olub, bu gün də belədir, sabah da belə olacaq! Dünya durduqca belə olacaq!

Şəhidlərin məzarsız uyuduğu, qaçqınların ömrünün didərgin düşdüyü, uşaqların göz açıb görmədiyi, üstündə yeriyə bilmədiyi Vətəndir Xocalı torpağı. Dünyanın itməz yaddaşında qanla suvarılan yer, Azərbaycan adlı məmləkətin acı taleyi, əsrin faciəsi, genosid sözü ilə qoşalaşan tarixidir Xocalı. Bətndə ikən həyatı əlindən alınan körpə ürəyinin "yaşamaq istəyirəm!" döyüntüsü, işgəncələrdən, ağlasığmaz qəddarlıqdan qıvrılan qocanın "ölmək istəyirəm..." fəryadıdır Xocalı. Bir şəxsin, bir ailənin, bir nəslin, bir kəndin deyil, bütöv bir elin qətliamıdır Xocalı... Və nəhayətsiz insan hüquqlarından danışıb dünyaya "demokratiya", "ərəb baharı" gətirən sivil dövlətlərin hələ də görə bilmədiyi və ya görmək istəmədiyi insan hüquqlarının, bəlli beynəlxalq normaların pozulduğu məkandır Xocalı!

Bəşər sivilizasiyasının XX yüzilliyində törədilmiş Xocalı soyqırımı qeyri-insani cəza üsulları ilə insanlıq tarixində misli görünməmiş vəhşiliyin, barbarlığın simvoludur. 1992-ci il fevralın 25-də 26-na keçən gecə Xankəndində dislokasiya edilmiş sovet ordusunun 366-cı motoatıcı alayı ilə erməni silahlı qüvvələrinin azərbaycanlı mülki əhalini sistematik və kütləvi şəkildə qətlə yetirməsinə, üzərində işgəncə izləri olan meyitlərin, dərisi soyulmuş, gözləri çıxarılmış insanların, bətni yarılan qadınların, doğulmadan yaşamaq haqqı əlindən alınmış körpə cəsədlərinin

faciə salnaməsinə verilən hüquqi qiymət bu qırğının insanlığa qarşı törədilmiş ən amansız, ən qəddar, ən vəhşi cinayət olduğunu sübut edir. Və bu cinayət – Qarabağda azərbaycanlıların məhvinə yönəldilmiş ssenarinin qanlı Xocalı səhifəsi, Xocalı qətliamı1948-ci il soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın II maddəsinə uyğun olaraq genosid aktıdır. Bu tarixi gerçəklik, vandallıq faktı sübuta ehtiyacı olmayan aksiomdur. XX yüzilliyin sonunda bir daha Ermənistanın öz ərazisində azərbaycanlıları dəhşətli diskriminasiyaya məruz qoyması ilə başlamış və sonra da onun Azərbaycan ərazilərini tutmasına gətirib çıxarmış proseslə müşayiət olunan Xocalı soyqırımı – beynəlxalq hüququn, beynəlxalq sülh və təhlükəsizliyin prinsiplərini pozan Ermənistanın hərbi təcavüzünə, işğalçılıq siyasətinə dünya birliyinin, beynəlxalq ictimaiyyətin sükutunun, etinasızlığının nəticəsidir. Əgər bu Şərə vaxtında sipər çəkilsəydi, Xocalı soyqırımı da olmazdı.

Heç şübhəsiz, Xocalı soyqırımı ilə nəticələnmiş əməllər erməni tarixinin insanlıq adına qara ləkəsi, gələcək erməni nəsillərinin utanc yeri, şovinist, faşist babalarına ittiham və lənəti olacaq!

Xocalı soyqırımı erməni millətçilərinin və onların havadarlarının əsrlər boyu Azərbaycan xalqına qarşı apardığı etnik təmizləmə və soyqırım siyasətinin məqsədyönlü, planlı şəkildə davamı, 1905-1907-ci illərdəki vəhşiyyətin, 1919-cu il mart qırğınlarının, terror aktlarının və dünyanın müxtəlif ölkələrində türklərə yönəlmiş təcavüzkarlıq fəaliyyətinin yeni tarixi mərhələsidir.

Rusiya İmperiyasının Qafqazda yaratdığı Ermənistan tərəfindən azərbaycanlılara qarşı aparılan etnik təmizləmə siyasəti ilk dəfə XIX əsrin əvvəllərinə təsadüf edir. Bu siyasətin – soyqırım taktikasının tarixi kökləri bilavasitə həmin imperiyanın işğal etdiyi Azərbaycan ərazisində ermənilərin kütləvi məskunlaşdırılmasına və siyasiləşdirilməsinə söykənir. Dağlıq Qarabağ münaqişəsinin tarixdəki bəlli izlərini araşdırarkən görürük ki, ermənilər Cənubi Qafqazda məskunlaşdığı andan öz havadarlarına arxalanaraq "Dənizdən-dənizə böyük Ermənistan" mifini reallaşdırmağa çalışmışlar. Bu məkrli siyasətin, işğalçılıq niyyətlərinin təzahürü olaraq zaman-zaman qonşuları ilə münaqişələr aparmış, əsassız olaraq torpaq iddialarına qalxmışlar. Nəticədə, azərbaycanlıların tarixi ata-baba yurdları olan indiki Ermənistan ərazisində dövlət qurmalarına yol açmışlar. Vaxtilə, bu "çoxəsrlik arzu"nu həyata keçirmək məqsədi ilə tarixi abidələri və tarixin özünü zorla ermənilərə, hətta, Tbilisini və Gürcüstanı qədim erməni əraziləri elan edənlərə qarşı gürcü mütəfəkkiri İ.Q.Çavçavadze "Erməni alimləri və göz yaşı tökən daşlar" kitabında (Tiflis, 1902, rus dilində) çox tutarlı cavab vermişdir. Başqa xalqların varlığını və tarixini təhrifetmə, mənimsəmə üsulu ilə mifik dövlət yaratmaq

ideyasını bir çox erməni inqilabçıları, ziyalıları da ağlasığmaz cəfəngiyat adlandıraraq tənqid etmişlər. Məsələn, hələ keçən əsrin əvvəlində Arsen Əmiryan "Bakinskiy raboçiy" qəzetinin 1918-ci il 25 may tarixli sayında "Daşnaksutyun və Müsavat" məqaləsində qırğınlar törədəcək bu siyasəti kəskin şəkildə tənqid atəşinə tuturdu. ***(Bax: Mənim fikrim. Publisist düşüncələr. Tərtib edəni: Ç.Əlioğlu. Bakı,1991)***

1918-1920-ci illər Şərqdə ilk parlamentli respublika olan ADR-in fəaliyyəti dövründə də beynəlxalq imperializmə, terrora xidmət edən daşnak partiyasının ideologiyasının təhlili göstərir ki, erməni şovinistləri öz köhnə məqsədlərinin həyata keçməsi uğrunda ardıcıl mübarizə aparır, Azərbaycandan ərazi qoparmaq iddialarında möhkəm dayanırdılar. Bakıda, Qarabağda, Şamaxı, Quba qəzalarında, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində də xüsusi qəddarlıqla baş verən qırğınlar etnik təmizləmə siyasətinin təzahürləri idi. Bu gün Qubada soyqırım qurbanlarının ziyarət, anım yerinə çevrilən kütləvi məzarlıq erməni genosidinə dair əsaslı fakt, sübutdur.

Həmin dövrün mətbuat səhifələrini vərəqləyərkən, M.Ə.Rəsulzadə, Ö.F.Nemanzadə, C.Hacıbəyli, Ə.Hüseynzadə, Ü.Hacıbəyli kimi publisistlərin yazılarını oxuyarkən görürük ki, zaman dəyişsə də, dərd həmin dərd, bəla həmin bəladır ki, davam edir. "Böyuk Ermənistan" xülyasını həyata keçirmək üçün Azərbaycanı parçalamağa, torpaqlarını işğal etməyə, əhalisini qırmağa cəhd edən qəddar, hiyləgər, təcavüzkar erməni millətçilərinin niyyətini uzaqgörənliklə duyan və onlara layiqli cavab verən millət fədailərinin, ədiblərin siyasi məzmun daşıyan əsərləri yazıldığı dövrdəki qədər də əhəmiyyətli və aktualdır.

"Əyri yol", "Qarabağ haqqında", "Fitnələr qarşısında", "Eyni müamilə gözləyirik", "Qara təhlükə", "Qarabağ hadisatı", "Andranikin məsələsi", "Kirimirlər", "Nə istəyirlər" və s. publisistik məqalələrində ermənilərin iç üzünü açan Ü.Hacıbəyli "Eyni müamilə gözləyirik" məqaləsində qeyd edirdi ki, bədnam planlarını, terror aksiyalarını həyata keçirməkdə olan ermənilərin arxasında xarici bir qüvvə, xüsusi dəstək və gözəgörünməz əl vardır. Yoxsa, "Qarabağ ermənilərinin Azərbaycan hökumətinə tabe olmamaq qəsdilə göstərməkdə olduqları inad həyasızlıq dərəcəsinə çatmazdı" ***(Ü.Hacıbəyli. Fitnələr qarşısında. Bakı, 1995).***

Ü.Hacıbəyli "Azərbaycan" qəzetində çap olunan publisistik əsərlərində dəfələrlə xalqı ehtiyatlı olmağa, istiqlaliyyəti hər cür təcavüzdən qorumağa çağırırdı. Bu yazıları indi oxuduqca, Sovet imperiyasının onlara nə üçün qadağa qoyduğunu anlamağa başlayırsan. Və bir də ona heyran qalırsan ki, Ü.Hacıbəylinin əsas mövzu dünyası həmişə Azərbaycanın azadlığı, ona qarşı yönələn təhlükənin dəf olunması üçün xalqın gözünü açmaq niyyəti olub. Erməni daşnaklarının böyük

faciələr yarada biləcək niyyətlərini, millətin üzərində yaranan qara təhlükəni hiss edən **Ü.Hacıbəyli "Azərbaycan" qəzetində** xalqı ehtiyatlı olmağa çağırıb yazırdı: *"Ermənilərə etibar yoxdur: çünki daşnaklar bu milləti etibarsız bir dərəcəyə çatdırıblar. Silahlı üsyanlar törətmək və müharibəyə səbəb olmaq üçün bunlar aşkar və gizli işlər görüb bizi qafil edə bilərlər. Bu qəflət nəticəsində başımıza bəlalar gələ bilər". **(Ü.Hacıbəyli. Fitnələr qarşısında. Bakı, 1995)*** Çox təəssüf ki, Üzeyir bəyin bu gün eyni ağrı və həyəcanla səslənən xəbərdarlığından yetmiş il bixəbər olub qoynumuzda əfi ilan bəsləmişik.

Hələ əsrin əvvəllərində bugünkü faciələrimizi görən Üzeyir bəy təəssüflə qeyd edirdi: "İndiki işlərimizə baxanda və indiki mövqeyimizi nəzərə aldıqda, gələcəyimizin halı fəna görünür. Erməni-müsəlman ixtişaşı xüsusilə, bizdən ötrü böyük bir zərbə oldusa da və bizi qəflət yuxusundan oyandırdısa da, görünür ki, bir dəfə göz açmağa ixtifa edib təkrar mürgüləməyə başladıq".

SSRİ zamanında azərbaycanlılara qarşı deportasiyalar, Dağlıq Qarabağın Azərbaycanın idarəçiliyindən alınıb Moskvaya tabe etdirilməsi mərkəzi hakimiyyətin birbaşa dəstəyi ilə baş verirdi. Sovet dönəmində də öz çirkin məqsədlərinə çatmaq üçün ermənilər çaxnaşmalar törətmiş, müxtəlif terror vasitələrindən istifadə edərək, siyasi avantüra yolu ilə, müxtəlif diplomatik vasitələrlə ayrı-ayrı təşkilat və qruplarla əlaqəyə girərək azərbaycanlıların kütləvi qırğınlarına səbəb olmuşlar. Bu dövrdə daşnaklar müxtəlif yollarla elm adamlarına, yazıçı və publisistlərə təsir etməklə "Böyük Ermənistan" mifini reallaşdırmaq üçün ideoloji zəmin hazırlamağa çalışırdılar. Belə ki, bütün qədim xristian abidələrini ermənilərə aid etmək, bu ərazidə yaşayan xalqları "ermənilərin ulu babası" kimi tanıtmaq üçün hər cür alçaq vasitələrlə elmi təhriflərə əl atırdılar. Lakin təkcə Azərbaycan alimləri deyil, sovet, eləcə də, dünya alimləri ermənilərin bu ərazilərə gəlmə olduqlarını elmi əsaslarla sübut etmişdilər. **Görkəmli sovet alimi İ.M.Dyakonov** məqalələrinin birində ermənilərə cavab olaraq yazırdı: *"N.Xaçaturyan və başqaları yalnız Ermənistan yaylasında erməni dilində danışanları öz əcdadları hesab edirlər; bu müəlliflər görünməmiş tərzdə buradakı qədim əcdadların öz vətənlərində yaratdıqları böyük sivilizasiyaların varisliyindən imtina edirlər. Həm də o fikirlə ki, onlar erməni dilində danışmamışlar". **(Bax: Mənim fikrim. Publisist düşüncələr, Tərtib edəni: Ç.Əlioğlu. Bakı, 1991)***

Məşhur tarixçi alim V.İşxanyanın hələ 1916-cı ildə Sankt-Peterburqda dərc etdirdiyi "Narodnosti Kavkaza" məqaləsində yazdığı kimi, "...ermənilərin lüğətində heç vaxt vətən sözü olmayıb. Onlar tarix boyu Kiçik Asiyadan və Rusiyadan kənarda, Fərat çayının yuxarı qolu olan Qaraçay sahillərində, Frakiya və Mesopatomiyada pərakəndə dəstələr şəklində yaşayıblar. *Onların*

Zaqafqaziyaya qətiyyən dəxli yoxdur. Onların Azərbaycan və Dağlıq Qarabağ haqqındakı iddiaları qeyri-qanuni və əsassızdır". Bu fikirləri ermənilərin öz tarixçi alimləri Makuk Abekyan, K.Patkanyan, rus alimi Yuri Pompeyev, Qafqaz tarixi üzrə məşhur Amerika mütəxəssisi Tadeuş Svyataxovski də təsdiqləyir ***(Bax: М.Сеидов. Армянский вандализм. Новосибирск, 2010.)***

Odontologiya sahəsində aparılan tədqiqatlar da eyni nəticəni təsdiq edir: "Etnik odontologiya erməni etnosunun "Qafqaz mənşəli olduğunu" təsdiq etmir" ***(Bax: Koçiev R.S. Zakavkazya i Severnıy Kavkaz. - V kn.: Etniçeskaya odontoloqiya SSSR. Moskva, 1970, s. 135, 141).*** Rus qafqazşünası İ.Şopen isə daha konkret və birmənalı nəticəyə gəlmişdi: ermənilər gəlmədirlər; onlar frigiyalıların qərbdən, yəni Avropadan Anadolu dağlarının Şimal vadilərinə köçüb gəlmiş nəsilləridir ***(Bax: Şopen İ. Novıe zametki na drevnyu istoriyu Kavkaza i eqoobitateley. S.-Peterburq, 1896, s.26).*** Bu mənbələr, tarixi faktlar ermənilərin torpaq iddialarının əsassız olduğunu bir daha sübut edir.

Ermənistan-Azərbaycan münaqişəsinin kəskinləşdirilməsi faktlarının müəlliflərindən və təşkilatçılarından olan Z.Balayan, S.Xanzadyan, S.Kaputikyan və başqaları on illərlə azərbaycanlılara qarşı ideoloji təxribat apararaq iğtişaşlar yaradır, Dağlıq Qarabağı Ermənistana birləşdirməyə çalışırdılar. Erməni yazıçısı Bahaqn Davtyan "Vicdanın hökmü" ***(Bax: "Qrakan tert", 25 mart, 1988, Mənim fikrim. Publisist düşüncələr. Bakı,1991)*** məqaləsində qonşu torpağına göz dikən vicdansız həmvətənlərinə müraciət edərək yazırdı: " ...ağ bayraq qaldırmalıyıq və bu məğlubiyyət bayrağı deyil, mənəviyyat, təmiz vicdan bayrağı olmalıdır. Bilirəm ki, adamların bu gərginləşmiş vəziyyətində mənim sözlərimi şübhə ilə qarşılayanlar da tapılacaq və hətta məni vəziyyətə tabe olmaqda günahlandıranlar da olacaq. Lakin mən öz sözümü deyirəm, inanıram ki, insan vicdanı səhvlərdən xalidir, inanıram ki, vaxt gələcək və mən öz vicdanım qarşısında xəcalət çəkməyəcəyəm".

1991-ci ildə Azərbaycan müstəqilliyini əldə etdikdən sonra münaqişə Ermənistanın hərbi təcavüzü müstəvisinə keçərək Azərbaycan torpaqlarının işğalı ilə nəticələnmiş, onun kulminasiya nöqtəsi olan XX yüzilliyin ən dəhşətli genosidi – Xocalı faciəsi törədilmiş, Dağlıq Qarabağ problemi qloballaşaraq beynəlxalq münasibətlər sisteminin hələ də müzakirə olunan mövzusuna çevrilmişdir. Təəssüf ki, bu gün də məsələnin həllində, obyektiv təhlilində ikili standartlar, hətta dini faktor özünü göstərir, BMT Təhlükəsizlik Şurasının, BMT Baş Məclisinin, Avropa Şurası Parlament Assambleyasının qətnamələri icra olunmur. Bu qətnamələrdə göstərilən "Dağlıq Qarabağ, Xocalı və yeddi ətraf rayon Azərbaycan ərazisinin

ayrılmaz tərkib hissəsidir və bu ərazilər erməni hərbi qüvvələri tərəfindən işğal edilmişdir" faktı isə izaha ehtiyacı olmayan postulatdır.

Bu gün sülh və danışıqlar yolu ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasına çalışan dövlətimizin konstruktiv mövqeyi, yürütdüyü siyasi xətt beynəlxalq aləmə bəllidir. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Qarabağ münaqişəsinin sülh danışıqları ilə həllinə çalışmaq, əslində, Ermənistana edilən ən böyük güzəştdir. Dövlət başçısı birmənalı şəkildə bildirmişdir ki, Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcəkdir: "Bizim əzəli torpağımız olan Dağlıq Qarabağ bu gün siyasi və hüquqi cəhətdən Azərbaycanın ayrılmaz hissəsidir. Ərazi bütövlüyü məsələlərində heç bir güzəştdən söhbət gedə bilməz. Heç vaxt Azərbaycan öz ərazisində ikinci qondarma erməni dövlətinin yaradılmasına imkan verməyəcək". Çünki Azərbaycanın münaqişənin həllində göstərdiyi mövqe, yürütdüyü siyasət tarixi ədalətə və beynəlxalq aləmdə qəbul olunmuş hüquqi normalara əsaslanır. Beynəlxalq aləmdə tanınan bir çox ziyalılar, alimlər Azərbaycanın tutduğu mövqeyi dəstəkləyir, ədalət naminə öz sözlərini deyirlər. Alman alimi X.Kryuqerin, Polşanın Kpakov Universitetinin professoru A.A.Merejko, Moldovanın ombudsmanı Aurelio Qriqori, Xocalıda azərbaycanlıların soyqırımına qarşı etirazını bildirən ilk rusiyalılardan biri, yazıçı, "Qarabağın qanlı girdabı" kitabının müəllifi Yuri Pompeyev çıxışlarında, əsərlərində Dağlıq Qarabağ probleminə toxunaraq Ermənistanın təcavüzkarlıq siyasətini tənqid edir, dünya dövlətlərini bu problemin beynəlxalq hüquq normalarına uyğun, haqq-ədalət meyarlarına uyğun həllin yoluna səsləyirlər.

Bu gün Xocalı faciəsinin Ermənistanın Azərbaycana və azərbaycanlılara qarşı məqsədyönlü soyqırım siyasətinin bir hissəsi kimi beynəlxalq cinayət faktı olaraq dünya birliyinə çatdırılması dövlətimizin mühüm vəzifələrindəndir. Xocalı qətliamına müvafiq hüquqi-siyasi qiymətin verilməsi, onun səbəbkarlarının cəzalandırılması isə zəfərini gözləyən ədalətdir.

"Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının fəaliyyət istiqamətlərindən biri də Qarabağ müharibəsinin ən qanlı və dəhşətli səhifələrindən biri, 1992-ci ilin fevral gecəsi baş verən qətlamın dünya ictimaiyyəti tərəfindən genosid faktı kimi elmi-siyasi, hüquqi təhlilinə yönəlmiş konfransların, layihələrin, tədbirlərin keçirilməsidir. Bu kampaniya çərçivəsində Bakı Dövlət Universitetində elmi-nəzəri, elmi-praktiki konfransların, dəyirmi masaların təşkil edilib keçirilməsi artıq ənənə şəklini almışdır. Xarici elm adamlarının da qatıldığı konfranslarda nüfuzlu alimlərin məruzələri, çıxışları böyük əhəmiyyət kəsb edir. Bu yaxınlarda universitetdə keçirilmiş "Xocalı soyqırımı beynəlxalq hüqüq müstəvisində: hüquqi və siyasi

təhlil" adlı beynəlxalq dəyirmi masada Qarabağ problemi ətraflı müzakirə edilmiş, yerli və xarici alimlər öz dəyərli fikirlərini söyləmiş, elmi təkliflərin vermişlər. **BDU-nun rektoru, Milli Məclisin deputatı, akademik Abel Məhərrəmov** çıxışında "Xocalıya Ədalət!" kampaniyasının əhəmiyyətindən danışmış və fəaliyyətini yüksək qiymətləndirərək demişdir:

– "Ermənistan və havadarlarının azərbaycanlılara qarşı etnik təmizləmə və genosid əməllərinin, terror aktlarının dəyərləndirilməsi Azərbaycanın müstəqilliyinin bərpasından sonra ümummilli liderimizin siyasi hakimiyyəti və fəaliyyəti dövrünə təsadüf edir. 1998-ci il martın 26-da ulu öndər Heydər Əliyev tərəfindən imzalanan "Azərbaycanlıların soyqırımı haqqında" Fərman, 1994-cü il fevralın 26-da ulu öndərin təşəbbüsü ilə Milli Məclisdə "Xocalı soyqırımı günü haqqında" qəbul edilən qərar erməni millətçilərinin, işğalçılarının əməllərinə verilən dolğun, ədalətli hüquqi-siyasi qiymət olmuşdur. Azərbaycan gəncliyinin, sabahkı nəsillərin milli düşüncəsində yaddaşlaşan bu sənədlər Azərbaycan tarixində erməni məsələsinə münasibətdə yeni strategiyanın başlanğıcı, yeni siyasi kursun təməli olmuş, Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşmişdir. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, bu həqiqətlərin beynəlxalq aləmdə yayılması və qətliama obyektiv qiymət verilməsində Azərbaycanın birinci xanımı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi vurğulanmalıdır. Ermənistanın təcavüzünə, Xocalı genosidinə obyektiv qiymət verilməsi istiqamətində atılan addımlar, həyata keçirilən tədbirlər planı Heydər Əliyev Fondunun məqsədyönlü fəaliyyətində prioritet təşkil edir".

Dağlıq Qarabağ münaqişəsinin nəticələrinin obyektiv işıqlandırılması, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin dünya birliyində ifşası yönündə Heydər Əliyev Fondunun fəaliyyət istiqamətlərindən biri kimi Leyla xanım Əliyevanın rəhbərliyi ilə yaradılan "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kampaniyası Xocalı soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında, kütləvi qırğın aktına hüquqi-siyasi qiymətin verilməsində əhəmiyyətli rol oynayır. Məhz sözü gedən beynəlxalq kampaniyanın son beş ildə sistemli fəaliyyətinin nəticəsidir ki, bu gün dünya dövlətləri əvvəlki illərdən fərqli olaraq erməni qəsbkarlarının insanlığa sığmayan kütləvi qətlləri haqqında daha dolğun məlumatlandırılırlar. Dünyanın nüfuzlu beynəlxalq təşkilatları, aparıcı dövlətləri bəşəriyyətə qarşı yönəldilmiş bu cinayətin əsl mahiyyətini getdikcə daha çox anlayır, qətliamı kəskin şəkildə pisləyir, təcavüzkarla təcavüzə məruz qalanı tanıyırlar.

Həmmüəlliflər Vasif Səmədov və Rövşən Vəlizadə Azərbaycan ictimaiyyətinə təqdim etdikləri bu üçcildlik fundamental tədqiqat əsərində "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kampaniyasının beş illik fəaliyyətinin bütün aspektlərini, konseptual istiqamətlərini, siyasi və humanitar strategiyasındakı milli və ümumbəşəri cəhətlərin vəhdətini dərindən təhlil edir, onun müasir dünya üçün, beynəlxalq həyatda humanizm mövqeyinin güclənməsi üçün göstərdiyi təşəbbüslərin necə böyük əhəmiyyət daşıdığını üzə çıxarırlar. Üçcildlik "Xocalıya Ədalət!" beynəlxalq hərəkatına dəstək aktı kimi, sözün gerçək mənasında sülh və təhlükəsizlik siyasətinə Azərbaycandan olan bir töhfədir.

Kitabın əsas konsepsiyasını belə səciyyələndirmək olar: "Xocalıya Ədalət!" kampaniyası – Azərbaycan xalqının mübarizə ruhunu sarsıtmaq istəyənlərə, Qafqazda müstəqil və güclü bir türk dövlətinin mövcudluğunu gözügötürməyənlərə, erməni terrorçuluğuna və təcavüzünə qarşı hazırlanmış çoxspektrli informasiya mübarizəsi, yeni diplomatik cəbhə, insanlıq dəyərlərinə ehtiram bəsləyən humanist taktikadır. Kitabda üzərində geniş dayanılan Leyla Əliyeva ideyasının fəlsəfəsi ondan ibarətdir ki, millətin azadlığı və bütövlüyü onun mübarizə ruhundadır. Hər ildönümündə Xocalı qurbanlarına göz yaşı töküb onları yad etməklə dünya bizi eşidən, göz yaşımızı silən deyil. Özünə qapanıb ağlamaq millətin mübarizə ruhunu öldürür, əzmini sarsıdır. Sadəcə ağlamaq deyil, dərdimizə, faciəmizə, məruz qaldığımız haqsızlıqlara dünyanı tarixi faktlarla inandırmaq gərəkdir. Xocalı həqiqətlərini, haqq səsimizi dünyaya yaymaq, eşitməyən qulaqlara hayqırmaq gərəkdir: biz dünya ictimaiyyətindən yalnız bunu – cinayətkarlara cəza, XOCALIYA ƏDALƏT istəyirik. Bu mübarizədə millət olaraq bizim silahımız yalnız tarixi həqiqətlər, danılmaz faktlar və onları beynəlxalq birliyə funksional səviyyədə qəbul etdirmək səylərimizdir. Erməni cinayətini, qəddarlığını, vəhşiliyini ifşa edən və Xocalı həqiqətinin bətnindən doğan doğru sözün, düzgün mövqeyin qüdrətini biz son beş ilin nəticələri ilə görürük.

Kitabın III cildində Xocalı qırğınları şahidlərinin, əsir və girov götürülən xocalıların ürəkyandıran, tük ürpədən söhbətlərini dinlədikcə, hekayətlərini oxuduqca, o dəhşətli hadisənin mənzərəsi yaranır göz önündə. Erməni vəhşilərinin, faşistlərinin işgəncələrini hiss edir insan bədənində... Və bir daha əmin olursan ki, Xocalı faciəsi təkcə xocalıların, azərbaycanlıların deyil, insanlıq duyğusu olan hər kəsin qəzəb yeri, nifrət ünvanıdır, bəşəriyyətin yaddaşında arxivləşən qanla yazılmış tarixi bir sənəddir.

Yalnız haqq-ədalətin təntənəsi çağında, milli şərəfimizin zəfər günündə Xocalı şəhidlərinin incidilmiş ruhları rahatlıq tapar, dincələr. "Xocalıya Ədalət!" –

Azərbaycan ərazilərinin işğaldan azad edilməsinə yol açmaq, erməni xalqınınsa həmişə onların özünün və qonşularının başına müsibətlər gətirmiş kor millətçilərinin qondardığı "Böyük Ermənistan" kimi təhlükəli şovinist ideologiyadan xilas olması deməkdir. "Xocalıya Ədalət!" – yer üzünün bütün tərəqqipərvər insanlarını müharibəyə, ədalətsizliyə qarşı birgə çıxmağa səsləyir.

"Xocalıya Ədalət!" kampaniyası Qarabağ həqiqətlərini, münaqişənin həllində ölkəmizin ədalətli mövqeyini və Xocalı soyqırımının acı gerçəklərini bütün incəlikləri ilə dünya ictimaiyyətinin diqqətinə çatdırmaq baxımından, eyni zamanda, erməni terrorçuluğu ilə, yalan və böhtan üzərində fəaliyyət göstərən erməni lobbisi ilə, erməni diasporunun şovinist, separatçı meylli, millətçi qanadı ilə mübarizə aparmaq baxımından olduqca zəruri hərəkatdır, ən yeni tariximizdə insanlıq naminə humanizm konsepsiyasına köklənmiş strateji modelidir, bütün bəşəriyyəti Şərə müqavimət ruhunda səfərbər etməyi bacaran güclü aksiyadır. Faciələrlə üzləşmiş xalqımızın da, qlobal konfliktlərdən əsəbləri gərilən, ruhu tarıma çəkilən dünyamızın da "Xocalıya Ədalət!" kimi qüdrətli platformaya ehtiyacı vardır. Bu platformanın önündə mübariz insan Leyla xanım Əliyevadır, onun ölkəmizdə və dünyadakı məsləkdaşlarıdır!

Kitabda diqqəti cəlb edən məqamlardan biri də budur ki, orada erməni təcavüzünə məruz qalmış, torpaqlarının Ermənistan tərəfindən işğalı nəticəsində öz doğma yurd-yuvasından didərgin düşmüş ***qaçqın və məcburi köçkün həyatını yaşayan vətəndaşlarımızın mədəni-maarif, sosial, ailə və məişət problemlərinin həllində Azərbaycan prezidenti İlham Əliyevin, Heydər Əliyev Fondunun Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və bütövlükdə Azərbaycan hökumətinin çoxşaxəli qayğılarından ətraflı bəhs edilir, maraqlı təhlillər verilir.***

Leyla Əliyeva: "Xocalıya Ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model) üçcildliyi hər bir azərbaycanlının stolüstü kitabı olmalıdır. Hər gün vərəqləmək, səhifələmək, oxumaq üçün... Oxunmalıdır... **"QARABAĞDA QƏLƏBƏ"** kitabı yazılanədək hər gün oxunmalıdır!

Leyla MƏMMƏDOVA
Bakı Dövlət Universiteti,
Jurnalistikanın nəzəriyyəsi və
təcrübəsi kafedrasının doktorantı

Vasif Səmədov,
Rövşən Vəlizadə

Bəşər sivilizasiyasının XX yüzilliyində törədilmiş erməni vandalizmi və Xocalı genosidi
ŞAHİDLƏRİN DİLİ İLƏ...

Birləşmiş Millətlər Təşkilatı tərəfindən 9 dekabr 1948-ci ildə «Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında» qəbul edilən və 12 yanvar 1951-ci ildən qüvvədə olan Konvensiya ilə ilk dəfə olaraq beynəlxalq hüquqda insan qruplarının milli, etnik, irqi, dini fərqlərinə görə kütləvi məhv edilməsinə yönələn cinayətlər soyqırım adlandırıldı. Konvensiyaya qoşulan dövlətlərin üzərinə bu cinayətin qarşısının alınması və bu cinayəti törədənlərin cəzalandırılması kimi məsuliyyətli və ədalət tələb edən vəzifə qoyuldu. Bu Konvensiyanın 2-ci maddəsində göstərilir ki, soyqırım hər hansı milli, etnik, irqi və ya dini qrupun qismən və ya bütövlükdə məhv edilməsi məqsədilə törədilən aşağıdakı hərəkətlərdən biridir:

a) bu cür qrup üzvlərinin öldürülməsi;

b) bu cür qrup üzvlərinə ağır bədən xəsarətlərinin və yaxud əqli qabiliyyətinə ciddi zərər yetirilməsi;

c) qəsdən hər hansı bir qrupun tam və ya qismən fiziki məhvini nəzərdə tutan həyat şəraitinin yaradılması;

d) bu cür qrup daxilində doğumun qarşısını almağa yönəlmiş tədbirlərin həyata keçirilməsi;

e)bir insan qrupuna mənsub olan uşaqların zorla başqa qrupa verilməsi.

Konvensiyanın 3-cü maddəsinə görə aşağıdakı əməllər cəzalandırılandır:

a) soyqırım;

b) soyqırım törətməyə yönəlmiş gizli sövdələşmə;

c) soyqırım törətməyə birbaşa və ya açıq təhrik;

d) soyqırım törətməyə yönəlmiş qəsd;

e) soyqırımda iştirak.

Bu günədək müxtəlif millətlərin, xalqların əleyhinə törədilmiş bir neçə cinayət beynəlxalq aləm tərəfindən soyqırım kimi qəbul edilib. Alman faşistlərinin Avropada törətdikləri qırğınlar Nürnberq Beynəlxalq Hərbi Tribunalının (1945-1946) hökmü ilə bəşəriyyət əleyhinə cinayət adlandırılıb. Bosniya münaqişəsi zamanı (1992-1995) kiçik Srebrenisa şəhərciyində serb qoşunları tərəfindən 7800 bosniyalı kişilərin və oğlan uşaqlarının

öldürülməsi soyqırım kimi qiymətləndirilib. 1994-cü ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Şurası Ruandada Tutsi xalqının 800 min əhalisinin öldürülməsi ilə (1994-cü ilin aprel-iyul ayları ərzində) əlaqədar Beynəlxalq Tribunalın yaradılmasına qərar verib. 2 sentyabr 1998-ci ildə tarixdə ilk dəfə olaraq soyqırım cinayəti törətməkdə ittiham edilərək Taba Kommunasının meri postunda fəaliyyət göstərmiş Jan-Pol Akayesunun barəsində hökm çıxarılıb.

XIX yüzillikdən başlayaraq, Azərbaycan ərazisində, azərbaycanlılara qarşı "Böyük Ermənistan" mifini gerçəkləşdirmək naminə *"Divide et impera!"* ("Parçala və hökmranlıq et!") siyasətini həyata keçirən imperiyaların dəstəyi ilə, ermənilər tərəfindən kütləvi qırğınlar - **soyqırımlar** törədilib: tarixi materiallarda, arxiv sənədlərində əksini tapan 31 mart qırğınları, Qubada yerləşən kütləvi məzarlıq təkzib olunmaz faktlardır. Bu soyqırımın davamı olan **Xocalı faciəsi** isə bəşər tarixində misli görünməmiş genosid, insanlıq əleyhinə yönəlmiş vandalizmdir. Azərbaycan xalqının yaşadığı bu faciələr ilk dəfə Heydər Əliyev tərəfindən imzalanmış 26 mart 1998-ci il tarixli «Azərbaycanlıların soyqırımı haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə siyasi qiymətini aldı. Fərmanda qeyd olunur: «...Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırım siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir...»

Bu gün qondarma erməni soyqırımını heç bir sübutsuz, faktsız tanıyan və tanımağa cəhd edən dünyanın "mədəni, sivil" dövlətləri tərəfindən XX yüzilliyin ən dəhşətli, analoqu olmayan faciəsinə- Xocalı soyqırımına göz yumulur, beynəlxalq hüquqi və siyasi qiymət verilmir. İnsanlıq əleyhinə cinayəti törədənlər, onların havadarları cəzalandırılmır, Beynəlxalq Tribunal, Beynəlxalq Məhkəmə sükut edir. Xocalı faciəsinin canlı şahidləri, erməni vandalizminin, işgəncələrinin izlərini özləri ilə daşıyaraq haqqın ədalətin zəfər çalacagına, günahkarların cəzalandırılacağına ümid hissi ilə ömür sürürlər. Ədalət deyə bir ömür yaşayan əsirlər, girovlar, soyqırım qurbanlarını gözləri ilə görüb Xocalı hadisələrini lentə alan dünya jurnalistləri, media nümayəndələri canlı tarix, dəlil, sübutdur. Lent yaddaşına köçən qanlı

xronika insanlıq adına ləkədir. Görəsən Xocalı faciəsini, milli genosidi tanımaq üçün beynəlxalq aləm daha nə istəyir ? Güman edirik ki, erməni vandalizminə, vəhşiliklərinə məruz qalmış, bu dəhşətli faciəni yaşamış insanların öz dilindən söylədikləri həqiqətləri bilmək oxucularımız üçün də maraqlı olardı. Məhz elə buna görə də, araşdırmalarımız zamanı diqqətimizi cəlb edən mənbələrə müraciət etməyi məqsədə müvafiq hesab etdik:

«**Müşviq Əliməmmədov:** *Bizim silahımız avtomat, ov tüfəngi və pistolet idi. Ərzaq və döyüş sursatımız yox idi. Blokada hamını əldən salmışdı. 25 fevral ermənilər atəş açmağa başladı, axşam zirehli texnika daxil oldu. Əvvəlcə aeroport ələ keçirildi. Müdafiə olunanlar tanklarla qırılırdı...*

Biz, 10-15 döyüşçü Xocalını tərk edəndən sonra meşə yolu ilə Şelliyə tərəf yönəldik. Ayağımdan yaralandığıma görə qollarımdan tutub aparırdılar. Bir xeyli bu minvalla irəlilədik. Naxçivanik kəndinin yaxınlığında pusquya düşdük. Əgər bu vaxt igid qardaşımız, Xocalı aeroportunun şahini Əlif Hacıyev öz dəstəsiylə köməyə çatmasaydı yəqin ki, bir nəfər də sağ qalmayacaqdı. Əlif mənin gözlərimin qarşısında qəhrəmancasına həlak oldu. Sağ qalanlar axşamçağı məni də özləri ilə götürüb Ağdama getmək istəyirdilər. Amma mən qətiyyən yeriyə bilmirdim, üstəlik də salamat ayağımı da şaxta vurmuşdu. Onlara artıq yük olmaq istəmirdim. Düşmən əhatəsində bu çox təhlükəli idi, bizi görə bilərdilər. Yoldaşlarımdan qumbara istədim ki, əgər məni əsir almaq istəsələr onlarla birlikdə özümü də göyə sovurum. Beləcə iki gün meşədə qaldım... Meşədə qarın üstündə əcəlimi gözləyirdim. Birdən doğma kəlmələr eşitdim. Düzü əvvəlcə inana bilmirdim ki, kimsə gələ bilər. Ana dilində danışıqlar lap yaxınlaşanda cəsarətləndim, bütün gücümü toplayıb haraya çağırdım.

Elman Məmmədov (Xocalının keçmiş icra başçısı): *Ermənistan Respublikasının silahlı qüvvələri, Dağlıq Qarabağda yaranmış və yerləşdirilmiş silahlı erməni quldur dəstələri və Xankəndi şəhərində dislokasiya olan Sovet İttifaqına məxsus 366-cı alay- üçü birlikdə Xocalı şəhərinə hücum etdilər. Hərbi qüvvələrdə olan canlılar, muzdlular və quldurların sayı bütövlükdə 3000 nəfərdən çox idi. Şəhərin müdafiəsində isə cəmi 150-200 nəfərə qədər xocalı sakini dururdu. Bunların içərisində bir nəfər də olsun hərbiçi yox idi. Hamısı mülki şəxslər idi. Xocalılar çox mərdliklə, cəsarətlə şəhərin müdafiəsinə qalxdılar. Ermənilər tanklardan, zirehli texnikadan atəş açırdı. Biz hər tərəfdən blokadada idik, yalnız Əskəran yolu açıq idi. Adamlar ya şaxtadan həlak olmalı, ya da Ağdama getmək üçün Naxçıvanik*

kəndindən keçməli idilər. ZTR-lərdən, pulemyotlardan, avtomatlardan açılan aramsız atəş 200-dən çox adamı yerə sərdi. Hər tərəfimiz qalaq-qalaq meyit idi. Bizlərdən kimin silahı vardısa döyüşə girişdik. 200-ə qədər əliuşaqlı qadın və qoca Gülablı kəndinə gedən yolda ermənilərə əsir düşdü. Atışma zamanı adamların bir hissəsi özlərini Şelliyə çatdıra bildilər. Lakin biz-yeddi nəfər mühasirədən çıxa bilmədik. Atışa-atışa geri çəkilib meşədə sığınacaq tapdıq. Ermənilər bizi izləməyə cəsarət etmədilər. Az olsaq da meşənin dərinliyində mövqeyimiz əlverişli idi. Axşam saat 8-dək meşədə qaldıq. Qaranlıq çökməsindən və qar yağmasından istifadə edib sürünə-sürünə mühasirədən çıxa bildik. Ertəsi gün səhər saat 7-yə Şelliyə çatdıq.

Çingiz Mustafayev (Xocalı faciəsinin qurbanlarını lentə alan mərhum jurnalist, milli qəhrəman): *Güllələnən insanların içərisində onlarla 2-15 yaş arası uşaq, qadınlar, qocalar vardı. (böyük əksəriyyətində güllə başdan, dəqiq nişan alınmışdı) Ölülərin vəziyyəti sübut edirdi ki, insanlar köməksiz vəziyyətdə, qəflətən, heç bir döyüş olmadan, amansızlıqla, soyuqqanlılıqla qətlə yetirilib. Hər şeydən aydın olurdu ki, bəziləri kənara çəkilib tək-tək öldürülmüş, çoxu ailəliklə güllələnmişdi. Kamera çoxlu qulağı kəsilmiş uşaq lentə aldı. Qadınların üzü, kişilərin baş dərisi soyulmuşdu.*

Soyqırımın nişanələri olan yerə ilk dəfə iki hərbi vertolyotla fevralın 28-də gəldik. Hələ səmada ikən 500 metr radiusu olan sahənin insan cəsədləri ilə örtüldüyünün şahidi olduq. Həmin yerlər erməni quldurlarının nəzarəti altında olduğuna görə pilotlar aşağı enməyə ehtiyat edirdilər. Buna baxmayaraq biz yerə endik.

Vertolyotdan çıxan kimi atışma başlandı. Bizi müşayiət edən milis işçiləri əvvəlcədən razılaşdığımız kimi, meyitləri vertolyota yükləyib sahiblərinə çatdırmalı idilər. Lakin dörd meyiti yuxarı qaldıra bildilər. Meyitlərə edilən işgəncələrin mənzərəsindən hamımız şokda idik, əməkdaşlarımızdan ikisi özündən getdi...

Yuriy Yaxoviç (366-cı motoatıcı alayın əsgəri): *Bizim beynimizə yeridirdilər ki, siz xristiansınız və müsəlmanlara qarşı vuruşmalısınız. Bizi insanlığa zidd şərtlər altında saxlayırdılar. Biz bütün bunlara dözməyərək alayı tərk etməli olduq*.

Jan-İv Yunet (soyqırım şahidi fransalı jurnalist): *Biz Xocalı faciəsinin şahidləri olduq. Yüzlərlə qətlə yetirilən dinc əhalinin - qadınların, uşaqların, qocaların və Xocalı müdafiəçilərinin cəsədlərini gördük. Bizə vertolyot gətirdilər. Biz yüksəklikdən Xocalıda bütün gördüklərimizi çəkdik. Ermənilər bizim vertolyotumuzu güllələməyə başladılar və biz çəkilişi sona*

çatdıra bilmədik. Bu - dəhşətli mənzərə idi. Mən müharibə haqqında, qəddar faşistlər haqqında çox eşitmişəm, lakin ermənilər onları keçərək bəşər tarixində misli olmayan cinayət törədiblər. Biz hər yerdə - xəstəxanalarda, vaqonlarda, hətta uşaq bağçalarında və məktəblərdə çoxlu sayda yaralılar gördük.

Leonid Kravets (mayor): *...26 fevralda Stepanakertə qayıdanda Əskəran yolunda torpaq 200-ə yaxın insan meyiti ilə örtülmüşdü. Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocaların cəsədləri görünürdü. Biz bu cəsədləri götürməyə cəhd etdik. Bizimlə olan yerli milis kapitanı öldürülənlər arasından dörd yaşlı oğlunu tapdı. Başqa bir uşağın cəsədini götürmək istəyəndə gördük ki, başı kəsilib…* ***(Bax: Ходжалы- день последний-Баку, издательство «Азербайджан», 1992)***

***

«Vahid Hüseynov (Qaraqaya döyüşlərində qəhrəmancasına vuruşub yaralanan şahid): *Əsirləri BTR, BMP maşınları, pulemyotçular və 50 nəfərədək silahlı piyada müşayiət edirdi. Qaraqaya səmtinə çatar-çatmaz cəlladları haqladıq. Biz yalnız avtomat və qumbaralarla silahlanmışdıq. Qüvvələrin qeyri-bərabər olacağı əvvəlcədən bizə məlum idi. Buna baxmayaraq ya son nəfərədək vuruşmağa, ya da əsirləri xilas etməyə qərar vermişdik... Döyüşçülərimiz qəhrəmancasına həlak oldu, on bir nəfər ağır yaralandı. Amma andımıza əməl etdik, əsirlərin hamısını azad edib Ağdama gətirdik.*

Sənubər Ələkbərova: *Hücum vaxtı həyətdə idim. Həsənabad tərəfdən də, Mehdikənddən də, Boğdağdan da atırdılar. Qonşumun həyəti "Alazan" raketindən alt-üst oldu. Bu vaxt kişilər qışqırdı ki, tez olun doluşun zirzəmilərə. Heç beş dəqiqə keçmədi ki, İcra Hakimiyyətinin başçısı Elman Məmmədov gəlib bildirdi ki, bu hücum o birilərə oxşamır. Qaçıb canınızı qurtarın. Biz aeroportun rəisi Əlif Hacıyevin dəstəsinə qoşulub meşə yolu ilə Ağdama üz tutduq. Naxcıvanik kəndinə çatanda təzədən qiyamət qopdu. Qırdılar camaatı, meyitlər qalaq-qalaq düşüb qalırdı. Anam da orda həlak oldu. Mən və balaca qızlarım düşmən güllәsindən yara aldıq.*

Səadət Zeynalova: *Həyat yoldaşımı, yeganə övladımı, qaynatamı, qaynanamı itirmişəm. Son nəfəsimə qədər qəlbimin göynərtisi kəsməyəcək.*

... Naxçıvanik kəndi yaxınlığında meşədə yolu azdıq. 200 nəfərdən çox idik. Düz beş gün meşədə, qarın içində ac-susuz qaldıq. Yaşlı adamlar, körpələr, yaralılar gözümüzün qabağındaca tab gətirməyib ölürdü. Təsəvvür edin Şelliyə yalnız 30 nəfər gəlib çıxdıq.

Cəmil Məmmədov: *Zülmün, işgəncənin hər formasını sınaqdan çıxardılar ermənilər. Kimsəsiz, köməksiz Xocalılara nifrətlə yanaşır, istədikləri hərəkətləri edirdilər. Ağsaçlı anaya, qadına, körpəyə rəhm yox idi. ... Erməni muzdurları ayaq barmaqlarımın dırnaqlarını çəkib çıxartdılar**.... ». (Bax: Z. Sultanov. Xocalı faciəsi, Bakı, 1993)***

* * *

Həsrət Xəlilova : *Gecə saat 11 idi. Birdən evlərimiz səkkiz tərəfdən atəşə tutuldu. Bütün Xocalı şok vəziyyətinə düşdü. Özümüzü meşəyə atdıq. O gecə elə qar yağmışdı ki, şaxta qılınc kimi kəsirdi. Arxadan atılan güllələr, top atəşi bizi bir-birimizdən ayrı saldı. Həyat yoldaşımdan, oğlumdan, gəlinimdən ayrı düşdüm. 20 günlük körpə qız uşağını belimə aldım. 4 yaşlı Lalə nəvəm isə gəlinim Zərifədə qaldı. Böyük nəvəm Həmayil isə atası Tahirin əlindən tutmuşdu. Bir az keçməmişdi ki, ayağım sürüşdü. Bir də gördüm uşaqla birgə bir dərənin dibinə düşmüşəm. Bundan sonra hamımız bir-birimizi itirdik. Qadınların, uşaqların, qocaların naləsi, çığırtısı yeri-göyü lərzəyə salmışdı. Qaranlıq gecə, soyuq, qalın meşə, hər tərəfdə də əli avtomatlı ermənilər... O gecə göydən yerə yağan qar qana boyanmışdı. Səhərə qədər Ağdama doğru qaçırdıq. Belimdəki uşaq acından qışqırırdı. O, ağladıqca mənə elə gəlirdi ki, bu körpənin nə atası, nə anası gələcək. Öz-özümə deyirdim: bunu sən böyüdəcəksən, Həsrət, sən..! Ağdama çatana qədər mən bu fikirlərdən ayrıla bilmirdim. Ağdama çatdım. Lakin ah-vaylı günlərim bundan sonra başladı. İtkinlərimizi, şəhidlərimizi nə deyib çağıraydım, heç özüm də bilmirdim...*

Bir neçə gün keçdi. Gəlinimdən xəbər tutdum. Bəlli oldu ki, erməni cəlladları onu güllələyiblər. Siz, dəhşətə baxın, nəvəm - gəlinimin 4 yaşlı qızı Lalə isə adyal götürüb anasının üstünə örtür ki, rahat yatsın. Ermənilər kənardan bunu müşayiət edəndən sonra uşağı da güllələyirlər. Sonra xəbər tutdum ki, ermənilər yoldaşım Qaçay Xəlilovu da güllələyiblər. Beləliklə, mən ən yaxın, ən əziz adamlarımı itirdim. Bir neçə gündən sonra, yəni martın 9-da, oğlum Tahirdən xəbər gəldi ki, qızı Həmayilin əlindən tutub Ağdama qaçdığı yerdə ermənilər uzaqdan görüb, avtomatla vurublar. Qaçmağa, qızını xilas etməyə taqəti olmayıb; ermənilər görməsin deyə bir yerə gizlənib, gözləyib ki, bəlkə Ağdama qaçmağa imkan tapa bilənlərdən gələr, 6 yaşlı qızını ona qoşar. Həmşəhərlimiz Kamal Xocalıdan qaçıb canını

qurtara bilibmiş və Ağdama doğru qaçanda oğlumla rastlaşır, uşağı götürüb özü ilə gətirir...

Sonra yaxınlarımın meyitlərini aldım. Dəhşətli vəziyyətə salınmışdılar, sözlə deyiləsi deyil. Bunları ancaq vəhşi edə bilərdi. Meyitlərin başının dərisi soyulmuş, gözləri çıxarılmış, bədənləri eybəcər hala salınmışdı.

Nəzakət Surxay qızı Hüseynova: *Hadisə günü mən Ağdamda idim. Fevralın 27-də Ağdam xəstəxanasına gəldim. Eşitdiklərim, gördüklərim dəhşət idi!.. Bir anlıq huşumu itirdim. Günlər bir-birini əvəz etdi. Yaxınlarımın hamısını itirdim. Axı mənim körpə övladlarımın günahı nə idi?! Həmin gecə 11 yaşlı oğlum Samir meşədə yıxılaraq gözünün birini itirdi. Mənim üçün Xocalı faciəsi sanki bu gün olubdur. Müharibənin dəhşətlərini öz gözlərimlə gördüm. İki körpə uşağı tənha böyütməyə başladım. Xocalı 4 il döyüşdü. Axırda döyüşən oğullar şəhid oldular, əsir düşdülər. Bu günə qədər itirdiyim əzizlərimi dəfn edə bilməmişəm. Yol gözləyirəm. Hər gün yuxuda Xocalımı görürəm. Biz erməni zülmünün necə dözülməz olduğunu öz gözlərimizlə gördük. Müharibədə bütün ailə üzvlərim vurulmuşdu. İki övladımı böyütdüm. Onlar öz ata, baba, nənə, əmi və bibilərinin yolunu gözləyə-gözləyə yaşa dolurlar.*

Sənan Abdullayev: *...Vallah, nə deyim. Şaxtalı gecədə meşədə qaldıqdan sonra ermənilər bizi tapıb Əsgərana apardılar. Anam, atam, 16 yaşlı bacım meşədə öldü.*

Ermənilər uşaqların gözü qarşısında mənə işgəncələr verirdilər. Sonra bizi içərisinə su doldurulmuş zirzəmiyə saldılar. Suda boğulmamaq üçün uşaqları bir gün boyu əlimdə saxlamışam.

Camal Orucov: *16 yaşında oğlumu güllələdilər. 23 yaşlı qızımı iki əkiz oğlu ilə, 18 yaşlı hamilə qızımı əlimdən aldılar".*

Natiq Rəşidov: *Ermənilər qəfil silahlı hücum edib hər yeri yandırdılar, insanları qətlə yetirdilər. Atamgil yeraltı zirzəmidə gecələməli olublar. Bunu sonralar bizə, həmin vaxt atamgillə yanaşı o zirzəmidə olan, ardınca ermənilər tərəfindən əsir götürülən Cəlil kişi əsirlikdən qayıtdıqdan sonra danışdı. O, deyir ki, həmin gecə zirzəmidə olan insanlar, o cümlədən, atam Adil və qardaşım Nazim səhər açılanadək zirzəmidə qalıblar. Səhər açılanda ehtiyatla zirzəmidən çıxıblar ki, görək vəziyyətdə dəyişiklik varmı; necə xilas ola bilərik. Cəlil dayı deyirdi ki, şəhərdəki dağıntını görüb dəhşətə gəliblər. Yaxınlarını axtarıb tapmaq istəyəndə ermənilərə rast gəlirlər. Heç kəs ermənilərə təslim olmaq istəməyib. Silahsız olsalar da...*

Atam şoka düşübmüş. O, ermənilərə qışqırır, özü silahsız olmasına baxmayaraq, onları əsir götürmək istəyən silahlılara hücum çəkir. Erməni silahlıları atamı da, qardaşımı da qətlə yetirirlər. Daş ürəklərini (əgər ürək demək olarsa) soyutmaq üçün o qədər güllə vururlar ki... Artıq ölmüş insanların meyitini belə güllələyirlər... Biz onların meyitini ala bilmədik. Düz 19 ildir... Gedib onları ziyarət edə biləcəyimiz bir məzarları da yoxdur. Bundan böyük nə faciə ola bilər?.. Anam Zahirənin, mənim və bacım Nigarın yaşadıqlarını bir biz bilirik, bir də Allah! Xocalı soyqırımı başlayan gecə qardaşım Nazimin ad günü idi. 20 yaşı tamam olurdu. Neft Akademiyasının tələbəsi idi. Qiyabi oxuyurdu və Xocalıda işləyərək ailəmizə kömək edirdi. 19 ildir qardaşımın ad günü Xocalı soyqırımının ildönümü ilə yad edilir. Onun nə günahı var idi? O qədər böyük arzuları var idi ki... Amma indi bir qəbri də yoxdur. Bunu törədənlər, insanlıq adına utanc olanlar... cəzasız qalmamalıdırlar.

Samirə Bakir qızı Hüseynova: *1992-ci il, fevralın 25-dən 26-sına keçən o dəhşətli gecə, bütün Xocalı əhalisi kimi mənim də uşaq ürəyimə dağ çəkildi. O müdhiş gecə... canım qədər sevdiyim Xocalımla yanaşı, atamı, nənəmi, babamı, əmimi, bibilərimi və başqa yaxın qohumlarımı da əlimdən aldı. O gecə, günahsız Xocalı sakinləri körpə uşaqdan tutmuş böyüklərə qədər qanlarına qəltan edildilər. O dəhşətli soyqırım gecəsi qardaşımla mən anamla bərabər Xocalıdan qaça bildik. Amma atamgil erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirildilər. O gecə ki, ana və bacılarımızın naləsindən həzz alan erməni vəhşiləri onların başına min bir oyun, işgəncələr açdılar. Həmin gecə insan cəsədləri sökülmüş, dağılmış, kitab vərəqləri kimi meşələrə, ətrafdakı dağlara, dərələrə səpələnmişdi. Həmin gecənin açılan səhəri yük maşınlarında insan cəsədləri daşınaraq Ağdam şəhərinə gətirilirdi. Bu soyqırımda onlarla uşaq vəhşicəsinə qətlə yetirildi, qaçıb meşələrə gizlənə bilənlər isə soyuq, aclıqdan və susuzluqdan orada tələf oldular. Bəlkə də Xocalı sakinləri həmin gecə meşə ilə qaçıb canlarını erməni cəlladlarından qurtararkən qarşılarına vəhşi heyvanlar çıxsaydı, o heyvanlar onlara dəyməzdi, amma vəhşi heyvanlara yox, vəhşi "insan"lara - qaniçən erməni quldurlarına rast gəldilər...*

Çox az adam qaçıb canını qurtara bildi... Quduzlaşmış erməni silahlıları meyitlərin də üzərində olmazın vəhşiliklər törətmişlər. Onların başlarının dərisini soymuş, qadınların döşlərini, burunlarını, qulaqlarını kəsmişdilər. İlahi! Dörd yaşlı körpəyə də güllə atarlarmı? Dörd yaşlı körpənin də ayağı kəsilərmi? Mən özüm Xocalıdan çıxarılıb gətirilmiş o meyitləri Ağdamda

gördüm və illər keçsə də həmin səhnələr gözümün qabağından getmir ki, getmir....

Şəkibə Mustafayeva (Azərbaycanın Milli Qəhrəmanı Əliəskər Novruzovun həyat yoldaşı): *Yadımdadır, fevralın 25-dən 26-na keçən gecə, saat 11-12 arasında döyüş başladı. Həmin gecə yoldaşım güclü hücumu görüb posta getdi. Mən ailəmlə birlikdə zirzəmidə gizləndik. Təqribən gecə saat 3 olardı, bir nəfər mənə dedi ki, evdən çıxmaq lazımdır. Mən də həyat yoldaşımı gözləyirdim. Zirzəmidə çoxlu qoca, qadın, uşaq var idi. Məsləhət gördülər ki, meşəyə üz tutaq. 62 yaşlı Bəhram Mustafayev də yanımızda idi. O çox çətinliklə yeriyirdi. Güclə Qarqar çayından keçdik. Ayaqlarımız, üst başımız hamısı islanmışdı. Meşə körpələrlə, qadınlarla, yaşlı insanlarla dolu idi. Naxçivanik deyilən yerə çatanda ermənilər bizi güclü atəşə tutdular. Bizim üstümüzə elə silahlarla atəş açırdılar ki, hələ bu günə qədər də onların nə silahlar olduğunu aydınlaşdıra bilmirəm.*

Çılpaq meşəlik idi. Səhərə yaxın, saat 5-6 radələrində Şelli deyilən kəndə yaxınlaşdıq. Bizim dəstəmizdə 100-dən çox adam var idi. İnsanlar yol boyu öldürülür; donub meşədə qalırdılar. Ac-susuzluqdan, qorxu hissindən, qanlı yaralardan dəhşətli mənzərə yaranmışdı... Sürünə-sürünə yaralıların yanında gizlənə-gizlənə gəlirdim. Mən Şelliyə bacımın evinə çatanda, bəlkə mənim üstümdən 3 vannaya qədər qan yudular.

Ermənilər körpə uşaqları da güllələdilər. Eh..., yanımda nə qədər uşaq acından ağlaya-ağlaya öldü. Mən Xocalı faciəsindən təsadüf nəticəsində sağ çıxmışam. O qanlı günlərdə meşədə böyrəklərindən ağır xəstələnən atam, Xocalı faciəsindən az sonra dünyasını dəyişdi. Xalam oğlu Firdovsi İsa oğlu Əliyev, həyat yoldaşı Heyran Əliyeva, oğlanları Elçin, Elgiz həlak oldular. Atamın dayısı oğlu Vaqif Şükür oğlu Məmmədov, həyat yoldaşı Afilə Məmmədova, oğlanları Azər, Ceyhun, Niyaməddin... - Bu ailə büsbütün həlak oldu.

Mən, yoldaşım Əliəskər Novruzovu 3 gün axtardım. O, Noraguh kəndi yaxınlığında ermənilərlə səhərə qədər döyüşüb, neçə-neçə insanları azad edib. Sonra onu əsir götürüblər. Yoldaşımın 4 qızıl dişi vardı, onları çəngəllə çıxarmış, qollarını isə bir neçə yerdən qırmışdılar. Sifətini elə hala salmışdılar az qala tanımaq olmurdu. Avtomatla üzünə o qədər vurmuşdular ki, gözü çıxmış, çənəsi qırılmışdı... Ürəyim, qəlbim dərdlə doludur. Yazsan qalın-qalın kitab alınar. Yoldaşımı əsirlikdə olanda Xankəndində saxlayıblar. Əsirlikdə onun yanında həmyerlimiz Xurməmməd müəllim olub. Onun da güllə bir budundan dəyib o biri yanından çıxmışdı. O deyirdi ki,

Əliəskər döyülmədən və qan itirmədən dünyasını dəyişdi. Yoldaşımın meyitini ancaq 2 ay sonra alıb dəfn edə bildik....

Yasəmən Tofiq qızı Həsənova (Milli Qəhrəman Tofiq Hüseynovun qızı) *Mən danışanda gözümün önünə odlu-alovlu günlər gəlir. Xocalı qətliamı baş verəndə mənim 12 yaşım var idi. 4 il Xocalıda gedən dəhşətli günləri heç bir vaxt unuda bilmərəm. Atam, əmilərim və bütün Xocalıda yaşayan kişilər, yaşlı insanlar gecə-gündüz mübarizə aparırdılar ki, Xocalı işğal olunmasın. Amma Xocalının hər tərəfdən yolu bağlı idi. - Hər gün atışma, hər gün müharibə... Günümüz zirzəmidə keçirdi. İl yarım idi ki, uşaqlar məktəbə getmirdilər. Hər gün "qrad" qurğularından atılmış atəş nəticəsində evlər dağılır, qapılar, pəncərələr uçub tökülürdü. Bir dəfə güclü atışma oldu. Əmim bizim yanımızda idi. O, bizi yerə uzandırdı. Biz bərk qorxduq. Elə bildik ki, biz artıq öldük. Mən uşaq olsam da, şahidi olmuşam ki, Xocalıda çox qoçaq, cəsarətli oğlanlar var idi. Onları öldürmək asan deyildi. Ancaq nə yazıqlar ki, Xocalının nə tankı, nə topu var idi ki, özünü müdafiə etsin. Xocalı sakinlərinin yaşadığı dəhşətləri heç kimə arzu etməzdim. Nə deyim, əzizlərimi, doğmalarımı, atamı, anamı, əmimi, babamı, nənəmi və çoxlu sayda həmşəhrimi itirmişəm. Onlardan ancaq atamın meyitini dəfn edə bilmişik. Xocalı faciəsindən 16 il keçəndən sonra belə bir xəbər eşitdim ki, hansısa bir rus jurnalisti Xocalıda çəkiliş aparan zaman mənim anam Məxmər xanımın həyətdə güllə dəyib öldüyünü çəkmişlər. Anam əlində vedrə arteziana su gətirməyə gedən zaman elə həyətdəcə onu vurublar. Anam ölüb, amma işə bax ki, mən onun ölümünə sevinmişəm... Çox sevindim ki, nə yaxşı, anam əsir düşməyib, erməni cəlladlarının əlinə keçməyib. Yoxsa bütün ailə üçün daha ağır faciə olardı. 1992-ci il, 19 martda anamın ad günündə atamı Şəhidlər Xiyabanında dəfn etdik. Bizi aldatmışdılar ki, dəfn olunan babamdır. Ancaq dəfndə biz bildik ki, atamdır. 8 yaşlı qardaşım Muradı sakitləşdirə bilmirdik. Deyirəm, kaş ki, anamı da dəfn edə biləydik...*

Həmayil Tahir qızı Xəlilova: *Biz üç bacı idik. Həmin günlər mənim yaddaşıma əbədi həkk olunub. Biz ailəmizlə birlikdə meşəyə qaçdıq. Atam mənim əlimdən tutmuşdu. Bacımın birini anam, birini isə nənəm götürmüşdü. Bir az keçmişdi, uşaqlar ağlamağa başladılar. Atılan mərmilərdən gecə olmasına baxmayaraq hər tərəf aydın görünürdü. Qrad mərmiləri göydən yağış kimi yağırdı. Xeyli getmişdik ki, anamdan, nənəmdən ayrı düşdük. Mən atamın əlindən tutmuşdum. O gecə elə bil, təbiət qan ağlayırdı. Çoxlu qar yağmışdı, şaxta adamı kəsirdi. Atam gah mənim əlimdən tutur, gah da döyüşürdü. Biz səhər açılana qədər qaçdıq. Hündür*

bir təpənin üstündə ermənilər atamı güllə ilə vurdular. Atam yıxıldı. Halı get-gedə pisləşirdi, heç sürünə də bilmirdi. Ermənistan silahlıları çox yaxında idi. Mən atamın yanında oturdum, soruşdum ki, ağrıyan yerin varmı, dedi yox, heç bir yerim ağrımır. Atam uzanıqlı halda qalmışdı. Bizə yaxın olan Kamal dayı ona kömək etmək istədi. Ancaq o, ayağa dura bilmədi. Atam ondan xahiş etdi ki, mənim qızımı da Ağdama doğru apar özünlə, aman günüdü, qoyma burda qalsın, ələ keçər, öldürərlər... Mən bir az aralanmışdım ki, atam "bəs sən atanı öpmədin?" deyə məni geri çağırdı. Aman Allah... Qayıdıb atamın boynunu qucaqladım, üzündən öpdüm. O da mənim üzümdən öpdü, dedi, get, qızım, mən də gələcəm. O, mənim üzümdən sonuncu dəfə öpdü. Bu mənim atamla son vida görüşüm, son atalı anlarım idi. O səhnə heç vaxt gözlərimin önündən getmir...

..Ermənistan silahlıları gecə evlərimizə hücum edəndə, atəş altında, güllə yağışı altında o qaçhaqaçda anam Zərifədən və körpə bacım Lalədən, babam Qaçaydan ayrı düşmüşdük. Sonradan məlum oldu ki, onların hamısını vəhşicəsinə qətlə yetiriblər. Uşaq yaşlarımdan həm anamı, həm də atamı, özü də belə dəhşətli şəkildə itirməyim mənim üçün çox ağırdır. Hərdən Xocalı soyqırımının videolentləri göstəriləndə əziyyətlə qətlə yetirilmiş anamın, atamın, bacımın, babamın meyitlərini görürəm. Ancaq məni ən çox incidən dünya ictimaiyyətinin bizim kimi uşaqların yaşadıqları bu dəhşətli faciələrə, bizim əzablarımıza laqeydliyidir.

Səttar Muxtar oğlu Ağayev: *Həmin gecəni çox ağır düşüncələrlə xatırlayıram. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə idi. Postdan yenicə qayıtmışdım ki, güclü partlayış səsi eşidildi. Eyvana çıxanda dəhşətli çığırtı gəldi. Ailəmlə birlikdə evdən çıxdıq. Hamı kimi mən də ailəni dərə-təpə ilə meşəyə - nisbətən təhlükəsiz yerə apardım. 10 yaşlı oğlum Vüsalı mən götürmüşdüm. Səhərə qədər yol getdik. Lakin meşədə oğlum Vüsalın ayağı donmuşdu. Onu belimdə xeyli gətirdim. Lakin səhər açılmışdı ki, meşədə ölüb-qalanlar, soyuqdan donanları görəndə yeriməyə taqətim qalmadı. Ayaqlarım həm yaralanmış, həm də donmuşdu. Uşaq acından ağlayırdı, heç nə yox idi, heç nə ona verməyə... Beləcə uşağım acından, şaxtadan donaraq öldü. Vüsalın meyitini tək qoyub gedə bilmirdim. Bu vaxt ermənilər məni əsir götürdülər. Mən 36-gün əsirlik həyatının ən dəhşətli günlərini yaşadım. Fevralın 28-də ermənilərin ölüm düşərgəsində (bura həqiqətən də ölüm düşərgəsi idi) 250-yə qədər Xocalı sakini var idi. Bir gün ermənilər gəlib bizdən 13 nəfəri seçib apardılar və güllələdilər. 10 sutkadan sonra bizə 50*

qr. çörək verdilər. Nə qədər çeynədimsə uda bilmədim. 2 nəfərə 1 stəkan su verirdilər. Artıq ayaqlarımda çürümə gedirdi.

Mənə o qədər ağır işgəncələr verdilər ki... Ağzımdan dişlərimin hamısını çəkib çıxartdılar. Sonra ermənilər məni başqa otağa apardılar. Burada, milli orduda xidmət edən döyüşçülərimizin meyitlərini üst-üstə yığmışdılar. Birdən meyitin birinin üzünü açdılar. Mən milli orduda xidmət edən ikinci oğlum Zahidin meyitini gördüm. Özümü itirdim. Ayılanda mənə ağır işgəncə verməyə başladılar. Məni və oğlumun meyitini təpikləyirdilər. Biz əsirləri hər gün döyür, incidirdilər. Ayaq dırnaqlarımızı çıxarırdılar, kimin ağzında dişi qalmışdısa onların dişlərini çəkirdilər. Təpiklə, avtomatın qundağı ilə bizə olmazın əzablar verirdilər. Yanımda olan əsir yoldaşlarımın çoxu qan itirməkdən faciəli şəkildə həlak oldu. Heç mən də sağ qalmağıma şad deyiləm. İki oğlumu öldürdülər, meyitlərini də vermədilər... Mən, iki məzarsız şəhid atası olaraq, bütün dünya ictimaiyyətini, nüfuzlu ölkələrin parlamentlərini bizə qarşı törədilən bu soyqırıma, insanlıqdan kənar cinayətlərə biganə qalmamağa çağırıram. İnsanlıq adına utanc gətirən vəhşiliklər törədənlər öz cəzalarını çəkməlidirlər. Mənim vaxtilə yaratdığım, ağsaqqallardan ibarət Müdafiə Şurasında çiyin-çiyinə vuruşduğum yoldaşlarım artıq bu gün həyatda yoxdurlar. O şəhidlərimizin adlarını xatırlatmaq istərdim: Beyvələnd, Qaçay, Mürşüd, Zəkəra, Fəxrəddin, Rəşid, Əvəz, Məhəmməd, Seyidi, Tahir, Tofiq, Vaqif, Bahadur, Novruz, Əli, Allahverdi, Əsgər, Abbas, Əkbər, Tahid, Hüseyn, Məhərrəm, Səfəralı, Əli, İdayət, Elman, Tofiq. Bəli bu insanlar o dəhşətli, faciəvi gecənin qırğınından qurtula bilmədilər. İllər ötür, mənimsə gözüm həmişə bu vətənpərvər, günahları öz doğma yurdlarında haqq-ədaləti, qocaları, körpələri müharibə alovundan qorumaq olmuş insanları axtarır. Allah onların ruhlarının şad edəcəyimiz günü - Xocalını qaytaracağımız günü, bu qanı yerdə qoymadığımız günü görməyi mənə çox görməsin, inşallah! Gecə-gündüz doğma ata-baba yurdumuzun azad olunacağı günü gözləyirəm. Övlad nisgili ağır olur. 36 günlük əsirlik günümdə Allah günaha yazmasın, ölüm mənə qismət olmadı. İstəyirəm, dünya ictimaiyyəti ermənilərin mənə, digər əsir və girovlara verdikləri müsibətlərlə, dəhşətlərlə tanış olsunlar, bizimlə görüşsünlər. Bizim, şəxsən mənim onlara deməyə çox sözüm var.

Zabilə Allahverdi qızı Ağayeva: *Fevralın 26-sı günü güclü atışma səsi eşitdim. Bir az keçməmiş Xankəndindən atılan qrad mərmisi gəlib bizim evin üstünə düşdü. Evin bir tərəfi uçdu. Uşaqlarım Zahid, Sərdar, Sərvər və*

Vüsalla birlikdə tələsik meşəyə üz tutduq. Qışqırtı və ağlaşmadan qulaq tutulurdu. Gecədən səhərə qədər meşədə yol getdik. Lakin meşədə azdıq. Xanbağına, yəni Xankəndinə tərəf gəldiyimizi bildikdən sonra özümü itirdim. Meşədə hamımız bir-birimizdən ayrı düşdük.

10 yaşlı Vüsalı əlimdən buraxmışdım. Uşaq yorulub taqətdən düşmüşdü. Xeyli vaxt kürəyimə bağlayıb gətirirdim. Həm ac, həm də soyuqdan donmuş uşağın taqəti yox idi. Tez-tez mənə deyirdi ki, ana, məni qoy get. Bir az getmişdim ki, oğlum Zahidə rast gəldim. O, əlində avtomat döyüşürdü. Mənə dedi ki, ana, bacarırsan qaç, get. Mən də qız-gəlinlərə kömək edib gələcəm. Elə bu zaman taqətdən düşüb yeriyə bilmədiyimə görə uşağı, 10 yaşlı Vüsalımı atasına verdim. O biri uşaqlarımdan xəbərim olmadı. Meşədə donmuş insanların, güllə yarasından can verən, huşunu itirən, ayaqlarını don vuran, qaçarkən ayaqqabıları ayağından çıxmış insanları gördükcə az qalırdı huşumu itirəm. Mən anayam. Ana kimi, qadın kimi gözlərim ən ağır qanlı cinayətlərin şahidi oldu. Yolda Qədim kişiyə rast gəldim. Mənə dedi ki, biz azmışıq. Doğru deyirdi. Xeyli qız-gəlinlə, yaşlı qadınlarla birlikdə əsir düşdük. Bir tərəfdən aclıq, bir tərəfdən donmuş ayaqlarımız sözümüzə baxmırdı. Qorxudan, həyəcandan dəli olmaq dərəcəsinə çatırdım. Ermənilər hər ağacın, hər kolun budağını güllələyirdilər. Yadımdadır, bir erməni qadınlara əmr etdi ki, kimin üstündə nə qızılı varsa hamısını təhvil versin. Qadınlar barmaqlarındakı nişan üzüyünü, qulaqlarından sırğalarını çıxarıb verdilər. Sonra kimin ağzında nə qədər qızıl dişi var idisə hamısını çəkdilər. Özü də diş kəlbətini ilə deyil, adi məişətdə işlədiyimiz kəlbətinlə... İnsanların qışqırtısı göyə qalxmışdı. Biz səhərə qədər meşədə qaldıq. Səhər ermənilər əsir düşənlərin hamısını Dəhraza apardılar. Əsirləri elə döyürdülər ki, qışqırıq, haray, fəryad, nalə göyün ərşinə qalxmışdı. Biz vəhşi, barbar, qaniçən adamlardan canımızı qurtarmaq üçün yeri, göyü özümüzə köməyə çağırırdıq. Qorxurduq. Bir erməni mənə yaxınlaşıb dedi ki, Xocalıda bizim əlimizdən hara qaçıb canınızı qurtarmaq istəyirdiniz? Mən də dedim ki, siz qovurdunuz, biz də qaçırdıq. Hər kəs öz balasını haraylayırdı. Özümüz yaddan çıxmışıq. Övladlarımın dərdi məni öldürürdü. Yanımda çox əsir qız-gəlinlərimiz var idi. Ancaq bir hadisəni xüsusilə qeyd etmək istərdim. Özbəkistanın Fərqanə vadisindən Azərbaycana pənah gətirmiş Axıska türklərinin taleyinə Xocalıda yaşamaq qismət oldu. Yanımda həmin türklərdən Bəxtiyar, həyat yoldaşı Firuzə və onun da qucağında körpə uşağı var idi. Bəxtiyarı, Firuzəni ermənilər vəhşicəsinə döyürdülər. Ermənilər

qadının qucağındakı körpəni güclə alıb elə yerə çırpdılar ki, anası huşunu itirdi.

Mən II dünya müharibəsi illərində doğulsam da, müharibənin dəhşətlərini ata-anamdan eşitmişdim. Ermənistanın Azərbaycana 1988-ci ildən başlayan elan edilməmiş müharibəsinin ağır nəticələrini isə öz gözlərimlə gördüm. İndi mən ömrümün elə bir dövrünü yaşayıram ki, əsirlikdə aldığım iztirablardan, xəstəliklərdən əzab çəkirəm. Üstəlik də iki oğul itkisi... Gecə-gündüz balalarımı çağırıram. Ana üçün ən ağır dərd Vətən və övlad itkisidir. Bu yazıq canım hər ikisini gördü... Ata-baba ocağının azad olunacağı günü həsrətlə gözləyirəm. Bəlkə, övladlarımın qoxusunu ordan alam....

Aydın Bəhlul oğlu Əliyev: *Əvvəlcə bizim hamımızı bir yerə yığdılar. O günləri sakit və həyəcansız danışa bilmirəm. Bizi ölüm düşərgəsi adlandırdıqları Dəhraz kəndinə apardılar. Gördük ki, onlar Xocalının işğalından və soyqırımdan öncə burada ölüm düşərgəsi hazırlayıblarmış. Özü də donuz fermalarında... Bu elə bizim üçün ən böyük həqarət idi. Hər gün bizi səhərdən axşama qədər döyürdülər. Dəyənəklə, avtomatın qundağı ilə elə döyürdülər ki, insanlar huşsuz qalırdılar. Belə ağır işgəncələrə məruz qalanlar arasında qadınlar, qızlar da var idi. Qadınlarımızı, qızlarımızı ağır sözlərlə təhqir edirdilər, döyürdülər. İnsanları necə döyürdülərsə, sizdən nə gizlədim, həmin səhnəni gözümün qabağına gətirəndə indi də huşumu itirirəm. Bütün bəşəriyyət bu soyqırımı planlaşdıraraq həyata keçirən erməni quldurlarına nifrət etməli və onların cəzalandırılması üçün çalışmalıdırlar. Görün, bir nələr edirdilər, - bunu heç yerdə nə eşidə, nə də oxuya bilərsiniz. Günlərlə ac-susuz qalırdıq. Arada bir bizə çox az miqdarda quru çörək verirdilər. Onda da gözümüzün qabağında çörəyin üstünə tüpürüb sonra verirdilər. Və bizdən onu yeməyi tələb edirdilər...Bu cür vəhşilikləri törədənlər bu dünyada yaşamalıdırlarmı?!.*

Nanə İbrahim qızı Məmmədova: *Üç körpə uşağım, həyat yoldaşım Mehdiyev Murad, qaynatam Mehdiyev Şəfa ilə birlikdə fevralın 26-da çətinliklə də olsa meşəyə qaça bildik. Ermənilər hər yeri yandırır, bizim insanlarımızı güllələyirdilər. Kətik meşəsinə çatanda gördük ki, orada çoxlu insan var. Erməni silahlıları çılpaq, ayaqyalın qaçıb meşəyə sığınan insanların arxasınca gələrək meşəni mühasirəyə aldılar. Yoldaşım Murad gördü ki, atasını və onun kürəyinə bağlanmış qızı ermənilər güllələdilər, ermənilərə atəş açdı. Bundan sonra ermənilər həm Muradı, həm də ikinci qızımı güllələdilər. Həmin an mən özümdən getmişəm. Gözümü açanda*

gördüm başımın üstündə ermənilər dayanıb. Qışqırdılar ki, üzüyünü, sırğanı, nə qızılın varsa, hamısını çıxar. Mən qucağımdakı körpə uşağımı yerə qoydum. Qulağımda və əlimdə nə qızılım vardısa çıxardım. Ermənilərin güllələdiyi ərimin meyiti bir neçə addımlıqda idi. Qızılları onun üstünə qoydum. Erməni soruşdu ki, qızılları nə üçün ora qoydun? Dedim o almışdı, ona da verdim. Get, götür. Erməni mənə baxdı, baxdı, birdən gəlib məni vurdu. Ayılanda gördüm ki, körpəmlə bizi başqa bir yerə gətiriblər. Bütün ailəmi, uşaqlarımı itirmişdim, yaşadığım stresslərdən danışa da bilmirdim. O, stressin izləri 19 ildir, hələ də davam edir. Hətta bir müddət mənimlə əsir düşən körpəmi də tanımırdım. Ermənilərin vəhşiliyinin hər üzünü görmüşəm. O əsirlikdə yaşadığımız dəhşətləri danışmaqla bitməz. Dünya ictimaiyyəti bizim səsimizi eşitməlidir. Çünki bizə qarşı törədilənlər insanlığa qarşı cinayət idi.

Bayram Məhəmməd oğlu Qasımov: *Xocalının mühasirəsi başlayandan gecəmiz-gündüzümüz postlarda qaravul çəkmək, şəhəri müdafiə etmək idi. Dörd il hər günümüz ölümlə üz-üzə keçdi. Fevral ayının 26-a keçən gecə postdan evə qayıtdım. Elə yenicə gözümü yummuşdum ki, qrad qurğularından açılan atəş məni yuxudan oyatdı. Anaların fəryadı, uşaqların çığırtısı bu gün də qulaqlarımdan getmir. Atamı, anamı, ailəmi, bacı-qardaşlarımı tələsik yuxudan oyadıb küçəyə çıxdıq. Şəhər dörd istiqamətdən atəşə tutulmuşdu. Ayağı yer tutan insanlar meşəyə üz tuturdular. Bizim ailəmiz də meşəyə üz tutdu. Yaşlı atam, anam çox yavaş hərəkət edirdilər. Bərk qar yağmışdı. Qarda irəliləmək çox çətin idi. Kətik meşəsinə qədər ailəmiz, xalam, xalamın yoldaşı Malik bir yerdə idik. Qar, kəskin şaxta, aclıq taqətimizi kəsmişdi. Ağdamın Gülablıkəndinə yön almışdıq. Lakin, dumana düşüb yolu azdıq. Meşədə qadınların və uşaqların harayı, ağlaması hər tərəfə yayılmışdı. Ermənilər səs gələn tərəfləri güllələboran edirdilər. Naxçivanik kəndinə çatanda atamdan, qardaşımdan ayrı düşdüm. Atam Qasımov Məhəmməd orada əsir götürülüb. Artıq dördüncü gün idi ki, gecəni meşədə qalırdıq. Qar, itburnu bitkisi yeyirdik. Hansı tərəfdən səs gəlirdisə ermənilər oranı atəşə tuturdular. 4 gün meşədə qarın üstündə anamın, xalamın titrəməsini gördüyüm anlar yadıma düşəndə... indi də ürəyim az qalır dayana. Yaramın qaysağı qopur elə bil... Duman, çiskin getdikcə vəziyyətimizi ağırlaşdırırdı. Qaçıb canımızı qurtarmağa yol axtarırdıq. Hər tərəf ermənilərlə dolu idi. Üçüncü dəfə azıb Pircamal kəndinə gedib çıxdıq. 13 saat oturub yolları fikirləşdik. Yolda canını götürüb qaçan insanlar arasında Naxçıvandan Xocalıya qonaq gəlmiş insanlarla görüşdük. Onlar*

da çıxış yolu axtarırdılar. Meşədə gecələyən insanlarla görüşəndə gözlərimlə gördüklərimi indi də unuda bilmirəm. Meşə donmuş, yaralı can verən, əl-ayağı şaxtadan donmuş insanlarla dolu idi. Gördüyüm insanların acı taleyi qəlbimi həmişə didib-parçalayır. Bəzən günlərlə özümə gələ bilmirəm.

Nə başınızı ağrıdım, duman bir az çəkilmişdi ki, Ağdama getmək üçün yol axtarmağa başladım. Geriyə qayıdıb anamı, atamı, bizimlə gələn insanları axtardım, görüm harda qaldılar. Anamı, Sona xalamı, ağır yaralı olan Malik dayımı qoyub gələ bilmirdim. Artıq ailəmizin hamısı bir-birindən ayrı düşmüşdü. Nəhayət, Ağdama gəlib çıxa bildik. Malik dayı və onlarla insan ölüb meşədə qaldı. Fevralın 26-dan meşədən Ağdama keçə bilmək üçün yol axtarırdıq. Martın 8-də birtəhər Ağdama çatdıq. Anamın, Sona xalamın qardaşlarımın əl-ayağı tamam donmuş, dilləri tamam tutulmuşdu. Kətik meşəsində atam Məhəmməd Qasımov əsir düşdü. Bir tərəfdən yaralıların vəziyyəti, digər tərəfdən əsirlik həyatı bizi çox sarsıtdı. Dediyim kimi, atamla Kətik meşəsinə qədər bir yerdə idik. Lakin, ondan sonra havanın dumanlı olması bizi bir-birimizdən ayırdı. Sən demə, atam azıb ermənilərin yaşadığı Pircamal kəndinə gedib çıxır. Oradan da atamı Dəhraz kəndinə aparıblar. Ölüm düşərgəsi adlanırdı o yerlər. Atam deyirdi ki, meşədə onlarla yaralı Xocalı sakininə, uşaqlara rast gəldim. İnsanlar ac-susuz donub ölürdülər. Atam ayağı yer tutan insanların bir neçəsini götürüb yollar axtarmağa başlayır. Lakin onlar bir neçə həmyerlimizlə yanaşı əsir düşürlər. Atam 48 gün ölüm düşərgəsində ölümlə üz-üzə qalır. 15 gün atama bir tikə də olsun çörək verməmişdilər. Ermənilər onun eynəyini və üstündə olan bütün sənədlərini almışdılar. Atam danışırdı ki, bizi elə döyürdülər ki, çoxları huşunu itirirdi, ayılmırdılar. 48 gün dayanmadan döyülən atamın sinə sümüyü qırılmışdı. Deyirdi, "Əbülfət kişini elə döydülər ki, ömürlük şikəst oldu. Suyun içinə neft töküb əsirlərin qabağına qoyurdular. Məcbur olub insanlar həmin suyu içirdilər. Döyülə-döyülə ağır yaralar alan insanların da vəziyyəti getdikcə ağırlaşırdı. Erməni zülmkarlarından aldığı yaralara dözə bilməyən atam əsirlik həyatından sonra yaşaya bilmədi.

Məhəmməd Adışirin oğlu Salmanov (1952-ci ildə doğulub. Bərdə rayonunda, "Pioner düşərgəsi"ndə məcburi köçkün kimi yaşayır): *Fevralın 25-dən 26-nə keçən gecə Ermənistan silahlı qüvvələri Xocalını işğal edib, adamları qətlə yetirən zaman bəzi adamlar qaçıb meşəyə sığına bilmişdi. Amma meşəni də mühasirəyə almışdılar. Çox soyuq idi, ac-susuz idik. Sağ qalmaq üçün Ağdama doğru yol tapıb qaçmaq lazım idi. Amma hər yer*

ermənilərlə dolu idi. Qaça bilmək imkanı çox çətin idi. Meşədə Ağdam istiqamətində gedərkən 27 fevral 1992-ci il tarixdə ermənilər məni tutdular. Tutduqdan sonra avtomat silahın qundağı ilə, təpiklə, yumruqla yıxılana qədər döydülər... Ermənilərdən biri soruşdu ki, yoldaşın necə oldu? Mənimlə birlikdə qaçan Xocalı sakini Tahirlə meşədə bir-birimizi itirmişdik. Dedim ki, onu məndən qabaq tutdunuz, siz bilərsiniz. Erməni silahlılarından biri "Bax, gör, budur?" deyib kolluqdakı meyiti mənə göstərdilər. Mən göstərilən yerə baxanda Tahirin başı kəsilmiş meyitini gördüm. Onun meyitini eybəcər hala salmışdılar, qulaqlarını, sünnətini kəsmişdilər.

Vüqar Əli oğlu Nəcəfov (1960-cı ildə anadan olub. Bakı şəhəri Sabunçu rayonu Pirşağı qəsəbəsində məskunlaşıb.): *Bizimlə birlikdə girov götürülən qadınlara, uşaqlara, ağsaqqallara işgəncələr verdilər, yanımızda Xocalı sakini olan Əhməd adlı Axıska türkünün başını kəsdilər. Sonra məni Xankəndinə aparıb bir tövlədə zəncirlə bağladılar. Tez-tez məni lomla döyürdülər. Bədənimin bir neçə yerindən bıçaq zərbəsi vurdular.*

Züleyxa Şahmalı qızı Sadıqova (1947-ci ildə anadan olub. Naftalan şəhəri "Qarabağ" sanatoriyasında məskunlaşıb): *Əsgəran rayon Polis şöbəsinin təcridxanasında saxlanarkən ermənilər bizə işgəncələr verirdilər. Onlar bizi döyür, təpikləyir, təhqir edirdilər. Yanımızda olan cavan qızları zorla aparırdılar. Əsirlərə tanımadığımız zəhərləyici dərmanlar verirdilər.*

Yunis Behbud oğlu Ağayarov (1930-cu ildə doğulub. Naftalan şəhərindəki "Qarabağ" sanatoriyasında məskunlaşıb): *Əsgəran Rayon Polis Şöbəsində saxlanarkən məni paltarsız, ac-susuz qoyur, bir tikə çörək verəndə də çörəyin üstünə tüpürüb verirdilər. Hər gün bizi taxta və rezin dəyənəklə döyürdülər. Orada saxlanılan girovlara, guya soyuqdəyməyə qarşı iynələr vururdular. Sonra onların hamısı vəfat etdi. Mənim və Mirzə Allahverdiyevin qızıl dişlərini adi çəngəllə çıxartdılar, çıxara bilmədiklərini da yumruqla vurub qırdılar. Xocalıda yaşayan Cabbar kişinin oğlu və qızı da girov idi. Oğlan namus üstündə ermənıyə cavab qaytardığına görə yerə yıxıb başını kəsdilər. Gözlərimlə gördüm.*

Qənahət Məhəmmədəli oğlu Hacıyev (1937-ci ildə doğulub. Naftalan şəhəri, "Qarabağ" sanatoriyasında məskunlaşıb): *Bizim yanımızdan 13 nəfər oğlanı seçib apardılar. Xankəndi Polis Şöbəsində ermənilər bizi ac-susuz, şüşəsi olmayan otaqlarda, pal-paltarsız saxlayırdılar. Demək olar ki, hər gün, müsəlman olduğumu bəhanə edərək, rezin dəyənəklə, çəkmələrin dabanı ilə başıma döyür, mısmarlı taxta ilə bədənimə, əllərimə vururdular. Mənimlə saxlanılan Qədim Abbasovu, Elbrus Abbasovu, Ramiz Yusifovu da eyni*

qaydada döyüb işgəncə verirdilər. Xankəndindəki beşmərtəbəli bir binanın zirzəmisində saxlanarkən mənim yanımda içki içmiş ermənilər təxminən 15-16 yaşlarında bir oğlanın diri-diri qolunu kəsdilər, sonra isə bıçaqla öldürdülər. Bir qadının da qarnını kəsib qarnına diri pişik saldıqlarını gördüm. Balaca bir qız uşağının əlindən tutmuşdular, o da "Ana" deyib qışqırırdı. Nə deyim? Mənim özümün ayaqlarımda işgəncənin izləri bu gün də qalmaqdadır.

Kubra Adil qızı Paşayeva (1938-ci ildə anadan olub. Tərtər rayonu, Söylən kəndində məskunlaşıb): *Kətik meşəsinə girəndə sol qolum və sol qıçımdan güllə yarası aldım. Ermənilər bizi tam mühasirəyə almışdılar. Mən kolluqda gizləndim və öz gözlərimlə həyat yoldaşım Şura Tofiq oğlu Paşayev, oğlum Elşad Şura oğlu Paşayev ermənilər tərəfindən avtomat silahla öldürüldülər. Sonra bizi girov götürərək Əsgəran polis şöbəsinin zirzəmisində yerləşdirdilər. Həmin gecə 30-40 nəfərə yaxın əsir düşmüş insanın kəsilmiş başları gözümüzün qabağında qalaqlanmışdı. Zirzəmidə olduğum müddətdə ermənilər cavan qızları və gəlinləri yaxın qohumlarından ayırdılar və başlarını divara vurub huşsuz vəziyyətdə apardılar. Susuz qalan uşaqlara su əvəzinə sidik verirdilər. Hamını ac saxlayaraq sidik ilə qarışdırılmış cımıq verirdilər.*

Nənəş Səməd qızı Səlimova (1930-cu ildə doğulub. Naftalan şəhərindəki "Şirvan" sanatoriyasında məskunlaşıb): *Xocalının işğalı zamanı üç oğlum - Fəxrəddin Bahadur oğlu Səlimov, Araz Bahadur oğlu Səlimov, Mikayıl Bahadur oğlu Səlimov; qızlarım - Şəhla Bahadur qızı Səlimova, Xumar Bahadur qızı Səlimova və həyat yoldaşım Bahadur Mikayıl oğlu Səlimov faciədən qurtara bilməmişlər. Bahadurla Mikayılı meşədə qətlə yetirdilər. Məni, Arazı, Fəxrəddini, Şəhlanı (3 uşağı ilə birgə) və bir də, Xumarı Əsgəran rayonu yaxınlığında ermənilər girov götürdülər. Ermənilər gözlərim qarşısında Arazı tikə-tikə doğradılar, məni onun ətindən yeməyə məcbur etdilər. Üç gün fermada girov saxlanıldıqdan sonra bizi dəyişdirdilər.*

Ramin Həsənov (Xocalı sakini, soyqırım zamanı 10 yaşı olub): *Vətən mənim yaddaşımda qalıb, amma necə.?! Mən 1979-cu ildə Xankəndində anadan olmuşam. Uşaqlıq illərim Xankəndində keçib. Üç yaşından Xankəndində yerləşən uşaq bağçasına getmişəm. Bu illər mənim uşaqlıq illərimin ən maraqlı dövrləri olubdur. Biz bağçada erməni və rus uşaqları ilə təmasda olur, onlarla birlikdə yeyir, yatır və şənlənirdik. Heç vaxt ağlımıza*

da gətirməzdik ki, cəmi bir neçə il sonra ermənilər bizi vəhşicəsinə qətlə yetirə bilər, evlərimizə od vura bilərlər...

1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə saat 11 radələrində erməni və rus silahlıları Xocalını dörd bir tərəfdən mühasirəyə aldılar. Mən də həmin vaxt paltarlı yatmışdım. Anam məni oyatdı ki, ermənilər hücuma keçib. Camaatla birlikdə beton evlərin zirzəmisinə qaçdıq. Bir-iki saat orada qaldıq. Bir azdan kimsə qışqırdı ki, şəhər od tutub yanır, ermənilər şəhəri dağıdırlar. Biz zirzəmidən çıxıb çaya tərəf qaçdıq. Arxaya baxanda gördük ki, ermənilər silahsız əhalini güllələyir. Çayı keçib meşələrə, dağlara sarı üz tutduq. Güclü qar yağmışdı və camaatın irəliləməsinə maneəçilik törədirdi. Mən və anam qarın içi ilə sürünə-sürünə gedirdik. Haraya getdiyimizi özümüz də bilmirdik. Birdən atəş səsləri gəldi və biz yolumuzu dəyişib başqa tərəfə üz tutduq. Səhər saat 6 radələrində biz artıq Ağdamın Şelli kəndinə yaxınlaşdıq. Bu zaman ermənilər bizi gülləborana tutdular. Bu zaman yıxılan kim, yaralanan kim, ölən kim... Ölən və yaralananların sayı-hesabı yox idi. Uşaqların və böyüklərin çığırtıları indi də qulaqlarımda cingildəyir. O vaxt mənim 13 yaşım var idi. Həmin gecə 13 yaşlı bir uşağın nələr çəkdiyini, hansı hisslər keçirdiyini danışmağa dil, yazmağa qələm acizlik çəkir. Onu bir Allah bilir ki, həmin gecə mən nələr çəkmiş, hansı hissləri keçirmişəm. Anam artıq yorulmuşdu, gedə bilmirdi. Mən anama kömək etdim, bir dərəni üzüaşağı endik. Anam dedi ki, artıq sürünə bilmirəm, qalxmaq istəyirəm. Qalxmaq isə qorxulu idi. Hər an ermənilər bizi vura bilərdi. Hara baxırdım hər tərəf meyitlə dolu idi. Qocaların iniltisi, uşaqların çığırtısı məni dəhşətə gətirirdi. Anam ayağa qalxanda birdən yıxıldı. Ancaq səsi çıxmadı, bircə onu dedi ki, Ramin, mənə güllə dəyib. Mən qışqırdım. Anamın güllə dəyən yerini rezinlə sıxdım ki, çox qan itirməsin. Anam mənə dedi ki, sən dayanma, qaç, xilas ol, yoxsa səni öldürəcəklər. Mən isə getmək istəmirdim. Axı, mən anamı necə qoyub gedə bilərdim?..Mən həm atamı, həm də Vətənimi itirmişdim. 13 yaşlı bir uşaq üçün bunlar bəs deyildimi? Bütün bunlardan sonra mən anamı qarın içində, necə güllə yağışının altında qoyub gedə bilərdim? Anam məni dilə tutdu ki, "heç olmasa sən get Ağdamda yaşayan xalangilə xəbər ver ki, anam yaralanıb, gəlib mənə kömək etsinlər." O, vaxt uşaq idim buna inandım. Sonra başa düşdüm ki, anam bütün bunları mənim sağ qalmağım üçün edirmiş. Çünki biz yaşamaq ümidimizi itirmişdik. İstəmirmiş ki, nə mən onun, nə də anam mənim ölümümü gözləri ilə görsün. Anam məni çox dilə tutduqdan sonra mən Ağdama doğru sürünməyə davam etdim. Ağdama çatanda orada

camaat corablarımı soyundurub ayağımı isti suya qoydular. Xalama xəbər verdilər və o gəlib məni götürdü. Axşamçağı anamı meşədən çıxartdılar. Onu xəstəxanada yerləşdirdilər. Anam sağalandan sonra biz Naftalanda məskunlaşdıq. Artıq 23 yaşım var. Mən bu yaşımda həyatın bütün çətinliklərini görmüşəm, hər bir əzab-əziyyətə dözmüşəm. Bu illər ərzində mənim həyatımda olan xoş günlərim Xankəndində yaşadığım atalı, Vətənli günlərim olub». ***(Bax: Q. Paşayeva, H.Məmmədova. Xocalı soyqırımı Şahidlərin dilindən. "Elm və təhsil", Bakı-2011)***

***

«Cəmil Məmmədov: *O gecə mən öz ölümümü yaşamışam. Şelli kəndi yaxınlığındakı Qaraqayada huşsuz vəziyyətdə qalmışdım, xilas olacağıma qətiyyən ümid yox idi. Təxminən bir saatdan sonra Xocalı İcra Hakimiyyətinin başçısı Elman Məmmədov 5-6 nəfərlə özünü yetirdi. Yaralarımı sarıdılar. Belə vəziyyətdə məni atəş altından çıxarmaq mümkün deyildi. Qaraqaya yüksəkliyi hər tərəfdən atəşə tutulurdu. Müdafiə olunmaq üçün bir avtomat verib getdilər. Sürünə-sürünə irəliləyirdim. Qarşıda erməni postu vardı. Məni görmüşdülər, güman ki, girov götürmək istəyirdilər. Bu vaxt Ağdam tərəfdən «Qrad» atıldı. Ermənilər qorxub postu tərk etdilər. Az sonra bizimkilər özlərini yetirdilər. Sonrası yadımda deyil. Gözümü bir də Bakıda, hərbi hospitalda açdım.*

Ayağımda bərk ağrı hiss edirdim. Sağ ayağımı topuqdan kəsmişdilər.

Bəxtiyar Aslanov: *Bakıda polis akademiyasında oxuyurdum. Fevralın 20-də Xocalı aeroportunun rəisi Əlif Hacıyevlə görüşdüm. Təşvişlə dedi ki, vəziyyət son dərəcə ağırdır. Heç olmasa uşaqları, qadınları şəhərdən çıxarmaq lazımdır. Bizim ailəmiz — həyat yoldaşım və üç uşağım, qoca atam və anam, nənəm, xalam Xocalıda idi.*

Dərhal raport yazıb getməyə icazə aldım. Fevralın 26-na keçən gecə şəhər İcra Hakimiyyətinin başçısı Elman Məmmədov, rayon xalq təhsili şöbəsinin müdiri Murad Şükürov və sürücü İlqar Məmmədovla birgə postları gəzirdik. Bu vaxt eşitdik ki, ermənilər Norakux kəndi tərəfdən güclü hücuma keçiblər. Düşmən PDM-i postumuzu dağıdaraq «Bozdağı» deyilən yerdən şəhəri atəşə tutur. İlisu çayı yaxınlığındakı postlarımızın üzərinə də çoxlu qüvvə yeridilib. Ən qızğın döyüşlər aeroportda gedirdi. Bir azdan həmin tərəfdə dəhşətli partlayış eşidildi, bildik ki, Əlif Hacıyev son anda aeroportu partladıb. Ermənilər hər tərəfdən şəhərə soxulurdular. Geri çəkilməkdən

başqa çarəmiz qalmamışdı. Bütün yollar isə təhlükəli idi. Hikmət Nəzərli «Saman tökülən» dərədə, Aqil Quliyev Əsgəran qalası yaxınlığında həlak oldular. Hər ikisi ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Bir qədər sonra qardaşım İqbalın ölüm xəbərini eşitdim. Sanki bütün meşədə ölüm kabusu gəzirdi. Bir qədər sonra xalam qollarım üstündə can verdi. Sonra nənəm Çiçək, atam Qulu düşmən gülləsinin qurbanı oldular. Dünya gözümdə qaralmışdı, ölümdən başqa heç nə barədə fikirləşə bilmirdim. «Narlı dərə» deyilən yerdə ermənilərin pulemyotları Ağdama tərəf tuşladığını gördüm. Avtomatdan atəş açа-açа onlara tərəf gedirdim. Üçünü vura bildim və sənədlərini götürdüm. Bu vaxt yaxınlıqdakı qayadan məni gülləyə basdılar. Ayağımdan, qolumdan. bədənimin bir neçə yerindən yaralandım.

Yaralı-yaralı da xeyli atışdım. Sonrasını bilirsiniz....» ***(Bax: Respublika".1994, 26 fevral).***

* * *

«Səriyyə Müslümqızı: *Əvvəllər, "Xocalının səsi" qəzetində çalışırdım. İndi "Səhər"in əməkdaşıyam. Xocalı soyqırımını göz yaşları ilə xatırlamamaq mümkün deyil. O vaxtdan elə bil qəlbimə dağ çəkilib - nə ölə bilirəm, nə yaşaya bilirəm. Xocalı qırğını haqqında əsl həqiqətlərin üzə çıxarılması, haqqla nahaqqın ayırd edilməsi yanan ürəyimizə su çiləyə bilər.*

Özünüz deyin: Anasını, 20-ə qədər yaxın qohumunu itirmiş bir insanın qəlbi aram taparmı? Görəsən niyə yaddan çıxarırlar ki, axı, biz də insanıq. Səbrin də, təmkinin də sonu var....

Sənəm Abdullayeva: *Yoldaşım milli ordуda idi. Hadisə başlayanda təxminən saat 11-də qorxudan girdik quyuya. Gecə saat 2-yə kimi qaldıq orada. Atışmanın dayanmadığını görüb quyudan çıxdıq. Başıaçıq, ayaqyalın meşəyə qaçdıq. Yolda nənəm və dədəm öldü. Onların meyitini soyuq və qarlı torpaqda qoyub yolumuza davam etdik. Birdən ermənilər hər yerdən üstümüzə töküldülər. Paltarlarımızı, sırğalarımızı dartıb aldılar. Dörd yaşlı qızımın qulağında sırğalar vardı. Erməni bıçaqla onun qulağından sırğaları kəsib götürdü....*

Sona Əliyeva: *Yoldaşımı Xocalının özündə güllə ilə vurub yaralamışdılar. Yolu gedə bilmirdi. Çətinliklə olsa da həyat yoldaşımı da götürüb meşəyə getdik. Düz üç gün yaradan əzab çəkdi, qıvrıldı ağrıdan. Dördüncü gün keçindi. Can verəndə tez-tez su istəyirdi. Mən qar verirdim, o, su istəyirdi... Ömür-gün yoldaşımdan ağrı içində ayrıldım, torpağa*

tapşırmadan... Yazıq tez-tez deyirdi ki, sən özünü qoru, sağ qal ki, uşaqları başsız qoymayasan. Yazıq üç uşağım atasız qalmışdı. Öz taleyim isə hələ naməlum idi. Yoldaşımdan sonra səkkiz gün meşədə qaldıq. Qar yeyirdik, itburnunun qabığını yeyirdik. ... gəlib çıxdıq Ağdama. Hər iki ayağımı şaxta vurub. Ayaq barmaqlarımı kəsiblər...

Qəyyum Aslanov: *Fevralın 26-da ermənilər bizi tutdu. Yanımızda 15-ə yaxın qadın, qız vardı. Onları bizdən ayırıb apardılar. Xankəndində milisin kameralarında saxlayırdılar bizi. Hər gün 100 qram çörək verirdilər. Bizə elə işgəncələr edirdilər ki, dillə deyiləsi mümkün deyil. Çəngəllə dişlərimi çıxarırdılar. Ermənilərin məni nə qədər təpiklədiklərini bilmirəm, huşum başımdan çıxmışdı, bütün bədənim keyləşmişdi....*

Niftalı İbad oğlu Nəbiyev: *... Hər tərəfdən mühasirə olunduğumuzu hiss edirdik, hər tərəfdən bizə atırdılar. Üç gün ac-susuz meşədə qaldıq. Sonra ermənilər bizi mühasirəyə alıb tutdular. Yanımızda 300-ə qədər qadın, uşaq vardı. Hamımızı yığıb apardılar donuz fermasına. Üç gün yeməyə heç nə vermədilər, dördüncü gündən sonra hərəyə azca buğda paylayırdılar. Kişiləri seçib apardılar Stepanakertin milis idarəsinə... Mənim üstümdən patron çıxdığına görə məni lüt soyundurdular. Başladılar dubinka ilə döyməyə....*

Əsirlikdə balasını boğan ana - Müşgünaz: *Öz əllərimlə bax bu beşikdə yatan qızımı boğmuşam. Başqa çıxış yolum yox idi. Nə qədər ağır olsa da, işgəncəli olsa da mən bu addımı atdım. Öz doğma övladımı, iki yaşlı qızımı boğdum. Camaatı və özümü murdar ermənilərin əlinə verməməkdən ötrü uşağımı boğdum əllərimlə. Çünki uşaq ağlayır, qışqırır, sakitləşmək bilmirdi. Baxdım ki, belə getsə ermənilər gəlib gizləndiyimiz yeri tapacaqlar. Yazıq uşaqda da günah yox idi. O, şaxtanın, soyuğun qabağında ac-susuz necə dözəydi? Acından hamımız qar yeyirdik. Qızım sakitləşmək bilmirdi. İçimdə hönkürə -hönkürə, ürəyimə dağ basıla-basıla əllərimlə uşağı boğdum. Doğma ciyərparamı bağrıma basıb ağlayırdım. Dəhrazın yanında ermənilər bizi tutdu. Uşağın meyitini qucaqlayıb oturmuşdum soyuq torpağın üstündə. Düşünürdüm ki, nahaqdan bala qatili oldum, onsuz da ermənilər bizi tutacaqdı. Birdən balaca Salatınım tərpəndi, vurnuxmağa başladı, heyrətdən donub yerimdə qalmışdım...».* ***(Bax: N. Yaqublu, Xocalı qırğını Bakı. 1992)***

***

«R.Patrik (hadisə yerində İngiltərənin " Fant men nyus " teleşirkətinin jurnalisti: *Ətrafda yüzlərlə qulağı kəsilmiş, dərisi soyulmuş, qolu, ayağı kəsilmiş uşaq, qadın, qoca meyiti vardı.*

Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz.

Frederik Lenqan (hadisə yerində olmuş Röyterin fotoqrafı): *Ağdam yaxınlığında azərbaycanlıların meyitlərinin iki yük maşınına doldurulduğunu gözlərimlə gördüm. Birinci dəfə 35 meyit saydım və məncə ikinci maşında da bir o qədər meyit var idi. Onların bəzilərinin başı kəsilmiş, çoxları yandırılmışdı. Onların hamısı kişi idi və bir neçəsi hərbi rəngdə forma geymişdi».* ***(Bax: http://sia.az/az/news/analysis/395787-xocali-soyqirimi-dunya-metbuatinda)***

* * *

«**Tomas Qols** (fevralın 26-da faciə qurbanlarını lentə alan amerikalı jurnalist): *Mən tanış sifətlər axtarırdım və mənə elə gəldi ki, onları gördüm. Ancaq əmin deyildim. Gözündən vurulan bir meyitin gənc baytar olduğu deyilirdi. Meyitlərin bəzilərinin başlarında saçları yox idi…»* ***(Bax: "The Waşinqton Post", 1992, 28 Fevral)***

* * *

Bənövşə İbrahim qızı Mustafayevanın söylədiklərindən: *Qəflətən haray-qışqırığın, Xocalının yandığını görüb yaşyarımlıq körpəm Aliməni də qucağıma alıb küçəyə çıxdım. Hər tərəf tüstü-dumana qarışmışdı. Anaların, uşaqların harayından qulaq tutulurdu. Bu zaman həyat yoldaşım Rza həyəcanla postdan geri gəldi. Dedi, hələlik başqa əlac yoxdu, gərək uşaqları götürüb meşəyə aparaq. Dəhşət idi. Geri qayıdıb isti paltarlarımızı belə götürə bilmədik. Böyük insan axınına qarışıb, Qarqar çayından keçərək şumlanmış əkin sahəsi ilə gedirdik. Bir xeyli getdikdən sonra Kətik meşəsinə çıxdıq. Birdən uşaq qucağımdan kolun üstünə düşdü. Uşağın üz-gözünü tikan didik-didik etdi. Belə bir gecədə uşaqların səsini kəsmək mümkün deyildi. Ermənilər də səs gələn kimi meşəni gülləborana tuturdular. Kişilərdən kimin əlində silah var idisə insanları qorumaq üçün ermənilərlə atışırdı. Amma düşmən çox və həddindən artıq silahlı idilər. İnsanların əsir*

düşməməsi üçün uşaqların ağlaşmasını kəsmək lazım idi, bu isə çox çətin idi. Ermənilər isə səs gələn hər tərəfi dayanmadan güllələboran edirdilər. Səhərə yaxın gəlib meşənin yaxınlığında bir yola çıxdıq. Elə oradaca oğlum Vaqifi, sonra isə həyat yoldaşım Rzanı güllələdilər. Qaçan insanlar mənə qucağımdakı körpəmi xilas etmək üçün dayanmamağımı, irəli qaçmağımı məsləhət bilirdilər. İnsan axınına qarışıb irəliləyirdik. Bir xeyli getmişdik ki, meşəyə çatdıq. Amma ermənilər meşəni də mühasirəyə aldılar və biz əsir düşdük. 250-300 nəfər olardıq. Ermənilər ilk əvvəl Milli Ordunun əsgərlərini - öz torpağını, körpələri, qadınları, qocaları müdafiə etmiş insanları seçib, camaatın gözü qarşısında hündür bir dağın üstündə güllələdilər. Kim başını qaldırıb güllələnmiş ərinə, oğluna baxırdısa bilirdilər ki, onun ailə üzvüdür. Ona dəhşətli işgəncə verirdilər. Elə bu zaman ağacın arxasından bu hadisəni görən Milli Ordunun əsgəri Araz Səlimov əlindəki avtomatla ermənilərə atəş açdı. Lakin ermənilər Arazı elə keçirdilər. Əsir düşmüş insanların arasında Arazın anası və bacısı da var idi. Ermənilər bütün insanları bir yerə yığıb onların ortasına qranat atdılar. Başı, bədəni kəsilmiş insan əzaları göydə oynayırdı. Mən gördüklərimdən huşumu itirdim və bir xeyli vaxtdan sonra ayıldım ki, körpə uşağım qucağımdan 10 metr aralı düşüb qalıb. Bir döşümü, uşağın ayağının altını qranat aparmışdı. Dəhşətli ağrılara dözmək məcburiyyətində idim. Körpəm üçün dözməliydim, o da yaralanmışdı. Qadınları təpiklə, avtomatın qundağı ilə elə döyürdülər ki, hıçqırtıdan, iniltidən qulaq tutulurdu. Bizi bu vəziyyətə salan erməni bandasının başçısının adı Sanvel idi. Bizə deyirdi ki, mən sizə elə bir işgəncə verməliyəm ki, nə qədər yaşasanız, bu işgəncəni unutmayasınız. Yaşı 70-dən artıq olan bir kişi qucağında körpə uşaqla dayanmışdı. Onu gözümüzün önündə qabağa çıxarıb körpə uşaqla birgə avtomatın qabağına verib güllələdilər. Bir qadın ərini ölmüş görəndə onun üzünü örtmək istədi. Elə bu zaman ermənilər onun saçından tutub sürüməyə başladılar. Sonra ermənilər həmin insanların üst-başını gəzərək kimin əlində, qolunda, boynunda nə qızıl vardısa hamısını aldılar. Qadınlara, uşaqlara elə işgəncə verirdilər ki, tam olaraq çatdırmaq mümkün deyil. Hətta Xumar Səlimova yalvarıb ağlayırdı ki, qardaşlarımı öldürmüsünüz, məni də öldürün. Erməni isə deyirdi: ...sizi hələ öldürməyəcəm, əzab verəcəm, iniltinizi eşitməkdən ləzzət alıram. Mənim adım Sanveldir. Mən sizlərin yadında ancaq bu cür işgəncə verən bir insan kimi qalmalıyam. Sanvel qadınlarımızı döyə-döyə deyirdi: siz indiyə qədər niyə Xocalıda qalmısınız? Sizə dörd ildir deyirik ki, çıxın rədd olun gedin, bu torpaqlar bizim olmalıdır... Yanımızda yaşlı qocalar da çox idi. Bir qocanın

üstünü gəzərkən onun çəkməsindən bıçaq çıxdı. Qocanın körpə nəvəsi də yanında idi. Bu zaman qoca kişini uşaqla birlikdə insanların gözü qarşısında güllələdilər. Sonra isə üstünə qranat ataraq ölmüş insanın meyitini parçalayıb düzlərə səpələdilər. Bundan sonra qalanları Əsgərana, əsir düşərgəsinə apardılar. Əsirlikdə yaşadığımız dəhşətləri isə saymaqla bitməz. Bədənimdə 75 siqaretin izi var. Onlar siqareti yandırıb bizim bədənimizə basırdılar. Onlar sanki adam deyildilər, vəhşi idilər. Çünki etdikləri vəhşilikdən ləzzət alırdılar, sanki qəhrəmanlıq ediblərmiş kimi sevinib, gülürdülər...

Mən əsirlikdən azad edilsəm də, bütün sağlamlığımı itirdim, bədənimiz yaşasa da ruhumuz artıq ölüb. Sanvel kimilər, yəni bu soyqırımı, bu cinayəti törədənlər isə rahat gəzirlər. Bəs, hanı ədalət!?...

* * *

"Həsrət Yolu" Əsir və Girovlara Kömək İctimai Birliyinin sədri Esmira Orucovanın tədqiqatına görə, hazırda itkin düşmüş 4033 nəfər soydaşımızın 197 nəfəri Ermənistandan (Qərbi Azərbaycandan) qovulmuş şəxslərdir. Erməni əsirliyində müxtəlif işgəncələrə, təhqirlərə və qeyri-insani rəftara məruz qaldıqdan sonra azad edilmiş 1402 nəfərin arasında 42 nəfər Ermənistandan (Qərbi Azərbaycandan) qovulmuş şəxs var. İctimai birliyin üzvləri olan, əsir-girovluqdan azad edilmiş şəxslərin söylədiklərinə görə, erməni terrorçuları əsir-girovluqda əslən Ermənistandan (Qərbi Azərbaycandan) olanlara qarşı daha amansız olublar.

1989-cu ildə Ermənistandan (Qərbi Azərbaycandan) deportasiya olunub, sonradan Xocalıda yerləşdirilib, şəhər işğal olunan zaman girov götürülmüş 4 nəfərdən ibarət olan İbrahimovlar və 8 nəfərdən ibarət olan Məmmədovlar ailəsini nümunə göstərə bilərik. İbrahimovlar ailəsinin başçısı Alxan Əmirxan oğluna əslən qərbi azərbaycanlı olduğu üçün həyat yoldaşı Fatmanın və 2 azyaşlı oğlu-Samir və Sabirin gözləri qarşısında dəhşətli işgəncələr verdikdən sonra başını kəsiblər. Həyat yoldaşı 1958-ci il təvəllüdlü Fatmanı isə azyaşlı övladlarından zorla ayıraraq, sürüyə-sürüyə maşına qoyub, naməlum istiqamətə aparıblar. İbrahimova Fatma Mədət qızının taleyi bu günə kimi naməlum olaraq qalır. **(Bax: E.Orucova "Bizi əsirlikdən qurtarın" Ensiklopedik nəşr. Bakı- 2000, səh. 321)**

Ermənistandan (Qərbi Azərbaycandan) deportasiya olunub Xocalıda yerləşdirilmiş digər ailənin başçısı 1946-cı il təvəllüdlü Məmmədov

Məmməd Rəhim oğlunu 16 yaşlı oğlu Möhlət və 17 yaşlı Söhbətlə birlikdə ailə üzvlərindən ayıraraq Əsgəran Rayon Polis Şöbəsində saxlayıb, onlarla amansız rəftar etdikdən sonra Söhbəti erməni qəbirstanlığına aparıb, atasının və qardaşının gözləri qarşısında əslən ermənistanlı olduğu üçün erməni məzarının üstündə "qurban" kəsiblər. Hazırda Qobustan rayonunun Mərəzə kəndində məskunlaşmış ailənin digər üzvləri – Məmmədin həyat yoldaşı Məmmədova Narxanım Heydərəli qızı 3 azyaşlı oğlu və körpə qızı ilə 6 gün Əsgəran qalasında ac-susuz, işgəncələrə məruz qaldıqdan sonra azad edilib **(E.Orucova "Bizi əsirlikdən qurtarın" ensiklopedik nəşr. Bakı- 2000, səh. 414, 428)**. 1981-ci il təvəllüdlü oğlu Əhməd ona verilən işgəncələr nəticəsində əlil olub.

"Həsrət Yolu" Əsir və Girovlara Kömək İctimai Birliyinin sədri Esmira Orucovanın verdiyi məlumata görə, Hərbi Əsirlər ilə Rəftar Haqqında 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyasının III bölməsinin II hissəsinin II fəslinin 27-ci maddəsinə (Konvensiya səh. 89) və III bölməsinin II hissəsinin III fəslinin 29-cu maddəsinə (Konvensiya səh. 90) zidd olaraq aylarla gigiyena və ictimai sağlamlıqlarını edə bilməyən, üzləri qırxılmayan və antisanitariya vəziyyətində saxlanıldıqlarına görə, qorxunc görkəm almış, cır-cındır geyimdə olan Xocalı əsirlərini saxladıqları həbsxanalara gətirərək onlara qeyri-insani zorakılıqlar etmişlər. Qəzetləri yandıraraq məşəllər düzəldib azyaşlı uşaqların əllərinə verərək, əsirlərin qırxılmamış saç-saqqalını yandırmaqla, "tükə əzab verməklə" övladlarını əyləndiriblər. Ağrı-acıdan başlarını geri çəkən əsirləri uşaqlarının gözləri qarşısında huşlarını itirənə qədər döyüblər. Xocalı sakini əsirlikdən azad edilmiş, hazırda Bakı şəhəri, Xəzər rayonu, Mərdəkan qəsəbəsində yerləşən "Abşeron" sanatoriyasında məskunlaşmış Hüseynov Kamil Dadaş oğlu özünə və kamera yoldaşlarına qarşı dəfələrlə törədilmiş bu vəhşiliyi təsdiqləyə bilər. Ermənilər Kamili əsir götürən zaman onun gözləri qarşısında 5 yaşlı qızı Maralı vəhşicəsinə qətlə yetiriblər. Əsirlik dövründə Kamilə qarşı amansız olan erməni quldurları onun əl və ayaq barmaqlarının dırnaqlarını kəlbətinlə qoparıb, qızıl dişlərini çəngəllə çıxarıblar.

Hərbi əsirlər ilə Rəftar Haqqında 12 avqust 1949-cu il tarixli Cenevrə Konvensiyasının II bölməsinin 13-cü maddəsinə (Konvensiya səh. 82) əməl etməyən ermənilər marş oxuyaraq "döyüşə" gedən erməni silahlılarını ruhlandırmaq üçün mütəmadi olaraq işgəncələrə məruz qoyduqları, çəkdikləri əziyyətlərdən və aclıqdan ayaq üstə güclə dayanan əsirləri saxladıqları həbsxanaların hasarları üstünə qaldıraraq onlara hər gün saatlarla

mənəvi və psixoloji işgəncələr veriblər. **"Həsrət Yolu" Əsir və Girovlara Kömək İctimai Birliyinin** əsirlikdən azad edilmiş **üzvlərinin** verdikləri məlumatlara görə, onların ləyaqətlərinə toxunan, onlara qarşı təhqiramiz və alçaldıcı tərzdə verilən bu və digər işgəncələrə görə hələ də törətdiyi cinayətlər cavabsız qalmış erməni qadını, kapitan Svetlana Markaryan başçılıq edib. Svetlana Markaryan əsirlərimizin başlarını erməni qəbirlərinin üstündə "qurban" kəsmək istəyən ermənilərə onları pulla satıb.

***Elman Qəhrəman oğlu Hacıyev**. 1971-ci ildə Suraxanı rayonunun Əmircan kəndində anadan olub. 1992-ci ilin oktyabr ayının 2-də elan olunmuş səfərbərlik nəticəsində 123 saylı Mingəçevir taburunun tərkibində Laçın rayonunun müdafiəsinə qalxıb. Laçının Tığik-1, Tığik-2, Təzəkənd, Seyidlər, Fərəş, Çolbanlı kəndlərində gedən döyüşlərdə iştirak edib. 1993-cü il mart ayının 1-də Kəlbəcər rayonu yaxınlığında gedən döyüşlər zamanı 12-13 nəfərdən ibarət olan qrup şəklində erməni mühasirəsinə düşüblər. E.Hacıyev həmin günləri belə xatırlayır: "Ermənilər elə hesab edirlər ki, artıq bütün əsgərləri məhv ediblər. Lakin 12-13 nəfərdən ibarət olan qrupumuz ermənilərı yandıraraq mühasirədən çıxmaq üçün Kəlbəcər istiqamətinə üz tutduq. Bütün hərəkətlər gecə aparıldığı üçün 5 km-lik məsafəni 5-6 günə qət edə bilirdik. Artıq 6-7 gün idi ki, yol gedirdik və gözlənilmədən ermənilərin güclü atəşinə tuş gəldik. Çox böyük çətinliklə olsa da, bu mühasirəni də yara bildik.*

İndiyədək xatirimdədir, aprel ayının təxminən 8-i idi. Aclıqdan taqətim qalmadığından və ayaqların şişdiyindən uşaqlara dedim ki, gedə bilmirəm. Onlar məni bir qədər sürüdülər, amma özləri də çox yorğun olduqlarından təkid etdim ki, məni qoyub getsinlər. Yoldaşlarımın necə getdiklərini xatırlamıram. Çünki, yorğunluqdan huşumu itirmişdim. Ayılanda gördüm ki, heç kim yoxdur. Bundan sonra onları bir də görmədim.

Gücümü toparlayıb hansı istiqamətə gedəcəyimi bilməsəm də, yola davam etdim. Yeməyə heç nəyim olmadığından bir müddət qar, buz yeməli oldum. Beləliklə, 6 ay, yəni 1993-cü ilin aprel ayının 8-dən sentyabr ayının 23-dək tək-tənha meşələrdə qalmalı oldum. Əraziyə nabələd olduğumdan ancaq gecələr hərəkət edirdim. Gündüzlər isə meşədən ərazinin müşahidəsini apararaq, gedəcəyim istiqaməti müəyyənləşdirirdim.

Nəhayət, bir kəndə yaxınlaşdım. Bu, Oruclu kəndi idi. Kənd ermənilər tərəfindən işğal olunmuşdu. Axşamlar kəndə girib un, suxarı, meyvə, əlimə nə keçdisə yeyirdim. Lakin bu kənddən 2-3 gün yararlana bildim. Çünki

ermənilər artıq kəndə tez-tez talana gəlməyə başladılar. Bundan sonra həmin kənddən uzaqlaşmalı oldum".

Yay fəsli olduğundan havalar istiləşməyə doğru gedirdi. Ona görə də Elman meşədə qalmağı daha təhlükəsiz hesab edir. Meşənin meyvələri ilə qidalanır. Hərəkət zamanı bir çox kəndlərdən keçir. Lakin heç birinin adını bilmir. Moz adlı bir kənddə isə ermənilər onu görürlər. Elman atəşə tutulur. Onu tutmağa çalışsalar da, meşənin dərinliklərində gizlənə bilir. 1993-cü ilin sentyabrın 23-də Yanşağ kəndinin yaxınlığındakı fermada yenidən erməni silahlılarının mühasirəsinə düşür. Atışaraq müqavimət göstərib mühasirəni yarmaq istəsə də, patron qurtardığından və çox yorğun olduğundan bu dəfə qaça bilmir və yaxalanır.

Ermənilər onu vəhşicəsinə döyürlər. Ayılanda görür ki, əl-ayağı alüminium məftillə bağlı bir maşının "kuza"sındadır: "Tanımadığım bir kəndə çatanda artıq gecə idi. Maşından düşürən kimi huşumu itirənə qədər döyüldüm. Zirzəmiyə salıb boynuma zəncir bağladılar. 1-2 gün keçdikdən sonra UAZ markalı avtomobil gəldi. İçindən düşən bir erməni məni əsir götürənlərlə nəsə ermənicə danışdı və məni zirzəmidən çıxarıb boynumdakı zənciri açdılar. Həmin erməni mənimlə azərbaycanca danışmağa başladı. O, dedi ki, adı Arturdur və Ağdərə rayonundandır. Artur məni Ağdərə rayonunun Drmbon kəndində yerləşən hərbi qərargaha gətirdi. İki gündən sonra Qırmızı Xaçın nümayəndələri gəldilər və mən ilk məktubumu yazıb evə göndərdim. Noyabr ayınadək burada qaldım.

Ermənilər üçün məişət işləri görürdüm. 1994-cü ilin aprel ayında Şuşa həbsxanasına gətirildim və yenə də vəhşicəsinə döyüldüm. Ayılanda gördüm ki, kameradayam və əsirlikdə olan azərbaycanlılar mənə yardım etməyə çalışırlar. Kamerada mənimlə birgə 20-dən artıq əsir var idi. Şuşadan sonra bir müddət Xankəndi həbsxanasında saxlanıldım. Oradan da Xocavənd rayonuna gətirildik. Burada biz tikinti işlərinə cəlb olunurduq. Mısmına adlı kənd Qarabağın "müdafiə naziri" olmuş Samvel Babayanın doğulduğu yer olduğu üçün oranı abadlaşdırırdıq. Burada da bizə çox işgəncələr verirdilər. Lakin Qırmızı Xaçın nümayəndəsi dəyişildikdən sonra işgəncələr səngidi. Pyer adlı nümayəndə rusca bildiyi üçün bizimlə tərcüməçisiz söhbət edirdi və daim nəzarətdə saxlayırdı. Onun bizə çox köməkliyi dəydi. Fürsətdən istifadə edib ona salamlarımı yetirirəm. Məhz Pyerin səyi nəticəsində mən və 40-dan artıq azərbaycanlı 1996-cı ildə əsirlikdən azad edildik".

* * *

Hörmətli oxucu! Şahidlərin söylədiklərini həyacansız dinləmək, oxumaq mümkün deyil. Ermәniliyin məqsədlərinə nail olmaq - onun cinayətkar fəaliyyətində əsas məsələdir.

Erməni vandalizmi! Xocalı soyqırımı! Bu adi bir kəlmələr deyil. Bunun hər bir hərfinin arxasından "ƏDALƏT!"- deyə neçə-neçə günahsız insan ruhları boylanır. "GÜNAHIMIZ NƏ İDİ?"- deyə bəşəriyyətdən cavab istəyirlər. Onlar erməni şovinistlərinə, qoca-cavan, kişi-qadın, qız-gəlin, körpə-uşaq olduqlarına məhəl qoymadan bu qırğına səsləyənlərə, törədənlərə, olmazın işgəncələrini verib insanlara zülm edərək vəhşicəsinə onların həyatlarına son qoyanlara, dədə-baba torpaqlarında günahsız insanları qanlarına qəltan edənlərə, yurdlarını tarı-mar edənlərə, onların diri-diri dərilərini soyub yandıranlara dünya birliyindən mühakimə edilmələrini tələb edirlər. Hamilə qadınları, körpə uşaqları, ağsaqqal-ağbirçəkləri süngüdən keçirmiş erməni qatillərinə cəza istəyirlər.

Bu gün bizi göynədən Qarabağ dərdimiz var. Qarabağ düşmən caynağındadır, haray salır, fəryad qoparır, bizi - öz övladlarını haraya çağırır...

Qarabağ dərdi dünya birliyinin laqeydliyi, biganəliyi üzündən qara daş kimi ürəyimizin başından asılıb, bizi gecə də yandırır, gündüz də.

Dünya və yerli mətbuat səhifələrində çap edilmiş, oxucu nəzərindən keçmiş, radio və televiziya verilişlərində səslənmiş, nəhayət, kitab səhifələrinə köçürülmüş bu soyqırım faciəsi və onun şahidlərinin harayına biganəlik nədəndir? Niyə susur dünya? Başlarına gələnləri, gətirilənləri bütün dəhşəti ilə sözlə söyləyənlərin haqq səsinə nə vaxt səs verəcək dünya? İnsan haqlarının, ədalətin bərpası üçün beynəlxalq təşkilatlar, dünya birliyi hələ çoxmu susacaq?

"Vətən"- deyib şəhidlərimizə, dağıdılıb xarabalığa çevrilmiş dədə-baba yurdu Qarabağa ədalət sorağındadır. Bu gün hər bir azərbaycanlının milli duyğuya, monolit birliyə, bütün bəşəriyyəti isə ədalət naminə haqq səslərini ucaltmağa səsləyən, ürək yanğısı ilə dünyanı müsibətlərimizlə tanış edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüskarı olduğu "Xocalıya Ədalət!" çağırışı Azərbaycan harayıdır. Bu o haraydır ki, bünövrəsi Azərbaycan xalqının xilaskarı Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Biz Heydər Əliyev cəsarətini dövri mətbuatda bir dəfə qeyd etmişdik və bir də xüsusi vurğulamaq istərdik ki, ən çətin dəqiqələrdə belə, həqiqəti demək, ədalətin və haqqın keşiyində dayanmaq insandan həmişə, cəsarət

tələb edib. Amerikalı sosioloq Rark Robert isə (1864-1944) iddia edir ki, həqiqəti deməklə iş bitmir. Ən başlıca məqamlardan biri dediyin həqiqəti, ədaləti müdafiə etməkdir. Prezident Heydər Əliyevin 30 iyul 1997-ci ildə etdiyi çıxışa (ABŞ, Vaşinqton) diqqət yetirək.

Bu cəsarətli çıxış Azərbaycan və beynəlxalq ictimaiyyət üçün çox vacib, həm də əhəmiyyətli idi. Ulu öndər Heydər Əliyev Ağ Ev rəhbərliyinə, konqresmenlərə, güclü siyasi xadimlərə, dövlət nümayəndələrinə və iş adamlarına kəskin bir mövqedən xatırladırdı: "Amerika dövlətinin, cəmiyyətinin dünyada ən böyük xüsusiyyəti onun ədalətli olmasıdır. Amma ABŞ Konqresinin belə ədalətsiz hərəkəti (söhbət torpaqlarımızı işğal edən erməni separatçılarının Konqres tərəfindən müdafiə olunması və ədalətsiz qərarların verilməsindən gedir - ***V.S., R.V.***) Amerikanın ümumi işinə heç uyğun gəlmir. Biz bu məsələləri qaldırarkən bəzən deyirlər ki, bunlar erməni diasporunun, lobbisinin təsiri altında olublar. Mən bəzən düşünürəm - erməni lobbisi Amerikanın hakimiyyət dairələrindən güclüdürmü? Mən belə düşünmək istəmirəm. Mənə deyirlər ki, Amerikada bir milyon erməni yaşayır. Amerikanın 300 milyon əhalisi var. Əgər bir milyon erməni sizin başınıza bu işi gətirəcəksə, onda bir azdan sonra Amerikada da bir erməni dövləti yaranacaqdır, bu təhlükənin qarşısını alın".

Bu iradəli çıxış, sanki bir çox diplomatları silkələmişdi. Bu gün isə həmin o cəsurluğu, yəni düşmənə qarşı barışmaz mövqedən çıxış etməyi, ona fürsət və aman verməməyi dünyada tək qaldığımız vaxt "Ədalət yürüşü" ilə düşmənin sinəsindən vurub, ən yüksək tribunalardan yerə salmaq kimi yüksək prinsipləri biz "Xocalıya ədalət!" çağırışının fəaliyyətində görürük. "Xocalıya Ədalət!" Azərbaycan xalqının ən qüdrətli siyasi, mənəvi-psixoloji səngəri, onun torpaqlarımız alınıncayadək susmayacaq mübariz ruhunun düşmən ürəyindən vuran sərrast snayperidir!

MƏTBUAT XÜLASƏSİ

XOCALI SOYQIRIMI DÜNYA MƏTBUATINDA

The Washington Post

Döyüş vəziyyətində olan Dağlıq Qarabağ anklavının şərqində yerləşən bu şəhərin baş məscidinin xidmətçiləri dedilər ki, bu gün onlar ermənilərin çərşənbə günü işğal etdiyi anklavda yerləşən Azərbaycan şəhərindən gətirilmiş 17 nəfəri dəfn ediblər.

Anklavın paytaxtı Stepanakertin şimal-qərbində yerləşən və 6.000 nəfər əhalisi olan Xocalı şəhərindən olan qaçqınlar hücum zamanı qadın və uşaqlar daxil olmaqla 500 nəfərin öldürüldüyünü dedilər. Ağdam məscidinin direktoru Səid Sadıqov bildirdi ki, Xocalı şəhərindən olan qaçqınlar çərşənbə günündən bəri onun məscidinə 477 meyit gətiriblər.

Bakı rəsmiləri Xocalıda 100 nəfərin öldürüldüyünü iddia edir, erməni rəsmiləri isə öz paytaxtları İrəvandan bildirirlər ki, cəmi 2 azərbaycanlı qətlə yetirilib. Bakı rəsmisi bildirdi ki, onun hökuməti ölülərin dəqiq sayını bilən zaman azərbaycanlıların qəzəblənəcəyindən narahatdır.

Bu gün burada gördüyümüz 7 cənazədən ikisi uşaq, üçü qadın idi. Ağdam xəstəxanasında müalicə olunan digər 120 qaçqın ağır yaralardan əziyyət çəkir.

Raziyə Aslanova Ağdama çərşənbə günü gecə çatıb. O, dedi ki, çərşənbə axşamı gecə Xocalıya hücuma keçən ermənilər dayanmadan atırdılar. Onun əri və kürəkəni öldürülmüş, qızı itkin düşmüşdür.

Dağlıq Qarabağdan bura qaçıb gələn qaçqınlar arasında keçmiş Sovet Daxili Qoşunlarında xidmət edən iki türkmən əsgəri var idi. Onlar ötən cümə hərbi hissələrini tərk etmiş və Xocalıda sığınacaq tapmışlar. Əsgərlər dedi ki, erməni çavuşları onları "müsəlman olduqları üçün" döyürdülər.

Fərarilər bildirdilər ki, onların keçmiş hərbi hissəsi 366-cı alay Xocalını işğal edən erməni hərbçilərini dəstəkləyirdi. Onlar bildirdilər ki, qadın və uşaqlara qaçmağa kömək edirdilər. Əsgərlərdən biri Ağaməhmət Mütif dedi: "Biz dağlardan keçərək bir qrup gətirirdik. Bu zaman ermənilər bizi gördü və atəş açmağa başladılar. On iki nəfər öldürüldü".

Tomas Qolts, Ağdam, Azərbaycan
"The Waşinqton Post", 28 Fevral 1992

The INDEPENDENT

Ağdamdakı RÖYTER müxbiri Elif Kaban məlumat vermişdir ki, çərşənbə qırğınından sonra azərilər onlarla insan dəfn edirdilər, hansılar ki, bu bölgənin ikinci böyük yaşayış mərkəzi olan Xocalı şəhərinin ermənilər tərəfindən işğalı zamanı öldürülmüşdü. Dəfndə iştirak edənlərdən biri jurnalistlərin üstünə qışqıraraq demişdir: "Dünya burada baş verənlərə göz yumur. Biz ölürük, siz isə baxırsız".

"İndependent"
29 Fevral 1992-ci il
Elen Vomak

***

THE SUNDAY TIMES

Erməni əsgərləri yüzlərlə qaçqın ailəni qırır

Sağ qalanların sözlərinə görə, erməni əsgərləri 450-dən çox azərbaycanlıya atəş açmış və süngüdən keçirmişlər. Onların çoxu uşaq və qadınlar idi. Yüzlərlə, bəlkədə minlərlə insan itkin düşmüş və ölmüşdür.

İşğalçılar qadın və uşaqları müdafiə edən əsgərləri və könüllüləri öldürmüşlər. Sonra onlar qorxudan əsən qaçqınlara atəş açmağa başlayıblar. Sağ qalanlardan bir neçəsi baş verənləri belə təsvir etdi: "Elə əsl qırğın belə başladı. Ermənilər dayanmadan atırdılar. Sonra onlar içəri daxil oldu, bıçaq və süngü ilə adamları dorğamağa başladılar". Bu, sağ qalan üç əsgərdən biri olan Azər Hacıyevin dedikləri idi.

Raziyə Aslanova Ağdama başqa qadınlar və uşaqlarla meşələrdən keçərək gəlmişdir. O, ermənilərin dayanmadan atdığını bildirdi, əri və kürəkəninin gözləri qarşısında öldürüldüyünü dedi. Qızı isə hələ də tapılmayıb.

Ağdama gələn oğlanlardan biri qulağını itirmişdi.

Sağ qalanların dediyinə görə daha 2000 adam, hansılar ki, ayrı qaçmışdı, hələ də tapılmayıb: bəlkə də onların çoxu soyuqdan yaxud da aldıqları yaralardan ölüblər.

Dünən gecə Ağdam meyitxanasına 479 meyit gətirildi və qəbiristanlıqda 29 nəfər dəfn olundu. Mənim gördüyüm və hələ dəfn olunmamış 7 cənazənin 2-si uşaq, 3-ü isə qadın idi. Onlardan birinin sinəsi aldığı güllə yarasından tamamilə dağılmışdı.

Ağdam xəstəxanası qan və terror səhnəsinə çevrilmişdi. Həkimlər bildirdi ki, soyqırımdan qaçan 140 xəstə dərin güllə yaralarından əziyyət çəkir.

Ancaq onlar Ağdamda da təhlükəsiz deyildilər. Cümə günü gecə 150 min əhalisi olan şəhərin üzərinə raketlərdən zərbələr endirildi. Bir neçə bina dağıdıldı və bir nəfər öldü.

"Sandey Tayms"
1 Mart 1992-ci il

***

THE TIMES

Qarabağda cənazə təpələri

Anatol Liven erməni qoşunları tərəfindən həyata keçirilən kütləvi insan qırğını barədə məlumat toplayan zaman atəşə tutulub. Biz, Dağlıq Qarabağın qarla örtülmüş dağlarından aşağı düşərkən səpələnmiş meyitləri gördük. Görünür, qaçqınlar qaçarkən onlara atəş açmışdılar. Bu hadisədən sonra jurnalistlər azərbaycanlı operator tərəfindən çəkilmiş kadrlara baxdılar. Kadrlarda bizim keçdiyimiz həmin dağların müxtəlif hissələrində onlarla insan cənazələri əks etdirilirdi.

Azərbaycanlılar iddia edir ki, keçən həftə ermənilər tərəfindən işğal olunan Xocalı şəhərindən qaçan azərbaycanlıların kütləvi qırğını zamanı ən azı 1000 nəfər öldürülüb. Daha 4000-nəfər yaralanmış, donub ölmüş, yaxud itkin düşmüşdür.

Mülki vertolyot dağlara enməli və kütləvi qırğınların törədildiyi yerlərdən meyitləri yığmalı idi. Mülki vertolyot 4 meyit yığdı. Həmin vaxt azərbaycanlı operatorun çəkdiyi filmdə isə həmin təpələrdə onlarla meyit göstərilirdi. Ağdama qayıdan zaman mülki vertolyotun yığdığı cənazələrə

baxdıq. İki nəfər yaşlı kişi və kiçik bir qız qanına qəltan edilmiş, onların əlləri və ayaqları donmuşdu.

"Tayms"
2 Mart 1992-ci il

***

The Washington Post

Erməni basqınları azərilərin ölümü və qaçqın düşməsi ilə nəticələnir

Xocalının 10.000 əhalisindən təxminən 1000 nəfəri erməni ordusunun çərşənbə axşamı həyata keçirdiyi hücum zamanı qətlə yetirilmişdir. Azərbaycan televiziyası Xocalı ərazisindən cənazələrin yük maşınları ilə evakuasiyasını göstərmişdir.

"Vaşinqton Post"
2 Mart 1992-ci il

***

The New York Times

Ermənilərin törətdiyi qırğın

Ağdam, Azərbaycan, 2 Mart (Röyters) - Azərbaycanın ermənilərin üstünlük təşkil etdiyi Dağlıq Qarabağ bölgəsində erməni hərbçilərinin mülki vətəndaşlara qarşı törətdiyi soyqırım haqqında bu gün yeni bir sübut əldə olunmuşdur. Vertolyotla bölgəyə gedən Azərbaycan jurnalistləri və rəsmiləri qayıdan zaman özləri ilə üç uşaq meyiti gətirmişlər. Onların başlarının arxa hissəsi tamamilə dağıdılmışdı. Onlar dedi ki, ermənilərin atəş açması onlara meyitləri yığmağa imkan vermədi.

Dağlıq Qarabağın azərbaycanlı rəhbərinin köməkçisi Əsəd Fərəşov dedi: "Qadınların və uşaqların başlarının dərisi soyulmuşdu. Biz meyitləri yığmağa başlayanda onlar bizi gülləborana tutdular".

Röyterin fotoqrafı Frederik Lenqan dedi ki o, Ağdam yaxınlığında azərbaycanlıların meyitlərinin iki yük maşınına doldurulduğunu görüb: "Birinci dəfə 35 meyit saydım və məncə ikinci maşında da bir o qədər meyit var idi. Onların bəzilərinin başı kəsilmiş, çoxları yandırılmışdı. Onların hamısı kişi idi və bir neçəsi hərbi rəngdə forma geymişdi".

"Nyu-York Tayms"
3 Mart 1992-ci il

***

THE TIMES

İşıqlandırılmamış soyqırım
Anatol Liven

Dağlıq Qarabağın təpələrində qadın və uşaqlar daxil olmaqla 60-dan çox meyit səpələnmişdi və bunlar erməni qoşunlarının Azəri qaçqınlarına qarşı törətdiyi qırğını təsdiq edir. Yüzlərlə adam itkin düşüb, təpə və dərələr erməni qüvvələrinin azərbaycanlı qaçqınlara qarşı ötən çərşənbə axşamı törətdiyi soyqırım nəticəsində öldürülmüş insanların meyitləri ilə dolu idi. Burada 31 meyit var idi. Ən azı daha 31 cənazə ötən 5 gün ərzində Ağdama aparılmışdı. Bu rəqəmlərə çərşənbə axşamı gecəsi ermənilərin Azərbaycan şəhəri Xocalını darmadağın etdikləri zaman qətlə yetirilən dinc əhali aid deyil. Həmçinin tapılmamış meyitlər də istisna olunmur. Soyqırım zamanı sağ qalan Zahid Cabbarov dedi: "Biz olduğumuz yerdə 200 nəfər öldürüldü". Müxtəlif istiqamətlərdən gəlmiş qaçqınlar da gülləborana tutulduqlarını və yol boyu çoxlu sayda insanın qətlə yetirildiyini dedilər. Meyitlərin ətrafında əşyalar, paltar və şəxsi sənədlər var idi. Cənazələr kəskin şaxtadan donmuşdular, həmçinin qırğından sonra təpə və meşələrdə gizlənmiş insanlar da soyuqdan ölmüşdü. Onların hamısı kasıb geyinmiş adi adamların cənazələri idi.

Bizim gördüyümüz 31 nəfərdən yalnız 3 nəfər formada idi, hansılar ki, biri polis, ikisi isə milli könüllülər idi. Qalanları mülki şəxslər idi (8 qadın və 3 uşaq). İki ailə birlikdə öldürülmüşdü və burada qadınlar əliuşaqlı idi.

Onlardan bir neçəsi başından dəhşətli yaralar almışdı: balaca bir qızın isə yalnız üzü salamat qalmışdı. Sağ qalanlar dedi ki, onlar yerə uzananda ermənilər dayanmadan onlara atəş açırdılar.

"Tayms"
3 Mart 1992-ci il

***

The Morning News

Canlı yayımda olan BBC müxbiri xəbər vermişdir ki, o, 100-dən çox azərbaycanlı kişi, qadın, uşaq, hətta körpənin çox qısa məsafədən başlarından güllə ilə vurulduğunu görüb.

BBC, "Morninq Nyus"
saat 07.37, Çərşənbə Axşamı, 3 Mart 1992-ci il

***

The Morning News

Hadisə yerində çəkilmiş şəkil dağlardan çoxlu sayda insan meyitlərinin yığılmasını təsdiq edir. Müxbir xəbər verir ki, operator və Qərbdən olan jurnalistlər ermənilərin qırdığı yüzdən çox kişi, qadın və uşaq meyitlərini görüblər. Onlar 1 metrdən də az məsafədən başlarından vurulmuşdu. Şəkildə həmçinin, təxminən 10 nəfərin (bunlar əsasən qadınlar və uşaqlar idi) başından güllə ilə öldürüldüyü göstərilir. Azərbaycan iddia edir ki, erməni qüvvələri mindən çox mülki insanı qətlə yetiriblər.

BBC, "Morninq Nyus"
saat 08. 12, Çərşənbə Axşamı, 3 Mart 1992-ci il

***

The Washington Times

Vəhşiliklər Azərbaycanı dəhşətə gətirir
Brayn Killen, Ağdam, Azərbaycan

Dağlıq Qarabağda onlarla insan meyitləri səpələnmişdir və bu, mübahisəli ərazi uğrunda 4 ildən bəri döyüşlərdə törədilmiş ən dəhşətli soyqırımın sübutudur. Bu şəhərdən yenicə qayıdan Azərbaycan rəsmiləri özləri ilə 3 uşaq meyiti gətiriblər və onların başlarının arxa hissəsi tamamilə dağıdılıb. Yerli məsciddə daha 6 meyit var idi və onların əlləri və ayaqları donmuş, üzləri isə soyuqdan qaralmışdı. Qadınlardan biri öldürülmüş atasının sinəsinə qəzəblə vuraraq "Telman!" deyə qışqırırdı. Cənazə arxası üstə uzanmış və sağ əli havada donmuşdu. Ötən həftə ermənilərin işğal etdiyi Xocalıya vertolyotla qısa səfərdən qayıdanlar dedi ki, onlar da oxşar mənzərənin şahidi olublar, ancaq həcmcə bundan daha böyük. Bir rus jurnalistinin dediyinə görə o, 50 metrlik sahədə 30 meyit saymışdır. Dağlıq Qarabağın ikinci böyük Azərbaycan şəhəri olan Xocalının təpədən dırnağadək silahlanmış erməni hərbçiləri tərəfindən ötən çərşənbə axşamı işğal olunmasından sonra ermənilər azərbaycanlıların soyqırımını inkar etdilər. Azərbaycan 1000 nəfərin öldürüldüyünü deyir. Dağlıq Qarabağın azərbaycanlı rəhbərinin köməkçisi Əsəd Fərəcov dedi ki, qadın və uşaqların başlarının dərisi soyulmuşdu. Cənab Fərəcov bildirdi ki, Beynəlxalq Qırmızı Xaç Komitəsinin nişanladığı yerə enən və Mİ-24 vertolyotlarının müşaiyət etdiyi vertolyot erməni hərbçiləri gülləborana başlamazdan əvvəl yalnız 3 uşaq meyidini yığa bilib. O bildirdi ki, biz meyitləri yığmağa başlayanda onlar bizi atəşə tutdular. Cənab Fərəcov bildirdi ki, onlar cəmi 15 dəqiqə orada qalıblar. O, pencəyinin cibində olan qumbaraya işarə edərək dedi: "Hərbi vertolyotlar qırmızı fişənglər buraxaraq ermənilərin yaxınlaşdığını xəbər verdilər. Biz artıq çıxmalı idik. Əsir götürələcəyimiz təqdirdə mən özümü partlatmağa hazır idim".

Röyters-in fotoqrafı Frederik Lenqan Ağdam yaxınlığında azərbaycanlıların meyitləri ilə dolu iki yük maşını görmüşdür. "Birinci dəfə 35 meyit saydım və məncə, ikinci maşında da bir o qədər meyit var idi. Onların bəzilərinin başı kəsilmiş, çoxları yandırılmışdı. Onların hamısı kişi idi və bir neçəsi hərbi rəngdə forma geymişdi".

Ağdam məscidi insan meyitlərilə dolu idi. İnsanlar Azərbaycan prezidenti Ayaz Mütəllibova ünvanlanmış təhqirlər səsləndirir və bildirirdilər ki, o, Qarabağın azərbaycanlı əhalisini qorumaq üçün kifayət qədər çalışmamışdır.

Çöldə isə yüzlərlə insan islam dualarını oxuyurdular. Onların bəziləri huşlarını itirərək öldürülmüş qohumlarının (hansılar ki, bir neçə dəqiqə bundan əvvəl gətirilmişdi) yanına yıxılırdılar.

Qarlı təpələrə səpələnmiş onlarla insan meyitini əks etdirən dəhşətli film sağ qalmış qaçqınların, qadın və uşaqlara qarşı törədilmiş soyqırım haqqında söylədiklərini təsdiq edir.

Azərbaycan televiziyası Azərbaycan şəhəri olan Ağdama bir yük maşını ilə meyit gətirildiyini göstərmişdir. Onların çoxlarının üzləri bıçaqla doğranmış, gözləri çıxarılmışdı. Balaca bir qızın qolları havaya açılı vəziyyətdə qalmışdır. O, sanki kömək diləyirdi.

Ağdam hərbi komandiri Rəşid Məmmədov İkinci Dünya Müharibəsi zamanı Nasistlərin əməllərini xatırlayaraq dedi: "Meyitlər qoyun sürüsü kimi yığılmışdır. Heç faşistlər də bunu etməmişdir".

Qarabağ rəhbəri Musa Məmmədov Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədəki Sovet hərbi bazasına zəng edərək kömək diləyirdi: "Meyitləri gətirmək və insanlara nə baş verdiyini göstərmək üçün bizə kömək edin".

Operator və Qərb jurnalistlərini ərazidən götürən vertolyotun pilotu dedi ki, o Xocalıda və Əsgəran dərəsində onlarla meyit görüb.

"Vaşinqton Tayms"
3 Mart 1992-ci il

***

The New York Times

Ermənilər tərəfindən törədilən soyqırım
Ağdam, Azərbaycan, 2 Mart (Röyters)

Bu gün sonuncu sovet qoşunları Dağlıq Qarabağı tərk edir. İtar-Tass İnformasiya Agentliyi xəbər verir ki, 366-cı Motoatıcı Alayı ərazidən çıxmağa, əslində isə müharibə edən iki etnik qrup - ermənilər və azərbaycanlılar arasındakı buferi aradan götürməyə başlamışdır.

Hər iki tərəf müdaxilə etmək üçün heç bir cəhd etməyib.

Dağlıq Qarabağ Azərbaycan Respublikasının tərkibindədir, onun əhalisinin çox hissəsini isə ermənilər təşkil edir.

Azərbaycanın informasiya agentliyi AZERİNFORM xəbər vermişdir ki, bazar günü gecə Dağlıq Qarabağın azərbaycanlılar məskunlaşan Şuşa şəhəri

ermənilər tərəfindən raket atəşinə tutulub. Vəncəli qəsəbəsinə edilmiş digər bir hücum zamanı isə bir neçə adam yaralanmışdır.

Ermənistan Respublikası keçən həftə azərbaycanlıların yaşadığı Xocalı şəhərində 1000 nəfərin onun hərbçiləri tərəfindən öldürülməsini və qırğından xilas olmaq üçün qarla örtülmüş dağlardan qaçan kişi, qadın və uşaqların soyqırımını inkar edir.

Lakin bu ərazidə onlarla insan meyiti Azərbaycana bu soyqırımın törədilməsini iddia etməyə əsas verir.

Rayona vertolyotla qısa səfər edən azərbaycanlı rəsmilər və jurnalistlər qayıdarkən özlərilə başlarının arxa hissəsi tamamilə dağıdılmış 3 uşaq meyidi gətirmişlər. Onlar bildirdi ki, ermənilərin gülləbaranı meyitlərin hamısını yığmağa onlara mane olub.

Dağlıq Qarabağın Azərbaycan rəhbərinin köməkçisi Əsəd Fərəcov dedi ki, qadın və uşaqların başlarının dərisi soyulmuşdu, biz meyidləri yığmağa başlayanda onlar bizi atəşə tutdular.

Azərbaycanlı hərbi komandir Rəşid Məmmədov dedi: "Meyitlər qoyun sürüsü kimi yığılmışdır. Heç faşistlər də bunu etməmişdir".

Röyters-in fotoqrafı Frederik Lenqan Ağdam yaxınlığında azərbaycanlıların meyitləri ilə dolu iki yük maşını görmüşdür. "Birinci dəfə 35 meyit saydım və məncə ikinci maşında da bir o qədər meyit var idi. Onların bəzilərinin başı kəsilmiş, çoxları yandırılmışdı. Onların hamısı kişi idi və bir neçəsi hərbi rəngdə forma geymişdi".

Etnik zorakılıq və iqtisadi böhran dekabrda 11 keçmiş Sovet respublikası tərəfindən yaradılmış Müstəqil Dövlətlər Birliyinin parçalanmasına səbəb ola bilər. Birlik üzv dövlətlər olan xristian ermənilərlə müsəlman azərbəycanlılar arasında uzun illərdən bəri mövcud olan etnik nifrətin qarşısında aciz qaldı.

Dağlıq Qarabağdakı 4 illik müharibə 1500-2000 adamın ölümünə səbəb oldu. Keçən həftə baş verən döyüş xüsusilə dəhşətli idi.

Dağlıq Qarabağın mərkəzi Stepanakert şəhərində yerləşən 366-cı alay döyüşlərin mərkəzində idi və bu döyüş nəticəsində onun 3 əsgəri həlak olmuşdur. Ermənistanın paytaxtı İrəvanda parlamentdə çıxış edən prezident Levon Ter-Petrosyan birliyin axırıncı qoşunlarının anklavdan çıxarılmasını pislədi. O, bu alayın hərbi əməliyyatlarda iştirak etmədiyini, onun yalnız vəziyyəti stabilləşdirdiyini bildirmişdir.

"Nyu York Tayms"
3 Mart 1992-ci il

***

The Boston Globe

Dünən Azərbaycan erməni hərbçilərini keçən həftə kişi, qadın və uşaqları Dağlıq Qarabağdakı bir şəhərdən çıxarmaqda və onları qətlə yetirməkdə ittiham etdi.

Azərbaycan rəsmiləri Xocalı şəhərində 1000 nəfər azərbaycanlı öldürüldüyünü və qarla örtülmüş dağlardan qaçan kişi, qadın və uşaqların erməni hərbçiləri tərəfindən öldürüldüyünü deyir.

Erməni rəsmiləri bunları inkar edir.

Hadisə yerində olan jurnalistlər qətlə yetirilmiş insanların dəqiq sayını söyləməklə çətinlik çəkir. Ancaq Röytersin fotoqrafı iki yük maşının azərbaycanlıların meyitləri ilə doldurulduğunu dedi. Bir rus jurnalisti isə rayonun hər yerində qırğınlar törəldiyi barədə xəbər verir.

Röyters xəbər verir ki, vertolyotla bölgəyə səfər edən azərbaycanlı rəsmilər və jurnalistlər başlarından vurulmuş 3 uşaq meyiti tapıblar. Ermənilərin atəş açmağı isə onlara digər meyitləri yığmağa mane olub.

İşğal zamanı Xocalıda çoxlu sayda dinc əhalinin öldürülməsini təsdiq edən faktlar get-gedə artır.

Azərbaycan televizisiyası bazar günü Ağdam meyitxanasından qadın və uşaqlar da daxil olmaqla 10 meyit göstərmişdir. Bakının əsas televiziya stansiyasının redaktoru bildirmişdir ki, indiyə qədər 180 meyit aşkar olunub. Bölgənin ətrafında uçan vertolyot çoxlu sayda meyitlər görmüşdü. BBS xəbər vermişdir ki, Fransız fotoqraf 31 cənazə saymışdır. O bildirmişdir ki, içərisində qadın və uşaqlar olan meyitlərin çoxu yaxın məsafədən başlarından güllə ilə vurulmuşdur.

Bu arada Xocalı icra hakimi Elman Məmmədov Bakıda mətbuat konfransında bildirmişdir ki, hücum zamanı 1000 adam öldürülmüş, 200-dən artıq itkin düşmüş, 300 əsir götürülmüş, 200 nəfər yaralanmışdır. Məmmədov 366-cı alayı hücuma başçılıq etməkdə və erməni quldurlarına yol açmaqda ittiham edir.

Boston Qlob, 3 Mart 1992-ci il
Pol Kuin - Cac, Bakı, Azərbaycan

***

ИЗВЕСТИЯ

" …videokamera qulaqları kəsilmiş uşaqları göstərdi. Bir qadının sifətinin yarısı kəsilmişdi ".

"İzvestiya"
Moskva, 4 mart 1992-ci il:

***

Şəhidlərin dəqiq sayı hələ də məlum olmasa da ötən həftə Ermənistan ordusunun Dağlıq Qarabağın qarlı dağlarında dinc azərbaycanlılara qarşı soyqırım törətdiyi ehtimal olunur.

Anklavın Azərbaycan şəhəri Ağdamla sərhəddə yerləşən Xocalı şəhərindən olan qaçqınlar fevralın 25-i gecə ermənilər tərəfindən onların evlərinə edilən hücumu təsdiq edən küllü miqdarda faktlar söyləyir. Onlar bildirir ki, ermənilər onları qaçmağa məcbur etmiş və ətrafdakı meşələrdə güllələmişdir. Dünən mən qəbiristanlıqların birində təzə qazılmış 75 qəbir gördüm. Ondan bir gün əvvəl isə Ağdam məscidində deşik-deşik olunmuş 4 meyit görmüşdük. Biz, həmçinin, vaqonlardan ibarət olan müvəqqəti xəstəxanalarda güllə yaraları almış qadın və uşaqları gördük.

Əhalisinin əksəriyyətini azərbaycanlılar təşkil edən Azərbaycan qəsəbəsi Xocalının əhalisi təxminən 6000 nəfərdir. Ağdamın polis komandiri Rəşid Məmmədov Ağdama yalnız 500 nəfərin qaçdığını dedi. "Bəs qalanları hanı?" soruşduqda isə Cənab Məmmədov onların əsir götürüldüyünü yaxud qaçdıqlarını dedi. Çoxları hələ də dağlardadır, çünki vertolyot yoxdur. O, onların bəzilərinin mənfi 10 dərəcə soyuqdan donduğunu bildirdi.

Azərilər silahlanmış ermənilər gördükdə başa düşdülər ki, özlərini müdafiə edə bilməyəcəklər və meşələrə qaçdılar. Bir neçə saatdan sonra soyqırım başlandı.

Cənab Nasir arvadının və iki uşağının əsir götürüldüyünü güman edir. Digər qaçqınlar kimi, o, da keçmiş sovet ordusunun Xocalıya hücum etməkdə ermənilərə kömək etdiyini dedi: "Bu mənim fikrim deyil, gözlərimlə gördüklərimdir".

Eyc, Melburn, 6 Mart 1992-ci il
Elen Vomak, Ağdam, Azərbaycan

***

The New York Times

Azərbaycanda vida mərasimi

Azərbaycanın Ağdam şəhərindəki qəbirstanlıqda ermənilərin Dağlıq Qarabağda törətdiyi soyqırım qurbanları dəfn olunan zaman onların ailə üzvləri və dostları matəm içindədir.

Çingiz İsgəndərov qardaşının cənazəsi olan tabutu qucaqlamışdı. Cənazənin üstündə isə Quranın surəti var idi.

"Nyu York Tayms"
6 Mart 1992-ci il

***

The Washington Post

Son vidalaşma

Dünən azərbaycanlıların qəbiristanlığında Dağlıq Qarabağda ermənilər tərəfindən öldürülmüş qurbanlar dəfn olunarkən onların qohumları kədər içində idi. Çingiz İsgəndərov qardaşının cənazəsi olan tabutu qucaqlayıb ağlayırdı.

"Vaşinqton Post"
6 Mart 1992-ci il

***

THE SUNDAY TIMES

Tomas Qolts erməni əsgərlərinin törətdiyi soyqırım haqqında Ağdamdan ilk olaraq xəbər verir**.** Xocalı qeyri-məhsuldar bir Azəri şəhəri

idi. Burada mağazalar bomboş, yollar çirkli idi. Heç bir yaşıllıq isə yox idi. Bu o zaman idi ki, burada minlərlə azərbaycanlı öz xoşbəxt həyatını yaşayırdı. Ötən həftə o, xəritədən silindi. Ağdam meyitxanaları meyitlərlə dolan zaman Xocalı və onun ətrafında Sovet İttifaqı dağılandan bəri ən dəhşətli soyqırımın baş verdiyi güman olunur.

Mən Xocalıya səfər edən sonuncu qərbli idim. Bu yanvarda baş vermişdi. Dörd uşaq anası Zümrüd bizi şəhərə gətirən vertolyotda idi. O dedi ki, camaat oturub öz ölümünü gözləyir. O və ailə üzvləri fevralın 26-da ermənilərin törətdiyi qırğının qurbanları arasında idilər.

Beş övlad atası 55 yaşlı Balakişi Sadıqov dedi: "Ermənilər uzaq kəndlərin hamısını bir-bir işğal etdilər, hökumət isə heç nə etmədi". Onun həyat yoldaşı Dilbər isə dedi ki, indi onlar bizi buradan çıxaracaq yaxud da öldürəcəklər. Onların üç oğlu və iki qızı qırğın zamanı öldürülmüşdü.

"Biz ermənilərin mövqelərinə çox yaxın idik, amma oranı keçməli idik. Güllələr hər tərəfdən yağış kimi yağdırılırdı. Biz sadəcə tələyə düşmüşdük". Azərbaycanlılar bir-bir qətlə yetirilirdi. Sağ qalanların söylədiklərinə görə, görmədikləri halda ermənilər tərpənən hər bir şeyə atəş açırdılar. Bir azəri operatoru ağlaya-ağlaya hər bir meyiti lentə almışdı. Onun çəkdiyi kadrlardan birində azərbaycanlıların ermənilərdən qaçaraq sığınacaq tapdığı ağaclıq göstərilmişdi. Burada insan meyitləri təpə əmələ gətirmişdi. Ağdam xəstəxanasına gətirilmiş Ömər Veysəlov dedi: "Ermənilər dayanmadan atırdılar. Mənim arvadım və qızım düz yanımda öldürüldülər".

Hospitalın dəhlizlərində gəzən adamlar öz yaxınlarından bir xəbər axtarırdılar. Bəziləri öz qəzəbini əcnəbilərin üstünə tökürdü. Bir ana bağırırdı: "Hanı mənim qızım, hanı mənim oğlum? Zorlanıb. Öldürülüb. İtib".

“Sandey Tayms”
8 Mart 1992-ci il

***

ИЗВЕСТИЯ

Mayor Leonid Kravets : Mən şəxsən, təpədə yüzə yaxın meyit gördüm. Bir oğlanın başı yox idi. Hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü" .

"Faynenşl Tayms" qəzeti (London), 14 mart 1992-ci il: "General Polyakov bildirmişdir ki, 366-cı alayın 103 nəfər erməni hərbçisi Dağlıq Qarabağda qalmışdır " .

" İzvestiya "
Moskva, 13 mart 1992-ci il:

***

Le Monde

Ağdamda olan əcnəbi jurnalist öldürülmüş adamlar arasında başlarının dərisi soyulmuş qadın və uşaqları görüb. Onların dırnaqları çıxarılmışdı. O, bunun "Azərbaycan təbliğatı" deyil, reallıq olduğunu yazır.

"Mond"
Paris, 14 Mart 1992-ci il

***

Le Monde

"Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqlar arasında skalpları götürülmüş, dırnaqları çıxarılmış 3 nəfəri görmüşlər. Bu, azərbaycanlıların təbliğatı deyil , bu, reallıqdır" .

"Valer aktual " jurnalı (Paris), 14 mart 1992-ci il: "Bu muxtar regionda erməni silahlı dəstələri Yaxın Şərqdən çıxmışlarla birlikdə müasir texnikaya, o cümlədən, vertolyotlara malikdirlər. ASALA-nın Suriya və Livanda hərbi düşərgələri və silah anbarları vardır. Ermənilər bildirirdilər ki, artıq müsəlman kəndlərində qırğınlar törədərək, QARABAĞDAKI Azərbaycanlıları məhv etmişlər" .

R.Patrik, İngiltərənin "Fant men nyus" teleşirkətinin jurnalisti (hadisə yerində olmuşdur): "Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz" .

Dövlət Bahçeli (Milliyyətçi Hərəkət Partiyası Ümumi Başçısı): "Dost və qardaş Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalı prosesi, 25-26 fevral 1992-ci tarixində Dağlıq Qarabağın Xocalı şəhərində qadın, uşaq demədən edilən insanlıq xarici qırğınla başlamışdır. Xocalı qırğınının on

yeddinci ildönümündə dərin bir acı və kədər içindəyik. Azərbaycanın torpaqlarının təxminən beşdə biri üzərindəki erməni işğalı hələ sürməkdədir. Ölkə əhalisinin yüzdə onundan çoxunu təşkil edən Azəri qardaşlarımız yerlərindən edilmiş və sığınacaq axtaran şəxslər vəziyyətinə salınmışdır.

Beynəlxalq hüquqa zidd təcavüzkar siyasətləriylə insanlıq dəyərlərini ayaqlar altına alan və beynəlxalq cəmiyyətə meydan oxuyan Ermənistan, Qafqaz regionunda sülh və təhlükəsizliyi təhdid edən xroniki qeyri-sabitlik ünsürü və bir çıbanbaşıdır .

Qonşularına qarşı düşmənçilik siyasəti və bölgə ölkələrindən torpaq tələblərini davam etdirmək, iş başına gələn bütün hökumətlərin israrla və inadla izlədiyi Ermənistanın dövlət siyasəti halına gəlmişdir.

Türkiyə ilə Ermənistan arasındakı əlaqələrin normallaşması və bağlı olan quru sərhədinin açılmasının önündəki ən böyük maneə də Türkiyə düşmənliyi üzərinə bina edilən erməni siyasətidir.

Ermənistan Türkiyənin ərazi bütövlüyünü sorğulamakda ortaq sərhədi tanımayıb.

Bunun yanaşı, Türkiyənin milli simvollarına sahiblənmək qafilliyindən davam etdirməkdə və saxta soyqırım yalanıyla Türk tarixi və Türk millətini məhkum etdirmək üçün həyasız bir qaralama kampaniyası icra etməkdədir.

Ermənistanın bu düşmənlik siyasəti dəyişmədiyi və Azərbaycan torpaqları üzərindəki erməni işğalı sona yetmədiyi müddətcə iki ölkə arasındakı quru sərhədinin açılması və İrəvanla diplomatik əlaqə qurulması heç bir şərt altında baş tutmayacaqdır. Bunun əksinə olan siyasətlər Türk millətindən dəstək və qarşılıq tapa bilməyəcək, bu istiqamətdəki hazırlıq və səylər milli vicdanı dərindən yaralayacaqdır.

Milliyyətçi Hərəkət Partiyası və türk millətçiləri, xarici təzyiqlər və ucuz siyasi hesablarla bu istiqamətdə siyasət dəyişikliyinə gedilməsi niyyətlərinə və cəhdlərinə sonuna qədər qarşı çıxacaq.

Türkiyə ilə Azərbaycan arasında sarsılmaz təməllərə söykənən dostluq və qardaşlıq əlaqələrinin və əməkdaşlığın bir millət - iki dövlət anlayışına uyğun olaraq əbədiyyətə qədər inkişaf edərək sürəcəyinə ürəkdən inandığımızı bu vəsiləylə ifadə etmək istəyirəm.

Xocalı qırğınında və erməni işğalında həyatını itirən soydaşlarımızın əziz xatirələrini kədərlə xatırlayır, Allahdan rəhmət diləyirəm. Ruhları şad, məkanları cənnət olsun”

"Le Mond" qəzeti
Paris, 14 mart 1992-ci il

***

Newsweek

Soyqırımın üzü
Paskal Priva və Stiv Lö Ven, Moskva

Ötən həftə Azərbaycan yenidən qəbirstanlığa dönmüşdü: matəm içində olan qaçqınlar və onlarla insan meyiti məscidin arxasında müvəqqəti meyitxana yaratmışdı. Onlar fevralın 25-i və 26-sı ermənilər tərəfindən darmadağın edilmiş Xocalıdan olan sadə azəri kişi, qadın və uşaqları idi. Onların çoxu qaçan zaman yaxın məsafədən vurulmuşdu, bəzilərinin üzləri dağıdılmış, başlarının dərisi soyulmuşdu.

"Nyusuik"
16 Mart 1992-ci il

***

TIME

Cil Smolou
Yuri Zaxaroviç, Moskva

Mübahisələrə baxmayaraq aydın olan bir şey var: iki həftə öncə Azərbaycan şəhəri Xocalıda qəddar və vicdansız bir hadisə törədilib. İndiyədək 200 azərbaycanlı öldürülüb, çoxları iyrənc hala salınıb, ermənilərin üstünlük təşkil etdiyi Dağlıq Qarabağdan dəfn olunmaq üçün qonşu rayona gətirilib. Azərbaycanlılar iddia edir ki, 1324 mülki vətəndaş qətlə yetirilib. Onların çoxu - qadınlar və uşaqlar barədə heç bir məlumat yoxdur…

"Taym"
16 Mart 1992-ci il

***

СВОБОДА

Faciəni törədənlər cəzalandırılmalıdır

Moskvada yerləşən Memorial insan hüquqları qrupunun 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalının erməni silahlı birləşmələri

tərəfindən işğalı zamanı insan hüquqlarının kütləvi şəkildə pozulması haqqında hesabatı.

Hesabatda dinc əhalinin şəhərdən qaçması haqqında yazılır: "Qaçqınlar ermənilər tərəfindən qurulmuş pusquya düşərək atəşə tutuldular. Onların bəziləri Ağdama çata bildilər: digərləri, əsasən qadınlar və uşaqlar (dəqiq sayı məlum deyil) dağlarda azmış və donub ölmüşlər. Ağdama çatanların dediklərinə görə, onların bəziləri Pircamal və Naxçıvanik kəndləri yaxınlığında əsir götürülüblər. Xocalı əsirlərinin dediyinə görə, əsirlərin bəziləri öldürülmüşdür… 4 gün ərzində Ağdama təxminən 200 meyit gətirilmişdir. Ağdam qatar-xəstəxanasının həkimləri bildirdi ki, 4 meyitin başlarının dərisi soyulmuş, birinin isə başı kəsilmişdi. Ağdamda 181 cənazə (130 kişi, 51 qadın, 13 uşaq) üzərində yoxlama aparılmışdır və aşkar olunmuşdur ki, 151 nəfər güllə, 20 nəfər qəlpə yarasından və 10 nəfər küt alətlərdən aldıqları yaralardan ölmüşdür. Xocalıdan olan bütün yaralıların gətirildiyi Ağdam qatar-xəstəxanasının sənədlərində göstərilir ki, 597 nəfər yaralanmış, yaxud donmuş, bir nəfərin diri-diri başının dərisi soyulmuşdur.

“Svoboda”
12 İyun 1992-ci il

***

The INDEPENDENT

Frederik Lenqan, Röyter

Arif Sadıqov Bakıda Xəzər dənizinin sahilindəki bir kafenin kölgəliyində sakitcə oturdu və düz 3 ay bundan qabaq, Xocalı şəhərindən qaçan zaman erməni gülləsinin cırdığı şalvarını göstərdi.

51 yaşlı xarrat dedi: "Mən hələ də bu paltarları geyinirəm, çünki başqası yoxumdur. Mən 5 dəfə yaralandım, amma bəxtim gətirdi və sağ qaldım".

Cənab Sadıqov və arvadı bir aydan çox ac və işıqsız qalıblar. Cənab Sadıqov dedi: "Təxminən axşam saat 11-də bombardman başlandı. Biz hələ heç vaxt beləsini eşitməmişdik. 8 yaxud 9 növ silah, artilleriya, ağır pulyemotlardan istifadə olunurdu".

Tezliklə qonşular küçələrə tökülüşdü. Bəziləri gizləndi, digərləri isə qarın içi ilə meşələrə doğru qaçmağa başladı.

Xilas olmaq üçün şəhər camaatı təxminən 15 mil məsafədə yerləşən Azərbaycan şəhəri Ağdama çatmalı idi. Sübh çağı iki Azərbaycan kəndi

Naxçıvanik və Sədərək arasındakı yerə çatanadək onlar düşünürdülər ki, bunu edə biləcəklər.

Cənab Sadıqov dedi: "Buna qədər mənlə gələn qrupun heç birinə heç nə olmamışdı… sonra yolda bizi bir maşın gördü və ermənilər bizə atəş açmağa başladılar. Bizimlə olan 80 nəfərdən yalnız on nəfəri sağ qaldı. 67 yaşlı böyük qardaşım da daxil olmaqla 7 yaxın qohumum qətlə yetirildi. Mən ancaq qardaşımın papağı ilə onun gözlərini bağlamağa imkan tapdım və biz heç vaxt o meyitlərdən heç birini qaytara bilmədik".

Cənab Sadıqov dedi ki, birinci qrupdakı qaçqınların bəzilərinin bəxti gətirdi. Evakuasiyanın qəhrəmanlarından biri Arif Hacıyev üçüncü qrupun qaçmasına kömək etmək üçün silahın darağını dəyişərkən başından aldığı güllə yarasından öldü.

Digər bir qəhrəman, Xocalının meri Elmar Məmmədov bildirdi ki, o, bir neçə nəfər ilə birlikdə fevralın 26-nı meyitlərlə əhatə olunmuş kollu təpələrdə keçirib.

Cənab Sadıqov dedi: "Biz şəhərə çatandan bir gün sonra ermənilər geniş raket hücumu həyata keçirdilər. Mən müalicə olunmaq üçün xəstəxanaya getməli idim, çox pis vəziyyətdə idim. Hətta mənim ayaqqabımın içində də güllə tapdılar".

Qırğının qurbanları: Bir azəri qadın fevral ayında törədilmiş Xocalı qırğınında qətlə yetirilmiş oğlunu ağlayır. Qatar-xəstəxanada tibb bacıları primitiv üsullarla yaralı bir kişini xilas etməyə çalışırlar. Ağdamda insanlar qətlə yetirilmiş qohumlarının tabutu üstündə ağlayırdılar. Ölənlərin sayını müəyyən etmək mümkün deyil. Çünki müsəlmanlar ölünü 24 saat ərzində dəfn edirlər.

"İndependent"
London, 12 İyun 1992-ci il

***

The INDEPENDENT

Ağrılı axratış

Azərbaycanlıların Xocalı şəhərində törədilmiş fevral soyqırımı nəticəsində təxminən 600 kişi, qadın və uşaq öldürülmüşdür.

Dövlət ittihamçısı Aydın Rəsulov 15 nəfərdən ibarət olan istintaq qrupunun rəhbəridir. Bu qrup azərbaycanlıların "Xocalı Qırğını" adlandırdıqları hadisəni araşdırmaqla məşğuldur. Cənab Rəsulov bildirdi ki, 600 nəfər ilkin axtarışlar zamanı tapılmış meyitlərdir. Xocalı meri Elmar Məmmədov da oxşar rəqəm söylədi. May ayında isə Bakıda nəşr olunan Ordu qəzeti bu rəqəmin daha böyük olduğunu yazırdı - ölənlərdən 479 nəfərin şəxsiyyəti müəyyən olunmuş, 200-dən çoxu isə naməlumdur. Azərbaycan müdafiə nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Yunisova ölənlərin sayının 700 olduğunu dedi.

Beynəlxalq Qırmızı Xaç Komitəsinin Bakıdakı nümayəndə heyətinin rəhbəri Fransua Zen Rufinin bildirdi ki, Ağdam şəhərinin müsəlman imamının ona dediyinə görə onun məscidinə Xocalıdan 580 meyit gətirilmişdi və onların çoxu dinc əhali idi. Cənab Zen Rufinin dedi ki, biz meyitləri saymadıq, ancaq bu rəqəm inandırıcıdır. Çünki biz meyitləri yumaq üçün ləvazimat verdik. 43 yaşlı hüquqşünas Cənab Rəsulov son rəqəmin söylənilməsi üçün bir neçə ay vaxt lazım olduğunu söylədi.

Cənab Rəsulov bu işləri yaxşı bilir. Uzun illər araşdırdıqdan sonra, o, 1990-cı ilin yanvarında Bakıda sovet qoşunları tərəfindən törədilmiş qırğın zamanı 131 nəfərin öldürüldüyü və 714 nəfərin yaralandığı barədə qəti rəqəm söyləmişdir. Ədliyyə işçisi Rafiq Yusifov dedi ki, indiyə qədər 184 nəfər Respublikanın Ədliyə Departamenti tərəfindən tibbi müayinədən keçirilmiş və ölü kimi qeydə alınmışdır. Cənab Yusifov bu rəqəmin ölənlərin çox az hissəsinə şamil oldunduğunu bildirdi. Bizə yalnız meyitlər gətirilmişdi. Gəlin o zamanki özbaşınalığı və bizim müsəlman olduğumuzu unutmayaq. Ölü 24 saat ərzində yuyulmalı və basdırılmalıdır.

Professor Yusifov bildirdi ki, bu 184 nəfərin 51-i qadın, 13-ü isə 14 yaşından aşağı olan uşaqlar idi. 151 nəfər güllə yarasından, 20 nəfər qəlpə yarasından, 10 nəfər isə küt alətlərdən aldığı yaralardan ölmüşdür. Son üç nəfər isə qar uçqununa düşüb. 33 nəfərin qulağı, burnu, döşləri, cinsiyyət orqanları kəsilmiş və gözləri çıxarılmışdır. Cənab Rəsulov dedi ki, müayinədən keçmiş 184 meyit ölənlərin üçdə bir hissəsindən də azdır.

Vertolyotun pilotunun təsdiq etdiyi sənəddə bildirirdi ki, yerdə çoxlu sayda ölü və yaralı olduğu üçün onları dəqiq saymaq mümkün olmadı. Onların sayı Xocalıda 470-500, yollarda 650-700, Naxçıvanik kəndi ətrafında 85-100 idi.

"İnsanlar əllərini yuxarı qaldırıb bizdən kömək istəyirdilər. Biz üç uşaq meyiti və sağ qalmış iki yaşlı uşaq gördük. Onun anası isə ölmüşdü. Uşaq

anasının qolundan tutaraq onu durquzmağa çalışırdı. Biz enməyə çalışdıq, amma ermənilərin bombardmana başlaması bizi qayıtmağa məcbur etdi".

"İndependent"
London, 12 İyun 1992-ci il

***

HUMAN RIGHTS WATCH

Dağlıq Qarabağ Münaqişənin Yeddi ili

"Human Rights Watch" təşkilatının Helsinki ofisinin hesabatında deyilir: "Etnik ermənilərin rus ordusunun 366-cı alayının dəstəyilə Xocalıda yüzlərlə dinc azərbaycanlıya qarşı törətdiyi soyqırım 1992-ci ildə müharibəni şərtləndirən ən əsas hadisələrdən biri oldu. 1992-ci ilin fevralında Qarabağdakı erməni qüvvələri Rusiyanın 366-cı motatıcı alayının dəstəyi ilə azərbaycanlıların məskunlaşdığı Xocalı şəhərini işğal etdi. İşğal zamanı 200-dən çox mülki vətəndaş öldürüldü.

Öldürülmüş dinc azərbaycanlıların dəqiq sayı məlum deyil. Çünki, Qarabağdakı erməni qüvvələri soyqırımdan sonra ərazini öz nəzarətləri altına alıblar. Amma 200 azərbaycanlının öldürüldüyünün qəbul olunduğu zaman, ehtimal olunur ki, 500-1000 nəfər qətlə yetirilmişdir.

"Human Rights Watch"
Helsinki, Dekabr 1994-cü il

***

Коммерсантъ

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Dağlıq Qarabağın azərbaycanlılar məskunlaşan Xocalı şəhəri ermənilər tərəfindən kütləvi hücuma məruz qaldı. Rusların 366-cı motoatıcı alayı hücumda iştirak etdi. Nəticədə 613 nəfər öldürüldü, 487-i nəfər yaralandı, 1275 nəfər əsir götürüldü, 150 nəfər itkin düşdü. Xocalı hadisələri münaqişənin xarakterini kökündən dəyişdi.

"Kommersant"
Moskva, 27 Fevral 2002-ci il

***

1991-ci ilin payızından Xocalı erməni silahlı qüvvələri tərəfindən blokadaya alınmışdı və daxili qoşunların Dağlıq Qarabağdan çıxarılmasından sonra Xocalı tam blokada vəziyyətinə düşdü. 1992-ci ilin yanvarından başlayaraq Xocalıya verilən elektrik enerjisi kəsildi. Sakinlərin bir hissəsi təcrid olunmuş şəhəri tərk etdi. Xocalı şəhər icra hakimiyyətinin başçısı E.Məmmədovun israrlı xahişlərinə baxmayaraq, dinc əhalinin tam evakuasiyası təşkil olunmadı. Fevralın 25-də erməni silahlı qüvvələri Xocalıya hücuma başladılar.

Artsax Milli Azadlıq Ordusunun birləşmələri zirehli texnikadan - zirehli maşınlar və tanklardan istifadə edərək hücumda iştirak etdi.

Fevralın 25-i gecə saat 11-də Xocalı artilleriya atəşinə tutulmağa başladı. Əvvəlcə evlərdə və postlarda qurulmuş barrikadalar dağıdıldı. Fevralın 26-sı səhər saat 1-dən 4-ə kimi quru qoşun birləşmələri şəhərə daxil oldular.

Son müqavimət səhər saat 7-də qırıldı.

Hücum zamanı Xocalıda qeyri-müəyyən sayda dinc sakin şəhərin bombardmanı zamanı qətlə yetirildi. İşğal zamanı Xocalıdan qaçmış 60 nəfər arasında "Memorial" müşahidəçiləri tərəfindən Bakıda və Ağdamda sorğu keçirmişdir. Onlardan yalnız bir nəfər "azad dəhliz"in mövcudluğu barədə xəbərdar olduğunu demişdir. Azərbaycanın Ağdam rayonu ilə qonşuluqda olan ərazidə yerləşən "azad dəhliz" boyunca qaçan qaçqınlara atəş açılmış və nəticədə çoxlu insan öldürülmüşdür.

"Memorial" insan hüquqlarına nəzarət mərkəzinin hesabatından

Şəhərdə qalan sakinlərin taleyi

Şəhərin erməni hərbi birləşmələri tərəfindən işğalından sonra təxminən 300 dinc sakin (86 məshəti türkü) şəhərdə qalmışdı.

Hər iki tərəfdən alınmış məlumata əsasən, Xocalı şəhərində və Ağdama gedən yolda əsir götürülmüş 700-dən çox sakin 1992-ci il martın 23-nə kimi Azərbaycan tərəfinə qaytarılmışdır. Onların əksəriyyəti qadın və uşaqlardır.

Xocalı sakinlərinin mülkiyyətinin taleyi

Xocalıdan qaça bilən sakinlərin öz mülkiyyətlərinin hətta ən vacib hissələrini belə götürməyə imkanları olmamışdı. Erməni silahlı qüvvələri tərəfindən əsir götürülən sakinlər də əmlaklarından heç nə götürə bilməmişdilər.

"Memorial" İnsan Hüquqlarına Nəzarət Mərkəzinin müşahidəçiləri işğal olunmuş şəhərdə böyük talanın şahidi olmuşlar. Xocalı sakinlərinin əmlakları Xankəndi (Stepanakert) və qonşu yaşayış məntəqələrinin sakinləri tərəfindən şəhərdən aparılmışdı. Evlərin əksəriyyətinin qapılarının üzərində onların yeni sakinlərinin adları yazılmışdı.

Faktların qiymətləndirilməsi

Xocalı şəhərinin dinc sakinlərinə qarşı kütləvi zorakılıq şəhərin işğalına yönəlmiş hərbi əməliyyatların həyata keçirilməsi zamanı baş vermişdi. Xocalı sakinlərinin çoxu "azad dəhliz"dən xəbərsiz idilər. Dinc sakinlərin "azad dəhliz" zonasında və ona qonşu ərazidə kütləvi qırğınına heç nə ilə bəraət qazandırmaq olmaz.

Müstəqil Dövlətlər Birliyinin qoşunlarının tərkibində olan 366-cı motoatıcı alay Xocalı hücumunda iştirak etmişdir.

"Memorial" İnsan Hüquqlarına Nəzarət Mərkəzi bildirir ki, Dağlıq Qarabağın erməni silahlı qüvvələrinin Xocalı şəhərinə hücum zamanı dinc sakinlərə qarşı etdikləri hərəkətlər Cenevrə konvensiyalarını, həmçinin 1948-ci il dekabrın 10-da BMT-nin Baş Məclisinin qəbul etdiyi İnsan Hüquqları Bəyannaməsinin aşağıdakı maddələrini kobud şəkildə pozur:

Maddə 2. Hər bir şəxs dilindən, dinindən, milli mənsubiyyətindən, yaxud digər mövqeyindən asılı olmayaraq bu Bəyannamə ilə təsbit olunmuş bütün hüquqlara malikdir;

Maddə 3. Hər bir şəxs yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüquqlarına malikdir;

Maddə 5. İnsana qarşı kobud, qeyri-insani və ya təhqiredici rəftar qadağandır;

Maddə 9. Əsassız həbs, saxlama, yaxud ekspatriasiya qadağandır;

Maddə 17. Hər bir şəxs mülkiyyət hüququna malikdir və heç bir şəxs mülkiyyət hüququndan əsassız olaraq məhrum oluna bilməz.

Silahlı birləşmələrin hərəkətləri qadın və uşaqların silahlı münaqişələr və hərbi vəziyyət zamanı müdafiəsi haqqında BMT-nin Baş Məclisi tərəfindən qəbul olunmuş Bəyannaməni kobud şəkildə pozmuşdur.

366-cı alay

Qeyd etmək lazımdır ki, Xocalı faciəsində iştirak edən 366-cı alay Xankəndidə yerləşirdi. Bu alay dəfələrlə Azərbaycan kəndlərinin, Şuşa və Xocalı şəhərlərinin atəşə tutulmasında iştirak edib. Alaydan qaçan əsgərlərin ifadələri bu faktları təsdiq edir. 366-cı alayın Xankəndidən tələsik çıxması onun Xocalı hadisələrində iştirakını açıq aydın sübut edir. Bununla alay, həm də faciənin izlərini silmək istəyirdi. 366-cı alayın zabitlərinin mənəvi tənəzzülü elə bir həddə çatmışdı ki, onlar qoşunlarının çıxarılmasını həyata keçirə bilmədilər. Gəncədə yerləşən desant qüvvələri bu əməliyyatın həyata keçirilməsinə cəlb olunmuşdu. Desantlar gəlməmişdən əvvəl isə alayın 103 əsgəri, hansılar ki, əsasən zor işlədilməsində günahlarını etiraf edən ermənilər idi, əmrə tabe olmaqdan imtina etmiş və Qarabağda qalmışdı. Alayın ali komandanlığının razılığı və qoşunların çıxarılmasına məsuliyyət daşıyan digər ali komandirlərin hərəkətsizliyi nəticəsində zirehli texnika da daxil olmaqla alayın silahlarının bir hissəsi növbəti cinayətləri törətmək, Azərbaycana qarşı seperatizmi davam etdirmək üçün ermənilərə verildi. Bu, 366-cı alayın Xocalı faciəsinin həyata keçirilməsində iştirakını sübut edən aydın bir faktdır!

"Krua I Eveneman" jurnalı (Paris) ,fevral 1992-ci il: "Ermənilər Xocalıya hücum etmişlər . Bütün dünya eybəcər hala salınmış meyit şahidi oldu"

"Sandi Tayms" qəzeti (London), 1 mart 1992-ci il: "Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər" .

Livanlı kinooperator təsdiq etmişdir ki, onun ölkəsinin varlı daşnak icması Qarabağa silah və adam göndərir .

"Tayms" qəzeti (London), 4 mart 1992 -ci il: "Çoxları eybəcər hala salınmış, körpə qızın ancaq başı qalmışdır".

ИЗВЕСТИЯ

... Döyüşdə öldürülmüş bir qaradərili muzdlunun cəsədini azərbaycan əsirləri ilə dəyişdilər.

366-cı alayın keçmiş əsgərləri də təsdiq edirlər ki, onlar bir neçə dəfə Stepanakertdə (Xankəndində) hərbi geyimdə və əli silahlı xarici muzdluları görüblər. Onlarin bir çoxuna erməni fədailərinin sıralarına qoşulmaq və bunun müqabilində müqavilə əsasında onlara aylıq 3000-4000 rubl məvacib, pulsuz yemək və içki təklif edilmişdir.

Bununla da erməni tərəfi özü də xarici əsgərlərin qəbulunu etiraf edir.

V.Belix – "İzvestiya" qəzetinin müxbiri: "Vaxtaşırı Ağdama diri girovlarla dəyişdirilmiş azərbaycanlıların meyitləri gətirilir. Belə şeyi dəhşətli yuxuda da görmək mümkün deyil, deşilmiş gözlər, kəsilmiş başlar, qulaqlar, doğram-doğram olmuş bədənlər kəndirlə bir-birinə sarınaraq zirehli maşının arxasında sürüklənmiş çıl-çılpaq meyitlər, vəhşiliyin həddi-hüdudu yoxdur". ***(Bax: "Erməni xəyanəti: Terror, soyqırım və deportasiya siyasəti" Tərtibçi S.Hüseynov. Avropa nəşriyyat servis MMC, Bakı, 2009)***

Daud Xeyriyan – Xocalı faciəsinin şahidi olan erməni yazır: "Martın 2-də erməni "Qaflan" qrupu 100-dən artıq azərbaycanlı meyitini yığaraq Xocalının təxminən bir kilometr qərbində yandırdı. Sonuncu maşında alnından və əllərindən yaralanmış təqribən on yaşlı qız gördüm; aclığa, soyuğa, aldığı yaralara baxmayaraq sir-sifəti gömgöy göyərmiş bu qız uşağı hələ sağ idi. Güclə nəfəs alırdı. Tiqranyan adlı bir əsgər hərəkətsiz qalan bu qızı götürüb meyitlərin üstünə tulladı, sonra onlara od vurdular". ***(Bax: "Erməni xəyanəti: Terror, soyqırım və deportasiya siyasəti" Tərtibçi S.Hüseynov. Avropa nəşriyyat servis MMC, Bakı, 2009)***

Xocalı soyqırımının 20-ci ildönümü dünya mətbuatında

Dünyanın nüfuzlu kütləvi informasiya vasitələri Xocalı soyqırımının 20-ci ildönümü ilə bağlı geniş məqalələr dərc etmiş, reportajlar yaymışdır. ABŞ-ın "New York Times" və "Washington Post" qəzetlərinin 25 fevral tarixli nömrələrində bütöv bir səhifə Xocalı soyqırımına həsr olunmuşdur. Bu ölkənin ən çox izləyici auditoriyası olan CNN, BBC telekanallarında da Xocalı soyqırımına həsr olunmuş reportajlar yayımlanmışdır. Bütün bu materiallarda 20 il əvvəl ermənilər tərəfindən Azərbaycanın Xocalı şəhərində

dinc əhaliyə qarşı törədilmiş kütləvi cinayət barədə məlumat verilir. Bildirilir ki, insan hüquqlarına dair Beynəlxalq "Human Rights Watch" təşkilatı bu faciəni bəşər tarixinin ən dəhşətli soyqırımı adlandırmışdır. Materiallarda Ermənistanın Azərbaycanın Xocalı şəhərində qətliam törətdiyini etiraf etməsi xüsusi vurğulanır.

Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar fevralın 26-da Bakıda 85 mindən çox insanın iştirakı ilə keçirilmiş ümumxalq yürüşü də dünyanın əksər nüfuzlu kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olmuşdur. ABŞ-ın "Washington Post", "New York Times", "Sun Sentinel", "Boston Globe" və digər nüfuzlu qəzetləri ümumxalq yürüşü ilə bağlı məqalələr dərc etmişdir. Məqalələrdə bildirilir ki, Xocalı faciəsi qurbanlarının xatirəsini yad etmək məqsədi ilə keçirilən və ön sırasında Prezident İlham Əliyevin olduğu yürüşdə on minlərlə insan iştirak etmişdir.

ABŞ-ın "Associated Press", "Reuters" agentliklərinin də saytlarında Xocalı soyqırımı, eləcə də faciənin 20 illiyi ilə bağlı keçirilən tədbirlər barədə yazılar yerləşdirilmişdir. Yazılarda bildirilir ki, 20 il əvvəl Xocalıda qadınlar, uşaqlar, yaşlılar da daxil olmaqla 613 nəfər dinc sakin qətlə yetirilmişdir.

Xocalı soyqırımının 20 illiyi ilə əlaqədar Bakıda və İstanbulun Taksim meydanında keçirilmiş izdihamlı yürüşlərlə bağlı "Euronews" telekanalı reportaj yaymışdır.

Türkiyənin "Hürriyet" qəzeti də Bakıda keçirilən ümumxalq yürüşü ilə bağlı geniş məqalə dərc etmişdir. Məqalədə qeyd edilir ki, əllərində Xocalı soyqırımı ilə bağlı şəkillərin və digər faktların əks olunduğu plakatlar tutan on minlərlə insan faciənin təqsirkarlarının cəzalandırılması, bu soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət verilməsi ilə bağlı çağırışlar səsləndirmişlər.

Türkiyənin "CNN türk" televiziya kanalının "Əyrisi - doğrusu" proqramında da XX əsrin ən dəhşətli faciələrindən biri olan Xocalı soyqırımından bəhs olunmuşdur.

Fransanın "France 24" telekanalı da Xocalı soyqırımının 20 illiyi ilə bağlı reportaj yaymışdır. Reportajda Xocalıda 613 dinc sakinin erməni silahlı birləşmələri tərəfindən qətlə yetirildiyi, hazırda Azərbaycanda bir milyondan

artıq qaçqın və məcburi köçkünün yaşadığı vurğulanmışdır. Almaniyanın nüfuzlu "Die Welt"qəzetinin 25 fevral tarixli nömrəsində Xocalı faciəsi və bütövlükdə Dağlıq Qarabağ münaqişəsi haqqında "Püskürən vulkana bənzəyən emosiyalar" sərlövhəli məqalə dərc edilmişdir. Məqalədə 20 il bundan əvvəl yüzlərlə azərbaycanlının Xocalıda qətlə yetirildiyi vurğulanmışdır.

Rusiyanın "Argumenti nedeli" qəzetində "Xocalının 20 ili: mərhəmət qıtlığı və yaddaş siyasəti" sərlövhəli məqalə dərc olunmuşdur. Məqalədə bildirilir ki, erməni silahlı dəstələrinin keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıya hücum etməsi, 613 dinc sakinin həyatına son qoyması Azərbaycan tarixinin ən faciəli hadisələrindən biri olmaqla amansız hərbi cinayətdir.

Rusiyanın "Rossiya 24" telekanalında Bakıda keçirilmiş izdihamlı ümumxalq yürüşü haqqında reportaj yayımlanmışdır. Xocalı soyqırımı ilə bağlı məlumatların da yer aldığı reportajda ön sırada Prezident İlham Əliyev olmaqla on minlərlə insanın faciə qurbanlarının xatirəsini ehtiramla yad etdiyi qeyd edilir.

"Exo Moskvı" radiostansiyasının saytında "Xocalı soyqırımının 20-ci ildönümü və ya Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı vəziyyət nə yerdədir?" sərlövhəli məqalə yerləşdirilmişdir. Məqalənin müəllifi Xocalı qırğını haqqında ətraflı bəhs edir, Moskvada azərbaycanlılara Ermənistan səfirliyi qarşısında mitinq keçirməyə icazə verilməməsinin səbəblərini başa düşmədiyini qeyd edir.

Rusiyanın "Nezavisimaya qazeta" nəşrində Xocalı soyqırımının 20-ci ildönümü ilə bağlı geniş məqalə dərc olunmuşdur. Məqalədə bildirilir ki, Xocalı hadisələrindən 20 il keçməsinə baxmayaraq, Azərbaycan xalqı erməni silahlı qüvvələrinin törətdiyi bu soyqırımını unutmur. Qeyd edilir ki, bu faciəni unutmaq mümkün deyildir. Çünki ermənilər nə qadınlara, nə uşaqlara, nə də yaşlılara rəhm etməmiş, hətta meyitləri də təhqir etmişlər.

Macarıstanın "Nepszava" qəzetində Xocalı soyqırımından bəhs edən "Qarabağ cəhənnəminin 20-ci ildönümü" sərlövhəli məqalə dərc olunmuşdur. Məqalənin müəllifi Xocalı faciəsinin tarixi, dinc sakinlərin

erməni silahlı qüvvələri tərəfindən qətlə yetirilməsi haqqında yazır.

Pakistanın geniş oxucu kütləsinə malik, urdu və ingilis dillərində nəşr olunan ***"Daily İttehad" qəzetinin*** də baş səhifəsi bütünlüklə Xocalı faciəsinin 20-ci ildönümünə həsr edilmişdir.

"Xocalı soyqırımı 20 il - erməni vəhşiliyinin zirvəsi" sərlövhəli yazıda bu qətliamı ətraflı təsvir edən şəkillər də yer almışdır. Bu qəzetin 27 fevral nömrəsi bütövlükdə Xocalı faciəsinin 20-ci ildönümünə həsr olunmuşdur. Qəzetin ana səhifəsində "Xocalı - 20 il. Xocalı soyqırımını törədənlər ədalət məhkəməsi qarşısında cavab verəcək və layiqli cəzalarını alacaqlar. İlham Əliyev" başlıqlı xüsusi reportaj dərc edilmişdir.

AzərTAc-ın fevralın 26-da Azərbaycan, ingilis, rus, fransız, ərəb və alman dillərində hazırladığı "Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar Bakıda ümumxalq yürüşü keçirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev yürüşdə iştirak etmişdir" sərlövhəli geniş reportajı fotoşəkillərlə birlikdə ***Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA), Türkdilli Xəbər Agentlikləri Birliyinin (TKA), Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin Milli İnformasiya Agentlikləri Assosiasiyasının (BSANNA) saytlarında*** yer almışdır. Reportajda bildirilir ki, 85 mindən çox insanın iştirak etdiyi ümumxalq yürüşü Xocalı faciəsi qurbanlarının xatirəsini ehtiramla yad etmək və erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədi daşıyır. Türkiyənin İstanbul şəhərinin Taksim meydanında keçirilən izdihamlı yürüş-mitinq barədə ***AzərTAc-ın xüsusi müxbirlərinin hazırladığı material da həmin beynəlxalq xəbər qurumlarının elektron resurslarında verilmişdir.*** Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyət göstərən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində keçirilən tədbirlər barədə AzərTAc-ın informasiyalarından həmin beynəlxalq qurumların üzvü olan ölkələrin xəbər agentliklərinin internet səhifələrində geniş istifadə olunmuşdur.

Pakistanın "Daily Times" qəzetinin 27 fevral tarixli nömrəsində "Azərbaycan Dağlıq Qarabağ şəhidlərini yad edir" sərlövhəli məqalə dərc edilmişdir. Məqalədə fevralın 26-da Bakıda keçirilmiş ümumxalq yürüşü və

İstanbulun Taksim meydanında təşkil olunmuş nümayişdən geniş məlumat verilmişdir.

Liviyanın aparıcı KİV-lərində də Xocalı soyqırımı ilə bağlı keçirilən tədbirlə geniş işıqlandırılmışdır. Fevralın 25-də ***"Qurina Əl-Cədidə" həftəlik qəzetinin internet səhifəsində*** "Dəhşətli Xocalı qətliamının acılı anımı və onun insanlığa qarşı təhlükələri" başlıqlı məqalə yerləşdirilmişdir. Fevralın 26-da ***"Libya" dövlət televiziyasında*** ərəb dilində səsləndirilmiş "Məhv edilmiş şəhər" sənədli filmi nümayiş etdirilmişdir.

AzərTAc-ın Tehrandakı xüsusi müxbirinin "Xocalı soyqırımı - XX əsrin ən dəhşətli bəşəri faciəsi" sərlövhəli məqaləsi İranda fəaliyyət göstərən ***"Azərbaycan Cümhuriyyəti" veb-saytında*** Azərbaycan, rus və fars dillərində yerləşdirilmişdir.

Müəllif Avropa ölkələrinin bir sıra nüfuzlu mətbuat və informasiya orqanlarında Xocalı soyqırımı ilə bağlı yayılan məlumatları tədqiq etmişdir. Həmin informasiyaların hər birində Xocalı soyqırımının dəhşətlərindən bəhs edən faktlar oxucuların diqqətinə çatdırılmışdır.

T***ehran Universitetinin Qafqaz Araşdırmaları Mərkəzinin rəsmi saytı*** Xocalı soyqırımının 20-ci ildönümü ilə bağlı dünya ölkələrində keçirilmiş anma mərasimləri haqqında ümumiləşdirilmiş məlumat yaymışdır. Məlumatda erməni faşistlərinin Azərbaycan xalqına qarşı törətdikləri Xocalı soyqırımının dəhşətli fəsad və sarsıntıları farsdilli oxuculara çatdırır, faciənin ildönümü ilə əlaqədar dünyanın əksər ölkələrini əhatə edən tədbirlər haqqında məlumat verilir.

Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar materiallara ***Meksika, Küveyt, İspaniya, İtaliya, Böyük Britaniya və digər ölkələrin*** kütləvi informasiya vasitələrində də geniş yer verilmişdir.

(Bax: http://xalqqazeti.com/ az/news/social/19773)

Misirin "ƏL-ƏƏHRA" qəzeti Xocalı soyqırımı haqqında

Misirin nüfuzlu qəzetlərindən sayılan, bir milyon tirajla çap olunan "Əl-Əhram" qəzetində "Xocalı soyqırımının 22-ci ildönümü ilə bağlı məqalə dərc edilib.

Məqalədə Xocalı soyqırımı barədə geniş məlumat verilərək, erməni silahlı birləşmələrinin törətdikləri bu vəhşiliyin nəticəsində 106 qadın, 63 uşaq və 70 qoca olmaqla 613 dinc sakinin amansızcasına qətlə yetirildiyi, 1275 xocalılının əsir və 150 xocalılının itkin düşdüyü bildirilib. Xocalı qətliamının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən ağrılı səhifəsi olduğu diqqətə çatdırılaraq, həmin faciənin Azərbaycana qarşı işğal planlarını həyata keçirməyə başlamış Ermənistan silahlı qüvvələri tərəfindən törədildiyi və XXI əsrdə ən ağır beynəlxalq terror cinayətlərindən biri olduğu xüsusilə qeyd edilib.

Bununla yanaşı, məqalədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən məlum 4 qətnamənin və digər beynəlxalq təşkilatlar tərəfindən qərarların qəbul edildiyi, lakin Ermənistan tərəfindən hələ də həmin qərarların icra edilmədiyi diqqətə çatdırılıb, Xocalı soyqırımı haqqında həqiqətlərin dünyaya yayıldığı və bir sıra ölkələrin qanunverici orqanları tərəfindən bu faciənin soyqırımı kimi tanındığı bildirilib.

Eyni zamanda, məqalədə Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn normaları, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyi önə çəkilərək, Ermənistandan məsuliyyətdən boyun qaçırmamaq tələb edilib. ***(Bax: http://www.hurriyet.az/)***

MİLLƏTÇİ ERMƏNİLƏRİ İFŞA EDƏN FAKTLAR, ETİRAFLAR…

Milli mənsubiyyətindən asılı olmayaraq, əsrlər boyu ermənilərin insanlığa qarşı törətdikləri cinayət əməllərinə, çirkin hərəkətlərinə görə onların ünvanına layiq olduqları ifadələri işlətmək olardı. Lakin mənsub olduğumuz Azərbaycan xalqının milli-mənəvi, əxlaqi, dini dəyərləri, valideynlərimizdən aldığımız təlim-tərbiyə millətimizi erməni şovinizminin tarixdə öz millətinə qazandırdığı ləkələrdən qoruyur, Azərbaycan haqqının bəşər tarixində ədalətli həllinə nail olmağa səsləyir. Ayrı-ayrı şəxslərin, qrupların həyatda, cəmiyyətdə insanlığa qarşı törətdikləri cinayətlərə, haqsızlıqlara, vəhşiliklərə görə mənsub olduqları xalqı, milləti ittiham etməkdən uzağıq. Yox, əgər bu çirkin əməllər, cinayətlər və terrorlar bir dövlət səviyyəsində müdafiə edilir, daha iyrənc əməllərə, qatı cinayətlərə və cinayətkarlara rəvac verilirsə, demək, natəmiz şəxslərin dövləti idarə etmək üçün siyasi rəhbərliyə gətirildiyi xalq barədə düşünməyə dəyər.

Xalqını, millətini sevən, onları haqq yoluna çağıran erməni ziyalıları da tarix boyu olub və bu gün də vardır. Belə ziyalıların milləti üçün yazdıqlarına, tövsiyələrinə, məsləhətlərinə biz biganə qala bilmədiyimiz kimi, güman edirik ki, elə ermənilər də biganə qalmayacaqlar.

Araşdırmalarımız zamanı əldə etdiyimiz bir material diqqətimizi cəlb etdi. Düşündük ki, ərazilərimizə köçürülmüş və zaman keçdikcə qonşularımıza çevrilmiş bu bədnam xalq öz ziyalısının, qan qardaşının onlara ünvanladığı tövsiyələrlə tanış olub özlərinə bir nəticə çıxara bilsəydilər pis olmazdı. Bəlkə bundan sonra bir yumruq kimi ədalət çırağı ətrafında toplaşıb birləşərək, sağlam təfəkkürlü ermənilər xalqını fəlakətlərə sürükləyən millətçilərə, şovinistlərə, işğalçılıq, terror ehtirası ilə yaşayan cinayətkarlara, bir sözlə milləti, xalqı rəsmi dairələrdə təmsil etməyə heç bir mənəvi haqqı çatmayan qüvvələrə: Yox! – deyə biləcəklər.

Belə ki, erməni mütəfəkkiri Ovanes Tumanyanın 104 il bundan öncə, 1910-cu ildə bədnam xalqına ünvanladığı eyni adlı yazılı fikirlərini, tövsiyələrini olduğu kimi diqqətinizə çatdırırıq. Mənsub olduğu xalqı bizdən də yaxşı tanıyan məşhur erməni yazıçı Ovanes Tumanyanın öz qan qardaş və bacılarına ünvanladığı və sizin də oxuyub tanış olacağınız bu material, bir növ onun ermənilərə verdiyi Xasiyyətnamə və həm də onlara tövsiyələri kimi təsir bağışlayır. Həmin yazını olduğu kimi çap edirik:

BƏDNAM XALQ

Qüssəli fikirlər sizə dinclik vermir, amma siz onlara məhkumsunuz və onlardan qurtula bilmirsiniz. Onlar ağır xəstəlik kimidir: sanki xərçəng, vərəm və ya vəba xəstəliyinə tutulduğunuzu bilirsiniz və xəstəlik haqqında fikirləşməyə bilmirsiniz. Onda ya xəstəlik sizə qalib gələcək, ya da, əlbəttə, əgər bundan ötrü kifayət qədər cəsarətli və ağıllı olsanız, siz bütün varlığınızla ona qarşı çıxacaq və sağalacaqsınız.

Bizim xalqımızla uzun müddət və ciddi maraqlanan insanlar həmişə belə bir kədərli nəticəyə gəlirdi ki, bu xalqın ruhunda dərd-qəm çoxdur.

Onlar bu haqda elə ürək yanğısı ilə danışırlar ki, elə bil, xəstənin sinəsində vərəm çöpləri aşkar edilib.

Amma belə açıq danışan və dürüst insanlar azdır. İnsanlar, adətən, bu və ya digər xəstəliyin mövcudluğunu təsdiq etsələr də, özlərini sağlam sayır və başqalarının xəstə olduğunu bildirirlər. Hər kəs elə hesab edir ki, o özü nə kinlidir, nə yaltaq, nə acıdil, nə yalançı, nə də intriqaçı. Hər kəs elə hesab edir ki, bütün bu xüsusiyyətlər ümumiyyətlə mövcuddur, amma şəxsən ona aid deyil!

Ancaq buna inanmaq lazım deyil. Və bizim hamımız barəsində düzgün olan yalnız budur ki, hamımız ağır mənəvi naxoşluqdan əziyyət çəkirik.

Özünüz fikirləşin.

Əgər adi kənd adamlarından, bir-biri ilə özləri ağırlıqda duz-çörək kəsmiş qonşulardan birinin torpaq sahəsi yaxşı məhsul verərsə, o biri qonşu paxıllıqdan az qala partlamağa hazırdır və ya, özləri demişkən, "qəzəbindən rəngi qaralır".

Tacirlər, hətta bir-biri ilə rəqabət aparmayanlar da, kiminsə işlərinin uğurlu olmasını eşidəndə, yuxusu ərşə çəkilir, dincliyini itirir və artıq öz işi haqqında yox, yalnız yoldaşının uğuru haqqında düşünürlər, əllərinə fürsət düşsə, ona zərər vurmaq üçün heç nəyi əsirgəməzlər.

Ruhani adama nə qədər pul versələr də, ona necə hörmət etsələr də, yenə narazı qalacaq, etiraz edəcək, haqsızlıqdan şikayətlənəcəkdir. Siz necə düşünürsünüz, bu haqsızlıq nədən ibarətdir? Həmin bu ruhani adamın fikrincə, haqsızlıq ondan ibarətdir ki, yoldaşı da onun qazandığı qədər qazanır və onun da güzəranı yaxşıdır.

Fərz edək, şəhər sakinləri və ya kəndlilər bir-birini məhkəməyə veriblər. Heç bir məhkəmə onların mübahisəsini həll edə bilmir, bu mübahisə illərlə davam edir, mübahisə edənlər çox vaxt özlərinin bütün həyatını və bütün əmlakını məhkəmə prosesinə həsr edirlər, axırda ya onlardan biri digərini boğub öldürür, ya da hər iki tərəf zərər çəkir.

Bizim öz mətbuatımız var. O, onilliklər boyu təhqir, böhtan, yalan, bədxahlıq və yaltaqlıqla məşğuldur. Bizim mətbuatımızda olduğu dərəcədə nalayiq formada məhdud dərnəkçilik təfəkkürünü bəlkə də heç bir kənddə müşahidə edə bilməzsiniz. Bir məşhur publisist danışırdı ki, onun eşitdiyinə görə, redaksiyaların birində, əsla utanıb-qızarmadan deyirdilər ki, filan yazıçı nə yazmasından asılı olmayaraq, onu daim söymək və ya onun kitabları barədə inadla susmaq, - bir sözlə, onu hər vasitə ilə məhv etmək lazımdır, özü də yalnız ona görə ki, o, bizimlə deyil, "bizimkilər"dən deyil.

Eyni xasiyyətləri milli, ictimai və ədəbi xadimlər mühitində də aşkar edə bilərsiniz. Bu xadimlərin heç biri başqasının uğuruna tab gətirə bilmir.

İndi isə müəllimlərə müraciət edək. Onlar dərs deməkdən daha çox, öz yaxınlarına qarşı fırıldaqlarla məşğul olur və dostlar arasında asanlıqla həll edilməsi mümkün olan cüzi bir məsələni həmişə şişirtməyə çalışır, hökmən rəsmi instansiyalara müraciət edərək, həm məhkəmədə, həm də mətbuat səhifələrində bir-birini ləkələyir, təqib edir, sıxışdırır, mənəvi cəhətdən öldürürlər… Heç bir yumşalma, heç bir güzəşt barədə söhbət belə ola bilməz, kin-küdurətin, nifrətin həddi-hüdudu yoxdur!

Görəsən, buna səbəb nədir?

Bunu anlamaq üçün məsələyə təbiətin və tarixin qanunları nöqteyi-nəzərindən, təbiətin və tarixin bizə bəxş edə biləcəyi təmkinli və geniş

nəzərlə yanaşaq. Bütün başqa məqamlarla bərabər, tarix bizim üçün zalım ögey ana olub. O bizi uzun əsrlər boyu barbar xalqların ayaqları altına atıb. Lakin istənilən canlı varlıq, tapdalanıb əziləndə, məhv olmasa da, eybəcərləşir, xarab olur və sərtləşir. Təbiətin qanunu belədir.

Adi xiyar tağına fikir verin. Məlumdur ki, tapdalanıb əzilmiş tağda yetişən meyvələr acı olur, onları yemək qeyri-mümkündür, - buna görə xiyar tağını tapdalamağa icazə vermirlər. Tapdalanıb əzilmiş insan da - onun ruhu, qəlbi, ağlı da eynilə bu cür acı və zəhərli olur. İnsanın daxilində üst-üstə yığılmış bu acılıq onun bütün hərəkətlərində, baxışında, sifətində, sözlərində - ümumiyyətlə hər şeydə və hər yerdə, həyatın bütün sahələrində özünü göstərir, onun bütün həyatı acı və dözülməz olur. Bu həyatda çox gözəlliklər ola bilər - "tərəqqi", "mədəniyyət", "mətbuat", "ədəbiyyat", "məktəb", "xeyriyyəçilik" - amma bütün bunlar qurdlu meyvəyə oxşayacaq.

Biz həyatın bütün bu sahələrində oxşar çatışmazlıqlardan əzab-əziyyət çəkəcəyik, bu elə bir ümumi xəstəlikdir ki, onu kənardan sağaltmaq mümkün deyil. Belə cəmiyyətdə hətta istedadlı insanlar da yetişə bilər, lakin onlar da ətiacı və bədxah olacaqlar. Belə cəmiyyətdə xeyirxah ürəkli, yüksək duyğularla yaşayan nəcib insanlar yetişə bilməz, yəni həyatı gözəlləşdirən, xalqa isə rəğbət doğuran, onu saflaşdıran məqamlar yarana bilməz.

Beləliklə, əgər bizdə milli müdriklik, mərdlik və sağlam intuisiya kimi keyfiyyətlər varsa, onda biz bütün bunlara göz yummamalı və elə düşünməməliyik ki, bizim insanlar mənəvi cəhətdən tamamilə korlanmışdır. Xəstəliyə qarşı mübarizənin birinci şərti, sağalmağın əsas şərti odur ki, biz öz bədbəxtliyimizi öz vicdanımız qarşısında və bütün dünya qarşısında etiraf edək.

Onda xilasedici mənlik şüuru oyanacaq, biz özümüzü təkmilləşdirməyə və nəcib əməllərə meyl edəcəyik.

Başqa yol yoxdur. Həqiqi qurtuluş içəridən gəlməlidir, çünki bizim iç dünyamız xəstədir.

Ovanes Tumanyan. 1910-cu il.

Hörmətli oxucu! Düşünürük ki, mənəvi cəhətdən tamamilə korlanmış erməni millətini milli müdrikliyə, mərdlik və sağlam intuisiya kimi keyfiyyətlərə səsləyən erməni mütəfəkkiri **Ovanes Tumanyanın** yazdıqlarına hansısa bir şərh verməyə heç bir ehtiyac yoxdur. Qalır ki, yalnız onun tarixi fikirləri ilə hesablaşaraq nəticə çıxaraq. Qonşularımızın kimliyini nəzərə alıb, millətimizin, dövlətimizin gələcəyi barədə daha ətraflı düşünək. Çünki, Zori Balayan, Silva Kaputikyan və onlar kimi erməni şovinist, cinayətkar yazarlar, siyasətbazlar və s. bu gün də mövcuddur və öz çirkin əməllərini davam etdirirlər.

Söz Zori Balayandan düşmüşkən, onun bir çox cinayət əməllərindən bir epizodla oxucularımızı tanış etmək istərdik.

Ermənilərin işğal etdikləri Azərbaycan ərazilərində mülki şəxslərdən girov götürdükləri əsirlərə - vətəndaşlarımıza qarşı etdikləri vəhşilikləri heç faşist Almaniyasının əsir düşərgələrində də etməyiblər. Müharibə şəraitində olub-olmamasından asılı olmayaraq insan insanla bu cür qəddarcasına, yırtıcı heyvan kimi rəftar edə bilərdimi?

Baxın görün, "Miatsum"un baş ideoloqu, ermənilərin ən çox sevdiyi, yazıçı-şair Zori Balayan "Воскрешение души нашей" ("Ruhumuzun dirçəlişi" rus və erməni dillərində, Ermənistanda hər biri 500 nüsxədə çap olunmuş bu kitablar Tovuz rayonunun kəndində əsir düşmüş erməni əsgərlərinin üzərindən götürülmüşdür) adlı kitabında 1992-ci ilin 26 fevralında Xocalıda törətdikləri soyqırım haqqında yazaraq az qala özünü milli qəhrəman kimi göstərərək, "Şərəfli hərbi çağırış" kimi əsgərlərinə tövsiyə edir. Bu vəhşi, yırtıcı canavar (onun yazdıqlarını oxuduqdan sonra Zori şərəfsizi başqa cür adlandırmaq olmaz) dinc azərbaycanlılara necə divan tutduqlarını, onlara işgəncə verilməsində necə iştirak etdiyini həyasızcasına fəxrlə yazır: "Yalnız... qəm-qüssə alovuna atılan erməni bu sətirlərdən böyük qürur duyar və məmnunluq hissi keçirə bilər.

"Biz Xaçaturla ələ keçirdiyimiz evə girərkən əsgərlərimiz 13 yaşlı bir türk uşağını pəncərəyə mismarlamışdılar. Türk uşağı çox səs-küy salmasın deyə, Xaçatur uşağın anasının kəsilmiş döşünü onun ağzına soxdu. Daha sonra 13 yaşındakı türkün başından, sinəsindən və qarnından dərisini soydum. Saata baxdım, türk uşağı 7 dəqiqə sonra qan itirərək dünyasını dəyişdi. Ruhum sevincdən qürurlandı. Xaçatur daha sonra ölmüş türk uşağının cəsədini hissə-hissə doğradı və bu türklə eyni kökdən olan itlərə

atdı. Axşam eyni şeyi daha 3 türk uşağına etdik. Mən bir erməni kimi öz vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr duyacaq*" (Bax: https://az.wikipedia.org/wiki Zori Balayan. Ruhumuzun dirçəlişi. "Vanadzor" nəşriyyatı, 1996, səh. 260-262).*

Daha bir erməni müəllif, hazirda ***Livanda*** məskunlaşmış yazıçı-jurnalist David Xerdiyan Xocalıda ermənilərin ***Azərbaycan türklərinin*** başına gətirdikləri müsibətləri "Xaç uğrunda" kitabında fəxrlə xatırlayır. "Xaç uğrunda" kitabının 19-76-cı səhifələrində Xocalı soyqırımından yazır:

"Səhərin soyuğunda biz Daşbulaq yaxınlığındakı bataqlıqdan keçmək üçün ölülərdən körpü düzəltməli olduq. Mən ölülərin üstünə getmək istəmədim. Bunu görən podpolkovnik Ohanyan mənə işarə etdi ki, qorxmayın. Mən ayağımı 9-11 yaşlı qız meyitinin sinəsinə basıb addımlamağa başladım. Mənim ayaqlarım və şalvarım qan içində idi. Və mən beləcə 1200 meyitin üstündən keçdim" ***(Bax: https://az.wikipedia.org/wiki David Xerdiyan. Xaç uğrunda. Livan, "Şərq" mətbəəsi, səh.26).***

"Martın 2-də "Qaflan" erməni qrupu (meyitləri yandırmaqla məşğul olurdu) 2000-ə yaxın alçaq monqolun (türklərin) cəsədlərini toplayıb ayrı-ayrı hissələrlə Xocalının 1 km-liyində yandırdı. Axırıncı yük maşınında mən başından və qollarından yaralanmış təxminən 10 yaşlı bir qız uşağını gördüm. Diqqətlə baxanda gördüm ki, o yavaş-yavaş nəfəs alır. Soyuq, aclıq və ağır yaralanmasına baxmayaraq, o hələ də sağ idi. Ölümlə mübarizə aparan bu uşağın gözlərini mən heç vaxt yaddan çıxarmayacam. Sonra Tiqranyan familiyalı bir əsgər onun qulaqlarından tutub artıq üzərinə mazut tökülmüş cəsədlərin içərisinə atdı. Daha sonra onları yandırdılar. Tonqaldan ağlamaq və imdad səsləri gəlirdi"***(Bax: https://az.wikipedia.org/wiki David Xerdiyan. Xaç uğrunda. Livan, "Şərq" mətbəəsi, səh.62-63).***

Erməni yazıçısı Zori Balayan öz xəstə təfəkküründən qaynaqlanan yazı-pozuları ilə xalqının, millətinin beynini pozur, onları milli çağırışa sövq etməklə, fəlakətə aparır. Bu azmış kimi müəyyən siyasi dairələrə tarixi faktları təhrif etməklə müraciətlər edir. Lap elə sonuncu dəfə Rusiya prezidenti Vladimir Putinə ünvanladığı məktubundakı kimi. Bir sözlə, elə hey sayaqlayır.

Bu məsələ ilə bağlı çox hörmətli xalq yazıçımız Anar öz "həmkarı" Zori Balayanın sayıqlamarına cavab olaraq yazır: "...Bu qorxunc talanlardan 80 il ötdükdən sonra, Azərbaycan prezidenti Heydər Əliyevin "Azər-

baycanlıların soyqırımı haqqında" imzaladığı fərmanda onlara müfəssəl qiymət verilmişdir. Fərmanda deyilir ki, "Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir".

Azərbaycan prezidentinin tam zamanında imzaladığı bu fərmanı Balayan həyasızcasına karikatura adlandırır. Görünür ki, Azərbaycan qadınlarının və uşaqların qətlləri Balayana yalnız şən gülüş bəxş edir.

Balayanın məktubunda bir-birilə uzlaşmayan məqamlar var. Əgər onun iddia etdiyi kimi, Azərbaycan türkləri adlı xalq ümumiyyətlə mövcud deyildisə, o zaman Balayanın sələfləri kimləri öldürürdülər, yandırırdılar, kəsirdilər, zorlayırdılar.

Balayanın maniakal azərifobiyasının residivlərindən biri məntiqin tamamilə yoxluğu və hər hansı tarixi reallıqların bütövlüklə inkarıdır. Gah o iddia edir ki, "Oktyabr inqilabına qədər Azərbaycan heç olmayıb", gah əmin edir ki, Azərbaycan Türkiyə tərəfindən Moskvada və Karsda yaradılıb (?-A.) (məgər bunlar sayıqlama deyilmi? –A.), gah yazır: İnqilab dalğası altında Stalinin və Atatürkün yaratdıqları, faktiki olaraq, türk respublikası (?-A.) Azərbaycan, gah da elə öz uydurmalarını unudub, "xatırlayır" ki, Zaqafqaziyadakı üç respublikanın hər birisi milli partiyalar tərəfindən yaradılmışdırlar: Gürcü menşevikləri, "Daşnaksutyun" və türk partiyası(?-A.) "Musavat". Mustafa Kamal (Atatürk) 1923-cü ildə hakimiyyətə gəlmişdi... Bundan 5 il öncə müsəlman aləmində ilk respublika quruluşlu ölkə – Azərbaycan elan olunmuşdur. Və əlbəttə ki, bu tarixi hadisəyə nə Stalinin, nə də Atatürkün heç bir aidiyyəti belə olmayıb, heç ola da bilməzdi. Müstəqil Azərbaycanın paytaxtı Bakı şəhəri oldu. Yəqin ki, Şaumyan qəbirdə çevrildi, əgər doğrudan da o, 1918-ci ildə digər komissarlarla birlikdə öldürülmüşdüsə, bu barədə indi güclü şübhələnirlər.

Bəs görəsən, öz şəxsi hədəflərinin xeyrinə təhrif etdiyi tarixi sənədlərlə manipulyasiya edən Balayana məlum deyil ki, 28 mayda müsəlman Milli Şurasının iclasında Şərqi və Cənubi Zaqafqaziyasının daxilində Demokratik Azərbaycan Respublikasının yaradılması elan edilmiş və müstəqillik haqqında Akt oxunmuşdu?

Elə həmin gün Ermənistan öz müstəqilliyini elan etdi. Azərbaycan hökuməti nəciblik edib razılıq verdi ki, Ermənistanın paytaxtı İrəvan

xanlığının əsas şəhəri sayılan və əhalisinin əksər hissəsi azərbaycanlılardan ibarət olan - İrəvan şəhəri olsun.

Tezliklə ermənilərin iştahaları Azərbaycanın digər ərazilərini - Naxçıvana, Qarabağa, Zəngəzura da düşdü (Bax: "Zerkalo" qəzeti, 27 noyabr 2013-cü il, № 219).

Zori Balayan kimdir? Özünü, millətini bəşəriyyətə məzlum, haqları tapdalanmış, genosidə məruz qalmış bir millət, xalq kimi sırımaq üçün dəridən-qabıqdan çıxmış şovinist bir erməni balası. O, ixtisasca ***"həkimdir".*** Erməni ***"yazıçısı", "ictimai xadimi"*** kimi onun özünə bənzər millətçi, şovinist qan qardaş-bacılarının sevimlisidir. Düşünürük ki, görəsən həyatda həkim, yazıçı, ictimai xadim kimi şərəfli adların daşıyıcıları olan ləyaqətli insanlar Zorini iyrənc əməllərinə, cinayətlərinə görə öz cərgələrində görmək, yazdıqlarını oxumaq, oturduğu yerdə oturmaq, ünsiyyətdə, təmasda olmaq, söylədiklərinə inanmaq istərdilərmi? Yox! Zorinin bəşər aləmində həkim, yazıçı, şair, ictimai xadim kimi şərəfli adları daşımağa heç bir mənəvi haqqı yoxdur! O, insanlara mənəvi, psixoloji və fiziki işgəncələr verməklə, zülm etməklə insanların həyatına qəsd etməkdən, günahsız körpə əsirlərin diri-diri dərilərini soymaqdan zövq alan, bir çox başqa ləyaqətsiz hərəkət və əməlləri ilə göstərdi ki, bütün bəşər övladları Zori Balayanı əsrin qatili kimi tanısın və ona nifrət etsin. Bəli, o, qatildir! İllər keçəcək, lakin o, tarixdə ləyaqətsiz əməllərinə görə lənətlənərək nifrətlə xatırlanacaqdır.

Əvvəldə qeyd etdiyimiz kimi, bəs özünü yazıçı-jurnalist kimi təqdim edib ermənilərin insanların başına gətirdikləri müsibətlərdən fərəhlə yazan ***David Xerdiyan*** kimdir? Bir anlığa təsəvvür edin, əgər bu xalqın ziyalısı, həkimi, yazıçısı, şairi, ictimai xadimi, jurnalisti belədirsə, bəs təsəvvür edirsinizmi ki, vətəndaşı olduğu dövlətin hərbçiləri, əlisilahlıları necə ola bilər?

Dünya ictimaiyyətinə, insan haqlarının müdafiəçilərinə, parlamentlərə və onların deputatlarına, dövlət başçılarına, bir sözlə, bütün beynəlxalq, təşkilatlara, mühakimə orqanlarına müraciət edərək soruşmaq istərdik: Siz deyin, insanlığa, bəşəri dəyərlərə zidd olan cinayət əməllərindən ruhu sevincdən qürurlanan Zori Balayan kimdir? "Mən bir erməni kimi vəzifəmi yerinə yetirdim. Bilirdim ki, hər bir erməni hərəkətlərimizlə fəxr duyacaq" – deyən qatil erməni millətinin vəzifəsini etdikləri əməllərdə həyasızcasına etiraf etmirmi? Zorinin, Davidin və onlar

kimilərin hərəkət və əməllərinə ədalət naminə hüquqi qiymət verilsəydi, sizcə onların adları bu gün necə səslənərdi – həkim, yazıçı, jurnalist, yoxsa cinayətkar?

Siz deyin, indi söz sizindir!

Şübhəsiz, müəyyən dairələrdə siyasi, hərbi dəstək almadan belə cinayətlər törədilə bilməz. Bu cür dəstəyi almaq üçün, əlbəttə böyük maliyyə mənbələri tələb olunur. Beynəlxalq erməni terror təşkilatları ermənilərin işğalçılıq siyasətini həyata keçirmək üçün xarici diaspor təşkilatlarının, beynəlxalq aləmdə fəaliyyət göstərən, qeyri-qanuni yollarla böyük maliyyə strukturlarını ələ keçirmiş iş adamlarının və erməni kriminal aləminin maliyyə dəstəyi ilə istənilən səviyyədə təmin edilirlər. Həmin maliyyə mənbələrindən ermənilərin siyasi dəstək almaları üçün müəyyən siyasi dairələrdə beynəlxalq erməni terror dəstələrinin, silahlı qrupların, cinayətkar şəbəkələrin maliyyələşdirilməsində də istifadə edilir.

"XX yüzilliyin ən **məşhur erməni kinorejissoru S.İ.Paracanov** (1924-1990) ölümündən bir qədər əvvəl Fransanın "Liberation" (Liberasyon) qəzetinə verdiyi müsahibədə övladı olduğu xalqı bu cür səciyyələndirmişdi: *"Mən erməni xalqını iki kateqoriyaya bölərdim. Birinci kateqoriya, öz missiyası ilə təmsil etdiyi Sasunlu Davudun ənənələrini qoruyub saxlayan xalqın mədəniyyətinin daşıyıcısı olduğunu dərk edir. İkincisi isə, təəssüf ki, bu gün öz eybəcərliklərini nümayiş etdirən azğın kütlədir. Zənnimcə, artıq humanist olan digər fəaliyyət üsulları axtarıb tapmaq, insan qurbanlarından çəkinmək lazımdır."* ***(Bax: "Liberasion" qəzeti, 8 noyabr 1988-ci il).***

"Hazırki məqalədə söhbət S.İ.Paracanovun təbirincə desək, məhz azğın "kütlə"dən, başqa sözlə, ermənilyin müəyyən hissəsinin fəaliyyətinin neqativ tərəflərindən gedəcək. Məhz bu hissə qanuna zidd kriminal fəaliyyətlə, o cümlədən reket, zorla pul qoparmaq, insanların oğurlanması, siyasi və məişət qətlləri, quldur "razborka"ları, narkotik ticarəti və hətta, nüvə terrorçuluğu ilə məşğul olur, avtoritetlər – "qanuni oğrular" yetişdirir, "etnik" mütəşəkkil cinayətkar qruplar yaradır, çirkli pulları yuyur. Ermənilərin "azğın kütlə"si bu əməllərlə öz-özünə və təsadüfdən-təsadüfə məşğul olmur. XIX əsrdən başlayaraq bu fəaliyyətin surəti artır, o artıq regional miqyasdan beynəlxalq miqyasa qədər genişlənmiş və bu gün də parmanent şəkildə davam etməkdədir.

Beləliklə, SSRİ-nin süqutundan sonra istiqlaliyyət əldə edən Qafqaz Ermənistanı qanuna zidd fəaliyyət göstərən ermənilərə dövlət səviyyəsində hər cür dəstək verərək çoxşaxəli terrorçuluğu özünün təcavüzkar xarici siyasətində başlıca üsullardan birinə çevirmişdir. Çoxsaylı faktlar, məhkəmə-istintaq materialları sübut edir ki, Azərbaycana və azərbaycanlılara qarşı törədilən bütün terrorçuluq aktları rəsmi İrəvan tərəfindən qabaqcadan maliyyələşdirilmişdir.

Ermənilərin heç bir məqaləsində, hətta etika və elmi düzəliş xatirinə olsa belə, xatırladılmır ki, ermənilərin XIX əsrin ilk onilliklərində Cənubi Qafqazda peyda olaraq Kiçik Asiyada dörd dəfə itirdikləri dövlətçiliklərini yaratdıqları torpaqlar Azərbaycan torpaqlarıdır. Lakin ermənişilərə əlçatan olan hər bir mənbədə isə göstərilir ki, ermənilərin 1918-ci ildə Cənubi Qafqazda dövlətlərini yaratdığı ərazi Azərbaycan Səfəvi dövlətinin bəylərbəyliklərindən biri olmaqla Azərbaycan torpağıdır. Burada 1747-1828-ci illərdə Azərbaycanın İrəvan xanlığı mövcud olmuşdur. Bu xanlıq 1828-ci ildən sonra Erməni vilayətinə, 1859-cu ildən Rusiya İmperiyasının Qafqaz canişinliyinin İrəvan quberniyasına, 1918-ci ildən Ararat Respublikasına, 1920-ci ildən SSRİ tərkibində Ermənistan SSR-ə, 1991-ci ildən isə müstəqil Ermənistan Respublikasına çevrilmişdir.

Beləliklə, yuxarıda qeyd olunanlar sübut edir ki, dahi erməni kinorejissoru S.İ.Paracanov tərəfindən "azğın kütlə" kimi səciyyələndirilən ermənilərin gerçəkdən də müəyyən hissəsi qanunazidd fəaliyyətlə məşğul olur. Bu fəaliyyət XIX yüzillikdən başlamış bu günkü günə qədər "kilsə-partiya-diaspor" erməni triadasının himayəsi altında gerçəkləşdirilir. Onun təsnifatı, istiqamətləri, xüsusiyyətləri, seçmə qabiliyyəti yuxarıda müəyyən edilmiş və səciyyələndirilmişdir. Biz artıq vurğulamışıq ki, ermənilərin hüquqazidd fəaliyyəti dəqiq ifadə olunmuş məqsədyönlü ermənipərəst xarakteri daşıyır. Bu, "dənizdən-dənizə böyük Ermənistan"ın yaradılması, virtual "erməni məsələsi"nin həlli və mifik "ermənilərin 1915-ci il soyqırımı"nın tanınmasıdır. Bu, dəqiq ünvanlı fəaliyyət göstərən, belə deyək, Qərbi Avropada "qırmızı briqadalar"ın, Böyük Britaniyada İRA-nın, İspaniyada ETA-nın, Yaponiyada "Aum sinrikö"nün fəaliyyətindən fərqlənir" ***(Bax: Марк Мишин. Одна из историй и антиисторий Кавказа". Москва, 2012).***

Diqqətinizi ermənilərin qanunazidd və kriminal fəaliyyətinin "etnik cinayətkarlığın" parlaq və "örnək misallı" nümunəsi olduğunu sübut edən jurnalist Nikolay Kiselyovun bir məqaləsini bütünlüklə, heç bir şərh vermədən oxucularımıza təqdim edirik. Bütün dünyada fəaliyyət göstərən cinayətkar erməni etnik sindikatı haqqında istərdik ki, oxucular nəticə çıxarsın:

"Mafiya təkcə siciliyalılarda olmur. ABŞ və Avropa İttifaqının hüquq-mühafizə orqanları "etnik cinayətkarlığın" fəaliyyətini izləyən xüsusi bölmələr yaradırlar. Buna açıq-aşkar böyük ehtiyac duyulur: düz elə keçən həftə (2011-ci ilin fevralı) ABŞ-ın xüsusi xidmət orqanları təxminən 1000 nəfər agentin iştirak etdiyi əməliyyat nəticəsində Armenian Power adlı güclü küçə dəstəsinin onlarca üzvünü həbs etmişdir. Keçmiş SSRİ mühacirlərindən ibarət olan bu qrup Hollivudun qərb rayonlarında fəaliyyət göstərsə də, onların saxlanılması bütün ABŞ ərazisi boyu həyata keçirilmişdir. 100-ə yaxın insan zorla pul qoparmada, çirkli pulların yuyulmasında və narkotiklərlə ticarətdə ittiham edilmişdir. ABŞ hakimiyyət orqanlarının təmsilçiləri KİV-ə məlumat vermişlər ki, Armenian Power öz mənbəyini 1980-ci illərin sonlarında Los-Ancelesə gələn erməni mühacirlərindən götürür.

Bax belə. Lakin müxtəlif xalqlardan ibarət olan "sprut"la səmərəli mübarizə aparmaq üçün təkcə polis tədbirləri kifayət deyil. ABŞ-da böyük səs-küyə səbəb olmuş "Kazaryanın işi" üzrə materiallara istinad etsək, milli cinayətkar qruplar siyasətçilərin, həm də təkcə tərk etdikləri vətənlərinin siyasətçilərinin deyil, başqalarının himayəsi altında da bütün dünyada "işləyirlər".

Ötən ilin sonlarında ABŞ-da yaşanmış kriminal qalmaqalı Amerikanın bütün ədalət mühakiməsi sistemi üçün fövqəlhadisə adlandırmışlar. 2010-cu ilin oktyabrın ortalarında ABŞ-ın Federal Təhqiqat Bürosu ölkənin digər hüquq-mühafizə orqanlarının dəstəyi ilə son onilliklərin ən iri fırıldaqçılığının üstünü açmışdır. FTB agentləri demək olar ki, bircə gün ərzində erməni cinayətkar sindikatının 70 üzvünü həbs etmişlər. Bu sindikata daha çox Pzo ləqəbi ilə tanınan qanuni oğru Armen Kazaryan başçılıq edirdi. Mühacirlərin mütəşəkkil və çoxsaylı qrupu qanunsuz silah, qiymətli daşlar və nadir metalların dövriyyəsi, narkotik qaçaqmalçılığı, adamların oğurlanması və zorla pul qoparmaqla məşğul olurdu. Quldur dəstəsinin xüsusi "bölməsi" yerliləri üçün saxta sənədlər hazırlayaraq ABŞ-ın miqrasiya xid-

mətini müvəffəqiyyətlə aldadırdı. Lakin erməni mafiyası üçün başlıca gəlir mənbəyi ahıl yaşlı insanlara tibbi yardım proqramı olan "Mediker" idi.

Gəlmə fırıldaqçıların ABŞ-ın siyasi sisteminə vurduğu ziyan bu yaxınlarda baş verən maliyyə böhranının nəticələri ilə tam şəkildə müqayisə edilə bilər. Oğurladıqları pulları işə salan erməni cinayətkar qruplarının üzvləri Amerika ştatlarının yarısında 118 saxta tibb klinikaları açmışlar. Sonra isə "Mediker" sistemi vasitəsilə ödəniş üçün ümumi məbləği təxminən 100 milyon dollar olan saxta hesablar irəli sürmüşlər. Quldur dəstəsinin soyğunçuluğunu şərh edən prokuror Prit Bxararın qeyd etdiyi kimi, cinayətkarlar heç kimin heç kimə göstərmədiyi tibbi xidmətlərə görə 35 milyon dollar vəsait əldə etməyə müyəssər olmuşlar. Pulları qaytarmaq heç də asan iş deyildi. Rusiya və xarici informasiya agentliklərinin bildirdiklərinə əsasən, oğurlanmış milyonların izləri dərhal bir neçə erməni bankında üzə çıxmışdır. İstintaq zamanı cinayətkarların aşkarlanan əlaqələri isə Ermənistanda və Rusiyada ali dövlət hakimiyyəti orqanlarına gətirib çıxarmışdır.

Pzo və digər rəsmi şəxslər

Kazaryanın yüksək vəzifəli himayəçilərinin olması haqqında məlumatlar çətin ki, FTB üçün gözlənilməz xəbər olardı. Pzonun ABŞ ərazisində peyda olması birbaşa korrupsiya ilə əlaqədardır. "Woll-Street Journal" qəzetinin bildirdiyinə görə, Kazaryan 1996-cı ildə sırf fırıldaqçılıqla və məmurların köməyilə ABŞ-dan siyasi sığınacaq almışdır. Bu "qaçqın" dəbdəbəli binalarda məskunlaşaraq, qiyməti 350 min dollar olan təmtəraqlı "Rolls-Roys"la Los-Anceles küçələrində gəzirdi. Lakin Pzo heç də "yeni amerikalı"ya çevrilmədi, o, müntəzəm olaraq öz vətəninə işgüzar səfərlər edirdi. Üstəlik, əcdadlarının torpağındakı görüşlər diplomatik protokol dili ilə desək, yüksək dövlət səviyyəsində keçirdi. Erməni Milli Konqresinin koordinatoru Levon Zurabyandan iqtibas gətirən "Armenia Today" internet portalı xəbər verir ki, "... cinayətkar qrupunun rəhbəri, qanuni oğru Armen Kazaryan Robert Koçaryan və Serj Sarksyanla (Ermənistanın keçmiş və indiki prezidentləri) sıx münasibətdə olmuşdur".

Belə çıxır ki, ali dövlət məmurları ilə Ermənistanın keçmiş prezidenti Koçaryanın oğlunun toyunda hörmətli qonaq qismində iştirak edən kriminal avtoritet Pzo arasındakı dostluq əlaqələri qarşılıqlı, sərfəli olmuşdur. Belə

ki, Ermənistanın Los-Ancelesdəki keçmiş konsulu Norayr Qalumyan öz ölkəsinin hökuməti adından Kazaryanın müştərilərinə saxta məktublar satmaqla heç də pis qazanmamışdı. Bu məktublarda göstərilir ki, Ermənistan mühacirlərə yol sənədləri verə bilməz, bu da onların vətənə qayıtmasının qarşısını alardı. Levon Zurabyanın iddiasına görə, Pzo öz növbəsində 2008-ci ilin prezident seçkilərində "...kriminal aləmin fəaliyyətini Levon Ter-Petrosyana qarşı (eks-prezident, hazırda Ermənistan müxalifətinin lideri) istiqamətləndirirdi". Nəticədə, bədnam "inzibati resurs" vətənə növbəti səfərlərinin birində həbs edilən Kazaryanın 2009-cu ilin aprelində İrəvan həbsxanasından müəmmalı qurtuluşunu mümkünləşdirmişdir. Quldur dəstəsinin başçısının azadlığa buraxılması üçün bu dəfə də cəhdlər göstərildi. Ermənistanın bəzi rəsmi şəxsləri Kazaryanın Ermənistana deportasiyasının zəruriliyi haqqında ciddi bəyanatlar verdilər. Amerika cəmiyyətinin xoşbəxtliyindən Pzonun təsir dairəsi ABŞ hakimiyyətinə qədər gedib çıxmadı. Əvəzində, FTB-nin apardığı təhqiqat cinayətkar qrupun lideri ilə Rusiyanın yüksək mənsəbli məmurları arasındakı çoxsaylı əlaqələri üzə çıxartdı.

Əlbəttə, amerikalıların aşkarladıqları məlumatlar olmasaydı belə, Rusiyanın hüquq-mühafizə orqanları erməni cinayət dünyasının ölkə iqtisadiyyatına və siyasətinə müdaxiləsinin miqyaslarından yaxşı xəbərdar idilər. Belə ki, The First News İnformasiya Agentliyinin məlumatına görə, son vaxtlar Rusiyanın hüquq-mühafizə orqanları tərəfindən qaldırılan cinayət işlərində erməni siyasəti və biznes elitasının 32 nümayəndəsi iştirak edir. Agentliyin qeyd etdiyi kimi, burada söhbət narkotik və çirkli pulların yuyulmasından gedir. Erməni kriminal elitasının görkəmli təmsilçiləri daha az "texnoloji" olan cinayətlərdən də çəkinmirlər. Belə ki, ötən il oktyabr ayının sonlarında İrəvan Rusiya tərəfinə Novqorod kriminal birliyindən zorla pul qoparmaqda ittiham olunan liderlərindən birini təhvil vermişdir. Səciyyəvi hal ondan ibarətdir ki, "Novqorodun sahibi" kimi tanınan bu kriminal avtoritet bir vaxtlar Novqorod vilayətinin keçmiş qubernatoru Mixail Prusakın siyasi məsələlər üzrə müşaviri vəzifəsini tutmuş, habelə Rusiyanın bir neçə ad və fəxri mükafatına layiq görülmüş, hətta, 2002-ci ilin yayında "Dostluq" ordeni ilə təltif edilmişdi. Rusiyada Dövlət Dumasının LDPR fraksiyasından olan deputatı Aşot Yegiazaryan heç də ondan az məşhur deyil. Onu deputat toxunulmazlığından məhrum edən Rusiya parlamenti bu yaxınlarda cinayət işinin başlanmasına icazə vermişdir. Hazırda bu görkəmli "siyasətçi"

milyardlarla vəsaiti oğurlamaqda ittiham edilir. Üstəlik, parlament üzvünün fəaliyyətindəki bəzi aspektlər FTB-ni də maraqlandıra bilər: iş ondadır ki, deputatın qardaşı biznesmen Suren Yegiazaryan elə həmin Pzonun ətrafında peyda olmuşdur.

Qitələrarası cinayət işi

Aydındır ki, ABŞ, Rusiya və digər maraqlı ölkələrin hüquq-mühafizə orqanlarının bir aydan da az müddətdə apardıqları təhqiqatlar etnik cinayətkar qrupun möhtəşəm aysberqinin yalnız üst hissəsini öyrənməyə imkan vermişdir. Rusiyanın əksər ekspertlərinin qeyd etdikləri kimi, "Kazaryanın işi"nin gələcək araşdırmaları mütləq yeni hay-küylü qalmaqallara səbəb olacaq. "The First News" İnformasiya Agentliyinin məlumatına görə, Amerika hakimiyyəti cənab Kazaryanla bu və ya digər şəkildə bağlı olan digər Ermənistan banklarının yoxlanılması tələbini irəli sürmüşdür. Bundan başqa, FTB cinayətkar qrupun nümayəndələri tərəfindən çoxsaylı bahalı mənzil, ofis və mülklərin əldə edilməsinin qanuniliyini yoxlayaraq, İrəvan notariat idarələrinin sənədlərini diqqətlə öyrənmək niyyətindədir. Yəqin ki, təhqiqatlar Rusiya elitasının bəzi nümayəndələrinə də toxunacaq. Burada söhbət daha çox Ded Hasan kimi tanınan Rusiyanın kriminal dünyasının patriarxı Aslan Usoyonla olan əlaqələrdən getmir.

Bəzi xarici informasiya agentliklərinin məlumatına görə, Rusiya DİN MDB ərazisində və onun hüdudlarından kənarda törədilən əksər cinayətlərin izlərinin məhz Los-Ancelesin erməni diasporunda, Kazaryanın "malikanəsində" gizlədilməsi barədə məlumatlara malikdir. Çox güman ki, "təmizlənməli" olan ikinci "mafiya yuvası" İspaniyada yerləşir. Bu yaxınlarda məhz burada, Marbelya şəhərində polis Martin Babakexyanı həbs etmişdir. O, 2002-ci ildə törədilən Maqadan vilayətinin qubernatoru Valentin Svetkovun qətlində şübhəli bilinir. Lakin yəqin ki, başlıca zərbə Ermənistanın özündə gizlənən cinayətkar birliyə vurulacaq. FTB, İnterpol və digər nüfuzlu hüquq-mühafizə orqanlarının apardıqları təhqiqatların obyektləri həm ABŞ, İspaniya və Rusiyadakı etnik erməni qruplarının cinayətkar fəaliyyətlərinin birbaşa koordinatorları, həm də kriminal avtoritetlərin hakimiyyət orqanlarındakı himayəçiləri ola bilərlər. Üstəlik, bu işdə korrupsiyaya uğramış erməni məmurları doğma vətənlərinin müdafiəsinə bel bağlaya bilməzlər. Məsələ ondadır ki, etnik cinayət qrupları təkcə fırıldaqçılıqla məşğul deyillər. Belə ki, bu yaxınlarda Ermənistanın iki vətəndaşı –

Smbat Tonoyan və Qrant Ohanyan atom bombası hazırlamaq üçün yararlı olan yüksək zənginləşdirilmiş uranı qaçaqmalçılıq yolu ilə Gürcüstana keçirməyə cəhd göstərərkən həbs olunmuşlar. Bəzi məlumatlara görə, bu "mal" Yaxın Şərq ölkələrindən birinin yararlıları üçün nəzərdə tutulmuşdu. Bundan az sonra isə Qərb ölkələri nüvə terrorizmi təhdidinə birdəfəlik son qoymaq barədə öz qətiyyətlərini bildirmişlər. Ayrıca götürülmüş ölkənin dövlət suverenliyi, çətin ki, buna əngəl olsun". ***(Bax: Киселев Николай, Армянский спрут// http://www.rospres.com/crime/7926).***

Ermənilər öz məqsədlərinə çatmaq üçün heç kimdən, heç nədən çəkinmədən ən qatı cinayətləri belə törətməyə qadirdilər. Bu faktları oxucularımızın nəzərinə çatdırmaqda məqsədimiz, onların diqqətini Qarabağ probleminin yaranmasında heç də az əhəmiyyət kəsb etməyən bəzi çirkli, lakin zəruri məqamlara cəlb etmək və bu tarixi həqiqətləri oxucu kütləsinin mühakiməsinə təqdim etmək idi. Hansısa əlavə bir şərh vermək istəməzdik. İstərdik ki, bu materiallarla tanış olan hər bir oxucu özü nəticə çıxarsın.

ERMƏNİ MƏNŞƏLİ DÜNYA ALİMLƏRİ VƏ ELMİ İCTİMAİYYƏT TARİXİ HƏQİQƏTLƏRİ SAXTALAŞDIRMAQDA ERMƏNİ HƏMKARLARINI İTTİHAM EDİRLƏR

Məşhur fransız sosioloqu Mark Ferro tarixçilərin öz xalqının və qonşu xalqların keçmişinə münasibəti ilə əlaqədar, demişdir: "Bu gün hər bir millətin və ya demək olar ki hər bir millətin, biri digərinin üstünə qoyulan və biri başqası ilə müqayisə edilən bir neçə tarixi var". Həqiqətən, istənilən milli şüur kimi, istənilən xalqın tarixi də mifolojiləşdirilmişdir. Milli şöhrətpərəstlik, elmi yanaşma kimi - elmə zidd və yalandır, səhv və düşməncəsinə yanaşmadır. O, qonşulara, xüsusən, sənə sığınacaq vermiş qonşuya neqativ təsir etməməlidir.

Təcavüzkar erməni separatçılarının ünvanına əsaslı şəkildə söylədiyimiz bütün sərt ittihamlar ümumilikdə, erməni xalqına qarşı yönələn qərəzli münasibətin göstəricisi kimi qəbul edilməməlidir. Çünki dünyanın müxtəlif ölkələrində yaşayan, kifayət qədər milli mənsubiyyətinə hörmət və qayğı göstərən erməni alimləri, ziyalıları var ki, onlar tarixi faktlara, reallığa istinad edir, qan qardaş və bacılarından "Böyük Ermənistan" adlı xəstəliyə düçar olmuş beyinlərə nicat yolunu göstərirlər.

Tarixi həqiqətlərlə əhatələnmiş "Leyla Əliyeva: "Xocalıya Ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model)" adlı bu kitabda bəhs edilən hər bir mövzunu sözsüz ki, sübuta yetirə biləcək zəngin fakt və sənədlər mövcuddur. Belə ki, ermənilərin sağlam düşüncəli alimləri və ictimai xadimləri öz erməni həmkarlarının tarixi həqiqətləri təhrif etmələri barədə söylədikləri fikirlər dövrü mətbuat səhifələrində, müxtəlif elmi dərgilərdə çap edilmişdir. Nümunə kimi bu məqalələrdən bir neçəsini qısa şəkildə oxucularımıza təqdim edirik.

Siyasi tədqiqatlar Mərkəzinin direktoru **Artyem Xaçaturyanın "Yeni ideologiya haqqında fikirlər"** adlı məqaləsindən:

"**Bu gün Ermənistanın bütün siyasi partiyalarında tarix və bu səbəbdən, dəyərlər, hansıları ki, onlar öz ideologiyalarının başında qoyurlar, düşünülmüş şəkildə yanlış şərh edilirlər.** Məsələn, ilk respublikanın (Ermənistanın. Tərc. qeydi. S.S.) tarixi son dərəcə təhrif olunur, onun

xadimləri isə böyük tarixi fərdlər kimi qələmə verilir, halbuki, əslində onlar bayağı fırıldaqçılar və quldurlar idilər. Lakin fəlakət bundadır ki, bütlərin dərəcəsinə qaldırılan yanlış dəyərlərin və saxta qəhrəmanların xalqa zorla qəbul etdirilməsi faciəvi nəticələrə gətirib çıxarır. Çünki, birincisi, **yeni, sağlam dəyərlərin mənşəyi üçün imkan avtomatik olaraq ləğv olunur; ikincisi, Ermənistan respublikasının bugünkü reallıqları, həmçinin, "qəhrəmanların" özbaşınalığı, zorakılıq və s. bəraət qazanır və leqallaşır"** ***(Bax: "Nasionalnaya ideya" jurnalı, sentyabr 2008-ci il., №6).***

Tarix elmləri doktoru, Ermənistan Respublikasının MEA-nın müxbir üzvü, Ermənistan MEA-nın Tarix İnstitutunun direktoru **Aşot Melkonyan "Dövlətin siyasəti elmi bilgilər üzərində qurulmalıdır"** adlı məqalədə deyir: "...Bu yaxınlarda Moskvada böyük tirajla -18000 nüsxə ilə Suren Ayvazyanın "Erməni izi" adlı kitabı çapdan çıxdı, hansı ki, erməni xalqını yalnız nüfuzdan sala bilər. Rusiya Elmlər Akademiyasının Tarix İnstitutunun direktoru A.Saxarov mənə danışırdı ki, kitabın adını görüncə, o, əvvəlcə elə zənn etdi ki, burada söhbət erməni cinayəti haqqında gedəcək. Ancaq görünür, müəllif vətənpərvərlik hisslərinin təsiri altında olaraq, erməni tarixi və bir çox başqa prinsipial məsələlər haqqında yaranmış öz xəyalını təqdim etmişdir. Kitabda hətta tarixi Ermənistanın İspaniyadan Hindistana qədər olan əraziləri tutduğunu əks etdirən xəritələrdə də vardır. Müəllif eləcə də, iddia edir ki, **dahi insanların hamısı erməni olublar** və "gürcü" sözünün izahını verir. Guya, gürcülər rus şairlərinin yükvuran fəhlələri işləyiblər və məhz buna görə də onları gürcü adlandırıblar. Bu kitabla tanış olan gürcü həmkarlarımın suallarını cavablandırmaqda mən hədsiz xəcalət hissi keçirirdim" ***(Bax: "Qolos Armenii" qəzeti, 21 dekabr 2006-cı il).***

Qeyd. *Müəllif Suren Ayvazyan gürcü sözünü rus dilində ("qruzin-qruzçik" deməkdir " məntiqilə") təhlil etməyə çalışır.*

Erməni aliminin, ziyalısının söylədiyi bu fakt bir daha onu təsdiqləyir ki, ermənilər harada yaşasalar, sığınacaq tapsalar, o torpaqlarda mütləq ərazi iddiaları qaldıracaqlar və hətta oranı əzəli erməni məskəni də elan edəcəklər. Yaxşı olardı ki, erməni millətçilərinin bu rüsvayçı "məntiqi" haqqında təkcə özləri deyil, əsrlər boyu onlara qucaq açan havadarları da düşünüb, xəcalət çəkərdilər. Onu da qeyd edək ki, erməni ziyalılarının məhz bu kimi etirafları (işğalçı adından qurtulmaq cəhdləri) hələ uzaq keçmişdə belə bu xalqın

özləri haqqında yaratdıqları və formalaşdırdıqları qorxaq, yaltaq, yalançı, istilaçı kimi stereotipləri aradan götürə biləcək yeganə vasitələrdən biridir. Yeri gəlmişkən, böyük rus şairi A.S.Puşkinin "sən kölə, sən oğru, sən ermənisən" kimi məşhur ifadəsini hər kəs yaxşı xatırlayır... Bəs görəsən rus klassikinin fikrini bu cür kəskin misralarla söyləməyə məcbur edən nə idi? Şübhəsiz ki, yazılmış bu misralar şair müşahidələrinin, ünsiyyətinin ifadəsi idi.

Davam edək. Erməni mənşəli alim-qafqazşünas, Ermənistanın və Qafqaz Albaniyasının tarixi üzrə mütəxəssis, 1967-1999-ci illərdə müəllimlik etdiyi Rouen Universitetinin professoru **Robert Xyusen** bunları qeyd edir:

"Bizlərdən o kəslər ki, ermənilərin yerli mənşəyindən (hansı ki, özlüyündə çox mübahisəli bir məsələdir) şübhələnirlər, antierməni kimi damğalanırlar. Erməni məsələsinə (genosid nəzərdə tutulur) yeni üsulla yanaşmağı təklif edən digər alimlər isə xəyanətdə ittiham edilirlər.

Nə zaman ki, mən öz tarixi atlaslarımda təxmin etdim ki, ermənilərin qərb əyalətləri tarixən onlara aid deyildi, ancaq onlar bu torpaqları istila ediblər, kitabıma resenziya yazan erməni tarixçisi məndən soruşdu: "sizcə, amerikalı senator yazdıqlarınızı oxuduqdan sonra onlar haqqında nə düşünəcək?"...

Yerevanda məni hətta bir qədər səbirsizliklə inandırırdılar ki, biz Qərbdə tədqiqat aparmaq cəhdləriylə özümüzə əziyyət verməməliyik və əgər, sadəcə, Ermənistan Elmlər Akademiyası tərəfindən tərtib edilmiş materialları başqa dillərdə yenidən nəşr etsək, Ermənistana daha yaxşı xidmət etmiş olarıq. Yerevanda bir tədqiqatçı mənə yalvarırdı ki, onun Azərbaycanın Qarabağa olan iddialarını təkzib edən kitabını ingilis dilinə tərcümə edim. Mən deyəndə ki, şəxsi işim mənə yol vermir ki, onun əhəmiyyətli hesab etdiyi bu təşəbbüsü qəbul edim, o, çox təəccüblənmişdi". (Bax: "İstoriya armyanskoqo naroda s antiçnıx vremen do sovremennosti" adlı məqalələr toplusunun "The geography of Armenia" fəslindən sitatlar. New York.1997).

Ermənilərə havadarlıq edənlərin onlara göstərdiyi bəsit və bayağı "himayəsini" ifşa edən daha bir erməni aliminin etiraflarına nəzər salaq. Belə ki, tibb elmləri namizədi, neyrofizioloq, erməni Şurasının "Ararat" mədəni-maarifçilik cəmiyyətinin sədri, Rusiya ermənilərinin, çoxəsrlik rus-erməni münasibətlərinin tarixi üzrə müntəzəm olaraq "Lazarev oxumaları-

nın" təşkilatçısı **Emanuil Dolbakyan "Neçə dil bilirsən, o qədər də insansan"** sərlövhəli məqaləsində yazır:

"Bir neçə il bundan öncə, "Suvorov və ermənilər" ("Armyanskiy vestnik", №14(85), iyul 1995-ci il.) məqaləsində mən bunları oxudum: "Suvorov ermənilərə göstərdiyi şəfqəti gizlətmirdi... O, Moskvada Lazarev adına Şərq Dilləri İnstitutunun yaradılmasında bilavasitə iştirak etmişdir. Sonradan burada Lermontov, Turgenev, Lev Tolstoy, Stanislavskiy və rus mədəniyyətinin bir çox digər böyük xadimləri təhsil almışdırlar". Bir də ki: "Suvorov mükəmməl təhsil almış bir insan idi. O, şeirlər yazırdı, şair Derjavinlə dostluq edirdi və əla şəkil çəkirdi... Suvorov rus dilindən başqa alman, fransız, italyan, polyak, türk, ərəb, fars, fin dillərini də yaxşı bilirdi. Şübhəsiz ki, o, erməni dilini də bilirdi - anasının və babasının vasitəsilə. Güman etmək olar ki, ermənilərin köçürülməsi zamanı, eləcə də Lazarev institutunun iclaslarındakı çıxışları zamanı o, danışıqları erməni dilində aparırdı". (Mən tərəfdən qeyd olunub. -**E.D**.)

Bir anlıq Suvorovu Krımda təsəvvür etməyə çalışaq, Rusiyaya köçməsi üçün yerli erməni əhalisini erməni dilində inandırmağa cəhd etdiyi zaman. Sualla məsələ qoyaq.

Rusiyanın çoxmu ermənіləri "ana və baba vasitəsilə" erməni dilini bilirlər?! Və haradan jurnalistə məlum oldu ki, Suvorov "şübhəsiz erməni dilini bilirdi"? Axı, fərziyyədən dəqiq fakta qədər – böyük məsafədir.

Moskvadakı Lazarev Şərq Dilləri İnstitutunun yaradılmasında və fəaliyyətində Suvorovun bilavasitə iştirak etməsini təsəvvür etmək isə absurddur! Çünki böyük sərkərdə 1800-cü ildə artıq yox idi. Lazarev institutu isə 1815-ci ildə açılmışdı!" (Bax: "Noev kovçeq" qəzeti, №11-12(57), dekabr, 2002-ci il).

* * *

Ermənistan-Azərbaycan münaqişəsinin kəskinləşdirilməsi faktlarının müəlliflərindən və təşkilatçılarından olan Z.Balayan, S.Xanzadyan, S.Kaputikyan və başqaları on illərlə azərbaycanlılara qarşı ideoloji təxribat apararaq iğtişaşlar yaradır, Dağlıq Qarabağın Ermənistana birləşdirməyə çalışırdılar. Erməni yazıçısı Bahaqn Davtyan "Vicdanın hökmü" məqaləsində qonşu torpağına göz dikən vicdansız həmvətənlərinə müraciət edərək yazırdı: " ...ağ bayraq qaldırmalıyıq və bu məğlubiyyət bayrağı deyil, mənəviyyat,

təmiz vicdan bayrağı olmalıdır. Bilirəm ki, adamların bu gərginləşmiş vəziyyətində mənim sözlərimi şübhə ilə qarşılayanlar da tapılacaq və hətta məni vəziyyətə tabe olmaqda günahlandıranlar da olacaq. Lakin mən öz sözümü deyirəm, inanıram ki, insan vicdanı səhvlərdən xalidir, inanıram ki, vaxt gələcək və mən öz vicdanım qarşısında xəcalət çəkməyəcəyəm". (***Bax: "Qrakan tert", 25 mart, 1988, Bax: Mənim fikrim. Publisist düşüncələr. Bakı,1991-ci il).***

***

Politologiya doktoru, London İqtisadiyyat və politologiya İnstitutunun idarə etmə fakültəsinin müəllimi (LSE) **Razmik Panosyan** "**Miçiqan konfransı haqqında həqiqət"** adlı məqaləsində yazır:

"Bir çox ermənilər mövcud olduqlarına görə o türklərə borcludurlar ki, məsələn, hansı ki, onların nənələrini xilas edirdilər. Problemin həlli üçün biz bütün türk xalqına nifrət etmədiyimizi elan etməliyik" ***(Bax: T.Saruxanyana verilən müsahibədən sitatlar. "Qolos Armenii", 9 iyul 2002-ci il).***

***

"Erməni mənbələrindəki məlumatlar çox vaxt klassik mənbələrdəki məlumatlara kəskin zidd olur və eyni faktları fərqli şəkildə işıqlandırırlar. Nəhayət, bu dövr boyunca erməni mənbələrinin özlərinin tonu əhəmiyyətli dərəcədə dəyişir".

Nina Qarsoyan

Nina Qarsoyan – görkəmli Amerika ermənişünası, Kolumbiya Universitetinin professorudur. 1958-ci ildə fəlsəfə doktoru dərəcəsi almışdır. Prinston universiteti nəzdində ali məktəbin ilk qadın dekanıdır. 1979-cu ildən ABŞ-da Ermənistanın orta əsrlər tarixinin öyrənilməsində mühüm rol oynayır. Onun bir neçə kitabı, jurnallarda və ensiklopediyalarda məqalələri dərc edilmişdir. Parisdə nəşr olunan "Revue des Études Arméniennes" ("Erməni tədqiqatlarının icmalı") toplusunun redaktoru, Amerika Orta Əsrlər Akademiyasının üzvü və Britaniya Akademiyasının müxbir üzvüdür.

1971-ci ildə "Ermənistan EA Xəbərləri"ndə Nina Qarsoyanın "Ermənistan IV əsrdə" ("Ermənistan" və "Sədaqət" terminlərinin dəqiqləşdirilməsi məsələsinə dair) adlı məqaləsi çıxdı («Armeniya v IV v.» (К voprosu utoçneniya terminov «Armeniya» и «Vernost», VON AN Arm.SSR, 1971, №3)). Həmin məqalə çıxandan dərhal sonra, hərfən ertəsi gün ona qarşı anafema başlandı (onu lənətlədilər), məqalə çapdan yığışdırıldı və yandırıldı.

N.Qarsoyanın dəlilləri saxtakar erməni tarixçilərinin öz uydurmalarında adətən istinad etdikləri "qədim erməni xronikaları"na güclü zərbə vurdu. Amerikalı tarixçi bizim eranın IV əsrindən sonrakı dövrü təhlil edərək, inandırıcı şəkildə sübut etmişdir ki, 1500 il ərzində Ermənistanın dövlətçiliyi və müstəqil Ermənistan dövləti olmamışdır. Ermənilərin xristianlaşdırılması tarixi barədə yazılanlar yalandır, yəni xristianlığın tarixi haqqında erməni mifi də uydurmadır, qədim erməni xronikaları və bütün sonrakı xronikalar da başdan-başa tarixi saxtalaşdırma ruhunda olub, başqa xalqlar arasında seçilmək cəhdi ilə bağlıdır.

Müəllif həmçinin, erməni tarixinin "ataları" Favstos Buzandın və Movses Xorenasinin də qərəzliliyini sübut etmiş, göstərmişdir ki, onlar tarixi həqiqəti təhrif edərək Ermənistanı siyasi birlik kimi təqdim edirlər. O, mötəbər tarixi materiallara istinad edərək əsaslandırmışdır ki, Ermənistan Qafqazın hüdudlarından çox uzaqda, məhz Kiçik Asiyada, Fərat çayının hər iki sahilində yerləşirdi. Bu müddəanın sübutlar bazasına belə bir fakt da daxildir ki, çar Tiridat başda olmaqla erməni xalqı 314-cü ildə Fərat çayında xaç suyuna salınmışdır.

Alim izah edir ki, ermənilər "Ermənistan tarixi"ni V əsrdə, Ermənistan dövlətçiliyi ləğv ediləndən sonra yaratmağa başlayıblar. Bu o deməkdir ki, qədim tarixçilər ayrı-ayrı naharar (knyaz) evləri ilə bağlı idilər, onların maraqlarını irəli çəkirdilər və buna görə onların işlərini "etnikona coğrafi və milli məna verərək" Ermənistan tarixinə aid əsərlər kimi oxumaq olmaz. Üstəlik, müəllifin qeyd etdiyi kimi, "…orta əsrlərdə istər Şərqdə, istərsə də Qərbdə müasir mənada millət anlayışı yox idi".

Məqalədə sübut edilmişdir ki, vahid Ermənistan olmamışdır, onun ibarət olduğu qurumlar isə Cənubi Qafqazdan kənarda, müasir Türkiyə, İran və İraq ərazisində yerləşmiş, həm də qüdrətli Roma və Fars imperiyalarının siyasi təsiri dairəsində olmuşlar.

***

"Bizim (amerikalı alimlərin) çoxumuz hiss edirik ki, obyektiv fikrimiz təbliğatçılarla yollarımızın ayrılmasına səbəb olur"

Corc Burnutyan

Corc Burnutyan *– Erməni mənşəli Amerika tarixçisi, İona kollecində tarix üzrə böyük professor Corc Burnutyan Kaliforniya Universitetində Riçard Ovannisyanın şagirdi olmuşdur. Ermənistan tarixi üzrə çoxsaylı kitabların müəllifidir. Kolumbiya Universitetində, Taft Universitetində, Nyu-York Universitetində, Nyu-Cersi Dövlət Universitetində, Konnektikut Universitetində, Ramapo kollecində və Qlendeyl kollecində Ermənistan tarixindən dərs demişdir. Şərqi Ermənistanın və Zaqafqaziyanın, Cənubi Asiyanın, Mərkəzi Asiyanın, Rusiyanın, Avstraliya və Cənubi Amerikanın yeni tarixi üzrə (1400-1900-cü illər) dünya miqyaslı nüfuzlu alimlərdən biri hesab edilir.* ***Alim Türkmənçay müqaviləsi bağlanana qədər Qafqazda ermənilərin sayının yüksək olması haqda yalanı ifşa etmişdir.***

"Bir sıra erməni tarixçiləri 1830-cu ildən sonrakı statistika haqqında danışarkən, farsların hakimiyyətdə olduğu illərdə (yəni 1828-ci il Türkmənçay müqaviləsi bağlanana qədər) Şərqi Ermənistanda (Burnutyan "Şərqi Ermənistan" dedikdə Arpaçay çayından şərqdə yerləşən Qafqaz ərazilərini nəzərdə tutur) ermənilərin sayını yanlış qiymətləndirir, əhalinin ümumi sayının 30 faizindən 50 faizinə qədər rəqəmlər göstərirlər.

Həqiqətdə isə, rəsmi statistik məlumatlara əsasən, Rusiya Şərqi Ermənistanı zəbt edəndən sonra oradakı ermənilərin sayı ümumi əhalinin sayının 20 faizinə güclə çatırdı, halbuki müsəlmanların sayı ümumi əhalinin sayının 80 faizindən çox idi. Hər halda, Şərqi Ermənistan Rusiya tərəfindən zəbt edilənə qədər burada ermənilər heç vaxt çoxluq təşkil etməmişdir. *Kameral təsvirdə Şərqi Ermənistanın bir neçə mahalında ermənilərin sayca çoxluq təşkil etməsi göstərilməsinə baxmayaraq, bu dəyişiklik 35 mindən çox müsəlmanın həmin regiondan mühacirət etməsindən sonra baş vermişdir.*

Beləliklə, farsların hakimiyyətdə olduğu illərdə (region Rusiya imperiyası tərəfindən zəbt edilənə qədər) heç bir mahalda ermənilərin əksəriyyət

təşkil etməsini göstərən heç bir sübut yoxdur. Ola bilsin ki, ermənilərin yerli səviyyədə əksəriyyət təşkil etdiyi yeganə bölgə ermənilərin dini mərkəzi Üçkilsənin (Eçmiədzinin) yerləşdiyi Qərbibasar mahalı idi. Minlərlə müsəlmanın buradan köçüb getməsi, İrandan və Osmanlı İmperiyasından buraya 57 min erməni immiqrantın gəlməsi nəticəsində 1832-ci ilə qədər xristian əhalinin sayı əhəmiyyətli dərəcədə artmış və müsəlman əhalinin sayına bərabər olmuşdu.

Bununla belə, yalnız 1855-56-cı və 1877-78 illərin rus-türk müharibələri nəticəsində Osmanlı İmperiyasından regiona daha çox erməni gəldikdən, buradan daha çox müsəlman köçüb getdikdən sonra, ermənilər, nəhayət, burada əhalinin əksəriyyətini təşkil etməyə nail oldular. Lakin hətta bundan sonra da, ta XX əsrin əvvəlinə qədər İrəvan şəhəri əsasən müsəlman şəhəri olaraq qalırdı". (Corc Burnutyan, "XIX əsrin birinci yarısında Şərqi Ermənistanda əhalinin etnik tərkibi və sosial-iqtisadi vəziyyət" (The Ethnic Composition and the Socio-Economic Condition of Eastern Armenia in the First Half of the Nineteenth Century)), Ronald Qriqor Suninin (Ronald Grigor Suni) redaktəsi ilə "Zaqafqaziya: millətçilik və sosial dəyişikliklər" (Transcaucasua, Nationalism and Social Change. Essays in the History of Armenia, Azerbaijan, and Georgia) kitabı, 1996, ss. 77-80.)

Alimin öz elmi işində gətirdiyi statistik məlumatlara əsasən, 1826-cı ildə İrəvan xanlığında 54.810 türk, 25.237 kürd, 20.073 erməni yaşamış və eyni zamanda burada ümumi sayı təxminən 10.000 nəfər olan fars məmur və hərbi qulluqçu yerləşdirilmiş; Naxçıvan xanlığında 17.138 türk və kürd (birlikdə), fars hərbi-mülki administrasiyasının təxminən 3.000 üzvü və 2.690 erməni, Ordubadda 7.664 müsəlman və 2.388 erməni yaşayırdı. Beləliklə, 1826-cı il üçün olan məlumatlara görə, Şərqi Ermənistanda bütün müsəlmanların və bütün ermənilərin sayı, müvafiq olaraq, 117.849 nəfər müsəlman və 25.151 nəfər təşkil edirdi.

Lakin altı il ərzində demoqrafik mənzərə kəskin dəyişir. Belə ki, 1832-ci il üçün olan məlumatlara görə, yeni yaradılmış İrəvan quberniyasında (İrəvan xanlığı Rusiya imperiyası tərəfindən ləğv edilmişdi) əhalinin milli tərkibi üzrə nisbət artıq aşağıdakı kimi idi: 65.280 erməni, 49.875 türk və 7.813 kürd; Naxçıvan regionunda 17.138 müsəlman və 13.369 erməni,

Ordubadda isə, müvafiq olaraq, 7.247 müsəlman və 3.728 erməni. 1832-ci il üçün olan məlumatlara görə, bütün regionda artıq 82.073 müsəlman və 82.377 erməni yaşayırdı (onlardan 25.151 nəfəri yerli ermənilər, 35.560 nəfəri İrandan gəlmiş və 21.666 nəfəri Türkiyədən gəlmiş ermənilər idi). **Yəni, cəmi 6 il ərzində bu "qədim erməni torpağı"nda müsəlmanların sayı, demək olar ki, üçdə bir hissə qədər azalmış, ermənilərin sayı isə köçkünlərin hesabına 3.5 (!) dəfə artmış və yalnız bundan sonra müsəlmanların və ermənilərin say nisbəti bərabərləşmişdi.**

***

Bütün bu etiraflar (bunlar, dövrü mətbuatda nəşr edilən məqalələrin kiçik bir hissəsidir) hələ əsrlər öncə erməni milli şüurunda yaranmış, sağalmaz xəstəliyə bənzəyən saxtakarlığın mövcudluğundan irəli gəlir. Hesab edirik ki, yuxarıda adları çəkilən erməni ziyalılarının əsaslı fikirləri Z.Balayan kimi cinayətkar ideologiya təbliğatçılarının uydurmalarına və sayıqlamalarına tutarlı cavab kimi də dəyərləndirmək olar. Təbii ki, xalqını, millətini sevən, onun rifahı üçün xidmət etməyə çalışan hər bir ziyalı saxtakarlığı, qəddarlığı, cinayəti, oğruluğu və ən başlıcası tarixi saxtakarlıqları rədd edib, xalqını bu "xəstəlikdən" sağaltmağa cəhd göstərməlidir.

Sayıqlamalardan söz düşmüşkən, bəzən heç bir alimə, tarixçiyə belə məlum olmayan proqnozlar yenə də "peşəkar erməni tədqiqatının" nəticəsində ortaya çıxır. Erməni təbliğatının "yaxşı" düşünülmüş (pulla ələ alınmış) yalanları sayəsində kütləvi informasiya vasitələrində bir-birindən çirkin və bayağı üsulların istifadəsinə rast gəlinir. Buna qarşı çıxmaq istəyən ağıllılarını isə ermənilər dərhal aradan götürüb, yox etmək fikrinə düşür və çox zaman da müxtəlif üsullarla istədiklərinə nail olurlar.

Bəzən erməni tarixçiləri nəyin bahasına olursa-olsun öz xəstə təfəkkürlərində özünəməxsus erməni tarixi yaradaraq, uydurmalarını cəmiyyətə, elmi ictimaiyyətə sırımağa cəhd edirlər. Lakin saf, əqidəli alimlər tərəfindən onların sayıqlamaları üzə çıxarılır, tarixi həqiqətlər göstərilir və onlar ifşa olunurlar. Gəlin, qısaca olaraq, bir neçə belə əlavə faktları nəzərdən keçirək.

"Gürcüstan və ümumi hərb" kitabının yazıçısı bu kitabın xüsusi nəşrinin 61-ci səhifəsində belə deyir: "Tacir və alverçi olan ermənilər Qafqaz xalqını soymaqda, onlara vergi kəsməkdə və məmləkət üçün bir fəlakətdirlər.

Ermənilərin Qafqazda sevilməmələrinin səbəbi də budur. Onların müxtəlif şəhərlərdə, xüsusilə də Tiflisdə oynadıqları rollar Varşavadakı yəhudilərin rollarına bənzəyir." Yazıçı ermənilərin Qafqazın mədəniyyət ünsürü olduqlarıyla bağlı bütün Avropaya yayılan düşüncələrə də qarşı çıxmışdır. ***(Bax: F.Qaraoğlu. Ermənilər və həqiqətlər (rəsmi sənədlərdə) Bakı, 2007, mənbə:ATASE arxivi, № 1 / 2, klasör 401, dosya 1578, F.l-3)***

* * *

Antropoloqlar (böyük alman alimi Virxov və başqa məşhur alimlər) Qafqazın qədim qəbiristanlıqlarından tapılan kəllələrin ölçülərinə əsasən müəyyənləşdirmişlər ki, bu diyarın aborigen əhalisi, yəni ən qədim yerli sakinləri uzunbaşlılar və ya dolixokranlar qrupuna aiddirlər, yəni ermənilərin mənsub olduğu qısabaşlılar və ya braxikranlar qrupuna aid deyillər! Bu da bir daha sübut edir ki, indiki ermənilər Qafqazın yerli əhalisi deyildir ***(Bax: Djavaxaşvili İ.A. İstoriya qruzinskoqo naroda, Tiflis, 1916, str. 11-12).***

* * *

Görkəmli antropoloq V. V.Bunak Göyçə (indiki Sevan) hövzəsində qədim kəllə sümüklərini araşdıraraq qəti qənaətə gəlmişdir ki, bunların sonradan həmin əraziyə köçüb gəlmiş ermənilərlə heç bir əlaqəsi yoxdur ***(Bax: Bunak V.V. "Çerepa jeleznoqo veka iz Sevanskoqorayona Armenii - Russkiy atropoloqiçeskiy jurnal", 1928, tom XVII, vıp. 3-4).***

* * *

Odontologiya sahəsində aparılan tədqiqatlar da eyni nəticəni təsdiq edir: "etnik odontologiya erməni etnosunun "Qafqaz mənşəli olduğunu" təsdiq etmir" ***(Bax: Koçiev R.S. Zakavkazya i Severnıy Kavkaz. - V kn.: Etniçeskaya odontoloqiya SSSR. Moskva, 1970, səh. 135, 141).*** Rus Qafqazşünası İ.Şopen isə daha konkret və birmənalı nəticəyə gəlmişdi: ermənilər gəlmədirlər; onlar frigiyalıların və ioniyalıların qərbdən, yəni Avropadan Anadolu dağlarının Şimal vadilərinə köçüb gəlmiş nəsilləridir ***(Bax: Şopen İ. Novıe zametki na drevnyu istoriyu Kavkaza i eqo obitateley. S.-Peterburq, 1896, səh. 26)***. Bir sözlə, bütün yuxarıda göstərilənlər və digər axtarışlar "tarixin atası" Herodotun hələ eramızdan əvvəl V əsrdə yazdığı bir həqiqəti təsdiq edir: ermənilər Kiçik Asiyaya qərbdən - Avropadan köçüb

gəlmişlər, onlar frigiyalıların nəsilləridir ***(Bax: Qerodot. İstoriya v deviti kniqax. I: 180, 194; III: 93; V: 49, 52; VII: 73).***

* * *

Məşhur Amerika alimi, "Ermənistan-xristian ölkənin gizlinləri" əsərinin müəllifi Samuel Uimz demişdi ki, "Dünyada ermənilər qədər xəbis, riyakar, cəllad, qaniçən bir millət tapmaq imkan xaricindədir". Onların hamısı terrorçudur: fəhləsi də, alimi də, qocası da, cavanı da, qadını da, uşağı da" ***(Bax: Uimz S.A. Ermənistan terrorçu "xristian" ölkənin gizlinləri. (Ermənilərin böyük fırıldaq seriyaları) Aztürk poliqrafiya şirkəti. Bakı, 2004).***

* * *

Məşhur tarixçi alim V.İşxanyanın hələ 1916-cı ildə Sankt-Peterburqda dərc etdirdiyi "Narodnosti Kavkaza" məqaləsində yazdığı kimi, "...ermənilərin lüğətində heç vaxt vətən sözü olmayıb. Onlar tarix boyu Kiçik Asiyadan və Rusiyadan kənarda, Fərat çayının yuxarı qolu olan Qaraçay sahillərində, Frakiya və Mesopatomiyada pərakəndə dəstələr şəklində yaşayıblar. Onların Zaqafqaziyaya qətiyyən dəxli yoxdur. Onların Azərbaycan və Dağlıq Qarabağ haqqındakı iddiaları qeyri-qanuni və əsassızdır". Bu fikirləri ermənilərin öz tarixçi alimləri Makuk Abekyan, K.Patkanyan, rus alimi Yuri Pompeev, Qafqaz tarixi üzrə məşhur Amerika mütəxəssisi Tadeuş Svyataxovski də təsdiqləyir ***(Bax: M.Seidov. Armyanskiy vandalizm . Novosibirsk. - 2010.)***

Məşhurlar ermənilər haqqında

(www.erevangala500.com – internet saytından ixtisarla nümunələr)

Ermənilər özləri haqqında

Erməni tarixinin atası Movses Xorenatsi (Moisey Xorenski) V əsrdə öz həmtayfaları barədə deyirdi:

"- mən bizim xalqın amansızlığını, eləcə də lovğalığını göstərmək istəyirəm, ...

- neməti rədd etməsini, həqiqətdən üz döndərməsini...
- höcət və cinayətkar xalq...
- Qəlbi Allaha inanmayan xalq!...
- sizin əməllərinizi hiddət doğurur və siz tövbə etməmisiniz...
- siz fəlakət və özbaşınalıq yaydınız və Allaha iman gətirənlərə xor baxdınız...odur ki, siz tanıya bilmədiklərinizin toruna düşəcəksiniz və təqib etdiyiniz qurban sizi öz qurbanına çevirəcək və siz elə öz torunuza düşəcəksiniz..."

***

Professor Leo (ermənilərin tarixi barədə bir neçə iri əsərin erməni müəllifi) etiraf edir:

"Erməni aşıq yaradıcılığının yalnız az bir hissəsi, demək olar ki, ən cüzi hissəsi bizim ədəbiyyata aiddir. Onun böyük hissəsi (dastanlar, qəhrəmanlıq mahnıları) türk dilindədir. Nağıllarda və mahnılarda təsvir olunanlar həyatı danışmaq üçün erməni xalq ləhcəsi deyil, türk dili rahatdır, o, daha obrazlıdır və olduqca zəngindir".

***

Erməni tarixçisi Gevorq Aslan 1914-cü ildə "Ermənistan və ermənilər" kitabında yazırdı:

"Ermənilərin dövlətçiliyi olmayıb. Onlar Vətən hissi və siyasi əlaqələr ilə bağlı deyillər. Erməni vətənpərvərliyi yalnız yaşayış yeri ilə bağlıdır". Bir dövlət kimi heç vaxt mövcud olmayan "Böyük Ermənistan"ın yenidən yaradılması barədə xəyali ideya dünyanın bütün ***haylarını*** birləşdirmək üçün ümummilli konsepsiyadır".

***

Erməni jurnalisti R.Açaryan "Erməni dilində türk dilindən alınma sözlər" kitabında yazırdı ki, erməni dilində 4200-dən çox türk sözü istifadə olunur.

***

X.Abovyan (XIX əsr) yazırdı:

"...bizim dilimizdə sözlərin yarısı ya türk, ya da fars sözləridir. "Elə bir müasir dil tanımıram ki, erməni dili qədim erməni dilindən fərqləndiyi dərəcədə qədim formasından seçilsin... Heç bir dil mənim üçün bu qədər çətin (söhbət qrabaridən gedir) olmayıb. Bu sözlərin müəllifi altı dili sərbəst bilirdi. Sonra o, bu kimi çətinliklər yaradan səbəbləri belə izah edir: "bütün anlayışlar, sözlərin strukturları, hətta ayrı-ayrı sözlər müasir ifadə tərzinə və təfsirə uyğun gəlmir".

***

Erməni şairi Yegişe Çarents: "Bizdə ikiüzlülük hələ ana bətnində formalaşır".

***

P.Kerop Patkanov: "Ermənistan bir dövlət kimi bəşər tarixində heç bir əhəmiyyətli rol oynamayıb, onun adı ermənilər tərəfindən yayılan coğrafi termin olub, bura güclü dövlətlərin – assurilərin, midiyalıların, iranlıların, yunanların, monqolların, rusların mübahisələrini həll etdikləri yer olub..."

***

Erməni mənşəli Amerika yazıçısı L.Z.Surmaliyan: "Erməni şovinistlərinin Azərbaycan və türk xalqlarının humanizminə, qayğıkeşliyinə və vətənpərvərliyinə qarşı yönəlmiş amansız qəddarlığı türklər və ermənilər arasında ixtilafların yaranmasının səbəblərindən biridir".

***

Erməni yazıçısı V.Papazyan: "Erməni xalqı tamamilə cahil, savadsız, vəhşi və ilk növbədə şüursuz olub. Adamlar əsas etibarilə soyğunçuluq və quldurluqla məşğul olurdular.... onlar şimal vəhşiləri kimi ovla dolanırdılar".

***

Raffi (Akop Melik Akopyan) aşağıdakıları etiraf edir: "Bizim rəsmi tariximizdə dəyərli məlumat çox azdır. Tariximiz kilsə yazılarından uzağa gedə bilməyib".

***

Tarixçi Karakaşyan yazır: "Ermənilərin keçmişi barədə elə bir məlumat yoxdur ki, onu tarix və ya salnamə saymaq mümkün olsun".

***

Tarixçi Q. Kapantsyan: "armenoid tipi" aşağıdakı xarakterik xüsusiyyətlərə malikdir: baş yastı (qısa), yaxud dikdir, arxa tərəfdən aşağı meyilli yastı formaya malikdir, sifət uzunsov və bir qədər enlidir, burun abırsızcasına böyük, iri, çox vaxt əyri (qartal dimdiyi kimi) və sifət xəttindən qabağa çıxır, bədənin strukturu qeyri-proporsional, lakin orta boyludur".

***

Alim T.M.Avetisyan: "Erməni soyadlarının yalnız 26,3 faizi orijinal erməni dili əsasında yaranıb, qalanlarının 194-ü fars, 113-ü türk, 111-i ərəb, 60-ı yunan, 54-ü yəhudi mənşəlidir, daha 44 soyad başqa dillərdən götürülüb".

***

V əsr erməni tarixçisi Favstos Buzand yazır ki, "ermənilər "xristian" dinini zahirən qəbul ediblər, çünki bütpərəstlik ictimai-siyasi həyatın bütün sahələrində hələ də təzahür edir".

***

Tarixçi N.Adonts: "...imperator yazırdı ki, ermənilər çox etibarsız və allahsızdırlar, onlar bizim aramızda yaşayır və fitnə-fəsadla məşğul olurlar. Gəlin belə şərtləşək: mən öz ermənilərimi toplayıram (yəni Bizans ərazisində yaşayan ermənləri) və onları Trakiyaya sürgün edirəm".

Ruslar ermənilər haqqında

Rus diplomatı general Mayevskinin xatirələri: "Erməni xalqının qəhrəmanlığı barədə kimsə nəsə eşidibmi? Onların azadlıq uğrunda döyüşlərinin adları harada həkk olunub? Heç yerdə! Çünki ermənilərin "qəhrəmanları" öz xalqının xilaskarları olmaqdan çox cəlladları olublar".

***

Erməni Qriqoryan Kilsəsinin Eçmiədzin Sinodunun prokuroru A.Frenkel: "...Tamahkarlıq, fitnəkarlıq, andı pozmaq, satqınlıq, riyakarlıq, gərək ki, bu tayfanın əsas milli xüsusiyyətləridir..., çünki, şəhərdə yaşayan ermənin qürur duya biləcəyi vətəni yoxdur, yalnız acı bir hiss var ki, onun xalqı artıq 1300 ildir ki, kölədir və hamının nifrət bəslədiyi parazitdir".

"Lap qədim zamanlardan ermənilər barədə pis fikir formalaşıb, - söz yox ki, bu fikir əsassız deyildir, əks təqdirdə bütöv xalqlarda, üstəlik, ayrı-ayrı dövrlərdə belə bir fikir yarana bilməzdi. Məhz ermənilər hər fürsətdə hay-küy salmağa qadirdirlər. Onları başqasının evinə buraxmazsan, hər hansı fitnələrinin üstünü açarsan, yaxud onların oğrularını məhkəməyə verərsən, - nəinki özləri çığır-bağır salarlar, həm də başqa millətlərdən olan səfeh və satqın adamları da qışqırmağa məcbur edərlər".

***

A.S.Puşkin:

İtil gözlərimdən – mənim oğlum deyilsən,
Sən çeçen deyilsən – sən qoca qarısan,
Sən qorxaq, sən kölə, sən ermənisən!

***

A.S.Qriboyedov Mazareviçə ünvanlanmış 1819-cu il 11-13 sentyabr tarixli raportda yazırdı: "Bu ermənilər nə rəzil cinsdir, onların heç biri məni heç tanımaq da istəmir, amma həmişə qulağıma pıçıldayırlar ki, biz onların gələcək havadarlarıyıq. Əcəb havadarlar tapıblar.Onlar bizi farslara satırlar. O farslara ki, onları təpiklərinin altına salmağa və hər cür alçaltmağa hazırdırlar".

***

Rus tədqiqatçısı V.L.Veliçko (XIX əsrin sonu – XX əsrin əvvəli):

"Erməni qadınlarının həmişə başqa xalqların kişiləri ilə əlaqələri olub, bəzən zor gücünə olsa da. İran əsgərləri, türklər, gürcülər və dağlılar öz şərəf və ləyaqətlərini çoxdan itirmiş erməni qadınlarından, görünür, heç vaxt ədəb-ərkan və nəciblik gözləməyiblər. Məhz buna görə də ermənilərin damarlarında bu qədər müxtəlif qan axır".

***

Tarixçi A.Anninski XIX əsrin sonlarında yazırdı:

"Qədim ermənilərin keçmiş siyasi qüdrətini və mədəniyyətinin əhəmiyyətini təsdiq edən heç nə hifz olunmadığı üçün belə düşünmək olar ki, onlar bunların heç birinə sahib olmayıblar. Görünür, onlar həmişə azsaylı vəhşi tayfa olublar. Tam siyasi müstəqilliyə heç vaxt malik olmayıblar. Ermənilərin bədii yaradıcılığının görünməmiş dərəcədə kasad olması da elə bununla bağlıdır. Elmdən isə heç danışmağa dəyməz. Ermənilər mövcud olduqları bütün dövr ərzində özünəməxsus heç nə yaratmayıblar".

***

Tədqiqatçı V.Yelixovskaya yazırdı:

"Bütün dünyaya səpələnmiş ermənilər yanaşı yaşadıqları xalqların adət-ənənələrini, geyimlərini mənimsəyirlər. Türkiyədə ermənini türkdən ayırd edə bilməzsən, İranda erməni tipik farsdır.

***

Məşhurların fikirləri

Korneli Tatsit yazırdı: "ermənilər ikiüzlü davranışı ilə gah bir, gah da digər tərəfin silahlı qüvvələrini dəvət edirdilər, öz torpaqlarının vəziyyətinə, xarakterlərinin oxşarlığına görə onlar parfiyalılara yaxındırlar, nigah əlaqələri ilə onlarla qaynayıb-qarışıblar, azadlıq hissi onlara yaddır, daha çox köləliyə meyillidirlər".

***

Böyük Əmir Teymur demişdir: Tarix mənə iki şeyi bağışlamayacaq: "Birincisi, ermənləri bir millət kimi məhv etmək istəyimi; ikincisi, bunu etməməyimi. Doğrudur, yaxşı ermənilər də var, lakin bütövlükdə mənfur xalqdır. Nə düşündüyünü heç vaxt üzə demir, buna görə də mədəni görünür, amma əlinə fürsət düşsə, qarşısındakı parçalamağa hazırdır".

***

Aleksandr Düma (ata):

"Ermənilər həmişə başqa məzhəbli hökmdarların hakimiyyəti altında yaşayıblar. Nəticədə onlar öz fikirlərini, hiss və niyyətlərini gizlədən insanlara, fırıldaqçılara və yalançılara çevriliblər".

***

İngilis səyyahı Vilson: "Ermənilər tamahkar, mənfəət güdən və alçaqdırlar, heç kəsə hörmət etmirlər. Onlar boş şeyləri şişirtməyin ustası, fitnəkardırlar".

***

İsveçrə şərqşünası Adam Mets:

"Qaradərililərin ən pisi zəncilər olduğu kimi, ermənilər də ağdərililər arasında ən pis kölələrdir. Onların eybəcər ayaqları var, abır-həyadan məhrumdurlar, oğurluq çox yayılıb... Onların xasiyyəti və dili kobuddur. Kölə ermənini bir saat işsiz qoysan, xasiyyəti onu dərhal pis əməllərə sövq edər.

***

Gürcü yazıçısı və mütəfəkkiri İlya Çavçavadze: "Zati-aliləri, ermənilərin rus torpaqlarının mərkəzində məskunlaşmalarına yol verməyin. Onlar elə tayfadırlar ki, bir neçə on il orada yaşadıqdan sonra bütün dünyaya car çəkəcəklər ki, bu, onların ata-baba torpağıdır".

***

Gürcü yazıçısı Sergi Sacaya: "Ermənilər şir deyil, yalnız daha güclü xalqlara xidmət edən çaqqallardır".

***

Alman xadimi və alimi Kolmer fon der Holts:

"Anadolu əyalətlərində yaşayan əhalinin əsas kütləsinə bələd olan hər kəs türklərə hörmətlə yanaşmağa və onları sevməyə, yunanlara həqarətlə baxmağa və ermənilərə nifrət etməyə çox tez alışır. "Yunan iki yəhudini aldadar, erməni isə iki yunanı" yerli atalar sözü hər yerdə özünü doğruldur. Anadolunun harasındasa sizi aldadıblarsa, onda dəqiq demək olar ki, siz erməni ilə qarşılaşmısınız".

Qeyd: Əziz oxucu! Mənbə kimi yuxarıda göstərdiyimiz internet saytında ***Karl Marks, Fridrix Engels, erməni alimi A.Perixanyan*** və başqalarının erməni əxlaqi xüsusiyyətləri barədə tanınmış dahilərin dediklərini milli-mənəvi, əxlaqi dəyərlərimizə hörmət əlaməti olaraq çap etmək istəmədik. Maraqlananlar **www.erevangala500.com** saytından oxuyub tanış ola bilərlər.

İsveçdə (Lulea Sweden) 15 dildə nəşr olunan "Центральная Азия и Кавказ" sosial-siyasi tədqiqatlar jurnalının səhifələrində

№ 1(19), 2002

Bəlkə Ermənistanın özündə insan hüquqlarına riayət edilməsi bu ölkənin prioritetidir? Ermənistanın Helsinki Assosiasiyasının sədri, tanınmış erməni hüquq müdafiəçisi M. Danielyan öz xüsusi bəyanatında qeyd etmişdir ki, Ermənistan Avropa Şurasına daxil olmağa hələ hazır deyil: "... Əgər Ermənistanın milli hərbi qüvvələri digər ölkənin ərazisində yerləşib və nəticə etibarilə həmin ərazini idarə edirsə, bu işğaldır. Hələ ki, başqa bir ifadə yoxdur. Və Ermənistanın bir vətəndaşı kimi bu haqda ilk olaraq mən deməliyəm." Ermənistanın özündə insan hüquqları sahəsində vəziyyəti təhlil edərək o demişdir: "... Ümumdünya İnsan Hüquqları Bəyannaməsini götürün – bütün 30 maddəyə əsasən Ermənistanda insan hüquqları pozulur. ... Əsas odur ki, Ermənistanda konstitusiya işləmir. O işləyə bilməz, çünki konstitusiyanın zamini olaraq çıxış edən Ermənistan prezidentinin fəaliyyəti qanuni deyil. Bu vəzifəyə "təyin edildiyi" zaman, yəni son 10 il ərzində o buranın vətəndaşı olmamışdır. Respublikada məhkəmə sistemində rüşvət baş alıb gedir. Polis özbaşınalığı hədsiz dərəcəyə çatıb. İlkin həbs kamerasında saxlanılanların sonrakı taleyi həll olunur, məhz orada hökm çıxarılır. Demək olar ki, bütün həbs edilənlər psixoloji və fiziki təzyiqlərə məruz qalırlar. Ordu haqqında danışmağa belə dəyməz...(özbaşınalıq, hərbçilərin ölümü, dedovşina və s.). Ən qorxulusu odur ki, ordu ilə bağlı hər şey "dövlət sirri" kimi bir anlayışla qorunur.

***

№ 5(23), 2002

1983-cü ildə Orli hava limanında baş vermiş partlayışın təşkilatçılarından biri kimi ömürlük həbsə məhkum edilmiş Varujan Karapetyan, 2001-ci ilin aprel ayında vaxtından əvvəl fransız həbsxanasından azad olunaraq ölkədən sürgün edilmişdir. (Qeyd edək ki, Ermənistanda bir neçə il V. Karapetyanın müdafiəsi üzrə ictimai komitə fəaliyyət göstərmişdir. Komitə fransız hakimiyyətindən "milli qisasçı"nın azad edilməsini tələb edərək bu sahədə fəal şəkildə çalışırdı.) Yenə də Karapetyanın Ermənistanda yaşamasına icazə verən erməni hakimiyyətinin fəaliyyətinin qanuniliyini şübhə altına almırıq. Bu təxminən 14 il həbsxanada olmuş insana qarşı bir

alicənablıq aktı idi. Lakin onu şərəflə qarşılayaraq böyük həvəslə görüş və press konfranslara dəvət edirdilər, hətta o baş nazir tərəfindən əzizlənərək qəbul edilmişdir. Bəzi qəzetlərin insanların ölümündə günahkar olan şəxsin ətrafında bu cür səs-küyün qaldırılmasının gərəksiz olduğunu izah etmək cəhdləri bir çox ictimai xadimlər və ziyalılar tərəfindən kəskin etirazla qarşılanmışdır. Bu qəzetlər isə antimilli adlandırılmışlar. Terrorçu Karapetyan 202-ci ilin may ayının 9-dan Şuşa rayonunun vətəndaşları siyahısına salındı.

***

№ 6(24), 2002

Siyasi qüvvələrin bu cür bölgüsünün reallığı ATƏT-in Kosovadakı vəziyyətin nizamlanmasında iştirakı və onun kadr siyasəti ilə aşkar şəkildə təsdiq olunub və olunur: bu təşkilatda bütün əsas vəzifələr NATO üzv olan və ya ona üzv olmağa fəal şəkildə çalışan ölkələrin vətəndaşları tərəfindən tutulub. Məsələn, 2001-ci ilin sonunda ATƏT-in missiya və digər strukturlardakı 1199 vəzifələrdən 504-ü (42%) münaqişə zonalarında və ya mümkün münaqişələrin qarşısının alındığı zonalarda yerləşirdi. Onlardan 184-nü ABŞ, 136-nı Almaniya, 109-nu Böyük Britaniya, 75-ni isə Fransa nümayəndələri tuturdu. Buna ATƏT-nin büdcəsinin 42%-nin qeyd edilmiş dörd dövlətin hesabına qarşılandığını da əlavə etsək, bu təşkilatın fəaliyyətindəki digər uyğunsuzluqları (funksional və coğrafi) da müəyyən edən vacib struktur qeyri-tarazlıqların səbəbi kimi aydın olar. Bunların altında bəzən post-sovet və post-Yuqoslaviya ərazisində yerləşən dövlətlərin maraqlarını nəzərə almadan bu ərazilərdə insan hüquqlarına dair vəziyyətinin monitorinqi məsələsinə xüsusi diqqət yetirilir.

Millətçi ermənilərin kimliyini ayrı-ayrı tarixi zamanlarda müxtəlif xalqların uzaqgörən, seçkin nümayəndələri və hətta onların özlərinin qan qardaş və bacıları bax belə səciyyələndiriblər. Əslində, erməni millətçiliyinin anatomiyasını açan bu fikirlərin işığında Erməni Zülməti, onların bütün XX əsri müşayiət edən cinayətkarlığı bütün dəhşəti ilə görünür. İyirmi birinci yüzilliyin insanına da bəlli olur ki, dəyişən dünyada kökünəbağlı radikal erməni millətçiliyi dəyişməz olaraq qalıb. Lakin bu daşlaşmış niyyətləri, sümükləşmiş beyinləri müasir dünya inkar edir.

"Erməni soyqırımı"nı inkar edən erməni tarixçiləri Türkiyə mətbuatında əksini tapan şok etiraflar: "Bunu heç bir halda soyqırım adlandırmaq olmaz, əksinə, ermənilər Anadoluda 1 milyon türkü qətlə yetirib".

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

Dünya ermənləri qondarma "erməni soyqırımı"nın 100 illiyini yüksək səviyyədə qeyd etmək, olmayan bir hadisələrlə bağlı Türkiyəni suçlu çıxarıb arzularını gerçəkləşdirmək üçün ciddi şəkildə hərəkətə keçib. Belə bir ərəfədə Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanın həlak olan ermənilərin nəvələrinə başsağlığı verməsi "Böyük Ermənistan" xülyasında və Türkiyədən böyük təzminatlar almaq iddiasında olan erməni diasporunu xeyli həvəsləndirib.

Düzdür, ardınca Ərdoğan erməni tarixçilərini Türkiyəyə arxivləri araşdırmağa dəvət etməklə ermənləri fakt qarşısında qoydu. Ancaq şübhəsiz ki, dünya ermənləri və onların havadarları gələn il üçün xeyli şoular hazırlayacaqlar. Praqa sammitində Ermənistan prezidentinin Türkiyəyə hədyanlar yağdırmasının qaşılığında Azərbaycan prezidenti İlham Əliyevin "Türkiyə yoxdursa, mən burdayam" deyib düşmənin cavabını verməsinin yaratdığı effekt erməni iddialarına qarşı Türkiyə və Azərbaycanın birlikdə olmasının yeganə çıxış yolu olduğunu bir daha təsdiqlədi.

Tarixi faktlar da ermənilərin ziyanına işləyir. Ən mühümü odur ki, tarixdə erməni soyqırımının olmadığını təkcə türklər və ya azərbaycanlı tarixçilər deyil, ermənilərin özləri də vaxtaşırı etiraf edib. Belə faktlardan bir neçəsini bizə Diaspor Jurnalistlər Birliyinin sədri Fuad Hüseynzadə təqdim edib. Maraqlısı, həm də diqqətçəkəni odur ki, sözügedən faktlar qardaş Türkiyədə də dərc olunub. Belə ki, artukluhaber.net internet qəzeti "ERMENİLER, 1 MİLYON TÜRKÜ KATL ETTİE" sərlövhəli yazıda erməni cinayətlərinin ermənilər tərəfindən təsdiqi və etirafından bəhs edən

yazı çap edib. Yazıda əks olunduğu kimi, tarixi qaynaqlar sübut edir ki, ermənilər türklərə qarşı həmişə qəddar və amansız olublar. Faktlar bir daha göstərir ki, erməni psixologiyası bu gün də dəyişməyib və ermənilərin özləri də bunu etiraf edir. Ermənilərı faşistlərlə də müqayisə edənlər var. Amma diqqət yetirsək, görərik ki, faşistlər işğal etdikləri ərazilərdə daha çox əsir götürürdü, nəinki, qətliam həyata keçirirdilər. Lakin ermənilər işğal etdikləri ərazilərin sakinlərini qadın, uşaq demədən işgəncə ilə qətlə yetirməkdən sanki zövq alırlar. 2010-cu ilin yanvarında könüllü şəkildə Azərbaycana keçən və hazırda Bakı ətrafındakı hərbi şəhərciklərin birində saxlanılan erməni Yegişe Gevorkyan deyib ki, erməni terroru bu gün də dövlət siyasətinin əsasını təşkil edir. Fakt budur, erməni psixologiyasının bariz üzü! İllər ötsə də bəşəriyyətin düşüncə və yanaşması dəyişsə də, erməni təfəkküründə demək olar ki, heç də dəyişməyib.

Ermənilərin tarixən əzəli türk məskəni olan, indi Ermənistan adlandırılan torpaqlarda soydaşlarımızın başlarına açdıqları müsibətlər barədə erməni tarixçiləri özləri belə utanmadan həyasızcasına danışırlar. Erməni tarixçisi A.Lalayan isə ötən yüz ilin əvvəllərində ermənilərin vəhşiliklərini belə etiraf edir: "Daşnak nümayəndələri ətraflarına çoxlu könüllü dəstələr yığaraq müharibə gedən Türk ərazilərində qadın, uşaq, qoca və əlilləri amansızcasına doğrayıb tökürdülər. Daşnak dəstələrinin tutduqları türk kəndləri canlı insanlardan təmizlənib, eybəcər hala salınmış qurbanları ilə birlikdə xarabalığa çevrilib". ***(Bax: "İnqilabi Şərq" jurnalı № 2-3, 1936. Moskva)***

A.Lalayanın daha bir etirafı: "Ermənistanda daşnak hökuməti özünün 30 aylıq hakimiyyəti dövründə (may 1918 - noyabr 1920) azərbaycanlı əhalinin 60 faizini qırıb. 1917-ci ilin dekabrından 1918-ci ilin avqustuna qədər təkcə Sisyan rayonunun 15 kəndində 625 nəfər qətlə yetirilib. Bəyazid, Eçmiədzin, İrəvan qəzalarında qarət olunmuş doğma yurdunu tərk etmiş soydaşlarımızın sayı 200 min nəfərə yaxındır. Zəngəzur qəzasında 115 müsəlman kəndi dağıdılmış, həmin kəndlərdə yaşayan 3257 kişi, 2276 qadın, 2196 uşaq öldürülmüşdü. İrəvan quberniyasında 1918-ci ilin martınadək 199 kənd dağıdılmış, 135 min nəfərlik əhalinin bir qismi çətinliklə də olsa qaçaraq dəhşətli vəhşilikdən canını qurtara bilmişdi. 1919-cu ilin 9 ayı ərzində Eçmiədzin və Sürməli qəzalarında 96 kənd, İrəvan qəzasında isə bütün kəndlər yerlə-yeksan edilmişdi". ***(Bax: "İnqilabi Şərq" jurnalı № 2-3, 1936. Moskva)***

Təkcə dəhşət saçan bu rəqəmlər ermənilərin susdurulması üçün yetərli ola bilərdi, ancaq davamı da var...

Ermənilər bir çox hallarda qondarma "erməni soyqırımı"nın da yalan olduğunu etiraf ediblər. Türkiyə ermənilərini tanınmış simalarından olan tarixçi-yazar Levon Panos Dabağyan da vurğulayır. Qeyd edək ki, Dabağyan erməni lobbisinin və Qərb dairələrinin "soyqırımı" kampaniyasına açıq şəkildə qarşı çıxan az sayda erməni ziyalılarından biri, bəlkə də birincisidir. Özü də Dabağyan "erməni soyqırımı" iddialarının əsassız olduğunu, sadəcə deklarativ şəkildə deyil, tarixi tədqiqatlar nəticəsində nəzərə çatdırır. O, Osmanlı ermənilərinin tarixini uzun zamandan bəri tədqiq edir, 2003-cü ildə onun "Türkiyə ermənilərinin tarixi" adlı böyük kitabı çapdan çıxıb. Türkiyədə tarix boyu ermənilərə qarşı hər hansı soyqırım hərəkəti olmadığını vurğulayan Dabağyan bu xüsusda səslənən bütün bəyanatların tarixi gerçəyə deyil, siyasi maraqlara dayandığını deyib: "Birinci Dünya Müharibəsi dövründə Türkiyədə yaşamış ermənilərə qarşı deportasiya həyat keçirilib və bunu hər kəs etiraf edir, amma Türkiyə tarixində ermənilərə qarşı soyqırım deyilən bir şey qəti şəkildə olmayıb".

Dabağyanın sözlərinə görə, bu deportasiya qərarı müharibə dövrünün şərtlərinə görə verilib və onun faciələrə yol açdığı da gerçəkdir: "Amma bunu heç bir halda soyqırım adlandırmaq olmaz".

Diaspor Jurnalistlər Birliyinin sədri Fuad Hüseynzadə deyir ki, 2009-cu ildə isə ermənilərin türklərə qarşı soyqırım törətdiklərini etiraf edən hesabat kitab şəklində nəşr olunub və geniş yayılıb. Düşməni ifşa istiqamətində türk tarixçiləri də xeyli işlər görüb. İstanbul Universitetinin tarix fakültəsinin müəllimi Mehmet Perincek Rusiya Silahlı Qüvvələri Baş Qərargahının arxivindən əldə etdiyi hesabatı kitab şəklində nəşr etdirib. Hesabatı türk dilinə tərcümə edən M.Perincək bildirib ki, bu son dərəcə mühüm sənəddir: "Çünki general Bolxovotinov Baş Qərargaha göndərdiyi hesabatda Anadoluda ermənilərin Osmanlı dövlətinə qarşı üsyan etdiklərini və türk əhalini qətlə yetirdiklərini sənədlərlə ortaya qoyub. Təsəvvür edin ki, cəbhədə türklərə qarşı döyüşən və ermənilərə gizli dəstək verən bir ordunun generalı bildirir ki, Anadoluda ermənilər türklərə qarşı soyqırım həyata keçiriblər. Bu sənəd Türkiyənin böhtanlara qarşı mübarizəsində nə dərəcədə haqlı olduğunu ortaya qoymaqdadır. Biz ilk dəfə bu kitabda çoxlu sayda tarixi fotolardan istifadə etmişik. O fotolarda erməni quldurların türklərə qarşı soyqırımı törətməsi öz əksini tapıb".

Bütün bu tarixi həqiqətlər ondan xəbər verir ki, dünya güclərinin əlində Türkiyə və Azərbaycanı zəiflətmək üçün sadəcə oyuncağa çevrilmiş ermənilər elə erməni tarixçilərinin də etiraf etdiyi kimi olmayan bir şeyi sübut etmək uğrunda çarpışırlar. Əslində 2015-ci ildə soyqırımın 100 illiyi qeyd olunmalıdır, ancaq bu dünya miqyasında ermənilərin Türkiyə və Azərbaycan türklərinə qarşı soyqırım törətdiyinə görə ermənilər mühakimə edilməlidir. Bu gün Ermənistanda mühüm dövlət postları tutanlar S.Ohanyan, S.Sarkisyan, eləcə də R.Koçaryan və digərləri soydaşlarımıza qarşı törədilən soyqırımın günahkarları kimi beynəlxalq məhkəmə qarşısında cavab verməlidir. ***(Bax: "Yeni müsavat"№ 113, 4 may 2014).***



…işğal olunmuş bütün rayonlardan didərgin düşmüş, indi qaçqın vəziyyətində, köçkün vəziyyətində yaşayan vətəndaşların problemləri bizim üçün və şəxsən mənim üçün bir nömrəli problemdir.

HEYDƏR ƏLİYEV
Azərbaycan xalqının Ümummilli Lideri

Qaçqın və məcburi köçkün soydaşlarımızın problemləri bizim üçün həmişə gündəlikdə duran bir nömrəli problemdir.

…Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Azərbaycan bayrağı Şuşada, Xankəndində dalğalanmalıdır. Bizim məqsədimiz budur.

İLHAM ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti

Azərbaycan xalqı mövqeyini bəyan edir:

İnanırıq ki, müstəqil Azərbaycanımızın memarı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iradəsi, səyləri nəticəsində ölkəmizin ərazi bütövlüyü bərpa ediləcəkdir. Erməni işğalından azad olunacaq torpaqlarımızda həyat tamamilə yenidən qurulacaq, qaçqın və məcburi köçkünlərimiz öz ata-baba yurdlarına ləyaqətlə qayıdacaq, doğma, isti ocaqlarında şən və firavan yaşayacaq, işləyəcəklər.

ƏLİ HƏSƏNOV
Baş nazirin müavini

XOCALI SOYQIRIMI – XX əsrin faciəsi

XOCALI: qısa tarixi məlumat

7000-dən çox əhalisi olan Xocalı şəhəri Azərbaycan türklərinin tarixən məskunlaşdığı yerdir. Tarixi abidələrlə zəngi olan Xocalı b.e.ə. XIV-VII əsrlərə aid Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin mərkəzlərindən biridir. Burada son tunc və dəmir dövrünə aid tarixi abidələr- kurqanlar, nekropollar və daş qutu qəbirlər aşkar edilmişdir. Həmçinin, burada memarlıq abidələri- türbə və movzoleylər yerləşirdi. Arxeoloji qazıntılar zamanı müxtəlif növ daş, tunc, bəzək əşyaları və gildən düzəldilmiş məişət əşyaları aşkar edilmişdir. Toplanmış arxeoloji nümunələr içərisində Assuriya çarı Adadnerarinin (bizim e.ə. 807-788-ci illər) adı yazılmış muncuq vardır.

XX əsrin 80-ci illərinin ikinci yarısında ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməkliyi ilə "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün aşkarlıq və demokratiyadan istifadə edərək yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər.

Eyni zamanda, Xocalı şəhəri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində strateji əhəmiyyətli ərazi kimi də ermənilərı narahat edirdi. Çünki Xocalı Xankəndindən 10 km cənub-şərqdə, Ağdam-Şuşa və Əsgəran-Xankəndi yollarının arasında yerləşirdi. Şəhərin əhəmiyyətini artıran səbəblərdən biri də Dağlıq Qarabağın yeganə hava limanının məhz burada yerləşməsi idi. Bu səbəbdən Ermənistan silahlı qüvvələrinin əsas məqsədi Xocalıdan keçən Əsgəran-Xankəndi yoluna nəzarət etmək və Xocalıda yerləşən aeroportu ələ keçirmək idi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndində yerləşən keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı motoatıcı alayın 10 tankı, 16 zirehli transpartyoru, 9 piyadaların döyüş maşını, 180 nəfər hərbi mütəxəssisi və

xeyli canlı qüvvəsi ilə Xocalını mühasirəyə aldı. Ermənilər ən müasir silahlarla şəhərə hücum edərək Xocalı şəhərini yerlə-yeksan etdilər. Çoxsaylı ağır texnika ilə şəhər tamamilə dağıdılmış, yandırılmış və insanlar xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Onların içərisində başları kəsilən, gözləri çıxarılan, dərisi soyulan, diri-diri yandırılan və digər şəklə salınanlar çoxluq təşkil edirdi. İstintaq materiallarından məlum olur ki, hücuma rəhbərlik edən və hazırda Ermənistanın müdafiə naziri olan Seyran Ohanyanın, eləcə də 366-cı alayın 3-cü batalyonunun komandiri Yevqeniy Nabokixinin komandasında əlavə olaraq 50-dən çox erməni zabiti və giziri iştirak etmişlər.

<u>Xocalı soyqırımı XX əsrin ən böyük cinayətlərindən biridir:</u>
Bu qırğının nəticəsində 613 nəfər həlak olmuşdur, onlardan:
-uşaqlar - 63 nəfər;
-qadınlar - 106 nəfər;
-qocalar - 70 nəfər;
-8 ailə tamamilə məhv edilmişdir;
-25 uşaq hər iki valideyninin itirmişdir;
-130 uşaq valideynlərindən birini itirmişdir;
487 nəfər yaralanmışdır, onlardan:
-uşaqlar - 76 nəfər;
-1275 nəfər əsir götürülmüşdür;
-150 nəfər itkin düşmüşdür.

Şəhər əhalisinin bir hissəsi zorakılıqdan qaçıb qurtarmaq istəyərkən əvvəlcədən düzəldilmiş pusqularda qətlə yetirilmişdir. Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzinin məlumatına əsasən, dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirilmiş, onlarla meyitin təhqirə məruz qalması faktı aşkar edilmişdir. Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən, 13 uşaq) məhkəmə-tibbi ekspertizasından keçirilmişdir. Ekspertiza zamanı müəyyən edilmişdir ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin ölümünə qəlpə yaraları səbəb olmuş,10 nəfər küt alətlə vurularaq öldürülmüşdür. Hüquq-müdafiə mərkəzi diri adamın baş dərisinin soyulması faktını da qeydə almışdır.

Miqyasına və dəhşətlərinə görə Xocalı qırğını təkcə Azərbaycan xalqına qarşı deyil, insanlıq əleyhinə törədilmiş soyqırımdır. Xatın, Liditse, Oradur, Ruanda soyqırımları kimi Xocalı soyqırımı da insanlıq tarixinə yazılan qanlı faciədir.

Xocalı rayonundan olan məcburi köçkünlərin BMT, Avropa İttifaqı və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına müraciətində deyilir: "Artıq 10 ildən artıqdır ki, biz, qaçqın vəziyyətinə düşmüş xocalılar, ürək ağrısı və eyni zamanda böyük ümidlə bütün dünyanın sülhsevər xalqlarına və beynəlxalq təşkilatlara müraciət edirik. Sizdən xahiş edirik, erməni hərbi təcavüzü nəticəsində bizim başımıza gələn bəlaya laqeyd qalmayasınız. Biz inanırıq ki, dünyanın BMT, Aİ və ATƏT kimi kifayət qədər nüfuzlu beynəlxalq təşkilatları, sülhsevər ölkələri Ermənistan kimi dövlətin belə təcavüzkarlığına və özbaşınalığına qarşı tədbir görəcəklər".

İlk dəfə Xalqımızın ümummilli lideri Heydər Əliyev Xocalı soyqırımına hüquqi-siyasi qiymət verib

> **"Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırım eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir".**
>
> **Heydər Əliyev**

Ümummilli liderin təşəbbüsü ilə 1994- cü ilin fevral ayının 24-də Azərbaycan Respublikasının Milli Məclisi "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul etdi və BMT-yə, dünya dövlətlərinə bu qətliamın mahiyyətini açıqlayaraq beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırdı.

Ümummilli lider Heydər Əliyevin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 1997- ci il 25 fevral tarixli Sərəncamı ilə hər il fevral ayının 26-da saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq sükut dəqiqəsi elan edilir.

1992-ci ildən başlayaraq hər il 26 fevral Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad olunur.

Hər il 26 fevralda ölkə başçısı "Xocalı Soyqırımı" ilə əlaqədar xalqa müraciət edir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev bütün qaçqın və məcburi köçkün soydaşlarımıza, o cümlədən, Xocalıdan olan məcburi köçkünlərə daim diqqət və qayğı ilə yanaşar, onların sosial problemlərinin həllinə çalışardı.

Ulu Öndər vaxtaşırı olaraq əraziləri işğal olunmuş rayonların ictimaiyyət nümayəndələri, məcburi köçkünlərlə görüşər, onların üzləşdikləri çoxsaylı problemlərin həlli ilə bağlı müvafiq tapşırıqlar verərdi. Unudulmaz xatirələrlə dolu bu görüşlər öz yurdlarından didərgin düşmüş həmvətənlərimizin ata-baba torpaqlarına ləyaqətlə qayıdacaqlarına inamını daha da artırardı.

Belə görüşlərdən biri 1996-cı il 24 fevral tarixdə baş tutmuşdu.

Prezident Sarayında Xocalı soyqırımının 4-cü ildönümü ilə əlaqədar Xocalı rayon ictimaiyyətinin nümayəndələri ilə görüş (1996-cı il 24 fevral)

Bundan əlavə azərbaycanlılara qarşı zaman-zaman törədilmiş soyqırımı ilə əlaqədar ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı fərmanla 31 Mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin gərgin əməyi və siyasi iradəsi nəticəsində Xocalı faciəsinin beynəlxalq aləmdə soyqırım kimi tanınması istiqamətində aparılan işlər artıq öz nəticələrini verir

"Xocalı soyqırımını tanıtdırmaq üçün biz - dövlət, hökumət, diplomatlarımız, ictimai təşkilatlar, diaspor təşkilatlarımız çox böyük işlər görmüşük. Bu, çox vacib və çox önəmli məsələdir. Artıq dünyanın bir sıra ölkələri Xocalı faciəsini soyqırımı kimi rəsmi qaydada qəbul etmişdir. Əminəm ki, bu proses davam etdirilməlidir və etdiriləcəkdir. Həm səfirliklərimiz, əlbəttə ki, dövlət qurumları, ictimai təşkilatlar bu məsələ ilə bağlı öz səylərini davam etdirəcəklər. Getdikcə Xocalı soyqırımını soyqırımı kimi tanıyan ölkələrin sayı daha da çoxalacaqdır".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu layiqli şəkildə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan həqiqətlərinin və Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılmasını səfirliklərimiz və diaspor təşkilatlarımız qarşısında vacib məsələ kimi müəyyənləşdirmişdir.

Prezident İlham Əliyevin "Xocalı soyqırımının 20-ci ildönümü haqqında" 2012-ci il 17 yanvar tarixli Sərəncamı dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara çağırış olmaqla bərabər, həm də münaqişə ilə bağlı qətiyyətli ittihamdır. Sərəncamda deyilir:

"Azərbaycan xalqının tarixinə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı faciəsi kimi daxil olmuşdur. Ermənistan silahlı qüvvələri bütün beynəlxalq hüquq normalarına zidd olaraq, keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi

heyətinin iştirakı ilə yatan şəhərə hücum edərək azərbaycanlılara qarşı soyqırım aktını törətmişlər.

Bu hərbi təcavüz zamanı Xocalı ağır hərbi texnikadan şiddətli atəşlər nəticəsində darmadağın edilmiş, dinc sakinlərə amansızcasına divan tutulmuşdur. Bir neçə saat ərzində 613 soydaşımız, o cümlədən, 106 qadın, 63 uşaq və 70 qoca xüsusi qəddarlıqla qətlə yetirilmiş, meyitlər üzərində təhqiredici hərəkətlərə yol verilmişdir. Həmin kütləvi qırğın həyata keçirilərkən 8 ailənin həyatına son qoyulmuş, 25 uşaq hər iki valideynindən, 130 uşaq isə valideynlərinin birindən məhrum edilmiş, 487 dinc Xocalı sakini ağır yaralanmış və 1275 nəfər girov götürülmüşdür. Girov götürülənlərdən 150 nəfərin taleyi indiyədək məlum deyil. Qanlı Xocalı qırğınını törətməklə Dağlıq Qarabağın hüdudlarından kənara çıxan Ermənistan Azərbaycana qarşı genişmiqyaslı təcavüzə başladı.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı 20 min vətəndaşımız öldürüldü, 50 min nəfərdən çox adam yaralandı və əlil oldu, ölkəmizin ərazisinin 20 faizi işğal edildi. Xalqımız misli görünməyən humanitar fəlakətlə üz-üzə qaldı.

Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının, Avropa Parlament Assambleyasının və bir sıra beynəlxalq qurumların Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması və problemin ölkəmizin ərazi bütövlüyü çərçivəsində obyektiv həllini tapmasına dair qətnamə və qərarlarına baxmayaraq, bu günə qədər ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar heç bir nəticə verməmişdir.

Azərbaycanlılara qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almalıdır".

Məhz birbaşa Prezident İlham Əliyevin təşəbbüsü ilə dünya ictimaiyyətinin diqqətini Xocalı soyqırımına yönəltmək məqsədi ilə Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar 26 fevral 2012-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və xanımı Mehriban Əliyevanın, həmçinin 85 mindən çox insanın iştirak etdiyi ümumxalq yürüşü keçirildi.



Bakının Azadlıq meydanından başlayan bu yürüş Xocalı faciəsi qurbanlarının xatirəsini ehtiramla yad etmək və Erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədi daşıyırdı.

2012-ci ilin fevralın 23-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Xocalı soyqırımının 20-ci ildönümü ilə bağlı beynəlxalq təşkilatlara və dünya dövlətlərinə xüsusi müraciət ünvanlanmışdır. Müraciətdə XX əsrin ən dəhşətli və qanlı hadisələrindən hesab olunan Xocalı soyqırımı haqqında olan həqiqətlər öz əksini tapmaqla yanaşı, son iki əsrdə erməni millətçilərinin tarixi Azərbaycan torpaqları hesabına mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə dəfələrlə xalqımıza qarşı terror, kütləvi qırğın, departasiya və etnik təmizləmə kimi bəşəri cinayətlər törədildiyi xüsusi qeyd edilmişdir.

Prezident İlham Əliyevin göstərişləri əsasında mütəmadi olaraq dünyanın bir çox dövlətlərində tanıtma və anım tədbirləri təşkil olunur. Qeyd etmək lazımdır ki, xarici ölkələrdə təşkil olunan tədbirlərin sırasında ən möhtəşəmi Türkiyənin İstanbul şəhərində keçirilib. 100 mindən artıq insan yürüş edərək, Taksim meydanında bir daha dünya ictimaiyyətinin diqqətini Xocalı soyqırımına cəlb etmişdir.

Ölkə başçısının nüfuzlu beynəlxalq qurumlara, dövlətlərə səfərləri, eləcə də Azərbaycanda təşkil olunan beynəlxalq tədbirlər ölkəmizi dünyada tanıdır. Azərbaycan bu gün beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Azərbaycanın qüdrəti artdıqca işğalçı Ermənistan getdicə zəifləyir. Ancaq yaddan çıxarmaq lazım deyil ki, dünyada erməni lobbisi, diasporu hələ də güclüdür. Ermənistanın ölkəmizə qarşı apardığı ideoloji müharibənin qarşısında Azərbaycanı dünyaya tanıtmaq istiqamətində hər kəs də öz imkanlarından istifadə etməlidir.

Xocalı faciəsi haqda həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun fəaliyyəti

Fəaliyyətə başladığı ilk gündən etibarən Heydər Əliyev Fondu da qaçqın və məcburi köçkünlərin üzləşdikləri çoxsaylı problemlərin dünya ictimaiyyətinə çatdırılmasına və onların həllinə daim diqqətlə yanaşır.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılmış "Azərbaycan" internet portalı olduqca böyük əhəmiyyətə malikdir. Portalda Azərbaycan haqqında geniş informasiya əldə etmək olar. Portalda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən, Xocalı soyqırımından, erməni vəhşiliklərindən bəhs edən məlumatların yerləşdirilməsi saxta erməni təbliğatına qarşı tutarlı cavab olmaqla dünya ictimaiyyətinin erməni vəhşilikləri ilə yaxından tanış olmasına şərait yaradır.

Heydər Əliyev Fondu bununla yanaşı hər il Xocalı soyqırımı ərəfəsində dünyanın müxtəlif ölkələrində soyqırım qurbanlarının fotoşəkillərini sərgiləyir, beynəlxalq mətbuatda soyqırım haqqında yazılar dərc etdirir, "Xocalı uşaqların gözü ilə" rəsm müsabiqəsinin iştirakçılarının əsərlərindən ibarət sərgilər keçirir.

2007-ci il fevralın 26-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə Brüsseldə təşkil olunan "Təcavüzün qurbanları" adlı foto və uşaq rəsmlərinin sərgisi də bu həqiqətlərin beynəlxalq aləmə çatdırılması işinin davamıdır. Fond soyqırımı haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq məqsədi ilə həmin il fevralın 19-dan 26-dək Türkiyənin İstanbul və daha 25 vilayətində "Xocalı həftəsi" adlı silsilə anım mərasimləri keçirmişdir. Bundan başqa Xocalı faciəsinin beynəlxalq aləmdə tanıdılması istiqamətində 2008-ci il fevralın 14-də Berlində keçirilmiş "Xocalı soyqırımı və 1915-ci il hadisələrindəki gerçəklər" adlı elmi konfrans da son dərəcə əhəmiyyətli olmuşdur.

Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Prezidentinin xanımı, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən hər il mütəmadi olaraq "Gülüstan" sarayında uşaq evlərində və internat məktəblərində təlim-tərbiyə alan, şəhid, qaçqın və məcburi köçkün ailələrindən olan, yetim və valideyn himayəsindən məhrum, təhsildə xüsusilə fərqlənən uşaqlar üçün Yeni il şənlikləri keçirilir.

Hər il sentyabr ayında Heydər Əliyev Fondu tərəfindən qaçqın və məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə məktəbli ləvazimatından ibarət hədiyyələrin təqdim olunması, müvəqqəti məskunlaşma obyektlərində mütəmadi olaraq məcburi köçkünlərlə görüşlərin keçirilməsi, Fondun maliyyə dəstəyi ilə çoxsaylı məktəb binalarının tikilib istifadəyə verilməsi də bu diqqətin konkret ifadəsidir.

2005-ci il 24 avqust tarixdə YUNESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva və YUNESKO-nun baş direktoru cənab Koiçiro Matsuuranın iştirakı ilə Gülüstan Sarayında "YUNESKO-Azərbaycan: Gələcəyə Körpü" mövzusunda dəyirmi masa keçirilmiş və bu tədbirdə qaçqın və məcburi köçkünlərin vəziyyəti barədə məlumat verilməsinə imkan yaradılmışdır.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın xüsusi səyi nəticəsində Azərbaycan həqiqətləri dünyanın hər yerində nümayiş etdirilir. Bu istiqamətdə həyata keçirilən işlərə xüsusi önəm verən Fond 2005-ci ildən başlayaraq, müxtəlif dillərdə "Qarabağ həqiqətləri" toplusunu nəşr edir. Beynəlxalq ictimaiyyətə ünvanlanmış toplu ilkin olaraq Azərbaycan, rus və ingilis dillərində nəşr edilib. Həmçinin, "Qarabağ həqiqətləri" oxuculara alman və macar dillərində təqdim olunub. Təbliğat materialları indiyədək bir çox xarici ölkələrdə yayılıb, müxtəlif tədbir və aksiyalar zamanı Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında səmərəli ideoloji vasitəyə çevrilib.

Heydər Əliyev Fondunun dəstəyi ilə Xocalı soyqırımının 20-ci ildönümü dünyanın 120-dən artıq nöqtəsində geniş şəkildə qeyd edilmişdir. Heydər Əliyev Fondunun hazırladığı və Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında səmərəli-ideoloji vasitəyə

çevrilən təbliğat materialları artıq bir sıra xarici ölkələrdə müxtəlif dillərdə yayılıb və yayılmaqdadır.

Xocalı soyqırımına həsr olunmuş mərasimlər 2005-ci ildən başlayaraq Vaşinqton, Nyu-York, Varşava, London, Pekin, Haaqa, Dubay, Kiyev, Moskva, Berlin, Strasburq, Brüssel, Buxarest, Cenevrə, Ankara, İstanbul, Praqa, Paris, Roma, Tbilisi, Sarayeva və başqa şəhərlərdə həyata keçirilir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Xocalı soyqırımına həsr olunmuş kitablar, broşürlər çap edilir və kinofilmlər çəkilərək dünya ictimaiyyətinə çatdırılır.

Xocalı faciəsinin oxşarı olan Çexiyanın Liditse şəhəri 1942- ci ildə alman faşistləri tərəfindən yerlə yeksan edilmiş və əhalisi terrora məruz qalmışdır. Xocalı və Liditse faciələrinin oxşarlığı nəticəsində 2007- ci ildə Liditse muzeyi və Xatirə kompleksində Xocalı faciəsinin 15 illiyinə həsr olunmuş 3 ay davam edən silsilə tədbirlər keçirilmişdir.

Çexiyanın Liditse qəsəbəsində Xocalı adlı küçə və hal-hazırda xocalıların xeyli hissəsinin məskunlaşdığı Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində Liditse küçəsi vardır.

Qeyd etmək lazımdır ki, məcburi köçkünlər üçün yeni salınmış qəsəbə və məhəllələrin açılış tədbirlərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə birlikdə Mehriban xanım Əliyevanın da iştirakı öz yurdlarından didərgin düşmüş soydaşlarımıza diqqət qayğının bariz nümunəsidir.

Ağdam rayonunda yeni salınmış "Bənövşələr" qəsəbəsində görüş (2006-cı il 1 mart)

Sabunçu rayonunun Ramana qəsəbəsində yeni salınmış qəsəbənin açılışı (2007-ci il 4 may)

Beyləqan rayonu ərazisində məcburi köçkünlər üçün salınmış yeni qəsəbədə görüş (2008-ci il 4 oktyabr)

Füzuli rayonunun Horadiz şəhərində İdman Kompleksinin açılışı (2010-cu il 11 noyabr)

Yevlax şəhərində 615 məcburi köçkün ailəsi üçün salınmış məhəllənin açılışı (2010-cu il 10 noyabr)

Ağdam rayonunun Quzanlı qəsəbəsində 689 məcburi köçkün ailəsi üçün salınmış qəsəbənin açılışı (2010-cu il 11 noyabr)

Ağcabədi rayonunun Taxtakörpü ərazisində 552 məcburi köçkün ailəsi üçün salınmış yeni qəsəbənin açılışı (2011-ci il 24 dekabr)

Bakı şəhəri, Qaradağ rayonu, Müşfiqabad qəsəbəsi ərazisində 1440 məcburi köçkün ailəsi üçün salınmış məhəllənin açılışı (2012-ci il 27 dekabr)

Leyla Əliyevanın rəhbərliyi ilə keçirilən "Xocalıya Ədalət!" kampaniyası bütün xocalıların səsini dünya ictimaiyyətinə çatdırır

Ermənistanın törətdiyi Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması istiqamətində Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla xanım Əliyevanın böyük rolu olmuşdur. Onun təşəbbüsü ilə 2008-ci il mayın 8-də Şuşanın işğalının ildönümündə irəli sürülmüş "Xocalıya Ədalət!" kampaniyası hal-hazırda 80-dən artıq ölkədə yüzlərlə könüllünün iştirakı ilə uğurla davam etdirilməkdədir. Kampaniyanın məqsədi beynəlxalq ictimaiyyətin Xocalı faciəsi ilə bağlı məlumatlandırılması, faciəyə beynəlxalq aləmdə siyasi-hüquqi və mənəvi qiymət verilməsi və həmçinin, beynəlxalq səviyyədə anılmasını təmin etməkdir.

"Xocalıya Ədalət!" kampaniyasının vacib hissəsi kimi rus yazıçısı və tarixçisi Yuri Pompeyevin nəşr olunmuş, "Qarabağ gündəliyi" adlı kitabında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında dəqiq tarixi faktlar yer almışdır.

"Xocalıya Ədalət!" kampaniyası çərçivəsində tanınmış amerikalı rep ifaçısı xanım Toni Bləkmən eyniadlı mahnı yazmış və həmin mahnı üçün çəkilmiş klipin təqdimat mərasimi 2010-cu ilin fevral ayında keçirilmişdir.

Xocalı qətliamı haqqında həqiqətləri özündə əks etdirən, dünya ictimaiyyətini bu faciəyə hüquqi və siyasi qiymət və Azərbaycanın haqq səsinə dəstək verməyə çağıran mahnıda müasir rep ritmləri ilə yanaşı, milli musiqimizin elementləri - muğamdan və balaban alətindən də istifadə edilmişdir.

Hazırda dünyanın bir çox nöqtəsində həyata keçirilən bu kampaniya çərçivəsində görülən işlərin nəticəsində İslam Əməkdaşlıq Təşkilatının üzvü olan 50-dən artıq ölkəsinin parlament nümayəndə heyəti Xocalı faciəsini beynəlxalq səviyyədə soyqırımı kimi tanıyıb.

Artıq dünyanın iri şəhərlərində Xocalı soyqırımı qurbanlarının xatirəsinə küçələrə və parklara Xocalı adı verilir. Xocalı haqqında həqiqətlər ictimaiyyətə təqdim edilir. 2012-ci il fevral ayının 24-də Bosniya və Herseqovinanın paytaxtı Sarayevada Heydər Əliyev Fondunun təşəbbüsü ilə yenidən qurulan "Dostluq parkı"nın və Xocalı

soyqırımı qurbanlarının xatirəsinə həsr olunmuş abidənin açılışı olmuş, Fondun vitse - prezidenti Leyla xanım Əliyeva şəhər ictimaiyyətinə Xocalı soyqırımı ilə bağlı geniş məlumat vermiş və tədbir iştirakçılarına soyqırımı əks etdirən videoçarxlar təqdim edilmişdir.

Təqdirəlayiq haldır ki, dünyanın əksər ölkələrində keçirilən bu kampaniyaya həmin ölkələrin gəncləri də qoşulmuşlar. Son vaxtlar Amsterdam, Brüssel, Vyana, Vilnüs, Mexiko, Paris, Moskva və Los Ancelesdə də bu istiqamətdə tədbirlər keçirilmişdir. Xocalı soyqırımının dünyada tanınması üçün bir sıra beynəlxalq təşkilatlarda da işlər aparılır.

Azərbaycan ərazilərinin işğaldan azad edilməsini tələb edən, Ermənistanı təcavüzkar dövlət kimi tanıyan çoxsaylı qətnamələr qəbul edən İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyan ilk beynəlxalq təşkilatdır. Öz növbəsində, ABŞ-ın Xocalı soyqırımını tanıyan və bu cinayəti pisləyən ştatlarının sayı hər il artmaqdadır.

Aparılan məqsədyönlü tədbirlərin nəticəsində artıq 7 dövlət – Pakistan (1 fevral 2012), Meksika (2 fevral 2012) Kolumbiya (24 aprel

2012), Rumıniya (12 fevral 2013), Çexiya (19 fevral 2013), Bosniya və Hersoqovina (26 fevral 2013), Peru (2013) parlamentində və ABŞ-n 15 ştatı (Massaçusets, Texas, Şimali Karolina, Nyu-Cersi, Corciya, Men, Arkanzas, Oklahoma, Nyu- Meksiko, İndiana, Tennessi, Pensilvaniya, Missisipi, Vest Virciniya, Konnektikut) bu qətliamı soyqırımı aktı kimi tanınmış və bu barədə xüsusi qətnamə qəbul etmişdir.

Meksikanın paytaxtı Mexiko şəhərinin mərkəzi tarixi rayonunda yerləşən "Tlakskoake-Xocalı" meydanında Xocalı soyqırımı qurbanlarına abidə qoyulmuşdur.

2011-ci ildə Xocalı soyqırımı qurbanlarına abidə Almaniyanın Berlin şəhərində ucaldılmışdır.

2013-cü ildə Türkiyənin Uşak şəhərində Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidə ucaldılmışdır.

2014-cü il martın 27-də Ankaranın Kızılcahamam rayonunda "Xocalı Abidəsi və Xocalı Muzeyi" kompleksinin açılış mərasimi olmuşdur.

Çexiya Respublikası Avropa İttifaqının üzvləri arasında Ermənistanı dinc Xocalı sakinlərinin qətliamına görə rəsmən pisləyən və bu hərəkətləri insanlığa qarşı cinayət kimi tanıyan ilk dövlət, Çexiya parlamenti isə Avropa İttifaqında ilk qanunverici orqan olmuşdur. 2013-cü il fevralın 7-də bu ölkənin ali qanunvericilik orqanının Deputatlar Palatasının Beynəlxalq Əlaqələr Komitəsi 21 il əvvəl "erməni hərbi bölmələri tərəfindən Azərbaycanın işğal olunmuş Xocalı şəhərində 613 müdafiəsiz dinc sakinin vəhşicəsinə qətlə yetirilməsi ilə törədilmiş qırğına görə" Ermənistanı pisləyən qətnaməni yekdilliklə qəbul edib.

Ötən il Xocalı soyqırımının ildönümü ərəfəsində beynəlxalq səviyyədə görülən işlər isə miqyasına və effektliliyinə görə əvvəlki illərlə müqayisədə daha da təkmilləşib, həmçinin, yeni metodlardan geniş istifadə olunur. Belə ki, Xocalı faciəsinə ABŞ hökumətindən münasibət bildirilməsi məqsədi ilə Ağ Evin rəsmi saytında yerləşdirilən petisiyaya lazım olan 100.000 səs artıqlaması ilə toplanıb.

Eyni zamanda, Azərbaycanın ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğalına diqqəti çəkən və Minsk qrupunun üzvü kimi ABŞ-ın rolunu gücləndirməsinə çağıran petisiyaya da lazım olan miqdarda səs toplanıb və hər iki petisiyanı təsdiqləyənlərin sayı artmaqda davam edir.

Bundan başqa ABŞ-da Azərbaycan-Amerika Alyansının təşkilatçılığı ilə həyata keçirilən multimedia layihələri çərçivəsində Vaşinqtonda, Kolumbiya dairəsində və Nyu-Yorkda "Xocalı... Azərbaycana qarşı insan faciəsi" başlıqlı plakatlar metroda, avtobus dayanacaqlarında, stasionar və hərəkət edən reklam sipərlərində yerləşdirilib.

Həmçinin, Vaşinqtondakı binalara və Nyu-Yorkda BMT-nin yerləşdiyi binaya Xocalı hadisələri haqqında məlumatları özündə əks etdirən təsviri proyeksiya edilir. Xocalı soyqırımını dünya ictimaiyyətinə tanıtmaq məqsədilə bənzər kampaniya bu il Almaniyada da keçirilmişdir.

Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması istiqamətində məqsədyönlü tədbirlər bu gün də davam etdirilir. Bu istiqamətdə həyata keçirilən tədbirlər artıq yeni mərhələyə qədəm qoyur. Bu mərhələdə Xocalı soyqırımı, ümumilikdə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumatlar, faktlar, fotoşəkillər tam dəqiqliyi ilə diqqətə çatdırılmalıdır. Çünki Ermənistan dövləti və erməbi lobbisi 2015-ci ildə qondarma erməni soyqırımının 100 illiyinin qeyd edilməsi üçün bütün güc və resurslarını səfərbər edib. Düşmənlərimizin bu saxta kampaniyasının qarşısının alınması üçün ən səmərəli yollardan biri Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması, dünyanın aparıcı dövlətləri və ayrı-ayrı ölkələrin parlamentləri tərəfindən tanınmasına nail olmaqdır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin nizamlanması, onun beynəlxalq ictimaiyyətə çatdırılması sahəsində həyata keçirilən tədbirlər

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin, eləcə də, Xocalı faciəsinin beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə Azərbaycanda və xarici ölkələrdə müntəzəm olaraq beynəlxalq tədbirlər təşkil olunur, həmçinin, hazırlanmış kitab, buklet, qısametrajlı filmlər səfirliklər vasitəsi ilə digər ölkələrdə yayılır.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən təkcə son 10 il ərzində xarici ölkələrin, beynəlxalq maliyyə qurumlarının, humanitar təşkilatların nümayəndələri ilə 800-dən çox görüş keçirilmiş, həmin görüşlərdə həm münaqişə, həm də Xocalı faciəsi barədə onlara ətraflı məlumat verilmişdir. Həmin görüşlərdən bəzi məqamları diqqətinizə çatdırırıq:

Avropa Şurası Parlament Assambleyasında Avropa Xalq Partiyasının üzvləri ilə görüş (2011-ci il 21 iyul)

İspaniya Krallığının Deputatlar Konqresinin Xarici Əlaqələr Komitəsinin sədri Xosep Antonio Duran ilə görüş (2011-ci il 27 iyul)

Avropa Parlamentinin və Almaniya Bundestaqının üzvlərində ibarət nümayəndə heyəti ilə görüş (2012-ci il 6 iyun)

Avropa Parlamentinin üzvləri ilə görüş (2012-ci il 31 avqust)

Avropa Parlamentinin nümayəndə heyəti ilə görüş (2013-cü il 8 iyul)

Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Filipp Lefortun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş (2013-cü il 26 iyul)

Eyni zamanda, xarici ölkələrin Azərbaycandakı diplomatik nümayəndəliklərinin, ölkədə rəsmi səfərdə olan nüfuzlu beynəlxalq qurumların nümayəndə heyətlərinin məcburi köçkünlərin sıx müvəqqəti məskunlaşma yerlərinə 650-dən çox səfəri təşkil edilmişdir.

BMT Baş Katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi cənab Valter Kalinin məcburi köçkünlərlə görüşü (2010-cu il 20 mart)

BMT-nin Qaçqınlar üzrə Ali Komissarı cənab Antonio Quterreşin məcburi köçkünlərlə görüşü (2011-ci il 19 may)

BMT Baş katibinin müavini xanım Aşa Rouz Migironun Binəqədi rayonunda müvəqqəti məskunlaşmış məcburi köçkünlərlə görüşü (2011-ci il 25 may)

Avropa Parlamenti üzvlərinin Ağdam rayonunda məcburi köçkünlərlə görüşü (2011-ci il 16 iyul)

Fransa senatının üzvü xanım Natali Qulinin Binəqədi rayonunda müvəqqəti məskunlaşmış məcburi köçkünlərlə görüşü (2012-ci il 7 fevral)

ABŞ Konqres üzvlərinin bir qrup köməkçilərinin məcburi köçkünlərlə görüşü (2012-ci il 4 aprel)

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin, eləcə də, Xocalı faciəsinin beynəlxalq ictimaiyyətə çatdırılması məqsədi ilə xarici ölkələrə mütəmadi olaraq səfərlər təşkil edilir, parlamentlərdə görüşlər keçirilir, parlament üzvlərinə geniş məlumatlar verilir.

Təkcə 2012-ci ildə bu məqsədlə Baş nazirin müavini - Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədri Əli Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti 5 ölkədə (martın 5-7-də Belçika Federal Parlamentinin Nümayəndələr Palatasında, avqustun 22-23-də Meksika Senatının rəhbərliyi və senatorlarla, oktyabrın 1-də Cenevrədə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinin 63-cü sessiyasında, noyabrın 6-8-də Finlandiya Parlamentində, noyabrın 22-də İspaniya Senatında, dekabrın 13-14-də Andorra Senatında) səfərdə olmuşdur.

Belçika Federal Parlamentinin Nümayəndələr Palatasında keçirilən tədbirdə iştirak (2012-ci il 7 mart)

Baş nazirin müavini cənab Əli Həsənovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti 2012-ci il 19-28 avqust tarixlərində Meksika Birləşmiş Ştatlarında səfərdə olmuşdur.

Səfər çərçivəsində nümayəndə heyəti Mexiko şəhərinin Tarixi Mərkəz adlanan ərazisində Tlakskoake-Xocalı meydanının və orada Xocalı soyqırımı qurbanlarının şərəfinə ucaldılmış abidənin açılış mərasimində iştirak etmişdir.

Meksika Senatının rəhbərliyi və senatorlarla görüş

Cenevrədə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinin 63-cü sessiyasında iştirak (2012-ci il 1-5 oktyabr)

Finlandiya Parlamentində təşkil olunmuş dinləmələrdə iştirak (2012-ci il 7 noyabr)

İspaniya Senatında keçirilmiş konfransda iştirak (2012-ci il 22 noyabr)

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə müntəzəm çatdırılması məqsədi ilə "Ermənistanda aparılan etnik təmizləmə və Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın 20 faiz ərazisinin işğalı nəticəsində yaranmış bir milyonadək qaçqın və məcburi köçkünlərin haqqında məlumat kitabı, dövlətimizin başçısı cənab İlham Əliyevin qaçqın və məcburi köçkünlərə qayğısından bəhs edən "Qaçqın və məcburi köçkünlərə Prezident qayğısı" kitabı nəşr olunmuşdur.

Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə görülmüş tədbirləri əhatə edən hesabat toplusu, 10 dəqiqəlik film, həmçinin məcburi köçkünlər haqqında iki dildə "Ümid və inam" adlı sənədli film hazırlanmışdır.

Problemin tarixi köklərinə, qaçqın və məcburi köçkünlərin mövcud problemlərinə və onların aradan qaldırılması üçün görülən işlərə həsr olunmuş genişhəcmli, 52 dəqiqəlik "Vətən həsrəti ... Sönməyən Ümidlər" adlı filmi də hazırlanaraq bütün telekanallarda nümayiş etdirilmiş, xarici ölkələrdə yayılması məqsədi ilə isə 8 dildə 15 dəqiqəlik qısametrajlı film, həmçinin Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin 2 dildə vebsaytı hazırlanmışdır.

Bütün bunlarla yanaşı "Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan Respublikasında olan qaçqınlar, məcburi köçkünlər, həmçinin "qaçqın" statusu almaq niyyətində olan (3-cü ölkələrdən olan sığınacaq axtaran) şəxslər, onların sosial təminatının yaxşılaşdırılması sahəsində görülən tədbirlər və mövcud problemləri haqqında məlumat" hər il azərbaycan və ingilis dillərində dərc olunur, 2012-ci ildə isə azərbaycan, ingilis və ispan dillərində dərc olunmuşdur.

Hazırlanmış məlumat topluları və informasiya materialları ölkəmizdə səfərdə olan xarici qonaqlara onlarla keçirilən görüşlər zamanı təqdim edilir.

2011-ci il fevralın 21-də Xocalı soyqırımının ildönümü ərəfəsində Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında türkiyəli rejissor Cem Oğuzun ekranlaşdırdığı "Qaçqın Anar Usubovun uzun səyahəti" filmi təqdim olunmuşdur.

Çəkilişlər Türkiyənin NTV kanalı tərəfindən aparılmış bu filmin araya-ərsəyə gəlməsinə Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva, ABŞ-da fəaliyyət göstərən Qarabağ Fondu, "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması" İctimai Birliyi təşkilatı dəstək vermişlər.

Hesab edirik ki, Türkiyənin Bilkent Universitetinin professoru, tanınmış jurnalist Cem Oğuz tərəfindən çəkilmiş bu ekran əsəri xalqımızın başına gətirilmiş Xocalı faciəsinin bütün dünyaya çatdırılmasına böyük təkan verəcəkdir.

Tədbirdə çıxış edən filmin rejissoru Cem Oğuz demişdir: "tarixlə üzləşmək çətindir. Ermənilər Xocalı faciəsini törətməklə özlərini tarixlə üz-üzə qoymuşlar. Məqsədim, Xocalıda baş verənləri bütün dünyaya yaymaqdır. Dünya xalqları bənzəri olmayan bu faciə ilə bağlı çox az məlumata malikdirlər. Biz çalışacağıq ki, əsl həqiqəti və ermənilərin necə pis bir xislətə malik olduqlarını hamıya göstərək".

Filmdə ermənilərin törətdikləri Xocalı soyqırımı zamanı 8 yaşında olan qaçqın uşaq öz həyatını nəql edir. Qərb sənədli filmləri ruhunda çəkilmiş ekran əsəri artıq bir sıra beynəlxalq səviyyəli müxtəlif festivallarda mükafatlara təqdim olunmuşdur.

2013-cü il 16 dekabr tarixində İspaniyanın "EFE" informasiya agentliyinin redaktoru, jurnalist xanım Carmen Klara Rodriges Alonsonun Xocalı faciəsi barədə məlumat hazırlamaq məqsədi ilə ölkəmizə səfəri təşkil edilmişdir. O, Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri cənab Əli Həsənov ilə görüşmüş və görüşdə xanım jurnalistə ermənilərin Xocalı şəhərində törətdikləri soyqırım haqqında ətraflı məlumat verilmişdir.

Xanım Carmen Klara Rodriges Alonso həmçinin, Xocalı soyqırımı ilə bağlı ətraflı məlumat toplamaq üçün aidiyyati dövlət orqanlarının nümayəndələri ilə görüşmüş, Xocalı abidəsini ziyarət etmiş, Şəhidlər Xiyabanı kompleksində olmuş, Sabunçu rayonunun Qızılqum sanatoriyasında müvəqqəti məskunlaşmış Xocalı rayonundan olan məcburi köçkünlərin həyat şəraiti ilə yaxından tanış olmuşdur.

Keçirilən görüşlərin nəticəsi olaraq İspaniya mətbuatında Xocalı soyqırımı barədə geniş materiallar verilmişdir. Belə ki, 2014-cü il 28 fevral tarixində Xocalı soyqırımı İspaniya mətbuatında geniş işıqlandırılmışdır. İspaniyanın nüfuzlu "EFE" agentliyinin, "W Radio" dalğasının internet saytlarında və eləcə də, YouTube-nin ispandilli səhifələrində və videoportallarda Xocalıda törədilən dəhşətli hadisələrdən bəhs edilir, həmçinin 7 dəqiqəlik videoxəbərdə ispandilli ictimaiyyətə bir gecədə baş verən dəhşətlər və faciə qurbanları barədə geniş məlumat verilir.

2014-cü il 24 fevral tarixində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən Azərbaycan Qiymətləndiricilər Cəmiyyəti ilə birlikdə "Xocalı soyqırımı" faciəsinin 22-ci ildönümünə həsr edilmiş Beynəlxalq Konfrans keçirilmişdir. Konfransda Milli Məclisin üzvləri, əraziləri işğal olunmuş rayon icra

hakimiyyətlərinin başçıları, ictimaiyyət nümayəndələri və xarici ölkələrdən olan diplomatlar da iştirak etmişlər.

Xocalı rayonundan olan məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi sahəsində dövlət tərəfindən bir çox işlər görülmüşdür.

Xocalı rayonundan olan 14577 nəfər məcburi köçkün respublikanın 52 müxtəlif şəhər və rayonlarında müvəqqəti məskunlaşmışdır.

Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan neft strategiyası öz bəhrəsini verməyə başlayan andan ilk vəsait məhz qaçqın və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönəldildi, onların sosial müdafiəsi ilə bağlı geniş tədbirlər həyata keçirilməyə başlanıldı.

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 22 avqust tarixli 562 nömrəli "Erməni millətçilərinin apardığı etnik təmizləmə siyasəti nəticəsində Ermənistan ərazisindəki öz tarixi torpaqlarından didərgin salınmış azərbaycanlıların məskunlaşması problemlərinin həlli haqqında" Fərmanına əsasən Dövlət Neft Fondundan ayrılmış ilk vəsait hesabına Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində 364 ev tikilmiş, 208 daimi məskunlaşmamış qaçqın və Xocalı rayonundan 156 məcburi köçkün həmin qəsəbəyə köçürülmüşdür.

Xalqımızın ümummilli lideri Heydər Əliyev 2002-ci il sentyabrın 13-də Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsinə səfər etmiş, qəsəbənin açılış mərasimində iştirak və çıxış etmişdir (Cənab İlham Əliyev, Mehriban xanım Əliyeva və Leyla xanım Əliyeva da həmin tədbirdə iştirak etmişlər).

Azərbaycan Respublikasının Prezidentinin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı", 2007-ci il 31 oktyabr tarixli və 2011-ci il 21 fevral tarixli sərəncamları ilə həmin Dövlət proqramına edilmiş Əlavələrin uğurlu icrası nəticəsində:

2009-cu ildə Xocalı rayonundan olan məcburi köçkünlər üçün Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində 150, Börü kəndində 130, Meşəli kəndində 100 və Yuxarı Ağcakənd qəsəbəsində 120, cəmi 500 evdən ibarət bütün sosial-texniki infrastruktur obyektləri ilə birlikdə 4 yeni yaşayış qəsəbəsi salınmış və məcburi köçkünlərin həmin qəsəbələrə köçürülməsi təmin edilmişdir.

Goranboy rayonu ərazisində Xocalı rayonundan olan 500 məcburi köçkün ailəsi üçün 2009-cu ildə salınmış 4 yeni qəsəbə

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2011-ci il fevralın 10-da Goranboy rayonunda 165 məcburi köçkün ailəsi üçün yeni salınmış 3 ədəd beşmərtəbəli yaşayış binasından ibarət məhəllənin açılış mərasimində iştirak və çıxış etmişdir.

Goranboy rayonunda 165 məcburi köçkün ailəsi üçün salınmış məhəllənin açılışı (2011-ci il 10 fevral)

12 ədəd beşmərtəbəli yaşayış binasından ibarət nəzərdə tutulmuş məhəllənin tikintisi Azərbaycan Respublikası Prezidentinin "Naftalan şəhərinin sosial inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2008-ci il 6 mart tarixli 2707 nömrəli Sərəncamının icrası ilə əlaqədar Naftalan şəhərindəki sanatoriyalarda müvəqqəti məskunlaşmış 690 məcburi köçkün ailəsinin köçürülməsi məqsədi ilə həyata keçirilmişdir.

Birinci mərhələdə 3 ədəd beşmərtəbəli yaşayış binası inşa edilmiş, 360 şagird yerlik məktəb binası, 50 yerlik uşaq bağçası tikilmiş, elektrik enerjisi, su, kanalizasiya və qaz təchizatı şəbəkələri çəkilmişdir.

Buraya Naftalan şəhərindəki "Qarabağ" sanatoriyasında müvəqqəti məskunlaşmış 165 məcburi köçkün ailəsinin (onun da 153-ü Xocalı rayonundandır) köçürülməsi 2011-ci ilin əvvəlində təmin edilmişdir.

İkinci mərhələdə Naftalan şəhərinin "Azərbaycan", "Goran", "Şirvan" və "Mil" sanatoriyalarında müvəqqəti məskunlaşmış 525 məcburi köçkün ailəsi üçün əlavə 9 ədəd 5 mərtəbəli yaşayış binası, musiqi məktəbi və inzibati bina tikilmiş və istifadəyə verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2012-ci il yanvarın 21-də həmin məhəllənin açılış mərasimində iştirak etmişdir.

Goranboy rayonu ərazisində 525 məcburi köçkün ailəsi üçün tikilmiş məhəllənin açılışı (2012-ci il 21 yanvar)

Məhəlləyə köçürülən 525 ailədən 187-si Xocalı rayonundandır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev məcburi köçkünlərlə görüş zamanı demişdir:

"Xocalı soyqırımı XX əsrin ən dəhşətli, ən böyük cinayətlərindən biri idi, erməni faşizminin vəhşi və eybəcər sifətini göstərmişdir. Əfsuslar olsun ki, uzun illər ərzində dünya ermənilivi, onun xaricdəki havadarları və erməni lobbisi Xocalı haqqında həqiqətləri gizlədirdilər.

Mən əminəm ki, vaxt gələcək, biz öz suverenliyimizi tam bərpa edəcəyik. Dağlıq Qarabağda Azərbaycan bayrağı dalğalanacaqdır. Xocalıya biz qayıdacağıq və orada bundan da gözəl binaları tikəcəyik. Biz bu vaxtı hər an öz səylərimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq.

Dağlıq Qarabağ daxil olmaqla, hazırda işğalda olan bütün ərazilər dədə-baba torpaqlarımızdır. Bizim vətəndaşlar bu torpaqlara qayıtmalıdırlar, qayıdacaqlar. Əsrlər boyu o torpaqlarda biz yaşamışıq, biz də yaşayacağıq".

Azərbaycan Respublikasının Prezidentinin 2004-cü il 1 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı", 2007-ci il 31 oktyabr tarixli və 2011-ci il 21 fevral tarixli sərəncamları ilə həmin Dövlət proqramına edilmiş Əlavələrin uğurlu icrası nəticəsində:

- respublikanın müxtəlif bölgələrində məcburi köçkünlər üçün inşa olunmuş 20 yeni qəsəbədə Xocalı rayonundan olan 996 ailə mənzillə təmin edilmişdir;
- hər biri 50 yerlik olmaqla 2 uşaq bağçası tikilib istifadəyə verilmiş, 1 uşaq bağçasının yerləşdiyi bina əsaslı təmir olunmuşdur;
- 25 çarpayılıq Mərkəzi Rayon Xəstəxanası, 2 həkim ambulatoriyası tikilmiş, 1 həkim ambulatoriyasının yerləşdiyi bina əsaslı təmir edilmişdir;
- 150 yerlik mədəniyyət evi və 2 uşaq musiqi məktəbi və 2 poçt binası tikilib istifadəyə verilmişdir;
- Xocalı rayonundan olan məcburi köçkünlərin məskunlaşdığı Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsi və ətraf yaşayış məntəqələrinin qazlaşdırılması başa çatdırılmış, elektrik təchizatını təmin etmək məqsədi ilə 110 min vvat gücündə elektrik yarımstansiyası tikilib istifadəyə verilmişdir;

•Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində Heydər Əliyev adına istirahət parkı, "Xocalı soyqırımı" abidəsi qoyulmuş, Xocalı və "Lidiçe" küçələrində əsaslı təmir işləri həyata keçirilmişdir;

•Aşağı Ağcakənd qəsəbəsində "Aqroservis" mərkəzi yaradılmış, idman meydançası tikilmiş, kompüter mərkəzi yaradılmış, meyvə-tərəvəzin ilkin emalı və meyvə şirələrinin istehsalı və xalçaçılıq müəssisələri təşkil olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən son 10 ildə Xocalı rayonundan olan məcburi köçkünlər üçün 828 şagird yerlik 5 məktəb binası tikilmiş, 720 şagird yerlik 7 məktəb binası əsaslı təmir olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə Xocalı rayonundan olan 18 nəfər fəxri ad və medallarla təltif edilmişdir.

Qeyd etmək lazımdır ki, qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir və yolverilməz olduğunu bildirir.

Azərbaycan xalqı 1948-ci il 9 dekabr "Soyqırım cinayətinin xəbərdarlıq edilməsi və cəzalandırılması" konvensiyasını rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir. Dünya bilməlidir ki, bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün sivilizasiyalı dünyaya, bəşəriyyətə qarşı yönəldilmişdir. Bu gün Ermənistanda mühüm dövlət postları tutanlar, Seyran Ohanyan, Serj Sarkisyan, eləcə də Robert Koçaryan və digərləri baş vermiş soyqırımın günahkarları kimi beynəlxalq məhkəmə qarşısında cavab verməli və cinayət cəzasız qalmamalıdır.

Ermənistanın hərbi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistan Respublikasının Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə - Xocalı soyqırımına əsl soyqırım hadisəsi kimi beynəlxalq siyasi-hüquqi qiymət verməlidirlər.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri və bu sahədə qəbul edilmiş sənəd və qərarlar əsasında Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həlli üzrə danışıqlar davam etdirilir. Aparılan danışıqlarda Azərbaycan ölkənin ərazi bütövlüyü və suverenliyinin bərpası, işğalçı qüvvələrin bütün işğal olunmuş ərazilərdən çıxarılması, doğma yurdundan didərgin düşmüş məcburi köçkünlərin öz evlərinə qayıtması, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmasının sülh şəraitində birgə yaşayışının təmin edilməsi, ərazilərin bərpası və kommunikasiyaların açılması və sonrakı mərhələdə hər iki icmanın iştirakı ilə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağ bölgəsinin statusunun müəyyənləşməsi mövqeyindən çıxış edir.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün beynəlxalq aləmdə ifşa edilməsi və müvafiq hüquqi-siyasi qiymətləndirilməyə nail olmaq istiqamətində həm ikitərəfli əsasda, həm də ATƏT, BMT, NATO, Avropa İttifaqı, Avropa Şurası və bir sıra digər nüfuzlu beynəlxalq təşkilatlar çərçivəsində işlər davam etdirilir.

Azərbaycan regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olmasına şərait yaradacaq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli istiqamətində dünya birliyinin daha qətiyyətli və ardıcıl mövqedən çıxış etməsinə və Ermənistanı beynəlxalq birliyin nüfuzlu üzvləri olan ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin təklif etdiyi başlıca prinsiplər əsasında münaqişənin birdəfəlik həllini nəzərdə tutan yekun sülh sazişi üzərində işə başlamasına vadar etməsinə ümid bəsləyir.

"XOCALIYA ƏDALƏT!" BEYNƏLXALQ TƏBLİĞAT VƏ MƏLUMATLANDIRMA KAMPANİYASININ FƏALİYYƏT MEXANİZMİ

Xocalı həqiqətlərinin dünyaya çatdırılması, erməni genosidinə obyektiv qiymət verilməsi istiqamətində atılan addımlar, həyata keçirilən tədbirlər planı Heydər Əliyev Fondunun məqsədyönlü fəaliyyətində prioritet təşkil edir. Fondun hazırladığı "Xocalı soyqırımı" filmi, ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən fotoşəkillər və müxtəlif illərdə xarici ölkələrin nüfuzlu nəşrlərində faciə haqqında dərc edilmiş materiallar, habelə Fondun ümumtəhsil məktəbləri və uşaq evlərində keçirdiyi "Xocalı uşaqların gözü ilə" mövzusunda rəsm müsabiqəsindən ibarət ekspozisiyaların nümayişi, faciənin bütün detallarını əks etdirən faktların beynəlxalq aləmə çatdırılması istiqamətində görülən işlər də təşkilatın fəaliyyətinin tərkib hissəsidir. Fondun dəstəyi və təşkilatçılığı ilə məktəblilər arasında keçirilmiş "Xocalı uşaqların gözü ilə" rəsm müsabiqəsi, fotoşəkillərin, əl işlərinin dünyanın bir sıra qabaqcıl ölkələrində təşkil olunmuş sərgisi beynəlxalq ictimaiyyətdə XX əsrin ən böyük faciəsi haqqında dolğun təsəvvürlər yaratmışdır.

Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin dünya birliyində ifşası yönündə Heydər Əliyev Fondunun fəaliyyət istiqamətlərindən biri kimi yaradılan "Xocalıya Ədalət!" Təbliğat və Məlumatlandırma kampaniyası Xocalı soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasında, kütləvi qırğın aktına hüquqi-siyasi qiymətin verilməsində əhəmiyyətli rol oynayır. Məhz sözü gedən beynəlxalq kampaniyanın sistemli fəaliyyətinin nəticəsi olaraq bu gün dünya dövlətləri əvvəlki illərdən fərqli olaraq, erməni qəsbkarlarının insanlığa sığmayan qətlləri haqqında daha dolğun məlumatlandırılır. Dünyanın nüfuzlu beynəlxalq təşkilatları, aparıcı dövlətləri bəşəriyyətə qarşı yönəldilmiş bu cinayətin əsl mahiyyətini getdikcə daha çox anlayır, qətliamı kəskin şəkildə pisləyir, təcavüzkarla təcavüzə məruz qalanı tanıyırlar.

Sözügedən beynəlxalq kampaniya 2008-ci il mayın 8-də - Şuşanın işğalının ildönümü günü Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyətə başlamışdır. Dağlıq Qarabağ münaqişəsinin, Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq, informasiya blokadasını yarmaq, erməni diasporunun yalan və uydurmalarına qarşı mübarizədə Leyla xanım Əliyevanın xidmətləri xüsusilə təqdirəlayiqdir. Onun Xocalı soyqırımı haqda

faktların dünyaya çatdırılması istiqamətində, sistemli və ardıcıl fəaliyyəti sayəsində erməni silahlı birləşmələrinin ölkəmizin ərazisində həyata keçirdikləri soyqırımı siyasətinə dair faktlar beynəlxalq birliyə təqdim edilir. Dağlıq Qarabağ münaqişəsinin, Azərbaycan həqiqətlərinin, Ermənistanın işğalçılıq siyasətinin dünyaya çatdırılması istiqamətində apardığı mühüm işlərin səmərəli göstəriciləri Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın beynəlxalq erməni terroruna qarşı strateji modelin əhəmiyyətini göstərir. Gənclər forumu hələ 2007-ci ilin payızında Bakıda "Gənclər sivilizasiyaların alyansına tərəfdardır" təşəbbüsü çərçivəsində təsis olunmuş "Sivilizasiyaların alyansı" Beynəlxalq Gənclər Hərəkatına müraciət edərək, bu qurumdan əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar vasitəsilə Ermənistanın yürütdüyü siyasəti dünya birliyinə çatdırmağı tələb etmişdir. "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kampaniyası çərçivəsində ilk tədbir İstanbulun "Taksim" metrostansiyasının sərgi salonunda Xocalı ilə bağlı uşaqların çəkdiyi şəkillərdən və kampaniyaya qoşulmuş xarici ölkə gənclərinin fotoşəkillərindən ibarət sərginin açılışı ilə baş tutmuşdur. Kampaniya çərçivəsində yalnız Türkiyə deyil, Avropanın başqa şəhərlərində də sərgilər təşkil edilmişdir.

İstanbulda İKT-nin Əməkdaşlıq və Dialoq uğrunda Gənclər Forumu və İSESKO-nun təşkilatçılığı ilə 2008-ci ilin mayın 17-də keçirilmiş İKGT ekspertlərinin iki günlük iclasında kampaniya ekspertlər tərəfindən bəyənilərək 26 fevral - Xocalı soyqırımı gününün bu beynəlxalq təşkilata üzv ölkələrdə humanitar fəlakətlər qurbanlarının xatirəsini anma günü kimi qeyd olunması haqda mühüm qərar qəbul olunmuşdur. 2008-ci ilin iyununda İKT-nin üzvü olan dövlətlərin Xarici İşlər Nazirlərinin Uqandadakı konfransında İKT Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın "Xocalıya Ədalət - Qarabağa azadlıq" təşəbbüsü təsdiq olunmuşdur. Xarici İşlər Nazirlərinin konfransının 35-ci sessiyasında qəbul olunan xususi qətnamə dünyanın 57 ölkəsində müvafiq kampaniyanın həyata keçirilməsi üçün siyasi-hüquqi baza yaradılmasını təmin etmişdir. Leyla xanım Əliyeva bu təşəbbüsünün nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən bəyənilməsini dünya birliyinin Ermənistan, onun işğalçılıq siyasəti haqqında əsl həqiqətləri dərk etməyini, bilməyini yüksək qiymətləndirmişdir: "Bu sənədin qəbul edilməsi Azərbaycan torpaqlarının işğal faktının beynəlxalq birlik tərəfindən getdikcə daha çox dərk olunmasını və təcavüzkarın mənəvi, siyasi baxımdan daha da təcrid olunmasını əks etdirir. Qətnamə Dağlıq Qarabağ münaqişəsi haqqında

həqiqəti İKT üzvü olan ölkələrə və mədəniyyətlərarası dialoq vasitəsilə qlobal səviyyədə gənc nəslə çatdırmaq üçün imkan yaradır".

Bu beynəlxalq kampaniyanın dünya miqyasında daha geniş təbliğat aparması üçün informasiya kommunikasiyaları sistemlərindən də geniş istifadə edilir. Kampaniyanın virtual aləmdə yayılması və bu qəbildən olan silsilə tədbirlərin sistemləşdirilməsi məqsədilə yaradılan internet saytı Xocalı faciəsinin əsl günahkarlarının, xalqımıza qarşı soyqırımı haqqında faktların dünya ölkələrinə daha geniş çatdırılmasına imkan yaradır. Artıq proqram və onun internet saytı dünyanın müxtəlif şəhərlərində - Vaşinqton, İstanbul, Berlin, Buxarest, Kiyev, Vyana, Brussel, Pekin, Varşava və digər ölkələrdə Xocalı soyqırımı haqqında dolğun məlumatları beynəlxalq ictimaiyyətə çatdırır.

İKT-nin Əməkdaşlıq və Dialoq uğrunda Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş koordinatorunun təşəbbüsü ilə islam ölkələrində vahid soyqırımı qurbanları gününün təsis edilməsi təklifi də ən mühüm addımlardan biridir. Bunun nəticəsi olaraq, Xocalı qətliamının islam ölkələrində dərsliklərə daxil edilməsi haqda irəli sürülən yeni təkliflər bir sıra dövlətlər tərəfindən dəstəklənmişdir. Bu, uşaqların hələ orta məktəb illərindən qətliam barədə məlumatlandırılmasına və nəticədə gələcək nəsillərin ermənilərin etnik təmizləmə, işğalçılıq siyasətinin əsl mahiyyətini aydın şəkildə dərk etməsinə kömək edəcəkdir.

Xocalı faciəsinin dünya dövlətləri tərəfindən soyqırımı kimi tanınması, soyqırıma ayrı-ayrı ölkələrin qanunverici orqanları tərəfindən obyektiv qiymət verilməsi tarixi zərurət olaraq qalmaqdadır. Artıq bir sıra dövlətlər 1992-ci ilin 25-26 fevralında soydaşlarımıza qarşı etnik təmizləmə cinayətinin əsl mahiyyətini anlayır, qətliama siyasi qiymət verilməsinin bəşəri borc olduğunu başa düşürlər. Xocalı soyqırımının tanıdılması və bu genosidə siyasi qiymətin verilməsi istiqamətində görülən işlər artıq daha ciddi nəticələr verməkdədir. Həyata keçirilən tədbirlərin səmərəsi kimi Xocalı soyqırımı faktlarının müsəlman dövlətlərinin ali təhsil məktəblərinin dərsliklərinə salınması və qətliama aid həqiqətlərin daha geniş miqyasda yayılması təklifləri islam ölkələrinin ali təhsil və elm nazirlərinin dördüncü konfransının yekun qətnaməsinə daxil edilmişdir. Bu sənəd də ermənilərin Xocalıda törətdikləri genosid haqqında əsl faktların İKT-yə üzv ölkələrin ali təhsil müəssisələrinin dərsliklərində əks olunmasını dəstəkləyir və "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının daha geniş miqyasda keçirilməsi zəruriliyini əks etdirir.

"Xocalıya Ədalət!" beynəlxalq kampaniyası dünyanın müxtəlif ölkələrində faciə ilə bağlı real faktların foto və film sərgiləri, internet, beynəlxalq

konfranslar və nümayişlər, o cümlədən, aparıcı beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərin keçirilməsi vasitəsilə çatdırılması fəaliyyət mexanizminin tərkib hissəsidir. Xocalı faciənin soyqırımı kimi tanıdılması, bəşəriyyətə qarşı yönəldilmiş bu ən ağır cinayətə siyasi qiymət verilməsi, soyqırımı həqiqətlərinin İKT ölkələrində yayılması haqqında siyasi qərar, Gənclər Forumunun təşəbbüsü və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin dəstəyi ilə İKT-yə üzv ölkələrin Xarici İşlər Nazirlərinin 35-ci sessiyasında və beynəlxalq təşkilata üzv ölkələrin 11-ci zirvə görüşündə qəbul edilən qətnamələrdə də əksini tapmışdır.

Görülən məqsədyönlü və səmərəli işlər nəticəsində "Xocalıya Ədalət!" Beynəlxalq Kampaniyasının miqyası hər il durmadan genişlənir, bu istiqamətdə aparılan fəaliyyət müsbət nəticələrini verir. Bu gün beynəlxalq kampaniya dünyanın 70-ə yaxın ölkəsində öz tədbirlərini uğurla həyata keçirilir. Xocalı şəhərində insanlığa qarşı törədilmiş cinayətin dünya ictimaiyyətinə çatdırılmasına, faciəyə hüquqi-siyasi və mənəvi qiymətin verilməsini əsas məqsəd sayan kampaniyaya hazırda dünyanın 125 təşkilatı, eləcə də 125 mindən çox insan qoşulub. Soyqırımının tanıdılması prosesinin sürətlənməsi, bu kampaniyaya getdikcə daha çox insanın qoşulması "Xocalıya Ədalət!"in Azərbaycanın haqq səsinin ucaldılması yönümündəki səmərəli fəaliyyətinin nəticəsidir. İndi dünya birliyi Xocalı şəhərində insanlığa qarşı törədilmiş ən ağır cinayətin günahkarlarını pisləyir.

2010-cu ilin 31 yanvarında dünyanın 56 dövlətinin təmsil olunduğu İKT-nin Parlament Assambleyasının VI sessiyasında Xocalı faciəsi bir daha insanlığa qarşı cinayət kimi qiymətləndirildi. Zaman keçdikcə Xocalı faciəsini insanlığa qarşı cinayət kimi qiymətləndirən aparıcı müsəlman dövlətlərinin təmsil olunduğu nüfuzlu beynəlxalq təşkilatın - İKT-nin bu addımını digər beynəlxalq qurumlar da təkrarlayacaq və məhz o zaman tarixi cinayətin təşkilatçısı və iştirakçısı olan erməni cinayətkarları layiqli cəzalarını alacaqlar. Artıq işğalçı erməni silahlı birləşmələrinin soydaşlarımıza qarşı ağır cinayətləri başa düşülür. Dünyanın bir sıra dövlətlərində anım mərasimlərinin təşkili, Xocalı soyqırımı cinayətkarlarının əməllərinin pislənilməsi, beynəlxalq ictimaiyyətin bu məsələyə daim artan diqqəti, Türkiyə Böyük Millət Məclisində faciə ilə bağlı dinləmələrin keçirilməsi bunun ilk əlamətləridir.

Ermənistanı təcavüzkar dövlət kimi tanıyan, çoxsaylı qətnamələr qəbul edən İƏT-dən sonra Xocalı soyqırımını tanıyan dövlətlərin sayı ildən-ilə artır. Xocalı qətliamının soyqırımı aktı kimi tanınması barədə ilk dəfə Meksika və Pakistan parlamentlərində qətnamə qəbul edilmişdir. 2011-ci il dekabrın 20-də Meksika

Konqresi Deputatlar Palatası, 2012-ci il fevralın 1-də Pakistan senatı, 2012-ci il aprelin 23-də Kolumbiya senatı Xocalı soyqırımını tanıdığını bəyan etmişdir. Bu faciə artıq Avropa ölkələrinin parlamentlərində də müzakirə edilir. Belə ki, Çexiya respublikası Avropa İttifaqının üzvləri arasında Ermənistanı dinc Xocalı sakinlərinin qətliamına görə rəsmən pisləyən və bu hərəkətləri insanlığa qarşı cinayət kimi tanıyan ilk dövlət oldu. 2013-cü il fevralın 7-də Deputatlar Palatasının Beynəlxalq əlaqələr komitəsi Xocalı şəhərində dinc insanların vəhşicəsinə qətlə yetirilməsi ilə törədilmiş qırğına görə Ermənistanı pisləyən qətnamə qəbul etdi. 2013-cü il fevralın 26-da Bosniya və Hersoqovinanın Parlament Məclisi Xocalı qətliamını soyqırımı aktı kimi tanıyıb. 2012-ci il fevralın 12-də isə Rumıniya parlamentində demokrat Liberal Partiyası fraksiyası "Dağlıq Qarabağ münaqişəsi" adlı siyasi bəyanat yayıb. Bəyanatda Xocalı şəhərində azərbaycanlılara qarşı qırğın törədildiyi qeyd olunur. Beynəlxalq ictimaiyyətə bu aktı insanlıq əleyhinə cinayət kimi tanımaq çağırışı ünvanlanır. Xocalı soyqırımının ABŞ-da tanınması istiqamətində də xeyli nailiyyətlər əldə olunub. Belə ki, Massaçusets ştatının Nümayəndələr Palatasının Xocalıda qırğın törədilmə faktının tanınması haqqında 2010-cu il fevralın 25-də qəbul etdiyi qətnamənin ardınca 2011-ci il iyunun 11-də Texas ştatı Ermənistanın Xocalıda insanlıq əleyhinə ağır cinayət törətməsi faktını tanıdı. Xocalı soyqırımı barədə qətnamə qəbul edən ştatların sayı sonrakı illərdə də artdı. 2012-ci il fevralın 23-də Nyu-Cersi ştatı, daha sonra Corciya ştatı Xocalı qətliamı ilə bağlı qətnamə qəbul etdi.2012-ci il martın 23-də Men Ştatının Nümayəndələr Palatası Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar qətnamə çıxardı. 2013-cü il yanvarın 28-də Nyu-Meksiko ştatının Nümayəndələr palatası Xocalı soyqırımını tanıdı. Bunun ardınca, Arkanzas ştatının nümayəndələr Palatası fevralın 8-də, senatı isə fevralın 11-də Xocalı soyqırımına dair qətnamələr qəbul edib. Artıq İndoneziya parlamenti də Xocalı soyqırımını tanıyan qətnamə qəbul etməyə hazırlaşır. Ən nəhayət, bu ilin martın 4-də ABŞ-ın Oklahoma ştatı Senatının birinci sessiyasında Xocalı qətliamının tanınması barədə qətnamə qəbul edilib. Göründüyü kimi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının rolu və müsbət nəticələri əvəzedilməzdir.

Kampaniya çərçivəsində müxtəlif aksiyalar təşkil olunur, tədbirlər planı həyata keçirilir. Belə ki, 2008-ci ildə Moskvada "Xocalı.16 il sonra" mövzusunda elmi-praktik konfrans, 2009-cu ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın, Milli Məclisin deputatı Dünyamin Xəlilovun təşkilatçılıqları ilə Türkiyə, İraq, Özbəkistan, Tacikistan, Mali, Sudan,

Qırğızıstan səfirləri, Qazaxıstan, Misir, Fələstin səfirliklərinin əməkdaşları, habelə Rusiya elmi ictimaiyyətinin, Azərbaycan diasporunun və gənclər nümayəndələri, politoloqların, mətbuat işçilərinin iştirakı ilə keçirilən "Xocalı: iddia müddəti bitmir" xatirə gecəsi, Moskvanın "Bakı" kinokonsert kompleksində "Xocalıya Ədalət!" informasiya kompaniyasının veb-saytının təqdimatı ilə əlaqədar genişmiqyaslı aksiya, 2010-cu ildə Moskvanın "President-Hotel" mehmanxana kompleksinin "Bolşoy Petrovski" zalında "Xocalıya Ədalət!" musiqi layihəsinin təqdimatı, kampaniya çərçivəsində Moskva Rusiya Dövlət Kitabxanasının Şərq Ədəbiyyatı Mərkəzində tanınmış rus yazıçısı, professor Yuri Pompeyevin "Qarabağ gündəliyi" kitabının təqdimatı, 2011-ci ildə Moskvada Robert Arakelovun "Erməni ziyalısının etirafı" kitabı, 2012-ci ildə "Qafqazda sülh" beynəlxalq layihəsi çərçivəsində Avropa kinematoqrafçılarının birgə istehsalı olan "Sonu olmayan dəhliz" adlı sənədli filmin siqnal variantının təqdimatı, Vyana Forumunda "Xocalıya Ədalət!" kampaniyasının təqdimatı keçirilmişdir. Bu tədbirlərin davamı olaraq 2013-2014-cü illərdə Qazaxıstanın informasiya məkanında soyqırım həqiqətlərinin tanıdılması istiqamətində tədbirlər planının miqyası daha da genişlənmişdir. Qazaxıstanın informasiya məkanında soyqırım həqiqətlərinin tanıdılması istiqamətində www.xocali.kz saytı yaradılmış, Moskvanın "Yunost" mehmanxanasında "Uşaqlar və müharibə" mövzusunda rəsm sərgisi, eyni zamanda Rusiyada keçirilən aksiyalar barədə film nümayiş etdirilmişdir. İtaliyanın paytaxtı Roma şəhərində dünyanın 45 ölkəsindən gəlmiş 350 azərbaycanlı gəncin, eləcə də İtaliyanın aparıcı gənclər təşkilatlarını təmsil edən 20 gənc liderin iştirakı ilə keçirilən Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclərin(ASAIF) Beynəlxalq Forumda "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının təqdimatı olmuşdur. Heydər Əliyev Fondunun, STMEGİ Beynəlxalq Dağ Yəhudiləri Xeyriyyə Fondunun dəstəyi ilə "İsrail-Azərbaycan"(AZİZ) Assosiasiyası tərəfindən fevral ayında Təl-Əviv Universitetindəki Diaspor Muzeyində açılmış "Xocalıya Ədalət!" fotosərgisi Afula şəhərinə köçürülmüş, "Beyt Poznak" mədəniyyət mərkəzində Afula şəhərinin meri Avi Elkabets, merin müavini Boris Yudis, ictimai təşkilatların rəhbərləri, jurnalistlərin iştirakı ilə faciənin dəhşətlərini əks etdirən fotosərgi açılmışdır.

"Facebook" səhifəsində "Ədalət naminə dostunu işarələ" qlobal aksiya "Xocalıya Ədalət!" kampaniyasının inamlı addımlarından biridir. Kampaniyanın "Dostunu işarələ, Darfuru xilas et" birinci mərhələsində hər bir istifadəçi əlavə edilmiş fotoşəkillər üzrə öz dostlarını seçərək, "Facebook"da açılan hesab

vasitəsilə "Darfuru xilas et " ("Save Darfur") aksiyasına maliyyə dəstəyi göstərmişdir.

Kampaniya nəticəsində dünya ictimaiyyətinin xeyli hissəsi Xocalı faciəsi haqqında məlumatlandırılaraq "Xocalıya Ədalət!" hərəkatı vasitəsi ilə Darfurdakı hadisələrin qurbanlarına maddi kömək göstərmiºlər.

Kampaniya çərçivəsində reallaşan tədbirlərdən biri də Koreya dilində Xocalı soyqırımı haqqında saytın yaradılmasıdır. Azərbaycanın Koreya Respublikasındakı səfirliyinin dəstəyi ilə "BUTA" Azərbaycan-Koreya Tələbə Təşkilatının yaratdığı "Khojaly Genoside" adlı internet və Facebook səhifəsi Koreya ictimaiyyətini bu faciə barədə məlumatlandırmağa xidmət edir.

"Xocalıya Ədalət!" Beynəlxalq Kampaniyasının təşkil etdiyi aksiyaların davamı kimi Braziliyada Xocalı faciəsinin 22-ci ildönümünə həsr olunmuş anım tədbirində portuqal dilində nəşr olunmuş, Leyla Əliyevanın ideya müəllifi olduğu "Xocalı. 22il. 10 hekayə, bunlar gerçək ola bilərdi"(Khojaly.22 anos. 10 historias que poderiam ter sido verdadeiras) kitabının təqdimatı olmuşdur.

Rusiyanın paytaxtı "Azimut Moskva Olimpik" otelində Heydər Əliyev Fondu, Azərbaycanın Rusiyadakı səfirliyi və Ümumrusiya Azərbaycan Konqresi tərəfindən Xocalı soyqırımın 22-ci ildönümünə həsr olunmuş anım tədbirində Qarabağ münaqişəsinin ən qanlı və dəhşətli səhifələrindən biri, 1992-ci ilin fevral gecəsi baş verən dəhşətli hadisələrə dünya ictimaiyyəti tərəfindən hüquqi və mənəvi qiymətin verilməsinin vacibliyini vurğulayan Heydər Əliyev Fondunun vitse-prezidenti, Fondun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyeva "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının beş il ərzində gördüyü işlərdən danışmışdır.

"Xocalıya Ədalət!" kampaniyası Azərbaycan həqiqətlərinin dünyaya tanıdılması istiqamətində azərbaycanlı gənclərin iştirak etdiyi bir sıra milli təşkilatlarla səmərəli əməkdaşlıq edir. Xaricdə təhsil alan və məzun olmuş Azərbaycanlı Gənclərin Beynəlxalq Forumu, Azərbaycan respublikasının dağlıq Qarabağ bölgəsinin azərbaycanlı İcması, "İrəli" İctimai Birliyi internet resurslarında - sosial şəbəkələrdə təbliğat kampaniyasını həyata keçirir. Həmin kampaniya çərçivəsində Xocalı soyqırımı ilə bağlı gənclərin maarifləndirilməsi və dünya ictimaiyyətinə informasiya ötürmək məqsədilə dünyanın əksər ölkələrinin təşkilatlarına, rəsmi qurumlarına, qərarverici şəxslərinə elektron məktublar yazılmış, yerli və beynəlxalq elektron şəbəkələrdə "History of Tragedy" video klipi və soyqırımla bağlı digər video çarxlar yerləşdirilmişdir. Dünyanın 30-a yaxın universitetində keçirilmiş "flash-move" aksiyasında isə azərbaycanlı tələbələrlə yanaşı əcnəbilər də iştirak etmişdir. 2013-cü il dekabrın

6-da Avropa Parlamentinin Brüsseldəki mənzil qərargahında İƏT Gənclər Forumunun Mədəniyyətlərarası dialoq üzrə Baş Koordinatoru Leyla Əliyevanın rəhbərliyi ilə və Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun dəstəyi ilə İslam Konfransı Gənclər Forumu və EMİSCO beynəlxalq təşkilatı tərəfindən təşkil edilmiş beynəlxalq konfrans Dağlıq Qarabağ münaqişəsi haqqında obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması və Xocalı faciəsinə beynəlxalq aləm tərəfindən ədalətli siyasi-hüquqi qiymətin verilməsi baxımından çox əhəmiyyəti layihə kimi qeyd olunmalıdır. "Etnik təmizləmə və insanlıq əleyhinə törədilmiş cinayətdən sonra cəzasızlıq və məsuliyyət" adlı beynəlxalq konfransda Avropa Parlamentinin müxtəlif ölkələrindən olan deputatları, Belçikada akkreditə olunmuş xarici ölkələrin səfirləri, o cümlədən, müxtəlif beynəlxalq qeyri-hökumət təşkilatlarının rəhbərləri və nümayəndələri iştirak etmişlər. "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində konfransların keçirilməsi artıq ənənə halını almış və əhatə dairəsi, coğrafiyası genişlənmişdir.

"Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kampaniyası çərçivəsində 1992-ci ilin fevral gecəsi baş verən dəhşətli hadisələrə dünya ictimaiyyəti tərəfindən hüquqi və mənəvi qiymətin verilməsinə yönələn ardıcıl və məqsədyönlü tədbirlər silsiləsi Leyla xanım Əliyevanın vətənpərvərlik hissinin, vətəndaşlıq borcunun və insanlıq duyğusunun təzahürüdür.

Beş illik fəaliyyəti ərzində genişmiqyaslı "Xocalıya Ədalət!" Beynəlxalq Kampaniyasının əsas məqsədi dövlət siyasətinin böyük əhəmiyyət kəsb edən strateji məsələlərindən biri kimi Xocalı soyqırımı barədə təbliğatın genişlənməsi prosesini uğurla davam etmək, hüquqi, siyasi və mənəvi qiymət verilməsinə nail olmaqdır. Bu prosesin intensivliyində, Azərbaycan həqiqətlərinin dünyaya tanıdılması istiqamətində "Xocalıya Ədalət!" Beynəlxalq Kampaniyasının ideya müəllifi, rəhbəri, İƏT Gənclər Forumunun Mədəniyyətlərarası dialoq üzrə Baş Koordinatoru Leyla Əliyevanın ictimai fəaliyyəti, irəli sürdüyü tədbirlər planı, keçirdiyi çoxsaylı tədbirlər, aksiyalar erməni terroruna qarşı hazırlanmış yeni strateji model zaman-zaman nüfuz dairəsini genişləndirməkdir. "Xocalıya Ədalət!" fəaliyyətini davam etdirir, məqsədə doğru inamla irəliləyir.

Azərbaycan dövlətinin və onun siyasətinin humanist məramlarını özündə ehtiva edən "Xocalıya Ədalət!" Beynəlxalq Kampaniyası beynəlxalq humanitar hərəkatların avanqardı kimi müasir dünyamızda Ədalət və Həqiqətin dayağı olmaq missiyasını həyata keçirənlərin sırasında layiqli yer tutur!

"XOCALIYA ƏDALƏT!"
BEYNƏLXALQ TƏBLİĞAT VƏ MƏLUMATLANDIRMA KAMPANİYASININ FƏALİYYƏTİ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNDƏ

(XƏBƏRLƏR QOVLUĞUNDAN)

Moskvada "Xocalı. 16 il sonra" mövzusunda elmi-praktik konfrans keçirilmişdir

"Xocalı faciəsi öz miqyasına və qəddarlığına görə bəşəriyyət əleyhinə ən ağır cinayətlərlə bir sıraya qoyula bilər". Heydər Əliyev Fondunun RF-dəki nümayəndəliyinin rəhbəri Leyla Əliyeva bu sözləri Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyi tərəfindən fevralın 27-də Moskvada təşkil edilmiş "Xocalı. 16 il sonra" mövzusunda elmi-praktik konfransda demişdir.

L.Əliyeva qeyd etmişdir ki, Xocalı faciəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən dəhşətli səhifəsi olmuşdur. Bu münaqişə nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal edilmişdir. O demişdir: "1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərini zəbt etmiş və şəhərin 613 dinc sakinini, o cümlədən 106 qadını, 63 uşağı və 70 nəfər ahıl insanı amasızlıqla qətlə yetirmişlər. Xocalı yaraları hər bir azərbaycanlının ürəyində əbədi qalacaqdır".

Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri daha sonra demişdir ki, Azərbaycan üçün çox ağır və çətin illər arxada qalıb və indi ölkəmiz günbəgün inkişaf edir, çiçəklənir. Onun sözlərinə görə, Azərbaycan iqtisadi artım sürətinə görə dalbadal üçüncü ildir ki, dünyada birinci yeri tutur, insanların həyat səviyyəsi yaxşılaşır, əhalinin əmək haqqı və pensiyalar artır, işsizlik və yoxsulluq azalır.

Azərbaycan hökumətinin qaçqınların və məcburi köçkünlərin problemlərinə böyük diqqət yetirdiyini xüsusi olaraq vurğulayan Leyla Əliyeva çıxışının sonunda demişdir: "Ölkədə bir milyona yaxın qaçqın və məcburi köçkün olmasına baxmayaraq, bu gün bircə çadır şəhərciyi də qalmamışdır, qaçqınların və məcburi köçkünlərin hamısı üçün normal həyat şəraiti yaradılmışdır". O, əmin olduğunu bildirmişdir ki, Azərbaycan xalqının heç bir nümayəndəsi torpaqlarımızın işğal edilməsi ilə barışmayacaqdır. Leyla Əliyeva demişdir: "Artıq 15 ildir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesi gedir. Biz çox ümid edirik ki, dünya birliyi səsimizi eşidəcək və bu problem tezliklə öz ədalətli həllini tapacaqdır, çünki bu gün dünyada özgə torpaqlarının işğalına, təcavüzə və kütləvi qətllərə yer yoxdur. Mən inanıram ki, azərbaycanlılar lap yaxın gələcəkdə öz doğma torpaqlarına qayıdacaqlar".

Azərbaycan XİN Xarici Siyasətin Planlaşdırılması və Strateji Araşdırmalar İdarəsinin rəisi Tofiq Musayevin sözlərinə görə, Xocalı

şəhərində azərbaycanlı əhalinin məhv edilməsi soyqırımı kimi tövsif edilir. O qeyd etmişdir ki, Xocalıda baş vermiş faciəli hadisələrlə bağlı bütün faktlar göstərir ki, işğalçıların hərəkətlərinin məqsədi şəhərin sakinlərini yalnız azərbaycanlı olduqlarına görə kütləvi şəkildə məhv etməkdən ibarət olmuşdur. Azərbaycan XİN nümayəndəsi vurğulamışdır ki, dövlət səviyyəsində görülən tədbirlər, eləcə də mövcud hüquqi çərçivələr Xocalı şəhərində azərbaycanlılara qarşı törədilmiş soyqırımına görə cinayətkarların cəzalandırılmasının labüdlüyünə olan inamı gücləndirir. Azərbaycan Prezidenti İcra Aparatının siyasi araşdırmalar və analitik təhlil sektorunun müdiri Fuad Axundov konfrans iştirakçılarının diqqətini erməni təbliğat maşınına qarşı fəal informasiya fəaliyyətinin qoyulmasının vacibliyinə yönəltmişdir. Onun sözlərinə görə, tarixçilər, siyasətçilər, gənclər və kütləvi informasiya vasitələri cəlb edilməklə bu cür kütləvi tədbirlərin keçirilməsi zəruridir. Bununla əlaqədar o, dövlətimizin səylərini və Xocalı faciəsinə, Ermənistan-Azərbaycan münaqişəsinə dair informasiya materiallarının yayılmasında Heydər Əliyev Fondunun fəal mövqeyini xüsusi qeyd etmişdir.

Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu, MDU, Seçenov adına Tibb Akademiyası və Moskva Dövlət Linqvistika Universiteti kimi tanınmış ali məktəblərin tələbələri, aspirantları və magistrləri Ermənistan-Azərbaycan münaqişəsinin tarixi-hüquqi və siyasi aspektləri, bu münaqişənin nəticələri haqqında məruzələrlə çıxış etdilər. Konfrans iştirakçıları tələbələrdən Olqa Kuraşın "80-ci illərin axırları – 90-cı illərin əvvəllərində Qarabağ münaqişəsinin tarixi", Andrey Kurakinin "Xocalı soyqırımı beynəlxalq cinayət kimi", Natiq Əliyevin "Ermənsitan-Azərbaycan münaqişəsinin siyasi-hüquqi aspektləri", Ceyhun Hüseynovun "Qarabağın tarixi", Anarə Axundovanın "90-cı illərdə Qarabağ haqqında jurnalist işlərinin nümunələri" və Əşrəf Həsənovun "Xocalı soyqırımının azərbaycanlı qaçqınlar üçün nəticələri" mövzusunda məruzələrini böyük maraqla dinlədilər.

Tədbirdə Heydər Əliyev Fondunun təşəbbüsü ilə çəkilmiş Xocalıda azərbaycanlıların soyqırımı haqqında qısametrajlı sənədli film nümayiş etdirildi, Moskva Dövlət Linqvistika Universitetinin tələbələri Polina Sousnikova, Mariya Ryabova, İlya Ostaşko və Dəmir İzmailov Xocalı faciəsi haqqında Azərbaycan dilində şerlər oxudular.

Azərbaycanın RF-dəki səfiri Polad Bülbüloğlu Xocalı faciəsi və Ermənistan-Azərbaycan münaqişəsi haqqında həqiqətin dünya ictimaiyyətinə çatdırılması istiqamətində ölkə rəhbərliyinin siyasəti barədə söz açdı və

gəncləri daha fəal və təşəbbüskar olmağa çağırdı. Səfir dedi: "Azərbaycanın siyasi rəhbərliyi, Prezident İlham Əliyev bizi qələbəyə, uğurlara doğru aparacaq və cinayətlərin təqsirkarları cəzalandırılacaqdır".

Tədbirin keçirildiyi "Yunost" mehmanxanasının foyesində Xocalı faciəsinə həsr olunmuş ekspozisiya təşkil edilmişdi.

AzərTAc
27 fevral 2008-ci il

***

"Xocalıya ədalət-Qarabağa azadlıq" şüarı altında beynəlxalq kampaniyanın keçirilməsi təşəbbüsü razılıqla qarşılanmışdır

AzərTAc xəbər verir ki, mayın 8-də "Park İNN-Azərbaycan" mehmanxanasında "Xocalıya ədalət-Qarabağa azadlıq" beynəlxalq kampaniyasının rəsmi elan olunması ilə bağlı Gənclər və İdman Nazirliyi nümayəndələrinin və Azərbaycan gənclər təşkilatları təmsilçilərinin iştirakı ilə tədbir keçirilmişdir.

Tədbirdə çıxış edən İslam Konfransı Təşkilatı Gənclər Forumunun (İKGF) baş katibi Elşad İsgəndərov bildirmişdir ki, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədi ilə ölkəmizdə və onun hüdudlarından kənarda mütəmadi tədbirlər keçirilməkdədir.

Son illərdə Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin başçısı, İKGF-nin Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla xanım Əliyeva tərəfindən xaricdə yaşayan soydaşlarımızın və təhsil alan tələbələrin iştirakı ilə keçirilən silsilə beynəlxalq tədbirlər də bu qəbildəndir. Bu tədbirlərin davamı olaraq bu günlərdə Leyla xanım Əliyeva tərəfindən "Xocalıya ədalət-Qarabağa azadlıq" ("Justice for Khojaly, Freedom for Karabakh") şüarı altında beynəlxalq kampaniyaya başlanması təşəbbüsü irəli sürülmüşdür.

E.İsgəndərov bildirmişdir ki, İKGT 57 ölkədə mövcud olan aparıcı gənclər hərəkatlarını birləşdirən bir qurum olaraq Azərbaycanda yaradılmışdır. Azərbaycan gənclərinin təşəbbüsü ilə yaradılmış bu qurum ilk gündən xalqımızın ən ağrılı problemi olan Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində işlər görməyə başlamışdır.

Natiq demişdir ki, cari ilin mayın 16-17-də İstanbulda ekspertlərin İKT ölkələrində humanitar faciələrin anım günü ilə bağlı toplantısı keçiriləcəkdir.

Bu toplantıya hazırlıq mərhələsində biz üzv dövlətlərin hər birindən təşəbbüslərlə çıxış etmələrini xahiş etdik. İlk olaraq bu təşəbbüs Leyla xanım Əliyevadan gəldi. Leyla Əliyeva dünya ictimaiyyətinin diqqətini erməni işğalçılarının Azərbaycan xalqına qarşı törətdikləri dəhşətli cinayətlər haqqında obyektiv məlumatlara cəlb etmək, sözügedən faciələrə beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək, eyni zamanda, Azərbaycanın Qarabağ münaqişəsində milli maraqlarının müdafiə olunması məqsədi ilə "Xocalıya ədalət-Qarabağa azadlıq" ("Justice for Khojaly, Freedom for Karabakh") devizi altında beynəlxalq kampaniyanın keçirilməsi təşəbbüsü ilə çıxış etmişdir. Bu kampaniya təkcə İKT ölkələrini əhatə etməyəcək, Avropa məkanında, ABŞ-da keçiriləcəkdir.

Bildirilmişdir ki, bu kampaniya dünyanın müxtəlif ölkələrinin gəncləri, sosial-mədəni sahənin fəalları, insan hüquqlarının müdafiəçiləri tərəfindən orijinal üslubda fotoşəkillər çəkilərək İKGF tərəfindən yaradılacaq internet saytında yerləşdirilməsini nəzərdə tutur. Kampaniyada iştirak etməyin şərti fotoşəklin Qarabağ münaqişəsi mövzusunda olması və şəklin üzərində kampaniya şüarının əks olunmasıdır. Kampaniya zamanı daxil olan şəkillərin üzərində əks olunan gənclik mesajı ilə BMT, Avropa Şurası, ATƏT kimi nüfuzlu beynəlxalq təşkilatların, ATƏT-in Minsk qrupunun həmsədr ölkələri və dünyanın aparıcı qeyri-hökumət təşkilatlarının ünvanlarına göndərilməsi nəzərdə tutulur. Həmçinin, kampaniyaya daxil olan şəkillərin beynəlxalq tədbirlər zamanı, beynəlxalq təşkilatların qərargahlarında təşkil olunacaq sərgilərdə nümayiş etdirilməsi də diqqətdə saxlanılacaqdır.

Tədbirdə çıxış edən Milli Məclisin deputatları Rövşən Rzayev və Fuad Muradov Leyla xanım Əliyevanın vətənpərvərlik təşəbbüsünü yüksək qiymətləndirmiş və kampaniyaya təkcə Gənclər və İdman Nazirliyinin deyil, digər qurumların da dəstək verəcəyinə ümidvar olduqlarını söyləmişlər. Sonda gənclər təşkilatlarının təmsilçiləri kampaniyada iştiraklarını və bu təşəbbüsə qoşulduqlarını imzaları ilə təsdiq etmişlər.

AzərTAc
8 may 2008-ci il

***

İKT ekspertlərinin iclasında Xocalı soyqırımı və digər qətliamlar müzakirə olunur

AzərTAc-ın xüsusi müxbiri xəbər verir ki, mayın 16-da İstanbuldakı "Qrand Cəvahir" hotelində İslam Konfransı Təşkilatının (İTK) Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumu və İSESKO-nun təşkilatçılığı ilə başlanmış ikigünlük iclasda İKT-nin humanitar faciələr üzrə ekspertləri XX əsrdə müsəlman xalqlarına qarşı törədilmiş soyqırımı aktlarını müzakirə edirlər.

İclasda Türkiyə və Azərbaycanın mədəniyyət nazirliklərinin nümayəndələri, deputatlar, İslam ölkələri gənclər təşkilatlarının təmsilçiləri və diplomatlar iştirak edirlər. İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət – Qarabağa azadlıq" kampaniyası çərçivəsində aparılacaq müzakirələrdə ermənilərin xalqımıza qarşı törətdikləri vəhşiliklərdən ətraflı bəhs olunacaqdır.

Forumun baş katibi Elşad İsgəndərov bildirmişdir ki, son illər dünyada getdikcə artan islamofobiya meylləri və Qərb ölkələrinin tətbiq etdikləri ikili standartlar ucbatından müsəlmanlara qarşı törədilmiş soyqırımlar lazımi qiymətini almamışdır. Azərbaycanda, Bosniya və Herseqovinada, Türkiyənin şərq vilayətlərində dinc əhalinin vəhşicəsinə qətlə yetirilməsinə dair sənədlər, filmlər, fotoşəkillər bütün dünyada daha fəal yayılmalıdır. İslam ölkələrində vahid soyqırımı qurbanları gününün təsis edilməsi təklifi də İKT rəhbərliyinə təqdim olunmuşdur. Bütün bu işlərin səmərəliliyinin artırılması məqsədini daşıyan Fəaliyyət Proqramı da geniş müzakirə edilmişdir.

Müzakirələr mayın 17-də davam etdirəcəkdir. Qəbul olunacaq yekun sənəd İKT Nazirlər Komitəsinə təqdim olunacaqdır.

AzərTAc
16 may 2008-ci il

***

İslam Konfransı Təşkilatı ekspertlərinin iclasının yekun sənədində Leyla Əliyevanın təşəbbüsü dəstəklənmişdir

AzərTAc-ın xüsusi müxbiri xəbər verir ki, mayın 17-də İstanbulda İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumu və İSESKO-nun təşkilatçılığı ilə keçirilmiş İKT ekspertlərinin ikigünlük iclasında yekun sənəd qəbul olunmuşdur.

Forumun baş katibi Elşad İsgəndərov bildirmişdir ki, İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üzrə birinci Baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət – Qarabağa azadlıq" kampaniyası İKT ekspertləri tərəfindən dəstəklənmiş və 26 fevral - Xocalı soyqırımı gününün İKT ölkələrində humanitar fəlakətlər qurbanlarının xatirəsini anma günü kimi qeyd olunması barədə qərar qəbul olunmuşdur. Bundan əlavə, Xocalı qətliamının İslam ölkələrində dərsliklərə daxil edilməsi ilə bağlı təklif də İKT nazirlərinin toplantısına təqdim ediləcəkdir. Qəbul olunmuş sənəddə Xocalı soyqırımının Avropa, Asiya və Afrika ölkələri regional parlamentlərarası assambleyalarının dialoqu zamanı bəşəriyyətə qarşı kütləvi qətliam kimi tanınması barədə məsələ də qaldırılacaqdır.

Toplantı iştirakçıları Heydər Əliyev Fondunun Moskva nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə hazırlanmış və Xocalı soyqırımından bəhs edən sərgi ilə, habelə Bosniya və Herseqovinada, Fələstində törədilmiş qətliamlardan bəhs edən fotoşəkillərlə də tanış olmuşlar.

Müzakirələrin yekununa dair qəbul olunmuş sənəd İKT Mədəniyyət Nazirləri Şurasına təqdim olunacaqdır.

AzərTAc
17 may 2008-ci il

***

Xocalı faciəsi soyqırım aktdır. İslam Konfransı Təşkilatı Leyla Əliyevanın təşəbbüsünü təsdiq etmişdir.

İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici İşlər Nazirlərinin Kampalada (Uqanda) başa çatmış konfransında İKT-nin Gənclər Forumunun

sivilizasiyaların alyansı üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın "Xocalıya ədalət: Qarabağa azadlıq" təşəbbüsü təsdiq edilmişdir.

İKT-nin dialoq və əməkdaşlıq uğrunda Gənclər Forumunun (İKT GF) katibliyindən bildirmişlər ki, bu barədə İKT xarici işlər nazirlərinin konfransının 35-ci sessiyasında xüsusi qətnamə qəbul edilmişdir. Qətnamənin bu kampaniyaya həsr edilmiş xüsusi paraqrafının layihəsi bu ilin may ayında Azərbaycan XİN nümayəndə heyəti tərəfindən İKT GF-in ənənəvi qətnaməsinə daxil edilmiş və Ciddədə İKT-nin ekspertlərinin iclasında dəstəklənmişdir. Qətnamənin Xarici İşlər Nazirləri tərəfindən dəstəklənməsi dünyanın 57 ölkəsində müvafiq kampaniyanın həyata keçirilməsi üçün siyasi-hüquqi baza yaradır.

Qətnaməyə görə, İKT üzvü olan ölkələrdə humanitar faciələrin qurbanlarının Xatirə günü təsis edilir. Qətnamədə Xocalı faciəsinin də daxil olduğu bu siyahı təsdiq edilməklə yanaşı, XX əsrdə müsəlman ölkələri xalqlarının məruz qaldığı humanitar fəlakətlər, təcavüzlər və etnik təmizləmələr haqqında düzgün informasiyanın yayılması üçün kampaniyaların keçirilməsi nəzərdə tutulur.

Qətnamədə 2009-2010-cu illərdə keçiriləcək Xatirə günü çərçivəsində öncül tədbir kimi, Leyla Əliyevanın "Xocalıya ədalət: Qarabağa azadlıq" təşəbbüsü təsdiq edilmişdir. Qətnamədə İKT üzvü olan ölkələrdə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi barədə dəqiq məlumatın yayılması, eləcə də kampaniyanın tezisinin imici barədə rəylərin yerləşdirilməsi üçün informasiya veb-portalı yaradılması nəzərdə tutulur. Kampaniyanın əsas tezisini açıqlayan ən yaxşı fotomateriallar əsasında fotosərgi təşkil ediləcəkdir. Həmin fotosərgini beynəlxalq təşkilatların qərargahlarında təqdim etmək planlaşdırılır. Mətbuat üçün brifinqdə çıxış edən Leyla Əliyeva onun təşəbbüsünün nüfuzlu beynəlxalq təşkilat tərəfindən bəyənilməsini razılıq hissi ilə qeyd etmişdir. L.Əliyeva demişdir: "Bu sənədin qəbul edilməsi Azərbaycan torpaqlarının işğalı faktının beynəlxalq birlik tərəfindən getdikcə daha çox dərk olunmasını və təcavüzkarın mənəvi-siyasi baxımdan daha da təcrid edilməsini əks etdirir. Qətnamə Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqəti İKT üzvü olan ölkələrdə və mədəniyyətlərarası dialoq vasitəsilə qlobal səviyyədə gənc nəslə çatdırmaq üçün imkan yaradır. Qətnamə bu təşəbbüsün həyata keçirilməsində foruma geniş səlahiyyətlər verir. Bir sözlə, qarşıda görüləsi işlər çoxdur".

Kampaniya çərçivəsində aparıcı beynəlxalq təşkilatların parlament birlikləri tərəfindən Xocalı faciəsinin kütləvi qırğın kimi tanınmasına nail olmaq nəzərdə tutulur.

Qeyd etmək lazımdır ki, İKT Xarici İşlər Nazirlərinin bundan əvvəl, 2007-ci ilin may ayında İslamabadda keçirilmiş sessiyasında İKT Gənclər Forumunun təşəbbüsü ilə Xocalı faciəsinə siyasi qiymət verilmişdir.

İKT-nin Gənclər Forumu İKT-nin affilyasiya edilmiş təşkilati statusuna malik olan beynəlxalq qurumdur. Forum 2004-cü ilin dekabr ayında yaradılmışdır. Onun mənzil-qərargahı İstanbulda yerləşir.

AzərTAc
"Azərbaycan". 22 iyul 2008-ci il

***

Xocalı qətliamı haqqında həqiqətlər İKT ölkələrində yayımlanacaq

Oktyabrın 6-8-də Bakıda keçirilmiş İslam ölkələrinin ali təhsil və elm nazirlərinin IV konfransında İslam Konfransı Gənclər Forumu (İKGF) Xocalı faciəsinin beynəlxalq səviyyədə tanınması istiqamətində yeni təşəbbüslə çıxış etmişdir.

Xocalı qırğını haqqında məlumatların İslam Konfransı Təşkilatına üzv ölkələrin ali təhsil məktəblərinin dərsliklərinə salınması haqqında təklif irəli sürülmüşdür.

İKGF-nin Mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üzrə birinci baş əlaqələndiricisi Leyla xanım Əliyevanın irəli sürdüyü "Xocalıya ədalət" beynəlxalq kampaniyası haqqında ətraflı məlumat verilmiş, bu kampaniyanın üzv ölkələrdə 2009-2012-ci illərdə prioritet şəkildə həyata keçirilməsinin vacibliyi bildirilmiş, hər iki təklifin konfransın qətnaməsində əks olunmasını irəli sürülmüşdür.

Hər iki təklif oktyabrın 8-də işini bitirən İslam ölkələrinin ali təhsil və elm nazirlərinin IV konfransının yekun qətnaməsinə daxil edilmişdir.

Qətnamə ermənilərin Xocalı (1992) və Vanda (1915) törətdikləri qətliamlar haqqında həqiqətlərin İKT-yə üzv ölkələrin ali təhsil müəssisələrinin dərsliklərində əks olunmasını dəstəkləyir və "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasını 2009-2012-ci illərdə üzv ölkələrdə prioritet kimi qəbul edir.

Kampaniya dünyanın müxtəlif ölkələrində Xocalı faciəsi ilə bağlı real faktların foto və film sərgiləri, internet, beynəlxalq konfranslar və nümayişlər, o cümlədən, aparıcı beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərin keçirilməsi vasitəsilə çatdırılmasını nəzərdə tutur.

Qeyd etmək lazımdır ki, Xocalı faciəsinin soyqırımı kimi tanınması və bununla bağlı həqiqətlərin İKT ölkələrində yayılması haqqında siyasi qərar, İKGF-nin təşəbbüsü və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin dəstəyi ilə İKT-yə üzv ölkələrin Xarici İşlər Nazirlərinin 35-ci sessiyasında və İKT ölkələrinin 11-ci zirvə görüşündə qəbul edilən qətnamələrdə öz əksini tapmışdır.

***"Azərbaycan"**. 9 oktyabr 2008-ci il. N 224. Səh. 4*

***

Xocalı soyqırımının 17-ci ildönümü Ər-Riyadda qeyd olunacaqdır

Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığındakı səfirliyi tərəfindən Xocalı soyqırımının 17-ci ildönümü ilə əlaqədar təşkil ediləcək anım mərasimi və İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə irəli sürülən "Xocalıya ədalət" beynəlxalq kampaniyasının təqdimatına hazırlıq işləri başa çatmaq üzrədir.

Ər-Riyad şəhərinin aparıcı konfrans zallarının birində Xocalı faciəsini əks etdirən kitab və materiallardan ibarət guşənin yaradılması, Xocalı soyqırımı və erməni terroru haqqında filmlərin nümayişi, müvafiq çıxışların və diskussiyaların təşkili nəzərdə tutulmuşdur. Eyni zamanda, "Xocalı uşaqların gözü ilə" rəsm sərgisinin keçirilməsi planlaşdırılır.

Tədbirlərdə İslam Konfransı Təşkilatına üzv dövlətlərin, Səudiyyə Ərəbistanı Krallığının dövlət və hökumət üzvlərinin, eləcə də Ər-Riyaddakı xarici ölkələrin, beynəlxalq təşkilatların, Azərbaycan və türk diaspor təşkilatlarının və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı gözlənilir.

AzərTAc
18 fevral 2009-cu il

***

Xocalı soyqırımı ilə bağlı Avropanın üç dilində iki sayt açılmışdır

Almaniya Azərbaycanlılarının Əlaqələndirmə Mərkəzi (AAƏM) Xocalı faciəsinin ildönümü ərəfəsində Almaniyada iki yeni internet saytı təqdim etmişdir. Saytların yaradılmasından məqsəd erməni hərbi dəstələrinin Azərbaycanın Xocalı şəhərinin dinc əhalisinə - qocalara, qadınlara və uşaqlara qarşı törətdiyi dəhşətli cinayətlər barədə dünya ictimaiyyətinə məlumat verməkdir.

Məlum olduğu kimi, İslam Konfransı Təşkilatının Gənclər Forumunun mədəniyyətlərin dialoqu üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2009-cu ildə "Xocalıya ədalət, Qarabağa Azadlıq" adlı geniş kampaniyaya start verilmişdir. İngilis dilində "Justice for Khojaly" (Xocalıya ədalət http://www.justiceforkhojaly.org/) saytının açılması kampaniyanın qabaqcıl Azərbaycan gənclərinin Ermənistan silahlı qüvvələrinin bu qanlı cinayətinin beynəlxalq aləmdə pislənməsinə dair səylərinin informasiya təminatı ilə bağlı hissəsidir.

AAƏM-nın icraçı direktoru Samirə Patser-İsmayılova Almaniyadakı Azərbaycan diasporunun nümayəndələrinə ünvanladığı müraciətdə həmvətənlərini həmin kampaniyaya, habelə bu dəhşətli cinayətin beynəlxalq aləmdə pislənməsi və təqsirkarların mühakimə edilməsi çağırışına səs verməyə çağırmışdır. Müraciətdə iki dildə - alman və fransız dillərində http://chodschali.de/ saytının açılması barədə də məlumat verilir.

Vüqar Seyidov
AzərTAc-ın xüsusi müxbiri, Berlin
21 fevral 2009-cu il

***

"Xocalıya ədalət" kampaniyasının və onun internet saytının dünyanın 20-dək şəhərində təqdimatı keçiriləcəkdir

Bakıda "Xocalıya ədalət" beynəlxalq kampaniyasının və onun www.justiceforkhojaly.arg internet saytının təqdimatına həsr olunmuş mətbuat konfransı keçirilmişdir. İslam Konfransı Təşkilatı Gənclər Forumunun (İKGF) baş katibi Elşad İsgəndərov Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin başçısı, İKGF-nin Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın irəli sürdüyü

"Xocalıya Ədalət!" beynəlxalq kampaniyası haqqında ətraflı məlumat vermiş, bu kampaniyanın 2009-2012-ci illəri əhatə etdiyini bildirmişdir. Baş katib demişdir ki, bu il dekabrın 10-da kampaniya çərçivəsində Xocalı soyqırımı ilə bağlı toplanmış imzalar, şəkillər, siyasi-hüquqi baxımdan tanınması ilə bağlı müraciətlər BMT-nin İnsan Hüquqları Şurasına təqdim olunacaqdır.

E.İsgəndərov onu da bildirmişdir ki, internet saytında Xocalı faciəsi ilə bağlı qətnaməyə 112 təşkilat və 850 şəxs imza atmışdır. Sayt istifadəçilərinin kampaniyaya qoşulmaq imkanı olan şəxslər kampaniyanın iştirakçısına çevrilə, ona maliyyə dəstəyi göstərə bilərlər.

2008-ci ildə Bakıda keçirilmiş İslam ölkələrinin ali təhsil və elm nazirlərinin IV konfransında İKGF Xocalı faciəsinin beynəlxalq səviyyədə tanınması istiqamətində yeni təşəbbüslə çıxış etmişdir. Konfransda Xocalı soyqırımı haqqında məlumatların İslam Konfransı Təşkilatına üzv olan ölkələrin ali təhsil məktəblərinin dərsliklərinə salınması haqqında təklif irəli sürülmüş və bu təklifin reallığa çevirilməsi istiqamətində ciddi işlər aparılır.

E.İsgəndərov vurğulamışdır ki, www.justiceforkhojaly.arg internet saytı "Xocalıya Ədalət!" kampaniyasının virtual aləmdə yayılması və bu qəbildən olan silsilə tədbirlərin sistemləşdirilməsi məqsədi ilə yaradılmışdır. Onun rəsmi açılışı fevralın 26-da həyata keçiriləcəkdir. Kampaniya 17 il bundan öncə Xocalı şəhərində törədilmiş insanlığa qarşı cinayətin dünya ictimaiyyətinə çatdırılması işində fəaliyyət göstərəcəkdir. Kampaniyanın və onun internet saytının dünyanın müxtəlif şəhərlərində - Vaşinqton, İstanbul, Moskva, Berlin, Buxarest, Ər-Riyad, İsgəndəriyyə, Kuala-Lumpur, Nyu-York, Kiyev, Vyana, Brüssel, Riqa, Varşava, London, Haaqa, Ottava və Los-Ancelesdə təqdimatı keçiriləcəkdir. Bu tədbirlərdə Heydər Əliyev Fondunun hazırladığı "Xocalı soyqırımı" filmi, ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən fotoşəkillər və müxtəlif illərdə xarici ölkələrin nüfuzlu nəşrlərində Xocalı faciəsi haqqında dərc edilmiş materiallar, Heydər Əliyev Fondunun ümumtəhsil məktəbləri və uşaq evlərində keçirdiyi "Xocalı uşaqların gözü ilə" mövzusunda rəsm müsabiqəsinin seçmə işlərindən ibarət ekspozisiyalar nümayiş olunacaqdır.

Bildirilmişdir ki, ingilis dilində fəaliyyət göstərən "Xocalıya ədalət" kampaniyasına həsr edilmiş saytın yaxın vaxtlarda fransız, ərəb və rus dillərində də hazırlanması nəzərdə tutulur.

Sonda jurnalistləri maraqlandıran suallara cavab verilmişdir.

AzərTAc
23 fevral 2009-cu il

Azərbaycan. Bakı

THANK YOU
XOCALI SOYQIRIMI
KHOJALY GENOCIDE
VİRAN EDİLƏN
XOCALI YENİDƏN
DİRÇƏLƏCƏK!
1992-ci il 26 fevral
XOCALINI
UNUTMAYAQ
XOCALI SOYQIRIMI
DÜNYA BİRLİYİ SUSUR,
TARİX SUSMAYACAQ!
VİRAN EDİLƏN
XOCALI YENİDƏN
DİRÇƏLƏCƏK!
XOCALI
26 FEVRAL
20 İL
1992
QAN YADDAŞI!!!
XOCALI, SREBRENİTSA,
RUANDA...
SOYQIRIMA SON

KREDİT BANK

XOCALI
22İL
QAN YADDAŞIMIZ!

XOCALI
DAN
YADDAŞI
20 II
1992
26 fevral
XOCALINI
UNUTMAYAQ
XOCALI
XOCALINI
UNUTMAYAQ

“XOCALIYA ƏDALƏT!”

BEYNƏLXALQ TƏBLİĞAT VƏ MƏLUMATLANDIRMA KAMPANİYASI


XOCALI
SOYQIRIM GENOCIDE

HYATT

XOCALI 22
XOCALI 21
ÇİÇƏK

XOCALI
1992-2014
22İL
QAN
YADDAŞIMIZ!
UNUTMADIQ,
UNUTDURMARIQ!

Azərbaycan. Naxçıvan



Azərbaycan. Gəncə

Azərbaycan. Quba



Azərbaycan. Lənkəran

1918

Azərbaycan. Masallı

XOCALI

Azərbaycan. Astara

XOCALI
QƏTLİAMI

Azərbaycan. Qazax

ACALI

Azərbaycan. Xaçmaz

Azərbaycan. Şamaxı

XOCALI
26 FEVRAL 1992-ci İL

Azərbaycan. Qusar

Azərbaycan. Zaqatala

26 Fevral 1992
XOCALI
soyqırımını
unutma!

XOCALI


XOCALI
26 FEVRAL
1992
QAN
YADDAŞIMIZ!

Dünya oxucusu üçün

Layihənin müəllifləri: Prezident Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri, professor Əli Həsənov və AzərTAC-ın Baş direktoru Aslan Aslanovdur

Bosnya Herseqovina. Sarayevo

İsrail

ФОТОВЫСТАВКА
JUSTICE
FOR KHOJALY
В ИЗРАИЛЕ

JUSTICE FOR KHOJAJY
INTERNATIONAL CIVIL AWARENESS CAMPAIGN

AZIZ
HEYDAR ALIYEV
FOUNDATION
AZIZ
INTERNATIONAL ASSOCIATION
«ISRAEL-AZERBAIJAN»«AZIZ»
KHOJALY

AZIZ
Международная Ассоциация «Израиль-Азербайджан» «Aziz»
International Association Israel-Azerbajan «Aziz»
Памяти жертв трагедии Ходжалы
«У меня возникает вопрос: почему же уважаемые члены
овета Безопасности ООН и мировое сообщество не требуют от Армении,
ена ООН, покинуть и вернуть 20% азербайджанских территорий? Почем
ир не требует от Армении прекратить агрессию против Азербайджана
ультате которой каждый седьмой житель Азербайджана стал бежен
собственной земле? К сожалению, мы наблюдаем двойной станд
в международных отношениях». Эфраим Сна
HEYDAR ALIYEV
FOUNDATION
AZIZ
INTERNATIONAL ASSOCIATION
«ISRAEL-AZERBAJAN» «AZIZ»
KHOJALY

ФОТОВЫСТАВКА
JUSTICE
FOR KHOJALY
В ИЗРАИЛЕ

ФОТОВ
JUS
FOR K
В И

Kanada

ARMENIA
IS GUILTY OF
ETHNIC CLEANSIN
NO
TO ARMENIAN
TERRORISM
JUSTICE
KHOJALY VICTIMS
IME COMMITTED BY
ENIAN ARMED FORCES

TO COMMEMORATE
THE KHOJALY TRAGEDY

ARMENIAN FORCES ARE RESPONSIBLE FOR KHOJALY MASSACRE!
NO
TO ARMENIAN TERRORISM
JUSTICE
FOR KHOJALY VICTIMS -
CRIME COMMITTED BY
ARMENIAN ARMED FORCES
UNITED NATIONS: ARMENIA MUST LEAVE THE OCCUPIED TERRITORIES!
ARMENIAN TERRORISTS, OUT OF KARABAKH!

Latviya

JUSTICE FOR KHOJALY

JUSTICE FOR KHOJALY

February 26, 1992
KHOJALY
444 MEN • 106 WOMEN • 63 CHILDREN
A Human Tragedy
Against Azerbaijan

JUSTICE
FOR
KHOJALY

JUSTICE
F O R
KHOJALY

HOJALY
HOJALY GENOCIDE

***

Azərbaycan səfirliyi Xocalı faciəsinin ildönümü ilə bağlı Misirdə və Liviya Cəmahiriyyəsində keçiriləcək tədbirlərin Planını hazırlamışdır

Azərbaycanın Misir Ərəb Respublikasındakı səfirliyi İslam Konfransı Təşkilatının Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə elan edilmiş "Xocalıya Ədalət!" Beynəlxalq kampaniyası çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə Misirdə və eyni zamanda akkreditə olunduğu Liviya Cəmahiriyyəsində keçiriləcək tədbirlərin planını hazırlamışdır.

Səfirlikdən bildirmişlər ki, tədbirlərdə Azərbaycan icmasının, "Vətən" tələbə təşkilatının, Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələrinin, habelə Misir-Azərbaycan Parlamentlərarası dostluq qrupu üzvlərinin iştirakı nəzərdə tutulmuşdur.

Fevralın 26-da Misirin ən qabaqcıl xəbər televiziya kanalı olan və bir neçə dildə yayımlanan "Nile Akhbar" kanalında Azərbaycanın Misirdəki səfiri Faiq Bağırovun müsahibəsi və Xocalı hadisələrindən bəhs edən "Məhv edilmiş şəhər" filmi ərəb dilində nümayiş etdiriləcəkdir.

Bundan başqa, Heydər Əliyev Fondu tərəfindən faciə ilə bağlı hazırlanmış təbliğat materialları, səfirliyin xüsusi xəbər bülleteni, Misirdə fəaliyyət göstərən "Vətən" tələbə təşkilatı tərəfindən ərəb dilində nəşr edilən "Azərbaycan" qəzetinin faciəyə həsr olunmuş xüsusi sayı, "Xocalıya Ədalət!" kampaniyası və kampaniyanın internet səhifəsi haqqında məlumatlar Misir və Liviyanın Xarici İşlər nazirliklərinə, parlamentlərinə, Ərəb Dövlətləri Liqasına, bu ölkələrdə fəaliyyət göstərən hökumət və qeyri-hökumət təşkilatlarına, ictimai-mədəni və təhsil müəssisələrinə, kitabxanalara, diplomatik nümayəndəliklərə, beynəlxalq və regional təşkilatların ofislərinə göndərilmişdir.

Eyni zamanda, İsgəndəriyyə şəhərində keçirilən VII Beynəlxalq kitab sərgisi çərçivəsində fevralın 25-də faciənin ildönümü ilə bağlı geniş ictimai aksiyanın, o cümlədən imzatoplama kampaniyasının keçirilməsi, Xocalı haqqında filmin nümayişi, "Azərbaycan" qəzetinin xüsusi sayının, faciə ilə bağlı kitabların, disklərin, broşürlərin sərgi iştirakçılarına paylanması nəzərdə tutulmuşdur.

Fevralın 26-da səfirlikdə Misirin aparıcı mətbuat və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Xocalı faciəsinin ildönümü ilə bağlı mətbuat konfransının və "Xocalıya Ədalət!" kampaniyasının internet səhifəsinin təqdimatının keçirilməsi, imzatoplama kampaniyasının davam etdirilməsi və faciədən bəhs edən təbliğat materiallarının iştirakçılara paylanması planlaşdırılmışdır.

AzərTAc
24 fevral 2009-cu il

***

Haaqada "Xocalıya Ədalət" beynəlxalq kampaniyasının internet saytı təqdim olunmuşdur

Azərbaycanın Niderland Krallığındakı səfirliyindən bildirmişlər ki, İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində fevralın 22-də Hollandiyanın Haaqa şəhərində "Ana Vətən" Avropa-Azərbaycanlı Qadınları Birliyi, azərbaycanlı tələbələrin iştirakı ilə anma mərasimi və yürüş təşkil edilmişdir. Bu tədbirlər zamanı "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının www.justicefor khojaly.org ünvanlı internet saytının təqdimatı olmuşdur.

Anma mərasimindən əvvəl internet saytının ünvanını və mahiyyətini əks etdirən xüsusi maykalar geyinmiş, səhifəyə və ümumiyyətlə Xocalı faciəsinə aid plakatlar nümayiş etdirən gənclər bir sıra beynəlxalq məhkəmələrin, Beynəlxalq Hüquq Akademiyasının və beynəlxalq hüquq üzrə ixtisaslaşmış digər mərkəzlərin yerləşdiyi Sülh Sarayının qarşısında toplantı keçirmişlər. Sonra tədbir iştirakçıları mövzu ilə bağlı plakatları və Heydər Əliyev Fondu tərəfindən hazırlanmış fotoşəkilləri nümayiş etdirərək Xocalı faciəsinə həsr olunan və Avropada ilk dəfə quraşdırılmış abidə istiqamətində matəm yürüşünə başlamışlar.

Abidənin önündə təşkil olunmuş mərasim zamanı çıxış edən "Ana Vətən" Avropa Azərbaycanlı Qadınları Birliyinin rəhbəri Gülşən Kazımova, "Azərbaycanın Holland Dostları" cəmiyyətinin icraçı direktoru xanım

Marion van der Vext və Niderlandda fəaliyyət göstərən Rusiya Həmvətənlərin Əlaqələndirmə Şurasının icraçı direktoru Qriqori Pasternak Xocalı soyqırımı haqqında danışmış, faciəni törədənlərin cəzalandırılmasını tələb etmiş, belə bir qətliamın bir daha təkrarlanmaması ilə bağlı beynəlxalq tədbirlərin görülməsinin vacibliyini vurğulamışlar. Bildirilmişdir ki, bu məqsədlərə nail olunmasına və faciə haqqında həqiqətlərin dünya ictimaiyyətinə daha qətiyyətli şəkildə çatdırılmasına Leyla xanım Əliyevanın təşəbbüsü və Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən beynəlxalq kampaniya və yaradılmış internet səhifəsi yeni, mahiyyətcə daha güclü təkan verəcəkdir.

Qeyd etmək lazımdır ki, Qərbi Avropada internet səhifələrinin təqdimatlarının əksər hallarda qapalı tədbir kimi deyil, məhz kütləvi aksiya şəklində geniş ictimaiyyət qarşısında keçirilməsi öz səmərəliliyinə görə çox populyardır. Xocalı faciəsinə həsr olunmuş internet səhifəsinin bu formatda təqdim edilməsi holland ictimaiyyəti və yerli KİV nümayəndələrinin böyük marağına səbəb olmuş, zəruri məlumatların geniş kütlələrə çatdırılmasına şərait yaratmışdır.

Tədbirdə Niderlandda təhsil alan azərbaycanlılarla yanaşı, Azərbaycan diasporunun və "Azərbaycanın Holland Dostları" təşkilatının fəalları, yerli KİV təmsilçiləri iştirak etmişlər.

AzərTAc
24 fevral 2009-cu il

***

Britaniyanın Hərb Muzeyində Xocalı soyqırımı ilə əlaqədar anma mərasimi keçirilmişdir

Fevralın 24-də Böyük Britaniyanın tanınmış tədqiqat mərkəzlərindən sayılan İmperiya Hərb Muzeyində Xocalı soyqırımı qurbanlarının anma mərasimi və "Xocalıya Ədalət!" beynəlxalq məlumatlandırma kampaniyasının təqdimat mərasimi keçirilmişdir.

Tədbirdə Britaniya Parlamentinin üzvü Mayk Henkok, dövlət qurumlarının, o cümlədən xarici işlər nazirliyinin rəsmiləri, Londonda akkreditə olunmuş səfirliklərin nümayəndələri, Qafqaz regionu üzrə ixtisaslaşmış

tədqiqat mərkəzlərinin təmsilçiləri, jurnalistlər, Azərbaycan və türk icmalarının üzvləri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə açan səfir Fəxrəddin Qurbanov Xocalı faciəsinin xalqımızın tarixində qanlı səhifələrdən biri olduğunu vurğulamış, faciə qurbanlarının yalnız azərbaycanlı olduqları üçün kütləvi qətlə məruz qaldıqlarını qeyd etmişdir. O, eyni zamanda faciəyə indiyə qədər beynəlxalq ictimaiyyət və əlaqədar beynəlxalq təşkilatlar tərəfindən müvafiq qiymət verilmədiyinin təəssüf doğuran hal olduğunu diqqətə çatdırmışdır.

Daha sonra çıxış edən Cənubi Qafqaz üzrə tanınmış tədqiqatçı professor Tamara Draqadze faciənin miqyasından təfsilatlı şəkildə bəhs etmiş, bu addımı sadəcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və bəşəri dəyərlərə qarşı törədilmiş cinayət kimi dəyərləndirmişdir. Xanım Draqadze hadisələrin baş verdiyi ərəfədə regionda olduğunu və faciənin əsl miqyası ilə çox yaxından tanış olduğunu diqqətə çatdırmışdır. O, eyni zamanda vurğulamışdır ki, bir sıra cəhdlərə baxmayaraq, faciəyə indiyədək beynəlxalq ictimaiyyət və təşkilatlar tərəfindən həqiqi qiymət verilməmişdir. Bu istiqamətdə Azərbaycan hökumətinin apardığı məlumatlandırma kampaniyasını yüksək qiymətləndirilməlidir.

Çıxışların ardınca Heydər Əliyev Fondu tərəfindən göndərilmiş video materiallardan hazırlanmış və Xocalı faciəsini özündə əks etdirən video klip nümayiş etdirilmişdir.

Tədbir çərçivəsində İslam Konfransı Təşkilatının Gənclər Forumu və qurumun Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi xanım Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının və kampaniyanın internet səhifəsinin təqdimat mərasimi keçirilmişdir. Beynəlxalq kampaniyanın Böyük Britaniya üzrə əlaqələndiricisi olan "Odlar Yurdu" cəmiyyətinin icraiyyə komitəsinin üzvü xanım Britt Montimer çıxış etmiş və sözügedən kampaniya haqqında, kampaniya çərçivəsində hazırlanmış internet səhifəsi və kampaniyaya qatılmaq şərtləri ilə bağlı ətraflı məlumat vermiş, geniş ekranda isə kampaniyanın internet səhifəsinin görüntüləri verilmişdir.

Tədbirin gedişində Xocalı faciəsi və Qarabağ müharibəsindən bəhs edən kitab və broşürlər paylanmış, o cümlədən "Xocalı uşaqların gözü ilə" adlı rəsm sərgisi nümayiş etdirilmişdir.

AzərTAc
25 fevral 2009-cu il

***

"Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının və onun internet səhifəsinin beynəlxalq təqdimatı davam edir

"Xocalıya Ədalət!" beynəlxalq məlumat-təşviqat kampaniyasının və onun internet saytının (www.justiceforkhojaly.org) dünyanın aparıcı mərkəzlərində təqdimatı davam edir. "Xocalıya Ədalət!" ("Justice for Khojaly") beynəlxalq məlumat və təşviqat kampaniyası İslam Konfransı Təşkilatına (İKT) üzv qurum olan Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə ötən ilin mayında elan edilmişdi.

1992-ci il fevralın 26-da Azərbaycanın Xocalı şəhərində törədilmiş insanlığa qarşı cinayətin dünya ictimaiyyətinə çatdırılması, bu cinayətə hüquqi-siyasi və mənəvi qiymətin verilməsi üçün Xocalı soyqırımı ilə bağı həqiqətlərin təbliği və bu sahədə səmərəli təşviqatın aparılması məqsədlərini daşıyan kampaniyanın beynəlxalq səviyyədə rəsmi startı bu həftə ərzində dünyanın müxtəlif paytaxtlarında keçiriləcəkdir. Eyni zamanda, təqdimatı keçiriləcək www.justiceforkhojaly.org internet saytı "Xocalıya ədalət" kampaniyasının virtual aləmdə yayılması və kampaniyanın həyata keçirilməsinin sistemləşdirilməsi məqsədlərini daşıyır və geniş ictimai iştirak üçün nəzərdə tutulmuşdur.

Son iki gündə kampaniya və onun internet saytının təqdimatı dünyanın aşağıdakı şəhərlərində keçirilmişdir:

LONDON (Böyük Britaniya). Fevralın 24-də Londonun İmperiya Hərb Muzeyində "Xocalıya ədalət" beynəlxalq kampaniyasının və onun internet saytının təqdimatı keçirilmişdir.

Kampaniyanın Böyük Britaniya üzrə yerli əlaqələndiricisi xanım Britt Montimerin keçirdiyi təqdimatda Böyük Britaniya parlamentinin üzvü Mayk Henkok, dövlət qurumlarının, o cümlədən Xarici İşlər Nazirliyinin rəsmiləri, Londonda akkreditə olunmuş səfirliklərin nümayəndələri, Qafqaz regionu üzrə ixtisaslaşmış tədqiqat mərkəzlərinin təmsilçiləri, jurnalistlər, Azərbaycan və türk icmalarının üzvləri iştirak etmişlər.

HYUSTON (ABŞ). Fevralın 24-də "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının startı çərçivəsində Azərbaycan-Amerika Şurasının təşkilat-

çılığı ilə Hyuston şəhərində kampaniyanın və onun internet saytının təqdimat mərasimi keçirilmişdir.

Tədbirdə yerli ictimaiyyətin, həmçinin Azərbaycan və türk diasporunun nümayəndələri iştirak etmişlər.

BERN (İsveçrə). Fevralın 25-də Bern şəhərində İsveçrə Federal hökumətinə məxsus "Politforum"da kampaniyanın və onun saytının təqdimatı olmuşdur.

Tədbirdə İsveçrə hökumətinin nümayəndələri, parlament üzvləri, QHT-lərin, Berndə akkreditə olunan diplomatik korpusun və KİV-in nümayəndələri iştirak etmişlər. Eyni zamanda, tədbirdə Heydər Əliyev Fondu tərəfindən hazırlanmış "War Against Azerbaijan – Targeting Cultural Heritage" ("Azərbaycana qarşı müharibə: Mədəni irsin hədəfə alınması") kitabının təqdimatı və Fond tərəfindən təqdim olunmuş fotoşəkillərin sərgisi təşkil olunmuşdur.

Tədbirdə Xocalı haqqında film nümayiş etdirilmiş, "Xocalıya Ədalət!" kampaniyasını dəstəkləyən bəyanat imzalanmışdır.

ƏR-RİYAD (Səudiyyə Ərəbistanı). Fevralın 25-də Səudiyyə Ərəbistanının məşhur mətbuat zallarından olan "Riyad Palace"-də ölkənin ictimai-siyasi dairələrinin, beynəlxalq təşkilatların və İslam Konfransı Təşkilatı katibliyinin nümayəndələrinin, diplomatik korpus təmsilçilərinin və KİV-lərin iştirakı ilə "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının və kampaniyanın internet saytının təqdimatı keçirilmişdir. Tədbir çərçivəsində Xocalı faciəsi ilə bağlı fotosərgi təşkil olunmuş və film nümayiş etdirilmişdir.

AzərTAc
25 fevral 2009-cu il

***

İndoneziya KİV-lərinə "Xocalıya Ədalət!" kampaniyası haqqında məlumat təqdim edilmişdir

Azərbaycanın İndoneziyadakı səfirliyi Xocalı faciəsinin 17-ci ildönümü ilə əlaqədar tədbirləri davam etdirir.

Səfirlik fevralın 25-də İndoneziyanın nüfuzlu "Kompas", "Media İndonesia", "The Jakarat Post", "Sinar Harapan", "Suara Karya" qəzet-lərinin, "Antara" xəbər agentliyinin, "TVRİ", "Metro" televiziya kanallarının

rəhbərliyinə Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın dəstəyi ilə həyata keçirilən "Xocalıya Ədalət!" beynəlxalq kompaniyasının saytının ünvanını (www.justiceforkhojaly.org) və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə müfəssəl məlumat göndərmişdir.

AzərTAc
25 fevral 2009-cu il

***

Dünyanın bir neçə ölkəsində "Xocalıya ədalət" beynəlxalq kampaniyasının və onun internet səhifəsinin təqdimatı olmuşdur

"Xocalıya ədalət" beynəlxalq məlumat-təşviqat kampaniyasının və onun internet saytının (www.justiceforkhojaly.org) dünyanın aparıcı mərkəzlərində təqdimatı davam edir. "Xocalıya ədalət" ("Justice for Khojaly") beynəlxalq məlumat və təşviqat kampaniyası İslam Konfransı Təşkilatına (İKT) üzv qurum olan Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə ötən ilin mayında elan edilmişdi.

1992-ci il fevralın 26-da Azərbaycanın Xocalı şəhərində törədilmiş insanlığa qarşı cinayətin təfərrüatının ictimaiyyətə çatdırılması, ona hüquqi-siyasi və mənəvi qiymət verilməsi üçün Xocalı soyqırımı ilə bağı həqiqətlərin təbliği məqsədi daşıyan kampaniyanın beynəlxalq səviyyədə rəsmi startı bu həftə ərzində dünyanın müxtəlif paytaxtlarında keçiriləcəkdir.

Eyni zamanda, təqdimatı keçiriləcək www.justiceforkhojaly.org internet saytı "Xocalıya Ədalət!" kampaniyasının virtual aləmdə yayılması və kampaniyanın həyata keçirilməsinin sistemləşdirilməsi məqsədlərini daşıyır və geniş ictimai iştirak üçün nəzərdə tutulmuşdur.

Son iki gündə kampaniya və onun internet saytının təqdimatı dünyanın aşağıdakı şəhərlərində keçirilmişdir:

KİYEV. Fevralın 25-də soydaşımız R.Seydimovun "Xocalı" mövzusuna həsr olunmuş rəsm sərgisinin Ukrayna siyasətçilərinin və ictimai

xadimlərinin də iştirakı ilə keçirilmiş bağlanış mərasimində "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası və onun internet saytı təqdim olunmuşdur.

BERLİN. Fevralın 26-da Almaniyadakı Azərbaycanlıların Əlaqələndirmə Mərkəzinin bürosunda Bundestaq və Berlin şəhər parlamenti üzvlərinin, diplomatik korpusun, hökumət və qeyri-hökumət təşkilatları nümayəndələrinin, universitet müəllimlərinin, mədəniyyət xadimlərinin, hüquq müdafiəçilərinin və jurnalistlərin iştirakı ilə "Xocalıya ədalət" kampaniyasının və internet saytının təqdimat mərasimi keçirilmişdir.

Bundestaqın üzvləri Otto Hauserin və Hakkı Keskinin də qatıldıqları tədbirdə Azərbaycanın Almaniyadakı səfiri Pərviz Şahbazov, Almaniya parlamentinin üzvü Eduard Lintner çıxış etmişlər. Mərasimdə "Xocalı soyqırımı" sənədli filmi nümayiş etdirilmiş, "Xocalı uşaqların gözü ilə" rəsm sərgisi keçirilmiş, yazıçı Günel Rzayevanın Qarabağ mövzusuna həsr olunmuş "Atama" hekayəsi oxunmuş və alman rəssamı Peter Foellerin "Garabach" əsəri nümayiş etdirilmişdir.

BUXAREST. Fevralın 26-da Heydər Əliyev Fondunun Rumıniyadakı nümayəndəliyində hökumətin, QHT-lərin və mətbuat təmsilçilərinin iştirakı ilə keçirilmiş tədbirdə "Xocalıya Ədalət!" kampaniyasının və onun internet saytının təqdimat mərasimi keçirilmişdir.

Bununla yanaşı, "Xocalı uşaqların gözü ilə" mövzusunda rəsm sərgisi və rumın dilində nəşr edilmiş "Xocalı faciəsi" kitabının təqdimatı da olmuşdur.

VYANA. Fevralın 26-da Vyananın mərkəzi küçələrinin birində Azərbaycanın işğal olunmuş ərazilərini simvolizə edən çadır qurulmuş və burada ölkənin elm mərkəzlərinin, yerli icmaların və mətbuat nümayəndələrinin iştirakı ilə "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının və onun internet saytının təqdimatı keçirilmişdir.

RİQA. Fevralın 26-da Riqadakı "Ocaq" Mədəniyyət Mərkəzində yerli ictimaiyyətin nümayəndələrinin iştirakı ilə "Xocalıya Ədalət!" kampaniyasının və internet saytının təqdimatı olmuşdur.

VARŞAVA. Fevralın 26-da Varşava Universitetində Xocalı soyqırımının 17-ci ildönümü ilə bağlı anma mərasimi keçirilmişdir.

Tədbirdə ölkə ictimaiyyəti, Polşada akkreditə olunmuş diplomatların, mətbuatın nümayəndələrinin iştirakı ilə "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının və internet saytının təqdimatı olmuşdur. Bundan başqa, Vaşinqtonda ABŞ Konqresinin binasında konqresmenlərin iştirakı ilə "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının və onun internet saytının təqdimatının keçirilməsi nəzərdə tutulmuşdur. Kampaniya çərçivəsində Corc

Vaşinqton Universitetində Heydər Əliyev Fondunun Xocalı faciəsi ilə bağlı hazırladığı film göstəriləcək, rəsm sərgisi təşkil ediləcək, kampaniyanın və internet saytının təqdimatı olacaqdır.

AzərTAc
26 fevral 2009-cu il

***

Türkiyədə "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasına rəsmi start verilmişdir

Fevralın 26-da İstanbulda "Xocalıya Ədalət!": humanitar və hüquqi tanınma perspektivləri" mövzusunda keçirilmiş konfransda Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə elan edilmiş "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasına Türkiyədə start verilmişdir.

İslam Konfransı Gənclər Forumunun Baş qərargahında təşkil olunmuş konfransda millət vəkilləri, hökumət nümayəndələri, bələdiyyə başçıları, elm adamları və nüfuzlu KİV təmsilçiləri iştirak etmişlər. "DUA" filminin nümayişi ilə başlanmış konfransda çıxış edən DƏ-İKGF-nin baş katibi Elşad İsgəndərov kampaniyanın əhəmiyyətindən danışmış, ona 20-dən çox ölkədə start verildiyini vurğulamışdır. O, kampaniyaya dəstəyə görə, qardaş Türkiyə ictimaiyyətinə və hökumətinə təşəkkürünü bildirmişdir. Kampaniyanın Türkiyə üzrə milli əlaqələndiricisi Əminə Yetim "Xocalıya Ədalət!" kampaniyasını və onun internet saytını təqdim etmişdir.

Konfransın açılışında çıxış edən DƏ-İKGF-nin prezidenti Əli Sarıqaya, İstanbul Böyük Şəhər Bələdiyyəsinin gənclər və idman müdiri Enis Erdem kampaniyanın vacibliyini vurğulayaraq, onun hərtərəfli dəstəklənəcəyini bildirmişlər.

Açılış mərasiminin sonunda iştirakçılar kampaniyanın Bəyannaməsini imzalamışlar. Konfransın ilk geniş iclasında çıxış edən Yeditəpə Universitetinin professoru, Yaxın Keçmiş Tarixi Araşdırmalar Mərkəzinin sədri Mehmet Saray və Qazi Universitetinin professoru İlyas Doğan Azərbaycan torpaqlarının işğalından və Xocalı faciəsinin beynəlxalq səviyyədə hüquqi tanınmasının əhəmiyyətindən söhbət açmışlar.

İkinci geniş iclasda tələbələrin çıxışları dinlənilmişdir. Gənclər Xocalı faciəsini beynəlxalq hüquq prizmasından təhlil etmişlər. Onlar vurğulamışlar

ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində işğal olunmuş torpaqlar azad edilməyənədək, o cümlədən, Xocalı faciəsinə görə üzr istənilməyincə, təcavüzkara qarşı beynəlxalq təzyiq azalmamalıdır. Bu baxımdan Türkiyənin Ermənistanla sərhədlərin açılmaması siyasətini davam etdirməsinin zəruriliyi vurğulanmışdır.

Konfransda çıxış edən "Hollywood"un ilk türk prodüseri Mehmet Çələbi ABŞ-da türk diasporunun Xocalı məsələsini daim gündəlikdə saxladığını bildirmişdir. O demişdir ki, Xocalı faciəsinin fəal şəkildə inkarı siyasətini yürüdən Amerikanın Erməni Milli Komitəsi bu yaxınlarda Çikaqodakı türk diasporu tərəfindən məhkəməyə verilmişdir. "Xocalıya Ədalət!" kampaniyası faciəni inkar edərək, insanlığa qarşı cinayətləri örtbasdır edən qurumlara qarşı da mübarizə aparılmalıdır.

Tədbirin sonunda rejissor Korhan Yurtsevərin çəkdiyi "Xocalı qətliamı. Bu, son olsun!" filmi nümayiş etdirilmişdir.

AzərTAc
26 fevral 2009-cu il

***

İsveçrədə "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının təqdimatı olmuşdur

Fevralın 25-də İsveçrə Federal Hökumətinə məxsus "Politforum"da Azərbaycanın bu ölkədəki səfirliyi Dağlıq Qarabağ münaqişəsinə və Xocalı soyqırımının ildönümünə həsr olunmuş tədbir keçirmişdir.

Səfirlikdən bildirmişlər ki, İsveçrə-Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə keçirilən və İsveçrə parlamentinin, Xarici İşlər Nazirliyinin, diplomatik koprusun, kütləvi informasiya vasitələrinin, qeyri-hökumət təşkilatlarının, Azərbaycan və türk icmaları nümayəndələrinin iştirak etdikləri tədbirdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, onun acı nəticələri haqqında ətraflı məlumat verilmişdir.

Tədbirdə İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə elan edilmiş "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının təqdimatı olmuşdur. Təqdimat zamanı komputer vasitəsilə "Xocalıya Ədalət!" kampaniyasının internet səhifəsi haqqında ətraflı məlumat verilmişdir.

Bundan əlavə, tədbirdə Heydər Əliyev Fondu və Azərbaycan XİN tərəfindən birgə tərtib olunmuş "Azərbaycana qarşı müharibə: Mədəni irsin hədəfə alınması" nəşrinin də təqdimatı olmuş, bu haqda film nümayiş etdirilmişdir. Tədbir iştirakçıları Heydər Əliyev Fondu tərəfindən təqdim edilmiş "Xocalı uşaqların gözü ilə" adlı fotosərgiyə də baxmışlar.

Eyni zamanda, Berndə ezamiyyətdə olan Dövlət Gömrük Komitəsinin nümayəndələri tərəfindən Azərbaycanın gömrük xidmətinin tarixindən, ermənilərin Cənubi Qafqazda məskunlaşdırılmasından bəhs edən "Azərbaycanın gömrük xidməti: tarixi ənənələr və müasirlik" kitabının təqdimatı keçirilmişdir.

AzərTAc
26 fevral 2009-cu il

***

Belçikada Xocalı soyqırımı ilə bağlı etiraz aksiyası keçirilmişdir

Azərbaycanın Belçika Krallığı və Lüksemburq Hersoqluğundakı səfirliyindən bildirmişlər ki, Azərbaycan və türk diaspor təşkilatları Xocalı faciəsinin 17-ci ildönümü ilə bağlı tədbirlər keçirmişlər.

Əvvəlcə Avropa Parlamentinin binası qarşısında, gediş-gəlişin daha çox olduğu Şuman meydanında qurulmuş çadırda faciəyə həsr olunmuş sərgi açılmış, film nümayiş etdirilmişdir. Sərgiyə gələnlər İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasına qoşulmuş və müvafiq sənədi imzalamışlar.

Sonra soydaşlarımız Ermənistan səfirliyinin qarşısında toplaşaraq, Azərbaycan torpaqlarının işğal edilməsinə etirazlarını bildirmiş, ərazilərimizin azad olunmasını tələb edən şüarlar səsləndirmiş və Ermənistan hökumətinə ünvanlanmış etiraz məktubunu səfirliyin əməkdaşına təqdim etmişlər. Buradan Avropa Parlamentinə doğru yürüş başlanmışdır. Yürüşü Şuman meydanında başa çatdırmış soydaşlarımız Avropa təsisatlarını Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına göz yummamağa, Xocalı soyqırımını tanımağa və Ermənistana təsir göstərməyə çağırmışlar. Avropa İttifaqında sədrlik edən Çexiyanın Baş naziri Miroslav Topolanekə, Avropa Komissiyasının rəhbəri Xose Manuel Barrozaya və Avropa

Parlamentinin sədri Hans-Gert Potteringə ünvanlanmış etiraz məktubları qurumun rəsmilərinə təqdim edilmişdir.

Brüsseldə keçirilmiş etiraz aksiyasına qonşu Hollandiyadan və Almaniyadan gəlmiş Azərbaycan və türk icmalarının nümayəndələri də qoşulmuşlar.

Həmin gün Xocalı soyqırımı ilə bağlı səfirlik tərəfindən hazırlanmış mətbuat bülleteni Belçikanın rəsmi qurumlarına, yerli kütləvi informasiya vasitələrinə, xarici ölkələrin Belçikadakı səfirliklərinə, Avropa İttifaqı və NATO yanındakı diplomatik nümayəndəliklərə göndərilmişdir.

Bu etiraz aksiyasının davamı olaraq Heydər Əliyev Fondunun dəstəyi ilə martın 3-də Avropa Parlamentinin binasında qurumun üzvü xanım Jizela Kalenbaxın himayəsi ilə Xocalı soyqırımına həsr olunmuş konfrans keçiriləcəkdir. Konfransda faciə barədə geniş məlumat veriləcək, sərgi və film nümayiş etdiriləcək, İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçirilən "Xocalıya Ədalət!" kampaniyasının internet səhifəsinin təqdimatı olacaqdır.

Əsgər Əliyev
AzərTAc-ın xüsusi müxbiri, Paris
26 fevral 2009-cu il

***

Səudiyyə Ərəbistanında "Xocalıya ədalət - Qarabağa azadlıq" beynəlxalq kampaniyasının təqdimatı keçirilmişdir

Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığındakı səfirliyi tərəfindən Xocalı soyqırımının 17-ci ildönümü ilə əlaqədar fevralın 25-də anma mərasimi və İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə irəli sürülmüş "Xocalıya ədalət – Qarabağa azadlıq" beynəlxalq kampaniyasının təqdimatı keçirilmişdir. "Riyad Palace" konfrans mərkəzində Xocalı faciəsini əks etdirən kitab və materiallardan ibarət guşə yaradılmış, Xocalı soyqırımı və erməni terroru haqqında materialların və filmlərin nümayiş etdirilməsi üçün müvafiq avadanlıq quraşdırılmışdır. Eyni zamanda, "Xocalı uşaqların gözü ilə" devizi altında rəsm sərgisi təşkil olunmuşdur.

Tədbirdə İslam Konfransı Təşkilatının (İKT) baş katibinin müavini İ.Müfti, Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirliyinin, dövlət və

ictimai qurumlarının, kütləvi informasiya vasitələrinin təmsilçiləri, Səudiyyə Ərəbistanında yaşayan Azərbaycan icmasının nümayəndələri və Ər-Riyad şəhərində yerləşən xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndəliklərinin başçıları və əməkdaşları iştirak etmişlər.

Azərbaycanın dövlət himni səsləndirildikdən sonra Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Səfir Tofiq Abdullayev çıxışında erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılmış soyqırımı siyasətinin tarixindən, Xocalıda günahsız insanların xüsusi amansızlıqla qətlə yetirilməsindən və azərbaycanlıların öz yurdlarından zorla didərgin salınmasından söhbət açmışdır. Səfir xalqımıza qarşı törədilən cinayətlərin erməni millətçiləri və onların himayədarları tərəfindən planlı şəkildə həyata keçirildiyini bildirmiş, ermənilərin bu dəhşətli əməllərinə dünya birliyi tərəfindən hüquqi-siyasi qiymət verilməsinin vacibliyini vurğulamışdır.

Sonra Xocalı soyqırımı barədə Heydər Əliyev Fondu tərəfindən hazırlanmış film nümayiş etdirilmişdir.

İKT baş katibinin müavini İ.Müfti filmdəki səhnələrin onu dəhşətə gətirdiyini, terrorun dininin və milliyyətinin olmadığını, erməni millətçiləri tərəfindən törədilmiş Xocalı faciəsini təkcə azərbaycanlılara qarşı deyil, bütövlükdə insanlığa qarşı vəhşilik kimi qiymətləndirmişdir. O, İKT çərçivəsində keçirilmiş tədbirlərdə İslam dünyası tərəfindən Azərbaycan xalqı ilə həmrəylik nümayiş etdirilməsi və beynəlxalq təşkilatların Azərbaycanın haqq səsinin dəstəklənməsi məqsədi ilə qəbul etdiyi müvafiq qətnamələrin yerinə yetirilməsi üçün dünya ictimaiyyəti tərəfindən Ermənistana təzyiqlərin edilməsinin vacibliyini vurğulamışdır.

Səfirliyin birinci katibi E.Əlizadə "Xocalıya ədalət – Qarabağa azadlıq" beynəlxalq kampaniyasının başlanması və kampaniya ilə əlaqədar internet saytının yaradılması haqqında məlumat vermiş, iştirakçıları saytla tanış etmiş, beynəlxalq təşkilatların və ictimai qurumların nümayəndələrini, sadə vətəndaşları bu kampaniyaya qoşulmağa çağırmışdır.

Mərasim iştirakçılarına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə, Xocalı soyqırımına aid disk, kitab və materiallar, səfirliyin mətbuat məlumatı, "Xocalıya ədalət – Qarabağa azadlıq" beynəlxalq kampaniyasına dair materiallar paylanılmışdır.

Səudiyyə Ərəbistanının kütləvi informasiya vasitələri tədbirlə bağlı çəkilişlər aparmış, səfir T.Abdullayev, səfirliyin birinci katibi E.Əlizadə,

İKT baş katibinin müavini İ.Müfti "KSA-2" televiziya kanalına, "Əl-Cəzirə" və "Ər-Riyad" qəzetlərinə müsahibələr vermişlər.

AzərTAc
26 fevral 2009-cu il

***

Pekində "Xocalıya Ədalət!" kampaniyasının və onun internet saytının təqdimatı olmuşdur

Fevralın 26-da Azərbaycanın Çin Xalq Respublikasındakı səfirliyinin nəzdində fəaliyyət göstərən "Şuşa" Mədəniyyət Mərkəzində Xocalı faciəsinin 17-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir.

Mərasimdə Pekində akkreditə olunmuş diplomatik korpusun, o cümlədən Türkiyə, Gürcüstan səfirliklərinin yüksək səviyyəli diplomatları, soydaşlarımız və burada təhsil alan azərbaycanlı tələbələr iştirak etmişlər.

Səfir Yaşar Əliyev Xocalı faciəsinin tarixindən, onun başvermə səbəblərindən, eləcə də ermənilərin törətdikləri vəhşiliklərdən söhbət açmışdır.

Faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, Heydər Əliyev Fondunun Xocalı faciəsinə dair hazırladığı film nümayiş etdirilmişdir. Film disklərə köçürülərək mərasim iştirakçılarına paylanmışdır.

Tədbirdə Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə elan edilmiş "Xocalıya Ədalət!" ("Justice for Khojaly") kampaniyasının və onun internet saytının təqdimatı da olmuşdur.

"Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində səfirlik tərəfindən hazırlanmış mətbuat məlumatları, habelə, Azərbaycana qarşı törədilmiş terror aktları haqqında materiallar Pekində fəaliyyət göstərən diplomatik missiyalara, beynəlxalq təşkilatların nümayəndəliklərinə, Çinin elmi-tədqiqat institutlarına və kitabxanalarına təqdim olunmuşdur.

AzərTAc
26 fevral 2009-cu il

***

Heydər Əliyev Fondu Xocalı faciəsini dünyaya XX əsrin ən qanlı soyqırımlarından biri kimi tanıdıb Leyla Əliyevanın təşəbbüsü ilə Xocalı faciəsinin anım günü islam ölkələrində humanitar fəlakətlər qurbanlarının xatirəsi günü kimi qeyd olunur

Ötən əsrin ən ağır faciəsi, qəddarlığı, amansızlığı ilə Naqasaki, Xirosima, Xatın soyqırımları ilə bir sırada dayanan Xocalı qətliamı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən dəhşətli səhifəsidir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərini zəbt etmiş erməni təcavüzkarları 613 dinc sakini, o cümlədən 106 qadını, 63 uşağı və 70 ahıl insanı amansızlıqla, 56 nəfəri xüsusi qəddarlıq və işgəncə ilə qətlə yetirdilər. 1275 nəfərin əsir götürülməsi ilə nəticələnən azğın erməni hərbçilərinin amansız insan "ovu" 150 günahsız insanın itkin düşməsi, 76-sı azyaşlı uşaq olmaqla 487 nəfərin ömürlük şikəst olması ilə nəticələndi. Amansız qətllərlə dünya tarixində silinməz izlər buraxan Xocalı soyqırımı əslində, erməni təcavüzkarlarının yalnız Azərbaycan xalqına deyil, bəşəriyyətə qarşı ən ağır cinayəti, insanlığa yönəldilmiş qəddarlıq təcəssümü idi. Bəşər tarixinin ən böyük faciələrindən biri olan bu soyqırımından 17 il ötməsinə baxmayaraq, bu faciənin ildönümü hər il daha geniş miqyasda qeyd olunur, humanitar fəlakət qurbanlarının xatirəsi əziz tutulur.

Soyqırımı qurbanlarını daim yad edən, şəhidlərin xatirəsini əziz tutan ümummilli lider Heydər Əliyev 1997-ci il fevralın 25-də "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" fərman imzaladı. Ulu öndər qətliamı kəskin şəkildə pisləyərək bunu bəşəriyyətə qarşı ən ağır cinayət adlandırdı. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, bu həqiqətlərin beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində atılan addımları ulu öndərin adını daşıyan Heydər Əliyev Fondu davam etdirir. Bu istiqamətdə görülən işlərdə təşkilatın fəaliyyəti özünəməxsus yer tutur. Məhz fondun gərgin əməyi nəticəsində əvvəlki illərdən fərqli olaraq indi dünya ölkələri erməni qəsbkarlarının insanlığa sığmayan qətlləri haqqında daha dolğun məlumatlandırılıb. Bir sıra dövlətlər, beynəlxalq təşkilatlar, eyni zamanda, nüfuzlu qurumlar bəşəriyyətə qarşı yönəldilmiş bu cinayətin əsl mahiyyətini anlayaraq qətliamı kəskin şəkildə pisləyir.

Heydər Əliyev Fondunun ayrı-ayrı ölkələrdə geniş miqyasda təşkil etdiyi və faciənin həqiqətlərinin yayılmasına yönəldilmiş anım tədbirləri Rusiya Federasiyasındakı nümayəndəlik tərəfindən İslam Konfransı Təşkilatının (İKT) Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumu çərçivəsində davam edir. İKT-nin Gənclər Forumunun və İslam, Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESKO) təşkilatçılığı ilə ötən il keçirilmiş toplantıda Rusiya Federasiyası nümayəndəliyinin bu istiqamətdə daha səmərəli fəaliyyəti xüsusilə seçildi. İslam ölkələri birliyinin üzvləri olan dövlətlər Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin, onun rəhbəri Leyla Əliyevanın təşəbbüsünü dəstəkləyərək 26 fevral - Xocalı soyqırımı gününün İKT ölkələrində humanitar fəlakətlər qurbanlarının xatirəsini anma günü kimi qeyd olunması barədə qərar qəbul ediblər. Bu ildən başlayaraq 26 fevral hər il islam ölkələrində humanitar fəlakətlər qurbanlarının xatirəsini anma günü kimi geniş miqyasda qeyd olunacaq, Xocalı həqiqətlərinə dair fotoşəkillər, filmlər əks etdiriləcək və qətliamın qurbanlarının anım mərasimləri keçirilərək soyqırımı kəskin şəkildə pisləyən şüarlar səsləndiriləcəkdir. Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın Xocalı soyqırımının daha geniş miqyasda qeyd olunması təşəbbüsü bir sıra ölkələrdə dövlət səviyyəsində dəstəklənib.

İKT-nin humanitar faciələr üzrə ekspertləri XX əsrdə müsəlman xalqlarına, o cümlədən, soydaşlarımıza qarşı törədilən soyqırımı aktlarını geniş müzakirə edərək Xocalı soyqırımını hüquqi normalara qarşı ən ağır cinayət hadisəsi kimi qiymətləndiriblər. Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın qətliama obyektiv qiymət verilməsi təşəbbüsləri dünyanın sülhpərvər qüvvələri, demokratik ölkələri tərəfindən birmənalı dəstəklənib.

Azərbaycan və Türkiyə mədəniyyət nazirlikləri nümayəndələrinin, deputatların, islam ölkələri gənclər təşkilatları təmsilçilərinin və diplomatlarının iştirakı ilə keçirilmiş toplantıda Gənclər Forumunun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya Ədalət - Qarabağa azadlıq" kampaniyası çərçivəsində keçirilən müzakirələr soyqırımı haqda dolğun təsəvvür formalaşdırdı. Ermənilərin xalqımıza qarşı törətdikləri vəhşiliklərdən bəhs olunduğu müzakirələrdə respublikamızda və digər ölkələrdə dinc əhalinin, günahsız insanların vəhşicəsinə qətlə

yetirilməsinə dair sənədlər, filmlər və fotoşəkillərin bütün dünyada daha geniş yayılması vacibliyi diqqət mərkəzində oldu.

İslam ölkələrində vahid soyqırımı qurbanları gününün təsis edilməsi təklifi də müsəlmanlara qarşı qətliamların dünyaya bəyan edilməsi istiqamətində mühüm addımlardan biridir. Təklif İKT rəhbərliyinə təqdim olunub. Beynəlxalq təşkilatın Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üzrə birinci baş əlaqələndiricisinin təşəbbüsü ilə başlanmış kampaniya artıq müsəlman dövlətlərinin böyük marağına səbəb olub. Elə bunun nəticəsi olaraq Xocalı qətliamının islam ölkələrində dərsliklərə daxil edilməsi haqda yeni təkliflər irəli sürülərək bir sıra ölkələr tərəfindən dəstəklənib. Bu isə öz növbəsində uşaqların hələ orta məktəb illərindən qətliam barədə məlumatlandırılmasına və nəticədə gələcək nəsillərin ermənilərin etnik təmizləmə, işğalçılıq siyasətinin əsl mahiyyətini aydın şəkildə dərk etməsinə səbəb olacaqdır.

Xocalı faciəsinin dünya dövlətləri tərəfindən soyqırımı kimi tanınması, qətliama ayrı-ayrı ölkələrin qanunverici orqanları tərəfindən obyektiv qiymət verilməsi tarixi zərurət olaraq qalmaqdadır. Artıq bir sıra dövlətlər 1992-ci ilin 25-26 fevralında soydaşlarımıza qarşı törədilmiş etnik təmizləmə cinayətinin əsl mahiyyətini anlayır, qətliama siyasi qiymət verilməsinin bəşəri borc olduğunu başa düşürlər. İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumu və İSESKO-nun təşkilatçılığı ilə keçirilmiş İKT ekspertlərinin iclasında qəbul olunan yekun sənəd bu məsələdə xüsusi əhəmiyyət kəsb edir. Sənəddə Xocalı soyqırımının Avropa, Asiya və Afrika ölkələri regional parlamentlərarası assambleyasının dialoqu zamanı bəşəriyyətə qarşı kütləvi qətliam kimi tanınması barədə məsələnin qaldırılması əks olunub.

Soyqırımın tanıdılması və qətliama siyasi qiymət verilməsi istiqamətində görülən işlər artıq daha ciddi nəticələr verməkdədir. Həyata keçirilən tədbirlərin səmərəsi kimi islam ölkələrinin ali təhsil və elm nazirlərinin IV konfransı və İslam Konfransı Gənclər Forumu Xocalı faciəsinin beynəlxalq səviyyədə tanınması istiqamətində yeni təşəbbüslə çıxış edib. Erməni təcavüzkarlarının soydaşlarımıza qarşı qətliamları haqqında məlumatların İKT-yə üzv ölkələrin ali təhsil məktəblərinin dərsliklərinə salınması məsələsi gündəmdədir. İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın irəli sürdüyü "Xocalıya ədalət - Qarabağa azadlıq" beynəlxalq kampaniyası

üzv ölkələrdə 2009-2012-ci illərdə prioritet şəkildə həyata keçirilməsinin vacibliyini özündə ehtiva edir.

Xocalı faciəsinin müsəlman dövlətlərinin ali təhsil məktəblərin dərsliklərinə salınması və qətliama aid həqiqətlərin daha geniş miqyasda yayılması təklifləri islam ölkələrinin ali təhsil və elm nazirlərinin dördüncü konfransının yekun qətnaməsinə daxil edilib. Bu sənəd də ermənilərin Xocalıda törətdikəri qətliamlar haqqında əsl faktların İKT-yə üzv ölkələrin ali təhsil müəssisələrinin dərsliklərində əks olunmasını dəstəkləyir və "Xocalıya ədalət - Qarabağa azadlıq" beynəlxalq kampaniyasının bu ildən başlayaraq bir neçə il ərzində davamlı və geniş miqyasda keçirilməsi zəruriliyini əks etdirir. Kampaniya dünyanın müxtəlif ölkələrində Xocalı faciəsi ilə bağlı real faktların foto və film sərgiləri, internet, beynəlxalq konfranslar və nümayişlər, o cümlədən aparıcı beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərin keçirilməsi vasitəsilə çatdırılmasını nəzərdə tutur.

Faciənin soyqırımı kimi tanıdılması, bəşəriyyətə qarşı bu ən ağır cinayətə siyasi qiymət verilməsi, soyqırımı həqiqətlərinin İKT ölkələrində yayılması haqqında siyasi qərar, Gənclər Forumunun təşəbbüsü və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin dəstəyi ilə İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin 35-ci sessiyasında və beynəlxalq təşkilata üzv ölkələrin 11-ci zirvə görüşündə qəbul edilən qətnamələrdə əksini tapıb.

İslam ölkələrinin ali təhsil və elm nazirlərinin "Elmdə gənc alimlərin gücü ilə dəyişikliklərə nail olunması" konfransının qətnaməsində beynəlxalq hüquq normalarına uyğun olaraq hər hansı dövlətin təcavüzkar siyasət yürütməsinin yolverilməz olduğu əks etdirilib. Sənəddə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bənd də öz əksini tapıb. İslam Konfransı Təşkilatının Gənclər Forumu təhsil nazirlərinin konfransında quruma üzv ölkələrin dərs kitablarına Xocalı faciəsi haqqında fəslin daxil edilməsi təşəbbüsünü irəli sürüb.

Soyqırımın 17-ci ildönümü ərəfəsində bir sıra ölkələrdə keçiriləcək anım tədbirləri əvvəlki illərlə müqayisədə daha geniş miqyasda təşkil olunacaq. 26 fevral yalnız Azərbaycanda deyil, digər müsəlman ölkələrində də humanitar fəlakətlər qurbanlarının xatirəsinin anma günü kimi tarixə düşdü. Bu isə faciənin soyqırımı kimi tanıdılmasına yönəldilmiş addımların nəticəsiz qalmadığını sübut edir.

Anar RASİMOĞLU.
"Azərbaycan". *26 fevral 2009-cu il. N 45. Səh. 4*

***

Moskvada xatirə gecəsi keçirilmişdir

Azərbaycanın Rusiyadakı Səfirliyində Xocalı faciəsinin 17-ci ildönümü qeyd edilmişdir. "Xocalı: iddia müddəti bitmir" xatirə gecəsi Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin köməyi ilə səfirlik tərəfindən təşkil edilmişdi. Tədbirdə Heydər Əliyev Fondunun RF-dəki nümayəndəliyinin rəhbəri Leyla Əliyeva, Milli Məclisin deputatı Dünyamin Xəlilov, Türkiyə, İraq, Özbəkistan, Tacikistan, Mali, Sudan, Qırğızıstan səfirləri, Qazaxıstan, Misir, Fələstin səfirliklərinin əməkdaşları, habelə Rusiya elmi ictimaiyyətinin, Azərbaycan diasporunun və gənclərin nümayəndələri, politoloqlar, mətbuat işçiləri iştirak edirdilər.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu gecəni açaraq, keçən əsrin ən dəhşətli cinayətlərindən biri haqqında söhbət açmış, Xocalıda azərbaycanlıların soyqırımını dünyamiqyaslı böyük faciə adlandırmışdır. Diplomat təəssüflə vurğulamışdır ki, bu gün dünyada yeni-yeni münaqişələr baş verir və beynəlxalq birlik öz diqqətini onlara yönəltməli olur. Lakin həlak olanların xatirəsi naminə biz əlimizdən gələni etməliyik ki, Xocalı faciəsindən mümkün qədər çox adam xəbər tutsun və onu unutmasın. Biz elə etməliyik ki, Azərbaycan xalqının dərdini və ağrısını bütün dünyada etiraf etsinlər.

Səfir Xocalı faciəsi haqqında fevralın 26-da "Nezavisimaya qazeta"da dərc edilmiş obyektiv məqalənin müəllifi, rusiyalı jurnalist və politoloq Aleksandr Karavayevə təşəkkürünü bildirmişdir. O demişdir: "17 ildə ilk dəfədir Rusiyanın "Nezavisimaya qazeta" nəşrində bu barədə Aleksandr Karavayevin çox düzgün və gərəkli məqaləsi dərc edilmişdir. Rusiya, rus xalqı və Rusiyada yaşayan xalqlar tarixi bilməli, nələr baş verdiyini və indi nələr baş verməsi haqqında bütün həqiqəti bilməlidir".

Səfir Heydər Əliyev Fondunun RF-dəki nümayəndəliyinin rəhbəri, İslam Konfransı Təşkilatının Gənclər Forumunun baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsünü xüsusi vurğulayaraq demişdir ki, bu qurumun gənclər qanadı Xocalı faciəsi və Ermənistan – Azərbaycan münaqişəsi haqqında həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün eyni vaxtda dünyanın bir neçə iri ölkəsində aksiyalar keçirir. Bu, bir daha təsdiq edir ki, böyüməkdə olan nəsil Azərbaycanı bütün dünyada tanıdacaq və Azərbaycan xalqımızın üzləşdiyi faciələrin unudulmasına imkan verməyəcəkdir.

Heydər Əliyev Fondunun RF-dəki nümayəndəliyinin rəhbəri Leyla Əliyeva öz çıxışında bildirmişdir ki, artıq 17 ildir Azərbaycan xalqı Xocalı faciəsi qurbanlarının işıqlı xatirəsini bütün dünyada ehtiramla yad edir. L. Əliyeva demişdir: "Bu faciə Azərbaycan tarixinə ən dəhşətli və qara səhifələrdən biri kimi həmişəlik yazılmışdır. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni işğalçıları Azərbaycanın Xocalı şəhərini tutmuşdur. Nəticədə, şəhərin 613 nəfər dinc sakini, o cümlədən 106 qadın, 70 ahıl yaşlı insan, 63 uşaq amansızcasına öldürülmüş, 155 nəfər itkin düşmüşdür. Bu qəddarlığın, bu vəhşiliyin səbəbi nə idi?" L. Əliyeva həmin suala özü cavab verərək vurğulamışdır ki, bu, qəsdən törədilmiş aksiya, Azərbaycan xalqına qarşı əsl soyqırım, kütləvi vahimələndirmə aksiyası idi.

L. Əliyeva daha sonra demişdir: "Lakin zaman göstərdi ki, Azərbaycan xalqının əzmi qırılmamışdır və heç vaxt qırıla bilməz. Dəhşətlisi odur ki, belə bir faciə XX əsrin axırlarında törədilmiş və indiyə qədər beynəlxalq birlik tərəfindən bu fakta siyasi-hüquqi və ən başlıcası, mənəvi qiymət verilməmişdir. Biz xalqımızın məruz qaldığı qəddarlığa və haqsızlığa qarşı etiraz səsini ucaltmış bütün insanlara, o cümlədən rusiyalılara minnətdarıq. Azərbaycan torpaqları 20 ildən çoxdur ki, işğal altındadır, ölkədə 1 milyon qaçqın və məcburi köçkün var. Azərbaycan hökuməti bu insanlara çox böyük diqqət yetirir. Çətinliklərə baxmayaraq, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmamışdır, bütün qaçqın-köçkünlər üçün normal həyat şəraiti təmin edilmişdir".

L. Əliyeva sözünə davam edərək bildirmişdir ki, Heydər Əliyev Fondu bu problemə çox böyük diqqət yetirir, hər il bu mövzuda kitablar çap edilir, filmlər çəkilir, fotosərgilər və digər aksiyalar təşkil edilir. Bu gün Fondumuz dünyanın 50 ölkəsində Xocalı faciəsinin ildönümünə həsr edilmiş tədbirlər keçirir. Bu tədbirlərə alimlər, tarixçilər, kulturoloqlar, gənclər və kütləvi informasiya vasitələri cəlb olunur. İslam Konfransı Təşkilatının Mədəni Dialoq üzrə Gənclər Forumunun baş əlaqələndiricisi kimi mən 2008-ci il mayın 8-də "Xocalıya Ədalət!" aksiyası keçirilməsi təşəbbüsünü irəli sürmüşəm. Bu aksiyanın məqsədi faciə haqqında məlumatı beynəlxalq birliyə çatdırmaqdır. Bu gün dünyanın bir sıra ölkələrində "Xocalıya Ədalət!" veb-saytının təqdimat mərasimləri keçirilir. Bu saytda faciə haqqında mötəbər məlumatlar tapmaq mümkündür".

Leyla Əliyeva bu kədərli gündə xatirə gecəsinə gələrək, bizi dəstəkləyənlərin hər birinə minnətdarlığını bildirmişdir. O, faciənin şahidləri, gecənin keçirildiyi salonda olan Zaur Əliyevə və Anar Yusubova xüsusi

təşəkkür etmişdir. Heydər Əliyev Fondunun RF-dəki nümayəndəliyinin rəhbəri çıxışının sonunda demişdir: "Doğma şəhərində bu faciə baş verəndə onlar lap uşaq idilər. Mən əminəm ki, Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tezliklə ədalətli yolla həll ediləcək, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və bu insanlar öz evlərinə, öz doğma torpaqlarına qayıda biləcəklər".

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Dünyamin Xəlilov bu hadisəni böyük faciə adlandırmışdır. O, ermənilərin Azərbaycan torpaqlarına iddia etmələri, 200 il müddətində onların Azərbaycan və türk xalqlarına qarşı törətdiyi vəhşiliklər haqqında arxiv sənədlərini təqdim etmişdir. Deputat bildirmişdir ki, Azərbaycan parlamenti Xocalı ilə bağlı qanun layihəsi hazırlayır.

Xatirə gecəsində Heydər Əliyev Fondunun köməyi ilə çəkilmiş, günahsız qurbanların işıqlı xatirəsinə həsr olunmuş sənədli film nümayiş etdirilmişdir. Səfirliyin foyesində fotosərgi təşkil edilmiş, Xocalı hadisələrinə dair müxtəlif nəşrlər, "İRS-Naslediye" jurnalının nüsxələri paylanmışdır. Jurnalın bu nömrəsində o qanlı qırğını törətmiş hərbi canilərin adları ilk dəfə dərc edilmişdir.

Sonda Xocalı qurbanlarının xatirəsinə ehsan verilmişdir.

Asya HACIZADƏ.
AzərTAc-ın xüsusi müxbiri, Moskva
"Xalq qəzeti". *27 fevral, 2009-cu il. N 46.Səh. 2.*

* * *

Rusiyada "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasına start verilmişdir

Moskva, 27 fevral (AzərTAc). Fevralın 27-də Moskvadakı "Bakı" kinoteatrında Rusiya Azərbaycanlı Gəncləri Təşkilatının (AMOR) və Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) təşkilatçılığı ilə "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının, həmçinin kampaniyanın saytının təqdimatı keçirilmişdir.

Tədbirin rəsmi hissəsindən öncə kinoteatrın foyesində Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə elan

edilmiş "Xocalıya ədalət" kampaniyasının plakatları, şamlardan düzəlmiş Azərbaycan xəritəsi kompozisiyası, məktəbli uşaqların rəsm sərgisi və "DUA" filmi nümayiş etdirilmişdir.

Təqdimat mərasimi Xocalı soyqırımı ilə bağlı çəkilmiş filmin nümayişi ilə başlamışdır.

Rusiya Azərbaycanlı Gənclər Təşkilatının prezidenti, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyeva giriş sözü ilə çıxış edərək, Rusiya Gənclər Təşkilatlarının və Azərbaycan diasporunun nümayəndələrinə kampaniyaya qoşulduqlarına görə təşəkkürünü bildirmişdir.

Leyla Əliyeva Xocalı faciəsinin müasir tariximizin ən qanlı səhifəsi olduğunu vurğulamış, "Xocalıya Ədalət!" kampaniyasının tarixi ədalətə müsbət təsir göstərəcəyini bildirmişdir.

Sonra DƏ-İKGF-nin baş katibi Elşad İskəndərov kampaniyanın təqdimatını etmişdir. O, təşəbbüsün əhəmiyyəti barədə danışmış, kampaniyaya 20-dən artıq ölkədə start verildiyini bildirmiş, həmçinin kampaniyanın məqsədləri və nəzərdə tutulan fəaliyyət formaları haqqında məlumat vermişdir. Kampaniyanın Rusiya üzrə yerli əlaqələndiricisi Janna Krivolap kampaniyanın saytını təqdim etmişdir. Tədbirdə yazıçı, professor Yuri Pompeyev çıxış edərək Xocalı faciəsinin insanlığa qarşı cinayət olduğunu vurğulamış və "Qarabağın qanlı çanağı" adlı kitabından söhbət açmışdır.

Sonda tədbir iştirakçıları kampaniyanın bəyannaməsini imzalamışlar.

AzərTAc
27 fevral 2009-cu il

* * *

Misirin Qahirə və İskəndəriyyə şəhərlərində "Xocalıya Ədalət!" kampaniyasının təqdimatı keçirilmişdir

Azərbaycanın Misir Ərəb Respublikasındakı səfirliyi Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə elan edilmiş "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə Qahirə və İskəndəriyyə şəhərlərində bir sıra tədbir keçirmişdir.

Səfirlikdən bildirmişlər ki, İskəndəriyyə şəhərində keçirilən VII Beynəlxalq kitab sərgisi çərçivəsində fevralın 25-də faciənin ildönümü ilə bağlı Azərbaycan icmasının, "Vətən" tələbə təşkilatının, Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələrinin iştirakı ilə geniş ictimai aksiya keçirilmişdir. Sərgidə iştirak edən qonaqlara Xocalı faciəsi haqqında məlumat verilmiş, "Xocalıya Ədalət!" kampaniyasının və onun internet saytının təqdimat mərasimi keçirilmişdir. Bundan başqa, ərəb dilinə dublyaj olunmuş "Məhv edilmiş şəhər" filmi nümayiş etdirilmiş, Xocalı soyqırımı ilə bağlı imzatoplama kampaniyası təşkil edilmişdir. Sonda Heydər Əliyev Fondu tərəfindən faciə ilə bağlı hazırlanmış təbliğat materialları, səfirliyin xüsusi xəbər bülleteni, Misirdə fəaliyyət göstərən "Vətən" tələbə təşkilatı tərəfindən ərəb dilində nəşr edilən "Azərbaycan" qəzetinin faciəyə həsr olunmuş xüsusi sayı sərgi iştirakçılarına paylanmışdır.

Beynəlxalq kitab sərgisinin ölkəmiz üçün ayrılmış hissəsində kitablar, bröşürlər, disklər, erməni təcavüzünü əks etdirən xəritələr və digər əyani vəsaitlər nümayiş olunmuşdur.

Fevralın 26-da səfirlikdə Misirin aparıcı mətbuat və ictimaiyyət nümayəndələrinin, Misir parlamentinin Misir-Azərbaycan dostluq qrupu üzvlərinin, Azərbaycan icmasının və bu ölkədə təhsil alan tələbələrimizin iştirakı ilə Xocalı faciəsinin ildönümü ilə bağlı mətbuat konfransı keçirilmişdir. Azərbaycanın Misirdəki səfiri Faiq Bağırov Xocalı faciəsinin ildönümü ilə bağlı səfirliyin bəyanatını diqqətə çatdırmış, jurnalistləri maraqlandıran sualları cavablandırmışdır.

Tədbirdə "Xocalıya Ədalət!" kampaniyasının və onun internet saytının təqdimatı keçirilmiş, ərəb dilində dublyaj olunmuş "Məhv edilmiş şəhər" filmi nümayiş etdirilmişdir.

Sonda Xocalı soyqırımı ilə bağlı imzatoplama kampaniyası aparılmışdır. Misirin Qahirə və İskəndəriyyə şəhərlərində keçirilmiş imzatoplama kampaniyası çərçivəsində, ümumilikdə 81 min imza toplanmışdır.

AzərTAc
27 fevral 2009-cu il

***

"Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının və onun internet səhifəsinin beynəlxalq təqdimatı davam edir

"Xocalıya Ədalət!" beynəlxalq məlumat-təşviqat kampaniyasının və kampaniyanın internet saytının (www.justiceforkhojaly.org) dünyanın aparıcı mərkəzlərində təqdimatı davam edir.

"Xocalıya Ədalət!" ("Justice for Khojaly") beynəlxalq məlumat və təşviqat kampaniyası Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə ötən ilin mayında elan edilmişdi. 1992-ci ilin fevralın 26-da Xocalı şəhərində törədilmiş insanlığa qarşı cinayətin dünya ictimaiyyətinə çatdırılması, bu cinayətə hüquqi-siyasi və mənəvi qiymətin verilməsi üçün Xocalı soyqırımı ilə bağı həqiqətlərin təbliği və bu sahədə səmərəli təşviqatın aparılması məqsədlərini daşıyan kampaniyanın beynəlxalq səviyyədə rəsmi təqdimatı bu həftə ərzində dünyanın müxtəlif paytaxtlarında keçirilir.

Eyni zamanda, təqdimatı keçirilən www.justiceforkhojaly.org internet saytı "Xocalıya ədalət" kampaniyasının virtual aləmdə yayılması və kampaniyanın həyata keçirilməsinin sistemləşdirilməsi məqsədlərini daşıyır və geniş ictimai iştirak üçün nəzərdə tutulmuşdur.

Fevralın 27-də kampaniyanın və onun internet saytının ABŞ və Malayziyada təqdimatı olmuşdur.

NYU YORK. Azərbaycan-Amerika Şurasının üzvləri Nyu-York şəhərindəki Ermənistanın daimi nümayəndəliyinin qarşısında etiraz aksiyası təşkil etmişlər.

Aksiya zamanı "Xocalıya Ədalət!" kampaniyasının internet saytının ünvanı plakatlarda nümayiş etdirilmiş və kampaniya haqqında iştirakçılara məlumat verilmişdir.

KUALA LUMPUR. Malayziyanın ən böyük məscidlərinin birində xarici və yerli diplomatların, ölkənin aparıcı siyasətçilərinin iştirak etdiyi cümə namazından sonra oxunan xütbə zamanı Xocalı faciəsinin 17-ci ildönümü qeyd edilmişdir.

Çıxışlar zamanı "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası və kampaniyanın saytı haqqında məlumat verilmişdir.

AzərTAc
27 fevral 2009-cu il

***

Leyla Əliyeva: "Doğma torpaq uğrunda həlak olmuş heç bir Azərbaycanlı unudulmayacaqdır"

Rusiyanın azərbaycanlı gəncləri Xocalı faciəsi qurbanlarının əziz xatirəsini yad etmişlər.

Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi İslam Konfransı Təşkilatının Gənclər Forumu ilə birlikdə "Bakı" kinokonsert kompleksində Xocalı faciəsinin 17-ci ildönümü, habelə "Xocalıya Ədalət!" informasiya kampaniyasının veb-saytının təqdimatı ilə əlaqədar genişmiqyaslı aksiya keçirmişdir. Tədbir Xocalı soyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik anılması ilə başlanmışdır. Sonra Heydər Əliyev Fondu tərəfindən hazırlanmış "Xocalı. Bir şəhərin faciəsi" sənədli filmi nümayiş etdirilmişdir.

Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri, İslam Konfransı Təşkilatının Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyeva tədbiri açaraq demişdir ki, 17 il əvvəl Xocalı faciəsi baş vermiş, günahsız insanlar - qadınlar, uşaqlar, qocalar kütləvi surətdə qətlə yetirilmişlər. O, bu faciəni erməni işğalçılarının suveren Azərbaycan ərazisində həyata keçirdiyi təcavüzkar, millətçi və etnik təmizləmə siyasətinin nəticəsi, bəşəriyyətə qarşı cinayət adlandırmışdır. L.Əliyeva demişdir: "Bütün müharibələr dəhşətlidir, yüzlərlə və minlərlə insana bədbəxtlik, müsibət gətirir. Lakin müharibədə günahsız insanların qətlə yetirilməsi xüsusilə dəhşətli və faciəlidir. Xocalı şəhərində məhz bu, baş vermişdir: erməni silahlı qüvvələri heç bir hərbi təhlükə törətməyən, şəhəri tərk edən dinc sakinləri - qadınları, qocaları və uşaqları bilərəkdən qətlə yetirmişlər. Bu insanlar hiyləgərliklə tələyə salınmış və amansızlıqla güllələnmişlər. Heç bir günahı olmayan bu insanlar yalnız etnik mənsubiyyətinə görə məhv edilmişlər. Bu, Azərbaycan xalqına qarşı əsl soyqırımı, atalarımıza, analarımıza, bacı və qardaşlarımıza qarşı şüurlu surətdə törədilmiş qırğın idi. Eyni zamanda, bu, düşünülmüş kütləvi qorxutma aksiyası idi. Lakin tarix göstərdi ki, Azərbaycan xalqının iradəsi o vaxt da qırılmadı və heç vaxt qırılmayacaqdır. Xocalı faciəsi Azərbaycanın tarixinə ən dəhşətli və qara səhifələrdən biri kimi yazılsa da, xalqımızın gücünün, möhkəm iradəsinin nümunəsidir".

Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin başçısı bildirmişdir ki, Azərbaycan xalqı əzəli torpaqlarının işğal altında qalması ilə heç vaxt

barışmayacaq və ölkənin ərazi bütövlüyünün bərpasına nail olacaqdır. O demişdir: "Bu gün biz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində həlak olmuş soydaşlarımızın, Xocalı faciəsi qurbanlarının xatirəsini yad edir və bir daha dünya birliyini bu faciəyə hüquqi və mənəvi qiymət verməyə çağırırıq. XXI əsrdə kiminsə qərəzli və millətçi niyyətlərinə görə dinc insanların qətlə yetirilməsi yolverilməzdir və bizim məqsədimiz bu münaqişə barədə həqiqəti dünya ictimaiyyətinə çatdırmaqdır".

L.Əliyeva bildirmişdir ki, İslam Konfransı Təşkilatının Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi kimi o, ötən il mayın 8-də "Xocalıya Ədalət!" kampaniyasının keçirilməsi təşəbbüsünü irəli sürmüşdü. Aksiyada məqsəd bu faciə və ümumən münaqişə barədə dünya birliyini düzgün məlumatlandırmaqdır. Bu gün burada həmin aksiya barədə ətraflı öyrənmək, habelə "Xocalıya Ədalət!" veb-saytını görmək olar. Hazırda bir çox ölkələrdə kampaniyanın və saytın təqdimatı keçirilir. Doğma torpaq uğrunda həlak olmuş heç bir azərbaycanlı unudulmayacaqdır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və beləliklə də ədalət zəfər çalacaqdır.

Leyla Əliyeva çıxışının sonunda tədbirə toplaşanlara, bu kədərli gündə Azərbaycan xalqının dərdinə şərik olanlara təşəkkürünü bildirmişdir. Sonra o, Xocalı faciəsinin şahidləri Zaur Əliyev və Anar Usubovu səhnəyə dəvət etmişdir. Faciə baş verən vaxt onlar hələ uşaq idi. Dəhşətli faciənin şahidləri erməni hərbçilərinin Dağlıq Qarabağın bu şəhərinin dinc sakinlərinə qarşı törətdikləri vəhşiliklər barədə xatirələrini söyləmişlər. Onlar ədalətin bərpa olunması, Xocalı faciəsi barədə həqiqətlərin dünya birliyinə çatdırılması istiqamətində səylərinə görə Azərbaycan rəhbərliyinə, Heydər Əliyev Fonduna və onun Rusiya nümayəndəliyinə təşəkkürlərini bildirmişlər.

Sonra çıxış edən İslam Konfransı Təşkilatının Gənclər Forumunun baş katibi Elşad İsgəndərov "Xocalıya Ədalət!" aksiyasının təqdimatını Moskva üçün əlamətdar hadisə adlandırmışdır. O vurğulamışdır ki, dünyanın 20-dən çox ölkəsində keçirilən aksiyadan məqsəd beynəlxalq ictimaiyyətin diqqətini Xocalıda baş vermiş faciəli hadisələrə cəlb etmək, ona obyektiv hüquqi və mənəvi qiymət verilməsinə nail olmaqdır. E.İsgəndərov demişdir ki, Leyla Əliyevanın təşəbbüsü İKT-nin üzvü olan bütün ölkələr tərəfindən dəstəklənmiş və həm onların, həm də əsrlərlə qonşuları ilə dinc yanaşı yaşamış Azərbaycan xalqının maraqlarına cavab verir. Saytın rus dilinə tərcümə edildiyini deyən E.İsgəndərov ümidvar olduğunu bildirmişdir ki, Rusiyada bu kampaniyaya məsuliyyətlə yanaşılacaq və bu mövzu məhz

Rusiyada daha ciddi səsləndiriləcəkdir. Ermənilərin Xocalıdakı cinayətlərinə qarşı etirazını bildirən ilk rusiyalı yazıçı, "Qarabağ qan içində" kitabının müəllifi Yuri Pompeyev bildirmişdir ki, daim səslənən əsas söz "ədalət"dir. O demişdir: "Düşünürəm ki, hər bir faciədə, xüsusilə azərbaycanlıların başına gətirilən bu genişmiqyaslı xalq faciəsində ədalətin axtarılması asan deyil, ancaq bu 17 il ərzində böyüyən nəsil buna qadirdir. Bu hadisələrin şahidləri Azərbaycan xalqının gücünü nümayiş etdirirlər". Yazıçı vurğulamışdır ki, vətənpərvər yazıçı Musa Mərcanlı 17 il ərzində ilk dəfə "İRS-Naslediye" jurnalında 1992-ci il fevralın 26-na keçən gecə Xocalıda törədilmiş soyqırımında bilavasitə iştirak etmiş 38 nəfərin soyadını dərc etdirmişdir. Zənnimcə, ədalətin bərpa olunması bu qırğında, bu quldurluqda təqsiri olanlar üçün ən böyük cəzadır".

Sonra "Xocalıya Ədalət!" kampaniyasının veb-saytı, "Dua" filmi nümayiş etdirilmişdir. Foyedə Xocalı faciəsindən bəhs edən fotosərgi təşkil olunmuş, bu mövzuda kitablar, jurnallar və digər nəşrlər paylanmışdır.

Asya Hacızadə
AzərTAc-ın xüsusi müxbiri
Moskva
28 fevral 2009-cu il

***

Ukraynadakı Azərbaycan diasporu Xocalı soyqırımının 17-ci ildönümünü qeyd etdi

Xocalı soyqırımının 17-ci ildönümünü dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, o cümlədən Ukraynadakı soydaşlarımız da qeyd ediblər. Ukraynada yaşayan soydaşlarımızın bu cür tədbirlər təşkil etməsi artıq ənənə halını alıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixi vətənimizin iqtisadi-hərbi sahədə daha da inkişaf edərək bölgədə lider, beynəlxalq arenada nüfuz sahibinə çevrilməsi dünya Azərbaycan diaspor hərəkatına böyük ruh yüksəkliyi verib, tarixi düşmənimizə qarşı aparılan mübarizə əzmini gücləndirib. Təsadüfi deyil ki, bu il Heydər Əliyev Fondunun Rusiya üzrə nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət!" kampaniyasına qoşulan Azərbaycan Ukrayna Dostluq və Xeyriyyə Fondunun Ukrayna

Azərbaycanlıları Konqresi ilə birgə Ukraynada fevral ayını "Xocalı ayı" elan etməsi beynəlxalq arenada məlum libasına bürünən erməni hiyləgərliyinin ifşa olunmasında müstəsna rol oynayıb. Azərbaycan Ukrayna Dostluq və Xeyriyyə Fondunun sifarişinə əsasən Ukrayna Rəssamlar İttifaqının üzvü Rasim Seydimovun Xocalı faciəsinə həsr etdiyi Xocalı harayı rəsm əsərləri Ukraynanın Dnepropetrovsk, Xarkov, Donetsk və Kiyev şəhərlərində nümayiş etdirilib, adı çəkilən şəhərlərin ictimaiyyəti Xocalı soyqırımını özündə əks etdirən filmə baxmaqla erməni vəhşiliyinin əyani şahidinə çevriliblər.

DNEPROPETROVSK. "Xocalı soyqırımını törətməklə bəşər tarixinin qanlı səlnaməsinə əbədi imza atan erməni qəsbkarları öz qanlı cinayətləri qarşısında cavab verməlidir". Bu devizlə Dnepropetrovskda təşkil olunmuş Xocalı harayı rəsm sərgisinə qatılan vilayətin elm, mədəniyyət və incəsənət adamları, müxtəlif xalqların diaspor rəhbərləri, tələbələr və media nümayəndələri Heydər Əliyev Fondunun təşəbbüsü ilə nəşr olunmuş "Qarabağ həqiqətləri" kitablar ilə tanış olub, Azərbaycan televiziyasının Ukrayna nümayəndəliyinin hazırladığı "Xocalı soyqırımı" filminə baxmaqla erməni vəhşiliyinin əyani şahidi olublar. Tədbirdə Ukrayna Azərbaycanlıları Konqresinin Dnepropetrovsk vilayət təşkilatının sədri Qüdrət Hacıyev çıxış edərək, ermənilərin son 2 əsrdə azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım və işğalçılıq siyasətindən söz açaraq, beynəlxalq təşkilatların erməni cinayətlərinə hüquqi siyasi qiymət verməmələrini tarixi ədalətsizlik kimi qiymətləndirib. Tədbirdə gürcü, yunan, alman, yəhudi və bir sıra xalqların diaspor rəhbərləri çıxış edərək XX əsrin sonunda ermənilər tərəfindən Xocalıda törədilmiş faciəni bəşəri cinayət adlandırıblar. Tədbirə qatılanlar həmçinin Ukrayna Rəssamlar İttifaqının üzvü Rasim Seydimovun Xocalı harayı rəsm əsərlərinə baxmaqla erməni şovinistlərinin həyata keçirtdikləri qəddarlıq aktı ilə tanış olublar.

XARKOV. "Xocalıya Ədalət!" kampaniyasına qoşulan Azərbaycan-Ukrayna Dostluq və Xeyriyyə Fondunun Ukrayna Azərbaycanlılar Konqresi ilə birgə Xarkov şəhərində təşkil etdiyi "Xocalı harayı" rəsm sərgisində ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım siyasətini tarixi faktlarla Xarkov ictimaiyyətinə çatdırıb. Xarkov şəhərinin elm, mədəniyyət və incəsənət xadimlərinin, diaspor və media nümayəndələrinin iştirakı ilə keçirilən mərasimi Xarkov Azərbaycanlıları Konqresinin sədri Qurban Abbasov açaraq keçən əsrin əvvəllərindən başlayaraq ermənilərin azərbaycanlılara qarşı kütləvi qırğınlar törətmələrini, 1988-ci ildən 2003-cü

ilədək yağı düşmənin Dağlıq Qarabağ və Azərbaycanın digər rayonlarında amansız soyqırım və işğalçılıq siyasəti həyata keçirməklə 20 faiz Azərbaycan torpaqlarını zəbt etdiklərini diqqətə çatdırıb: "Beynəlxalq təşkilatlar erməni vəhşiliyinə göz yummaqla dünyada ikili standartlar mövqeyindən çıxış edirlər. Bu baxımdan tədbirə qatılanları erməni hiyləgərliyinə qarşı mübarizəyə səsləyən Azərbaycan Ukrayna Dostluq və Xeyriyyə Fondunun icraçı direktoru Ceyhun Məmmədli ermənilərin Xocalı şəhərində törətdiyi cinayətlər qarşısında cavab verəcəyini vurğulayıb. Sonra tədbirə qatılanlara Heydər Əliyev Fondunun dəstəyi ilə nəşr olunmuş "Qarabağ həqiqətləri" toplumu paylanılıb. Tədbirdə gənc rəssam Rasim Seydimovun Xocalı soyqırımına həsr etdiyi "Xocalı harayı" sərgisi də erməni vəhşiliyinin ifşa olunmasında müstəsna rol oynayıb.

DONETSK. "Ermənilər işğal etdikləri Azərbaycan torpaqlarım tərk etməsələr, səbr kasaları tükənmiş dünya azərbaycanlılarının tapdağı altında qala bilərlər". Bu bəyanat Azərbaycan Ukrayna Dostluq və Xeyriyyə Fondunun Donetsk Azərbaycanlıları Konqresi ilə birgə Donetsk şəhərində təşkil etdikləri "Xocalı harayı" rəsm sərgisində səslənib. Sərgiyə qatılan Donetsk vilayətinin rəsmi şəxsləri, ali təhsil ocaqlarında təhsil alan yerli və xarici tələbələr ilk öncə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə dərc olunmuş "Qarabağ həqiqətləri" toplusuyla tanış olublar. "Xocalı faciəsi erməni daşnaklarının XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanda həyata keçirdikləri soyqırım siyasətinin tərkib hissəsidir". Tədbirdə çıxışına bu sözlərlə başlayan Donetsk Azərbaycanlıları Konqresinin sədri İqbal Mahmudov erməni şovinistlərinin Xocalıda törətdikləri kütləvi qırğınların heç zaman cavabsız qalmayacağını vurğulayıb. Sonra tədbirə qatılanlar Ukraynanın 5-ci televiziya kanalının hazırladığı "Xocalı soyqırımı" filminə baxmaqla erməni hiyləgərliyinin vəhşilik obrazı ilə tanış oldular. "Ermənilər azərbaycanlılara qarşı həyata keçirtdikləri soyqırım və işğalçılıq siyasətindən əl çəkməsələr, səbr kasaları tükənmiş dünya azərbaycanlılarının tapdağı altında qala bilər". Bu bəyanatla çıxış edən Azərbaycan Ukrayna Dostluq və Xeyriyyə Fondunun prezidenti İlqar Abbasov, diaspora fəallarından Möhlət Hüseynov, Rəfael Vəliyev, Gənclər təşkilatının sədri Razim Əhmədov, diaspora ağsaqqallarından Rövşən Əhmədov, Məhəmməd Əhmədov və digər soydaşlarımız aradan 17 il ötməsinə baxmayaraq, Xocalı soyqırımına ikili standart prizmasından yanaşan beynəlxalq təşkilatları tarixi ədalətə səsləyiblər. Sonra Rasim Seydimovun erməni vəhşiliklərini özündə əks etdirən rəsm əsərləri nümayiş etdirilib.

KİYEV. Ukraynada "Xocalıya Ədalət!" kampaniyasına qoşulan Azərbaycan Ukrayna Dostluq və Xeyriyyə Fondu Ukrayna Azərbaycanlıları Konqresi ilə birgə Kiyev şəhərinin mərkəzi rəsm qalereyasında Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə yaradılmış Xocalı saytını Ukrayna ictimaiyyətinə təqdim edib. Ukraynanın elm mədəniyyət və incəsənət xadimlərinin, diplomatların, xarici və yerli tələbələrin, diaspor və media nümayəndələrinin iştirakı ilə keçirilən təqdimat mərasimində Azərbaycanın Ukraynadakı səfiri Tələt Əliyev çıxış edərək, erməni silahlı qüvvələrinin 1992-ci ildə Xocalıda törətdikləri misli görünməmiş vəhşiliklərdən söz açıb.

Aradan 17 il ötməsinə baxmayaraq, beynəlxalq təşkilatların ermənilər tərəfindən Xocalıda həyata keçirilmiş bəşəri cinayətə hələ də hüquqi siyasi qiymət verilmədiyini bildirən UAK-nin sədri Akif Gülməmmədov, Azərbaycan Ukrayna Dostluq və Xeyriyyə Fondunun sədri İlqar Abbasov, konqresin Kiyev şəhər təşkilatının sədri Oleq Krapivin və digər soydaşlarımız Xocalıyla bağlı sözü gedən saytın tarixi əhəmiyyətindən söz açaraq, tədbirə qatılanları Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında əllərindən gələni əsirgəməməyə səsləyiblər.

"Ermənilər gec-tez öz səhvlərini başa düşüb işğal etdikləri Azərbaycan torpaqlarını tərk etməlidirlər". Təqdimat mərasimində çıxışına bu sözlərlə başlayan Ukraynanın tanınmış siyasi xadimi Anatoli Raxansk Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Xocalı saytının müstəsna rol oynayacağını bildirib. Sonra "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində erməni vəhşiliyini özündə əks etdirən film nümayiş etdirilib. Mərasimə qatılanlar Heydər Əliyev Fondunun dəstəyi ilə nəşr olunmuş "Qarabağ həqiqətləri", o cümlədən, Azərbaycan Ukrayna Dostluq və Xeyriyyə Fondunun təşəbbüsü ilə gənc rəssam Rasim Seydimovun hazırladığı Xocalı harayı rəsm sərgisinə baxmaqla erməni qəddarlığının əyani şahidi olublar.

Fevralın 26-da Ukraynada yaşayan soydaşlarımız Ermənistan səfirliyinin və ATƏT-in Kiyev şəhərindəki nümayəndəliyinin qarşısında etiraz aksiyası keçirdilər. "Vəhşilik və qəddarlıq baxımından XX əsrin ən amansız faciəsi olan Xocalı soyqırımı dünya ictimaiyyəti tərəfindən tanınmalıdır!", "Qarabağ şəhidlərinin qanı yerdə qalmayacaq!". Bu şüarlarla Ermənistanın Ukraynadakı səfirliyinin və ATƏT nümayəndəliyinin qarşısına yürüş edən soydaşlarımız və tələbələr ermənilərin Azərbaycan torpaqlarından geri çəkilmələrini tələb etdilər. Ukrayna Dostluq və Xeyriyyə

Fondunun UAK-la birgə təşkil etdiyi etiraz aksiyasına qoşulan başqa ölkələrin diaspor nümayəndələri də bəşər tarixinin qanlı səhifəsinə çevrilən Xocalı faciəsinin soyqırım aktı kimi tanınması tələbini dəstəkləyiblər.

"ATƏT Dağlıq Qarabağ probleminin həllində ədalətli olmalı, ikili standartlardan əl çəkməlidir. Xocalı soyqırımına göz yuman beynəlxalq təşkilatlar onun iştirakçıları qədər tarix qarşısında cavab verəcəklər". Bu bəyanat isə ATƏT-in Kiyev şəhərindəki nümayəndəliyinin qarşısındakı etiraz aksiyasında səsləndi. Tədbir iştirakçıları ATƏT-i Qarabağ problemi ilə bağlı ədalətli qərar verməkdə cəsarətli olmağa çağırdı. Təxminən 2 saata yaxın davam edən hər iki etiraz aksiyası Ermənistan səfirliyinə və ATƏT nümayəndəliyinə hazırlanmış qətnamənin oxunuşu ilə başa çatdı.

Daha sonra Ukraynada "Xocalı ayı" çərçivəsində Azərbaycan Ukrayna Dostluq və Xeyriyyə Fondunun və Ukrayna Azərbaycanlıları Konqresinin birgə toplantısı keçirilib. Toplantıda Xocalı soyqırımı ilə bağlı tədbirlərin təşkil olunmasındakı xidmətlərinə görə Azərbaycan Ukrayna Dostluq və Xeyriyyə Fondunun prezidenti İlqar Abbasova, fondun icraçı direktoru Ceyhun Məmmədliyə, konqresin Dnepropetrovsk vilayətinin sədri Qüdrət Hacıyevə, Xarkov vilayət təşkilatının sədri Qurban Abbasova, Donetsk Azərbaycanlıları Konqresinin sədri İqbal Mahmudova, konqresin idarə heyətinin üzvü Əbülfəz Qasımova, Azərbaycan Televiziyasının Ukrayna və Şərqi Avropa ölkələri üzrə nümayəndəliyinin rəhbəri Möhsüm Aslanova və Anar Tahirova, o cümlədən Ukrayna Rəssamlar İttifaqının üzvü Rasim Seydimova Ukrayna Azərbaycanlıları Konqresinin fəxri fərmanlar təqdim olunub.

Möhsüm QƏDİROĞLU,
Azərbaycan Televiziyasının Ukrayna və Şərqi Avropa ölkələri üzrə nümayəndəliyinin rəhbəri
"525-ci qəzet". *3 mart 2009-cu il. N.40. Səh. 4*

***

Amerikalı professor və jurnalist Kanadada "Xocalı qırğını: Cəzasız cinayət" mövzusunda təqdimat keçirmişdir

Azərbaycanın Kanadadakı səfirliyindən bildirmişlər ki, Xocalı faciəsinin 17-ci ildönümü ilə əlaqədar "Xocalıya Ədalət!" beynəlxalq təşviqat və məlumat kampaniyası çərçivəsində bu ölkədə bir sıra tədbirlər keçirilmişdir.

Ottavada yaşayan Azərbaycan icması səfirliyin dəstəyi ilə Xocalı faciəsi qurbanlarının xatirəsini anma mərasimi təşkil etmişdir. Mərasimdə amerikalı professor və jurnalist, Ermənistanın xalqımıza qarşı apardığı hərbi təcavüzün birbaşa şahidi olan Tomas Qoltsun "Xocalı qırğını: Cəzasız cinayət" mövzusunda təqdimatı keçirilmişdir.

T.Qolts Ermənistanın Azərbaycana qarşı apardığı müharibənin qızğın dövrlərində cəbhə bölgəsindən Qərb ictimaiyyətinə məlumat verən və Xocalı həqiqətlərini dünyaya çatdıran ilk əcnəbi jurnalistlərdən biri olmuşdur. Həmin dövrdə Azərbaycanda baş verən hadisələr haqqında Qərb mətbuatında məlumatsızlığın və ya əksinə yanlış məlumatın yayıldığı barədə danışan T.Qolts, şahidi olduğu və araşdırma apardığı faciə ilə bağlı tədbir iştirakçılarına geniş məlumat vermişdir.

Daha sonra, tədbirdə çıxış edən Kanadanın Beynəlxalq Ədalət Mərkəzinin (QHT) nümayəndəsi Mətt Eyzenbrandt Xocalı faciəsinin hüquqi araşdırılması, faciənin səbəbkarlarının hüquqi məsuliyyəti barədə fikirlərini diqqətə çatdırmışdır.

Tədbirdə Xocalı soyqırımını, faciənin şahidlərinin ifadələrini əks etdirən sənədli film nümayiş olunmuş, tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

Anma mərasimində Azərbaycan və türk icmalarının, Kanada parlamentinin deputatları, ictimaiyyətin nümayəndələri, insan hüquqları üzrə fəallar iştirak etmişlər.

AzərTAc
3 mart 2009-cu il

***

"Xocalıya Ədalət!" Beynəlxalq kampaniyasına Türkiyədə də geniş dəstək verilir

Ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında Azərbaycan dövləti və Heydər Əliyev Fondu ilə yanaşı, İslam Konfransı Təşkilatının Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyeva da mühüm işlər görür.

Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya Ədalət!" devizi altında həyata keçirilən beynəlxalq məlumat və təşviqat kampaniyası da bu istiqamətdə atılan ciddi addımlardan biridir.

Kampaniyaya Türkiyədə də geniş dəstək verilir. Kampaniyanın Ankaradakı əlaqələndiricisi, soyqırımların araşdırılması üzrə mütəxəssis Gözde Kılıç Yaşın görülən işlərin ciddi nəticələr verəcəyinə inanır.

Gözde Kılıç Yaşın "Xocalıya Ədalət!" internet saytının yaradılmasının tarixdən ibrət dərsi alınması və Xocalı soyqırımının unudulmaması baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulamış və demişdir ki, ermənilərin törətdikləri soyqımları ilə bağlı dünya dövlətlərinin parlamentlərində qərarların qəbul edilməsinə çalışmaq lazımdır. Bunun üçün əvvəlcə həmin ölkələrin ictimaiyyəti məlumatlandırılmalıdır. Leyla Əliyevanın təşəbbüsü ilə davam edən kampaniya isə bu istiqamətdə atılan mühüm addımdır.

AzərTAc
31 mart 2009-cu il

***

"Xocalıya Ədalət!" İslam Konfransı Təşkilatı nazirləri beynəlxalq kampaniyanı dəstəklədi

İslam Konfransı Təşkilatı Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair yeni qətnamələr qəbul edib. İKT ölkələrinin Xarici İşlər Nazirlərinin mayın 23-25-də Dəməşqdə keçirilən 36-cı iclasının gündəliyinə 80 məsələ, o cümlədən Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkar siyasətlə bağlı üç qətnamə salınıb. Bu barədə "Şərq"ə XİN-in mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, həmin qətnamələrdən birincisi Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair qətnamə, digərləri isə Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar Azərbaycana iqtisadi yardımın göstərilməsi və işğal nəticəsində Azərbaycan ərazilərində islam mədəni və tarixi abidələrinin məhv edilməsinə dair qətnamələr olub. İclasda çıxış edən Azərbaycanın Xarici İşlər Naziri Elmar Məmmədyarov erməni təcavüzü və onun nəticələri ilə bağlı konfrans iştirakçılarını məlumatlandırıb. Konfransda çıxış edən İKT-nin Baş katibi Ekmeleddin İhsanoğlu isə öz bəyanatında bir daha

Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı İKT-nin mövqeyini açıqlayaraq erməni işğalçılarının qeyd-şərtsiz zəbt etdikləri Azərbaycan ərazilərini boşaltmasını tələb edib. Dünən öz işini başa vuran İKT ölkələri XİN başçılarının 36-cı iclasında bir sıra mühüm qərarlar və qətnamələr qəbul edilib. Azərbaycanın Suriyadakı səfirliyinin mətbuat xidmətindən "Şərq"ə verilən məlumata görə, dünən İKT Xarici İşlər Nazirləri sessiyanın sonuncu iclasında İKT Gənclər Təşkilatı Gənclər Forumu (İKT GF) haqqında qəbul etdikləri yekun qətnamədə "Xocalıya Ədalət!" kampaniyasını tam dəstəkləyərək üzv ölkələri bu kampaniyanı dəstəkləməyə çağırıblar. İKT Gənclər Forumunun Mədəniyyətlərarası dialoq üzrə baş koordinatoru Leyla Əliyeva-nın təşəbbüsü ilə beynəlxalq səviyyədə aparılan kampaniya qətnamədə İKT ölkələrinin dünyada haqq səsinin ucaldılması işində mühüm təşəbbüs kimi qiymətləndirilib. Eyni zamanda İKT XİN konfransı qərarı üzv dövlətləri kampaniyanın əsas məqsədinə çatanadək, yəni Xocalıda törədilmiş kütləvi qırğına üzv ölkələr tərəfindən və beynəlxalq səviyyədə düzgün qiymət verilənədək təşəbbüsü dəstəkləməyə çağırır. Konfransda forumun nümayəndə heyətinə başçılıq edən İKT GF-nin Baş katibi Elşad İsgəndərov Suriyanın paytaxtı Dəməşqdə qəbul edilmiş bu qərarın böyük siyasi əhəmiyyət daşıdığını bildirib. Onun sözlərinə görə, yekdilliklə qəbul edilmiş sənəddə Azərbaycanın milli maraqları baxımından çox əhəmiyyətli olan "Xocalıya Ədalət!" kampaniyasına 57 ölkə yüksək səviyyədə siyasi dəstək verib. Qətnamə həm də İKT dövlətlərini kampaniyada fəal iştirak etməyə, həm də dünya birliyini siyasi və mənəvi qiymət verməyə, bununla da Azərbaycan xalqına qarşı törədilmiş bu misilsiz ədalətsizliyi aradan qaldırmağa çağırıb. "Artıq 3-cü ildir ki, İKT xarici işlər nazirləri öz qərarlarında Xocalı faciəsini insaniyyətə qarşı cinayət olaraq kütləvi qırğın kimi dəyərləndirirlər. Praktik baxımdan isə İKT qətnaməsində verilən dəstək kampaniyanın qarşıdan gələn müddətdə həm İKT ölkələri, həm də dünya miqyasında daha əzmlə və əsaslı şəkildə aparılması üçün zəmin yaradır"- deyə Elşad İsgəndərov bildirib. 36-cı konfransda, həmçinin, bir sıra təşkilati məsələlərə də baxılıb. Konfrans çərçivəsində Azərbaycanın Xarici İşlər Naziri Elmar Məmmədyarov bir sıra ikitərəfli rəsmi görüşlər də keçirib.

Vüsalə Rafiqqızı
"Şərq".
26 may 2009-cu il. N.93. Səh. 4

***

"Qarabağın qan çanağı" kitabı "Xocalıya Ədalət!" kampaniyasının minlərlə iştirakçısına göndərilmişdir

İyunun 12-də Rusiyanın Milli günündə "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının vebsaytında tanınmış rus yazıçı-publisisti, professor Yuri Pompeyevin "Qarabağın qan çanağı" kitabının elektron versiyası yerləşdirilmişdir.

Tarixi-publisistik janrında, müəllifin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin başlanmasında rolu olmuş siyasi xadimlərdən götürdüyü müsahibələr və sənədlər əsasında yazılmış bu kitab münaqişənin obyektiv təhlilinə həsr edilmişdir. Kitabda Ermənistanın Azərbaycana qarşı təcavüzünə yol açan sovet rəhbərliyinin yürütdüyü məsuliyyətsiz və cinayətkar siyasətinin mahiyyəti açıqlanmışdır.

Öz çıxışları və əsərləri ilə Y. Pompeyev keçən əsrin 80-ci illərinin sonlarından etibarən Qarabağ həqiqətlərini Rusiya ictimaiyyətinə çatdırır.

"Qarabağın qan çanağı" kitabı "Xocalı, qanlı hadisələr" və "Məşəqqətli günlər" kitablarından ibarət trilogiyanın birinci hissəsidir. Bu kitabda Sovet İttifaqı rəhbərliyində münaqişənin alovlanmasına təkan verən pərdəarxası qüvvələrin fəaliyyətindən bəhs edən faktlar öz əksini tapmışdır.

"Xocalıya Ədalət!" kampaniyası Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri və İslam Konfransı Təşkilatının Dialoq Uğrunda Gənclər Forumunun Mədəniyyətlərarası və sivilizasiyalararası Dialoq üzrə Baş əlaqələndiricisi Leyla Əliyeva tərəfindən irəli sürülmüş və son məqsəd olaraq Xocalı soyqırımının dünya ictimaiyyəti tərəfindən tanınmasına yönəlmişdir. Yaxın gələcəkdə "Qarabağın qan çanağı" kitabının ingilis dilində versiyası və Qarabağ münaqişəsi ilə bağlı müəllifin digər iki kitabının nəşri hazırlanır.

"Qarabağın qan çanağı" kitabının tam versiyası ilə kampaniyanın vebsaytında (www.justiceforkhojaly.org) tanış olmaq olar.

"Azərbaycan"
13 iyun 2009-cu il. N 127. Səh. 4

***

Braziliyada "Xocalıya Ədalət!" kampaniyasının təqdimatı olmuşdur

Avqustun 15-də Braziliyanın ən iri şəhəri olan San-Pauluda Qlobal Gənc Yaşıllar ("Global Young Greens") Hərəkatının beynəlxalq tədbiri çərçivəsində "Xocalıya Ədalət!" kampaniyasına dəstək Deklarasiyasına imza toplama aksiyası başlamışdır. Bir həftəlik təqdimat zamanı "Xocalıya Ədalət!" tələbi ilə Deklarasiyanı yüzlərlə adam imzalamışdır.

İslam Konfransı Təşkilatı Əməkdaşlıq və Dialoq uğrunda Gənclər Forumunun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üzrə Baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunan aksiya "YAŞIL PLANET" adlı layihə çərçivəsində keçirilir.

Təhsil ocaqlarında və qeyri–hökumət təşkilatlarının yığıncaqlarında baş tutmuş tədbirlərdə kampaniya haqqında video-klipin təqdimatı olmuş və Xocalı qırğını haqqında materiallar paylanmışdır. Daha sonra aksiyanın təşkilatçısı olan "Global Young Greens" Hərəkatı tədbir iştirakçılarından müsahibə götürmüş və iştirakçılar baş verən hadisəyə və kampaniyaya münasibət bildirmişlər.

You Tube saytında yerləşdirilməsi nəzərdə tutulan klipdə müxtəlif millətləri təmsil edən gənc YAŞILLAR kampaniya zamanı Qarabağ münaqişəsi haqqında aldıqları məlumatdan irəli gələn təəssüratlarını belə ifadə etmişlər: "Mən Xocalı faciəsi ilə tanış oldum, belə zorakılığa etiraz edirəm və ədalət tələb edirəm", "Yaşıllar bizə "Xocalıya Ədalət!" kampaniyasını təqdim etdi, mən də başsağlığı verirəm və onlara qoşulub ədalət tələb edirəm", "Mən Xocalı faciəsi barədə daha əvvəl eşitmişdim və baş verənlərə təəssüf edirəm. Bu vəhşiliyi törədənlər cavab verməlidirlər".

Tədbir iştirakçıları Ermənistanda kampaniyanın rəsmi saytına girişə qadağan qoyulmasına da etirazlarını bildirmişlər və kampaniya tərəfindən BMT, Avropa Şurası, ATƏT və Ermənistan hökumətinə ünvanlanan müraciət formasına imza ataraq rəsmi Yerevanın bu addımına beynəlxalq təşkilatların diqqətini cəlb etmişlər.

Aksiyanın sonunda "Xocalıya Ədalət!" kampaniyasını dəstəkləyənlərin hamısı təşkilatçılar tərəfindən təqdim olunan müvafiq dəstək formasına imza atmışdır.

AzərTAc
18 avqust 2009-cu il

* * *

Azərbaycan məktəblərində "Xocalıya Ədalət!" kampaniyasına start verilmişdir

Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏUİKGF) media departamentindən bildirmişlər ki, təşkilat yeni dərs ilinin birinci həftəsindən başlayaraq Azərbaycanda fəaliyyət göstərən bütün orta məktəblərdə "Xocalıya Ədalət!" beynəlxalq məlumat və təşviqat kampaniyası, həmçinin "Azərbaycan tarixi" fənni çərçivəsində şagirdlər üçün Xocalı qətliamı haqqında məlumatlandırıcı proqram həyata keçirməyə başlamışdır.

Tədbirin məqsədi şagirdlərdə Xocalı faciəsi haqqında bilikləri artırmaq, eləcə də Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması vasitələri barədə uşaqlarda ilkin bacarıqların formalaşdırmaqdır.

Yeni tədris ilinin ilk iki həftəsində orta məktəblərin aşağı sinif şagirdləri üçün "Azərbaycan tarixi" fənni zamanı, yuxarı sinif şagirdlərinə isə "Azərbaycan tarixi" və "İnformatika" dərslərində Xocalı qətliamı və "Xocalıya Ədalət!" beynəlxalq məlumat kampaniyası haqqında məlumat verilməsi nəzərdə tutulur. Eyni zamanda, şagirdlərə İnternet səhifəsində yerləşdirilmiş və Xocalı qətliamını pisləyən, beynəlxalq ictimaiyyəti bu faciəyə mənəvi-siyasi qiymət verməyə çağıran kampaniyanın Bəyannaməsini imzalamaqla bağlı məlumat veriləcəkdir.

Kampaniyaya ilk qoşulan məktəb Bakının Səbail rayonunun 6 nömrəli orta məktəbi olmuşdur. Məktəbin yuxarı sinif şagirdləri artıq Bəyannaməni imzalamış və xaricdə yaşayan həmyaşıdlarına bu kampaniyaya qoşulmaq barədə elektron məktublarla müraciət etmişlər.

Forumun Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasına bu il fevralın 25-26-da dünyanın 25 ölkəsində uğurla start verilmişdir. Kampaniya çərçivəsində DƏUİKGF-nin təşəbbüsü ilə İslam Konfransı Təşkilatı (İKT) sammiti və İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin konfransı tərəfindən qəbul olunmuş qətnamələrdə Xocalı faciəsi beynəlxalq təşkilatlar tərəfindən ilk dəfə olaraq insanlığa qarşı cinayət olan "kütləvi qırğın" kimi qiymətləndirilmişdir. Kampaniyanın beynəlxalq səviyyədə təbliğatı www.justiceforkhojaly.org internet səhifəsi vasitəsilə davam edir.

AzərTAc
21 sentyabr 2009-cu il

* * *

"Xocalıya Ədalət!" kampaniyasının əlaqələndiricilərinə sertifikatlar təqdim olunmuşdur

Bakıda Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə birgə təşkil etdiyi "Rəqəmsal texnologiyalar dövrü və yeni nəsil: İnformasiya kommunikasiya texnologiyaları sahəsində gənclərin biliklərinin artırılması" mövzusunda beynəlxalq konfrans çərçivəsində noyabrın 3-də "Xocalıya Ədalət!" kampaniyasının əlaqələndiriciləri ilə görüş olmuşdur.

Görüşdə DƏ-İKGF mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi, Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin rəhbəri Leyla Əliyeva iştirak etmişdir.

DƏ-İKGF baş katibi Elşad İsgəndərov beynəlxalq kampaniyaların həyata keçirilməsində informasiya və kommunikasiya texnologiyalarının rolunu yüksək qiymətləndirmiş, DƏ-İKGF mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə irəli sürülən "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində görülən işlərdən danışmışdır.

DƏ-İKGF mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi, Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin rəhbəri Leyla Əliyeva bildirmişdir ki, kampaniyanın başlanmasından az müddət keçməsinə baxmayaraq çox iş görülmüşdür. Bu bir daha təsdiq edir ki, biz birlikdə olanda daha çox işlər görə bilərik.

Leyla Əliyevanın başçılığı altında təşkil edilmiş kampaniya üzrə dünyanın 20-dən çox ölkəsindən gəlmiş milli əlaqələndiricilərin iştirakı ilə keçirilən iclasda kampaniyanın 2010-2011-ci illərdə daha səmərəli təşkili üçün konkret təkliflər ətrafında müzakirələr aparılmışdır. Milli əlaqələndiricilər Niderlandı təmsil edən tanınmış jurnalist və sənədli filmlər üzrə rejissor Qert van Dam, Litva Gənclər Şurasından İeva Lukoseviç, Latın Amerikası Gənclər Forumunu təmsil edən Culiana Fuentez Diaz, Şri-Lankadan olan Qlobal Yaşıllar Hərəkatının nümayəndəsi Sanka Abayavardena müzakirələrdə fəal iştirak etmişlər.

Sonda milli əlaqələndiricilərə sertifikatlar təqdim olunmuş, xatirə şəkli çəkdirilmişdir.

*"**Xalq qəzeti**".*
4 noyabr 2009-cu il. N 246. Səh. 2

* * *

İsveçrədə "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində aksiya keçirilmişdir

İslam Konfransı Təşkilatı Gənclər Forumunun media departamentindən bildirmişlər ki, noyabrın 19-20-də İsveçrənin Bazel və Sürix şəhərlərində "Xocalıya Ədalət!" kampaniyasına dəstək aksiyaları keçirilmişdir. Aksiyalar "İsveçrədə Azərbaycan mədəniyyəti günləri"nə həsr olunmuş konsertlər çərçivəsində təşkil edilmişdir.

Konsertlər ərəfəsində "Xocalıya Ədalət!" beynəlxalq məlumat və təşviqat kampaniyasının aksiyaları zamanı yerli könüllülər tərəfindən posterlər şəhərin mərkəzi küçələrində divarlara yapışdırılmış və kampaniya haqqında məlumat bukletləri küçələrdə paylanmışdır. Aksiyaya dəstək məqsədi ilə konsert zamanı "Xocalıya Ədalət!" kampaniyasının təbliğat xarakterli çap materialları (kampaniyanın loqosunu və veb-saytını əks etdirən döş nişanı, qolbaq və məlumatlandırıcı bukletlər) tamaşaçılara təqdim edilmişdir. Aksiyaya dəstək göstərən İsveçrənin tanınmış müğənnisi Greis ingilis və fransız dillərində "Xocalıya Ədalət!" yazısı əks olunan mayka ilə səhnəyə çıxmışdır. H.O.S.T qrupu öz çıxışını "Xocalıya Ədalət!" devizi ilə başlamışdır.

Konsert aksiya iştirakçıları tərəfindən böyük maraqla qarşılanmışdır.

"Xocalıya Ədalət!" kampaniyasına dəstək aksiyası 10 dekabr - Beynəlxalq İnsan Haqları Günü ilə əlaqədar BMT-nin Cenevrədəki mənzil-qərargahında keçiriləcək beynəlxalq konfransla davam edəcəkdir.

AzərTAc
21 noyabr 2009-cu il

***

Kolumbiyanın Kartahena şəhərində "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının növbəti aksiyaları keçirilmişdir

Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun Media Departamentindən bildirmişlər ki, dekabrın 6-7-də Kolumbiyanın Kartahena şəhərində "Xocalıya Ədalət!" kampaniyasına dəstək aksiyaları keçirilmişdir. Aksiyalar gənclərin "Dünya insanlıq irsinə" həsr olunmuş milli festivalı çərçivəsində təşkil edilmişdir.

Aksiyalar ərəfəsində "Xocalıya Ədalət!" beynəlxalq məlumat və təşviqat kampaniyasının Kolumbiya üzrə milli əlaqələndiricisi Xulian Riqo Mendezin təşkilatçılığı ilə yerli könüllülər tərəfindən şəhərin mərkəzi küçələrində divarlara posterlər yapışdırılmış və küçələrdə kampaniya haqqında məlumat bukletləri paylanmışdır.

İki min beş yüzdən çox gəncin iştirak etdiyi festivalda "Ədalətsizliyə qarşı min şəxs" devizi altında insanlıq əleyhinə törədilən Xocalı qətliamını və faciənin qurbanlarına qarşı törədilmiş qeyri-insani davranışları pisləyən bəyannaməyə imzatoplama kampaniyası həyata keçirilmişdir.

Aksiyanın sonuncu günü Kartahena Universitetində tələbələrlə görüşlər keçirilmiş, qarşıdan gələn 10 dekabr - Beynəlxalq İnsan Hüquqları Günü ilə bağlı Xocalı qətliamı haqqında "dəyirmi masa"lar və diskussiyalar təşkil edilmiş və gələcəkdə belə faciələrin təkrarlanmaması üçün oxşar sülhməramlı aksiyaların davam etdirilməsi planlaşdırılmışdır.

"Xocalıya Ədalət!" kampaniyasına dəstək tədbirləri İsveçrənin Cenevrə, Almaniyanın Berlin, Hollandiyanın Haaqa şəhərlərində Beynəlxalq İnsan Hüquqları Günü ilə əlaqədar keçiriləcək konfranslarla davam edəcəkdir.

Xatırladaq ki, "Xocalıya Ədalət!" beynəlxalq məlumat və təşviqat kampaniyası İslam Konfransı Təşkilatına üzv olan Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci il mayın 8-də elan edilmişdir. Kampaniyanın əsas məqsədi 1992-ci il fevralın 26-da Xocalı şəhərində insanlığa qarşı törədilmiş cinayətin dünya ictimaiyyətinə çatdırılması, faciəyə hüquqi-siyasi və mənəvi qiymətin verilməsinə nail olmaqdır.

AzərTAc
*"**Xalq qəzeti**". 9 dekabr 2009-cu il. N 273. Səh.5*

* * *

BMT-nin Millətlər Sarayında Xocalı faciəsi müzakirə olunub

Ermənistanın BMT-nin Cenevrə ofisindəki nümayəndəliyi tədbirin işini poza bilməyib

Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) təşəbbüsü ilə İnsan Haqları Günü - dekabrın 10-da BMT-nin Cenevrə ofisinin Millətlər Sarayında silahlı münaqişələr zamanı insan hüquqlarının kütləvi pozulması problemlərinə həsr olunmuş beynəlxalq

konfrans keçirilib. Forumdan APA-ya verilən məlumata görə, konfrans bir saat gec başlayıb. Buna səbəb Ermənistanın BMT-nin Cenevrə ofisindəki daimi nümayəndəliyinin tədbirin işini pozmaq cəhdləri olub. Onlar konfransın formatının guya BMT-nin qaydalarına zidd olduğu arqumentini səsləndiriblər. Təşkilatçıların verdiyi izahatdan sonra mötəbər qonaqların konfransda iştirakı da nəzərə alınmaqla tədbir planlaşdırıldığı kimi BMT-nin Millətlər Sarayında öz işinə başlayıb.

DƏ-İKGF baş katibi Elşad İsgəndərov məruzəsində Ruanda və Serebrenitsa (Bosniya) faciələri ilə yanaşı, Xocalı qətliamının da İslam Konfransı Təşkilatının (İKT) sənədlərində tanındığını deyib və bu məsələ ilə bağlı mədəniyyətlərarası dialoq çərçivəsində İKT və Avropa strukturlarının əməkdaşlığının vacibliyini vurğulayıb.

"Xocalıya Ədalət!" kampaniyasının Litvadan olan koordinatoru Yeva Lukosevite Qarabağ müharibəsinin qanlı səhifəsi olan bu faciə haqqında kampaniya fəallarının hazırladığı multimedia təqdimatı ilə çıxış edib. Ermənistan nümayəndələri bir neçə dəfə konfransı pozmağa cəhd ediblər. Ermənistanın BMT-dəki nümayəndəliyində çalışan diplomat V. Gevorqyan Ermənistan ordusunun bu kütləvi qətldə iştirakını inkar edib. E. İsgəndərov isə cavab olaraq Ermənistan rəsmilərinin hələ də beynəlxalq ictimaiyyəti aldatmaqda davam etdiyini söyləyib: "Ermənistanda bu cinayətdə öz liderlərinin hansı rol oynadıqlarını yaxşı bilirlər. Məhz o zaman Dağlıq Qarabağdakı erməni silahlı qüvvələrinin komandirlərindən olan, indi sizin ölkəyə başçılıq edən prezident Böyük Britaniyadan olan jurnalist Tomas De Vaala müsahibəsində etiraf etmişdi ki, Xocalıda erməni silahlılarının əsas məqsədi azərbaycanlılarda dinc əhalinin öldürülməsinin yolverilməzliyi ilə bağlı formalaşmış "stereotipi" məhv etmək olub". Forumun baş katibi çıxışında adı çəkilən kitabdan iqtibas gətirib.

Azərbaycanın BMT-nin Cenevrədə yerləşən qərargahındakı daimi nümayəndəliyinin rəhbəri Elçin Əmirbəyov isə erməni diplomatlarını BMT-də insan hüquqları ilə bağlı müzakirə olunan məsələləri siyasiləşdirməyə cəhd göstərməkdə ittiham edib: "Erməni diplomatiyasının qeyri-hökumət təşkilatlarının təşəbbüslərinə mane olmaq, bu tipli tədbirləri pozmaq praktikasına tez-tez rast gəlinir. Bu konfransda Ermənistan nümayəndəsinin çıxışı müxtəlif ölkələrdən olan iştirakçıların Xocalı qırğını qurbanlarının hüquqlarının bərpa olunmasının zəruriliyi ilə bağlı söylədikləri mülahizələrlə tam uyğunsuzluq təşkil edir. Lakin onlar "Xocalıya Ədalət!" kampaniyası təşkilatçılarının irəli sürdüyü əsaslandırılmış arqumentlərlə rastlaşdılar. Son

illər Azərbaycanın aktiv xarici siyasətinin nəticələrindən olan bu kampaniya öncədən perspektivsiz mövqe seçən rəsmi İrəvanı narahat etməkdədir".

Konfransın sonunda qəbul edilmiş xüsusi məruzə BMT-nin Nyu-York və Cenevrədəki ofislərinə, o cümlədən digər beynəlxalq təşkilatlara göndəriləcək.

"Kaspi"
12-14 dekabr 2009-cu il. N.222.Səh. 1.

***

Berlində Xocalı qətliamı mövzusunda keçirilən konfrans başa çatıb

Berlində Beynəlxalq İnsan Hüquqları gününə həsr olunmuş "Unudulmuş qurbanlar - Qafqazda yəhudilər və azərbaycanlılar" mövzusunda keçirilən 3 günlük konfrans başa çatıb. Bu barədə APA-ya Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun Media Departamentindən bildirilib. Tədbirin əsas təşkilatçısı, "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının Almaniya üzrə koordinatoru, Almaniya Azərbaycanlıları Koordinasiya Mərkəzinin icraçı direktoru Samira Patzer-İsmayılovanın verdiyi məlumata əsasən, konfrans Xocalı qətliamına və azərbaycanlılara qarşı 1918-ci ildə Qubada erməni daşnakları tərəfindən törədilmiş soyqırımına həsr edilib. Tədbir 100-dən artıq qonağın iştirakı ilə Alman-Azərbaycan Münasibətlərinin İnkişafı Mərkəzində keçirilib. Tədbir zamanı Avropa Parlamentinin üzvü Eduard Lintner Azərbaycana qarşı yeridilən işğalçı siyasəti tənqid edib, Avropanın Dağlıq Qarabağ məsələsinin həllində daha fəal iştirakının labüd olduğunu bildirib.

Azərbaycanın Almaniyadakı səfiri Pərviz Şahbazov Azərbaycanda ermənilər tərəfindən tarixən (Quba, Şamaxı və s.) və yaxın keçmişdə (Xocalı və s.) törədilən cinayətlər haqqında məlumat verib.

Konfransda Potsdam Universitetinin professoru Dr. Vilfrid Furman, Avropa Azərbaycan Cəmiyyətinin direktoru Şahin Namati-Nasab da çıxış ediblər. Avroqafqaz Cəmiyyətinin sədri, Bonn və Berlin Universitetlərinin professoru xanım Dr. Eva Maria Aux "Azərbaycan yəhudiləri-unudulmuş icma" mövzusunda məruzə edərək, yəhudilərin Azərbaycanda tarixən

məskunlaşması və indiyə qədər milli azlıq kimi tam əmin-amanlıqda yaşamalarını tarixi faktlarla əsaslandırıb.

Tədbirin bədii hissəsi zamanı mərhum professor Rövşən Mustafayevin sonuncu - "Ölüm marşları" kitabının təqdimatı keçirilib. Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunun direktoru Aytən Mustafayeva həmin kitabın yeni - alman dilində olan nüsxəsini təqdim edib.

AAKM-nin icraçı direktoru Samira Patzer-İsmayılova Xocalı qətliamının dünya ictimaiyyəti tərəfindən hüquqi-siyasi cəhətdən tanınmasına çağıraraq, Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasının labüd olduğunu qeyd edib.

Tədbirdə İslam Konfransı Gənclər Forumunun baş koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət!" beynəlxalq məlumat kampaniyasının alman dilində təqdimatı Fariz Qasımlı tərəfindən edilib.

Qeyd edək ki, "Xocalıya Ədalət!" beynəlxalq məlumat və təşviqat kampaniyası İKT-yə üzv qurum olan Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə 8 may 2008-ci ildə elan edilib.

"Kaspi"
15 dekabr 2009- cu il. N.223.Səh. 4

***

Xocalı qətliamı İsveçdə yaradılmış "Beynəlxalq Müharibə Qurbanları Memorialı" layihəsinə daxil edilmişdir

İslam Konfransı Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə elan edilmiş "Xocalıya Ədalət!" kampaniyasının səyi ilə Xocalı qətliamının adı İsveçdə yaradılmış və virtual aləmdə geniş vüsət almış mükəmməl "Beynəlxalq Müharibə Qurbanları Memorialı" arxiv layihəsinə daxil edilmişdir.

Layihədə kampaniyanın rəsmi saytına istinad edilərək Dağlıq Qarabağ müharibəsi zamanı erməni silahlı qüvvələri tərəfindən Xocalı şəhərində xüsusi amansızlıqla öldürülən qurbanların siyahısı yerləşdirilmiş, faciə saytın istifadəçilərinə XX əsrin ən dəhşətli qətliamı kimi təqdim edilmişdir.

(http://war-memorial.net/Victims-ofthe-Khojali-Massacre-1.224)
(http://war-memorial.net/Victims-of- the-Khojali-Massacre-1.224)

Saytda istifadə edilmiş ədəbiyyat və resurslar içərisində "Xocalıya Ədalət!" kampaniyasının rəsmi internet saytından (www.justice forkhojaly.org http://www.justiceforkhojaly.org) istifadə edilmiş və sayt kampaniyanın rəsmi saytına yönləndirilmişdir. Xocalı qətliamının adı Əlcəzair, Srebrenitsa, Darfur, Madaqaskar, Nigeriya, Ruanda, Vyetnam və başqa yerlərdə törədilmiş soyqırımları və qətliamlarla bir sırada çəkilmişdir.

"Beynəlxalq Müharibə Qurbanları Memorialı" layihəsi II Dünya müharibəsindən sonra dünyada baş vermiş müharibələr, soyqırımları və qətliamların qurbanları olmuş insanların siyahısını ehtiva edir, şəkillər və faktlarla birlikdə hadisələrin xülasəsini əks etdirir. XX əsrin ikinci yarısından bu günədək soyqırımı və qətliamlarda həlak olmuş insanların siyahıyaalma prosesində insan hüquqları ilə məşğul olan institutlar, alimlər, beynəlxaq və qeyri-hökumət təşkilatları, bu sahə ilə məşğul olan araşdırmaçılar iştirak edirlər. Layihə çərçivəsində dünyanın müxtəlif ölkələrində məlumatlandırma üçün sərgilər, seminarlar həyata keçirilir və məqalələr çap edilir.

Faciələrlə bağlı qurbanların xatirəsini əbədiləşdirmək üçün Stokholm şəhərində özündə universitet, muzey, kitabxana, arxiv, xatirə parkları və başqa komponentləri birləşdirən "Memorial" kompleksinin tikilməsi planlaşdırılır. "Xocalıya Ədalət!" kampaniyası kompleksdə Xocalı soyqırımı bölməsinin açılması ilə bağlı təkliflərini layihənin təşkilatçılarına təqdim etmişdir.

"Xocalıya Ədalət!" kampaniyası çərçivəsində fevralın 26-da dünyanın 30-dan artıq ölkəsində sərgilərin, konfransların və dinc aksiyaların təşkili planlaşdırılır. Xocalıda törədilmiş insanlığa qarşı cinayətin dünya ictimaiyyətinə çatdırılması, bu faciəyə hüquqi-siyasi və mənəvi qiymətin verilməsi üçün səmərəli təşviqat davam etdirilir.

*"**Xalq qəzeti**"*
12 yanvar 2010-cu il. N 7.Səh. 2

***

Heydər Əliyev Fondu Xocalı soyqırımının ildönümü ilə əlaqədar tədbirlər planlaşdırır. Layihələr il ərzində davam edəcək

Heydər Əliyev Fondu Xocalı soyqırımının 18-ci ildönümü ilə əlaqədar tədbirlər planlaşdırır. Bu barədə qəzetimizə açıqlamasında millət vəkili Qənirə Paşayeva məlumat verib. O bildirib ki, fondun prezidenti, millət vəkili Mehriban Əliyevanın təşəbbüsü ilə Xocalı soyqırımının tanıdılması, dünyaya çatdırılması istiqamətində çox böyük layihələr var. Bu layihələr bu il ərzində də davam edəcək. Q. Paşayeva bildirib ki, fondun Rusiyadakı nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın uzun müddətdən bəri başlatdığı "Xocalıya Ədalət!" kampaniyası da davam edir. Dünyada bu kampaniyaya qoşulan insanların sayı günü-gündən çoxalır. Bu istiqamətdə görülən işlər bundan sonra da davam edəcək.

Q. Paşayeva bildirib ki, Heydər Əliyev Fondu ötən illər ərzində Xocalı soyqırımının dünya ictimaiyyətinə, beynəlxalq aləmə çatdırılması istiqamətində həddindən artıq böyük işlər görüb. Millət vəkilinin sözlərinə görə, ümumiyyətlə, Xocalı soyqırımının, Azərbaycan həqiqətlərinin tanıdılması istiqamətində sözügedən fondun rəhbəri, millət vəkili Mehriban Əliyevanın təşəbbüsü ilə çox böyük işlər həyata keçirilib: "İndiyə qədər Avropanın onlarla ölkəsində Xocalı soyqırımının ildönümlərində tədbirlərin, sərgilərin keçirilməsi, filmlərin nümayiş olunması və sair bu qəbildəndir. Fond tərəfindən Xocalı soyqırımına dair müxtəlif dillərdə filmlər hazırlanıb. Həmçinin, Xocalı soyqırımı ilə bağlı foto-sərgilərin təqdimatı dünyanın onlarla ölkəsində düzənlənib. Bununla yanaşı, "Xocalı uşaqların gözü ilə" rəsm sərgisi və sair böyük tədbirlər təşkil olunub. Bunlar hamısı Fondun və ələlxüsus Mehriban xanımın Xocalı soyqırımının tanıdılması istiqamətində çox böyük xidmətləridir: "Bizim hər birimiz harada yaşamağından asılı olmayaraq, bu kampaniyalara dəstək verməliyik. Hərənin gücü nəyə çatırsa, Azərbaycan həqiqətlərinin, Azərbaycan xalqının başına gətirilən bütün müsibətlərin təbliğ edilməsi, erməni yalanlarının qarşısının alınması istiqamətində öz fəaliyyətini ortaya qoymalıdır. Burada hər kəsin üzərinə düşən bir məsuliyyət payı var. Hamı o məsuliyyəti başa düşməlidir. Heç kəs gözləməməlidir ki, bunu kimsə başqaları etməlidir".

Onu da qeyd edək ki, Xocalı soyqırımının növbəti ildönümü yaxınlaşan ərəfədə hər zaman bu məsələ - sözügedən faciənin soyqırımı aktı kimi Türkiyə Böyük Millət Məclisində (TBMM) tanınması məsələsi gündəmə

gəlir. Görəsən, nəhayət, TBMM Xocalı qətliamını soyqırımı kimi tanıya bilərmi?

Q.Paşayevanın qeyd etdiyinə görə, Xocalı soyqırımının ildönümlərində bir neçə dəfə Türkiyədə, TBMM-də olub. Burada bir neçə millət vəkili Xocalı soyqırımı ilə bağlı çıxışlar edir, bu qətliamın baiskarlarının, günahkarlarının pislənməsi, məsuliyyətə cəlb olunması tələbləri irəli sürülür. Bununla belə, hər bir Azərbaycan vətəndaşının, hamımızın arzusu odur ki, TBMM-də Xocalı soyqırımı ilə bağlı geniş dinləmələr təşkil olunsun və bu dinləmələrin yekun olaraq Xocalı qətliamının soyqırımı aktı kimi tanınması ilə bağlı sənəd qəbul edilsin: "Bilirsiniz, bir atalar məsəlində deyildiyi kimi, uman yerdən küsərlər. Türkiyə bizim ən yaxın dostumuz, qardaş dövlətimizdir. Biz iki dövlət, bir millətik. Eyni zamanda, onu da qeyd edim ki, Türkiyə xalqı və dövləti daim Qarabağ məsələsində Azərbaycanın yanındadır. Bununla belə, hamının könlündə olan istək budur ki, Türkiyə parlamenti də Xocalı faciəsini soyqırımı aktı kimi tanısın".

Millət vəkili əlavə edib ki, Xocalı faciəsinin soyqırımı aktı kimi TBMM tərəfindən indiyənədək tanınmamasının müəyyən səbəbləri var: "Türkiyəli dostlarımızla, siyasətçilərlə bu yöndə söhbətlər apararkən onlar bildirirlər ki, bu məsələ onların da ürəyindən keçir. Onlar vurğulayırlar ki, biz də istəyirik elə günü sabah Xocalı faciəsini müzakirə edək və onu soyqırımı kimi tanıyaq. Ancaq onlar Türkiyənin dünyanın müəyyən reallıqları ilə üz-üzə qaldığını qeyd edərək, TBMM-in Xocalı faciəsini rəsmən soyqırımı aktı kimi tanımasına çətinlik çəkdiyini dilə gətirirlər. Hesab edirəm ki, burada Türkiyə dövlətini də, parlamentini də, türkiyəli dostlarımızı da başa düşmək olar. Ancaq biz istərdik ki, Türkiyə Xocalı faciəsini soyqırımı kimi tanıyan ilk dövlət olsun".

Millət vəkili onu da bildirib ki, bu məsələdə təkcə Türkiyə ilə kifayətlənmək olmaz. Azərbaycan Xocalı soyqırımının tanınmasını təkcə Türkiyədən ummamalıdır. Bunun üçün dünyanın ən müxtəlif ölkələrində iş aparmalıdır. Bu işdə diplomatik korpuslarımızla, səfirliklərimizlə yanaşı, həmin ölkələrdəki diaspor təşkilatlarımızın, əlaqələndirici rolunu oynayan dövlət qurumlarının üzərinə çox böyük işlər düşür. Millət vəkili bildirib ki, hazırda xaricdəki Azərbaycan diaspor təşkilatlarının vəziyyəti heç də arzuolunan səviyyədə deyil: "Onların özlərində də bir sıra problemlər var. Yəni diaspor təşkilatlarımızın özündə də milli məsələlərə sahiblənmək prosesi hələ yeni-yeni başlamaqdadır. Əgər xaricdəki diaspor təşkilatlarımız milli məsələlərə tezliklə sahiblənsə, eyni zamanda, fəaliyyətimizi

genişləndirməyə, işlərimizi sürətləndirməyə nail ola bilsək, onda təbii ki, Xocalı qətliamının soyqırımı aktı kimi tanınmasına nail ola bilərik. Onu da qeyd edim ki, bu işləri həyata keçirmək üçün xeyli vaxt tələb olunur. Bunlara bir-iki ilin içində nail olmaq qeyri-mümkündür. Ermənilər də öz uydurma soyqırımlarını tanıtmaq üçün uzun illərdən bəri fəaliyyət göstəriblər və bu fitnəkar əməllərini bu gün də davam etdirməkdədirlər. Yəni Xocalı qətliamının soyqırımı kimi tanınması bir-iki günün məsələsi deyil. Bunun üçün hələ çox çalışmalıyıq, əlimizdən gələnləri və gəlməyənləri əsirgəməməliyik".

İlham QULİYEV
"Kaspi"
19 yanvar 2010-cu il. N.10.Səh 4.

***

"Xocalıya Ədalət!"
Amerikanın populyar rep ustası belə adda mahnı yazıb

"Xocalıya Ədalət!" beynəlxalq məlumat və təbliğat kampaniyası çərçivəsində "Xocalıya Ədalət!" adlı rep üslubunda mahnı yazılıb. APA-nın məlumatına görə, bununla bağlı mahnının müəllifləri mətbuat konfransı keçiriblər. Kampaniyanın koordinatoru Elşad İsgəndərov bildirib ki, rep üslublu mahnının müəllifi, rep ifaçısı Toni Bləkməndir, aranjiman isə Qordon Vilyamsa məxsusdur. Mahnı T. Bləkmən və Azərbaycanın "Dəyirman" rep qrupu tərəfindən ifa edilir.

Qeyd olunub ki, mahnı Xocalı soyqırımı haqqında həqiqətləri özündə əks etdirməklə dünya ictimaiyyətini bu faciəyə qiymət və Azərbaycanın haqq səsinə dəstək verməyə çağırır. Mahnıda müasir rep ritmləri ilə yanaşı muğam və balaban musiqisindən də istifadə edilib. E. İsgəndərov bildirib ki, hazırda mahnının klipi çəkilir. Klipin çəkilişləri studiya şəraitində, həmçinin Şəhidlər Xiyabanı və məcburi köçkün şəhərciklərində aparılacaq. Mahnı və klipin təqdimatı fevral ayının sonuna planlaşdırılıb. E. İsgəndərov klipin dünyanın bir sıra ölkələrində yayılacağını da qeyd edib.

Toni Bləkmən mətbuat konfransında bildirib ki, o Xocalı barədə əvvəllər də eşidib, amma detallı məlumatları olmayıb: "Bu barədə mən ötən ilin noyabrında Bakıya səfər edəndə daha dərindən maraqlandım. Musiqi ilə

hansısa mesajları çatdırmaq daha asandır və mən bu faciəni dünyaya çatdırmaq işini məmnuniyyətlə edirəm. Mən yaxşı bir iş gördüyümə əminəm".

T. Bləkmən Xocalı faciəsi ilə yaxından tanış olanda şok keçirdiyini də qeyd edib: "Afrikada belə hadisələrin olduğunu bilirdim, amma bu regionda birinci dəfə idi belə hadisə ilə qarşılaşırdım".

Qordon Vilyam isə bildirib ki, Xocalı faciəsinin mahiyyətini dünyaya çatdırmaq vacib məsələdir.

Mətbuat konfransının sonunda tədbir iştirakçıları "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində ABŞ prezidenti və Konqresinə ünvanlanmış, Xocalı faciəsinin insanlığa qarşı cinayət kimi tanınmasını tələb edən müraciətə imza atıblar.

Qeyd edək ki, "Xocalıya Ədalət!" kampaniyası 2008-ci ilin mayında İslam Konfransı Təşkilatı Gənclər Forumunun Mədəniyyətlərarası dialoq üzrə baş koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə elan edilib. Kampaniya ötən ilin fevral ayında dünyanın 20-dən artıq ölkəsinin paytaxtında təqdim edilib və il ərzində davam edib.

"Şərq"
19 yanvar 2010-cu il. N.10. Səh. 7

***

"Xocalı soyqırımının" beynəlxalq miqyasda genosid aktı kimi tanınması prosesi başlandı

İlk tarixi sənəd Uqandadan gəldi

Leyla Əliyeva: *"Siyasi baxımdan lobbiçilik imkanlarımızı artırmalıyıq və bundan maksimum səmərəli istifadə etməyə çalışmalıyıq. Bu yöndə neft amilindən yaxşı mənada istifadə etməliyik"*

Məhərrəm Zülfüqarlı: *"Xarici ölkələrin qurumları ilə, ölkəmizdəki səfirliklərlə və beynəlxalq qurumlarla sistemli şəkildə iş aparılmasına ehtiyac var"*

Bu günlərdə İslam Konfransı Təşkilatı Uqandada keçirilən toplantıda Xocalı faciəsilə bağlı xüsusi sənəd qəbul edib. Həmin sənəddə ermənilərin bəşəriyyətə qarşı cinayət törətdiyi xüsusi olaraq qeyd

olunub ki, bu da olduqca böyük əhəmiyyətə malikdir. Ən azı, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətdə tanınması baxımından.

Ümumilikdə İKT zaman-zaman Azərbaycana dəstək verən beynəlxalq təşkilatdır. Azərbaycan torpaqları erməni işğalına məruz qalandan sonra bu qurum Ermənistanı işğalçı dövlət kimi tanıyıb. Azərbaycanın ərazi bütövlüyü məsələsilə bağlı hər il BMT-nin Baş Assambleyasında keçirilən səsvermədə də İKT üzvləri yekdilliklə ölkəmizin lehinə səs veriblər. Xocalı soyqırımı ilə bağlı qəbul olunan sənədi də bu obyektiv xəttin davamı kimi qəbul etmək olar. Ümumilikdə beynəlxalq aləmdə bu yöndə daha tutarlı nəticələrə nail olmaq üçün hansı işlər görülməlidir?

Tarix elmləri namizədi Məhərrəm Zülfüqarlı bu istiqamətdə ardıcıl uğurlara nail olmaq üçün aidiyyəti qurumların davamlı iş aparmasına ehtiyac olduğunu bildirdi: "Xüsusən də Xarici İşlər Nazirliyinin üzərinə böyük iş düşür. Xarici ölkələrin qurumları ilə, ölkəmizdəki səfirliklərlə və beynəlxalq qurumlarla sistemli şəkildə iş aparılmasına ehtiyac var. Bütün bunlardan sonra ortalığa real nəticə qoymaq mümkün olacaq. Bu işdə, bütün hallarda, əsas məsuliyyət Azərbaycanın üzərinə düşür. Hansısa dövlət gəlib Azərbaycanın yerində iş görən deyil. Müsəlman dövlətlər və digər ölkələr Xocalı faciəsi barədə ətraflı məlumata malik olsalar və yaxud da biz yetərincə həmin dövlətləri məlumatlandıra bilsək, ən azından, bizə mənəvi dəstək vermiş olacaqlar. Onu da qeyd edim ki, bu səpkili sənədlər beynəlxalq rəyə təsir etmək gücünə malik olduğundan, yeri gəldikcə Azərbaycanın haqq işinin dünyaya çatdırılmasında, Qarabağ məsələsinin həll olunmasında yardımçı olacaq. O cümlədən, onu da unutmamalıyıq ki, İslam Konfransı Təşkilatı Azərbaycanın ərazi bütövlüyünü tanıyan, Ermənistanı işğalçı dövlət elan edən bir qurumdur. Yadda saxlamaq lazımdır ki, Avropa Şurası, Avropa İttifaqı kimi, İKT də beynəlxalq təşkilatdır. Bu səpkili təşkilatların verdiyi bəyanatların beynəlxalq rəyə ciddi təsiri olur. Amma praktiki işə gəldikdə, bu cür bəyanatlardan sonra Azərbaycan özü fəaliyyətini genişləndirməli və öz haqq işini müdafiə etməlidir. Həmçinin, öz torpaqlarını azad etmək uğrunda mübarizəyə qalxmalıdır. Bir daha qeyd edim ki, bu bəyanatlar bizə dəstək üçündür. Lakin heç bir dövlət verdiyi bəyanatdan sonra əvəzimizə problemlərimizi həll etmək üçün addım atmır və atmayacaq da. Ona görə də biz daha fəal və sistemli iş aparmalıyıq".

Politoloq Leyla Əliyeva sözügedən sənədi müsbət dəyərləndirsə də, ümumilikdə bununla kifayətlənməyin doğru olmadığını bildirdi: "Biz davamlı olaraq dünyanın bütün aparıcı dövlətlərilə bu istiqamətdə iş

aparmalıyıq. İlk növbədə Avropa Birliyinə inteqrasiyamızı gücləndirməliyik. Unutmamalıyıq ki, bugünkü dünyada əsas aparıcı güc və təsir mərkəzi məhz Qərbdədir. Ona görə də kompleks iş görməyə ehtiyac var. İKT müsəlman dünyasında nüfuzlu bir təşkilatdır. Ancaq həmin təşkilatın imkanları da müəyyən çərçivə daxilindədir və həlledici əhəmiyyətə malik deyil. Bu amili də nəzərə almalıyıq. Müqayisə üçün qeyd edim ki, bir vaxtlar Rusiya dünyanın aparıcı güc mərkəzlərindən biri olsa da, indi bu belə deyil. Ona görə də Qarabağ həqiqətlərinin əsasən Qərb ölkələrində tanınması bizim üçün daha vacibdir. Bu yöndə davamlı uğurlara nail olmaq üçün birinci növbədə demokratik ölkə qurmaq lazımdır. Həmçinin, çox güclü institutlar və digər təsisatların yaradılmasına ehtiyac var. Xüsusən də Xarici İşlər Nazirliyinin rəhbərliyi altında səfirliklər və konsulluqlar daha aktiv şəkildə öz işini qurmalıdır. Siyasi baxımdan lobbiçilik imkanlarımızı artırmalı və bundan maksimum səmərəli istifadə etməyə çalışmalıyıq. Bu yöndə neft amilindən yaxşı mənada istifadə etməliyik. Hesab edirəm ki, qeyd etdiyim faktorlar reallaşdırılsa, ortalıqda nəticə də olacaq".

Xatırladaq ki, İslam Konfransı Təşkilatının Parlament Birliyi "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasına dəstək çərçivəsində xüsusi qətnamə qəbul edib.

İKT Gənclər Forumunun İstanbulda yerləşən baş qərargahından APA - ya verilən məlumata əsasən, Uqandanın paytaxtı Kampala şəhərində keçirilən 6-cı sessiyaya 51 dövlətin parlament rəhbərləri və nümayəndə heyətləri qatılıb. Konfransda qurumun Gənclər Forumunun (İKGF) təşəbbüsü ilə "İKGF ilə İKT PB arasında əməkdaşlıq" haqqında qətnamə qəbul olunub. İKGF-nin mədəniyyətlərarası dialoq üzrə baş koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində irəli sürülən qətnamədə Xocalı faciəsinə "Erməni silahlı qüvvələri tərəfindən dinc əhalinin kütləvi qətliamı" və "insanlığa qarşı cinayət" kimi qiymət verilib. Qətnamədə "Xocalıya Ədalət!" kampaniyasına tam dəstək ifadə olunub, quruma üzv olan 51 dövlətin parlamenti bu faciəni insanlığa qarşı cinayət kimi tanımağa və kampaniyaya həm milli, həm də beynəlxalq səviyyələrdə dəstək verməyə çağırılıb.

Qətnaməni şərh edən İKGF baş katibi, səfir Elşad İsgəndərov bildirib ki, bu, beynəlxalq təşkilatlar tərəfindən Xocalı faciəsini insanlığa qarşı cinayət kimi tanıyan ilk sənəddir: **"Nəzərə alsaq ki, İKT PB öz sıralarında dünya parlamentlərinin dörddə birini cəmləşdirir və dünyanın ən böyük parlamentlərarası beynəlxalq qurumlarındandır, sözügedən termin**

Xocalı faciəsinin erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı aparılan soyqırım siyasətinin tərkib hissəsi kimi beynəlxalq səviyyədə tanınması və bu cinayəti törədənlərin hüquqi məsuliyyətə cəlb edilməsi üçün keyfiyyətcə yeni mərhələ açacaq".

Vidadi Ordahallı
"Bakı Xəbər"
2 fevral 2010-cu il. №282. Səh. 7

***

Əlli bir ölkənin parlamentinin nümayəndələri Xocalı faciəsini insanlığa qarşı cinayət kimi qiymətləndirmişlər

Bununla əlaqədar İslam Konfransı Təşkilatı "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasına dəstək çərçivəsində xüsusi qətnamə qəbul etmişdir

Yanvarın 31-də İslam Konfransı Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının (İKT Pİ) Uqandanın paytaxtı Kampala şəhərində keçirilən VI sessiyasında Azərbaycan üçün çox mühüm hadisə baş vermişdir. Əlli bir ölkənin parlament heyətləri başçılarının iştirak etdiyi tədbirdə İslam Konfransı Gənclər Forumunun (İKGF) təşəbbüsü ilə "İKGF ilə İKT Pİ arasında əməkdaşlıq" haqqında qətnamə qəbul edilmişdir. Bu barədə məlumatı İKGF-nin baş qərargahı yaymışdır.

Məlumatda deyilir ki, İKGF-nin mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində irəli sürülən qətnamədə Xocalı faciəsinə "Erməni silahlı qüvvələri tərəfindən dinc əhalinin kütləvi qətliamı" və "İnsanlığa qarşı cinayət" kimi qiymət verilmişdir. Qətnamədə "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasına həm milli, həm də beynəlxalq səviyyədə tam dəstək verməyə çağıran bənd də öz əksini tapmışdır.

Sənədi şərh edən İslam Konfransı Gənclər Forumunun baş katibi Elşad İsgəndərov bildirmişdir ki, qətnamə beynəlxalq təşkilatlar tərəfindən Xocalı faciəsini "İnsanlığa qarşı cinayət" kimi tanıyan ilk sənəddir. Nəzərə alsaq ki, İKT Parlament İttifaqı öz sıralarında dünya parlamentlərinin demək olar ki, dörddə birini cəmləşdirir və dünyanın ən böyük parlamentlərarası beynəlxalq qurumlarındandır, həmin qətnamədə Xocalı qətliamının beynəlxalq hüququn normalarına əsasən insanlığa qarşı cinayət adlandırılması Xocalı soyqırımının dünya səviyyəsində tanınmasına, eyni zamanda, bu cinayəti törədənləri məsuliyyətə cəlb etmək üçün keyfiyyətcə yeni bir mərhələ açacaqdır.

Qətnamə Ermənistana da çatdırılacaqdır. Çünki Kampalada keçirilən sessiyada beynəlxalq təşkilatların nümayəndələri, o cümlədən Ermənistanın da üzv olduğu Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Birliyinin nümayəndələri də iştirak etmişlər. Qətnamənin digər bir bəndində Leyla xanım Əliyeva tərəfindən irəli sürülmüş "Xocalıya Ədalət!" kampaniyasına tam dəstək verilmişdir.

Uqandada keçirilən tədbirdə iştirak edən dövlətlərin nümayəndələri qətnamənin qəbul edilməsinə yekdilliklə səs vermişlər. Sənədin qəbul olunmasında İKT ölkələri parlamentlərinin 10-dan çox sədri və təqribən 100 deputat, mötəbər qurumların nümayəndələri iştirak etmişlər.

İKGF-nin baş katibi E. İsgəndərov xüsusi vurğulamışdır ki, bu, Leyla xanım Əliyevanın təşəbbüsü ilə artıq bir ildir ki, fəaliyyət göstərən "Xocalıya Ədalət!" kampaniyasının üçüncü ciddi uğurudur.

Birinci uğuru biz kampaniyaya başlayandan az sonra İKT xarici işlər nazirləri tərəfindən Xocalı faciəsini kütləvi qırğın kimi qiymətləndirmək barədə qətnamənin qəbuluna nail olduq. Keçən ilin iyul ayında isə İKT Gənclər Forumu ilə İSESKO arasında imzalanmış anlaşma nəticəsində Xocalı faciəsi haqqında məlumatın İKT ölkələrinin tarix dərsliklərinə daxil edilməsi barədə razılıq əldə olunmuşdur. Bundan əlavə, ötən ilin dekabrında BMT çərçivəsində keçirilən konfransda Xocalı soyqırımı Ruanda, Srebrenitsa, Xolokost kimi dünya tərəfindən tanınmış soyqırımları ilə yanaşı, İnsan Haqları Günündə gündəmə gətirilmiş və bununla əlaqədar BMT-də konfrans keçirilmişdir. "Xocalıya Ədalət!" kampaniyası davam etməkdədir.

Qətnamənin qəbul olunması ilə bağlı ideya İKGF-nin mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyeva tərəfindən keçən il Bakıda kampaniyanın milli əlaqələndiricilərinin görüşü zamanı irəli sürülmüş və ötən müddətdə kampaniyanın İKT ölkələrindəki fəallarının milli parlamentlərinə yönəlmiş lobbiçilik fəaliyyəti nəticəsində uğurla qəbul

edilmişdir. Bu prosesə İKGF-nin bir sıra İKT ölkələri parlamentləri və ilk növbədə Azərbaycan Respublikası Milli Məclisi və onun Katibliyi ilə əməkdaşlığı xüsusi dəstək vermişdir.

"Xocalıya Ədalət!" kampaniyasının təşəbbüskarı Leyla xanım Əliyevadır. Bu kampaniyaya 2009-cu ilin fevralında start verilmişdir və hazırda 30-dan artıq ölkədə yüzlərlə könüllünün iştirakı ilə uğurla davam etdirilməkdədir. Kampaniyanın məqsədi beynəlxalq ictimaiyyəti Xocalı faciəsi ilə bağlı məlumatlandırmaq, qətliama beynəlxalq aləmdə mənəvi-siyasi qiymət verilməsinə və bu qanlı qırğının qurbanlarının xatirəsinin anılmasına nail olmaqdır. Kampaniyanın beynəlxalq əlaqələndirilməsi www.justicefor khojaly.org internet saytı vasitəsilə aparılır.

*"**Xalq qəzeti**".*
2 fevral 2010-cu il. N 25. Səh. 1

* * *

Xocalı soyqırımı: pessimizmdən ictimai strategiyaya doğru

Ermənilər tərəfindən bəşəriyyətə qarşı ən alçaldıcı, qanlı qırğın olan Xocalı soyqırımı barədə mətbuatımızda çox yazılıb, bu haqda efir məkanında çox söhbətlər edilib, insanın tükünü ürpədən, insan tərəfindən törədilməsi qətiyyən inanılmaz olan dəhşətli qırğın səhnəsi, fotolar çox göstərilib. Hamısı da 1992-ci ilin 25 fevralından 26 fevralına keçən günün ildönümü ilə əlaqədar qan yaddaşımızın, soy təəssübkeşliyimizin ötəri canlanması, düşmənə nifrət emosiyamızın keçici aşıb-daşması nəticəsində… Bəli, həmin gecə xalqın tarixinə qara hərflərlə yazıldı. Xocalı yerlə bir edildi, məsum körpələr belə amansızca qətl edildi. Rəsmi məlumatlar da hamımıza bəllidir: erməni qatillərinin törətdikləri bu yeni kütləvi qırğın 613 nəfərin, o cümlədən 106 qadın, 63 uşaq, 70 qocanın xüsusi qəddarlıqla məhvinə səbəb oldu. Qırğın həm də 487 nəfərin yaralanması, 1275 dinc sakinin amansız işgəncələr məqsədi ilə əsir götürülməsi, 150 nəfərin itkin düşməsi, 8 ailənin tamamilə məhv edilməsi ilə nəticələndi… "Xocalı soyqırımı bu gün Xatın, Liditsa, Oradur soyqırımları ilə bir sırada durur" - tez-tez belə oxşar ifadələr işlədirik. Dururmu? Əslində fakt olaraq şübhəsiz. Bəs biz bunu hansı səviyyədə qəbul etdirə bilmişik? Bu gün Xocalı soyqırımının dünya səviyyəsində tanıdılması, hüquqi baxımdan soyqırım kimi qəbul edilməsi,

soyqırım faktından onun törədicisi olan Ermənistana qarşı beynəlxalq müstəvidə təzyiq kimi istifadə edilməsi, soyqırımda əsas təşkilatçı və cinayətkarların beynəlxalq məhkəmə tərəfindən cəzalandırılması və sair məsələlər həllini gözləyir. Amma Xocalı soyqırımı ilə bağlı Azərbaycan cəmiyyətindəki əhval-ruhiyyə daha çox "dünyanın ədalətsiz olması", "beynəlxalq təşkilatların səsimizi eşitməməsi" kimi kəlmələrlə ifadə olunan pessimizm aşılayır.

Elə isə dünyanı ədalətli, beynəlxalq təşkilatları, superdövlətləri obyektiv davranmağa, ikili standartlardan çəkindirməyə məcbur etməyin mexanizmi necədir? Bu yolda maneələr, çətinliklər nədir? Xocalı ilə bağlı giley-güzar mövqeyimizdən cəmiyyət olaraq imtina etmək, ən yeni tarixin bu ən dəhşətli soyqırım faktına informasiya savaşı kontekstində yanaşmaq üçün nə etməliyik? Unudulmamalıdır ki, ermənilər bizə qarşı Xocalı qətliamını törədərkən buna öz emosiyalarından daha çox soyuqqanlı və məqsədli bir məkrlə yanaşıblar - bizi qırmaqla bərabər bizə qarşı informasiya müharibəsi aparıblar. Meyitlərin xüsusi, soyuq qəddarlıqla eybəcər hala salınması, əzalarının kəsilməsi, skalplarının soyulması, hamilə qadınların qarınlarının yırtılması və sair faktlar əslində informasiya müharibəsinin xüsusi növü olan psixoloji müharibəyə hesablanıb. Elmi ədəbiyyatda belə müharibələrin, insanları qırılan tərəfdə qorxu, vahimə yaratmaq, mübarizə və döyüş əzmini qırmaq, həmin tərəfin əsgərlərini fərariliyə sövq etmək məqsədilə törədildiyi bildirilir. Deməli, ermənilər çoxdandır, iki cəbhədə - həm hərbi, həm də informativ cəbhədə üstünlük üçün çalışırlar. Daha çox bunun nəticəsidir ki, ABŞ, Rusiya, Fransa və BMT-nin Təhlükəsizlik Şurası bu məsələdə Azərbaycanın haqlarını, Ermənistanın təcavüzünü görməkdə tərəddüd edir, ikili standartlarla çıxış edirlər. Bu isə bizim üçün dəhşətli bir məqamdır. Ona görə də məsələnin ənənəvi müzakirəsindən, beynəlxalq təşkilatların hazırkı mövqeyinin təfərrüatlı şərhi kimi məsələləri qeyd etməkdən vaz keçib, bu yazıda bir qədər fərqli mövqe nümayiş etdirməyə çalışdıq. Məqsəd budur ki, dünyada Xocalı ilə bağlı dolğun və obyektiv informasiyaların çatdırılması, dünya ictimaiyyətinin mahiyyətdən xəbərdar olması təmin edilsin, beləliklə də an azından məsələyə qərəzli yanaşan beynəlxalq təşkilatlar, dövlətlər geniş miqyasda və kəskin şəkildə ifşa edilsin, bununla da onlara soyqırımı məsələsində təzyiq, imkan və manevrlərimiz artmış olsun. Beləliklə, Xocalı soyqırımı ilə bağlı ictimai strategiyamız necə olmalıdır? Ən çox cəmiyyətin aparmalı olduğu informasiya müharibəsi çərçivəsində bu məsələ necə

diqqətə götürülməlidir? Mövzu ilə bağlı informasiya savaşını aparmaqda avanqard sayılmalı olan institutların fəaliyyətini, onların nümayəndələrinin təkliflərini öyrəndik. Elmi-institusional aspektindən öncə qeyd edək ki, Xocalı soyqırımını elmi müstəvidə dünyaya tanıtmaq və buna dünya alimlərinin, tarixçilərinin diqqətini geniş miqyasda cəlb etmək ciddi effekt verə bilər. Belə ki, dünya elmi ictimaiyyətinin ermənilər tərəfindən çağdaş dövrdə törədilmiş soyqırımın tarixi və antibəşəri mahiyyəti barədə təfərrüatlı şəkildə məlumatlanması dünyaya, Qərb dairələrindəki ictimai rəyə ciddi təsir imkanı yarada bilər. Bəs alimlərimiz bu sahədə nə iş görürlər? Onların bu soyqırım faktını dünyada geniş miqyasda tanıtmaq üçün hansı təklifləri var? Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun direktor müavini, professor Cəbi Bəhramov belə deyir: "İnstitutda ermənilərin azərbaycanlılara qarşı soyqırım problemlərini araşdıran elmi mərkəz fəaliyyət göstərir. Burada iki şöbə var: azərbaycanlılara qarşı soyqırım tarixi şöbəsi və Qarabağ tarixi şöbəsi. Bu şöbələrdə sırf ermənilərlə münaqişə problemlərinin tarixi, onların meydana gəlməsi, ümumi nəticələri elmi baxımdan araşdırılır. Tarix İnstitutu tədqiq edib ortaya qoyduğu araşdırmaları üç dildə nəşr etdirir. Məsələn, biz 2003-cü ildə ingilis və rus dillərində "Ermənilərin Azərbaycan torpaqlarında törətdikləri cinayətlər haqqında" kitab nəşr etdik. Burada institutun aparıcı alimlərinin əsərləri nəşr olunub. Bu, yenidən çapa hazırlanır, bəzi əlavələrlə yenidən işıq üzü görəcək. Onu da deyim ki, bu mövzu ilə bağlı çoxsaylı namizədlik, doktorluq müdafiələri olub. Həmçinin Qərbi Azərbaycan tarixi, ermənilərin iddiaları, ekspansiya siyasəti ilə bağlı ciddi araşdırmalar aparılıb. Avropa mətbuatına çıxmaq və Xocalı soyqırımını elmi şəkildə avropalılara təqdim etmək üçün həm maliyyə vəsaiti, həm də böyük səylər tələb olunur". Alim qeyd edir ki, bu məsələyə bir çox hallarda avropalılar tərəfindən siyasi yönümdən yanaşıldığı üçün, Xarici İşlər Nazirliyinin, Diasporla iş üzrə Dövlət Komitəsinin xətti və digər qurumlar tərəfindən müəyyən dəstəyə ehtiyac var. Qeyd edir ki, humanitar sahədə çalışan alimlər elmi dərəcə almaq üçün attestasiya komissiyasının qərarı ilə xaricdə üç məqalə çap etməlidirlər: "Doktorluq üçün isə 6-ya qədər məqalə xaricdə çap edilməlidir. Amma qeyd edim ki, məsələn, Rusiyada və MDB məkanında bu səpkidə verilmiş məqalələri çap etmirlər, "siyasi məsələ olduğunu" əsas gətirib geri qaytarırlar. Elə Avropada da məsələyə belə münasibət bəsləyirlər. Bütövlükdə götürdükdə bizim bu məsələyə münasibətimiz də qənaətbəxş

deyil. Belə ki, beynəlxalq ictimai rəyin diqqətini cəlb etmək üçün mütəmadi olaraq iş aparmalıyıq. Amma biz cəmiyyət olaraq müəyyən bir tarixi hadisəyə daha çox ildönümünü keçirmək baxımından diqqət ayırırıq, sonra isə həmin hadisələrlə bağlı iş aparılmır". Alimin bildirdiyinə görə, bunun nəticəsində ermənilərlə ideoloji-informativ mübarizə effektli olmur. Ermənilərin isə bu baxımdan daha bir üstünlüyü ondadır ki, müəyyən iri dövlətlər öz siyasi məqsədlərini reallaşdırmaq üçün onlardan yararlanır, onların diasporunu stimullaşdırır: "Onlar üçün bu məsələdə supergüclərin qapıları açıqdır. Həmçinin bu məsələyə xristian-müsəlman qarşıdurması kontekstindən yanaşılır. Bu baxımdan Azərbaycan bütün səylərini birləşdirməlidir. Dövlət başçımız çıxışlarında vurğulayır ki, bu məsələdə ermənilərə qarşı total hücuma keçməliyik. Xocalı soyqırımını dünyaya tanıtmaq məsələsində də mütləq ümumi koordinasiya olmalıdır". Alimin fikrincə, bu məsələnin təbliğat və təşviqatını təşkil etmək üçün tarixçi alim və mütəxəssislərdən istifadə etmək lazımdır. Bu soyqırımı faktını dünyaya yaymaq üçün rus, ingilis, alman və sair dilləri bilən alimlərin mütəmadi olaraq xaricə ezam edilməsi, onların maliyyə cəhətdən təmin edilməsi gərəkdir. Xocalı soyqırımı ən yeni tarixdə baş vermiş, kifayət qədər faktları, fotoları, sənədləri ortada olan aydın soyqırımı faktıdır. Amma bu faktı, eləcə də digər həqiqətlərimizi professional bir şəkildə təqdim etmək üçün çox işlər görmək lazımdır: "Alimlərin bilavasitə məsləhəti ilə sənədli filmlər çəkmək lazımdır.

Xarici KİV-lərə yol tapıb qısa çarxları nümayiş etdirmək lazımdır. Uzun yox, 5-10 dəqiqəlik qısametrajlı filmlər ərsəyə gətirmək lazımdır ki, dünyaya nümayiş etdirilsin. Həmçinin bülleten və kitabçalar da tərtib edilməlidir. Bütün bu kimi məsələlərdə tarixçi alimlərdən istifadə edilməlidir. Məsələ burasındadır ki, Qərb ölkələrində, Avropada bir tədbir keçiriləndə ora alimimiz getmir. İstər Xocalı, istərsə də ümumiyyətlə erməni vəhşiliklərini, fitnəkarlıqlarını ifşa və mühakimə etməyə hesablanmış digər tədbirlərə tarixçi alimlərimiz də mütləq qatılmalıdır. Bunun üçün şərait yaradılmalıdır. Çox vaxt bu cür tədbirlərə jurnalist, parlamentin üzvü olan, amma ixtisasca tarixçi olmayanı və sair zümrə və ixtisas sahiblərini göndərirlər. Belə halda isə onlar problemin mahiyyətini qlobal və aktual səviyyədə izah edə bilmirlər, nəticədə ermənilərin qarşısında çaşırlar. Çünki ermənilər belə tədbirlərə həmişə çox yüksək səviyyədə hazırlaşmış, tarixi peşəkarca saxtalaşdırmaq qabiliyyətinə malik olan adamlarını göndərirlər".

Professor qeyd edir ki, tarix elmi strateji sahə olduğuna görə milli tariximizi tədqiq edən bir institut bu ideoloji mübarizədə ən güclü silahdır. Xocalı soyqırımını tanıtmaq, dünyaya qəbul etdirmək və beynəlxalq aləmdə ermənilər üzərində ideoloji qələbəni təmin etmək üçün tarixçi alim və mütəxəssislərin potensialından istifadə olunmalıdır. Onu da qeyd edək ki, soyqırımı ilə bağlı, ümumiyyətlə isə erməni fitnəkarlıqlarının qarşısının alınması və onlara qarşı daha effektiv hücum strategiyasının həyata keçirilməsi üçün daimi beyin mərkəzlərinin formalaşdırılması və bu mərkəzlərdə ciddi tədqiqatlar, informasiya savaşı müstəvisində hücum eksperimentləri keçirmək, bununla bağlı xüsusi qruplar hazırlamaq çox əlverişli olardı. Nəzərə alınmalıdır ki, torpaqlarımız hələ işğaldadır, barışıq yoxdur, soyqırımı isə artıq baş verib və heç bir zaman inkar oluna bilməz. Bu halda, əsas diqqət ermənilər ciddi informasiya məğlubiyyətinə uğratmağa verilməlidir ki, bu da daha sonra onlar üzərində qəti qələbə əldə etmək üçün zəmin yaradar. Hökumət qurumları nə iş görür? Müvafiq hökumət qurumlarının bu sahədə hansı tədbirlər həyata keçirdikləri, nələr planlaşdırdıqları ilə maraqlandıq. Diasporla İş üzrə Dövlət Komitəsindən bu barədə məlumat ala bildik. Komitənin Təbliğat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Elşad Miraləm belə bildirir: "Getdikcə Xocalı soyqırımı ilə bağlı tədbirlərin intensivləşməsinə daha çox diqqət yetirilir. Əsas məqsəd odur ki, Xocalı hadisəsinin azərbaycanlılara qarşı düşünülmüş, planlaşdırılmış və törədilmiş bir soyqırımı aktı olduğunu beynəlxalq ictimaiyyətə daha əhatəli şəkildə çatdıraq. Ona görə də ildən-ilə müxtəlif ölkələrdə çeşidli formatda tədbirlərin, konfransların, fotosərgilərin, etiraz aksiyalarının keçirilməsi daha miqyaslı xarakter alıb. Soyqırımla bağlı müxtəlif ölkələrin parlamentlərinə, QHT-lərinə, ictimaiyyət nümayəndələrinə, dövlət qurumlarına, beynəlxalq təşkilatlara diaspor təşkilatlarımız tərəfindən müraciətlər ünvanlanır. Müraciətlərdə soyqırımı ilə bağlı faktlar, sənədlər əksini tapır. O cümlədən, bu il keçiriləcək belə tədbirlər həm kütləvilik, həm də İKT-nin tətbiqi baxımından bir qədər fərqlənəcək. Bu məsələdə ənənəvi metodlardan bir qədər kənara durmaq, müasir üsullardan yararlanmaq planlaşdırılır. Qeyd edim ki, həmin tədbirlərdə Heydər Əliyev Fondunun hazırladığı əyani vəsaitlərdən, təbliğat materiallarından da geniş istifadə ediləcək. O da məlum olduğu kimi, Heydər Əliyev Fondunun Rusiya Nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın başçılığı ilə dünyanın müxtəlif ölkələrində dünya miqyasında "Xocalıya Ədalət!" kampaniyası həyata keçirilir. Kampaniyaya

diaspor təşkilatları da aktiv şəkildə qoşulurlar". Komitə sözçüsünün bildirdiyinə görə, diaspor təşkilatları soyqırımı tanıtmaqla bağlı müxtəlif təşəbbüslərlə çıxış edirlər: "Bizsə onlara bu yolda tövsiyələr və dəstək veririk. Bu sıradan qeyd edilənlərdən əlavə soyqırımı tanımaqla bağlı imzatoplama kampaniyaları keçirilir. Bu, bir neçə il öncə başlayıb və indi də davam edir". Türk və yəhudi diasporları ilə birgə iş şəraitində Xocalı soyqırımının dünya miqyasında tanıdılması üçün hansı işlər görülür? E. Miraləm deyir ki, 2007-ci ilin 9 martında Bakıda Azərbaycan və türk diaspor təşkilatlarının forumu keçirilib: "Həmin ilin noyabrında isə türk dövlət və cəmiyyətlərinin dostluq, əməkdaşlıq və qardaşlıq qurultayı keçirildi. Bu tədbirlər zamanı qəbul olunmuş sənədlərdə Xocalı soyqırımı və ümumiyyətlə türklərə qarşı ermənilər tərəfindən törədilmiş digər soyqırım aktlarının, türk xalqlarının məruz qaldıqları haqsızlıq və ədalətsizliklərin tanıdılması istiqamətində bütün türk dövlət və xalqlarının birgə fəaliyyəti öz əksini tapmışdı". Məsələ burasındadır ki, bu strategiyadan irəli gələn vəzifələrin yerinə yetirilməsi üçün sarsılmaz və məqsədli şəkildə birgə əməli iş olmalıdır. Eləcə də Azərbaycana dost münasibəti olan bütün xalqların diaspor təşkilatlarının, həmçinin yəhudi lobbisinin əməkdaşlığından faydalanmaq günün tələbidir. Əsas məqsəd bu olmalıdır ki, digər təşkilatlarla sıx əməkdaşlıq münasibətlərindən istifadə edib ermənilərə qarşı informasiya savaşında, xüsusilə Xocalı soyqırımı faktından düşmənə qarşı yararlanılmasında tam qələbə əldə olunsun.

Diaspor nümayəndələrinin məsələ ilə bağlı ciddi hazırlığına və maarifləndirilməsinə də ehtiyac var. Belə ki, onlar soyqırım, onun miqyası, mahiyyəti və baş verməsi ilə bağlı tam təfərrüatına qədər məlumatlı olmalıdırlar. Daha sonra diaspor nümayəndələri üçün yaşadıqları ölkələrdə soyqırımı tanıtma aksiyalarını aparmaları məqsədi ilə ciddi təlimlər təşkil edilməsi, onların "e-mail attack" və sair formalı İKT aksiyaları keçirməyə alışdırılması, əyani vəsaitlərlə təmin olunması, yaşadıqları ölkələrdə lobbiçilik yollarının öyrədilməsi ciddi önəm kəsb edir. Vətəndaş cəmiyyəti bu məsələdə ciddi təşkilatlanmalıdır Qeyd etmək lazımdır ki, sözügedən məsələdə cəmiyyətin mobil hala gətirilməsi üçün vətəndaş cəmiyyəti institutlarının üzərinə böyük öhdəlik düşür. Bu sıradan xüsusilə, Xocalı soyqırımı, Azərbaycan həqiqətləri sahəsi üzrə ixtisaslaşmış təşkilatlar təşəbbüslərini intensiv reallaşdırmağın daha səmərəli yollarını, metodlarını tapmalıdırlar. Bu barədə Xocalı Soyqırımını Tanıtma İctimai Birliyinin

təsisçisi Şamil Ələkbərlinin fikirlərini qeyd edək: "Xocalı soyqırımı qurbanlarının sayı əslində ən azı min nəfərlə ölçülür, amma rəsmi məlumatlarda bu rəqəm çox vaxt 613 kimi qeyd olunur. Xocalı Soyqırımını Tanıtma İctimai Birliyi 2007-ci ildə yaradılıb və əsas qayəsi soyqırımın dünyaya, beynəlxalq təşkilatlara tanıdılması və qəbul etdirilməsində Azərbaycan xalqına yardımçı olmaqdan ibarətdir. Bu sahədə qarşıda duran əsas məsələlərdən biri Xocalı soyqırımına hüquq-mühafizə orqanları tərəfindən hüquqi qiymət verilməsinə nail olmaqdır. Ümumiyyətlə isə dövlət orqanları qarşısında 5 tələbimiz var. Bu tələblərin yerinə yetirilməsi ona görə lazımdır ki, beynəlxalq arenaya çıxanda əlimizdə soyqırımla bağlı hüquqi əsasımız olsun. İndiki halda, beynəlxalq təşkilatlar bildirirlər ki, sizin dövlətiniz tərəfindən Xocalı faciəsinə soyqırım kimi hüquqi qiymət verilməyib. Deyirlər ki, Xocalıya verilən qiymət yalnız siyasi xarakterlidir. Ona görə də çox istərdik ki, bizdə Xocalı soyqırımına hüquqi qiymət verilsin. İkincisi, 26 fevral Milli Matəm Günü elan edilməli və qeyri-iş günü sayılmalıdır. Üçüncüsü, xocalıların statusu dəqiqləşdirilməlidir. Dördüncüsü, Bakıdakı Şəhidlər xiyabanında və düşmən tapdağından azad olunacaq Xocalı şəhərində soyqırımı muzeyləri yaradılmalıdır. Nəhayət, beşincisi, başda Robert Köçəryan, Serj Sərkisyan, Seyran Ohanyan olmaqla Xocalı soyqırımını törədənlər barədə Azərbaycan Respublikasının Prokurorluğunda toplanmış sənədlər Haaqa Beynəlxalq Hərbi Tribunalına və Avropa İnsan Hüquqları Məhkəməsinə göndərilməlidir. Daha bir məqamı qeyd edim. Biz beynəlxalq tədbirlərdə iştirak edəndə yetərincə dolğun və dəqiq məlumatlara ehtiyac olur, amma soyqırımla bağlı bəzi məlumatlar və sənədlər hələ də dəqiqləşdirilməyib. Ötən il Haaqada Türklərin Soyqırımlarını Araşdırma Təşkilatı ilə Xocalı Soyqırımını Tanıtma İctimai Birliyi arasında bir anlaşma protokolu imzalandı. 18 maddədən ibarət bu anlaşma protokolu Ermənistanın Qarabağ-Türk Soyqırımı adlanır. Burada müxtəlif sahələr üzrə əməkdaşlıq nəzərdə tutulub. Amma bu tədbirlərdən ən vacibi bu il Haaqa şəhərində birgə ictimai məhkəmənin keçirilməsidir. Bu cür məhkəmələrin ictimai rəyə təsiri çox effektlidir və cəmiyyətdə ciddi rezonans doğurur. Bu məhkəməyə bir çox ölkələrdən nüfuzlu, tanınmış şəxslər dəvət olunacaq. Eyni zamanda erməni tərəfini də məhkəməyə dəvət edəcəyik. Bu ictimai məhkəmənin keçirilməsi Azərbaycan və Türkiyəyə soyqırımı məsələsində və ümumiyyətlə informasiya savaşında çox böyük divident gətirəcək. Amma təbii ki, bu cür ciddi məsələlərdə dövlətin dəstəyinə arxalanırıq. Əlimizdə kifayət qədər

faktlar var ki, ermənilər beynəlxalq arenada diz üstə çökdürək. Amma bu faktlardan maksimum yararlanılmalıdır. Məsələn, mən Xocalı faciəsi qurbanlarının şəkillərini çəkən fotoçulardan biriyəm, həm də o vaxt "Səhər" qəzetində soyqırımla bağlı yazı yazan ilk jurnalistəm. Amma indiyə qədər soyqırım faktını nümayiş etdirən fotolarımın sərgisini təşkil edə bilməmişəm. Əslində bu sahədə effektli nailiyyət əldə etmək üçün maliyyə təminatı da yetərli səviyyədə olmalıdır. Dövlət strukturlarından əlavə, imkanlı şəxslərimiz və nüfuzlu şirkətlərin nümayəndələri, rəhbərləri olan soydaşlarımız bu işdə maraqlı olmalıdır. Təəssüf ki, belə soydaşlarımız və təşkilatlarımız bizə maliyyə baxımından yardım etmirlər. Bu baxımdan bizim layihələrimizi maliyyələşdirən Azərbaycan Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasıdır. Amma bütün işləri şuranın öhdəsinə qoymaq olmaz. Bununla belə, hazırda www.xocali.info saytımız açılıb və üç dildə fəaliyyət göstərir. Eyni zamanda planlaşdırırıq ki, Almaniyada soyqırımla bağlı beynəlxalq konfrans keçirək. Daha sonra soyqırımla bağlı 15 dəqiqəlik film hazırlamaq istəyirik. Filmi BMT-nin 5 işçi dilində hazırlamağı planlaşdırırıq. Amma bu, arzu olaraq qalır. Çünki dəstəyə ehtiyacımız var. Bütün çətinliklərə baxmayaraq, məqsədlərimizin reallaşmasında qərarlı, ümidli və əzmliyik". Qeyd edək ki, Azərbaycan Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına(QHT) Dövlət Dəstəyi Şurası fəaliyyətə başlayandan, iki il ərzində keçirilmiş müsabiqələr nəticəsində QHT-lər Azərbaycan həqiqətləri, Dağlıq Qarabağ münaqişəsi və sair milli problemlərlə bağlı effektli layihələr həyata keçirməyə nail oldular. Halbuki əvvəllər xarici donorların bu məsələlərə marağının olmaması üzündən belə bir tendensiya yox idi. Ona görə də məsələ ilə bağlı milli donorçuluğun formalaşması müvafiq sahə üzrə ixtisaslaşmış QHT-lər üçün yaşıl işıqdır. Həmçinin, bu cür QHT-lər şuranın müsabiqə istiqamətlərinin formalaşmasında da konkret təşəbbüslərlə çıxış edə bilərlər. Məlumat üçün xatırladaq ki, şura bu ildən müsabiqə istiqamətlərinin müəyyənləşdirilməsini QHT-lərin müzakirəsinə buraxıb. Bu isə çox müsbət məqamdır və QHT-lərin qeyd edilən sahədə təşəbbüslərini reallaşdırmaq üçün əlverişlidir. Həmçinin belə QHT-lərin təşəbbüs və təklifləri nəticəsində müsabiqə istiqamətləri içərisində Xocalı soyqırımı ilə bağlı ayrıca istiqamət və ya mövzu əksini tapa bilər. Bundan başqa, bu sahədə genişmiqyaslı və mütəmadi layihələrin həyata keçirilməsində şuranın digər maliyyə qurumları, ölkədə fəaliyyət göstərən şirkət və korporasiyalarla əməkdaşlığı ciddi rol oynaya bilər.

Eləcə də, gənclər təşkilatlarının bu sahəyə diqqətini artırmaq üçün müvafiq qurum olan Gənclər və İdman Nazirliyi əlavə stimullaşdırmalardan istifadə edə bilər. Qeyd edək ki, sözügedən sahədə "İrəli" İctimai Birliyinin böyük təcrübəsi və icra edilmiş uğurlu layihələri var ki, bunlardan gənclər təşkilatları səmərəli şəkildə bəhrələnə bilərlər. İctimai təşkilatların təşəbbüslərinin bu sahədə daha bir uğuru odur ki, İslam Konfransı Təşkilatının Parlament Birliyi "Xocalıya ədalət" beynəlxalq kampaniyasına dəstək çərçivəsində xüsusi qətnamə qəbul edib. Uqandanın paytaxtı Kampalada keçirilən 6-cı sessiyaya 51 dövlətin parlament rəhbərləri və nümayəndə heyətləri qatılıb. Konfransda qurumun Gənclər Forumunun (İKGF) təşəbbüsü ilə "İKGF ilə İKT PB arasında əməkdaşlıq" haqqında qətnamə qəbul olunub. İKGF-nin mədəniyyətlərarası dialoq üzrə baş koordinatoru, **Heydər Əliyev Fondunun Moskva Nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası** çərçivəsində irəli sürülən qətnamədə Xocalı faciəsi "Erməni silahlı qüvvələri tərəfindən dinc əhalinin kütləvi qətliamı" və "insanlığa qarşı cinayət" kimi qiymətləndirilib. Qətnamədə "Xocalıya ədalət" kampaniyasına tam dəstək ifadə olunub, quruma üzv olan 51 dövlətin parlamenti bu faciəni insanlığa qarşı cinayət kimi tanımağa və kampaniyaya həm milli, həm də beynəlxalq səviyyələrdə dəstək verməyə çağırılıb. Qətnamə beynəlxalq təşkilatlar tərəfindən Xocalı faciəsini insanlığa qarşı cinayət kimi tanıyan ilk sənəddir. Bu isə Xocalı faciəsinin erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı aparılan soyqırım siyasətinin tərkib hissəsi kimi beynəlxalq səviyyədə tanınması və cinayətkarların hüquqi məsuliyyətə cəlb edilməsi üçün keyfiyyətcə yeni mərhələ kimi qiymətləndirilir. Əlavə bir təklif olaraq qeyd edək ki, vaxtilə Xocalı faciəsinin canlı şahidləri olmuş xarici jurnalistlərin, fotoreportyorların, beynəlxalq təşkilat nümayəndələrinin bu gün tapılması, onların Xocalı soyqırımını dünyada tanıtmaqla bağlı şəbəkəsinin yaradılmasına da ciddi ehtiyac var. Bu, çox ciddi effekt verə bilər. Belə ki, həmin insanlar nüfuzlu beynəlxalq KİV-lərin, təşkilatların nümayəndələridir. Onların dünya, xüsusilə Qərb ictimaiyyətinə çıxış və təsir imkanlarını nəzərə almaq lazımdır. Eləcə də onlar hadisələrin canlı şahidləri olduqları, erməni vəhşiliklərini əyani gördükləri üçün bu məsələdə töhfə verməkdən imtina etməzlər. Yetər ki, onlarla əməli iş aparılsın, bununla bağlı ciddi plan və layihələr həyata keçirilsin. Daha aydınlıq hasil etmək üçün o vaxt hadisələri

təsvir etmiş, dünya mətbuatında geniş işıqlandırmış "Krua l'Eveneman" jurnalı (Paris), "The Sunday Times" qəzeti (London), "The Times" qəzeti (London), "İzvestiya" (Moskva), "Financial Times" qəzeti (London), "Le Mond" qəzeti (Paris), R. Patrik, İngiltərənin "Fant men nyus" teleşirkətinin jurnalisti, Livanlı kinooperator, Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzi, "Newsweek" jurnalı (ABŞ), "Reuters" agentliyinin fotoqrafı Frederix Lenqeyn, "Channel 4 News" televiziyası (Böyük Britaniya), "Boston Sunday Globe" qəzeti (ABŞ), "The Age, Melbourne" qəzeti (Avstraliya), "The Washington Post" qəzeti (ABŞ), "The Washington Times" qəzeti (ABŞ), "The İndependent" (London), "Nie" qəzeti, (Bolqarıstan), Violetta Parvanova və "BBC Morning News", Xocalı faciəsinin şahidi olan və sonra Livanın paytaxtı Beyrutda məskunlaşan erməni jurnalist Daud Kheyriyanın adlarını qeyd edirik. Eləcə də onların vasitəçiliyindən yararlanıb digər beynəlxalq diplomatların soyqırımla bağlı şəbəkəsini yaratmaq, lobbiçiliyini təmin etmək olar. İctimai təşkilatlarımız və diasporumuz bu məqama diqqət yetirməlidirlər. Cəmiyyətimizdə yeni nəsillərin soyqırımla bağlı düzgün və dolğun məlumatlandırılması üçün xüsusi strategiya formalaşdırılmalıdır. Belə ki, ən yeni tarixlə bağlı dərsliklərdə, kitablarda Xocalı soyqırımına aid korrekt və maarifləndirici məlumatlar əksini tapmalıdır. KİV-lər, xüsusilə telekanallar bu mövzuda ciddi materiallar hazırlamalı, müzakirələr təşkil etməlidirlər. Eləcə də Xocalı soyqırımı şəhidlərinin xatirəsinin xalqın dini-mənəvi və milli şüurunda möhkəmlənməsi üçün ildönümləri ərəfəsində xüsusi rituallar formalaşdırmaq və həyata keçirmək məqsədəuyğun olardı. Şəhidlik ən yüksək zirvələrdən sayılır və Xocalı şəhidlərinin bu məqamının cəmiyyətə dərindən aşılanması üçün ilahiyyatçıların da bu məsələdə müzakirələrə qoşulması işin xeyrinə olardı. Unutmaq lazım deyil ki, bu məsələdə yalnız cəmiyyətin ciddi daxili hazırlığından sonra beynəlxalq arenada Xocalı soyqırımını lazım olduğu kimi təqdim edə, cinayətkarların cəzalandırılmasına, qərəzkarların ifşasına və haqqımızın əldə edilməsinə nail ola bilərik.

İlkin AĞAYEV

Yazı Mətbuat Şurası və Xocalı Soyqırımını Tanıtma İctimai Birliyinin birgə keçirdiyi "Qarabağ mövzusu və Xocalı soyqırımı mediada" müsabiqəsinə təqdim etmək üçündür.

"Palitra".*5 fevral 2010-cu il. N.14.Səh. 7*

***

Avropa Gənclər Forumunun Bakı toplantısında Xocalı soyqırımı gündəmə gətirilə bilər

MÜSAHİBİMİZ GƏNCLƏR TƏŞKİLATLARI MİLLİ ŞURASININ (GTMŞ) SƏDRİ, MİLLƏT VƏKİLİ FUAD MURADOVDUR

– Fuad müəllim, qarşıdan Xocalı soyqırımının 18-ci ildönümü gəlir. Bu faciənin beynəlxalq aləmə çatdırılması istiqamətində GTMŞ olaraq hansı işləri, tədbirləri həyata keçirirsiniz və ya keçirməyi nəzərdə tutursunuz?

– Əvvəla, Xocalı soyqırımı 20-ci əsrdə törədilmiş ən böyük qanlı faciələrdən biridir və belə demək mümkünsə, birincisidir. Bu faciə nəinki azərbaycanlılara, azəri türklərinə, bütövlükdə bəşəriyyətə qarşı erməni vandalları tərəfindən törədilmiş qətliam, soyqırımı aktıdır. Qeyd edim ki, bu soyqırımı törədərkən də erməni vandalları düşünürdülər ki, bununla azərbaycanlıların, azəri türklərinin gözünü qorxudacaq, onların döyüş ruhunu, əzmini sındıracaqlar. Bunu hətta bu vandalizmi törətmiş insanlardan biri – Ermənistanın keçmiş prezidenti Robert Köçəryan da dəfələrlə ən yüksək tribunalardan utanmadan, çəkinmədən səsləndirib... Sizin də qeyd etdiyiniz kimi, artıq bu qanlı faciədən 18 il ötür və bu müddət ərzində bu qətliamın beynəlxalq aləmə, dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycan dövləti, rəhbərliyi, o cümlədən qeyri-hökumət təşkilatları tərəfindən xeyli işlər görülüb, addımlar atılıb və atılmaqdadır. Odur ki, ətrafında xeyli sayda gəncləri və gənclər qurumlarını birləşdirən GTMŞ olaraq biz də bu istiqamətdə əlimizdən gələni əsirgəməməyə çalışırıq. Məhz bu məqsədlə Xocalı soyqırımının 18-ci ildönümü ərəfəsində bir sıra aksiyaları reallaşdırmağı nəzərdə tuturuq və demək olar ki, bunlardan da bəzisinə start vermişik...

– Konkret olaraq nəyə?

– Təxminən bir həftə – on gün olar ki, bir sıra beynəlxalq təşkilatlara, xüsusi olaraq gənclər qurumlarına, onların Avropadakı nümayəndəliklərinə, üzvü olduğumuz Avropa Gənclər Forumuna (AGF) Xocalı soyqırımı haqqında həm rəngli şəkilləri, fotoları, həm faciə ilə bağlı geniş məlumatları, həm də dünya kütləvi informasiya vasitələrində bu soyqırım aktına həsr olunmuş yazıların

başlıqlarını – təxminən 10 səhifəlik materialı – göndərməyə başlamışıq. Onu da qeyd edim ki, Xocalı soyqırımı ilə bağlı Heydər Əliyev Fondu tərəfindən bir sıra işlər, eyni zamanda Leyla xanım Əliyevanın başlatdığı "Xocalıya Ədalət!" kampaniyası həyata keçirilir. Sevindirici haldır ki, bu işlərə, konkret olaraq məlum kampaniyaya qoşulanların sayı günü-gündən artmaqdadır. Ələlxüsus beynəlxalq təşkilatlar bu kampaniyaya qoşulmaqda, ona yaxından dəstək verməkdədirlər. Bunları deməkdə məqsədim odur ki, kimliyindən, hansı mövqedə olmasından, hansı siyasi mənsubiyyəti daşımasından asılı olmayaraq hər bir kəs, hər bir azərbaycanlı, azəri türkü Xocalı soyqırımının, Xocalı həqiqətlərinin beynəlxalq aləmə, dünya ictimaiyyətinə çatdırılması istiqamətində bacardığını əsirgəməməlidir. Xüsusilə də, ermənilərin, erməni tərəfinin Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi istiqamətində aparılan danışıqlar prosesini pozmaq, bu münaqişənin həllini uzatmaq istiqamətində son dövrlər "fəallıq" göstərmələri fonunda bizdən bu yöndə daha böyük səylə çalışmaq, təcavüzkarla təcavüzə məruz qalanın kim olduğunu, konkret olaraq Xocalıda hansı vəhşiliklərin baş verdiyini anlatmaq tələb olunur. Sual oluna bilər ki, biz nəyə görə başlatdığımız bu kampaniyanı məhz beynəlxalq gənclər təşkilatları, – ən əsası AGF çərçivəsində reallaşdırmaq istəyirik. Ona görə ki, bu çox nüfuzlu bir təşkilatdır. Bu təşkilatın nüfuzlu Avropa təşkilatları, Avropa Şurası, Avropa Birliyi, Avropa Parlamenti ilə sıx və qarşılıqlı əlaqələri var. Bu baxımdan inanıram ki, Avropa Birliyinin gənclər qolu olan AGF bizim bu kampaniyamıza, tədbirimizə dəstək verəcək, bizim səsimizi eşidəcək və bununla biz istər Xocalı, istərsə də bütövlükdə Qarabağ həqiqətlərinin dünya, Avropa ictimaiyyətinə daha müfəssəl çatdırılmasına nail ola biləcəyik. Bu yerdə onu da nəzərinizə çatdırım ki, bu ilin oktyabr ayında AGF-nin İşçi Qrupunun Bakıda tədbiri keçiriləcək. Və bu toplantıda da bir daha bu məsələ gündəmə gətiriləcək.

– Yeri gəlmişkən, başlatdığınız kampaniyaya ötən müddət ərzində qoşulanların sayı nə qədərdir?

– Qeyd edim ki, təxminən ayın 5-dən başlatdığımız bu kampaniyaya qoşulanlar xeyli saydadır. Nəzərə alsaq ki, GTMŞ-yə daxil olan xeyli sayda gənclər təşkilatları və onların xeyli sayda üzvləri var, artıq mənzərə kifayət qədər aydın görünür. Eyni zamanda, bizi daha çox düşündürən Xocalıyla bağlı məlumatları göndərdiyimiz ünvanlardır. Biz təxminən 44 beynəlxalq gənclər təşkilatına, o cümlədən Avropada fəaliyyət göstərən 27 Milli Şuraya və Avropa Birliyi ilə əlaqəli olan, onlarla işləyən qeyri-hökumət təşkilatlarına bu

Rusiya. Moskva

5 ЛЕТ
ЗА
«СПРАВЕДЛИВОСТЬ
ХОДЖАЛАМ»
5 years of Campaigning for
JUSTICE FOR
KHOJALY
KARABAKH
www.justiceforkhojaly.org

5 ЛЕТ
ЗА
«СПРАВЕДЛИВОСТЬ
ХОДЖАЛАМ»
JUSTICE

А. ИЕВА Л. И.
ПОМИЕЕВ Ю. А.

LA TERREUR
arménienne
TERROR
de armenia
الارهاب
الارمني
Xocalı Soyqırımı
Khojaly Genocide
Ходжалинский
геноцид
1992
الالطاف الحاد!
داء العظمة
الارمنية الخرافية
و الحقائق
Five faces of terror
Charged as Armenian avengers
THE BEGINNING
OF THE
GARABAGH
CONFLICT
ACTIVITÉ DES
ORGANISATIONS
TERRORISTES
ARMÉNIENNES
ACTIVITÉ DES
ORGANISATIONS
TERRORISTES
ARMÉNIENNES
CONTRE
L'AZERBAÏDJAN

“Справедлив

Litva

Kelias į Kalnų Karabachą
veda per Azerbaidžaną !

ujame pagarbos
no teritoriniam
tisumui !
STOP
ARMENIAN
AGRESSION
www.mykhojaly.wordpress.com

CHODŽALY TRAGEDIJA
PER VIENĄ NAKTĮ VIENAME RAJONE
NUŽUDYTI: 613 KŪDIKIAI: 83 ŠEIMOS: 8 ĮKAITAI: 1275 UŽPUOLIKAS: Armenia

STOP
ARMĖNIJOS
AGRESIJAI

AYOL
MYKOLO RO
UNIVERSI

ABŞ. Los-Anceles

peaceful residents murdered
taken hostage in one night
Impossible?
Armenians made
it possible

Meksika

JUSTICIA
PARA JOCYAD

JUSTICIA
PARA KODYARI

JUSTICE
FOR
KHOJALY
JUSTICE FOR KHOJALY
JUSTICE FOR KHOJALY
JUSTICE FOR KHOJALY
JUSTICE FOR KHOJALY

Türkiyə

The end of XX century was marked by horrible atrocities. Sudden increase of violence on the international level occurred in the period of fall of Soviet Union and followed by the horrible events of wars in Yugoslavia and genocide in Rwanda. In the beginning of 1990s the worlds attention was bound to this inhuman events mostly troubled by the failure of international community to prevent situations in Yugoslavia and Rwanda. But in the light of these events one conflict was forgotten. One can only wonder why the conflict that was not less atrocious and started before events of Yugoslavia, for instance, suddenly went to shades and was not largely discussed by scholars of international community. It haven't drag that much attention, it was not discussed by media on the day-by-day basis, almost no scholars refer to it in their works. This conflict is
Nagorno-Karabakh Conflict between Azerb
Republic of Armenia.
Robert Bosch Stiftung
B | S | T
The Black Sea Trust for Regional Cooper
A PROJECT OF THE GERMAN MARSHALL
AZERBAIJANI - AMERICAN
YOUTH ASSOCIATION
International Youth Forum
on inter-cultural dialogue
and confidence building
measures across
the Black Sea Region
Turkey, Istan

ALI ŞEHİTLERİ ANITI AÇILIŞ TÖRENİ
KEÇİÖREN BELEDİYESİ
Hocalı Katliamını
UNUTMADIK
Unuttırmaya
Mustafa AK / Keçiören Belec

Amerika



ering
Traged
on, DC

Remembering
"Khojaly Tragedy"
Washington, DC
afaz
ASSEMBLY OF THE FRIENDS OF AZERBAIJ

Remembering
"Khojaly Tragedy"
Washington, DC

The New York Times
"MASSACRE BY ARMENIANS BEING REPORTED"
Nagorno-Karabakh
militants.
had started its withdrawal, in effect removing the
Armenians and Azerbaijanis.
Republic of Azerbaijan, but most of its population is Armenian.
wounded in another attack, on the

JUSTICE FOR KHOJALY KARABAKH
www.justiceforkhojaly.org

EXIT

KHOJALY

Remembering
"Khojaly Tragedy"
Washington, DC
afaz
ASSEMBLY OF THE FRIENDS OF AZERBAIJAN

Avstraliya

Macquarie St

EASY


Azerbaijan
KHOJALY
26 FEBRUARY
1992

KHOJALY MASSACRE


Azerbaijan
KHOJALY
26 FEBRUARY
1992
GENOCIDE
Killed: 613
Infants: 83
Families: 8
Hostages: 1275
Aggressor: Armenia
SAT 2 AUGUST
SYDNEY
COMEDY
CANBERRA THE


CANBERRA THEATRE

Avstriya

Gerechtigkeit für Chodschali
Justice for Khojaly

ZARA
Gerechtigkeit für Chodschali
Justice for Khojaly
Akademischer
Verein
www.asav.at

MONEY EXCHANGE

KHOJALY GENOCIDE
JUSTICE FOR KHOJALY
Khojaly Tragedy
CHODSCHALI
VÖLKERMORD

ZARA
ZARA
ZARA
ZARA

ZARA
JUSTICEFORKHOJALY!

Belarus

#JusticeForKhojaly

Xocali
#JusticeForKhojaly

XOCALI SOYQIRIMI
#JusticeForKhojaly

İsveçrə. Bern

www.justiceforkhojaly.org
CONNAITRE LE GENOCIDE DE KHOJALY
JUSTICE FOR KHOJALY

Braziliya



JUSTIÇA
PARA
KHOJALY

BÖYÜK BRİTANİYA. KARDİFF

NO MORE GENOCIDES
GREGG

STOP
GENOCIDE
Khojaly Genocide
JUSTICE
F O R
KHOJALY
WWW.JUSTICEFORKHOJALY.ORG
E-mail:
campaign@justiceforkhojaly.org
Facebook:
www.facebook.com/JusticeForK
hojaly

NO MORE GENOCIDES
impossible?
Armenians made
it possible

JUSTICE FOR KHOJALY NOW
NO MORE GENOCIDES
NO MORE GENOCIDES
Impossible?
Armenians made it possible
Nagorno-Karabakh:
A territory
of Azerbaijan
occupied
by Armenia

NO MORE GENOCIDES
Nagorno-Karabakh:
A territory
of Azerbaijan
NO MORE GENOCIDES

JOHN BATCHELOR
NEWS HEADLINES
No More Genocide

GREGGS
BURGER KING
CAFFE NERO
Berketex
Designer Bridal,
Bridesmaids &
Formal Partywear
XXX

məlumatları göndərməyə başlamışıq və göndərməkdə də davam edəcəyik. Onu da bildirim ki, təşkilatımızda bir qrup gənc məhz bu işlərlə məşğuldur.

Kamil HƏMZƏOĞLU
"525-ci qəzet".*16 fevral 2010-cu il. N.29. Səh. 5*

***

Fransada Xocalı faciəsinin ildönümü ilə bağlı geniş tədbirlər planı həyata keçiriləcək Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya Ədalət!" kampaniyasının təqdimatı olacaq

Fevral ayının 25-də Azərbaycanın Fransadakı səfirliyi ölkəmizin YUNESKO yanındakı daimi nümayəndəliyi ilə birlikdə xalqımızın qan yaddaşına çevrilmiş Xocalı faciəsi ilə əlaqədar tədbir keçirəcək. Tədbirdə Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı təmsilçisi Leyla Əliyevanın təşəbbüsü ilə "Xocalıya Ədalət!" kampaniyasının təqdimatı olacaq. Fransa ictimaiyyəti nümayəndələrinin, Azərbaycan diasporu üzvlərinin, bu ölkədə yaşayan azərbaycanlıların, burada təhsil alan tələbələrimizin və digər qonaqların iştirak edəcəyi mərasimdə soyqırımdan bəhs edən qəzetlərin materiallarından və fotolardan ibarət sərgi təşkil ediləcək. Tədbir iştirakçıları faciə ilə bağlı xüsusi hazırlanmış müraciətə imza atacaqlar. Bu müraciət dünyanın müxtəlif ölkələrinə, senat və assambleyalarına, ictimai təşkilatlarına və mətbu orqanlarına göndəriləcək.

Fevral ayının 26-da Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəliyi tərəfindən Azərbaycan diasporu, yerli və xarici təşkilatlar, eləcə də, akkreditə olunmuş diplomatik korpus nümayəndələrinin iştirakı ilə Avropa Parlamentlər Assosiasiyasının binasında Xocalı faciəsinə həsr olunmuş anma mərasimi keçiriləcək. Tədbir iştirakçılarına insanlıq tarixində ən dəhşətli cinayətlərdən biri olan Xocalı faciəsinin əsil mahiyyəti, dövlətimizin bu istiqamətdə ardıcıl şəkildə həyata keçirdiyi tədbirlər, ermənilərin xalqımıza qarşı törətdiyi terror aktları barədə məlumat veriləcək.

Soyqırımla bağlı məlumatın yerli kütləvi informasiya vasitələrində yerləşdirilməsi, Strasburq Universitetində Xocalı faciəsinə dair Heydər Əliyev Fondu tərəfindən təqdim edilmiş materiallar əsasında sərginin və dəyirmi masanın təşkil edilməsi də nəzərdə tutulub. Daimi nümayəndəlik

faciə haqqında tutarlı materialları özündə əks etdirən press-reliz hazırlayaraq, Avropa Şurasının katibliyi, üzv ölkələrin daimi nümayəndəlikləri, eləcə də, Strasburqda fəaliyyət göstərən konsulluqlar arasında yayacaq. Strasburqda fəaliyyət göstərən "Azərbaycan Evi"nin təşəbbüsü ilə fevral ayının isə 21-də yerli radioda fransız dilində Xocalı faciəsinə həsr olunmuş iki saatlıq veriliş səsləndiriləcək.

Fevralın 25-də faciə ilə bağlı konfrans keçiriləcək. Həmçinin, "Azərbaycan Evi" Azərbaycanla Mədəni Əlaqələr və Azərbaycan Kultur cəmiyyətləri, Fransadakı Azərbaycanlı Tələbələr Assosiasiyası ilə birlikdə fevral ayının 27-də Strasburqun Kleber meydanında mitinq təşkil edəcək.

Fransada fəaliyyət göstərən Azərbaycan-Fransa Gənclik Assosasiyası "İrəli" gənclər təşkilatının dəstəyi sayəsində bu ölkədə təhsil alan tələbələr, burada yaşayan azərbaycanlılar Xocalı soyqırımı ilə bağlı Parisdə yürüş-nümayiş keçirəcəklər. Bir qrup tələbə isə Ermənistanın Fransadakı səfirliyi qarşısında etiraz aksiyası keçirməyi nəzərdə tutub.

Kübra ƏLİYARLI
"Səs"
18 fevral 2010-cu il. N.30.Səh. 3

***

İslam Konfransı Təşkilatının Gənclər Forumu Xocalı faciəsi ilə bağlı dünyanın bir sıra ölkələrində genişmiqyaslı aksiyalar keçirəcəkdir

Xocalı faciəsinin 18-ci ildönümü ilə bağlı İslam Konfransı Təşkilatının (İKT) Gənclər Forumu "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində dünyanın bir sıra ölkələrində genişmiqyaslı aksiyalar keçirəcəkdir. Bu barədə İKT Gənclər Forumunun baş katibi Elşad İsgəndərov fevralın 19-da keçirilən mətbuat konfransında bildirmişdir.

E. İsgəndərov qeyd etmişdir ki, fevralın 23-dən martın 1-dək dünyanın 30-a yaxın ölkəsində keçiriləcək tədbirlərin əsas məqsədi beynəlxalq ictimaiyyətin diqqətini dünya liderlərinə yönələcək petisiya kampaniyasına cəlb etməkdir. Faciənin ildönümü ərəfəsində kampaniyanın saytında (www.justiceforkhojaly.org) http://www.justiceforkhojaly.org) xüsusi

petisiya hazırlanmışdır. Bu saytdan əlaqələndiriləcək imzatoplama aksiyası ABŞ Prezidenti və Konqresinə, Avropa İttifaqına və Avropa Parlamentinə, Avropa Şurasının baş katibi və Parlament Assambleyasına yönələcəkdir. Dünyanın istənilən dövlətinin vətəndaşı ölkəsinin daxil olduğu beynəlxalq quruma və ölkə rəhbərliyinə ərizə ilə müraciət edərək onları Xocalıda baş vermiş kütləvi qırğını insanlığa qarşı cinayət kimi tanımağa və bu faciəni törədənlərin cinayət məsuliyyətinə cəlb edilməsinə dəstək verməyə çağıra bilər. İmzatoplama kampaniyası bir il ərzində davam etdiriləcək və ilin sonunda fəallar tərəfindən sözügedən qurumların rəhbərlərinə təqdim ediləcəkdir. Eyni zamanda internet vasitəsilə atılan hər bir imza onlayn rejimdə ünvanına çatdırılacaqdır.

Ümumiyyətlə, "Xocalıya Ədalət!" kampaniyasına dəstək məqsədi ilə indiyə qədər onun saytında 126 min imza toplanmışdır.

Vurğulanmışdır ki, İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq uğrunda Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın irəli sürdüyü "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının əsas məqsədi Xocalı qətliamının insanlığa qarşı törədilmiş ən böyük cinayət kimi beynəlxalq ictimaiyyət tərəfindən tanınmasıdır.

E. İsgəndərov bildirmişdir ki, Xocalı faciəsini anmaq məqsədi ilə dünyanın bir sıra şəhərlərində aksiyalar keçiriləcəkdir. O cümlədən, Amsterdam, Paris, Berlin, Brüssel şəhərlərində azərbaycanlı qaçqın və məcburi köçkünləri xatırlatmaq məqsədi ilə çadırlar qurulacaqdır.

Fevralın 26-da Moskvada "Xocalıya Ədalət!" kampaniyası – 1 illik fəaliyyətin yekunları" adlı tədbir keçiriləcəkdir. Kampaniya çərçivəsində ABŞ-ın tanınmış rep ifaçısı Toni Bləkmən və "Dəyirman" qrupunun birlikdə çəkdikləri "Xocalıya Ədalət!" klipinin təqdimatı olacaqdır. Mahnı Xocalı qətliamı haqqında həqiqətləri özündə əks etdirməklə dünya ictimaiyyətini bu faciəyə qiymət verməyə və Azərbaycanın haqq səsinə dəstək olmağa çağırır. Klip aksiyalar zamanı çadırlarda quraşdırılacaq iri monitorlar vasitəsilə nümayiş olunacaqdır.

Mexikoda isə Xocalı faciəsi Meksika Milli Avtonom Universitetində silsilə tədbirlərlə anılacaqdır.

Londonda parlament binasının qarşısında üzərində Xocalı faciəsinin qurbanlarının adlarının həkk olunduğu 613 şar havaya buraxılacaqdır. Bundan əlavə, fevralın 26-da gün ərzində Temza çayında üzərində "Xocalıya Ədalət!" sözləri yazılmış gəmi üzəcəkdir.

Fevralın 25-də Türkiyə Böyük Millət Məclisində "Qarabağ: suallar və faktlar" kitabının, martın 1-də isə Moskvada rusiyalı yazıçı-publisist, Rusiya Təbii Elmlər Akademiyasının akademiki, professor Yuri Pompeyevin "Qarabağ gündəliyi" kitabının təqdimatı keçiriləcəkdir.

Ümumiyyətlə, Xocalı faciəsi ilə bağlı həqiqətlər kampaniyanın 25 ölkədə fəaliyyət göstərən milli əlaqələndiriciləri vasitəsilə təbliğ olunacaqdır. Tədbirlər zamanı kampaniyanın milli əlaqələndiricilərinin və könüllülərin bir il ərzində fəaliyyətlərinə də qiymət veriləcəkdir.

Qeyd edək ki, bu il yanvarın 31-də İslam Konfransı Təşkilatına üzv dövlətlərin Parlament Birliyi Konfransının Uqandanın paytaxtı Kampala şəhərində təşkil edilən 6-cı sessiyasında İKT GF-nin təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində irəli sürülən qətnamədə faciəyə "Erməni silahlı qüvvələri tərəfindən dinc əhalinin kütləvi qətliamı" və "insanlığa qarşı cinayət" kimi qiymət verilmişdir.

"Xocalıya Ədalət!" kampaniyasının saytı ispan, alman və türk dillərinə tərcümə edilmişdir.

Xatırladaq ki, İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq uğrunda Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə irəli sürülən "Xocalıya Ədalət!" kampaniyasına 2009-cu ilin fevralında start verilmişdir. Kampaniyanın məqsədi beynəlxalq ictimaiyyətin Xocalı faciəsi ilə bağlı məlumatlandırılması, faciəyə beynəlxalq aləmdə mənəvi-siyasi qiymət verilməsi və beynəlxalq səviyyədə anılmasını təmin etməkdir.

*"**Xalq qəzeti**".*
20 fevral 2010-cu il. N 40.Səh. 3

* * *

Məqsəd beynəlxalq aləmdə xocali faciəsinə mənəvi-siyasi qiymət verilməsini təmin etməkdir

Dünən İslam Konfransı Təşkilatı Gənclər Forumunun (İKT GF) Baş Katibi Elşad İskəndərov "Xocalıya Ədalət!" Kampaniyasının 1 ilinin nəticələrinə və qarşıda duran vəzifələrə həsr olunmuş mətbuat konfransı

keçirib. Baş katib ilk öncə "Xocalıya Ədalət!" kampaniyasının yaranma zərurəti və əsas məqsədi barədə məlumat verib. Bildirib ki, 2009-cu ilin fevralından start götürən "Xocalıya Ədalət!" kampaniyası İslam Konfransı Təşkilatı Gənclər Forumunun (İKGF) Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə irəli sürülüb. Onun sözlərinə görə, kampaniyanın başlıca məqsədi beynəlxalq ictimaiyyətin Xocalı faciəsi ilə bağlı məlumatlandırılmasını, faciəyə beynəlxalq aləmdə mənəvi-siyasi qiymət verilməsini və beynəlxalq səviyyədə anılmasını təmin etməkdir.

Ötən bir il ərzində kampaniya çərçivəsində görülən işlərdən söhbət açan E. İskəndərov bildirib ki, 2009-cu il ərzində əsas fəaliyyət Xocalı faciəsinin beynəlxalq təşkilatlar tərəfindən tanınmasına yönəlib: "31 yanvar 2010-cu il tarixində İslam Konfransı Təşkilatına (İKT) üzv dövlətlərin Parlament Assambleyası Konfransının Uqandanın paytaxtı Kampala şəhərində təşkil edilən 6-cı sessiyasında İKT GF-nin təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində irəli sürülən qətnamədə Xocalı faciəsinə "Erməni silahlı qüvvələri tərəfindən dinc əhalinin kütləvi qətliamı" və "insanlığa qarşı cinayət" kimi qiymət verilib. Hesab edirəm ki, bu kompaniya çərçivəsində əldə edilən böyük uğurlardan biridir. Sənəddə adıçəkilən termin Xocalı faciəsinin erməni millətçiləri tərəfindən Azərbaycan xalqına qarşı aparılan soyqırım siyasətinin tərkib hissəsi kimi beynəlxalq səviyyədə tanınması və bu cinayəti törədənlərin hüquqi məsuliyyətə cəlb edilməsi üçün keyfiyyətcə yeni mərhələ açacaqdır. Ötən ilin sonunda Rusiyanın tanınmış yazıçısı, professor Yuri Pompeyevin müəllifi olduğu və "Kanonpyus" nəşriyyatı tərəfindən nəşr edilən "Qarabağ gündəliyi" kitabı Rusiyada yayımlanmasına başlanmışdır. Bu kitab müəllifin münaqişə ilə bağlı siyasilərlə apardığı intervyulardan ibarət olmaqla, eyni zamanda müxtəlif sənədlər əsasında problemin tarixi-publisistik janrda təhlilini də özündə əks etdirir. 2009-cu ildə Azərbaycanın tanınmış mütəxəssislərinin müəlliflik etdiyi "Qarabağ: suallar və faktlar" kitabı türk dilinə tərcümə edilib. Türkiyənin tanınmış tarixçisi Yusuf Hallacoğlunun ön söz yazdığı bu kitabda münaqişənin tarixi, geosiyasi, mədəni və hüquqi aspektlərini sual-cavab şəklində özündə ehtiva edir. Bunlardan başqa, yola saldığımız ildən etibarən başlanan və məşhur Amerika rep müğənnisi Toni Bləkmən və Azərbaycanın "Dəyirman" qrupunun iştirakı ilə gerçəkləşdirilən "Xocalıya Ədalət!" adlı rep-musiqinin klipi üzrə işlər də sona yetirilmişdir. Bu mahnı Xocalı qətliamı haqqında həqiqətləri özündə əks etdirməklə, dünya ictimaiyyətini bu faciəyə qiymət verməyə, bununla da Azərbaycanın

haqq səsinə dəstək verməyə çağırır. Yekun olaraq, ötən il 10 dekabr Beynəlxalq İnsan Haqları günündə BMT-nin mənzil qərargahının yerləşdiyi Cenevrədə beynəlxalq konfrans keçirilib. Eyni zamanda kampaniyanın saytı İspan, Alman və Türk dillərinə tərcümə edilib".

Elşad İskəndərov kampaniyanın əsas fəaliyyət mexanizmlərindən birinin də vebsayt olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, kampaniya çərçivəsində əsas beynəlxalq əlaqələndirici vasitə kimi www.justiceforkhojaly.org saytının imkanlarından geniş istifadə olunub. Baş katibin söylədiyinə görə, kampaniyaya internet saytında 130 minə yaxın insan dəstək verərək, aksiyanın müxtəlif səviyyədə həyata keçirilməsində iştirak edib: "Vebsayt vasitəsilə dünya ictimaiyyətinə, ilk növbədə BMT-nin Baş Katibi Ban Ki Muna, ABŞ prezidenti Barak Obamaya, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər qurumlara ünvanlanan "Dünya liderlərinə petisiya" da böyük əhəmiyyət kəsb edir. Belə ki, petisiya vasitəsilə dünyanın istənilən ölkəsinin vətəndaşı adı çəkilən qurumlara və dünya liderlərinə müraciət edərək, onları Xocalıda baş vermiş kütləvi qırğını insanlığa qarşı cinayət kimi tanımağa, bu faciəni törədənlərin cinayət məsuliyyətinə cəlb edilməsinə dəstək verməyə çağıra bilər. Ona görə də dünyanın müxtəlif ölkələrində liderlərə ünvanlanan petisiya kampaniyası ilə bağlı məlumatlandırıcı tədbirlərin həyata keçirilməsini planlaşdırmışıq".

Baş katib bu ilin 23 fevral-1 mart tarixlərində dünyanın 30-a yaxın ölkəsində "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində bir sıra tədbirlərin həyata keçiriləcəyini də bildirib. Deyib ki, Xocalıda baş vermiş kütləvi qırğının insanlığa qarşı cinayət kimi tanınması üçün 1 il ərzində imzatoplama kampaniyası davam etdiriləcək və ilin sonunda kampaniyanın fəalları tərəfindən sözügedən beynəlxalq qurumların rəhbərlərinə təqdim ediləcək: "İmzatoplama kampaniyasına beynəlxalq səviyyədə geniş ictimai marağın yaradılması, həmçinin imza atanların dairələrinin genişləndirilməsi məqsədilə müxtəlif təbliğat xarakterli aksiyaların həyata keçirilməsi nəzərdə tutulub. Bu aksiyalara gələn həftə Xocalı soyqırımının 18-ci ildönümü münasibətilə keçiriləcək anım tədbirlərində başlanılacaq. Fevralın 24-də 613 Xocalı qurbanının adı yazılmış şarlar Böyük Britaniya Parlamenti qarşısında göyə buraxılacaq. Ayın 26-da Moskvada "Xocalıya Ədalət Kampaniyası-1 illik fəaliyyətin yekunları" adlı tədbir baş tutacaq və tədbirdə "Xocalıya Ədalət!" rep layihəsinin təqdimatı keçiriləcək. Həmin tarixdə Berlində Xocalı faciəsi ilə bağlı konfrans olacaq. Yenə fevralın 26-da Meksika Milli Avtonom Universitetində kampaniyanın foto sərgisi keçiriləcək, həmçinin

kampaniyanın vebsaytının İspan dilindəki versiyasının və "Xocalıya Ədalət!" klipinin təqdimatı olacaq. Vyana, Amsterdam, Paris, Cakarta və dünyanın başqa tanınmış şəhərlərində də bu tipli aksiyalar keçiriləcək. Bunlarla yanaşı, 25 fevral tarixində Ankarada, Böyük Millət Məclisinin binasında "Qarabağ: suallar və faktlar" kitabının, 1 mart tarixində isə Moskvada rus yazıçısı Yuri Pompeyevin "Qarabağ gündəliyi" kitabının təqdimat mərasimi keçiriləcəkdir".

Rufik İSMAYILOV
"525-ci qəzet".
20 fevral 2010-cu il. N.33.Səh. 7

***

Küveytdə "Xocalıya Ədalət!" kampaniyasının təqdimatı olub

Küveytin aparıcı gənclər təşkilatı olan LoYAC-ın (Youth Achievement Center) qərargahında İslam Konfransı Təşkilatının Gənclər Forumunun (İKTGF) mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə elan olunmuş "Xocalıya Ədalət!" kampaniyasının təqdimatı keçirilib. "Xocalıya Ədalət!" kampaniyasının petisiyası imzalanıb və Xocalı qətliamının 18-ci ildönümü münasibətilə "Xocalı uşaqların gözü ilə" sərgi təşkil olunub.

Azərbaycanın Küveytdəki səfirliyi və LoYAC tədbirlə bağlı əvvəlcədən geniş ictimai məlumatlandırma işi aparıb, Küveytin "Kuwait Times", "Əl-Ray" və "Əl-Cəridə", "Al-Avan" qəzetlərində bu barədə haqqında elanlar yerləşdirilib.

LoYAC-ın icraçı direktoru xanım F. Əl-Saqqaf Xocalı qətliamının insanlığa qarşı törədilmiş cinayət olduğunu, , bu tədbir vasitəsilə günahsız Xocalı qurbanlarının səsinin Küveyt ictimaiyyətinə çatdırılacağını qeyd edib. Deyib ki, rəhbərlik etdiyi təşkilatın "Xocalıya Ədalət" kampaniyası haqqında ictimai məlumatlandırmanı artırmaq istiqamətində fəaliyyətini davam etdirəcək. Azərbaycana səfəri zamanı Xocalı qaçqınları və onların həyat şəraiti ilə tanış olduğunu bildirən natiq Azərbaycan xalqının qonaqpərvərliyinə, zəngin mənəvi və mədəni dəyərlərinə, musiqisinə, xüsusilə muğam sənətinə, Bakı şəhərinin gözəlliyinə və Azərbaycan xalqının qürur və səmimiyyətinə valeh olduğunu vurğulayıb.

Səfir Şahin Abdullayev bu tədbirin təşkilinə və Xocalı qurbanlarının haqq səsinin Küveyt ictimaiyyətinə çatdırılmasında göstərdiyi dəstəyə görə, xanım F.Əl-Saqqafa və LoYAC təşkilatının üzvlərinə minnətdarlığını bildirib. Ermənistanın Azərbaycana qarşı təcavüzü, bir milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün şəraitinə düşməsi, ermənilər tərəfindən Azərbaycana qarşı törədilmiş terror əməliyyatları və insanlığa qarşı cinayət olan Xocalı qətliamının təfərrüatları barədə danışıb. Səfir "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində il ərzində silsilə tədbirlərin davam etdiriləcəyini bildirib.

Sonra LoYAC-ın üzvü və Küveyt Universitetinin tələbəsi Əmnəh Tarxan "Xocalıya Ədalət!" kampaniyasının hazırladığı materiallar əsasında Xocalı qətliamı və "Xocalıya Ədalət!" kampaniyası haqqında prezentasiya keçirib.

O, bütün Küveyt gənclərini və ictimaiyyətini bu kampaniyaya qoşulmağa dəvət edib. Uşaqların, hamilə qadınların və qocaların kütləvi şəkildə öldürüldüyü Xocalı qətliamı haqqında beynəlxalq KİV-də az məlumat verildiyindən təəssüfləndiyini bildirən natiq Xocalı haqqında məlumatlandırmanı artırmaq məqsədilə beynəlxalq informasiya yayım şirkətləri və Küveytin yerli kanallarına müraciət etdiyi barədə məlumat verdi.

Ə. Tarxan Bakıda Xocalı qaçqınları ilə şəxsən görüşdüyünü, belə ağır faciə yaşayan insanların qürur və mətanətinə qibtə etdiyini və onların heç kimdən maddi yardım ummadıqlarını vurğulayıb. Deyib ki, həmin insanların yeganə istəyi haqq səslərinin dünyaya çatdırılmasıdır.

Sonra kampaniyanın hazırladığı petisiyanın imzalanması mərasimi olub. Sənəd Azərbaycan, Küveyt, İordaniya, Kanada, Çin, Mavritaniya, Livan və Hindistan vətəndaşları olmaqla, 49 nəfər tərəfindən imzalanıb və sərgiyə baxış keçirilib.

Tədbir Küveytin ən aparıcı televiziya kanalı olan "Əl-Vətən" kanalı və "Kuwait Times", "Əl-Ğabas", "Əl-Ray", "Əl-Cərid" qəzetləri tərəfindən işıqlandırılıb.

P. SULTANOVA
"525-ci qəzet"
20 fevral 2010-cu il. N.33.Səh. 7

* * *

"İrəli" Ukraynanın gənclər təşkilatı ilə birgə Xocalıya həsr olunmuş konfrans keçirmişdir

"İrəli" İctimai Birliyi Kiyevin "Molodejnıy Evropeyskiy Rux" şəhər təşkilatı ilə birgə "Xocalı faciəsi. Konflikt nöqtələrinin inkişaf tarixi: Ukrayna və Azərbaycan" mövzusuna həsr olunmuş konfrans keçirmişdir.

Ukraynanın bir sıra aparıcı gənclər təşkilatları fəallarının, tarixçilərin, politoloqların və jurnalistlərin qatıldığı tədbiri Ukrayna Avropa Gənclər Hərəkatının Kiyev şəhər təşkilatının sədri Aleksandra Skiba açaraq 18 il bundan öncə Xocalıda ermənilər tərəfindən törədilmiş bəşəriyyətə qarşı cinayətin hələ də cavabsız qalmasından təəssüflə danışmışdır.

Əsrlər boyu Ukrayna xalqının da dəfələrlə soyqırımı və faciələrlə üzləşdiyini bildirən "İrəli" İctimai Birliyinin Ukraynadakı təmsilçisi Cavid Hüseynzadə "Xocalıya Ədalət!" kampaniyasına qoşulan ukraynalı həmyaşıdlarına minnətdarlığını bildirmişdir.

Ukrayna Avropa Gənclər Hərəkatı təşkilatının fəallarından Alesya Xoleç XX əsrin ən amansız faciəsi olan Xocalı soyqırımına hələ də hüquqi siyasi qiymətin verilməməsini tarixi ədalətsizlik kimi qiymətləndirərək azərbaycanlı gənclərin bununla bağlı beynəlxalq təşkilatlara və dünya birliyinə müraciət etmək üçün imzatoplama kampaniyasına qoşulduqlarını bildirmişdir. Konfransda Ukrayna Dövlət Televiziyasının aparıcı jurnalisti Georqi Spasokukotskinin və Azərbaycan Televiziyasının Ukrayna və Şərqi Avropa ölkələri üzrə xüsusi müxbiri Möhsüm Qədiroğlunun ssenarisi əsasında çəkilmiş "Qarabağ tarixin burulğanında" sənədli filminin təqdimatı olmuşdur. İştirakçılar filmdə son iki əsrdə erməni və ermənipərəst qüvvələrin Azərbaycan xalqına qarşı həyata keçirdikləri amansız faciə və soyqırımı siyasəti ilə tanış olmuşlar.

Filmdə göstərilənlərin sırf tarixi faktlara əsaslandığını bildirən tarixçi alimlərdən Fərhad Turanlı, Nataliya Rudenko və digər çıxış edənlər Xocalı faciəsinin hələ də cəzasız qalmasını bəşər tarixinin qara ləkəsi adlandırmışlar.

Konfrans iştirakçılarına həmçinin Heydər Əliyev Fondu tərəfindən nəşr olunmuş Qarabağ həqiqətlərini özündə əks etdirən kitablar paylanmışdır.

*"**Azərbaycan**"*
23 fevral 2010-cu il. N 42.Səh. 6

* * *

Xocalı soyqırımı İordaniya mətbuatında

Azərbaycan xalqının tarixinə Xocalı soyqırımı kimi daxil olmuş, 1992-ci il fevralın 26-da ermənilər tərəfindən törədilmiş faciənin 18-ci ildönümü ilə bağlı və "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində Azərbaycanın İordaniyadakı səfirliyi bəyanatla çıxış etmişdir.

Bəyanat İordaniyanın Xarici İşlər Nazirliyinə və bir sıra dövlət təşkilatlarına, habelə krallıqda akkreditə olunmuş səfirliklərə göndərilmiş, yerli KİV-lərdə dərc edilmiş və səfirliyin rəsmi saytında yerləşdirilmişdir.

Səfirlikdən bildirmişlər ki, İordaniyanın məşhur jurnalisti, ölkənin aparıcı "Ər-Rəy" və "Şihən" qəzetlərinin siyasi icmalçısı Mərvan Sudahın fevralın 18-19-da bu mətbu orqanlarda Xocalıda baş vermiş faciə haqqında məqalələri dərc olunmuşdur.

Səfirliyin elanlar lövhəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsini və yaralanmasını əks etdirən məlumatlar və fotolar yerləşdirilmişdir.

Xocalı soyqırımı haqqında məlumatı daha geniş yaymaq məqsədi ilə səfir Elman Araslı və səfirliyin əməkdaşları İordaniyanın rəsmi və ictimai dairələrinin nümayəndələri, krallıqda akkreditə olunmuş xarici ölkələrin diplomatları ilə görüşlərdə ermənilər tərəfindən törədilmiş bu dəhşətli hadisə və onun ağır nəticələri, Dağlıq Qarabağda separatçı rejimin məqsədləri, münaqişənin tarixi barədə geniş məlumat vermişlər. Səfir E. Araslı İordaniya Senatının sədri, bu ölkənin xarici siyasət idarəsinin baş katibi, İordaniya televiziyasının rəhbəri, habelə bir sıra mədəniyyət və elm xadimləri ilə görüşlərdə ermənilər tərəfindən törədilmiş qanlı hadisələr haqqında danışmışdır.

Bundan əlavə, fevralın 15-də səfirliyin Heydər Əliyev Fondu ilə birgə İordaniya Universitetində təşkil etdiyi tədbirdə Xocalı soyqırımı ilə bağlı kitablar, bukletlər və digər məlumatlar Krallığın ictimaiyyətinə təqdim olunmuşdur. Kitabların bir nüsxəsi İordaniyanın aparıcı kitabxanalarına göndərilmişdir.

Xocalı soyqırımının 18-ci ildönümü ilə əlaqədar bəyanat və məlumat fevralın sonunda səfirliyin bülleteninin növbəti nömrəsində öz əksini tapacaqdır. Fevralın 26-da isə səfirliyin önündəki Azərbaycan bayrağı matəm

əlaməti olaraq endiriləcək və Xocalı hadisələrini əks etdirən fotosərgidə şəhidlərimizin xatirəsi ehtiramla yad olunacaqdır.

"Palitra"
23 fevral 2010-cu il. N.21.Səh. 4

* * *

Moskvada "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının təqdimatı olacaqdır

Fevralın 26-da Moskvada "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının təqdimatı olacaq və bu beynəlxalq aksiyanın bir ilinə yekun vurulacaqdır. Tədbir Rusiya Azərbaycanlı Gənclər Təşkilatı (RAGT) və İslam Təşkilatı Konfransının Gənclər Forumu tərəfindən birgə təşkil olunmuşdur.

Mərasimdə RAGT-nin sədri, Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi və "Xocalıya Ədalət!" kampaniyasının təşəbbüskarı Leyla Əliyevanın çıxış edəcəyi gözlənilir. Tədbir çərçivəsində Yuri Pompeyevin "Qarabağ gündəlikləri" kitabının təqdimatı keçiriləcək, müəllif, habelə ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu çıxış edəcək, Xocalı faciəsi haqqında sənədli film nümayiş etdiriləcəkdir. "Xocalıya Ədalət!" kampaniyasının bir ili" fotosərgisi və "Xocalıya Ədalət!" musiqi klipinin təqdimatı keçiriləcəkdir.

Asya Hacızadə
AzərTAc-ın xüsusi müxbiri, Moskva
24 fevral 2010-cu il

***

"Xocalıya Ədalət!" musiqi manifestinin təqdimatı keçirilmişdir

Heydər Əliyev Fondu, Gənclər və İdman Nazirliyi, Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Təşkilatının Gənclər Forumunun birgə təşkilatçılığı ilə "Xocalıya Ədalət!" musiqi manifestinin təqdimat mərasimi keçirilmişdir. Tədbirdə Gənclər və İdman Nazirinin müavini İntiqam Babayev, İslam Konfransı Təşkilatının Gənclər Forumunun baş katibi Elşad İsgəndərov, millət

vəkilləri Rövşən Rzayev, Qənirə Paşayeva, Fuad Muradov, Hadi Rəcəbli, "İrəli" İctimai Birliyinin sədri Ceyhun Osmanlı çıxış etmişlər.

Natiqlər bildirmişlər ki, Azərbaycan xalqı Xocalı qurbanlarının xatirəsini daim yad edir və bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün dövlətimiz bütün imkanlardan geniş istifadə edir. Məhz ümummilli lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra bu soyqırım aktı öz siyasi qiymətini almışdır. 1994-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi fevralın 26-nı "Xocalı Soyqırımı Günü" elan etməsi barədə qərar qəbul etmişdir.

Çıxış edənlər həmçinin əlavə etmişlər ki, XX əsrin sonunda Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı olan Xocalı faciəsi tariximizin ən acı səhifəsi kimi gənclərimizin vətənpərvərlik tərbiyəsində mühüm rol oynamalıdır. Gənclər tarixdən nəticə çıxarmalı, gələcəkdə bu kimi faciələrin bir daha baş verməməsi üçün daha mübariz olmalıdırlar. Xocalı faciəsinin və bütövlükdə ermənilərin Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin konkret tarixi faktlarla gənclərimizin diqqətinə çatdırılması hər bir dövlət orqanının ümdə borcu və vəzifəsi olmalıdır.

"Xocalıya Ədalət!" rep üslubunda yazılmış mahnının klipinin süjet xətti rejissor Fuad Əlişova məxsusdur. Aranjemanı tanınmış amerikalı səs rejissoru, 3 dəfə "Qremmi" mükafatı laureatı olmuş Qordon Vilyams tərəfindən işlənmiş və amerikalı repçi Toni Blekman və Azərbaycanın rep qrupu "Dəyirman" tərəfindən də ifa edilmişdir.

Qordon Vilyams isə faciə barədə ətraflı məlumat aldığı zaman çox təsirləndiyini və onun mahiyyəti haqqında bütün dünyanın bilməsinin vacib olduğunu qeyd etmişdir. Mahnıya çəkilən klipin çəkilişləri studiya şəraitində, Şəhidlər xiyabanında və Ağcabədi rayonunun qaçqın düşərgəsində aparılmışdır. Mahnıda müasir rep ritmləri ilə yanaşı milli musiqimizin elementləri - muğam və balaban musiqisindən də istifadə edilmişdir.

AzərTAc
"Azərbaycan"
25 fevral 2010-cu il. N.44. Səh. 4

* * *

Londonda "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində genişmiqyaslı tədbir keçirilmişdir

Fevralın 24-də "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində Avropa-Azərbaycan Cəmiyyətinin təşkilatçılığı ilə Temza çayında üzən "Silver Sturgeon" gəmisində Böyük Britaniyanın ictimai-siyasi xadimləri, deputatlar və diplomatların iştirakı ilə Xocalı qətliamının 18-ci ildönümünə həsr edilmiş tədbir keçirilmişdir.

Tədbir zamanı "Silver Sturgeon" gəmisindən havaya Xocalı faciəsi zamanı həlak olmuş 613 nəfərin adları qeyd edilmiş şarlar və çaya həmin sayda qərənfillər buraxılmışdır. Amerikalı rep musiqiçisi Toni Bləkmən və Azərbaycanın tanınmış "Dəyirman" qrupu tərəfindən ifa edilmiş "Xocalıya Ədalət!" adlı mahnının təqdimatı keçirilmişdir. Dağlıq Qarabağ münaqişəsi və Xocalı faciəsi şəkillərindən ibarət rəsm sərgisi nümayiş etdirilmişdir.

Sonda Böyük Britaniyanın Baş nazirinə ünvanlanmış petisiyaya imza toplanmışdır. Petisiya Xocalı qətliamını insanlığa qarşı cinayət kimi tanımağa və günahkarların hüquqi məsuliyyətə cəlb edilməsi üçün səyləri gücləndirməyə çağırır.

Qeyd etmək lazımdır ki, Böyük Britaniya Baş nazirinin katibliyi petisiyanı aldığını rəsmi olaraq təsdiq etmiş və bir il ərzində imzaların öz rəsmi ünvanına (http://petitions.number10.gov.uk/Khojaly/) qəbul edilməsi üçün razılıq vermişdir.

"Xocalıya Ədalət!" kampaniyasının fəalları tərəfindən bu ilin sonuna qədər Boyük Britaniya vətəndaşlarından kampaniyanın saytı (www.justiceforkhojaly.org) vasitəsilə 100 minə qədər imza toplanması planlaşdırılır.

AzərTAc
25 fevral 2010-cu il

* * *

Meksikadakı səfirliyimiz "Xocalıya Ədalət!" beynəlxalq kompaniyası çərçivəsində bir sıra tədbirlər həyata keçirib

Xocalı soyqırımının növbəti ildönümünün qeyd olunması ilə əlaqədar "Xocalıya Ədalət!" beynəlxalq kompaniyası çərçivəsində Azərbaycanın Meksikadakı Səfirlik tərəfindən bir sıra təbliğat-informasiya xarakterli tədbirlər həyata keçirilib. Belə ki, M. Ələkbərzadənin müəllifi olduğu "Azərbaycanda Xocalı soyqırımı" adlı sənədli film ispan dilinə tərcümə edilmiş və səsləndirilib. Bundan əlavə, ispan dilində Xocalı soyqırımına həsr edilmiş iki internet səhifəsi hazırlanıb istifadəyə verilib (www.justiciapa rajodyali.org, www.justiceforkhojaly.mx). İnternet səhifələrində, Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi, Xocalı soyqırımının təfərrüatları barədə audioyazı, həmçinin Toni Bləkmən və "Dəyirman" qrupunun birgə ifa etdiyi musiqi klipi də yerləşdirilib. Qeyd etmək lazımdır ki, Latın Amerikası regionunda internet istifadəçilərinə ilk dəfə olaraq, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq və etnik təmizləmə siyasətinə həsr olunmuş ispan dilində audio və video materiallar, internet səhifələri, həmçinin ispan dilli istifadəçilər üçün məşhur www.facebook.com saytında "Justicia para Jodyali" şəbəkə qrupu yaradılıb.

Səfirliyin mətbuat xidmətindən "Paritet"ə verilən məlumata görə, fevral ayının 23-də "Xocalıya Ədalət!" kompaniyası çərçivəsində Meksikanın paytaxtı Mexiko şəhərində Latın Amerikası regionunda ən məşhur ali təhsil ocaqlarından biri və qədim tarixə malik olan Meksika Milli Avtonom Universitetində (UNAM) Xocalı faciəsinin 18-ci ildönümü münasibəti ilə konfrans keçirilib. Konfrans, sözügedən Universitetin müəllimi, "Xocalıya Ədalət!" beynəlxalq kompaniyasının Meksika üzrə koordinatoru Luiz Felipe Peres və Azərbaycanın Meksikadakı Səfirliyinin birgə səyləri ilə təşkil edilib.

Tədbirdə, ABŞ-ın Montana Universitetinin professoru Tomas Qolts, Səfir İ. Muxtarov, UNAM-ın professoru Karlos Bayesteros və Latın Amerikası Azərbaycanlıları Assosiasiyasının sədri N. Atakişiyev çıxış etmişlər. Çıxış edənlər, münaqişənin tarixi və nəticələri, indiyədək Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etdirilməsi və Xocalı soyqırımının təfərrüatları barədə tədbir iştirakçılarına ətraflı məlumatlar vermişlər. Tədbir zamanı, Səfir İ. Muxtarovun xahişi ilə Xocalı və digər Azərbaycan ərazilərində Ermənistan silahlı qüvvələrinin qətlə yetirdiyi şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Konfrans

zamanı, ispan dilində səsləndirilmiş "Azərbaycanda Xocalı soyqırımı" sənədli filmi nümayiş etdirilmiş, ispan dilində "Xocalıya Ədalət!" internet səhifələri təqdim edilmiş, habelə Toni Bləkmən və "Dəyirman" qrupunun birgə ifa etdiyi "Justice for Khojaly" mahnısı səsləndirilib.

Konfransdan sonra iştirakçılar, "Justicia para Jodyali" (Xocalıya Ədalət) yazılı köynəklər geyərək rəsmi fotoşəkil çəkdirmiş, "Xocalıya Ədalət!" şüarı altında başlanmış xüsusi imza toplama kompaniyasına qoşulmuş və Azərbaycana qarşı davam edən ədalətsizliyə etinasız qalmadıqlarını nümayiş etdirərək, beynəlxalq etiraz aksiyasında dəstək vermişlər.

Konfransda, ümumilikdə 150 nəfərdən artıq UNAM-ın müəllim və tələbələri, Meksikada akkreditə olunmuş diplomatik korpus üzvləri, Meksikada yaşayan həmyerlilərimiz və yerli kütləvi informasiya vasitələri nümayəndələri iştirak etmişlər. "Xocalıya Ədalət!" beynəlxalq kompaniyası çərçivəsində Xocalı faciəsi və Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həqiqətləri barədə Meksika ictimaiyyətinin məlumatlandırılması istiqamətində Səfirlik tərəfindən müvafiq tədbirlər davam etdiriləcək.

SƏBUHİ
"Paritet"
25-26 fevral 2010-cu il. N.19.Səh. 7

***

"Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının səmərəsi ildən-ilə artır

Leyla Əliyevanın təşəbbüsü soyqırımı faktının xaricdə tanınması prosesinə böyük töhfə verib

Ölkəmizin dünya birliyinə inteqrasiyası, respublikamızın tərəqqisi, xalqımızın rifah halının daha da yaxşılaşdırılması istiqamətində ulu öndərin müəyyənləşdirdiyi siyasətin tədqiq edilməsinə, təşviqatına, tarixi şəxsiyyətin ümummilli ideyalarının reallaşdırılmasına dəstək

verən Heydər Əliyev Fondu Azərbaycanın bütün sahələrdə dinamik inkişafına, ölkəmizdə vətəndaş cəmiyyəti quruculuğu prosesinin sürətləndirilməsinə layiqli töhfə verir. Heydər Əliyev Fondu həyata keçirdiyi uğurlu layihələrlə ölkəmizin dünya miqyasındakı nüfuzunun artmasında mühüm xidmətlərə malikdir. Milli maraqların təminatı, müasirləşmə, respublikamız haqda həqiqətlərin yayılması, ölkəmizin xarici aləmə olduğu kimi təqdim edilməsi və digər müqəddəs missiyaları müvəffəqiyyətlə həyata keçirən fondun bütün təşəbbüsləri uğurlu nəticələr verir.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ölkəmizdə həyata keçirilən bütün proqramlar, layihələr müasir dövrün ehtiyac və tələbləri, milli xüsusiyyətlərilə uyğunlaşaraq ölkəmizin tərəqqisinə təkan verir. Fondun fəaliyyəti yalnız bununla yekunlaşmayaraq Azərbaycan haqqında əsl həqiqətlərin beynəlxalq aləmə çatdırılması, bu istiqamətdə təbliğat və təşviqatın aparılması ilə şaxələnir.

Azərbaycan həqiqətlərinin carçısı

Tarixdə analoqu olmayan, ötən əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş Xocalı soyqırımı yalnız soydaşlarımıza deyil, bütövlükdə bəşəriyyətə qarşı törədilmiş cinayət idi. Bu qətliamların müəllifləri isə özlərini dünyaya "əzabkeş" kimi təqdim edən erməni millətçiləridir. Amansız qətllərlə dünya tarixində silinməz izlər buraxan bu faciə əslində, erməni təcavüzkarlarının yalnız Azərbaycan xalqına deyil, dünya miqyasında insanlığa yönəldilmiş qəddarlığı idi. Xalqımızın yaddaşına əbədi həkk olunmuş tarixin ən böyük faciələrindən biri olan Xocalı soyqırımı hər il daha geniş miqyasda qeyd olunur, humanitar fəlakət qurbanlarının xatirəsi əziz tutulur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi, ərazilərimizin erməni silahlı birləşmələri tərəfindən işğalı, bu münaqişə nəticəsində doğma yurdlarından didərgin düşmüş yüz minlərlə soydaşımızın üzləşdikləri çətinliklər daim Heydər Əliyev Fondunun diqqət mərkəzindədir. Fond Xocalı həqiqətlərinin dünyaya çatdırılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində atılan addımları uğurla davam etdirir. Tədbirlərdə Heydər Əliyev Fondunun hazırladığı "Xocalı soyqırımı" filmi, ermənilərin

Xocalıda törətdikləri vəhşilikləri əks etdirən fotoşəkillər və müxtəlif illərdə xarici ölkələrin nüfuzlu nəşrlərində faciə haqqında dərc edilmiş materiallar, habelə fonlun ümumtəhsil məktəbləri və uşaq evlərində keçirdiyi "Xocalı uşaqların gözü ilə" mövzusunda rəsm müsabiqəsindən ibarət ekspozisiyalar nümayiş etdirilir. Faciənin bütün detallarını əks etdirən faktların beynəlxalq aləmə çatdırılması istiqamətində görülən işlərdə təşkilatın fəaliyyəti özünəməxsus yer tutur. Fondun dəstəyi və təşkilatçılığı ilə məktəblilər arasında keçirilmiş "Xocalı uşaqların gözü ilə" rəsm müsabiqəsi, fotoşəkillərin, əl işlərinin dünyanın bir sıra qabaqcıl ölkələrində təşkil olunmuş sərgisi beynəlxalq ictimaiyyətdə XX əsrin ən böyük faciəsi haqqında dolğun təsəvvürlər formalaşdırıb.

Məhz Heydər Əliyev Fondunun gərgin əməyinin nəticəsi olaraq indi dünya ölkələri əvvəlki illərdən fərqli olaraq erməni qəsbkarlarının insanlığa sığmayan qətlləri haqqında daha dolğun məlumatlandırılıb. Dünyanın nüfuzlu beynəlxalq təşkilatları, aparıcı dövlətləri bəşəriyyətə qarşı yönəldilmiş bu cinayətin əsl mahiyyətini getdikcə daha çox anlayır, qətliamı kəskin şəkildə pisləyir, təcavüzkarla təcavüzə məruz qalanı tanıyırlar.

Soyqırımının tanıdılması istiqamətində sistemli fəaliyyət

Azərbaycan həqiqətləri, Dağlıq Qarabağ münaqişəsinin əsl səbəbkarları haqqında dünya birliyində aydın təsəvvürün formalaşdırılmasında Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın xüsusi xidmətləri var. İslam Konfransı Təşkilatının (İKT) Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyeva Xocalı soyqırımı haqda faktların dünyaya çatdırılması istiqamətində sistemli və ardıcıl fəaliyyət göstərərək erməni silahlı birləşmələrinin ölkəmizin ərazisində həyata keçirdikləri soyqırımı siyasətinə dair faktları beynəlxalq birliyə təqdim edir.

İKT-nin Dialoq və Əməkdaşlıq uğrunda Gənclər Forumunun Dağlıq Qarabağ münaqişəsinin, Azərbaycan həqiqətlərinin, Ermənistanın işğalçılıq siyasətinin dünyaya çatdırılması istiqamətində apardığı mühüm iş öz səmərəsini verməkdədir. Gənclər forumu hələ 2007-ci ilin payızında Bakıda "Gənclər sivilizasiyaların alyansına tərəfdardır" təşəbbüsü çərçivəsində təsis olunmuş "Sivilizasiyaların alyansı" Beynəlxalq Gənclər Hərəkatına müraciət

edərək, bu qurumdan əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar vasitəsilə Ermənistanın yürütdüyü siyasəti dünya birliyinə çatdırmağı tələb etmişdir.

Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏİKGF) mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ilin mayın 8-də elan olunmuş "Xocalıya Ədalət!" beynəlxalq məlumat və təşviqat kampaniyası çərçivəsində ilk tədbir İstanbulun "Taksim" metrostansiyasının sərgi salonunda Xocalı ilə bağlı uşaqların çəkdiyi şəkillərdən və kampaniyaya qoşulmuş xarici ölkə gənclərinin fotoşəkillərindən ibarət sərginin açılışı oldu. Kampaniya çərçivəsində yalnız Türkiyə deyil, Avropanın başqa şəhərlərində də sərgilər təşkil olundu. İstanbulda İKT-nin Əməkdaşlıq və Dialoq uğrunda Gənclər Forumu və İSESKO-nun təşkilatçılığı ilə 2008-ci ilin mayın 17-də keçirilmiş İKĞT ekspertlərinin ikigünlük iclasında kampaniya ekspertlər tərəfindən bəyənildi və 26 fevral - Xocalı soyqırımı gününün bu beynəlxalq təşkilata üzv ölkələrdə humanitar fəlakətlər qurbanlarının xatirəsini anma günü kimi qeyd olunması haqda mühüm qərar qəbul olundu.

2008-ci ilin iyununda İKT-nin üzvü olan dövlətlərin xarici işlər nazirlərinin Uqandadakı konfransında İKT Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın "Xocalıya ədalət - Qarabağa azadlıq" təşəbbüsü təsdiq olundu. Xarici İşlər Nazirlərinin konfransının 35-ci sessiyasında qəbul olunan xüsusi qətnamə dünyanın 57 ölkəsində müvafiq kampaniyanın həyata keçirilməsi üçün siyasi-hüquqi baza yaradılmasını təmin etdi. Leyla xanım Əliyeva bu təşəbbüsünün nüfuzlu beynəlxalq təşkilat tərəfindən bəyənilməsini yüksək qiymətləndirərək dünya birliyinin Ermənistan, onun işğalçılıq siyasəti haqqında əsl həqiqətləri anladığını qeyd etdi: "Bu sənədin qəbul edilməsi Azərbaycan torpaqlarının işğal faktının beynəlxalq birlik tərəfindən getdikcə daha çox dərk olunmasını və təcavüzkarın mənəvi-siyasi baxımdan daha da təcrid olunmasını əks etdirir. Qətnamə Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqəti İKT üzvü olan ölkələrə və mədəniyyətlərarası dialoq vasitəsilə qlobal səviyyədə gənc nəslə çatdırmaq üçün imkan yaradır".

Bu beynəlxalq kampaniyanın dünya miqyasında daha geniş təbliği üçün informasiya-kommunikasiyaları sistemlərindən də geniş istifadə edilir. Kampaniyanın virtual aləmdə yayılması və bu qəbildən olan silsilə tədbirlərin sistemləşdirilməsi məqsədilə yaradılan internet saytı Xocalı faciəsinin əsl günahkarlarının, xalqımıza qarşı soyqırımı haqqında faktların dünya ölkələrinə daha geniş çatdırılmasına imkan yaradır. Artıq proqram və

onun internet saytı dünyanın müxtəlif şəhərlərində - Vaşinqton, İstanbul, Berlin, Buxarest, Kiyev, Vyana, Brüssel, Pekin, Varşava və digər ölkələrdə Xocalı soyqırımı haqqında dolğun məlumatları beynəlxalq ictimaiyyətə çatdırır.

Xocalı faciəsinə beynəlxalq maraq artır

İslam ölkələrində vahid soyqırımı qurbanları gününün təsis edilməsi təklifi də müsəlmanlara qarşı qətliamların yayılması istiqamətində ən mühüm addımlardan biridir. İKT-nin Əməkdaşlıq və Dialoq uğrunda Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisinin təşəbbüsü ilə başlanmış kampaniya artıq müsəlman dövlətlərinin böyük marağına səbəb olub. Elə bunun nəticəsi olaraq Xocalı qətliamının islam ölkələrində dərsliklərə daxil edilməsi haqda yeni təkliflər irəli sürülüb və bu, bir sıra dövlətlər tərəfindən dəstəklənib. Bu, uşaqların hələ orta məktəb illərindən qətliam barədə məlumatlandırılmasına və nəticədə gələcək nəsillərin ermənilərin etnik təmizləmə, işğalçılıq siyasətinin əsl mahiyyətini aydın şəkildə dərk etməsinə səbəb olacaq.

Xocalı faciəsinin dünya dövlətləri tərəfindən soyqırımı kimi tanınması, qətliama ayrı-ayrı ölkələrin qanunverici orqanları tərəfindən obyektiv qiymət verilməsi tarixi zərurət olaraq qalmaqdadır. Artıq bir sıra dövlətlər 1992-ci ilin 25-26 fevralında soydaşlarımıza qarşı etnik təmizləmə cinayətinin əsl mahiyyətini anlayır, qətliama siyasi qiymət verilməsinin bəşəri borc olduğunu başa düşürlər. Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin təşəbbüsü ilə hazırlanmış Xocalı soyqırımı sərgisinin nümayiş etdirilməsi qətliamın dünya ölkələri tərəfindən kəskin pislənilməsinə səbəb olub.

Soyqırımının tanıdılması və qətliama siyasi qiymətin verilməsi istiqamətində görülən işlər artıq daha ciddi nəticələr verməkdədir. Həyata keçirilən tədbirlərin səmərəsi kimi islam ölkələrinin ali təhsil və elm nazirlərinin dördüncü konfransı Xocalı faciəsinin beynəlxalq səviyyədə tanınması istiqamətində təşəbbüslə çıxış edib.

Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın Xocalı faciəsi haqqında dünya ölkələrində dolğun təsəvvürlərin formalaşdırılması istiqamətindəki səylərinin və bununla bağlı fəaliyyətinin müsbət nəticələri göz qabağındadır. Soyqırımı faktlarının müsəlman dövlətlərinin ali təhsil məktəblərinin dərsliklərinə salınması və

qətliama aid həqiqətlərin daha geniş miqyasda yayılması təklifləri islam ölkələrinin ali təhsil və elm nazirlərinin dördüncü konfransının yekun qətnaməsinə daxil edilib. Bu sənəd də ermənilərin Xocalıda törətdikləri qətliamlar haqqında əsl faktların İKT-yə üzv ölkələrin ali təhsil müəssisələrinin dərsliklərində əks olunmasını dəstəkləyir və "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının bu ildən başlayaraq bir neçə il ərzində davamlı və geniş miqyasda keçirilməsi zəruriliyini əks etdirir. İKT-nin Əməkdaşlıq və Dialoq uğrunda Gənclər Forumunun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üzrə baş əlaqələndiricisinin irəli sürdüyü "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası təşkilata üzv ölkələrdə 2009-2012-ci illərdə prioritet şəkildə həyata keçirilməsinin vacibliyini özündə ehtiva edir.

Soyqırımının tanıdılması istiqamətində iş uğurla davam etdirilir

"Xocalıya Ədalət!" beynəlxalq kampaniyası dünyanın müxtəlif ölkələrində faciə ilə bağlı real faktların foto və film sərgiləri, internet, beynəlxalq konfranslar və nümayişlər, o cümlədən, aparıcı beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərin keçirilməsi vasitəsilə çatdırılmasını nəzərdə tutur.

Faciənin soyqırımı kimi tanıdılması, bəşəriyyətə qarşı yönəldilmiş bu ən ağır cinayətə siyasi qiymət verilməsi, soyqırımı həqiqətlərinin İKT ölkələrində yayılması haqqında siyasi qərar, Gənclər Forumunun təşəbbüsü və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin dəstəyi ilə İKT-yə üzv ölkələrin xarici işlər nazirlərinin 35-ci sessiyasında və beynəlxalq təşkilata üzv ölkələrin 11-ci zirvə görüşündə qəbul edilən qətnamələrdə də əksini tapıb.

Xocalı soyqırımının 18-ci ildönümü ərəfəsində bir sıra ölkələrdə keçirilən anım tədbirləri əvvəlki illərlə müqayisədə indi daha geniş miqyasda təşkil olunub. Bəşəriyyətə və insanlığa qarşı törədilmiş ən ağır cinayətin baş verdiyi 26 fevral günü yalnız Azərbaycanda deyil, digər müsəlman ölkələrində də humanitar fəlakətlər qurbanlarının xatirəsinin anım günü kimi tarixə düşdü. Bu isə faciənin soyqırımı kimi tanıdılmasına yönəldilmiş addımların nəticəsiz qalmadığını sübut edir.

Görülən məqsədyönlü və səmərəli iş nəticəsində "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının miqyası hər il durmadan genişlənir, bu istiqamətdə aparılan fəaliyyət müsbət nəticələr verir. Heydər Əliyev

Fondunun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyev bununla bağlı demişdir: "Xocalıya Ədalət!" kampaniyası bütün dünyada insanları müharibəyə, ədalətsizliyə qarşı çıxmağa səsləyir. Birgə belə təşəbbüslər irəli sürməklə dünyamızı daha ədalətli və sülh şəraitində yaşada bilərik".

Beynəlxalq kampaniya indi dünya səviyyəsində 25 ölkədə uğurla həyata keçirilir. Əsas məqsədi Xocalı şəhərində insanlığa qarşı törədilmiş cinayətin dünya ictimaiyyətinə çatdırılmasına, faciəyə hüquqi-siyasi və mənəvi qiymətin verilməsinə nail olmaqdan ibarət olan kampaniyaya hazırda dünyanın 125 təşkilatı, eləcə də 125 mindən çox insan qoşulub. Soyqırımının tanıdılması prosesinin sürətlənməsi, bu kampaniyaya getdikcə daha çox insanın qoşulması Heydər Əliyev Fondunun Azərbaycanın haqq səsinin ucaldılması yönümündəki səmərəli fəaliyyətinə bariz nümunədir. İndi dünya birliyi Xocalı şəhərində insanlığa qarşı törədilmiş ən ağır cinayətin günahkarlarını pisləyir.

2010-cu ilin 31 yanvarında dünyanın 56 dövlətinin təmsil olunduğu İKT-nin Parlament Assambleyasının VI sessiyasında Xocalı faciəsi bir daha insanlığa qarşı cinayət kimi qiymətləndirildi. Zaman keçdikcə Xocalı faciəsini insanlığa qarşı cinayət kimi qiymətləndirən aparıcı müsəlman dövlətlərinin təmsil olunduğu nüfuzlu beynəlxalq təşkilatın - İKT-nin bu addımını digər beynəlxalq qurumlar da təkrarlayacaq və məhz o zaman tarixi cinayətin müəllifləri olan erməni cəlladları layiqli cəzalarını alacaqlar. Artıq işğalçı erməni silahlı birləşmələrinin soydaşlarımıza qarşı ağır cinayətləri öz həqiqi qiymətini alır. Dünyanın bir sıra dövlətlərində anım mərasimlərinin təşkili, Xocalı soyqırımı cinayətkarlarının əməllərinin pislənilməsi, beynəlxalq ictimaiyyətin bu məsələyə daim artan diqqəti, Türkiyə Böyük Millət Məclisində faciə ilə bağlı dinləmələrin keçirilməsi bunun ilk əlamətləridir. Azərbaycanın ümummilli maraqlarının təminatçısı, ümummilli liderin bəşəri ideyalarının daşıyıcısı olan Heydər Əliyev Fondunun ölkəmiz barədə əsl həqiqətlərin dünya birliyinə çatdırılması missiyası uğurla davam etdirilir. Bütün bunların nəticəsidir ki, dünya birliyi Xocalıda erməni silahlı birləşmələri tərəfindən törədilmiş tarixi cinayəti kəskin şəkildə pisləyir, qətliamın günahkarlarını daim lənətləyir.

Anar RASİMOĞLU
*"**Azərbaycan**"*
26 fevral 2010-cu il. N 45.Səh. 5

***

"Xocalıya Ədalət!" beynəlxalq kampaniyası uğurla davam edir

Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığındakı səfirliyi Xocalı soyqırımının 18-ci ildönümü və İslam Konfransı Təşkilatı (İKT) Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası ilə bağlı tədbir keçirilib.

Tədbir Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlanmış, Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

"Riyad Palace" konfrans mərkəzində Xocalı faciəsindən bəhs edən kitablardan, foto-video materiallardan ibarət guşə yaradılmış, "Xocalı uşaqların gözü ilə" rəsm sərgisi təşkil olunmuşdur. "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində Azərbaycanda və dünya ölkələrində İKT Gənclər Forumu tərəfindən keçirilmiş tədbirlərin fotosərgisi nümayiş etdirilib.

Mərasim iştirakçılarına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, xüsusilə də, Xocalı soyqırımını əks etdirən disk, kitab və materiallar, Xocalı soyqırımı ilə əlaqədar səfirliyin mətbuat açıqcası, "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasına dair materiallar paylanıb.

Tədbirdə Ər-Riyad şəhərində yerləşən xarici dövlətlərin və beynəlxalq təşkilatların nümayəndəliklərinin başçıları və əməkdaşları, krallığın dövlət və ictimai qurumlarının, kütləvi informasiya vasitələrinin nümayəndələri, Azərbaycan və türk icmalarının nümayəndələri iştirak edib.

Səfir Tofiq Abdullayev çıxışında erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılmış soyqırımı siyasətinin tərkib hissəsi kimi Xocalıda günahsız əhalinin xüsusi amansızlıqla qətlə yetirilməsindən geniş söhbət açmış, həmin faciə zamanı qətlə yetirilmiş, itkin düşmüş və girov götürülmüş insanlar haqqında faktları söyləmişdir.

Səfir bu cinayətin erməni millətçiləri və onların himayədarları tərəfindən planlı şəkildə həyata keçirildiyini vurğulayaraq, indiyədək dünya ictimaiyyəti tərəfindən ermənilərin bu dəhşətli əməllərinə bəşəriyyətə qarşı cinayət kimi hüquqi-siyasi qiymət verilmədiyini təəssüflə qeyd edib. Sonra Xocalı soyqırımını əks etdirən "Məhv edilmiş şəhər" adlı filmi ərəb dilində nümayiş etdirilib.

Azərbaycan-Səudiyyə Ərəbistanı Dostluq Cəmiyyətinin həmsədri İzzət Müfti çıxış edərək, filmdəki dəhşətli səhnələrin terrorun din və milliyyətinin olmadığını bir daha sübuta yetirdiyini, erməni millətçiləri tərəfindən törədilmiş Xocalı soyqırımının təkcə azərbaycanlılara qarşı deyil, bütövlükdə, insanlığa qarşı vəhşilik olduğunu söyləyib. İ.Müfti islam dünyası tərəfindən Azərbaycanın haqq səsinin dəstəklənməsi məqsədi ilə beynəlxalq təşkilatların qəbul etdikləri qətnamələrin yerinə yetirilməsi üçün erməni millətçilərinə təzyiqlər edilməsinin vacibliyini vurğulamış və Ermənistan rəhbərliyinin bu məsələdə birbaşa məsuliyyət daşıdığını deyib.

Sonra səfirliyin birinci katibi T.Qafarov Xocalı soyqırımının törədilməsinə dair siyasi qərarın Ermənistan rəhbərliyi tərəfindən qəbul edilməsi haqqında faktların mövcudluğunu vurğulamış, bu faciəni törədənlərin bir qisminin müəyyənləşdirilməsi və onların beynəlxalq mühakiməyə cəlb olunması məqsədi ilə axtarışın elan edildiyini söyləyib. T.Qafarov "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində 2008-2009-cu illərdə dünya ölkələrində keçirilmiş tədbirlər haqqında məlumat vermiş, bu kampaniyaya dair internet saytı ilə tədbir iştirakçılarını tanış edib. 2010-cu ildə də dünya dövlətlərinin liderlərinə və beynəlxalq təşkilatlara müraciət ünvanlandığını vurğulamış, ictimai qurumlarının nümayəndələrini, sadə vətəndaşları bu təşəbbüsə qoşulmağa çağırıb. İştirakçıların əksəriyyəti müraciətə həmrəylik nümayiş etdirərək, adıçəkilən sənədi imzalayıblar.

Tədbir çərçivəsində "Dəyirman" qrupu və Toni Bləkmənnin "Xocalıya Ədalət!" klipi nümayiş etdirilib.

ZÜMRÜD
"Səs"
26 fevral 2010-cu il. N 36. Səh. 2

***

Xocalıya Ədalət!!!

TBMM sədri Mehmet Əli Şahin: "Xocalı faciəsini dünya ictimaiyyəti tanımalıdır"

Ankara şəhərində Türkiyə Böyük Millət Məclisinin (TBMM) Mədəniyyət Mərkəzinin binasında "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində İslam Konfransı Gənclər Forumunun (İKGF) təşəbbüsü ilə Türkiyədə nəşr etdirilən "Qarabağ: suallar və faktlar" kitabının təqdimat mərasimi keçirilib.

Bu barədə APA-ya İKGF-nin Media Departamentindən bildirilib. Məlumata görə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin tarixi, geosiyasi, hüquqi və mədəni aspektlərini özündə əks etdirən kitabı Azərbaycanın tanınmış alimləri və ekspertləri yazılıb.

Ankarada "Xocalıya Ədalət!"

İKGF- nin Türkiyə deputatlarıyla birgə təşkil etdiyi bu tədbirdə **TBMM-in sədri Mehmet Əli Şahin** danışıb. Mehmet Əi Şahin çıxışında Xocalı faciəsinin dünyada tanınmasının vacibliyini xüsusilə vurğulayıb. O, İKGF Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyevanın təşəbbüsüylə irəli sürülən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyanın fəaliyyətini yüksək qiymətləndirərək, Xocalı qırğınının dünya ictimaiyyətinə çatdırılması üçün xarici ölkələrdə Türkiyə və Azərbaycan icmalarının birgə səylərinin gücləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

"Qarabağ: suallar və faktlar" kitabının təqdimat mərasimində Türkiyə parlamentinin deputatları Cünyed Yüksəl, Azərbaycan-Türkiyə Parlamentlərarası Dostluq Qrupunun sədri Mustafa Kabakçı, qondarma erməni soyqırımı üzrə tarixçi professor Yusif Halacoğlu, Azərbaycanın Türkiyədəki səfiri Zakir Həşimov çıxış ediblər. Türkiyəli deputatlar öz çıxışlarında kitabın ölkə ictimaiyyətinin Qarabağ münaqişəsi haqqında ətraflı və obyektiv məlumat ala biləcəklərinə ümid etdiklərini bildiriblər.

Tədbirin sonunda mart ayının 2-sinə qədər davam edəcək kampaniyanın 1 illik fəaliyyətini əks etdirən "Xocalıya Ədalət!" fotosərgisinin açılışı olub. Tədbir Türkiyənin aparıcı KİV-ləri işıqlandırıb.

Qeyd edək ki, İKGF-nin Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə irəli sürülən "Xocalıya Ədalət!" kampaniyasına 2009-cu ilin fevralında start verilib və hazırda 30-dan artıq ölkədə yüzlərlə könüllünun iştirakı ilə uğurla davam etdirilməkdədir. Kampaniyanın məqsədi beynəlxalq ictimaiyyətin Xocalı faciəsi ilə bağlı məlumatlandırılması, faciəyə beynəlxalq aləmdə mənəvi-siyasi qiymət verilməsi və beynəlxalq səviyyədə anılmasını təmin etməkdir. Kampaniyanın beynəlxalq əlaqələndirilməsi www.justiceforkhojaly.org saytı vasitəsilə aparılır.

"Xocalı soyqırımı - əsrin yaddaşında"

Mirzə Fətəli Axundov adına Milli Kitabxanada "Xocalı soyqırımı - əsrin faciəsi" adlı sərginin açılışı və "Xocalı soyqırımı rabitəçilərin

yaddaşında" kitabının təqdimat mərasimi keçirilib. Tədbiri Milli Kitabxananın direktoru Kərim Tahirov açaraq o ağrılı günləri bir daha yada salıb və bu faciənin Azərbaycan xalqının yaddaşından silinməyəcəyini deyib.

Mədəniyyət və turizm nazirinin müavini Sevda Məmmədəliyeva, rabitə və informasiya texnologiyaları nazirinin müavini İltimas Məmmədov da xüsusi amansızlıqla törədilmiş qanlı cinayət əməlindən danışıblar. Sonra tədbir iştirakçıları "Xocalı soyqırımı - əsrin faciəsi" adlı sərgi və təqdimatı keçirilən kitabla tanış olublar. Sərgidə Xocalı faciəsinə həsr olunmuş 200-dən çox müxtəlif dillərdə çap olunmuş kitab, jurnal, qəzet materialları nümayiş etdirilib.

"Hərbi cinayətlər cəzalandırılmalıdır"

Azərbaycan Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzində "Xocalı soyqırımı: siyasi, hüquqi və psixoloji aspektlər" mövzusunda dəyirmi masa keçirilib. APA-nın xəbərinə görə, tədbirdə əsas məruzəçilər Litva parlamentinin İqtisadiyyat komitəsi sədrinin müşaviri, tarixçi-etnoqraf İmantas Melyantas və "Lazdiyay ulduzu" qəzetinin redaktoru Riçaydas Lapaytis olub.

Riçardis Lapaytis deyib ki, Azərbaycana səfəri təsadüfən Xocalı faciəsinin ildönümünə təsadüf edib. O, 6 dəfə Dağlıq Qarabağda olduğunu, komandirlər və əsgərlərlə söhbət apardığını söyləyib: "İnsanlar kömək gözləyirdi, Avropa isə bunlara göz yumurdu. Jurnalistin vəzifəsi insanlıq əleyhinə cinayətləri qeydə almaqdır. Həmin vaxt erməni diasporası yaxşı işləyirdi və hamı ermənilərin çəkdiyi əzablardan danışırdı. Biz jurnalistlər faktları toplamaq üçün əlimizdən gələni etdik. Çünki faktlar yox olmur. Hərbi cinayətlər cəzalandırılmalıdır".

İmantas Melyantas isə Litva ictimaiyyətinin uzun müddət erməni təbliğatının təsiri altında qaldığını və tədricən bu təsəvvürləri dəyişməyin mümkün olduğunu vurğulayıb: "1989-cu ildə mən özüm də erməni təbliğatının əsiri idim. Bu təbliğat qədər güclü idi ki, deyilənlərin doğru olub-olmadığını heç düşünmürdük. Vaxt keçdikcə aydınlaşdı ki, belə deyil. Mən məsələni öyrəndim və uzun müddət Litvada beyinlərə yeridilənlərə zidd mənzərə ortaya çıxdı". İmantas Melyantas son iki ildə faktoloji materialların ictimaiyyətə təqdim edilməsindən sonra bu məsələyə baxışların dəyişdiyini vurğulayıb.

Niderlandda imzatoplamanın nəticələri açıqlanacaq

"Xocalıya Ədalət!" beynəlxalq informasiya kampaniyasının Niderland Komitəsi Xocalı faciəsinin 18-ci ildönümüylə bağlı tədbirlər planını təsdiqləyib. Anım mərasimləri 2008-ci ildə Haaqada Azərbaycan-Türkiyə Cəmiyyətinin Xocalı şəhidlərinin xatirəsinə ucaldılmış abidənin qarşısına xatirə çələngi qoymaqla başlayacaq. Həmin gün Amsterdam Açıq Universitetində Xocalı soyqırımına həsr olunmuş konfrans keçiriləcək. Konfransı "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının Niderland Komitəsi və "Anadolulu tələbələr" qeyri-hökumət təşkilatının dəstəyilə baş tutacaq. Konfransda Azərbaycanın Niderland Krallığındakı səfiri Fuad İsgəndərovun, Almaniyada yaşayan yazıçı Orxan Arazın, Türkiyədən gəlmiş məşhur şair Yavuz Büləndin Bakilərin çıxışları nəzərdə tutulur. Daha sonra Amsterdam Universitetinin müəlliməsi, pianoçu Sara Krombaxın ifasında Azərbaycan mahnılarından ibarət matəm konserti keçiriləcək. Tədbirlər çərçivəsində "Xocalıya ədalət tələb edirik" fotosərgisinin təşkili, "Xocalıya Ədalət!" klipinin təqdimatı da planlaşdırılır. Konfransın sonunda "Xocalıya Ədalət!" kampaniyasının Niderland Komitəsinin sədri, Kral Ordeni cəngavəri Qert van Dam kampaniyaya dəstək çərçivəsində imzatoplama kampaniyasının nəticələrini açıqlayacaq. Xatırladaq ki, ötən il dekabrın 10-da - Beynəlxalq İnsan Haqları Günü başlayan kampaniya çərçivəsində 3 mindən artıq imza toplanıb. Tədbir ehsan mərasimilə başa çatacaq.

Xocalı soyqırımı Fransada anılır

Fransada Xocalı faciəsinin 18-ci ildönümü ilə bağlı tədbirlərin keçirilməsi məqsədi ilə bu ölkədə səfərdə olan Azərbaycan nümayəndə heyəti diaspor təmsilçiləri ilə görüşüblər. Bu barədə APA -ya Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzindən (ATXƏM) bildirilib. Məlumata görə, ATXƏM Strasburq "Azərbaycan Evi" ilə birgə Xocalı faciəsinin 18-ci ildönümü ilə bağlı fevralın 24-28-də Paris və Strasburq şəhərlərində silsilə tədbirlər həyata keçirir.

Fevralın 24-də Azərbaycan nümayəndə heyəti Azərbaycanın Fransadakı səfirliyində səfir Elçin Əmirbəyov və Fransadakı diaspor nümayəndələriylə görüşüblər. Görüşdə Fransadakı diaspor təşkilatlarıyla birgə əməkdaşlıq məsələləri müzakirə olunub. Qərara alınıb ki, Azərbaycanın ümummilli məsələlərinin həll olunması və Azərbaycan həqiqətlərinin daha

mütəşəkkil təbliğ olunması üçün birgə əməkdaşlıq səylərini gücləndirmək vacibdir. Görüşdə Azərbaycan nümayəndə heyəti Azərbaycan və Qarabağla bağlı 40-a yaxın (ingilis və fransız dilində) kitab və bukletləri səfirliyə təqdim ediblər.

Dünən isə Azərbaycan nümayəndə heyətinin üzvləri Strasburqda ITIRI- Yazılı və Sinxron tərcümə və Beynəlxalq Əlaqələr İnstitutunda "Azərbaycan Respublikasının Diaspora siyasəti, icrası və Azərbaycan Diasporasının əsas məsələləri (Qarabağ)" konfransına qatılıblar.

Litva parlamentində Xocalı soyqırımıyla bağlı tədbir keçirilib

Fevralın 24-də Litva Seymində səfirliyimizin təşəbbüsü və Demokratik Siyasət İnstitutunun dəstəyilə Xocalı soyqırımıyla bağlı tədbir keçirilib.

Demokratik Siyasət İnstitutunun rəhbəri, Seymin üzvü Mantas Adomenas çıxışında Xocalı soyqırımı ilə bağlı Litva ictimaiyyətində az məlumat olduğunu, Vilnüsdə Azərbaycan səfirliyinin açılmasından sonra bu sahədə xeyli iş görüldüyünü deyib. O, dinc azərbaycanlılara qarşı törədilən Xocalı soyqırımını Serebrennitsa qətliamı ilə eyniləşdirərək, etnik təmizləmə siyasətini pisləyib.

Litva Seymində Azərbaycanla dostluq qrupunun rəhbəri Egidiyus Vareikis Ruandada, Syerra-Leonedə törədilən qətliamların Xocalı soyqırımı ilə eyni olduğunu bildirib, buna baxmayaraq, beynəlxalq müstəvidə Xocalı qətliamına hüquqi qiymət verilməsinin gecikdiyinə diqqəti yönəldib.

Litvanın nüfuzlu qurumlarından olan Soyqırım İnstitutunun sabiq direktoru, deputat Dalia Kuodite çıxışında, Litva xalqının da uzun illər genosidə məruz qaldığı üçün azərbaycanlıların faciəsini yaxşı başa düşdüklərini bildirərək, dünyanın istənilən yerində insanlığa qarşı törədilən vəhşiliklərə biganə qalmamağa çağırıb.

Tədbirdə "Salnamə" studiyasında hazırlanan "Dua" filmi də nümayiş olunub. Heydər Əliyev Fondunun hazırladığı "Qarabağ həqiqətləri" toplusu, müxtəlif əyani vəsaitlər, həmçinin səfirlik tərəfindən Litva və ingilis dillərində xüsusi hazırlanmış çap nümunələri sərgilənib.

"İrəli" Avropanın 9 şəhərində aksiyalar keçirəcək

Dünən Tiflisin Şota Rustaveli adına Milli Dram Teatrında Azərbaycan Dövlət Simfonik Orkestri Xocalıya həsr olunan xatirə konserti keçirilib.

İspaniya, Türkiyə, Ukrayna və İraqın bu ölkədəki səfirlərinin, habelə dövlət rəsmilərinin iştirak etdiyi tədbirdə Azərbaycan və gürcü bəstəkarlarının əsərləri ifa edilib. Konsertdə Azərbaycanın Gürcüstandakı Səfiri Namiq Əliyev çıxış edib. Xatirə konsertində Gürcüstan prezidentinin anası Giuli Alasaniya da iştirak edib.

Xocalı soyqırımının ildönümü münasibətilə "İrəli" İctimai Birliyinin dəstəyilə Avropanın 9 şəhərində aksiyalar və tədbirlər keçiriləcək. Tədbirlər Hollandiya, Böyük Britaniya, Fransa, Almaniya, Ukrayna, Latviya, Litva və Estoniyada təşkil olunur. "İrəli" İctimai Birliyi hazırlıq işlərini yekunlaşdırmaq üzrədir.

"Xalq cəbhəsi".
26 fevral 2010-cu il. №36. Səh. 3

***

Xocalı faciəsi insanlığa qarşı görünməmiş soyqırımıdır

Fevralın 25-də Parisin "Prəns de Qall" hotelində Azərbaycanın Fransadakı səfirliyi və ölkəmizin YUNESKO yanında daimi nümayəndəliyi tərəfindən Xocalı faciəsinin 18-ci ildönümü və İslam Konfransı Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq Üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçirilən "Xocalıya Ədalət!" kampaniyasının təqdimatı ilə bağlı mərasim keçirilmişdir.

Fransa ictimaiyyəti nümayəndələrinin azərbaycanlılara qarşı soyqırımı bir çox ölkələrin səfirlərinin, akkreditə olunmuş diplomatik korpusun əməkdaşlarının, Fransanın ölkəmizdəki keçmiş səfirlərinin, YUNESKO yanında nümayəndəliklərin rəhbərlərinin, faciə ilə bağlı Fransada keçirilən tədbirlərdə iştirak etmək üçün Parisə səfər etmiş Azərbaycan nümayəndə heyətinin üzvlərinin, diaspor təmsilçilərinin, bu ölkədə yaşayan azərbaycanlıların və təhsil alan tələbələrimizin, jurnalistlərin iştirak etdiyi mərasimi açan səfir Elçin Əmirbəyov Xocalı faciəsi barədə ətraflı məlumat vermiş, qana susamış erməni hərbçilərinin Azərbaycanın Xocalı şəhərinə soxularaq bir gecənin içərisində dinc əhaliyə amansızlıqla divan tutduqlarını, hətta qadın, uşaq və yaşlı insanlara belə aman vermədiklərini diqqətə

çatdırmış, bu etnik təmizləmə praktikası siyasətinin hələ ötən əsrin əvvəllərindən aparıldığını qeyd etmişdir.

Səfir Xocalı faciəsinin insanlığa qarşı görünməmiş soyqırımı olduğunu demiş, faciəyə beynəlxalq təşkilatlar tərəfindən indiyədək hüquqi qiymət verilməməsindən təəssüf hissi keçirdiyini bildirmiş, bütün dünya ictimaiyyətinin Xocalı soyqırımı barədə hərtərəfli məlumat əldə etməsinin vacibliyini vurğulamışdır. Bəşəriyyətə qarşı yönəlmiş bu soyqırımının yaddaşlarda həmişəlik iz saldığını, o dəhşətli gecədən uzun illər keçməsinə baxmayaraq, bu faciə haqqında əsl həqiqətlərin bütün dünyaya çatdırılmasının zəruri olduğunu bildirmişdir. Diplomat İslam Konfransı Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi və Heydər Əliyev Fondunun Rusiya Federasiyasındakı təmsilçisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya Ədalət!" kampaniyasının keçirildiyini və iştirakçıları bu məqsədlə dünyanın müxtəlif ölkələrinin rəsmilərinə ünvanladığı müraciətə imza atmağa çağırmışdır.

Fransanın Azərbaycandakı ilk səfiri Jan Perren Xocalı faciəsinin ölkəmizdə fəaliyyətə başladığı dövrə təsadüf etdiyini xatırlatmış, faciənin XX əsrin ən dəhşətli soyqırımı olduğunu, dinc sakinlərə qarşı əsl qətliam törədildiyini, şəhər sakinlərinin bir qisminin öldürüldüyünü, bir qisminin əsir götürüldüyünü, canlarını qurtarmaq üçün dağlara qaçan insanların bir çoxunun yolda qışın sərt şaxtasında donduğunu qeyd etmişdir.

Keçmiş səfir həmin dövrdə yaralıların yerləşdiyi xəstəxanalara baş çəkdiyini, onların insanları dəhşətə gətirən gecə barədə söhbətlərini dinlədiyini, xarici jurnalistlərin bu hadisəyə biganə qalmadıqlarını, Xocalı faciəsinin yalnız azərbaycanlılara qarşı deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş bir soyqırımı olduğunu diqqətə çatdırmışdır.

Azərbaycan-Fransa Gəncləri Assosiasiyasının sədri Mirvari Fətəliyeva Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçirilən "Xocalıya Ədalət!" kampaniyasını təqdim etmişdir. Sonra Xocalı faciəsindən bəhs edən klip nümayiş etdirilmişdir.

Mərasimdə Xocalı faciəsinin xatirəsinə həsr edilmiş klassik musiqi nümunələri ifa olunmuşdur. Sorbon Universitetinin magistri Səidə Zülfüqarova pianoda və fransız musiqiçisi Prisiy Laşa Sanet skripkada Azərbaycan və Avropa bəstəkarlarının əsərlərini səsləndirmişlər.

İştirakçılar Xocalı soyqırımına dair sərgi ilə tanış olmuşlar. Sərgidə faciə ilə bağlı Heydər Əliyev Fondunun nəşr etdirdiyi, Prezident Administrasiyası, Azərbaycanlıların və Türk Xalqlarının Əməkdaşlığı Mərkəzi

tərəfindən təqdim olunmuş kitab və broşürlar, kiçik yaşlı rəssamların çəkdikləri rəsmlər, disklər və kasetlər nümayiş etdirilmişdir.

Əsgər ƏLİYEV
***AzərTAc**-ın xüsusi müxbiri , Paris*
"Xalq qəzeti"
27 fevral, 2010-cu il. N 46. Səh. 3

***

Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası bu faciəni dünyada XX əsrin ən qanlı soyqırımlarından biri kimi tanıdıb

XIX əsrin əvvəllərindən başlayaraq Qafqazda kütləvi şəkildə məskunlaşdırılan ermənilər az müddət sonra bölgəni sözün əsl mənasında "qan çanağı"na çeviriblər.

Ermənilərin "böyük Ermənistan" yaratmaq kimi iddialı ideyanın gerçəkləşməsi yolunda atdıqları addımlar azərbaycanlılara qarşı kütləvi qətllərin və soyqırımı aktlarının həyata keçirilməsi ilə nəticələnib. Bu qanlı tarix qısa fasilələrlə bütün XX əsr boyu dönə-dönə təkrarlanıb. Lakin özlərinin uydurma ideyalarının qurbanı olan ermənilər bu gün dünya birliyinin qınaq mənbəyinə, ən əsası isə bir tikə çörəyin əsirinə çevriliblər.

Tarix təsdiq edir ki, ermənilərin Qafqazda törətdikləri qırğınlar və soyqırımı aktları bir niyyətə əsaslanır: nəyin bahasına olursa-olsun Azərbaycan torpaqlarında məskunlaşmaq və aborigen xalq olduqlarını təsdiqləmək. Bu mənfur niyyəti reallaşdırmağın yolu isə azərbaycanlıların kütləvi soyqırımından, qanlı talanlardan və deportasiya siyasətindən keçir. 1918-ci ilin martında Bakıda və Azərbaycanın digər bölgələrində həyata keçirilmiş dəhşətli soyqırımı aktı ermənilərin Qafqazda məskunlaşması üçün bir açar olub. Onlar həmin vəhşi əməlləri ilə bir növ bu bölgədə yaşamaq və Azərbaycan türklərinin tarixi vətəni olan indiki Ermənistan ərazisində dövlət qurmaq niyyətlərini reallaşdırıblar.

Azərbaycan müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilib. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulan həqiqətlər açılıb, təhrif edilmiş hadisələr əsl qiymətini alıb. Ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da

imzaladığı Fərmanla 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilib. Bununla da, Azərbaycan tarixində erməni məsələsinə münasibətdə yeni strategiya müəyyənləşib. Bu, həm də Azərbaycan xalqının əsrlər boyu üzləşdiyi məhrumiyyətlərə rəhbəri Heydər Əliyev olan dövlətin verdiyi əsl tarixi qiymət idi. Təsadüfi deyil ki, bu proses sonrakı mərhələdə Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşib. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində artıq dünya və beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıyıblar.

Xocalı həqiqətlərinin dünyaya çatdırılması, bu həqiqətlərin beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində atılan addımları Heydər Əliyev Fondu davam etdirir. Məhz Fondun gərgin əməyi nəticəsində əvvəlki illərdən fərqli olaraq indi dünya ölkələri erməni qəsbkarlarının insanlığa sığmayan qətlləri haqqında daha dolğun məlumatlandırılıb. Bir sıra dövlətlər, beynəlxalq təşkilatlar, nüfuzlu qurumlar bəşəriyyətə qarşı törədilmiş bu cinayətin əsl mahiyyətini anlayaraq qətliamı kəskin şəkildə pisləyir.

Heydər Əliyev Fondunun dəstəyi ilə Xocalı faciəsinin ildönümü bu il dünyanın 100-dən artıq nöqtəsində qeyd olunur. Soyqırımına həsr olunmuş silsilə tədbirlər Fondun hazırladığı təbliğat materialları əsasında həyata keçirilir. Mərasimlərin hər il keçirildiyi şəhərlərin sırasına bu il Oslonun da adı əlavə edilib.

Heydər Əliyev Fondunun ayrı-ayrı ölkələrdə geniş miqyasda təşkil etdiyi və faciənin həqiqətlərinin yayılmasına yönəldilmiş anım tədbirləri Rusiya Federasiyasındakı nümayəndəlik tərəfindən İslam Konfransı Təşkilatının (İKT) Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumu çərçivəsində davam edir.

2008-ci il mayın 8-dən İslam Konfransı Təşkilatının (İKT) Gənclər Forumunun (İKGF) Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə təsis edilən, fəaliyyətinə 2009-cu ilin fevralında start verilən və hazırda 30-dan artıq ölkədə yüzlərlə könüllünün iştirakı ilə uğurla davam etdirilən "Xocalıya Ədalət!" Beynəlxalq İnformasiya və Təşviqat Kampaniyası da bu işə öz töhfəsini verməkdədir. Bu kampaniyanın məqsədi beynəlxalq ictimaiyyəti Xocalı faciəsi ilə bağlı məlumatlandırmaq, qətliama beynəlxalq aləmdə mənəvi - siyasi qiymət verilməsinə və bu qanlı qırğının qurbanlarının xatirəsinin anılmasına nail olmaqdır. Kampaniyanın beynəlxalq əlaqələndirilməsi www.justiceforkhojaly.org saytı vasitəsilə aparılır.

Beynəlxalq kampaniya dünyanın müxtəlif ölkələrində Xocalı faciəsi ilə bağlı real faktların foto və film sərgiləri, internet, beynəlxalq konfranslar və nümayişlər, o cümlədən aparıcı beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərin keçirilməsi vasitəsilə çatdırılmasını nəzərdə tutur. Kampaniya və buna oxşar təşəbbüslər dünyadakı ədalətsizliyi aradan qaldırmaqla, bəşəriyyətə sülh, əmin-amanlıq gətirir. "Xocalıya Ədalət!" kampaniyası bütün dünyada insanları müharibəyə, ədalətsizliyə qarşı çıxmağa səsləyir. Kampaniya Azərbaycan gəncliyinin Qarabağ həqiqətlərini, münaqişənin həllində ölkəmizin ədalətli mövqeyini və Xocalı soyqırımını bütün təfərrüatı ilə dünya ictimaiyyətinin diqqətinə çatdırmaq baxımından müasir tariximizin mühüm mərhələsi olub.

Leyla xanım Əliyevanın Xocalı soyqırımının daha geniş miqyasda qeyd olunması təşəbbüsü bir sıra ölkələrdə dövlət səviyyəsində dəstəklənib.

Bu il yanvarın 31-də İslam Konfransı Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının (İKT Pİ) Uqandanın paytaxtı Kampala şəhərində keçirilən və 51 ölkənin parlament heyətləri başçılarının iştirak etdiyi VI sessiyasında forumun təşəbbüsü ilə "İKGF ilə İKT Pİ arasında əməkdaşlıq haqqında" qətnamə imzalanıb. "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində qəbul olunmuş qətnamədə Xocalı faciəsinə "Erməni silahlı qüvvələri tərəfindən dinc əhalinin kütləvi qətliamı" və "İnsanlığa qarşı cinayət" kimi qiymət verilib. Qətnamədə "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasına həm milli, həm də beynəlxalq səviyyədə tam dəstək verməyə çağıran bənd də öz əksini tapıb. Bu, beynəlxalq təşkilatlar tərəfindən Xocalı faciəsini "İnsanlığa qarşı cinayət" kimi tanıyan ilk sənəddir.

Uqandada keçirilən tədbirdə iştirak edən dövlətlərin nümayəndələri qətnamənin qəbul edilməsinə yekdilliklə səs veriblər. Sənədin qəbul olunmasında İKT ölkələri parlamentlərinin 10-dan çox sədri və təqribən 100 deputat, mötəbər qurumların nümayəndələri iştirak ediblər.

Nəzərə alsaq ki, İKT Parlament İttifaqı öz sıralarında dünya parlamentlərinin demək olar, dörddəbirini cəmləşdirir və dünyanın ən böyük parlamentlərarası beynəlxalq qurumlarındandır, həmin qətnamədə Xocalı qətliamının beynəlxalq hüququn normalarına əsasən insanlığa qarşı cinayət adlandırılması Xocalı soyqırımının dünya səviyyəsində tanınmasında, bu cinayəti törədənlərin məsuliyyətə cəlb edilməsində keyfiyyətcə yeni bir mərhələ açacaq. Sənəd Ermənistana da çatdırılacaq. Çünki, Kampalada keçirilən sessiyada beynəlxalq təşkilatların nümayəndələri, o cümlədən,

Ermənistanın da üzv olduğu Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Birliyinin nümayəndələri iştirak ediblər.

Qətnamənin digər bir bəndində "Xocalıya Ədalət!" kampaniyasına tam dəstək verilib.

Bu, Leyla xanım Əliyevanın təşəbbüsü ilə artıq bir ildir ki, fəaliyyət göstərən "Xocalıya Ədalət!" kampaniyasının növbəti ciddi uğurudur.

Birinci uğuru kampaniya başlanandan az sonra İKT Xarici İşlər Nazirləri tərəfindən Xocalı faciəsini kütləvi qırğın kimi qiymətləndirmək barədə qətnamənin qəbuluna nail olunmasıdır. Keçən ilin iyulunda isə İKT Gənclər Forumu ilə İSESKO arasında imzalanmış anlaşma nəticəsində Xocalı faciəsi haqqında məlumatın İKT ölkələrinin tarix dərsliklərinə salınması barədə razılıq əldə edilib.

Bundan əlavə, ötən ilin dekabrında BMT çərçivəsində keçirilən konfransda Xocalı soyqırımı Ruanda, Srebrenitsa, Xolokost kimi dünya tərəfindən tanınmış soyqırımları ilə yanaşı, İnsan Haqları Günündə yada salınıb və bununla əlaqədar BMT-də konfrans keçirilib.

Xalqımız 1948-ci il 9 dekabr tarixli "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması" konvensiyasını rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir. Dünya bilməlidir ki, bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün bəşəriyyətə qarşı yönəldilib.

"Xocalıya Ədalət!" kampaniyasının səyi ilə Xocalı qətliamının adı İsveçdə yaradılıb və virtual aləmdə geniş vüsət almış mükəmməl "Beynəlxalq Müharibə Qurbanları Memorialı" arxiv layihəsinə daxil edilib. Layihədə kampaniyanın rəsmi saytına istinad edilərək Dağlıq Qarabağ müharibəsi zamanı erməni silahlı qüvvələri tərəfindən Xocalı şəhərində xüsusi amansızlıqla öldürülənlərin siyahısı yerləşdirilib, faciə saytın istifadəçilərinə XX əsrin ən dəhşətli qətliamı kimi təqdim edilib (http://war-memorial.net/Victims-of-the-Khojali-Massacre-1.224).

Xatırladaq ki, "Beynəlxalq Müharibə Qurbanları Memorialı" layihəsi II Dünya müharibəsindən sonra dünyada baş vermiş müharibələr, soyqırımları və qətliamların qurbanları olmuş adamların siyahısını verir, şəkillər və faktlarla birlikdə hadisələrin xülasəsini əks etdirir. XX əsrin ikinci yarısından bu günədək soyqırımı və qətliamlarda həlak olmuş insanların siyahıyaalma prosesində insan hüquqları ilə məşğul olan institutlar, alimlər, beynəlxalq və qeyri-hökumət təşkilatları, tədqiqatçılar iştirak edirlər.

Beləliklə, görürük ki, Leyla Əliyevanın qətliama obyektiv qiymət verilməsi təşəbbüsləri dünyanın sülhpərvər qüvvələri, demokratik ölkələri tərəfindən birmənalı dəstəklənib.

Azərbaycanın haqlı mövqeyinin dünya dövlətləri tərəfindən dəstəklənməsi bədnam qonşularımızı yaman qıcıqlandırır.

Ermənistan hökuməti ölkə ərazisində yerli istifadəçilərə "Xocalıya Ədalət!" kampaniyasının rəsmi saytına (www.justiceforkhojaly.org) girişi qadağan edib. Yerevandan olan gənc internet istifadəçilərindən biri kampaniyanın Facebook səhifəsində (http://www.facebook.com/pages /Khojaly-town/Justice-for-Khojaly-Campaign/101823787520?ref=mf) yazır: "Mənim yüksək keyfiyyətli internetim var, lakin sayta girəndə "qadağandır" sözü yazılır. Mən müxtəlif yerlərdən sayta girməyə cəhd etsəm də, eyni nəticə ilə üzləşirəm".

Ermənistan əhalisinin, xüsusilə, gənclərin internet saytlara daxil olmaqda üzləşdikləri problem bu ölkədə informasiya azadlığının və insan hüquqlarına dair beynəlxalq öhdəliklərin Ermənistan hakimiyyəti tərəfindən kobud şəkildə pozulmasının sübutudur.

"Xocalıya Ədalət!" kampaniyasının Facebook səhifəsinin administratoru Elməddin Mehdiyev bildirib ki, həqiqətən Ermənistanda www.justicefor khojaly.org saytına girişə qadağa qoyulub. Hətta, Ermənistanın internet məkanında sayta bizim tərəfdən qadağa qoyulduğu haqda şayiə yayılıb. Bunun Ermənistan hakimiyyətinin növbəti yalanı olduğunu aşağıdakı faktlar sübut edir:

- Məlum olduğu kimi, sayt kampaniyanın ABŞ-dakı fəalları tərəfindən yaradılıb və bu ilin fevralından dünyanın 101 ölkəsindən 15 min nəfər saytın materialları ilə tanış olub.
- Sayta girişə Azərbaycan ərazisindən məhdudiyyət qoyulması texniki baxımdan qeyri-mümkündür.
- Bundan başqa, erməni təbliğatçıları kampaniyanın məqsədlərindən birinin Xocalı faciəsi haqqında düzgün məlumatın məhz, Ermənistan ictimaiyyətinə çatdırılması olduğunu nəzərə almayıblar. Çünki yaradıcılar tərəfindən sayta Ermənistanda girişə qadağa qoyulması məntiqə uyğun deyildir.

Bu faktlara və İKT üzrə mütəxəssislərin rəylərinə əsaslanıb əminliklə demək olar ki, Xocalı qırğınını törədən və indiki Ermənistan hakimiyyətində təmsil olunanlar bu faciə barədə düzgün məlumatın Ermənistanda yayılmasının qarşısını almaq üçün ölkədə sayta girişə qadağa qoyublar.

Xocalı faciəsinin dünya dövlətləri tərəfindən soyqırımı kimi tanınması, qətliama ayrı-ayrı ölkələrin qanunverici orqanları tərəfindən obyektiv qiymət verilməsi tarixi zərurət olaraq qalmaqdadır. Artıq bir sıra dövlətlər 1992-ci ilin 25-26 fevralında soydaşlarımıza qarşı törədilmiş etnik təmizləmə cinayətinin əsl mahiyyətini anlayır, qətliama siyasi qiymət verilməsinin bəşəri borc olduğunu başa düşürlər.

Soyqırımın tanıdılması və qətliama siyasi qiymət verilməsi istiqamətində görülən işlər artıq daha ciddi nəticələr verməkdədir.

Dünyanın bir çox nöqtələrində insanlığa qarşı baş verən və həyata keçirilən cinayətlərlə bağlı İKT tərəfindən bir neçə proqram reallaşdırılır. Lakin təhlillər göstərir ki, ən böyük haqsızlıq Xocalı soyqırımı ilə bağlıdır, çünki dünya bu hadisələrin arxasında hansı səbəblərin durduğunu və Dağlıq Qarabağ münaqişəsinin təkanverici qüvvəsinin nə olduğu barədə həqiqətlərin heç on faizini də bilmir. Buna görə də, Leyla Əliyevanın təşəbbüsü təqdir olunmalı və alqışlanmalıdır.

"Xocalıya Ədalət!" beynəlxalq kampaniyası hansısa xalqa qarşı yönəlməyib. Xocalıya ədalət - Azərbaycan ərazilərinin işğaldan azad edilməsi və erməni xalqının yoluxucu "böyük Ermənistan" şovinizm ideologiyasından azad edilməsidir, Xocalıya ədalət - həlak olan insanların xatirəsinə münasibətdə ədalətdir.

Xocalıda azərbaycanlıların soyqırımına qarşı etirazını bildirən ilk rusiyalılardan biri, yazıçı, "Qarabağın qanlı girdabı" kitabının müəllifi Yuri Pompeyev 1992-ci il fevralın 26-da olmuş hadisələr barədə öz təəssüratlarını bölüşüb. Onun sözlərinə görə, 1990-ci ilin Qara Yanvarından sonra Azərbaycana qarşı növbəti qanlı aksiyanın hazırlandığı məlum idi. O, sovet ordusunun 366-cı motoatıcı alayının Qarabağdan çıxarılması çağırışı ilə Rusiya rəhbərliyinə teleqram göndərməklə buna mane olmağa çalışmışdı. "Təəssüf ki, bunu etmək mümkün olmadı", - deyə üzr istəyən yazıçı bildirib.

26 fevral yalnız Azərbaycanda deyil, digər müsəlman ölkələrində də humanitar fəlakət qurbanlarının xatirəsinin anma günü kimi tarixə düşüb. Bu isə faciənin soyqırımı kimi tanıdılmasına yönəldilmiş addımların nəticəsiz qalmadığını sübut edir.

Tarix unudulmaq üçün yazılmır. Erməni vəhşilikləri Azərbaycan tarixinin qanla yazılmış səhifəsidir. Bu səhifəyə yazılmış cinayətlər xalqımızın qan yaddaşına həkk olunub. Erməni terroru, qətliamı qurbanlarının ruhu bizi qisasa səsləyir.

İnanırıq ki, Xocalı soyqırımını törədənlər öz layiqli cəzalarını alacaq və şəhidlərimizin ruhu dinclik tapacaq. Bu, gec-tez baş verəcək. Çünki, Azərbaycan yerləşdiyi bölgədə söz və nüfuz sahibidir, gündən-günə güclənir və qüdrətlənir. Gücümüz və qüdrətimiz, dövlət başçımızın qətiyyəti sayəsində Azərbaycan xalqının haqq işi qalib gələcək.

AzərTAc
"Yeni Azərbaycan"
27 fevral 2010-cu il. N.37.Səh. 3

***

"Xocalıya Ədalət!" kampaniyası çərçivəsində Ukraynada anım mərasimləri keçirilmişdir

Yüz minlərlə soydaşımız yaşayan dost Ukraynada XX əsrin faciəsi olan Xocalı soyqırımının 18-ci ildönümü ilə bağlı anım mərasimləri keçirilmişdir. Mərasimlərdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı analoqu olmayan vəhşiliklər törədilməsindən, genosid siyasətindən söhbət açılmış, insan hüquqlarının kütləvi və kobud şəkildə pozulması ilə nəticələnmiş Xocalı soyqırımına hələ də beynəlxalq miqyasda hüquqi qiymət verilmədiyi, terrorçu əməllərə qarşı qəti tədbirlər görülmədiyi təəssüflə qeyd olunmuşdur.

Kiyev şəhərində Ukraynanın bir sıra aparıcı gənclər təşkilatları fəallarının, tarixçi alimlərin, politoloqların və jurnalistlərin qatıldığı mərasimi Ukrayna Avropa gənclər hərəkatının Kiyev şəhər təşkilatının sədri S. Aleksandra açaraq, 18 il bundan öncə Xocalıda ermənilər tərəfindən törədilən bəşəri cinayətin hələ də cavabsız qalmasından danışmışdır. Əsrlər boyu Ukrayna xalqının da dəfələrlə soyqırım və faciələrlə üzləşdiyini bildirən "İrəli" İctimai Birliyinin Ukraynadakı təmsilçisi Cavid Hüseynzadə "Xocalıya Ədalət!" kampaniyasına qoşulan ukraynalı həmyaşıdlarına minnətdarlığını çatdırmışdır.

Ukrayna Avropa Gənclər Hərəkatı təşkilatının fəallarından Xoleç Alesya, azərbaycanlı gənclərdən Rəhim Hacıyev və başqaları Xocalı faciəsi ilə bağlı beynəlxalq təşkilatlara və dünya birliyinə müraciət etmək üçün imza toplama kampaniyasına qoşulduqlarını bildirmişdir.

Sonra mərasimə qatılanlar Ukrayna dövlət televiziyasının aparıcı jurnalisti Georqi Spasokukotskinin və Azərbaycan televiziyasının Ukrayna və Şərqi Avropa ölkələri üzrə xüsusi müxbiri Möhsüm Qədiroğlunun ssenarisi əsasında çəkilmiş **"Qarabağ tarixin burulğanında**" sənədli filminə baxmaqla son iki əsrdə erməni və ermənipərəst qüvvələrin Azərbaycan xalqına qarşı həyata keçirdikləri amansız faciə və soyqırım siyasəti ilə tanış olmuşlar. Filmdə göstərilənlərin sırf tarixi faktlara əsaslandığını bildirən tarixçi alimlərdən Fərhad Turanlı, Nataliya Rudenko və digər çıxış edənlər Xocalı faciəsinin hələ də cəzasız qalmasını bəşər tarixinin qara ləkəsi adlandırmışlar.

Toplantıya qatılanlara həmçinin Heydər Əliyev Fondu tərəfindən nəşr olunmuş, Qarabağ həqiqətlərini özündə əks etdirən kitablar paylanmışdır.

Xocalı soyqırımının 18-ci ildönümü ilə bağlı TREND-in erməni vandalizminə dair çəkdiyi film Ukrayna ictimaiyyətinə təqdim olunmuşdur.

Ukraynanın Donetsk şəhərində TREND Beynəlxalq İnformasiya Agentliyinin prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu layihəsi çərçivəsində erməni vandalizminə dair çəkdiyi "Sözün bitdiyi zaman" adlı sənədli filmin təqdimatı keçirilmişdir.

Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin həyata keçirdiyi "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində Dünya Azərbaycanlıları Konqresinin Ukrayna nümayəndəliyinin və Donetsk Azərbaycanlıları Konqresinin birgə təşəbbüsü ilə təşkil olunan təqdimat mərasimində Azərbaycan və Ukraynanın ictimai-siyasi xadimləri, ziyalılar, diaspor fəalları və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

Təqdimat mərasimini Dünya Azərbaycanlıları Konqresinin Ukrayna üzrə nümayəndəliyinin rəhbəri Möhlət Hüseynov açaraq bəşər tarixinin ən qanlı salnaməsi kimi tarixə düşən Xocalı soyqırımından 18 il ötməsinə baxmayaraq, beynəlxalq təşkilatların və dünya birliyinin hələ də bu faciəyə hüquqi-siyasi qiymət verməməsini tarixi ədalətsizlik kimi dəyərləndirmişdir. "Xocalı faciəsi təkcə əlli milyonluq azərbaycanlının deyil, bütün dünyanın faciəsidir. "Mən hesab edirəm ki, dünya birliyi ermənilərin belə bir dəhşətli soyqırım siyasətinə göz yummaqla tarix qarşısında bu faciəni törətmək qədər bir məsuliyyəti öz üzərinə götürüb" deyən M. Hüseynov Azərbaycan və Ukrayna dövlət televiziyalarının birgə layihəsi əsasında çəkilmiş "Qarabağ tarixin burulğanında" filminin o cümlədən TREND Beynəlxalq İnformasiya

Agentliyinin çəkdiyi **"Sözün bitdiyi zaman"** adlı sənədli filminin üç dildə Qarabağ həqiqətlərinin və erməni vandalizminin dünya ictimaiyyətinə təqdim edilməsində mühüm rol oynayacağını bildirmiş, və tarixi materiallarla zəngin olan hər iki filmin ssenari müəllifləri Emil Hüseynliyə və Möhsüm Qədiroğluna minnətdarlığını bildirmişdir.

Sonra mərasimə qatılanlar "**Qarabağ tarixin burulğanında"** və **"Sözün bitdiyi zaman**" filmlərinə baxmaqla ermənilərin 1992-ci ildə Xocalı şəhərində uşaqlara, qadınlara, qocalara və dinc əhaliyə qarşı həyata keçirdikləri soyqırım siyasətini özündə əks etdirən vəhşiliklərin bir daha şahidi olublar.

Təqdimat mərasimində çıxış edən Azərbaycan Teleradio Verilişləri QSC-nin Ukrayna və Şərqi Avropa ölkələri üzrə xüsusi müxbiri Möhsüm Qədiroğlu son illər Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində həyata keçirilən silsilə tədbirlərin, o cümlədən, dövlət səviyyəsində Qarabağ münaqişəsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində təqdim olunan layihələrin maliyyələşdirilməsinin artıq müsbət effekt verdiyini vurğulamışdır. Qeyd etmişdir ki, on il öncə Dağlıq Qarabağ haqda demək olar ki, heç bir bilgiyə malik olmayan dünya birliyi Azərbaycan dövlətinin apardığı məqsədyönlü siyasəti nəticəsində bu gün ermənilərin tarix boyu Azərbaycan xalqına qarşı həyata keçirdikləri işğalçılıq və soyqırım siyasətini tanımaq məcburiyyətində qalıb. İnanıram ki, bu kimi tarixi-faciəvi filmlərə baxan hər bir insan beynəlxalq aləmdə yazıq və məzlum libasına bürünən erməni maskasının altında nələrin gizləndiyini asanlıqla görə bilirlər.

Mərasimdə filmin Ukrayna ictimaiyyətinə təqdim olunmasına verdikləri dəstəyə görə Dünya Azərbaycanlıları Konqresinin Ukrayna nümayəndəliyinin rəhbərliyinə və Azərbaycan Teleradio Verilişləri QSC-nin Ukrayna və Şərqi Avropa ölkələri üzrə təmsilçiliyinə minnətdarlığını bildirən filmin ideya və ssenari müəllifi, "TREND NEWS" İnformasiya Agentliyinin direktor müavini Emil Hüseynli Qarabağ həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasını dünyanın harasında yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının mənəvi borcu olduğunu demişdir.

Mərasimdə DAK-ın Ukrayna üzrə nümayəndəliyinin rəhbəri Möhlət Hüseynov qeyd etmişdir ki, "XXI əsr informasiya əsridir. Bu istiqamətdə Azərbaycan Prezidenti İlham Əliyevin "biz ermənilərlə informasiya

müharibəsində müdafiədən hücuma keçməliyik" çağırışına öz əməli işlərimizlə cavab verməliyik. TREND də bu sahəyə xüsusi diqqət yetirir. Əminəm ki, TREND Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində qarşısına qoyduğu vəzifələri bundan sonra da davam etdirəcək".

Əsası iki əsr öncə qoyulmuş erməni əks təbliğatının ifşa olunmasında Ukraynadakı Azərbaycan diasporu da əsl vətəndaşlıq mövqeyi nümayiş etdirir.

Bu baxımdan fevralın əvvəlində Ukrayna və Azərbaycan Dövlət televiziyalarının birgə layihəsi olan "Qarabağ tarixin burulğanında" filminin 48 milyonluq Ukrayna xalqına təqdim olunmasını xarici təbliğat strategiyamızın uğuru adlandırmaq olar. Təbii ki, Xocalı soyqırımının 18-ci ildönümü ərəfəsində tarixi faktlarla zəngin olan belə bir filmin Ukraynanın dövlət televiziyasında efirə verilməsi xəbis erməni saxtakarlığının ortaya çıxmasında müstəsna əhəmiyyətə malikdir .

Tədbirdə Donetsk Azərbaycanlıları Konqresinin prezidenti İqbal Mahmudov, İdarə Heyətinin sədri Müşfiq Vəliyev, Ukrayna Azərbaycanlıları Konqresinin Donetsk Vilayət təşkilatının sədri Malik Pirverdiyev çıxış edərək erməni diasporuna qarşı effektli mübarizə aparmaq üçün Azərbaycan diasporunun daha güclü fəaliyyət göstərməsinin vacibliyini vurğulamışlar.

Donetsk Vilayətinin Snejnoy şəhərinin Veteranlar Cəmiyyətinin sədri Valeriy Sokolov çıxışında bildirmişdir ki, ermənilərin Xocalıda törətdiyi soyqırımı bütün dünya ictimaiyyəti bilməlidir. "Xocalı faciəsi təkcə azərbaycanlılara qarşı deyil, insanlığa qarşı törədilmiş bəşəri cinayət kimi qiymətləndirilməlidir. İnanıram ki, beynəlxalq təşkilatlar bu soyqırıma hüquqi-siyasi qiymətini verəcəkdir".

"Xocalıya Ədalət!" kampaniyası çərçivəsində Ukrayna Azərbaycanlıları Konqresinin Dnepropetrovsk, Krım, Xarkov və digər regional təşkilatlarında da anım mərasimləri keçirilmişdir.

Qədir Aslan
"Respublika"
2 mart 2010-cu il. N 47.Səh. 5

***

Strasburqda keçirilmiş izdihamlı mitinq Xocalı faciəsinə həsr olunmuşdur

Strasburqda fəaliyyət göstərən Azərbaycan Evinin təşkilatçılığı ilə şəhərin mərkəzindəki Kleber meydanında Xocalı faciəsinin 18-ci ildönümü ilə əlaqədar izdihamlı mitinq keçirilmişdir.

Mitinqi Azərbaycan Evinin sədri Mustafa Alınca açaraq Xocalı soyqırımının XX əsrin ən dəhşətli faciəsi olduğunu bildirmişdir. O, müasir silahlarla silahlanmış erməni quldurlarının Xocalıya hücum edərək qəddar üsullarla yüzlərlə günahsız insanı qətlə yetirdiklərini, Ermənistanın keçmiş dövlət başçısı Robert Koçaryanın və hazırkı prezident Serj Sarkisyanın bu soyqırımına rəhbərlik etdiklərini, onların indiyədək cəzasız qaldıqlarını mitinq iştirakçılarının diqqətinə çatdırmışdır.

Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş və faciə ilə bağlı mitinq komitəsinin bəyanatı oxunmuşdur.

Xocalı faciəsi ilə bağlı keçirilən silsilə tədbirlərdə iştirak etmək üçün Fransaya gəlmiş Azərbaycan nümayəndə heyətinin üzvlərindən Prezident Administrasiyasının sektor müdiri Qafar Əliyev, Milli Məclisin regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə, Azərbaycanlıların və Türk Xalqlarının Əməkdaşlıq Mərkəzinin sədri İlham İsmayılov və "Kür-Araz" xeyriyyə cəmiyyətinin sədri Akif Kərimov bu mitinqin Avropanın rəmzi paytaxtı Strasburqda təşkil edilməsinin heç də təsadüfi xarakter daşımadığını, qəddar ermənilərin sülhsevər azərbaycanlılara qarşı dəfələrlə soyqırımı törətdiklərini, Ermənistanın apardığı işğalçılıq siyasəti nəticəsində Azərbaycan ərazilərinin 20 faizinin işğal edildiyini, ölkəmizin bir milyondan artıq qaçqın və məcburi köçkün problemi ilə üzləşdiyini, Xocalı soyqırımından 18 il keçməsinə baxmayaraq dünya ictimaiyyətinin və beynəlxalq təşkilatların susduğunu, hadisəyə hüquqi qiymət verilmədiyini vurğulamışlar. Onlar mitinq iştirakçılarını Xocalı faciəsini erməni təbliğatının təsiri altına düşmüş hər bir avropalıya olduğu kimi çatdırmağa çağırmışlar. Azərbaycanın tutduğu yolun haqq yolu olduğu və gec-tez bu haqqın öz yerini tutacağı, torpaqlarımızın tezliklə erməni işğalından azad ediləcəyi diqqətə çatdırılmışdır.

Əllərində üçrəngli Azərbaycan bayraqları, "Xocalıya Ədalət!", "Xocalı soyqırımı azərbaycanlılara qarşı soyqırımıdır", "Erməni özbaşınalığına son qoyulsun", "Müharibə caniləri öz cəzalarını almalıdırlar", "Heç vaxt bağışlamayacağıq" kimi sözlərin yazıldığı transparantlar tutmuş soydaşlarımız, türk

diasporunun təmsilçiləri, qonşu Almaniyadan və digər yerlərdən gəlmiş azərbaycanlılar və tələbələrimizdən ibarət mitinq iştirakçıları "Koçaryan canidir!", "Sarkisyan canidir!", "Ermənilər, Azərbaycan torpaqlarını azad edin!" və s. şüarlar səsləndirmişlər.

Mitinq zamanı Azərbaycan nümayəndə heyətinin gətirdiyi Xocalı faciəsindən bəhs edən kitab və broşürlər, fotolar nümayiş etdirilmiş, insanlığa qarşı görünməmiş soyqırımı ilə bağlı əsl həqiqətlərin və faktların əks olunduğu fransız dilində yazılmış vərəqələr yerli sakinlərə və şəhərin qonaqlarına paylanılmışdır.

Azərbaycan həqiqətlərinin, o cümlədən Xocalı faciəsi haqqında faktların Avropada getdikcə geniş vüsət almasından vahiməyə düşmüş ermənilər hər yerdə olduğu kimi, Strasburqda da mitinqi pozmağa cəhd göstərmişlər.

Ermənilərin hiyləsini başa düşən mitinq iştirakçıları qanun keşikçilərinə müraciət etmiş və onların növbəti fitnəkarlığının qarşısı alınmışdır.

Mitinq sakit şəraitdə başa çatmışdır.

Əsgər ƏLİYEV
*AzərTAc-ın xüsusi müxbiri , **Strasburq***
*"**Xalq qəzeti**"*
2 mart, 2010-cu il. N 48.Səh. 2

***

Rusiya Dövlət Kitabxanasında professor Yuri Pompeyevin "Qarabağ gündəliyi" kitabının təqdimatı olmuşdur

İslam Konfransı Təşkilatı Gənclər Forumundan (İKGF) bildirmişlər ki, martın 1-də Moskvada Rusiya Dövlət Kitabxanasının Şərq Ədəbiyyatı Mərkəzində tanınmış rus yazıçısı, professor Yuri Pompeyevin "Qarabağ gündəliyi" kitabının təqdimatı olmuşdur. Moskvanın "Kanonplyus" nəşriyyatı tərəfindən çap etdirilmiş kitab İKGF-nin mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət" kampaniyası çərçivəsində hazırlanmışdır.

Tədbirdə çıxış edən İKGF-nin mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyeva Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında Rusiya oxucusuna həqiqətləri çatdıran bu kitabın

əhəmiyyətini vurğulamış, müəllifin Rusiya-Azərbaycan münasibətlərinin möhkəmləndirilməsində oynadığı roldan bəhs etmişdir. O bildirmişdir: "Professor Pompeyev mürəkkəb bir dövrdə dəfələrlə Qafqazda münaqişə zonalarında olmuş, Qarabağda başlanan separatizmin nəinki Azərbaycanın, ümumilikdə milyonlarla insanın taleyinin birləşdiyi böyük bir ölkənin ərazi bütövlüyünə zərbə vurduğunu öz gözləri ilə görmüşdür". Leyla xanım Əliyeva, həmçinin kitabın münaqişənin səbəb və ağır nəticələri haqqında Rusiya oxucularında obyektiv fikir yaradacağına əminliyini bildirmişdir.

Kitabın əhəmiyyətindən danışan Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu dövlətimizin başçısı İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli istiqamətində qətiyyətli fəaliyyətindən bəhs etmişdir.

İKGF-nin baş katibi Elşad İsgəndərov "Xocalıya Ədalət!" kampaniyasının birillik fəaliyyəti barədə təqdimatla çıxış etmiş, beynəlxalq qurumlar çərçivəsində Xocalı qətliamını törədənləri pisləyən qərarların qəbul edilməsinin əhəmiyyətini vurğulamışdır.

Kitabın müəllifi professor Y. Pompeyev "Xocalıya Ədalət!" kampaniyasına dəstəyini ifadə etmiş, tədbir iştirakçılarına kitabın yaranması ideyasından danışmış, keçən əsrin 90-cı illərinin əvvəllərində Qarabağ müharibəsi zamanı Azərbaycan ətrafında informasiya blokadasının aradan qaldırılması uğrunda aparılan mübarizədən bəhs etmişdir. O, ötən ilin avqustunda Bakıya səfəri zamanı ölkədə gedən irimiqyaslı inkişaf və Azərbaycan Prezidenti İlham Əliyevin bu istiqamətdə apardığı siyasətlə bağlı onda yaranmış təəssüratları tədbir iştirakçıları ilə bölüşmüşdür. Milli Məclisin deputatı Elmira Axundova münaqişə həll edilməyənədək kitabdakı fikirlərin aktuallığını xüsusi vurğulamışdır. Kitabın təqdimatında Moskva Dövlət Universitetinin professoru Qeorqi Alekseyev, Qarabağ müharibəsi zamanı Azərbaycanın Rusiyadakı səfirliyinin mətbuat üzrə katibi işləmiş, rusdilli "Azərbaycanın panoraması" qəzetinin redaktoru Fərhad Ağamaliyev çıxış etmişlər.

Tədbirdə ziyalılar, ali məktəb tələbələri və KİV nümayəndələri iştirak etmişlər. Tədbir iştirakçıları 2009-cu ildə "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində dünyanın müxtəlif ölkələrində keçirilmiş tədbirləri əks etdirən forosərgi ilə tanış olmuşlar.

Müəllifin siyasi və ictimai xadimlərdən münaqişə ilə bağlı götürdüyü müsahibələr və tarixi sənədlər əsasında tarixi-publisistik janrda yazdığı "Qarabağ gündəliyi" kitabında münaqişənin ilkin dövründən başlayaraq baş verən təlatümlü hadisələrin təhlili verilmişdir. Əsərdə münaqişənin

alovlanmasına şərait yaradan, Xocalı soyqırımına aparan proseslərdə sovet hakimiyyət qurumlarında təmsil olunan pərdəarxası qüvvələr, erməni lobbisi və onların M. Qorbaçovla gizli münasibətlərindən bəhs edilmişdir. Keçmiş sovet məkanında öz ölkəsinin taleyini düşünən rus ziyalısının mövqeyindən yazılmış bu kitabda çətin siyasi dövrdə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışı, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyünün qorunması uğrunda apardığı mübarizəsindən də bəhs edilmişdir.

Kitab keçmiş SSRİ-nin son dövrləri və Azərbaycan xalqının milli-azadlıq hərəkatını öyrənmək istəyən tarixçilər, politoloqlar üçün xüsusi əhəmiyyət kəsb edir.

"Xocalıya Ədalət!" kampaniyası 2008-ci ilin mayın 8-də, Şuşa şəhərinin işğalının ildönümündə İKGF-nin mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə irəli sürülmüşdür və hazırda 30-dan artıq ölkədə yüzlərlə könüllünün iştirakı ilə uğurla davam etdirilməkdədir. Kampaniyanın məqsədi beynəlxalq ictimaiyyətin Xocalı faciəsi ilə bağlı məlumatlandırılması, faciəyə beynəlxalq aləmdə siyasi-hüquqi və mənəvi qiymət verilməsini, həmçinin beynəlxalq səviyyədə anılmasını təmin etməkdir. Kampaniyanın beynəlxalq əlaqələndirilməsi www.justiceforkhojaly.org internet saytı vasitəsilə aparılır.

AzərTAc.
*"**Xalq qəzeti**"*
2 mart 2010-cu il. N 48.Səh. 2

***

Xocalı faciəsi dünya mətbuatında

"Nezavisimaya qazeta"-da Yevgeni Kriştalyovun "Xocalıya Ədalət!" sərlövhəli məqaləsi dərc edilib.

Rusiyanın "Nezavisimaya qazeta" nəşrinin 26 fevral nömrəsində Yevgeni Kriştalyovun "Xocalıya Ədalət!" sərlövhəli məqaləsi dərc edilib. AzərTAc həmin məqaləni təqdim edir.

Müharibə qanlı qətliyama düşmüş xalqlara, sadə insanlara çoxlu əzab və faciə gətirir. Yüzlərlə və minlərlə günahsız adam hərc-mərcliyin qurbanı

olur və yalnız nəsillərin yaddaşı onların adlarının yaddaşlardan silinməsinə imkan vermir. Qonşular arasında qarşıdurma daha amansız olur. Ermənistan ilə Azərbaycan arasında Dağlıq Qarabağa nəzarət uğrunda döyüşlər qəddarlıq salnaməsinin daha bir səhifəsi olmuşdur.

Fevralın 26-sı Xocalı şəhidlərinin anma günüdür. Dağlıq Qarabağın azərbaycanlılar yaşayan bu şəhərinin adı çoxlarına tanışdır və Xatın, Liditse, Serebrenisa, Sonqminin taleyi ilə müqayisə olunur. 18 il əvvəl Xocalının dinc sakinləri strateji yaşayış məntəqəsini tutmağa çalışan erməni silahlı dəstələrinin mühasirəsinə düşmüşdü. Qarabağda yeganə hava limanı burada yerləşirdi, yol isə birbaşa Azərbaycanın içərilərinə aparırdı. Xocalılıların geri çəkilməsi üçün qoyulan yollarda "tələ" qurulmuşdu. Onları güllələbaran edir, yaralı uşaqları qətlə yetirir, əsir götürürdülər. Bu əsirlikdən çoxları geri qayıtmadı. 1992-ci il fevralın 26-na keçən o müdhiş gecədə alov məngənəsindən çoxları keçə bilmədi. Qətliamın nəticələri dəhşətli idi: 613 nəfər qətlə yetirilmişdir, onların 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri qocadır. Səkkiz ailənin bütün üzvləri məhv edilmiş, 487 adam yaralanmışdır. 1275 nəfər əsir götürülmüş, onların 150-nin taleyi hələ də məlum deyildir.

Azərbaycan Prokurorluğu ətraflı təhqiqat apararaq bu qanlı qətliamın təşkilatçılarının və icraçılarının törətdiklərini soyqırımı və hərbi cinayət kimi qiymətləndirmişdir. Eyni zamanda, müəyyən edilmişdir ki, keçmiş sovet ordusunun 366-cı alayının hərbçilərinin də bu qətliamda əli vardır. 366-cı hərbi birləşmə Dağlıq Qarabağda yerləşdirilmişdi və alayda erməni milliyətindən olan hərbçilər də qulluq edirdilər.

Faciənin bir çox məqamları həm də beynəlxalq müşahidəçilər - jurnalistlər və hüquq müdafiəçiləri tərəfindən sənədləşdirilmişdir. Rusiyanın tanınmış "Memorial" təşkilatı bu barədə ətraflı məlumat vermiş, şahidlərin dediklərini İnternetdə yerləşdirmişdir. 1992-ci il martın 13-də "İzvestiya" qəzetində müxbir Vadim Belıxın reportajı dərc edilmişdi. O, hər bir normal insanın ruhunu lərzəyə gətirə biləcək və şəxsən şahidi olduğu faktları təsvir etmişdir.

Dağlıq Qarabağın Azərbaycan icması Xocalını və onun sakinlərini itirməklə doğma torpaqda yeganə dayağından məhrum olmuşdu. Erməni millətçilərinin bir vaxtlar bərəkətli diyarda törətdiyi etnik təmizləmə, faktiki olaraq, Dağlıq Qarabağın Azərbaycan icmasının soyqırımı, Xocalı qətliamı isə bu siyasətin ən müdhiş nöqtəsi idi. "Yaşayış məkanının işğalı" strategiyasının həyata keçirilməsinin kulminasiyası isə 1992-ci ilin mayında

Qarabağ azərbaycanlılarının başlıca tarixi mərkəzi - qoruq-şəhər Şuşanın işğalı oldu.

Bununla əlaqədar, Serj Sarkisyanın Britaniya jurnalisti, "Qara bağ" kitabının müəllifi Tomas de Vaala etirafı çox maraqlıdır: "Xocalıya qədər azərbaycanlılar düşünürdülər ki, bizimlə zarafat etmək olar, onlara elə gəlirdi ki, ermənilər mülki əhaliyə əl qaldırmazlar. Biz bu stereotipi qıra bildik". Necə deyərlər, şərhə ehtiyac yoxdur, nə əlavə, nə də ixtisar etmək lüzumsuzdur.

Bu gün Xocalı faciəsinə gətirib çıxarmış o cinayətkar siyasətin davamçıları Dağlıq Qarabağ üçün hansısa öz müqəddəratını təyin etməkdən danışırlar. Eyni zamanda, onlar Qarabağ azərbaycanlılarının əzəli torpaqlarına qayıtması imkanını yada da salmırlar. Onların referendumun bölgənin yalnız erməni sakinlərinin iştirakı ilə keçirilməsi tələbinin məqsədi də məhz budur.

Hazırda Azərbaycan ilə Ermənistan arasında beynəlxalq vasitəçilərin, - burada başlıca rolu Rusiya oynayır, - iştirakı ilə gedən sülh danışıqları yalnız möhkəm sülhü təmin edəcəyi halda məna kəsb edir. Bu cür sülh isə Dağlıq Qarabağın hər iki icmasının - ermənilərin və azərbaycanlıların hüquqlarına riayət olunmasına əsaslanmalıdır. Bu icmaların hər birinin Qarabağın yüksək dağ zirvələrində və sıx meşələrində öz müqəddəs ocaqları vardır. Hər iki icmanın nümayəndələri Qarabağdan olan dahi əcdadlarının xatirəsini əziz tuturlar.

Münaqişə nəticəsində qovulmuş azərbaycanlıların geri qayıtması və Dağlıq Qarabağın, heç olmasa sovet dövründəki kimi, əvvəlki status-kvo vəziyyətinin bərpa edilməsi bölgədə normal həyatın bərpasının baza şərtidir.

Yaxın keçmişə nəzər salsaq, görərik ki, sovet dövrü XX əsrin əvvəllərindəki fikir ayrılığını unutdura bilmişdi. O zaman da Qarabağı Azərbaycandan qoparmaq istəyirdilər. Lakin elə ilk sistem qeyri-sabitliyi köhnə iddiaları üzə çıxardı, ayrılma məsələsi yenidən qaldırıldı. Bu, barıt çəlləyinin fitilini yandırdı və partlayış, öz növbəsində, ittifaq dövlətinin dağılmasına son qoydu. İndi bunu az-az yada salırlar, çünki xatırlatmağa dəyər ki, fitil, ilk növbədə, Qarabağın idi. Yuqoslaviyanın qanlı parçalanmasını, Kosovodakı indiki vəziyyət mahiyyət etibarilə Ermənistan-Azərbaycan qarşıdurmasını xatırladır. Serblərin ürəyini - Kosovo diyarını kökləri ilə qoparıb çıxardılar. Azərbaycanın qəlbi Qarabağı da beləcə kökləri ilə çıxarmağa çalışırlar. Xocalı Qarabağın göz yaşları və şəhid qanı hopmuş bir parçasıdır.

Bu gün Azərbaycan yalnız ədalət tələb edir. Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin və bu qurumun rəhbəri Leyla Əliyevanın şəxsən irəli sürdüyü təşəbbüs əsasında həyata keçirilən genişmiqyaslı beynəlxalq informasiya-təbliğat kampaniyası da məhz "Xocalıya Ədalət!" adlanır. Kampaniyadan məqsəd dünyaya bəşəriyyətə qarşı cinayət, Xocalı soyqırımı haqqında həqiqətləri yaymaqdır. Fondun aksiyaları artıq bütün dünyada, o cümlədən beynəlxalq təşkilatların ofislərində, habelə BMT-nin Cenevrədəki Baş qərargahında keçirilir.

"Səs"
2 mart 2010-cu il. N.38. Səh. 4

***

"İRƏLİ" Avropada Xocalı soyqırımı ilə əlaqədar aksiyalar keçirib

İctimai Birliyin mətbuat xidmətindən verilən məlumata görə, fevralın 26-da Latviyanın paytaxtı Riqadan Estoniyanın paytaxtı Tallinə doğru Xocalı Soyqırımı ilə bağlı "Avtobus turu aksiyası" başlayıb.

Aksiyaya Latviyada yaşayan və təhsil alan latış, italyan, türk, alman, tacik və digər millətləri təmsil edən gənclər qoşulub. Aksiya üçün nəzərdə tutulmuş avtobusun üzərinə öncədən soyqırımı həqiqətləri ilə bağlı şüarların əks olunduğu posterlər və stikerlər yapışdırılıb. Riqadan Tallinə doğru hərəkət edən avtobus yol üzərində müxtəlif şəhərlərdə dayanıb, gənclər mövzu ilə bağlı insanlara məlumat verib. Aksiya iştirakçıları Tallinə çatdığı zaman burada onları digər bir gənclər qrupu qarşılayıb və aksiyaya qoşulublar.

Daha sonra gənclər şəhərdə yürüş keçirib, Tallindəki Ermənistan Milli cəmiyyətinin qarşısında piket keçiriblər. Günorta radələrində isə Estoniya Parlamentinin qarşısında qısa bir yürüş təşkil olunub. Aksiya 27 fevral axşamına qədər davam edib.

Aksiya iştirakçıları üçün "İRƏLİ" ictimai Birliyi tərəfindən xüsusi köynəklər və aksiyada istifadə ediləcək şüarları əks etdirən posterlər hazırlanıb. Tədbirdə istifadə olunmuş kitablar və broşürlər Heydər Əliyev Fondu tərəfindən təqdim edilib.

Növbəti aksiya 26 fevral saat 9-00-dan 13-00-a qədər Parisin "Pol Klodel" meydanında (Senat yaxınlığında) "İRƏLİ" İctimai Birliyinin və Azərbaycan Fransız Gənclik təşkilatının və Fransadakı Azərbaycan səfirliyinin təşkilatçılığı ilə keçirilib. Hədəf Fransa Senatını məsələdən agah etmək və onun gələcək iclaslarında Xocalı faciəsinin müzakirəyə çıxmasına nail olmaqdır. Aksiya Fransanın Tuluz, Strasburq, Nant, Bezanson, Marsel, Nansi, Lyon, Paris və s. kimi 10-a yaxın fransız şəhərlərindən Parisə toplanan 150-ə qədər gəncin iştirakı ilə keçirilib.

Aksiya iştirakçıları müxtəlif qruplara ayrılaraq Parisin bir neçə yerli əhalinin daha çox olduğu yerlərində yerli ictimaiyyətin nümayəndələrinə Xocalı qətliamının reallıqlarını və erməni vəhşiliklərini özündə əks etdirən kiçik kitabçalar və bukletlər paylayıb. Bundan əlavə, aksiyanın kütləvi informasiya vasitələrində işıqlandırılması üçün Fransada onlarla televiziya və radio qurumlarına, müxtəlif elektron informasiya agentliklərinə və qəzetlərə məlumat verilib.

Aksiya dinc xarakter daşıyaraq, nəzərdə tutulmuş yerdə meqofonla şüarların deyilməsi, traktların və kitabların insanlara paylanması və sonda bəyannamənin Senata verilməsi ilə bitib.

Avropanın ən böyük liman şəhəri olan Hollandiyanın Rotterdam şəhərində də silsilə tədbirlər keçirilib. Aksiya fevralın 26-da Rotterdam bələdiyyəsinin önündə baş tutmuş nümayişlə başlayıb. Bundan sonra 200 nəfəri özündə birləşdirən yürüş şəhər mərkəzinə qədər davam edib. Növbəti addım kimi Xocalı soyqırımı ilə bağlı daha ətraflı məlumat vermək və Xocalıda ermənilər tərəfindən törədilən ümumbəşəri cinayəti Hollandiya ictimaiyyətinin nəzərinə çatdırmaq məqsədilə beynəlxalq konfrans təşkil olunub.

Tədbirlər üçün əvvəlcədən Rotterdam şəhərinin meri və polis şefi ilə danışıqlar aparan Hollandiya Azərbaycan Həmrəylik Cəmiyyəti tədbirin keçirilməsi üçün rəsmi icazə ala bilib. Hollandiya-Azərbaycan Həmrəylik Cəmiyyətinin və "İRƏLİ" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə 300-dən artıq yerli və xarici vətəndaş iştirak edib.

"Kaspi"
2 mart 2010-cu il. N.38.Səh. 6

***

Xocalı faciəsi daim dünya ictimaiyyətinə xatırladılmalıdır

Elşad İsgəndərov: "Ermənilər "Xocalıya Ədalət!" kampaniyasına qarşı çox çirkin antitəbliğat aparır"

"Bizə qarşı hücumlar onu deməyə əsas verir ki, bu kampaniya hədəfinə nail olur"

Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində İslam Konfransı Təşkilatı Gənclər Forumu da davamlı olaraq fəaliyyət göstərir. Bu məqsədlə ötən müddət ərzində bir çox işlərin görüldüyünü deyən təşkilatın Gənclər Forumunun baş katibi Elşad İsgəndərov bu sırada həyata keçirilən "Xocalıya Ədalət!"bkampaniyasını xüsusi qeyd edib. Kampaniyanın getdikcə geniş vüsət aldığını vurğulayan Elşad İsgəndərov "OLAYLAR"-a verdiyi müsahibədə yaxın gələcəkdə bu istiqamətdə görüləcək işlər barədə də məlumat verib.

- Elşad müəllim, "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində bu günə qədər hansı işlər görülüb və görülən işlər sizi qane edirmi?

- İlk öncə onu qeyd edim ki, "Xocalıya Ədalət!" kampaniyası İslam Konfransı Təşkilatının Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş koordinatoru Leyla Əliyeva tərəfindən irəli sürülüb. Kampaniyaya 2008-ci il, mayın 8-də Şuşanın işğal günü start verilib. Ötən müddət ərzində "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində dünyanın əksər ölkələrində bir sıra tədbirlər keçirilib, Azərbaycanın haqq səsi, Azərbaycan torpaqlarının işğal edilməsi, eləcə də ermənilərin Xocalıda həyata keçirdikləri vəhşiliklər barədə bir sıra kitablar çap edilərək yayılıb. Kampaniyaya qoşulanların sayı getdikcə artmaqdadır. Artıq İslam Konfransı Təşkilatına daxil olan ölkələrdə kampaniya geniş vüsət alıb və təşkilata daxil olan ölkələr Xocalıda insanlığa qarşı cinayətin həyata keçirildiyini açıq şəkildə bildirirlər. Buna örnək kimi cari ilin yanvarında İslam Konfransı Təşkilatına daxil olan ölkələrin Parlament Birliyinin qəbul etdiyi qətnaməni göstərmək olar. Bu ilin yanvar ayında İslam Konfransı Təşkilatının Gənclər Forumu tərəfindən irəli sürülmüş qətnamə əsasında 54 ölkənin parlamentariləri təşkilatın Parlament Birliyində ilk dəfə olaraq faciəyə hüquqi qiymət verərək Xocalı soyqırımını insanlığa qarşı cinayət kimi tanıdılar. İnsanlığa qarşı cinayət eyni zamanda soyqırım və müharibə cinayətlərini özündə ehtiva edən hüquqi anlayışdır.

- Kampaniyanın iştirakçıları əsasən kimlərdir?

- Bizim auditoriyamız əsasən gənclərdən ibarətdir və onlar internetdən aktiv formada istifadə edirlər. İnternetdə seçim edilsə görərik ki, erməni mətbuatında da bir çox materiallar məhz bu kampaniyaya həsr edilib. Ermənilər "Xocalıya Ədalət!" kampaniyasına qarşı çox çirkin antitəbliğat aparır. Bu kampaniya demək olar ki, Ermənistan dövləti səviyyəsində həyata keçirilir. Keçən ilin yay aylarından kampaniyanın veb-saytı Ermənistanda qadağan edildi və texniki baxımdan bağlandı. Buna baxmayaraq biz Ermənistandakı istifadəçilər üçün link hazırlamışıq ki, onlar həmin link vasitəsilə də kampaniyaya qoşula bilərlər. Bizim digər bir məqsədimiz də ondan ibarətdir ki, Ermənistan vətəndaşları ölkədəki mövcud faşist rejiminin əleyhinə öz səslərini qaldırsınlar. O cümlədən onlar Ermənistan rəhbərliyinin öz xalqına, eləcə də Azərbaycan xalqına qarşı törətdikləri cinayətləri bilsinlər.

- Ermənistan Xarici İşlər Naziri Edvard Nalbəndyanın İKT Parlament Birliyinin qəbul etdiyi qətnaməyə verdiyi reaksiya işğalçı ölkənin bu məsələdə ciddi təşvişə düşdüyündən xəbər vermirmi?

- Ermənistan hakimiyyətinin İslam Konfransı Təşkilatının Parlament Birliyində qəbul edilən qətnamədən ciddi təşvişə düşdüyü göz qabağındadır. Toplantıda qəbul edilən qətnamənin ardınca Ermənistan Xarici İşlər Naziri Edvard Nalbəndyanın bu ölkənin parlamentində çıxış etməsi və öz timsalında məsləyə aydınlıq gətirmək istəməsi belə deməyə əsas verir. Ermənistan parlamentində keçirilən müzakirə zamanı Xarici İşlər Naziri Edvard Nalbəndiyan belə bir uydurma ilə çıxış edib ki, guya İslam Konfransı Təşkilatının Parlament Birliyində qəbul edilmiş məlum qətnamənin heç bir əhəmiyyəti yoxdur və ümumilikdə İslam Konfransı Təşkilatının özü Parlament Birliyinin qəbul etdiyi qərarlara baxmır və onlara heç bir imza atmır. Ermənistan Xarici İşlər Naziri təşkilatın Parlament Birliyində qəbul edilmiş qətnamənin qeyri-professionallıq və dini təəssübkeşlikdən irəli gəldiyini də iddia edib.

- Ermənistanın belə bir təşvişə düşməsi sizcə, "Xocalıya Ədalət!" kampaniyasının uğurundan və əldə edilən nəticələrdən xəbər vermir?

- Əlbəttə ki, bizə qarşı olan hücumlar bir tərəfdən bizi sevindirir. Bizə qarşı edilən hücumlar onu deməyə əsas verir ki, bu kampaniya hədəfinə nail olur. Ermənistanın uzun illər gizlətmək, məsuliyyəti öz üzərində atmaq

istədiyi Xocalı soyqırımı tədricən dünyada tanınır. Əgər Xocalı soyqırımı dünyada tanınmasaydı çox kiçik və tükənən resurslara malik olan Ermənistan bu gün əlavə resurslardan istifadə edərək kampaniyaya qarşı əks təbliğata keçməz, onlarla güzgü saytı açmazdı. Ermənistanda Xocalıya Ədalət!" adı altında onlarla güzgü saytı açılıb ki, bu da dünya ictimaiyyətinin fikrini çaşdırmağa yönəlib. Yəni "Xocalıya Ədalət!" axtaranlar ermənilərin saytlarına daxil olsunlar.

- İslam Konfransı Təşkilatı Parlament Birliyinin qəbul etdiyi qətnamənin ayrı-ayrı ölkələrin parlamentləri tərəfindən rəsmən təsdiqlənməsi istiqamətində hansı addımlar atılacaq?

- İslam Konfransı Təşkilatı Parlament Birliyinin qəbul etdiyi həmin qərar mühüm bir qərardır. Çünki təşkilatın Parlament Birliyinin Uqandada keçirilən sessiyasında üzv ölkələr parlament sədrləri və vitse-spikerlər səviyyəsində təmsil olunurdular. Yəni bu düşünülmüş şəkildə qəbul edilmiş bir qərar idi. Təbii ki, bu qətnamənin yerli səviyyədə təsdiqlənməsi də milli qanunvericilik səviyyəsində uyğunlaşdırılmalıdır. Bu istiqamətdə geniş coğrafiyanı əhatə edən fəaliyyət həyata keçirilməlidir. Həmin ölkələrdə lobbi kampaniyalarının aparılması, bu ölkələrin parlamentariləri ilə əlaqələrin qurulması nəzərdə tutulur. Qəbul edilmiş qərar əsasında çalışacağıq ki, bu işləri həyata keçirək.

- Sizcə, başladığınız bu kampaniya daha böyük uğurlara imza atmağa imkan yaradacaq?

- Mən bu təbliğatın uğurla aparılacağına öz inamımı bildirmək istəyirəm. Bunun üçün zəmin bizim dövlətimizin qüdrəti və gənclərimizin vətənpərvərliyidir. Bizim təbliğat uzun müddət çox böyük transformasiyalardan keçərək bugünkü mərhələyə çatıb. Xocalıya Ədalət!" kampaniyasının bu gün uğurla aparılmasına Azərbaycan prezidentinin həyata keçirdiyi məqsədyönlü siyasət, informasiya kommunikasiya texnologiyalarından geniş və məharətlə istifadə yeni nəsil gənclərin yetişməsi böyük təkan verir. Azərbaycan artıq özünü dünyada tanıdan və haqq səsini tələb edən bir dövlətdir. Biz " Xocalıya Ədalət!" kampaniyasını həyata keçirməklə düşünürük ki, Dağlıq Qarabağın işğaldan azad edilməsi işinə də dəstək verəcəyik. Hər bir azərbaycanlı bu işdə öz əməyini əsirgəməməli, üzərinə düşən məsuliyyəti dərk edərək əlindən gələni etməlidir.

- Bu günlərdə "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində hazırlanmış video klipin təqdimat mərasimi keçirildi. Klipin digər ölkələrdə keçirilən təqdimat mərasimləri Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması və onun tanıdılması işinə nə dərəcədə töhfə verəcək?

- Xocalıya Ədalət!" kampaniyası çərçivəsində çəkilmiş klipin dünyanın bir sıra ölkələrində təqdimat mərasimləri keçirilib. Bu cür təqdimat mərasimləri Meksika, Paris, Vaşinqton, London, Vyana, Vilnüs, Moskva, həmçinin İKT ölkələrinin hər birində reallaşdırılıb. Ayrı-ayrı ölkələrdə keçirilən təqdimat mərasimləri onu deməyə əsas verir ki, apardığımız iş öz müsbət nəticəsini verir və dünya ictimaiyyəti artıq Xocalıda nə baş verdiyini anlayır. Növbəti addımlardan biri kimi dünya liderlərinə imzatoplama kampaniyası başlayır. 2010-cu il ərzində bu müraciət kampaniyası davam edəcək və ayrı-ayrı ölkə vətəndaşlarından toplanmış 1 milyona yaxın imza dekabrın 10-u, İnsan Haqları Günündə ATƏT-in Minsk Qrupuna daxil olan ölkələrin hökumətləri və parlamentləri, eyni zamanda aparıcı beynəlxalq təşkilatlara - Avropa Birliyi, Avropa Şurası və BMT-yə təqdim olunacaq. Bu kampaniyada əsas iştirakçılar xarici ölkə vətəndaşları olacaq. Texniki baxımdan bir qədər mürəkkəb prosedur olsa da, bu işin öhdəsindən də gəlməyə çalışacağıq. Kampaniya çərçivəsində istənilən xarici ölkə vətəndaşı həm öz dövlətinin parlament rəhbərliyi, eyni zamanda ölkəsinin təmsil olunduğu beynəlxalq təşkilatlara müraciət ünvanlaya bilər. Bu mərhələ də Xocalıya Ədalət!" kampaniyasına diqqətin artırılması məqsədini daşıyır. Eyni zamanda İslam Konfransı Təşkilatı Parlament Birliyinin qərarı əsasında digər ölkələrin parlamentlərinə də müraciət etmək istəyirik. Bununla da Xocalı faciəsinin insanlığa qarşı cinayət kimi tanınmasını qarşıya məqsəd qoymuşuq.

- Kampaniya davamlı xarakter daşıyacaq?

- Təbii ki, 18 il bundan əvvəl baş vermiş bir faciəni bu gün gündəmə gətirib onun siyasi cəhətdən tanınmasına, eyni zamanda bu cinayətdə iştirak etmiş insanların məsuliyyətə cəlb edilməsinə nail olmaq üçün Xocalı faciəsi daimi olaraq dünya ictimaiyyətinə xatırladılmalıdır. Bu istiqamətdə çoxlu sayda kitablar nəşr edilməsi, zaman-zaman xarici ölkələrdə kütləvi aksiyalar keçirilməsinin tərəfdarıyıq. Eyni zamanda 1990-92-ci illərdə Azərbaycanda fəaliyyət göstərən xarici ölkə jurnalistlərinin bu faciə ilə bağlı xatirələrini əks etdirən sənədli filmin çəkilişini də nəzərdə tutmuşuq.

- İslam Konfransı Təşkilatının Gənclər Forumu çərçivəsində yaxın vaxtlarda Azərbaycanda hansısa bir tədbirin keçirilməsi nəzərdə tutulub?

- Zaman-zaman təşkilatın Gənclər Forumunun bir çox tədbirləri Bakıda keçirilib. Bu yaxınlarda isə İslam Konfransı Təşkilatının Gənclər Forumunun Baş Assambleyasının toplantısı olacaq. Həmin toplantıda Assambleyanın rəhbər strukturlarına seçkilər keçiriləcək və qurumun rəhbərliyi yenilənəcək

- Baş Assambleyanın iclası hansı ölkədə keçiriləcək?

- Toplantının ərəb ölkələrindən birində keçirilməsi nəzərdə tutulub. Hazırda 3 ölkənin adı namizəd kimi irəli sürülüb. Baş Assambleyanın iclası təxminən bu ilin ortalarında baş tutacaq. Hazırda assambleyanın toplantısına hazırlıq istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

Süleyman
"Olaylar"
5 mart 2010-cu il. N.36.Səh. 4

***

Belarus, Çexiya, Polşa və Avstriyada "Xocalıya Ədalət!" istənilib

İsmayıl Ağayev: Dövlət strukturlarında, universitetlərdə keçirilən görüşlərdə "Xocalıya Ədalət!" kampaniyası, erməni işğalçılarının törətdiyi soyqırımı haqda ətraflı məlumat verilib

Azərbaycan tarixinə ən faciəvi hadisələrdən biri kimi düşmüş Xocalı faciəsindən 18 il ötdü. Hər il olduğu kimi bu il də soyqırım qurbanlarının əziz xatirəsi geniş miqyasda anılıb. Dünyanın bir çox ölkəsində yaşayan soydaşlarımız soyqırımın layiqli siyasi və hüquqi qiymət alması naminə tədbirlər keçiriblər. Beynəlxalq Diaspor Mərkəzi (BDM) Avropanın 4 ölkəsində tədbirlər təşkil edərək "Xocalıya Ədalət!" istəyib. BDM-in sədri İsmayıl Ağayevlə söhbətimiz də məhz təşkilatın Xocalı faciəsi ilə bağlı keçirdiyi tədbirlər barədədir.

- Xocalı faciəsinin ildönümü ilə əlaqədar olaraq BDM fevralın 18-dən 27-dək Belarus, Polşa, Çexiya və Avstriyada təbliğat xarakterli bir sıra tədbirlər

keçirməyi planlaşdırmışdı. Bu tədbirləri Azərbaycan Respublikasının Xocalı faciəsinin ildönümü ilə əlaqədar keçiriləcək tədbirlər planına uyğun olaraq, eləcə də İslam Konfransı Təşkilatı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla xanım Əliyevanın təşəbbüsü ilə irəli sürülən Xocalıya Ədalət!" kampaniyasına dəstək kimi keçirməyi qərara almışdıq. Nümayəndə heyətinin tərkibinə "Diasporun səsi" jurnalının baş redaktoru, professor Vaqif Arzumanlı, BDM aparatının rəhbəri Samir Adıgözəlli, BDM-in Rusiya nümayəndəliyinin rəhbəri Ələmdar Nəbiyev, BDM-in Avropa ölkələri üzrə nümayəndəsi, professor Azər Kərimov və bəndəniz daxil idi. Tədbirlərimiz fevralın 18-də Belarusun paytaxtı Minsk şəhərindən start götürdü. Nümayəndə heyətimiz həmin gün əvvəlcə Azərbaycanın Belarusdakı səfirliyində oldu. Səfir Əli Nağıyev görüş zamanı səfirliyin fəaliyyəti, Belarusla Azərbaycan arasındakı münasibətlərdən bəhs etdi. O, BDM-in fəaliyyətini, gördüyü işləri yüksək qiymətləndirdi və gələcək fəaliyyətinə uğurlar arzuladı. Nümayəndə heyətimizin üzvləri isə çıxışlarında Azərbaycan-Belarus münasibətlərindən, Xocalı faciəsindən söz açdılar. Günün ikinci yarısında nümayəndə heyəti Belarus Dövlət İqtisad Universitetinin rektorluğu və professor-müəllim heyəti ilə görüşdü. Universitetin elmi işlər üzrə prorektoru Vladimir Xmelnitski, tədris bölməsinin rəisi, beynəlxalq əlaqələr üzrə koordinator Viktor Afanasyev bu ali təhsil ocağının strukturu və fəaliyyəti barədə bizə məlumat verdi. Nümayəndə heyətinin üzvləri - Azər Kərimov, Vaqif Arzumanlı, habelə Belarusdakı səfirliyimizin müşaviri Asya Manafova Azərbaycan-Belarus münasibətlərindən və Xocalı soyqırımından danışdılar. Xalqımızın tarixindən, Dağlıq Qarabağ münaqişəsinin real faktlarından söz açan, bu münaqişənin ən qanlı faciəsi olan Xocalı soyqırımı haqqında çıxışlar iştirakçıların böyük marağına səbəb oldu. Çıxış edənlər Belarusun ikinci Dünya müharibəsi illərində sakinləri ilə birlikdə yandırılmış Xatın kəndi və 1992-ci il fevralın 26-da erməni terrorçuları və onların əlaltıları tərəfindən Yer üzündən silinmiş Azərbaycanın Xocalı şəhəri arasında paralellər apardı. Mən də bu mövzuda fikirlərimi qarşı tərəfin diqqətinə çatdırdım. Görüşün sonunda nümayəndə heyəti Xocalı faciəsi və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sənədlər toplusunu, professor Sabir Əsədovun ingilis dilində nəşr olunmuş monoqrafiyasını, CD-ləri və milli suvenirləri universitetin kitabxanasına hədiyyə etdi. BDM-in Xocalı faciəsi ilə bağlı Belarusda keçirdiyi tədbirlər fevralın 19-20-də də davam etdirildi. Heyət Yanka Kupala adına Qrodno Dövlət Universitetində, Baranoviç Dövlət Universitetində

dəyirmi masalar, parlamentin üzvü Svetlana Piş ilə rəsmi görüş, Baranoviç Şəhər İcra Hakimiyyətində, Şəhər Şurasında görüşlər keçirdi. Görüşlərdə çıxış edən Vaqif Arzumanlı və digərləri "Xocalıya Ədalət!" kampaniyası haqqında geniş məlumat verdilər.

Belarusdan sonra nümayəndə heyətimiz Polşaya yola düşdü. Nümayəndə heyətini Azərbaycanın Polşadakı səfiri Vilayət Quliyev qarşıladı. Səfirlikdə keçirilən görüşdə Xocalı faciəsinin ildönümü ilə bağlı keçirilən tədbirlər barədə söhbət açıldı. Varşavadakı Azərbaycan diasporunun nümayəndələri ilə də ayrıca görüş keçirdik. Soyqırımının ildönümünə həsr edilən bu görüşdə həm də digər məsələlərlə bağlı müzakirələr aparıldı. Bildirildi ki, Polşa hökumətinin Xocalı faciəsinə siyasi-hüquqi qiymət verməsi üçün səyləri artırmaq gərəkdir. Eyni zamanda, faciələrimizin Polşa ictimaiyyətinin diqqətinə çatdırılması üçün diasporumuzun rolunun gücləndirilməsinin zəruriliyi vurğulandı.

Bir gün sonra Çexiyaya yollandıq. Fevralın 23-dən etibarən nümayəndə heyətimizin Çexiyada görüşləri başladı. Qeyd edim ki, BDM-in Avropa nümayəndəliyinin ofisi Çexiyanın Brno şəhərində yerləşir. Odur ki, ilk görüş Brnodakı Azərbaycan diasporunun nümayəndələri ilə oldu. Daha sonra Brnodakı Masarik Universitetinin prorektoru başda olmaqla rəhbərliyi ilə görüşdük. Fevralın 24-də isə universitetin böyük konfrans zalında bu ali təhsil ocağının həm müəllim, həm də tələbə heyətinin iştirakı ilə geniş bir anım mərasimi keçirildi. Mərasimdə Vaqif Arzumanlı, Samir Adıgözəlli, Azər Kərimov və Çexiyadakı səfirliyimizin konsulu Rauf Namazov iştirak edirdi. Tədbirdə Ermənistanın Azərbaycana təcavüzü, Dağlıq Qarabağ münaqişəsi, Xocalı faciəsi ilə bağlı iki saatdan artıq müzakirələr aparıldı.

- Keçirdiyiniz görüşlər zamanı insanlar Dağlıq Qarabağ münaqişəsi, o cümlədən Xocalı faciəsi ilə bağlı məlumatlara nə cür münasibət bildirirdilər?

- Qeyd edim ki, Masarik Universiteti Avropanın öndə gedən ali təhsil müəssisələrindən biridir. Avropa universitetlərinin reytinq sıralamasında dördüncü yerdə dayanır. Dünyanın bir çox siyasi xadimlərinin təhsil aldığı bir universitetdir və Xocalı faciəsi ilə bağlı keçirdiyimiz tədbirdə təkcə çexiyalı deyil, Avropanın müxtəlif ölkələrindən gəlib Masarik Universitetində təhsil alan tələbələr iştirak edirdi. Xocalı ilə bağlı məlumatlar onlara çox maraqlı görünürdü, bəlkə də bəziləri Dağlıq Qarabağ haqqında ilk dəfə eşidirdilər. Bilirsinizmi, biz Dağlıq Qarabağ münaqişəsi zamanı ermənilərin törətdiyi vəhşətlərə bələdik, amma bu barədə ilk dəfə

eşidənlər dəhşətə gəlirdilər. Onu da bildirim ki, Heydər Əliyev Fondu tərəfindən Xocalı faciəsi ilə bağlı hazırlanan film BDM tərəfindən çex dilinə tərcümə edilmişdi və biz filmin DVD-lərini də özümüzlə götürmüşdük. Həmin film də görüş zamanı seyr edildi və çox diqqətlə qarşılandı. Universitetin tələbə-müəllim heyətinin bizi doğmalıqla qarşılaması, ən sonda xatirə şəkli çəkdirmək istəmələri ondan xəbər verirdi ki, biz Azərbaycanımızı, onun yaşadığı faciələri onlara çatdıra bilmişik. Fevralın 25-də isə görüşümüz Brnodakı Texnologiya Universitetində davam etdirildi. Universitetin müəllim heyəti ilə görüşdə ötən ilin avqustunda BDM-in dəvətilə Azərbaycana səfər edən professor İvan Meznik də iştirak edirdi. O da Azərbaycana səfəri zamanı aldığı təəssüratlar, Quba məzarlığında gördükləri, qaçqınların yaşayış şəraiti barədə danışdı. Çapka soyadlı tarixçi-alim də bu istiqamətdə geniş çıxış etdi. O, çıxışında maraqlı bir ifadə işlətdi. Dedi ki, "təsəvvür edin, biz 18 il öncə burada əylənəndə, hətta pivə içəndə, Azərbaycanın Xocalı şəhərində hansı vəhşiliklər törədilirdi. Bu dəhşətdir, amma biz bu gün bu barədə xəbər tuturuq". Bu, çexiyalı alim tərəfindən səslənən çox dürüst ifadələr idi.

- Bundan sonra hansısa görüşlər keçirildimi?

- Fevralın 26-da nümayəndə heyətinin bir hissəsi paytaxt Praqada Azərbaycanın Çexiyadakı səfirliyinin "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində keçirdiyi tədbirlərdə iştirak etdi. Azərbaycan diasporunun üzvlərinin də qatıldığı tədbirdə səfir Tahir Tağızadə çıxış etdi. Nümayəndə heyətinin digər üzvləri - Vaqif Arzumanlı və Samir Adıgözəlli isə Avstriyaya səfər etdilər. Paytaxt Vyananın mərkəzi "Stepan" meydanında "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində böyük bir aksiya keçirilirdi. Meydanda Azərbaycan çadırı qurulmuşdu və bu çadırda yerləşdirilən iki böyük monitorda Xocalı faciəsini əks etdirən və Heydər Əliyev Fondu tərəfindən alman dilində hazırlanmış çox mükəmməl film nümayiş olunurdu.

Bütün bu tədbirlərin yekunu olaraq gəldiyim qənaət budur ki, Xocalı faciəsinin, Dağlıq Qarabağ münaqişəsinin, bütövlükdə Azərbaycan həqiqətlərinin dünya ölkələrinin diqqətinə çatdırılması istiqamətində hər bir təşkilatın aktiv iştirak etməsi gərəkdir. Bu, Azərbaycan diasporunun dünyanın müxtəlif ölkələrində, xüsusilə də Avropada ciddi şəkildə təşkilatlanmasına istiqamətlənmiş bir hadisədir.

"Yeni Azərbaycan"
5 mart 2010-cu il. N.41.Səh. 6

* * *

Xocalı soyqırımı: Ədalətin zəfər çalması üçün daha nələr edilməlidir?

Bəşər tarixinin on qanlı qətliamlarından birinin yaşandığı XOCALI şəhəri, erməni silahlı dəstələrinin azərbaycanlı əhaliyə qarşı törətdiyi qırğının miqyası barədə dünya ictimaiyyəti nə dərəcədə məlumatlıdır? Biz bu sual ətrafında adətən XOCALI SOYQIRIMI günü ərəfəsində, hər il 26 fevral öncəsi düşünürük? Lakin XOCALI gerçəklərini dünyaya tanıtmaq, bu soyqırımı faktına beynəlxalq hüquqi qiymətin verilməsinə nail olmaq üçün bu sual hər zaman bizim üçün aktual olmalıdır.

XOCALI SOYQIRIMI müxtəlif beynəlxalq hüquqi sənədlərin əlaqədar maddələrində qadağan olunmuş hərəkətlərə tam ziddiyyət təşkil edir və xüsusilə də Soyqırım Cinayətinin Qarşısının Alınması və Günahkarlarının Cəzalandırılmasına Dair Müqavilənin 2-ci maddəsində "milli, etnik, irqi və ya dini bir qrupu qismən və ya tamamilə məhv etmə" şəklində ifadə olunan "Soyqırım" anlayışı ilə tamamilə üst-üstə düşür. Xocalıda törədilən qırğın BMT Soyqırım Müqaviləsinin 2-ci maddəsinin a) bəndindəki "bir qrupun üzvlərinin qətl edilməsi" və b) bəndindəki "qrup üzvlərinə fiziki və əqli baxımdan ciddi şəkildə zərər verilməsi" şərtlərinə tam uyğun gəlir.

Beynəlxalq hüquq baxımından SOYQIRIM olduğu mübahisəsiz şəkildə ortada olan Xocalı hadisələri üçün ediləcək çox iş var. Şübhəsiz ki, bunların ən əhəmiyyətlisi ədalətin ortaya çıxması və yerini tapmasıdır. Bu günə qədərki mərhələdə ədalətin ortaya çıxması, XOCALI SOYQIRIMI-nın tanınması, günahkarların cəzalandırılması, zərər çəkmişlərin zərərlərini azacıq da olsa aradan qaldıracaq siyasi və hüquqi xarakterli qərarların alınması üçün səylər sərf edilib. Azərbaycanda və xaricdə təşkil edilən rəsmi tədbirlər, müxtəlif ölkələrdəki tələbə təşkilatları və diaspor qurumları tərəfindən təşkil olunan xarici ölkələrin ictimaiyyətlərini və rəsmilərini məlumatlandırma təşəbbüsləri və s. fəaliyyətlər olub.

Son illərdə isə bu fəaliyyətlərin koordinasiyası və materiallarla daha çox dəstəklənilməsi diqqət çəkir. Leyla Əliyevanın koordinatorluğunu həyata keçirdiyi İslam Konfransı Təşkilatı Gənclik Forumu çərçivəsində aparılan "Xocalıya Ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası çərçivəsində daha da sürətlənib. 2007-ci ildə İslam Konfransı Gənclik Forumu Dialoq və Əməkdaşlıq Təşkilatının təklifi ilə "Müsəlman cəmiyyətlərə qarşı 20-ci əsrdə

işlənmiş insan hüquqları pozuntularını və faciələrini ortaq xatırlama günü" təşkil edərək "Xocalıya Ədalət!" kampaniyasını 2010-cu ildə bütün Müsəlman ölkələrində xatırlama qərara alınıb.

30-dan çox ölkədə "Xocalıya Ədalət!" kampaniyası daxilində fəaliyyətlər təşkil edilərək dünya liderlərinə istiqamətləndirilən çağırışla beynəlxalq ictimaiyyətin diqqəti çəkilib. Toplanan imzalar ABŞ prezidentinə, Konqresə, Avropa Birliyinə və Avropa Parlamentinə və onlarla eyni zamanda dövlət başçılarına göndəriləcək. Bu çərçivədəki fəaliyyətlər siyasi sahələrlə məhdud qalmır. Küçə nümayişləri, sərgilər, müsabiqələr, kitablar və kliplər hazırlanaraq cəmiyyətə sadə dillə, yaşanan vəhşiliyin izah edilməsi, XOCALI soyqırımının XX əsrdə yaşanan ən böyük qırğınlardan biri olduğunun qəbul etdirilməsi və qınanmasının təmin edilməsi məqsəd seçilib.

Bütün bunlar əhəmiyyətli və müsbət olmaqla yanaşı, aşağıdakı məsələlərin də nəzərə alınmasının faydalı olacağını düşünürük.

XOCALI SOYQIRIMI ilə bağlı fəaliyyətlərin mütləq müəyyən bir sistematikaya və plana sahib olması vacibdir. Fəaliyyətlərin daxil və xariclə bağlı iki əhəmiyyətli istiqaməti olmalıdır. Bu iki istiqamətin əhəmiyyətli məzmun, müddət və taktika fərqliliklərinə sahib olması mümkündür.

XOCALI SOYQIRIMI ilə bağlı fəaliyyətlərin son hədəfi yuxarıda da ifadə edildiyi kimi XOCALI SOYQIRIMI-nın tanınması, günahkarların cəzalandırılması, zərər çəkmişlərin zərərlərinin müəyyən dərəcədə də olsa ortadan qaldırılması yoluyla ədalətin yerini tapmasıdır.

Xarakterinə görə XOCALI SOYQIRIMI ilə bağlı fəaliyyətlərin bir hissəsi təbii ki, könüllülük xarakterinə malik olacaq. Fəqət mövzunun əhəmiyyəti və qarşı tərəfin imkan və səyləri diqqətə alınaraq bu işlərin peşəkar səviyyədə aparılması zəruridir. Prosesdə reklam, təbliğat, ictimaiyyətlə əlaqələr, informasiya, lobbiçilik və digər təqdimat vasitələrindən peşəkar istifadə edilməsi şərtdir. Siyasi, hüquqi, iqtisadi, mədəni, təhsil, hərbi və digər sahələrdə strateji planlama və strateji idarəetmə modelinə sahib yaxşı təşkilatlanma şərtdir.

Fəaliyyətlərin koordinasiyası, hamılıqla eyni təşkilatda olmasa da, müəyyən işlərin ortaq hədəf, imkanlardan ortaq faydalanma şəklində reallaşdırılması əhəmiyyətlidir. Sistematik bütünlük, hədəf ortaqlığı, ifadə bütövlüyü, hədəf kütlənin xüsusiyyətləri diqqətə alınaraq bənzər ya da tamamlayıcı xüsusiyyətli fəaliyyət və şüarlar əhəmiyyətlidir. Prosesdə mesaj bütövlüyünə diqqət yetirilməlidir. Bu mövzuda bu günə qədərki mərhələdə

müşahidə edilən əskikliklər aradan qaldırılmalı, fərqli fəaliyyətlərdə ortaq ya da heç olmasa bir-birini tamamlayan mesajlar verilməlidir.

Azərbaycan diaspor təşkilatlan arasındakı rəqabətin XOCALI SOYQIRIMI mövzusundakı işlərə zərər verməməsinə diqqət yetirilməlidir.

Bənzər şəkildə XOCALI SOYQIRIMI mövzusunda görülən işlərin Azərbaycanın daxili siyasi mübahisələrinə qatılmaması da zəruridir. Bu istiqamətdəki fəaliyyətlər daxili siyasətdə müsbət ya da mənfi mənada təbliğat vasitəsi olmamalıdır.

Digər tərəfdən XOCALI SOYQIRIMI insanlığa qarşı cinayətdir və təbii ki, dini və etnik bağ diqqətə alınmadan hər kəsin bu mövzudakı ədalətin yerini tapması üçün dəstəyi əhəmiyyətlidir.

Mənfi reaksiyalar, yerli-yersiz, "qan və göz-yaşı ticarəti" görüntüsü meydana gətirəcək fəaliyyətlərdən uzaq durulması zəruridir. Müxtəlif ölkələrdə əhəmiyyətli mövqelərdə olan şəxslərdən və təşkilatlardan yerli-yersiz və həddindən artıq dərəcədə bu sahədə faydalanmaq təşəbbüsləri ilə onların imkan və mövqelərinə zərər verilə bilər. Bu hal uzaq mərhələdə elə bu şəxslərin verə biləcəyi çox zəruri faydalarından məhrum qalmaq mənasına da gəlir.

Əhəmiyyətli məsələlərdən biri də odur ki, həyata keçirdiyimiz tədbirlərin təsirinin azaldılması məqsədilə aparılacaq mümkün qarşı təbliğatlara hazırlıqlı olmaqdır. Bu səbəblə təcili qərar verə biləcək mərkəzlərin mövcud olması, bura sürətli strateji qərarlar ala bilən şəxslərin cəlb edilməsi çox əhəmiyyətlidir.

Təbliğat prosesində sadəcə gerçək dəlillər ilə hərəkət etmək, uğur qazanmaq naminə şişirtmələrdən uzaq durmaq zəruridir. Çünki, məqsəd ədalətin ortaya çıxmasıdır. Bu cür səhv addımlar xoş niyyətdən qaynaqlansa da, prosesin ciddiyyətinin azalmasına səbəb ola bilər.

Fəaliyyətlərin məzmun etibarilə fərqli olması daha yaxşı olar. Sırf XOCALI SOYQIRIMI ilə bağlı; əsas mövzusu XOCALI SOYQIRIMI olan, amma digər mövzuları da əhatə edən; eyni dərəcədəki mövzularından biri XOCALI SOYQIRIMI olan; əsas mövzusu tam fərqli bir mövzu olan, amma münasib yerdə XOCALI SOYQIRIMI gerçəklərini də izah edən əsərlər (siyasi, hüquqi, iqtisadi, hərbi, mədəni, maarifləndirici və s.) ortaya qoyulmalıdır.

Fəaliyyətlərin 20-26 Fevral arası ilə məhdud tutulmaması, il boyunca olması, amma ən azı 1 Fevral - 1 May (müəyyən mərhələdə 31 mart hadisələri də əlavə olunaraq) mərhələsinin sıx olması strateji baxımdan

əhəmiyyətlidir. Şübhəsiz ki, fəaliyyətlərin çərçivəsinə və məzmununa dair daha çox şey ifadə edilə bilər. Bu yazıda biz, sadəcə, ümumi məsələlər qeyd etməyə çalışdıq.

Araz ASLANLI,
Nabat QARAXANOVA
"525-ci qəzet". *9 aprel 2010-cu il. N.61.Səh. 4*

***

İslam Konfransı Təşkilatının Xarici İşlər Nazirləri Şurası Xocalı faciəsini insanlığa qarşı törədilmiş cinayət kimi tanımışdır

Mayın 20-də Tacikistanın paytaxtı Düşənbədə keçirilən İslam Konfransı Təşkilatı Xarici İşlər Nazirləri Şurasının (İKT XİNŞ) 37-ci sessiyasının yekun iclasında Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (İKGF) fəaliyyəti haqqında qətnamə qəbul edilmişdir. Qətnamədə xüsusi bəndlə İKT üzv dövlətləri, həmçinin İKT-yə bağlı beynəlxalq institutlar "Xocalıya Ədalət!" kampaniyasının fəaliyyətində aktiv iştiraka və faciənin həm beynəlxalq, həm də milli səviyyədə insanlığa qarşı törədilmiş cinayət kimi tanınmasına çağırılmışdır.

Bu haqda Düşənbədə İKT XİNŞ sessiyasına qatılan forumun nümayəndə heyətinin rəhbəri, İKGF baş katibi Elşad İskəndərov bildirmişdir. Sənəddə Forumun fəaliyyətinə və xüsusilə İSESKO ilə birgə aparılan "İKT ölkələrində XX əsrdə törədilmiş humanitar faciələr" proqramının həyata keçirilməsinə yüksək qiymət verilmişdir. Qətnamə, həmçinin üzv dövlətləri İKGF-nin mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə irəli sürülən və Xocalı faciəsi haqqında dünya ictimaiyyətinin düzgün və obyektiv məlumatlandırılması məqsədini daşıyan "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyasına dəstək verməyə çağırır.

E. İskəndərov sənədi şərh edərkən bildirmişdir ki, bu, BMT-dən sonra ikinci böyük beynəlxalq təşkilat olan İKT-yə üzv 57 dövlətin xarici siyasət idarələri rəhbərlərinin hadisənin miqyasının təyin edilməsi baxımından insanlığa qarşı törədilmiş cinayət ifadəsini istifadə edərək, Xocalı faciəsinin xarakteri haqqında birmənalı olaraq mövqe bildirdikləri ilk qətnamədir. Qeyd olunan ifadə həm siyasi, həm də beynəlxalq-hüquqi tərkibə malikdir,

beynəlxalq humanitar hüququn bir çox ciddi pozuntularını, o cümlədən genosid cinayətini əhatə edir.

İKGF-nin baş katibi qeyd etmişdir ki, sənədin konsensusla qəbul edilməsi, həmçinin buna qədər üzv ölkələrin XİN ekspertləri tərəfindən təsdiq edilməsi İKT-nin Xocalı faciəsinin həqiqi xarakteri haqqında əminliyinin güclənməsinin göstəricisidir. Bu sənəd Xocalı faciəsinə cari ilin yanvar ayında İKT Parlamentlər İttifaqı (İKT Pİ) tərəfindən verilən qiyməti təkrarlayır və ümumilikdə Xocalıdakı qətliamın İKT-yə üzv dövlətlərin parlamentləri tərəfindən insanlığa qarşı törədilmiş cinayət kimi tanınması, eləcə də, tanınma haqda məsələnin beynəlxalq səviyyəyə qaldırılması üçün ciddi siyasi-hüquqi zəmin hazırlayır. 57 üzv dövlətin belə mövqeyinin formalaşmasında Forumun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət!" kampaniyası böyük rol oynamışdır. Qətnamədə kampaniyanın fəaliyyətinə yüksək qiymət verilmiş və üzv dövlətlər onun həyata keçirilməsində aktiv iştirak etməyə çağırılmışdır.

Qeyd edək ki, "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyasına 2009-cu ildə beynəlxalq səviyyədə start verilmişdir. Hazırda kampaniyanın fəaliyyəti 35-dən artıq İKT və həmçinin Avropa və Latın Amerikası ölkələrini əhatə edir.

*"**Xalq qəzeti**"*
21 may 2010-cu il. N 109. Səh.4

***

"Xocalıya Ədalət!" kampaniyası öz bəhrəsini verir
Ermənistan ciddi təşviş içərisindədir

Son illər ölkəmizin üzləşdiyi problemlər, Ermənistanın Azərbaycana təcavüzü, bu təcavüz nəticəsində Azərbaycan xalqının üzləşdiyi çətinliklər, eləcə də XX əsrin ən dəhşətli hadisəsi olan Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində ayrı-ayrı dövlətlər və beynəlxalq təşkilatlar səviyyəsində xeyli işlər görülür. Bu tədbirlərin və görülən işlərin öncüllərindən olan İslam Konfransı Təşkilatı Gənclər Forumu da davamlı olaraq Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində fəaliyyət göstərir. Hətta İKT Gənclər Forumu bu məqsədlə "Xocalıya Ədalət!" adlı kampaniya da həyata keçirir.

Qeyd edək ki, "Xocalıya Ədalət!" kampaniyası İslam Konfransı Təşkilatının Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş koordinatoru Leyla Əliyeva tərəfindən irəli sürülüb. Kampaniyaya 2008-ci il mayın 8-də Şuşanın işğal günü start verilib. İndiyə qədər dünyanın təxminən 75 ölkəsindən 130 min insan bu kampaniyanı dəstəkləyib. Ötən müddət ərzində "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində dünyanın əksər ölkələrində bir sıra tədbirlər keçirilib, Azərbaycanın haqq səsi, işğal edilmiş Azərbaycan torpaqları, eləcə də ermənilərin Xocalıda həyata keçirdikləri vəhşiliklər barədə bir sıra kitablar çap edilərək yayılıb. Sevindirici haldır ki, kampaniyaya qoşulanların sayı getdikcə artmaqdadır. Artıq İslam Konfransı Təşkilatına daxil olan ölkələrdə kampaniya geniş vüsət alıb və təşkilata daxil olan ölkələr Xocalıda insanlığa qarşı cinayətin həyata keçirildiyini açıq şəkildə bildirirlər. Buna örnək kimi cari ilin yanvarında İslam Konfransı Təşkilatına daxil olan ölkələrin Parlament Birliyinin qəbul etdiyi qətnaməni göstərmək olar. Bu ilin yanvar ayında İslam Konfransı Təşkilatının Gənclər Forumu tərəfindən irəli sürülmüş qətnamə əsasında 54 ölkənin parlamentariləri təşkilatın Parlament Birliyində ilk dəfə olaraq faciəyə hüquqi qiymət verərək Xocalı soyqırımını insanlığa qarşı cinayət kimi tanıyıblar. Nəzər alaq ki, insanlığa qarşı cinayət eyni zamanda soyqırım və müharibə cinayətlərini özündə ehtiva edən hüquqi anlayışdır.

Təbii ki, bu amil Ermənistan tərəfini ciddi narahat edən məqamlardandır və işğalçı ölkə hər vasitə ilə "Xocalıya Ədalət!" kampaniyasına qarşı əkstəbliğat siyasəti aparır. Bu gün açıq şəkildə müşahidə edilir ki, erməni tərəfi "Xocalıya Ədalət!" kampaniyasına qarşı çox çirkin, antitəbliğat həyata keçirir. Ermənistan dövləti səviyyəsində həyata keçirilən bu siyasətin başlıca məqsədi əsl həqiqətləri, erməni vəhşiliklərini ört-basdır etməkdir. Onu da qeyd edək ki, keçən ilin yay aylarından kampaniyanın veb-saytı Ermənistanda qadağan edilib və texniki baxımdan bağlanıb. Bu gün Ermənistan dövləti səviyyəsində "Xocalıya Ədalət!" kampaniyasına qarşı edilən hücumlar onu deməyə əsas verir ki, bu kampaniya tədricən hədəfinə nail olur. Məhz həyata keçirilən tədbirlər və bu istiqamətdə görülən işlər nəticəsində Ermənistanın uzun illər gizlətmək, məsuliyyəti öz üzərində atmaq istədiyi Xocalı soyqırımı tədricən dünyada tanınır. Əgər Xocalı soyqırımı dünyada tanınmasaydı çox kiçik və tükənən resurslara malik olan Ermənistan bu gün əlavə resurslardan istifadə edərək kampaniyaya qarşı əks təbliğata keçməzdi.

Bu gün qəti şəkildə demək mümkündür ki, "Xocalıya Ədalət!" kampaniyası öz bəhrəsini verir. İndiyə qədər görülən işlər və əldə edilən nailiyyətlər onu deməyə əsas verir ki, çox qısa müddətdə dünya dövlətlər, nüfuzlu beynəlxalq təşkilatlar XX sərin ən böyük faciəsi, insanlığa qarşı cinayət sayılan Xocalı soyqırımını tanıyacaq, bu soyqırımı törədənlər beynəlxalq məhkəmələr qarşısında cavab verməli olacaqlar.

Süleyman
"Olaylar"
23 iyun 2010-cu il. N.101.Səh. 13

***

"Ədalət naminə Dostunu işarələ" aksiyasının ikinci mərhələsinə start verilir

Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Təşkilatı Gənclər Forumunun (İKGF) mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət!" kampaniyasının "Facebook" səhifəsində start götürmüş "Ədalət naminə Dostunu işarələ" adlı qlobal kampaniyasının birinci mərhələsi uğurla başa çatıb.

Forumun Bakı ofisindən AzərTAc-a bildiriblər ki, kampaniya nəticəsində 4 gün ərzində 5 mindən çox insan "Xocalıya Ədalət!" kampaniyasının "Facebook" səhifəsinin qonağı olub, 400 nəfər öz dostunu işarələyib. Bunun nəticəsi kimi "Xocalıya Ədalət!" kampaniyasına yardım olaraq "Save Darfur" ("Darfuru xilas et") kampaniyasına maliyyə dəstəyi göstərilib. Kampaniya "Facebook" sosial şəbəkəsinin verdiyi imkanlardan istifadə edilməklə Xocalı soyqırımı haqqında həqiqətləri daha geniş beynəlxalq auditoriyada, xüsusilə "Facebook"un 500 milyon istifadəçisi arasında yaymaq məqsədi güdür. Kampaniyanın birinci mərhələsi "Dostunu işarələ, Darfuru xilas et" adlanır.

Kampaniyanın "Ədalət naminə dostunu işarələ, qlobal istiləşməni dayandır" adlanan ikinci mərhələsinə (http://www.facebook.com/pages/Justice-for-Khojaly-Campaign/101823787520#!/pages/Justice-for-Khojaly Campaign/101823787520?v=wall) oktyabrın 9-da start verilir.

Qeyd edək ki, "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində 2 il ərzində dünyanın 50-yə yaxın ölkəsində müxtəlif tədbirlər və aksiyalar keçirilib. ABŞ-da sosial mövzularda yaradıcılığı ilə tanınmış rep ifaçısı Toni Bləkman

və Azərbaycanın rep qrupu "Dəyirman" tərəfindən ifa edilmiş "Xocalıya Ədalət!" mahnısının təqdimatı Xocalı faciəsi həqiqətlərinin dünyada yayılmasında xüsusi rol oynayıb.

Kampaniyanın fəaliyyətini əlaqələndirən İKGF-nin təşəbbüsü ilə bu il Uqandanın paytaxtı Kampalada İKT-yə üzv dövlətlərin Parlament Birliyi və Düşənbədə keçirilən İKT Xarici İşlər Nazirlərinin Konfransı tərəfindən qəbul edilən sənədlərdə Xocalı soyqırımı insanlığa qarşı cinayət kimi qiymətləndirilib. Hazırda kampaniya çərçivəsində Xocalı soyqırımına dünya ictimaiyyəti tərəfindən hüquqi-siyasi qiymət verilməsi məqsədilə hazırlanmış petisiyaya (http://justiceforkhojaly.org/?p=petition) beynəlxalq imza toplama aksiyası keçirilir.

"Mərkəz"
9 oktyabr 2010-cu il. N.185.Səh. 5

***

"Xocalıya Ədalət!" Dünya Azərbaycanlı Gənclər Konqresi kampaniyaya qoşulmuşdur

Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) Avrasiya Regional Mərkəzindən AzərTAc-a bildirmişlər ki, Almaniyanın Frankfurt şəhərində keçirilmiş Dünya Azərbaycanlı Gənclərinin (DAG) I Konqresinin açılış mərasimində DƏ-İKGF-nin baş katibi, səfir Elşad İsgəndərov təbrik nitqi ilə çıxış etmişdir.

E. İsgəndərov xaricdə təhsil alan azərbaycanlı tələbələri və diasporun gənc fəallarını ölkəmizin milli maraqlarının qorunmasında, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumatların yaşadıqları və təhsil aldıqları ölkələrin ictimaiyyətinə çatdırılması işində fəal iştirak etməyə çağırmışdır.

Baş katib İKGF-nin mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə irəli sürülmüş "Xocalıya Ədalət!" kampaniyasının vacibliyini vurğulayaraq, azərbaycanlı gəncləri Xocalı faciəsinin insanlığa qarşı cinayət kimi tanınması üzrə aparılan işlərdə fəal olmağa çağırmışdır.

E. İsgəndərovun sədrliyi ilə keçirilmiş "Mədəniyyətlərarası dialoqun inkişafında gənclərin rolu" işçi qrupunda kampaniyanın əlaqələndiricisi, Kolumbiya Universitetinin məzunu Nicat Məmmədli 2008-ci ildən etibarən

"Xocalıya Ədalət!" kampaniyası çərçivəsində görülmüş işlər barədə məlumat vermişdir. İşçi qrupunun iştirakçıları DƏ-İKGF-nin BMT Sivilizasiyaların İttifaqı prosesində rolu, o cümlədən 2011-ci ildə Bakıda keçirilməsi planlaşdırılan Qlobal Gənclər Sivilizasiyaların İttifaqı Uğrunda Hərəkatının təsis qurultayı ilə bağlı görülən işlər haqqında danışmışdır.

Tədbirin yekunlarına dair qəbul olunmuş sənəddə "Xocalıya Ədalət!" kampaniyasına dəstək ifadə olunmuş, xaricdə yaşayan azərbaycanlı gənclərin kampaniyanın həyata keçirilməsində fəal iştirakının vacibliyi vurğulanmışdır.

"İki sahil"
1 dekabr 2010-cu il. N.223.Səh. 5

***

"Xocalıya Ədalət!"

Beynəlxalq kampaniyanın on-line aksiyasına start verilib

Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Təşkilatı Gənclər Forumu (İKGF) və "Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi "Xocalıya Ədalət!" beynəlxalq təşviqat kampaniyasının on-line fəaliyyətinin təqdimatını keçirib.

APA-nın məlumatına görə, icmanın rəhbəri Bayram Səfərov Xocalı soyqırımını dünya tarixində ən qanlı qırğın adlandırıb, bir gecədə 613 nəfərin xüsusi qəddarlıqla qətlə yetirildiyini söyləyib. O bildirib ki, Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün dünyanın bir neçə ölkəsində icmanın nümayəndəlikləri yaradılacaq. İcma rəhbəri hamını fəal vətəndaş mövqeyi göstərməyə çağırıb.

İKGF-nin baş katibi Elşad İsgəndərov 2008-ci ildən etibarən kampaniya çərçivəsində görülən işlər, xüsusilə Xocalı faciəsinin "insanlığa qarşı cinayət" kimi tanınması ilə bağlı beynəlxalq qurumların qəbul etdiyi sənədlərin əhəmiyyəti haqqında məlumat verib. "Xocalıya Ədalət!" kampaniyasına qarşı Ermənistan tərəfindən əks kampaniya aparıldığını söyləyən E. Isgəndərov bildirib ki, bu onu göstərir ki, Xocalı soyqırımı Ermənistan dövləti tərəfindən törədilmiş bir aksiya olub.

Millət vəkili, Xocalı soyqırımının şahidi Elman Məmmədov aparılan kampaniyanın çox lazımlı olduğunu söyləyib. O təklif edib ki, yaradılmış saytda Xocalının tarixi barədə məlumat yerləşdirilsin. E. Məmmədov bu yaşayış məskəninin tarixinin eramızdan əvvəl 3-5-ci əsrə gedib çıxdığını deyib: "Bu ərazilərin türklərə məxsus olduğunu sübut edən çoxlu nişanələr vardı". Xocalı soyqırımının tanınması istiqamətində təbliğatın gücləndirilməsinin vacibliyini qeyd edən deputat bu işdə Xocalı soyqırımının minlərlə şahidi olan insanlardan istifadə olunmasını təklif edib.

"Xocalıya Ədalət!" kampaniyasının əlaqələndiricisi Nicat Məmmədov kampaniyanın yeni İnternet saytı, onun Facebook, Twitter, Youtube kimi sosial şəbəkələrdəki fəaliyyəti barədə geniş məlumat verib. O bildirib ki, kampaniya 3 hissədən - siyasi tanıtım, kütləvi aksiyaların keçirilməsi və ictimaiyyətlə əlaqə qurmaqdan ibarətdir.

Bakıda akkreditə olunmuş diplomatik nümayəndəliklərin təmsilçilərinin də iştirak etdiyi tədbirdə, həmçinin Xocavənd rayon icra başçısı Eyvaz Hüseynov, millət vəkili Fuad Muradov və digərləri çıxış ediblər.

"İki sahil"
16 dekabr 2010-cu il. N.234. Səh.11

***

Əbu-Dabi bəyannaməsi 51 dövlətin parlamentini Xocalı faciəsini insanlığa qarşı törədilmiş cinayət kimi tanımağa çağırır

İslam Konfransı Təşkilatı Parlamentlər İttifaqı (İKT Pİ) Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasına dəstək olaraq bəyannamə qəbul etmişdir.

İKT Gənclər Forumunun (İKT GF) İstanbulda yerləşən qərargahından verilən məlumatda deyilir ki, İKT Parlamentlər İttifaqı (İKT Pİ) Şurasının Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Əbu-Dabidə keçirilən 13-cü sessiyası öz işini başa çatdırmışdır. Baş katib Elşad İskəndərovun başçılığı ilə Forumun nümayəndə heyəti Şuranın işində iştirak etmişdir.

İKT Pİ Şurası üzv dövlətləri Xocalı faciəsini "insanlığa qarşı törədilmiş kütləvi cinayət" kimi tanımağa çağıran Əbu-Dabi bəyannaməsini qəbul

etmişdir. E.İskəndərov demişdir ki, bu, İKT GF-nin təşəbbüsü ilə irəli sürülmüş "İKT GF və İKT Pİ arasında əməkdaşlıq haqqında" qətnamənin Şura tərəfindən təsdiqlənməsi nəticəsində baş vermişdir. Qətnamənin 3-cü bəndində qeyd edilmişdir ki, İKT Pİ-yə üzv parlamentlər erməni silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının Xocalı şəhərində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş kütləvi qırğını insanlığa qarşı cinayət kimi tanıyır. Sənəddə üzv dövlətlər qeyd olunan cinayətə milli səviyyədə lazımi qiymətin verilməsinə çağırılırlar. İKT Pİ Şurası Leyla xanım Əliyevanın fəaliyyətini yüksək qiymətləndirmiş və bu rəy qətnamədə öz əksini tapmışdır. Xatırladaq ki, qətnamə İKT GF-nin Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə irəli sürülmüş "Xocalıya Ədalət!" kampaniyasının tərkib hissəsi idi.

Sənədin əhəmiyyətini şərh edərkən İKT GF-nin baş katibi Elşad İskəndərov demişdir: "Məlum olduğu kimi, keçən il faciəyə insanlığa qarşı cinayət kimi prinsipial qiyməti İKT Pİ spikerlərinin konfransı vermişdir. O vaxt rəsmi İrəvan bu hadisəni belə qələmə vermişdi ki, spikerlər diplomat deyil və nəyi imzaladıqlarına baxmırlar. Ötən ildən bəri İKT-yə üzv bəzi ölkələrin parlamentlərinə bu mövqedən imtina etmək üçün təzyiqlər də edilmişdi. Şuranın qətnamə vasitəsilə Xocalı faciəsini insanlığa qarşı cinayət kimi tanıması həm İKT-nin bu məsələdə prinsipial mövqeyini bir daha nümayiş etdirir, həm də faciənin siyasi yolla tanınması prosesini praktiki müstəviyə keçirir".

E.İskəndərov əlavə etmişdir ki, qətnamədə təşkilata üzv parlamentlərə birbaşa çağırış vardır və bu, öz növbəsində, faciənin milli səviyyədə hüquqi və siyasi tanınması mərhələsini açır. İKT Pİ-nin dünya parlamentlərinin dörddəbirini öz sıralarında cəmləşdirdiyini nəzərə alsaq, mühüm siyasi-hüquqi tərkibə malik "insanlığa qarşı cinayət" ifadəsinin istifadə olunması Xocalı faciəsinin ermənilərin Azərbaycan xalqına qarşı soyqırımı siyasətinin tərkib hissəsi kimi tanınması və cinayəti törədənlərin hüquqi məsuliyyətə cəlb olunması baxımından yeni mərhələdir. Qətnamənin qəbulu ideyası Leyla xanım Əliyevanın "Xocalıya Ədalət!" kampaniyasının milli koordinatorları ilə görüşündə irəli sürülmüş və kampaniyanın fəallarının öz ölkələrinin parlamentləri ilə apardıqları lobbiçilik fəaliyyəti nəticəsində uğurla reallaşdırılmışdır.

E.İskəndərov daha sonra sessiyanın işi zamanı İKT GF-nin bu təşəbbüsünü fəal şəkildə dəstəkləyən İKT Pİ Katibliyinə, Türkiyə, İordaniya,

İran İslam Respublikası, Pakistan, Küveyt və bir sıra digər ölkələrin deputatlarına, Azərbaycan Respublikası Milli Məclisinin və Xarici İşlər Nazirliyinin nümayəndələrinə öz minnətdarlığını bildirmişdir.

*"**Respublika**"*
20 yanvar 2011-ci il. N 14. Səh. 4

***

Ukraynada "Xocalı ayı" elan olundu

İslam Konfransı Gənclər Forumu, Ukrayna Azərbaycanlı Gənclər Birliyi və Ümumukrayna Gənclər Assambleyasının birgə təşəbbüsü və Azərbaycanın Ukraynadakı səfirliyinin dəstəyi ilə fevral ayı Ukraynada "Xocalı ayı" elan edilib.

Bu barədə APA-ya Ukrayna Azərbaycanlı Gənclər Birliyindən bildirilib. Bununla bağlı növbədənkənar toplantı keçirən Ukrayna Azərbaycanlı Gənclər Birliyinin idarə heyəti fevral ayında Ukraynanın bir çox vilayət və şəhərlərində Xocalı soyqırımı ilə bağlı həyata keçiriləcək tədbirlər planını təsdiqləyib. Toplantıda Ukrayna Azərbaycanlı Gənclər Birliyinin sədri Anar Tahirov çıxış edərək 2008-ci ildən başlayaraq, İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş koordinatoru Leyla Əliyevanın təşəbbüsüylə dünyanın bir çox ölkələrində "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində keçirilən tədbirlərin əhəmiyyətindən danışıb. Anar Tahirov Xocalı faciəsinin XX əsrin ən amansız faciəsi olduğunu deyib. Qeyd olunub ki, Ukraynada "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində keçiriləcək tədbirlərə Ukraynanın bir sıra yerli gənclər təşkilatları qatılacaq. Fevralın 10-dan başlayaraq, Ukraynanın bir çox vilayət və şəhərlərində silsilə tədbirlər keçiriləcək.

"Xocalıya Ədalət!" kampaniyası çərçivəsində İslam Konfransı Gənclər Forumunun, Ukrayna Azərbaycanlı Gənclər Birliyinin və Ümumukrayna Gənclər Assambleyasının birgə təşəbbüsü ilə Ukraynanın Nikolayev, Simferopol, Donetsk, Dnepropetrovsk, Xarkov və Kiyev şəhərlərinin mərkəzi meydanlarında imzatoplama aksiyası keçiriləcək.

Fevralın 26-da Ukraynanın bir sıra şəhərlərdən gənclərin Kiyev şəhərinə üzərində "Xocalıya Ədalət!" sözləri yazılmış avtoyürüşü olacaq .Yürüş iştirakçıları Ermənistanın Ukraynadakı səfirliyinin, ATƏT-in və BMT-nin

Ukrayna nümayəndəliklərinin qarşısında etiraz aksiyası keçirəcək, adıçəkilən qurumlara qətnamələr təqdim edəcəklər.

"Xalq Cəbhəsi"
4 fevral 2011-ci il. N 21. Səh. 3

***

Hindistanda "Xocalı - Gələcək üçün ibrət" adlı inşa yazı müsabiqəsi keçirilir

Hindistanda "Xocalı - Gələcək üçün ibrət" adlı inşa yazı müsabiqəsi elan olunub. Bu barədə APA-ya Azərbaycanın Hindistandakı səfirliyindən məlumat verib. Səfirliyin dəstəyi və "Athena Ventures" şirkətinin təşkilatçılığı ilə Xocalı soyqırımının 19-cu ildönümünə həsr olunmuş "Xocalı - Gələcək üçün ibrət" adlı inşa yazı müsabiqəsinə bütün Hindistan üzrə start verilib. Müsabiqə məktəblilər və universitet tələbələri üçün elan olunub. İştirak etmək istəyənlər qeyd olunan başlıq altında göstərilmiş və digər mənbələrdən istifadə edərək inşa yazmalı və 23 fevral tarixinədək təşkil olunmuş komissiyanın elektron poçt ünvanına göndərməlidir.

Müsabiqə davam etdiyi müddət ərzində bu haqda Hindistanın televiziya və qəzetlərində xəbərlər və elanlar yer alacaq. Müsabiqənin artıq rəsmi internet səhifəsi (www.khojalycontest.com) də hazırlanıb və bu haqda məlumat səfir Tamerlan Qarayevin müsahibəsi ilə yerli telekanalların xəbərlər proqramında yayımlanacaq.

Müsabiqə fevralın 23-də başa çatacaq və fevralın 26-da mükafatların təqdim edilməsi üçün bir günlük seminar keçiriləcək. Seminar zamanı Xocalı soyqırımı haqqında videomateriallar, fotoşəkillər nümayiş etdiriləcək, "Xocalıya Ədalət!" kampaniyası üçün imza toplanacaq və sonda bütün iştirakçılara sertifikat, qaliblərə isə pul mükafatları təqdim olunacaq.

"Palitra"
16 fevral, 2011-ci il. N.17. Səh. 5

***

Ukraynada "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində tədbirlərə start verilmişdir

İslam Konfransı Gənclər Forumunun və Ukrayna Azərbaycanlıları Gənclər Birliyinin birgə təşəbbüsü ilə Ukraynada elan olunmuş Xocalı ayına Nikolayev şəhərindən start verilmişdir.

AzərTAc xəbər verir ki, "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində keçirilən tədbirlər Ukrayna KİV-lərinin diqqətini də cəlb etmişdir.

Nikolayev vilayətinin azsaylı xalqlar üzrə Şurasının sədri Murad Kaymurazov vurğulamışdır ki, Xocalıda olanlar adi faciə deyil, əsl soyqırımı idi. Cinayəti törədənlər cəzalandırılmalıdır ki, bu kimi vəhşiliklər tarixdə bir daha təkrarlanmasın.

AzərTAc
16 fevral 2011-ci il

***

İslam Konfransı Gənclər Forumu Xocalı faciəsi ilə bağlı dünyanın bir sıra ölkələrində genişmiqyaslı aksiyalar keçirəcəkdir

Xocalı faciəsinin 19-cu ildönümü ilə bağlı İslam Konfransı Gənclər Forumu (İKGF) "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində dünyanın bir sıra ölkələrində genişmiqyaslı aksiyalar keçirəcəkdir.

Bu barədə İKGF-nin baş katibi Elşad İsgəndərov fevralın 21-də keçirdiyi mətbuat konfransında bildirmişdir.

E. İsgəndərov qeyd etmişdir ki, fevralın 24-dən martın 1-dək dünyanın 30-dək ölkəsində keçiriləcək tədbirlərin əsas məqsədi beynəlxalq ictimaiyyətin diqqətini dünya liderlərinə yönələcək petisiya kampaniyasına cəlb etməkdir. Kampaniyanın saytında (www.justiceforkhojaly.org) xüsusi petisiya hazırlanmışdır. Bu saytdan əlaqələndiriləcək imzatoplama aksiyası ABŞ Prezidenti və Konqresinə, Avropa İttifaqına və Avropa Parlamentinə, Avropa Şurasının baş katibi və Parlament Assambleyasına yönələcəkdir. Dünyanın istənilən dövlətinin vətəndaşı ölkəsinin daxil olduğu beynəlxalq quruma və ölkə rəhbərliyinə ərizə ilə müraciət edərək onları Xocalıda baş

vermiş kütləvi qırğını insanlığa qarşı cinayət kimi tanımağa və bu faciəni törədənlərin cinayət məsuliyyətinə cəlb edilməsinə dəstək verməyə çağıra bilər. İmzatoplama kampaniyası bir il ərzində davam etdiriləcək və ilin sonunda fəallar tərəfindən sözügedən qurumların rəhbərlərinə təqdim ediləcəkdir. Eyni zamanda, internet vasitəsilə atılan hər bir imza onlayn rejimdə ünvanına çatdırılacaqdır.

Vurğulanmışdır ki, İKGF-nin mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın irəli sürdüyü "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının əsas məqsədi Xocalı qətliamının insanlığa qarşı törədilmiş ən böyük cinayət kimi beynəlxalq ictimaiyyət tərəfindən tanınmasıdır.

E. İsgəndərov bildirmişdir ki, fevralın 25-də Moskvada Xocalı faciəsi qurbanlarının xatirəsinə anma mərasimi və Robert Arakelovun "Erməni ziyalısının etirafları" kitabının təqdimatı keçiriləcək, "Xocalıya Ədalət!" kampaniyasının saytının yeni versiyası təqdim ediləcəkdir.

Fevralın 24-də Böyük Britaniya Parlamentinin Lordlar palatasında konfrans keçiriləcəkdir. Konfransda Xocalı faciəsini araşdırmış Scott Taylor və Lord Laird çıxış edəcəklər.

Fevralın 26-da isə Berlində Bundestaqın sabiq üzvü E.Lintnerin rəhbərlik etdiyi Alman-Azərbaycan Əlaqələrinin İnkişafı Cəmiyyətinin təşkilatçılığı ilə Almaniya parlamentinin binasında Xocalı faciəsinin 19-cu ildönümü ilə bağlı konfrans keçiriləcəkdir. Berlin Filarmoniyasında "Berlin Classic Players" orkestrinin konserti olacaqdır.

Bundan əlavə, fevralın 26-da "Xocalıya Ədalət!" kampaniyasının Litvadakı təmsilçisi Eva Lukasın və Seymin üzvü Mantas Adomentasın birgə təşkilatçılığı ilə Litva parlamentinin Konstitusiya zalında konfrans keçiriləcəkdir. Konfransda Litva Seyminin deputatları, jurnalistlər və ictimai xadimlər iştirak edəcəklər.

Haaqada Sülh sarayının qarşısında isə fevralın 26-da "Xocalıya Ədalət!" kampaniyasının fəalları tərəfindən çadırlar qurulacaq və gün ərzində Xocalı haqqında ictimaiyyətə ətraflı məlumat veriləcəkdir.

İlk dəfə olaraq cari ildə dünyanın 30 aparıcı ali təhsil ocağında, o cümlədən Mançester, Hyuston, Florida, Linkopinq, Berlin, Potsdam və digər universitetlərdə "Soyqırımı cinayətinin qarşısının alınmasına və cəzalandırılmasına dair beynəlxalq konvensiyanın qüvvəyə minməsinin 60-cı ildönümünə" və Xocalı qətliamının 19-cu ildönümünə həsr edilmiş FM tipli (flashmob) dinc tələbə aksiyaları təşkil ediləcəkdir. Aksiyalarda petisiyalar üçün imzalar toplanacaqdır.

Vurğulanmışdır ki, "Xocalıya Ədalət!" kampaniyasının əsas məqsədlərindən biri Xocalı faciəsinin həqiqətlərini beynəlxalq ictimaiyyətə çatdırmaqdır. Yanvarın 18-də İKGF-nin təşəbbüsü ilə İKT-yə üzv dövlətlərin Parlament İttifaqı (İKT Pİ) Şurası üzv dövlətləri Xocalı faciəsini insanlığa qarşı törədilmiş kütləvi cinayət kimi tanımağa çağıran Əbu Dabi Bəyannaməsini qəbul etmişdir. Bəyannamə İKGF-nin təşəbbüsü ilə irəli sürülmüş "İKGF və İKT Pİ arasında əməkdaşlıq" haqqında qətnamənin İKT Pİ Şurası tərəfindən təsdiqlənməsi nəticəsində qəbul edilmişdir. Sənəddə vurğulanır ki, İKT Pİ-yə üzv parlamentlər erməni silahlı qüvvələri tərəfindən Xocalının dinc sakinlərinə qarşı törədilmiş kütləvi qırğını insanlığa qarşı cinayət kimi qiymətləndirmişlər.

Qeyd edilmişdir ki, builki tədbirlər çərçivəsində Xocalı hadisələrini əks etdirən əyani vəsaitlər hazırlanmış və diaspor təşkilatlarına göndərilmişdir.

Sonda Xocalı hadisələrini əks etdirən və erməni təbliğatını ifşa edən fotolar, videoçarx göstərilmişdir.

AzərTAc.
"Xalq qəzeti"
22 fevral 2011-ci il. N 41. Səh. 4

***

Xocalı soyqırımı ilə bağlı Beynəlxalq Haaqa Tribunalına müraciət ünvanlanacaq

Xocalı soyqırımı ilə bağlı beynəlxalq Haaqa Tribunalına müraciət ünvanlanacaq. Bu barədə bazar ertəsi Trend Beynəlxalq İnformasiya Agentliyinin konfrans zalında keçirdiyi mətbuat konfransında çıxışı zamanı İslam Konfransı Təşkilatının (İKT) Gənclər Forumunun rəhbəri Elşad İskəndərov bildirib.

"Xocalıya Ədalət!" kampaniyası çərçivəsində onlayn və digər formalarda müraciətlər (petisiya) imzalanır. Bu il həmin petisiya Beynəlxalq Haaqa Tribunalına təqdim olunacaq. Haaqa Tribunalı Xocalı faciəsinə hüquqi qiymət verilməsi baxımından böyük önəm daşıyır", - İskəndərov əlavə edib.

Onun sözlərinə görə, məhkəmənin qərarı bu məsələyə son nöqtəni qoya bilər.

"Soyqırım məsələsinə BMT-nin qərarı ilə yaranan xüsusi məhkəmələrdə baxılır. Bu qərar siyasi xarakter daşıyır, o məhkəmədə təmsil olunan ölkələr və ya onların nümayəndələri siyasi iradəyə tabedirlər. Kampaniyanın məqsədlərindən biri soyqırım ilə bağlı hüquqi sübutların toplanması və təhrif olunmuş məlumatların ifşa olunmasıdırsa, digər ana xətti hadisəyə ədalətli qiymət verilməsi üçün siyasi əsas qurmaqdır. Bu siyasi əsas bizim məxsus olduğumuz qurum çərçivəsində hazırlanır. İKT xarici işlər nazirləri və Parlament Assambleyası belə bir qərar verib. Biz növbəti qətnamənin İKT dövlət başçıları tərəfindən verilməsi üzərində işləyirik. 190-dan artıq dövlətin təmsil olunduğu BMT-nin 57-dən artıq dövlətinin siyasi iradəsi bu olarsa, bu artıq ciddi şəkildə əsas verir ki, siyasi iradə ortaya qoyulsun və soyqırım faktına ədalətli qiymət verilsin", – İskəndərov vurğulayıb.

İskəndərov onu da bildirib ki, Xocalı soyqırımı ilə bağlı araşdırmalar aparılıb və yeni sənədlər əldə olunub.

"Gələn il Xocalı soyqırımı ilə bağlı obyektiv hesabat hazırlanaraq beynəlxalq təşkilatlara təqdim olunacaq", – o, əlavə edib.

İskəndərov "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində bu il görüləcək digər işlərdən də söz açıb.

"Dünyanın bir sıra aparıcı universitetlərində tədbirlər keçiriləcək. Hyuston, Berlin, Potsdam, ümumilikdə 30-a yaxın universitetdə flaş-mob aksiyalar keçirəcəklər. Bu aksiyalar zamanı 100 minə yaxın imzaların toplanması nəzərdə tutulub", – İKT GF-nin rəhbəri bildirib.

Onun sözlərinə görə Moskvada keçiriləcək tədbirdə kampaniyanın yenilənmiş saytının təqdimatı keçiriləcək və "Xocalıya aparan yol" filminin treyleri nümayiş olunacaq.

"Həmin tədbirdə Robert Arakelovun iki kitabının məcmuəsindən ibarət olan "Erməni ziyalısının etirafı" kitabı da təqdim olunacaq. Kitab Yekaterinburq universitetinin professoru tərəfindən təqdim olunacaq. Rusiyanın geniş elmi, ictimai və siyasi dairələrinin də nümayəndələri orada iştirak edəcəklər" – o, qeyd edib.

İskəndərov xatırladıb ki, dünyanın ümumilikdə 40-dan çox paytaxt və iri şəhərlərində kampaniyanın təqdimatları keçiriləcək.

1992-ci il fevral ayının 25-26-da erməni silahlı birləşmələri Xankəndidə yerləşən Rusiyaya məxsus 366-cı alayın köməyi ilə azərbaycanlılar yaşayan Xocalı şəhərinə hücum edərək dinc əhaliyə qarşı xüsusi qəddarlıqla müşayiət olunan genosid aktını həyata keçiriblər. Bu faciə nəticəsində 613 dinc sakin

qətlə yetirilib, 487 nəfər yaralanıb, 1275 nəfər isə əsir götürülüb. Onlardan bir çoxu əsirlikdən qayıtmayıb və sonrakı taleyi barədə hər hansı məlumat yoxdur. 366-cı alay Xankəndidən çıxarıldıqdan sonra bu hərbi hissəyə məxsus olan silahlı texnikanın mühüm hissəsi erməni separatçılarına verilib.

"Yeni Azərbaycan"
22 fevral 2011-ci il. N.33.Səh. 6

***

"Xocalıya Ədalət!" daha geniş platformada təbliğ olunacaq

Bu barədə Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun baş katibi Elşad İsgəndərov dünən keçirdiyi mətbuat konfransında məlumat verdi.

"Xocalıya Ədalət!" kampaniyası çərçivəsində bu il dünyanın 42 ölkəsində silsilə tədbirlər keçiriləcək. Bu barədə Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun baş katibi Elşad İsgəndərov dünən keçirdiyi mətbuat konfransında məlumat verdi. O dedi ki, bu il "Xocalıya Ədalət!" kampaniyası üç istiqamətdə həyata keçiriləcək: "Siyasi, hüquqi və mədəni sahələri əhatə edən tanıtma kampaniyası ötən illərdən fərqli olaraq, bu il daha kütləvi xarakter alacaq. Bütün texnoloji vasitələrdən, o cümlədən internet "on-line" xidmətinin imkanlarından istifadə edərək, dünyanın 42 ölkəsində "Xocalıya Ədalət!" kampaniyası keçiriləcək".

Baş katibin sözlərinə görə, ABŞ Prezidenti və Konqresinə, Avropa Parlamenti və Komissiyasına, BMT-nin Baş katibinə müraciətlər ünvanlanacaq: "Dünyanın müxtəlif ölkələrində keçirilən aksiyalarla 140 min insandan toplanan imzalar Xocalıda insanlığa qarşı törədilən cinayətə siyasi və hüquqi qiymət verilməsi üçün dünya ölkələrinin parlamentlərinə və hökumətlərinə təqdim ediləcək. Gələn il bu imzaların sayı 1 milyona çatdırılması planlaşdırılır".

E. İsgəndərov bu ilin mayında xarici və yerli sənət adamlarının iştirakı ilə ərsəyə gələn "Xocalıya aparan yol" adlı filmin Azərbaycan və dünya ictimaiyyətinə təqdim olunacağını bildirdi. O, həmçinin fevralın 25-də Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın təşkilatçılığı ilə Moskvada keçiriləcək tədbirdə əslən erməni yazıçısı Robert Arakellovun "Erməni ziyalısının etirafı" adlı ikicildlik kitabının təqdimat mərasiminin olacağını söylədi.

Ermənilərin "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində görülən işlərdən təşvişə düşdüyünü bildirən E. İsgəndərov Ermənistan Prezident Aparatının dünya ictimaiyyətini aldatmaq məqsədi ilə eyni adlı kampaniyaya start verdiyini bildirdi.

Xatırladaq ki, sözü gedən kampaniyaya İslam Konfransı Təşkilatı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə 2009-cu ilin fevralında start verilib.

"Zaman"
22-23 fevral 2011-ci il. N.24. Səh. 2

***

Dünya Xocalı faciəsinin adını eşidib, miqyasını isə bilmir... Erməni vəhşətini dünyaya necə tanıdaq?

Qarabağda ermənilərin törətdiyi ən dəhşətli qətliamdan - Xocalı qırğınından daha bir il ötür. 1992-ci il fevralın 26-da Xocalıda ermənilərin silahsız, əliyalın əhaliyə qarşı törədilən amansız qətliam nəticəsində 613 nəfər şəhid oldu. Öldürülənlərin 63 nəfəri uşaq və yeniyetmə, 106 nəfəri qadın və qız, 70 nəfəri isə ahıl adamlardır. Soyqırım nəticəsində 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki, 130 uşaq validyenlərindən birini itirib. Azərbaycan dövləti və ictimaiyyəti növbəti dəfə dünyanın diqqətini bu qətliama cəlb etməyə çalışır, bu məqsədlə ölkə daxilində və xaricində müxtəlif xarakterli tədbirlər keçirilməkdədir.

Məlum olduğu kimi, bu il də Prezident Administrasiyası "Xocalı soyqırımı ilə bağlı tədbirlər plan"ını qəbul edib. Plana əsasən, Azərbaycanın xaricdəki səfirlik, nümayəndəliklərində və diaspor təşkilatlarında soyqırımla bağlı müxtəlif təbliğat kampaniyalarına start verilib. Bəs Azərbaycan bu qətliamı beynəlxalq ictimaiyyətə çatdırıb ona adekvat qiymət verilməsinə nə dərəcədə nail ola bilir?

Təhlillər göstərir ki, son iki ildə sözügedən istiqamətdə görülən işlər müəyyən nəticələr verməkdədir. Hazırda dünyanın 60-dan çox ölkəsində təbliğat aparılır. Bir çox ölkələrin parlamentlərində qətliam qurbanları anılır. Son illərdə Xocalı soyqırımının ildönümünün qeyd olunması Avropa ölkələrində xüsusilə geniş yayılıb. ABŞ, İngiltərə, Almaniya, Danimarka, İndoneziya, Yunanıstan, İsrail, Ərəbistan kimi ölkələrdə anımlar

təkcə mitinq səviyyəsində yox, müzakirələr, universitetlərdə mühazirələr, diskussiyalar, televiziya proqramlarında verilişlər, müxtəlif yerlərdə sərgilərin təşkil edilməsi müstəvisinə də keçib.

"Xocalıya Ədalət!" kampaniyası beynəlxalq aksiya keçirib

Qeyd edək ki, qətliam qurbanlarının anılması, faciənin dünyaya çatdırılması üçün tədbirlərin çoxu prezident İlham Əliyevin qızı, İslam Konfransı Təşkilatı Gənclər Forumunun rəhbəri olan Leyla Əliyevanın başçılıq etdiyi "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində keçirilməkdədir. Son iki il ərzində 50-dən artıq ölkədə "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində müxtəlif tədbirlər keçirilib. Kamaniyanın fəaliyyətini əlaqələndirən İKT GF-nin təşəbbüsü ilə Kampalada (Uqanda) İKT Parlament İttifaqının və Düşənbədə (Tacikistan) İKT ölkələri XİN rəhbərlərinin iclaslarında Xocalı qırğınını "insanlığa qarşı cinayət" kimi göstərilən sənədlər qəbul edilib. Hazırda kampaniya çərçivəsində dünya ictimaiyyətini Xocalı soyqırımına müvafiq qiymət verməyə çağıran ərizə üçün imza toplamaqla bağlı beynəlxalq aksiya keçirilir.

Rep üslublu "Xocalıya Ədalət!" mahnısı dünyaya yayılıb

Bundan başqa, ABŞ-da sosial mövzularda yaradıcılığı ilə tanınımış rep ifaçısı Toni Bləkman və Azərbaycanın rep qrupu "Dəyirman" tərəfindən ifa edilmiş "Xocalıya Ədalət!" rep üslublu mahnının təqdimatı Xocalı faciəsi həqiqətlərinin dünyada yayılmasında xüsusi rol oynayb. "Xocalıya Ədalət!" rep mahnısının keçirilməsi ötən ilin noyabrında təşkilatın koordinatorlarının toplantısında qərara alınıb. Yaradıcı üslubla Xocalı faciəsini çatdırmaq məqsədi güdən bu layihə həm yerli, həm də xarici musiqiçilər tərəfindən hazırlanıb. Rep bütün dünyada populyar bir üslub olduğundan, bu üslub seçilib. "Xocalıya Ədalət!" rep mahnısının aranjimançısı tanınmış səs rejissoru, 3 dəfə "Qremmi" mükafatı laureatı **Qordon Vilyamsdır**. Mahnının sözlərinin müəllifi və ifaçısı isə **Toni Bləkməndir**. Onunla yanaşı, Azərbaycanın rep qrupu "**Dəyirman**" da mahnını ifa edib.

Hazırda kampaniya çərçivəsində Xocalı soyqırımına dünya ictimaiyyəti tərəfindən hüquqi-siyasi qiymət verilməsi məqsədilə beynəlxalq imzatoplama aksiyası keçirilir. (www.justiceforkhojaly.org.) Sözügedən sayt ingilis dilindədir, orada Xocalı həqiqətlərini dünyaya çatdırmaq üçün kifayət qədər geniş məlumat bazası yerləşdirilib. Amma fevralın 25-də Moskvada saytın yeni versiyasının təqdimatı keçiriləcək. Bundan başqa, tədbirdə Bakı sakini Robert Arakelovun "Erməni intellegentinin etirafı" adlı kitabın da təqdimatı olacaq.

Bəs bunlar yetərlidirmi? Faciənin aksiyalarda, tədbirlərdə yox, dövlətlərin rəsmi sənədlərində soyqırım kimi təsdiqlənməsi üçün daha nələr edilə bilər?

Ermənilər qondarma soyqırımla bağlı superdövlət olan ABŞ-da bir sıra mühüm qərarlar qəbul etməyə nail olub. Görəsən, Amerika dövləti müasir tariximizin ən dəhşətli hadisələrindən olan Xocalı soyqırımını tanıya bilərmi? **ABŞ-ın Azərbaycandakı səfirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Terri Devidsonun** daha öncə "Yeni Müsavat"a verdiyi açıqlamada da göstərilib ki, ABŞ bu məsələdə ehtiyatlı mövqe tutur: "Mən həm ABŞ dövləti, həm də öz adımdan Xocalıda baş vermiş böyük faciə ilə bağlı təəssüf hissi keçirirəm. Bu faciə bir daha onu göstərir ki, biz gərək Qarabağ münaqişəsində uzunmüddətli sülhü əldə etməyə çalışaq. Ənənəvi olaraq hər il aprelin 24-də ermənilərlə bağlı bəyanat verilir. Amma Dövlət Departamenti, yaxud Ağ Evin işçiləri nə baş verdiyi barədə öz fikirlərini deyə bilmir. Burda əsas məsələ budur ki, siyasətçilər yox, cəmiyyətlər vaxtilə baş verənlər barədə düşünməlidir. Xocalıya gəldikdə bu, dəhşətli hadisədir".

Dünya mətbuatı Xocalı faciəsi barədə nə yazır?

Amma bu təbliğatın nəticəsində zaman-zaman dünya mətbuatında da bu mövzuya yer ayrılır. **Fransalı jurnalist Can-iv Yunet** yazırdı: "... Biz Xocalı faciəsinin şahidləri olduq, yüzlərlə həlak olmuş dinc əhali cəsədi gördük -qadın, uşaq qoca və Xocalı müdafiəçilərinin meyitləri. Bizə vertolyot verdilər, amma ermənilər bizim vertolyotu atəşə tutdular. Dəhşətli mənzərə idi. Mən müharibələr haqqında alman faşistlərinin qəddarlığı barədə çox eşitmişəm. Amma 5-6 yaşlı uşaqları, dinc əhalini öldürən ermənilər onları üstələdilər".

"İzvestiya"nın müxbiri V.Belix Xocalı təəssüratlarından belə bəhs edirdi: "... arabir Ağdama sağ girovlara dəyişdirilmiş meyitlər gətirilirdi. Amma gecə vəhşətində belə şey xəyala gətiriləsi deyil: çıxarılmış gözlər, sivrilmiş qulaqlar, soyulmuş dərilər, kəsilmiş başlar... İşgəncələrin həddi hüdudu yoxdur".

Fransanın nüfuzlu "Le Monde" qəzeti də hadisəni diqqətdən kənarda qoymamışdı: "Ağdamda olan xarici jurnalistlər Xocalıda öldürülmüş qadın və uşaqların meyitləri arasında baş dərisi soyulmuş, dırnaqları çıxarılmış meyitlər gördülər. Bu, Azərbaycanın təbliğatı deyil, reallıqdır".

Osman Gündüz: "Əvvəl proses pərakəndə olsa da, son vaxtlar sistemlilik var"

Ekspertlər isə təbliğat üçün daha genişmiqyaslı işlərin görülməsinin vacibliyini vurğulayır. **Azərbaycan İnternet Forumun rəhbəri, ekspert Osman Gündüz** son dövrlər Azərbaycanın maraqlarının beynəlxalq ictimaiyyətə çatdırılmasıyla bağlı iş aparıldığını dedi. Onun sözlərinə görə, əvvəllər bu proses bir qədər pərakəndə olsa da, indi sistemlilik özünü göstərir: "Amma o da nəzərə alınmalıdır ki, Azərbaycan bu cür sistemli informasiya siyasətini son bir neçə ildə apardığından ermənilərin 50 illik informasiya gücünü yara bilməyib. Hazırda çox cüzi sahələr qalıb ki, ermənilər orda at oynadırlar. Bu sahələr də tədricən əhatə olunmaqdadır. Amma bu işin sistemli davam etdirilməsinə ehtiyac var. Məhz işin problemli tərəfini mən burada görürəm. Çünki Qarabağ mövzusuyla bağlı yeni məlumatların işlənib hazırlanmasına və onların dünyaya çatdırılmasına ehtiyac var. Bu yeni məlumatlar da elmi araşdırmalar, yeni faktların tapılıb dünyaya çatdırılması kimi olmalıdır. Buna da dövlətin qayğısı və maliyyəsi lazımdır. Digər tərəfdən, cəmiyyətin də aktiv şəkildə bu prosesə cəlb olunmasına ehtiyac var".

Fazil Mustafa: "Hədəfimiz bu prosesi siyasi, hüquqi qiymətləndirmə ilə yekunlaşdırmaqdır"

Deputat Fazil Mustafa da son dövrlər bu istiqamətdə görülən işlərin intensivliyinə toxundu. Amma müsahibimiz hesab edir ki, kampaniya hələ istənilən nəticəni vermir. Bunun bariz nümunəsi hələ heç bir xarici ölkənin parlamentində Xocalı ilə bağlı qərarın qəbul olunmamasıdır. Müsahibimiz bildirdi ki, hazırda kampaniyanın ağırlığı Türkiyənin üzərində aparılır. Onun sözlərinə görə, orda təbliğata xüsusi ehtiyac yoxdur: "Çünki qonşu və qardaş ölkə olaraq bu faciədən artıq xəbərdardır. Avropada, Amerikada cəmiyyətləri məlumatlandırmaq, parlamentlərdə qərarlar qəbul etdirmək lazımdır. Doğrudur, lobbiçilik edilir, pul verilir. Amma məsələnin nəticəvi tərəfləri zəifdir".

Şamil Sabiroğlu: "Hazırda əsas məqsədimiz beynəlxalq ictimai məhkəmənin keçirilməsidir"

Xocalı Soyqırımını Tanıtma İctimai Birliyinin sədri Şamil Sabiroğlu da son 4-5 ildə təbliğat sahəsində xüsusi canlanma olduğunu söylədi. Onun sözlərinə görə, hazırda Xocalı ilə bağlı cəmi iki qeyri-hökumət təşkilatı fəaliyyət göstərir. Bunlardan biri rəhbəri olduğu qurum, digəri isə rəhbəri dünyasını dəyişdiyi üçün fəaliyyətini donduran Xocalı Yaddaş Muzeyidir: "Hazırda bizim təşkilatın əsas hədəfi erməni təcavüzü ilə bağlı beynəlxalq ictimai məhkəmənin keçirilməsidir. İctimai məhkəmənin çox böyük effekti olur. Həmin o məhkəmədə Avropanın ən məşhur KİV-ləri

iştirak edəcək. Əgər ictimai məhkəmə reallaşsa, Azərbaycan beynəlxalq dünyada böyük imic qazanacaq".

Ş.Sabiroğlu Xocalı ilə bağlı kitab hazırladıqlarını və onun Türkiyədə çap olunacağını dedi. Bundan başqa, regional televiziyanın dəstəyi ilə Xocalı şahidlərinin təqdimatında faciə ilə bağlı film çəkilir: "Bu film ingilis dilinə tərcümə olunaraq, bütün dünyaya çatdırılacaq. Çingiz Mustafayev, Seyidağa Mövsümlünün Xocalı ilə bağlı dəyərli kadrları var. Bu kadrlar indi ermənin əlində olsaydı, dünyanı dağıdardılar. Həmin vasitələrin dünyaya çatdırılması üçün lazımi maliyyə və güc səfərbər olunmalıdır".

Sevinc TELMANQIZI.
"Yeni Müsavat"
24 fevral 2011-ci il. N 50. Səh. 11

***

"Xocalıya Ədalət!"

YAP Gənclər Birliyinin bu adda təşkil etdiyi tədbirdə bir daha faciə qurbanlarının xatirəsi yad edildi, soyqırımı törədənlərin layiqli cəzalarını almaları istiqamətində səylərin daha da artırılmasının vacibliyi diqqətə çatdırıldı

Dünən "Park İnn" otelində Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşkilatçılığı ilə "Xocalıya Ədalət!" adlı tədbir keçirildi.

Xocalı faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra hadisədən bəhs olunan sənədli film nümayiş olundu.

Sonra tədbiri giriş sözü ilə açan YAP Gənclər Birliyinin sədri Seymur Orucov bildirdi ki, Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur. Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalmışdır. Soydaşlarımız tarixi torpaqlarından qovulmuş, qaçqın və məcburi köçkünə çevrilmişdir.

Tarixə qısaca nəzər salan S. Orucov bildirdi ki, 1988-ci ildən Dağlıq Qarabağ ətrafında başlayan hadisələr, erməni ideoloqlarının "dənizdən dənizə böyük Ermənistan" adlı sərsəm bir ideyasını reallaşdırmaq cəhdi

kəndlərin, şəhərlərin dağılması, on minlərlə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələndi.

Bütün beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan dövləti Dağlıq Qarabağı özünə birləşdirmək istəyir, bu yolda bütün cinayət və vəhşiliyə hazır olduqlarını nümayiş etdirirlər. XX əsrin faciəsi olan Xocalı soyqırımı cinayətkar erməni siyasətinin nəticəsidir. XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı soyqırımı ötən əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

"Cinayət cəzasız qalmamalıdır. Ermənistanın hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə - Xocalı soyqırımına, əsl soyqırım hadisəsi kimi siyasi-hüquqi qiymət verməlidirlər" söyləyən YAP sədrinin müavini, icra katibi Əli Əhmədov bildirdi ki, belə toplantıların keçirilməsi ilk öncə Xocalı faciəsinin unudulmaması məqsədini daşıyır. "Azərbaycan xalqı, xüsusilə gənclərimiz bu soyqırımı unutmamalı, onu qəlblərində yaşatmalı, faciəni törədənlərin bu cinayətə görə layiqli cəzalarını almaları üçün əllərindən gələni etməlidirlər. Bu tədbirlərin keçirilməsində digər məqsəd isə ondan ibarətdir ki, Xocalı faciəsinə bəşəriyyətin diqqətini yönəldək. Dünya dövlətləri, təşkilatları Xocalı faciəsinin həqiqətlərini bilsələr ona düzgün qiymətin verilməsinə nail ola bilərik. Düşünürəm ki, bütün vətəndaşlarımız Xocalı faciəsinin bütün beynəlxalq təşkilatlar qarşısında XX əsrin ən dəhşətli faciələrindən biri kimi tanıdılmasına nail olmaq üçün səylərini daha da artıracaqlar."

Ə. Əhmədov qeyd etdi ki, dəfələrlə dünyanın ikili siyasətindən narahatlığımızı ifadə etmişik. "Bu gün də o mövqeyimizdəyik. Təəssüf hissi ilə bildirmək istəyirik ki, ayrı-ayrı beynəlxalq təşkilatların fəaliyyətində ikili standartlardan istifadə olunur. Xocalı faciəsinin beynəlxalq səviyyədə qiymətinin verilməsi ilə bağlı da bu mövqeni görürük. Azərbaycan dövləti bununla bağlı etirazını bildirir. Digər tərəfdən o da məlumdur ki, Azərbaycan dövləti, qeyri-hökumət təşkilatları, Heydər Əliyev Fondu tərəfindən Xocalı soyqırımının tanıdılması istiqamətində genişmiqyaslı işlər aparılır.

Azərbaycan gəncləri, diaspor təşkilatlarının nümayəndələri bu faciənin həqiqətlərinin dünyaya çatdırılması istiqamətində səmərəli fəaliyyət göstərirlər. Amma bununla yanaşı görüləsi işlər də çoxdur. İkili standartların mövcud olmasına baxmayaraq, hər birimiz mövcud imkanlardan istifadə edərək beynəlxalq təşkilatlar qarşısında bu faciə ilə bağlı həqiqətlərin tanıdılmasına nail olmalıyıq. Beynəlxalq təşkilatlara müraciətlər olunmalı, piketlər keçirilməli və digər mühüm vasitələrdən istifadə edilməlidir. Bu işlər yalnız Xocalı faciəsinin ildönümü günlərində deyil, hər zaman həyata keçirilməlidir."

YAP sədrinin müavini bildirdi ki, qarşımızda duran əsas vəzifələrdən biri də bu olmalıdır ki, bu cinayəti törədənlər qanun qarşısında cavab versinlər. "Bununla bağlı Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin mövqeyi aydındır. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bu günədək faciəni törədənlər nəinki məsuliyyətə cəlb olunmayıb, hətta bəzi hallarda onlar siyasətlə də məşğul olurlar."

Tədbirdə bəzi dövlətlərin ölkəmizdəki səfirlərinin iştirakını nəzərə alaraq, Ə.Əhmədov bildirdi ki, dünya dövlətləri, təşkilatlar bu faciə ilə bağlı həqiqətləri olduğu kimi qəbul etməli, ədalətli mövqelərini nümayiş etdirməlidirlər.

Tədbirdə çıxış edən YAP Binəqədi rayon Gənclər Birliyinin sədri Qüdsi Bayramov, YAP Sabunçu rayon Gənclər Birliyinin üzvü Lamiyə Cəlilova, şəhid atası Məhəmməd Şükürov erməni vəhşiliyindən geniş bəhs etdilər. Bildirdilər ki, dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir, yolverilməz olduğunu təsdiqləyir. Dünya bilməlidir ki, bu cinayət, təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün bəşəriyyətə qarşı yönəldilmişdir.

Sonda Xocalı faciəsinə həsr olunmuş şeirlər səsləndirildi.

Yeganə Əliyeva
"İki sahil"
24 fevral 2011-ci il. N.35. Səh. 4

***

Çexiya

ÁZERBÁJDŽÁN
Mezi Západem a Východem
Jurij Sigov
ÁZERBÁJDŽÁN
Mezi Západem a Východem
Jurij Sigov



ALEX

ALEX

ALEX

ALEX

ALEX

ALEX

CHODŽALY 19 92
LIDICE 19 42
rabach.cz
ALEX

CHODŽALY
LIDICE
DOLOMITE
ALEX

ALEX

ALEX

ALEX

Şotlandiya. Edinburq


LIBRARY




LIBRARY

Misir

26
FEBRUARY 1992
KHOJALY TRAGEDY
Khojaly tragedy, involved the extermination
or capture of thousands of Azerbaijanis over
the night from 25 to 26 February 1992 by the
Armenian armed forces. The town was razed
to the ground. Invaders destroyed Khojaly
and with particular brutality implemented
carnage over its peaceful population. As a
result, 613 civilians were killed, including
106 women, 63 children and 70 elderly.
Another 1,000 people were wounded and
1,275 taken hostage. To
from Khojaly

26
خوجالي
خوجا

Finlandiya

613people were killed,among
them,63 children,106
women,70 elders.& families
were killed completely,25
children lost both
130children lost
parents.487peo
wounded,including

Gürcüstan

She's
FREE STYLE
JUST
FOR YOU
25 FEVRAL
XOCALI
SOYQIRIMINI
UNUTMA
UNUTDURMA!

JUSTICE FOR
KHOJALY

JUSTICE
2
KHOJALY

26 FEVRAL
XOCALI
SOYQIRIMINI
UNUTMA
UNUTDURMA!

Almaniya



OPTIK
HÖRTKORN

Weissbier
Franziskaner
Weissbier
CHODSCHALI
CHODSCHALI
MASSAKER von CHODSCHALI
in Aserbaidschan
HABEN WIR NICHT VERGESSEN !

CHODSCHALI
Stoppt die armenische Aggression!
CHODSCHALI
Verbrechen gegen die Menschlichkeit in Aserbaidschan
22. JAHRESTAG
MASSAKER von CHODSCHALI
in Aserbaidschan
HABEN WIR NICHT VERGESSEN !
XOCALI
CHODSCHALI
Xocali-Massaker
1992
22. Jahrestag
2016

Völkermord der Armenier an den Aserbaidschanern soll endlich verurteilt werden!

Xocali

Franziskaner
Weissbier
CHODSCHALI

Franziskaner
CHODSCHALI
Xocalı-Massaker
1992
2014

KHOJALY
Stop the armenian aggression!
CHODSCHALI
20% der Fläche Aserbaidschans ist von Armenien besetzt!
CHODSCHALI
Verbrechen gegen die Menschlichkeit in Aserbaidschan
KHOJALY
22 years have passed! When can we go home?

Niderland. Haaqa

www.turkozned.com

İndoneziya

İtaliya

JUSTICE
FOR

Cənubi Koreya. Seul

KHOJALY
NEVER FORGOTTEN
AZERBAIJAN REALITIES
PHOTO
GALLERY

Fransa. Strasburq

Ukrayna

JUSTICE
FOR

NO MORE GENOCIDES
NO MORE GENOCIDES
CONVENTION
on the PREVENTION
and PUNISHMENT
of the CRIME of GENOCIDE
JUSTICE
FOR
KHOJALY

JUSTICE FOR
KHOJALY NOW!

London

OUR MOTHERS ARE STILL CRYING, BECAUSE OF KHOJALY
STOP ARMENIAN AGGRESSION
JUSTICE FOR KHOJALY
STOP ARMENIAN AGRESSION
JUSTICE FOR KHOJALY

SARGSYAN
GET YOUR TROOPS OUT OF AZERBAIJAN

KHOJALY
A MASSACRE IN DISGUI
WORLD SHOULD ACCEPT
KHOJALY GENOCIDE
SARGSYAN
GET YOUR TROOPS OUT
OF AZERBAIJAN!

JUSTICE
FOR
KHOJALY

ABŞ. Çikaqo

KHOJALY
LOYOLA

JUSTICE FOR KHOJALY KARABAKH
JUSTICE FOR KHOJALY

İordaniya

QARABAĞ
قره باغ

1992

Belçika. Brüssel. Avropa Parlamenti

MEP Karin KADENBACH

Vyana

Markos Peres: "Xocalı yer üzündən hər hansı təbii fəlakət nəticəsində deyil, məhz insan əliylə silinib"

"Xocalıya Ədalət!"

Mexiko şəhərində Xatirə və Dözümlük Müzeyində Xocalı soyqırımının 19-cu ildönümüylə əlaqədar "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində "Bir daha soyqırıma yol verilməsin!" mövzusunda konfrans keçirilib. Azərbaycanın Meksikadakı səfirliyindən APA-ya verilən məlumata görə, tədbirdə Azərbaycan səfiri İlqar Muxtarov, Meksika-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri, deputat Markos Peres, Meksika Hökuməti yanında İnsan Hüquqları Komissiyasının Koordinatoru Leonardo Mier və "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının Meksika üzrə koordinatoru Ximena Olqin çıxış ediblər. Konfransda giriş sözü ilə çıxış edən Olqin Xocalı soyqırımı haqda və Xocalıda baş vermiş qəddar cinayətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması istiqamətində "Xocalıya Ədalət!" kampaniyasının fəaliyyəti barədə məlumat verib.

Səfir İlqar Muxtarovun çıxışından öncə, Xocalı qətliamı qurbanlarının xatirəsini konfrans iştirakçıları bir dəqiqəlik sükutla yad edib. Ermənistanın Azərbaycana qarşı təcavüzü və münaqişənin tarixi kökləri, son iki yüz il ərzində xalqımıza qarşı törədilmiş etnik təmizləmə və deportasiya siyasəti, Xocalı soyqırımını əks etdirən video və fotoşəkillər, habelə Azərbaycanın tarixi xəritələri əsasında təqdimatla çıxış edən səfir İlqar Muxtarov tədbir iştirakçılarına ətraflı məlumat verib. O, Azərbaycanın tarixi ərazilərinin bölünməsi, XX əsr ərzində baş vermiş deportasiya və Ermənistanın ölkəmizə qarşı təcavüzünün nəticələrindən bəhs edib, həmçinin Ermənistanın hazırkı prezidenti Serj Sarkisyanın Xocalıda baş vermiş soyqırımın müqəssirləri sırasında olduğunu söyləyib.

Meksika-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri Markos Peres, Xocalıda baş vermiş hadisələri soyqırım adlandıraraq, "Xocalının yer üzündən hər hansı təbii fəlakət nəticəsində deyil, məhz insan əli ilə dünya xəritəsindən silindiyini" bildirib. O, Xocalı sözünün Azərbaycan xalqı üçün xüsusi məna kəsb etdiyini və məhv edilmiş şəhərin insanların ürəyində daim yaşayacağını söyləyib. Markos Peres Meksika

Konqresinin də sözügedən hadisələrə laqeyd qalmayacağını və Xocalı soyqırımı haqda öz ədalətli mövqeyini bildirəcəyinə inandığını söyləyib.

Meksika İnsan Hüquqları Komissiyasının Koordinatoru Mier tədbirə dəvət edildiyi üçün öz təşəkkürünü bildirərək, təmsil etdiyi qurumun Xocalıda baş vermiş insanlığa qarşı cinayətlər kimi hadisələrə heç vaxt etinasız qalmadığını və Meksika İnsan Hüquqları Komissiyasının Xocalı hadisələrinin araşdırılması istiqamətində əməkdaşlıq etməyə hazır olduğunu bildirib. O, bu kimi cinayətlər və işğal nəticəsində həyatlarını itirmiş insanların xatirəsinin yad edilməsinin vacibliyini qeyd edərək, həmçinin bu dəhşətli hadisə zamanı müxtəlif fiziki, mənəvi və maddi mərhumiyyətlərlə qarşılaşmış insanların qayğısına qalmağın zəruriliyini söyləyib. Mier bildirib ki, Xocalıda baş vermiş qeyri-insani cinayətlər beynəlxalq səviyyədə artıq öz təsdiqini tapmış olsa da, bu hadisələr hələ də sadəcə faciə adlandırılır və bu kimi cinayətlərin dünyanın hər hansı bir nöqtəsində yenidən baş verməsinin qarşısını almaq üçün Beynəlxalq Məhkəmə və İnsan Hüquqları institutları ilə sıx əməkdaşlıq etmək vacib əhəmiyyət kəsb edir.

Tədbir zamanı həmçinin, 2010-cu ildə Azərbaycanın Meksikadakı Səfirliyi tərəfindən Xocalı soyqırımından bəhs edən və ispan dilində ilk dəfə olaraq hazırlanmış sənədli film və "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində aparılan fəaliyyəti əks etdirən fotoşəkillər nümayiş etdirilib, habelə 2010-cu ildə Mexiko şəhərində təqdimatı keçirilmiş www.justiciaparajodyali.org internet səhifəsi barədə məlumat verilib. Konfrans iştirakçılarına, üzərində "Justicia para Jodyali" ("Xocalıya Ədalət!") yazılmış köynəklər, ispan dilində "Xocalı soyqırımı" sənədli filminin diskləri, Xocalı faciəsindən bəhs edən buklet və döş nişanları təqdim edilib.

Konfrans iştirakçıları həmçinin "Dünya liderlərinə müraciət" ("petition") kitabına imza atıblar.

"Xalq Cəbhəsi"
25 fevral 2011-ci il. N 36. Səh. 5

Türkiyənin nüfuzlu "Hürriyyət" qəzeti Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın müsahibəsini dərc etmişdir

Türkiyənin nüfuzlu "Hürriyyət" qəzeti 26 fevral tarixli nömrəsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın müsahibəsini dərc etmişdir.

Qəzet yazır ki, Xocalı soyqırımının beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində daha bir layihənin - Azərbaycanın məşhur rep qrupu "Dəyirman"ın və ABŞ Xarici İşlər Nazirliyinin xoşməramlı səfiri Toni Bləkmən ilə birlikdə ifa etdiyi "Xocalıya Ədalət!" klipinin ərsəyə gəlməsinə Leyla xanım Əliyeva yaxından dəstək vermişdir.

"Hürriyyət"ə müsahibəsində Leyla xanım Əliyeva demişdir: "Xocalıya Ədalət!" istəyən hər bir kəs insanlığın səsini dinləmiş olar. Dünya ictimaiyyəti Xocalı qətliamından sonra konkret və işlək bir mexanizm yaratmamışdır. Təəssüf ki, hələ də bu faciəyə ikili standartlardan yanaşılır. Ermənilər "dünya bunu tez unudar" düşüncəsi ilə bir gecədə 613 nəfəri qətlə yetirmişlər. Qətlə yetirilənlər arasında 106 qadın, 63 uşaq vardır. Səkkiz ailə tamamilə məhv edilmişdir.

Bu gün güvənə biləcəyimiz dövlətimiz vardır. Bu cinayəti bütün dünyada tanıtmaq məqsədi ilə 2009-cu ildən etibarən "Xocalıya Ədalət!" kampaniyasına başlamışıq. Kampaniyamızın uğurla davam etməsi üçün www.justiceforkhojaly.org saytını yaratmışıq. Qardaş Türkiyə Respublikasına və türk xalqına bizə verdiyi dəstəyə görə təşəkkürlərimizi bildiririk.

Kampaniya çərçivəsində 30 ölkədə tədbirlər keçirilir. Vaşinqton, Ankara, Brüssel, Cakarta, Ottava, Berlin, Abu-Dabi, Paris və San-Paulu kampaniyanın həyata keçirildiyi şəhərlərdən bir neçəsidir".

"Xalq qəzeti"
27 fevral 2011-ci il. N 46. Səh. 2

***

Moskvada "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində konfrans keçirilmişdir

Azərbaycanın Rusiyadakı səfirliyi, Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyi, Ümumrusiya Azərbaycanlılar Konqresi, Rusiya Azərbaycanlı Gənclər Təşkilatı (RAGT) İslam Konfransı Təşkilatının Gənclər Forumu ilə birlikdə "Xocalıya Ədalət!" beynəlxalq informasiya kampaniyası çərçivəsində ermənilərin Azərbaycanın Xocalı şəhərində törətdikləri faciənin 19-cu ildönümünə həsr edilmiş konfrans keçirmişlər.

"Prezident-hotel" mehmanxana kompleksinin "Bolşoy Petrovski" zalında keçirilmiş konfransda Xocalı faciəsi haqqında həqiqətin, bu barədə obyektiv informasiyanın dünya ictimaiyyətinə çatdırılmasına və təqsirkarların məsuliyyətə cəlb edilməsinə yönəlmiº "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində görülmüş işlər müzakirə edilmişdir.

Konfransın rəsmi hissəsini İKT Gənclər Forumunun baş katibi Elşad İsgəndərov açmışdır. O, Azərbaycanın bu məsələdə haqlı mövqeyini dəstəkləyən konfrans iştirakçılarına təşəkkürünü bildirmiş və xüsusi qeyd etmişdir ki, "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının məqsədi təkcə Xocalı faciəsinin deyil, başqa etnik təmizləmələrin də qurbanları üçün ədalətə nail olmaqdır.

Sonra bu kampaniyanın təşəbbüsçüsü, RAGT-nin sədri, Heydər Əliyev Fondunun vitse-prezidenti, İKT Gənclər Forumunun baş əlaqələndiricisi Leyla Əliyeva çıxış etmişdir.

Leyla Əliyeva qeyd etmişdir ki, Xocalının dinc sakinlərinə qarşı törədilmiş, günahsız insanların, o cümlədən uşaqların, qadınların və qocaların həyatına son qoymuş soyqırımı aktı yaddaşımızda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixində ən dəhşətli və qanlı faciə kimi həmişəlik qalacaqdır. Onun sözlərinə görə, bu gün bu zalda iştirak edənlər, eləcə də, "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasını dəstəklədiklərini bildirən milyonlarla insan bu faciəyə beynəlxalq birlik tərəfindən hansı hüquqi, mənəvi və insani qiymət verilməsinə əsla biganə qala bilməz. Leyla Əliyeva demişdir ki, Xocalıda törədilmiş cinayətin icraçıları və sifarişçilərinin indiyə qədər layiqli cəza almaması dəhşətli haqsızlıqdır.

O, demişdir: "Bizim kampaniyanın məqsədi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, qaçqınların və məcburi köçkünlərin düşdüyü ağır vəziyyət haqqında bütün həqiqəti dünya birliyinə çatdırmaqdır.

Torpaqlarımız hələ də işğal altındadır, erməni cəlladlar öz tamahkar məqsədlərinə çatmaq üçün günahsız insanları amansızcasına qətlə yetirmişlər. Xocalı faciəsinin beynəlxalq birlik tərəfindən insanlığa qarşı cinayət və soyqırımı aktı kimi tanınmasına nail olmaq hər bir azərbaycanlının vəzifəsi, o cümlədən, mənim də vəzifəmdir. Bu cinayət bir daha təkrarlanmamalıdır".

Leyla Əliyeva bildirmişdir ki, Heydər Əliyev Fondu dalbadal neçənci ildir ki, dünyanın 70 ölkəsində Xocalı faciəsinə həsr edilmiş tədbirlər keçirir. Fond konfranslar, xatirə gecələri təşkil edir, kitablar, bukletlər dərc edir, DVD-disklər buraxır, filmlər çəkir. 2008-ci ildə başlanmış "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində bütün dünyada yüzlərlə aksiya keçirilir. Avropa İttifaqının üzvü olan dövlətlərin demək olar ki, hamısında, MDB, Asiya, Cənubi və Şimali Amerika ölkələrində konfranslar, seminarlar, piketlər keçirilir. Bu kampaniya sayəsində bir sıra beynəlxalq forumlar Xocalı faciəsini tanımışlar. Bir ay bundan əvvəl fondun və İKT Gənclər Forumunun təşəbbüsü ilə 31 ölkənin deputatları Xocalı faciəsini insanlığa qarşı cinayət kimi tanımışlar. Bu gün dünyanın 20 ölkəsində aparıcı universitetlər arasında gənclərin fleşmobları keçirilir. Bununla bərabər, keçən il bizim kampaniyanın yeni mərhələsi - dövlət və hökumət başçılarına, ATƏT-in Minsk qrupuna, AŞ PA-ya, BMT Baş Katibliyinə, dünya parlamentlərinə və beynəlxalq təşkilatlara ünvanlanmış, bu faciəni soyqırımı aktı və insanlığa qarşı cinayət kimi tanımaq tələbi irəli sürülən petisiya və müraciətlər yayılması mərhələsi başlanmışdır.

Heydər Əliyev Fondunun vitse-prezidenti demişdir ki, petisiyanın mətni saytımızda yerləşdirilmişdir və artıq 140 mindən çox insan həmin mətni imzalamışdır. Leyla Əliyeva qeyd etmişdir ki, bu gün təşkilat öz saytının daha dolğun və maraqlı olan yeni versiyasını təqdim edir. O demişdir: "Bu gün biz Robert Arakelovun kitabını da təqdim edirik. Bu kitabda Xocalı faciəsi haqqında obyektiv və düzgün informasiya verilir. Rəmzi haldır ki, bizim kampaniyanın ən mühüm tədbirlərindən biri dalbadal neçənci ildir ki, Moskvada keçirilir. Axı Rusiya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini tənzimləmək potensialına malikdir və bu məsələdə müsbət rol oynaya bilər. Rusiya cəmiyyətinin nümayəndələri birincilər sırasında Xocalıya gedənlərdən və vəziyyəti obyektiv qiymətləndirənlərdən olmuşlar. Buna görə də biz bu gün bu zalda Rusiya cəmiyyətinin nümayəndələrini görməyə şadıq, kədərimizə şərik olduqlarına və bizi dəstəklədiklərinə görə onlara ürəkdən təşəkkür edirik. Bu dəhşətli

cinayətə heç cür haqq qazandırmaq olmaz, Azərbaycan xalqı bu faciəyə böyük ürəkağrısı ilə tab gətirmişdir və biz bu cür faciənin bir daha təkrarlanmasına yol verə bilmərik".

Leyla Əliyeva ümid etdiyini bildirmişdir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tezliklə dinc yolla öz həllini tapacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək, qaçqınlar və məcburi köçkünlər öz doğma torpaqlarına, öz evlərinə qayıdacaqlar.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Xocalı faciəsinə həsr edilmiş beynəlxalq kampaniyanın əhəmiyyəti və ölkə rəhbərliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli tənzimlənməsinə yönəlmiş fəaliyyəti haqqında geniş məruzə ilə çıxış etmişdir.

ÜAK-ın prezidenti Məmməd Əliyev, Milli Məclisin deputatı, yazıçı-publisist Elmira Axundova, Ural Federal Universitetinin Avropa tədqiqatları kafedrasının müdiri professor Aleksandr Nesterov, "Xocalıya Ədalət!" kampaniyasının Moskva üzrə əlaqələndiricisi Kristina Mojayeva və rusiyalı politoloq Aleksey Vlasov öz çıxışlarında xalqımızın faciəsi barədə həqiqətin dünyaya çatdırılması üçün ölkəmizin informasiya siyasətinin müxtəlif aspektlərinə toxunmuş, ədalətli olmağa, bu qanlı cinayətin təqsirkarlarını beynəlxalq hüquq və ümumbəşəri normalar çərçivəsində məsuliyyətə cəlb etməyə çağırmışlar.

Tədbir iştirakçıları www.justiceforkhojaly.org saytında yerləşdirilmiş petisiya ilə tanış olmuş və elə oradaca həmin sənədi imzalamışlar.

Tədbirdə 600-dən çox qonaq, o cümlədən Türkiyənin və Paraqvayın RF-dəki səfirləri, Moskvada akkreditə edilmiş diplomatik missiyaların, Rusiya XİN-in, ziyalıların, paytaxtın elmi və yaradıcı dairələrinin, Azərbaycan diasporunun, KİV-lərin nümayəndələri, habelə Moskva və regionların ali məktəblərinin tələbələri iştirak etmişlər.

Tədbir iştirakçılarına Robert Arakelovun "Erməni ziyalısının etirafı" kitabının nüsxələri paylanmışdır.

Onu da qeyd etmək lazımdır ki, gənclər Heydər Əliyev Fondunun və RAGT-nin təşəbbüsü ilə "Xocalıya Ədalət!" kampaniyasını Rusiyanın 27 regionunda davam etdirmişlər.

Asya HACIZADƏ,
***AzərTAc**-ın xüsusi müxbiri , Moskva*
*"**Azərbaycan**".*
26 fevral 2011-ci il. N 46. Səh. 3

Xocalı soyqırımı dünyanın əksər ölkəsində anılıb

Həftəsonu dünyanın əksər iri şəhərlərində Xocalı soyqırımı ilə bağlı diasporumuzun, səfirliklərimizin təşkilatçılığı ilə tədbirlər keçirilib.

Fransanın paytaxtı Parisin mərkəzi meydanlarından biri olan Chatelet meydanında Xocalı soyqırımının 19-cu ildönümünə həsr olunmuş dinc aksiya keçirilib. Azərbaycan Fransız Gənclik Assosiasiyasının təşəbbüsü və Azərbaycanın Fransadakı səfirliyinin dəstəyi ilə fevralın 25-də keçirilən aksiyaya Paris və digər şəhərlərdə təhsil alan tələbələrlə yanaşı diasporumuzun nümayəndələri də qoşulublar. Üç saatdan artıq davam edən nümayişdə Xocalı faciəsi və "Xocalıya Ədalət!" kampaniyası ilə bağlı şüarlar altında "Xocalı uşaqların gözü ilə" adlı rəsm sərgisi təqdim edilib. Qarabağ həqiqətlərini Fransa və dünya ictimaiyyətinə çatdırmaq məqsədilə tariximizin qanlı səhifələrini özündə əks etdirən maarifləndirici materiallar (broşürlər, kitablar, CD/DVD, bəyannamə) şəhər sakinlərinə paylanıb. Soyqırımı təsdiq edən imzalar toplanaraq Fransa Milli Assambleyasına təqdim edilib. Daha sonra isə tədbir aksiya iştirakçılarının "Xocalıya Ədalət!", "Qarabağa azadlıq!" şüarlarının səsləri altında Fransadakı Ermənistan səfirliyinə yürüşü ilə başa çatıb.

Berlinin mərkəzi meydanlarından biri olan Braytşaydplatzda yerləşən Sınıq Kilsənin qarşısında Xocalı soyqırımının 19-cu ildönümü ilə əlaqədar böyük nümayiş keçirilib. Nümayiş Berlində fəaliyyət göstərən Azərbaycan Evi, Alman-Azərbaycan Həmrəylik Cəmiyyəti, Almaniyadakı Azərbaycanlıların Koordinasiya Mərkəzi tərəfindən təşkil olunub.

Nümayişdə Xocalı faciəsini əks etdirən fotomateriallar, erməni millətçilərinin qanlı hərəkətlərini açıqlayan, "Xocalıya Ədalət!" kampaniyasının şüarlarından istifadə olunub, informasiya vərəqələri paylanıb. Xocalı haqqında həqiqətləri işıqlandıran yazılı material alman ictimaiyyətinə paylanıb. Mitinqdə eyni zamanda Xocalı qətliamına dünya ictimaiyyəti tərəfindən siyasi qiymət verilməsinə dair bəyanat-çağırış oxunub. Nümayişdə həmçinin türk və yəhudi diaspor nümayəndələri iştirak edib.

Gənclər üçün Təhsil Mərkəzi və Alman-Azərbaycan Dialoq Platformunun birgə təşkilatçılığı ilə Almaniyanın Kassel şəhərində də etiraz nümayişi keçirilib.

Əsas məqsədi Xocalı faciəsi ilə bağlı həqiqətləri Almaniya ictimaiyyətinin diqqətinə çatdırmaq olan nümayişin keçirilməsinə Azərbaycanın Almaniyadakı səfirliyi və "Xocalıya Ədalət!" kampaniyası dəstək verib. Yüzlərlə insanın iştirak etdiyi nümayişə azərbaycanlı və türk tələbələr, diaspor nümayəndələri və yerli türk icmasının nümayəndələri qoşulub.

İsveç Azərbaycanlıları Federasiyasının rəhbəri Səttar Sevigin bu ölkə parlamentinin baş katibinin köməkçisi Ulf Kristofferssonla görüşərək ona Xocalı soyqırımına dair bəyanatı təqdim edib. U. Kristoffersson bu bəyanatı İsveç parlamentinin sədrinə və onun köməkçilərinə, eləcə də xarici işlər naziri Karl Bildtə təqdim edəcəyini söyləyib. S. Sevigin U. Kristofferssona Xocalı soyqırımı haqqında ətraflı məlumat verib və ermənilərin Xocalı şəhərinə hücum edərək burada yaşayan dinc sakinlərə qarşı qətliam həyata keçirdiyini bildirib. U. Kristoffersson görüş zamanı aldığı məlumatı müvafiq instansiyalara çatdıracağını bildirib. Görüşdə S. Sevigin İsveç parlamenti baş katibinin köməkçisinin diqqətinə Stokholmun Sergel meydanında Xocalı soyqırımı qurbanlarının 19-cu ildönümü münasibətilə aksiya keçirəcəklərini çatdırıb.

İslam Konfransı Gənclər Forumunun, Ukrayna Azərbaycanlı Gənclər Birliyinin və Ukrayna Azərbaycanlıları Konqresinin birgə təşəbbüsü və Azərbaycan səfirliyinin dəstəyilə Kiyev ART Qalereya Sərgi Salonunda Ukrayna Rəssamlar İttifaqının üzvü Rasim Seydimovun əsərlərindən ibarət "Xocalı harayı" adlı rəsm sərgisinin açılışı olub. Ukrayna Azərbaycanlıları Konqresi adından beynəlxalq təşkilatları və dünya birliyini Xocalı soyqırımına hüquqi-siyasi qiymət verməyə səsləyən diaspor rəhbərlərindən İlqar Abbasov və Akif Gülməmmədov Ermənistan dövlətinin Xocalı soyqırımına görə tarix qarşısında cavab verməsinin vacibliyini vurğulayıblar. Milli Məclisin deputatı Musa Qasımlı çıxışında bildirib ki, ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdikləri işğalçılıq və soyqırım siyasətinə beynəlxalq ictimaiyyət biganə yanaşmamalıdır. Qeyd edək ki, "Xocalı harayı" adlı sərgi mart ayının 2-dək davam edəcək.

İsrail deputatı ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirdi

"İsrail-Azərbaycan" Beynəlxalq Assosiasiyası (AZİZ) və İsrailin Azərbaycan diasporu Xocalı soyqırımının 19-cu ildönümünü qeyd ediblər. Xocalı soyqırımı qurbanlarının anım gününü "İsrail-Azərbaycan"

Beynəlxalq Assosiasiyasının prezidenti İosif Şaqal açıb: "1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlılarının keçmiş Sovet Ordusunun 366-cı alayının dəstəyilə Xocalıya hücum etməsi dinc insanlara qarşı törədilmiş ən qanlı cinayətlərdən biridir. Həmin faciədən 19 il keçsə də, Azərbaycan vətəndaşları və əslən Azərbaycan Respublikasından olanlar Xocalı qətliamının adı gələndə hələ də ürək ağrısını unuda bilmirlər. Heç bir şübhə doğurmur ki, bu tək hərbi cinayət yox, həm də erməni millətçiləri tərəfindən xüsusi qəddarlıqla həyata keçirilən etnik təmizləmə idi".

Milli Məclisin deputatı Qənirə Paşayeva İsraildəki Azərbaycan diasporunun bu tədbirin təşkil olunması və keçirilməsindəki rolunu yüksək qiymətləndirdi. Xocalı soyqırımına toxunan deputat bəyan etdi ki, Xocalıda ermənilər tərəfindən insanlıq əleyhinə cinayət törədilib: "Dinc Azərbaycan əhalisi yalnız azərbaycanlı olduqları üçün amansızlıqla qətlə yetirilib. Ermənilərin vəhşiliyini bütün dünya bilməlidir və cinayətkarlar beynəlxalq məhkəmə qarşısında cavab verməlidirlər.

Yəhudi xalqı Xocalı soyqırımı ilə nəticələnmiş erməni faşizmini hamıdan yaxşı anlaya bilər. Azərbaycanlılara qarşı həyata keçirilmiş bu soyqırım insanlığa qarşı törədilmiş ən dəhşətli cinayətlərdən biridir və dünya ictimaiyyətinin buna öz münasibətini açıqlaması vacibdir". "İsrail-Azərbaycan" Parlamentlərarası Komissiyasının sədri deputat Robert İlatov qeyd etdi ki, Xocalıdakı faciə Azərbaycan xalqının dəhşətli faciəsidir. İsrail deputatı onun ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirdi. İsrail-Azərbaycan əlaqələrindən danışan deputat iki ölkə arasında qarşılıqlı münasibətlərin genişlənməsinə və möhkəmlənməsinə inandığını söylədi.

Təbrizdə Xocalı soyqırımı qurbanları yad edilib

Təbrizdə 60 min azarkeşin iştirak etdiyi yerli "Traktor" futbol klubunun matçı zamanı stadionda Azərbaycan və ingilis dillərində "1992-ci ildə Xocalıda soyqırım baş verib" plakatları qaldırılıb. Qum şəhərində yerləşən Beynəlxalq İslam Universitetində isə bu şəhərdə təhsil alan azərbaycanlı tələbələr "Xocalı günü" adlı anım tədbiri təşkil ediblər. Tələbələr çıxış edib, Xocalı sakinlərinin başına gətirilən faciələr haqda danışıblar. Həmçinin universitetdə Xocalı faciəsini əks etdirən sərgi təşkil olunub. Sərgi iştirakçılarına Xocalı faciəsi haqda məlumat verilib. Qeyd edək ki, Beynəlxalq İslam Universitetində 70-dən çox ölkədən gələn tələbələr

təhsil alırlar. Onlar da azərbaycanlı tələbələrin təşkil etdikləri anım mərasiminə qatılıblar.

Nigar
"Palitra"
1 mart 2011-ci il. N.22. Səh. 6

***

İslam Konfransı Təşkilatı Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı birmənalı mövqe nümayiş etdirir

Qurumun qəbul etdiyi qətnamədə ermənilər tərəfindən törədilən Xocalı soyqırımının anım gününün keçirilməsi ilə bağlı müddəa yer alır.

Azərbaycanla İslam Konfransı Təşkilatı (İKT) arasındakı əməkdaşlıq münasibətləri xarici siyasət kursumuzun prioritet istiqamətlərindən sayılır. İKT 1969-cu ildə Rabatda (Mərakeş) müsəlman ölkələrinin dövlət və hökumət başçılarının konfransında yaradılıb, 60-a yaxın dövləti özündə birləşdirir. Bəzi ölkələrin müsəlman icmalarının, habelə bir sıra beynəlxalq təşkilatların nümayəndələri İKT yanında müşahidəçi statusuna malikdirlər. İKT Birləşmiş Millətlər Təşkilatı (BMT) ilə sıx əməkdaşlıq edir. 1975-ci ildən bəri BMT yanında müşahidəçi statusu alıb. 1972-ci ildə qəbul edilmiş nizamnaməyə görə, İKT-nin ali orqanı dövlət və hökumət başçılarının konfransıdır. Baş katibliyin tərkibində bir sıra şöbələr, o cümlədən, sosial-iqtisadi, elm və texnika, Asiya məsələləri, Afrika məsələləri, beynəlxalq məsələlər, informasiya, insan hüquqları və azsaylı dini icma məsələləri, müsəlmanların qeyri-hökumət təşkilatları məsələləri şöbələri və başqa şöbələr fəaliyyət göstərir.

Ötən həftə Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində keçirilmiş İslam Konfransı Təşkilatının (İKT) iqtisadi, mədəni və sosial məsələlər üzrə komissiyasının 34-cü sessiyasında Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumu (DƏ İKGF) haqqında qətnamə layihəsi yekdilliklə qəbul olunub. DƏ İKGF-nin nümayəndəliyinin rəhbəri, Forumun baş katibi Elşad İsgəndərov bildirib ki, qətnamənin vacib maddələrindən biri "XX əsrdə İKT-yə üzv ölkələrində humanitar faciələr üzrə Anma günü proqramı" çərçivəsində "Xocalıya Ədalət!" Beynəlxalq kampaniyasına həsr olunub. Xüsusilə, qətnamə layihəsi dövlət nümayəndələrini, həmçinin, İKT institutlarını Xocalı kütləvi

qırğınının insanlıq əleyhinə yönəlmiş cinayət kimi həm milli zəmində, həm də beynəlxalq səviyyədə tanınması istiqamətində öz fəaliyyətlərini gücləndirməyə çağırır. Bundan əlavə, qətnamə layihəsində BMT-nin Sivilizasiyaların İttifaqı uğrunda Alyansı prosesində gənclərin rolunun gücləndirilməsi sahəsində, xüsusilə, DƏ İKGF-nin İKT-nin tərəfdaşı kimi bu il aprelin 9-dan 11-dək Bakıda təsis edilən Sivilizasiyaların İttifaqı Uğrunda Qlobal Gənclər Hərəkatının yaradılmasında Forumun rolu yüksək qiymətləndirilib.

Sessiyada çıxış edən E.İsgəndərov Azərbaycanın birinci xanımı, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban Əliyevanın təşəbbüsü ilə 2007-ci ilin noyabrında Bakıda təsis edilmiş hərəkatın davamı olaraq Qlobal Gənclər Hərəkatının əhəmiyyətindən, Forumun müsəlman gəncliyin inkişafına yönəlmiş fəaliyyətindən, o cümlədən, islamofobiya ilə mübarizədə Forumun aparıcı beynəlxalq təşkilatlarla əməkdaşlığından bəhs edib.

Ümumiyyətlə, vurğulamaq lazımdır ki, İKT ilə Azərbaycan arasındakı əlaqələr çoxşaxəli və davamlı xarakterə malikdir. Qeyd olunduğu kimi, Azərbaycan Respublikasının İslam Konfransı Təşkilatı ilə əməkdaşlıq münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir və strateji əhəmiyyət kəsb edir. Dövlətimiz öz müstəqilliyini bərpa etdikdən sonra keçmiş sovet respublikaları arasında ilk olaraq İKT-yə üzv olmaq barədə müraciət edib.

Qurumla ölkəmiz arasındakı münasibətlər Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışının ardından daha möhkəm xarakter alıb. 1994-cü ilin may ayından etibarən Ümummilli lider Heydər Əliyevin müvafiq Sərəncamına əsasən Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İKT Baş Katibliyi yanında Daimi Nümayəndə səlahiyyətləri verildikdən sonra Ər-Riyaddakı səfirliyimiz vasitəsilə mənzil-qərargahı Səudiyyə Ərəbistanının Ciddə şəhərində yerləşən İKT Baş Katibliyi və onun müxtəlif qurumları, o cümlədən, İslam İnkişaf Bankı ilə səmərəli iş aparılmağa başlanılıb.

Ümummilli lider Heydər Əliyevin 1994-cü ilin iyul ayında Səudiyyə Ərəbistanına səfəri Azərbaycan-İKT əməkdaşlığının gələcək inkişafı üçün zəmin yaratmaqla yanaşı, səfər əsnasında Onun müqəddəs Kəbədə Ümrə ziyarəti, keçirdiyi məhsuldar görüşlər bütün İslam dövlətlərinin ölkəmizə maraq və diqqətini artırdı. Ümummilli liderin İKT baş katibi ilə 1994-cü ilin noyabrında Bakıda keçirdiyi görüşlər, həmin ilin dekabrında İKT dövlət və hökumət başçılarının Kasablankada keçirilmiş VII Zirvə Konfransında

iştirakı və İKT baş katibi, həmçinin, bir sıra üzv dövlətlərin xahişilə Asiya ölkələri qrupu adından çıxışı Azərbaycanın mövqeyini təşkilat daxilində daha da möhkəmlətdi və üzv dövlətlər tərəfindən dəstəklənməsi imkanlarını artırdı. Bunun nəticəsində, İKT Zirvə görüşləri tarixində ilk dəfə, Kasablankada "Ermənistan-Azərbaycan münaqişəsi haqqında" siyasi qətnamə qəbul edildi, həmin ildən etibarən İKT-nin BMT ilə əməkdaşlığı üzrə müzakirə edilən problemlər siyahısına "Ermənistan-Azərbaycan münaqişəsi" mövzusunun mütəmadi salınmasına nail olunub.

Qeyd olunmalıdır ki, gərgin əməyin nəticəsi kimi, siyasi qətnamənin adının dəyişdirilərək daha da gücləndirilməsi və "Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında" başlığı ilə ilk dəfə, 1996-cı ilin dekabrında Cakartada keçirilmiş İKT Xarici İşlər Nazirlərinin 24-cü Konfransı və 1997-ci ilin dekabrında Tehranda keçirilmiş İKT dövlət və hökumət başçılarının 8-ci Zirvə görüşündə qəbul edilməsi bu məsələyə dair Azərbaycanın haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında önəmli rol oynayıb. Xatırladaq ki, siyasi qətnamədə, üzv dövlətlərin erməni təcavüzünü qətiyyətlə pisləməsi, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, qeyd-şərtsiz çıxmasının tələb edilməsi, bu problemə dair baş katibin ənənəvi illik hesabatları, İKT çərçivəsində keçirilən görüşlərdə qəbul edilən yekun bəyannamələrin müvafiq bəndlərində səsləndirilən müddəalar, habelə qondarma "Dağlıq Qarabağ Respublikası"nda keçirilmiş müxtəlif qeyri-qanuni seçkilərin beynəlxalq hüquq normalarına zidd və İKT-yə üzv ölkələr tərəfindən tanınmayan amil kimi qiymətləndirilməsi erməni tərəfinin İKT dövlətlərinə narazılığını bildirməsi ilə müşayiət olunsa da, əks-rezonans doğurub və qeyd olunan qərar və qətnamələr əsasında həm İKT qurumları, həm də üzv dövlətlər tərəfindən Azərbaycana o zaman çox vacib olan geniş humanitar yardım fəaliyyəti həyata keçirilib.

Azərbaycan da öz növbəsində İKT çərçivəsində İslam dünyasının problemlərinə dair aparılan müzakirələrdə, qərar və qətnamələrin qəbul edilməsində, həmçinin, Fələstin probleminə münasibətdə daim konstruktiv mövqelərdən çıxış edib, birmənalı və dəyişməz mövqeyini nümayiş etdirib. Son illər Azərbaycan-İKT münasibətləri keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci ilin dekabrında İKT-nin Məkkədə keçirilmiş 3-cü fövqəladə Zirvə görüşündə iştirakı, Onun təşəbbüsü ilə 2006-cı ilin 19-21 iyun tarixlərində Bakıda İKT xarici işlər nazirlərinin növbəti 33-cü Konfransının keçirilməsi, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci il 10-11 iyun tarixlərində Bakıda

"Mədəniyyətlərarası Dialoqda Qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forum, İKT Turizm nazirlərinin Bakı Konfransı, Dözümlülüyün və qarşılıqlı anlaşmanın inkişafında KİV-in rolu, digər konfrans və tədbirlərə Azərbaycanın ev sahibliyi etməsi yuxarıda qeyd olunan siyasətin tərkib hissəsi kimi dəyərləndirilə bilər. Azərbaycan İKT-nin müxtəlif təşkilatları ilə də sıx əməkdaşlıq edir.

Bu baxımdan Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti xüsusilə təqdirəlayiqdir. Həmin fəaliyyətin nəticəsidir ki, 2006-cı ildə İSESKO-nun baş direktoru Əbdüləziz ibn Osman əl-Tüveycri sivilizasiyaların yaxınlaşmasındakı fəaliyyətinə görə Mehriban xanım Əliyevaya İSESKO-nun xoşməramlı səfiri adının verilməsi haqqında diplom təqdim edib. Həmçinin, 2008-ci ilin iyununda Bakıda keçirilən "Mədəniyyətlərarası Dialoqda Qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forumda iştirak edən İKT baş katibi E.İhsanoğlu humanitar sahədəki fəaliyyətinə görə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya "İKT-nin humanitar məsələlər üzrə xüsusi elçisi" statusuna dair diplom təqdim edib. Əlamətdardır ki, İslam ölkələrinin daxil olduğu təşkilatın bu yüksək adlarına layiq görülən ilk qadın məhz Azərbaycanın birinci xanımıdır.

Qurumun 11-ci Zirvə Konfransında İKT-nin yeni Nizamnaməsi qəbul edilib ki, bu beynəlxalq təşkilatın əsas sənədinin məqsəd və məramları bölməsində Azərbaycan nümayəndə heyətinin məqsədyönlü işi və israrlı mövqeyi nəticəsində işğal altında olan dövlətlərin öz ərazi bütövlüyünü bərpa etməsi hüququnun üzv dövlətlər tərəfindən birmənalı dəstəklənməsi barədə müddəanın təsbit edilməsi ölkəmiz üçün gələcək xarici siyasət kursunun istiqamətləndirilməsində müstəsna əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, 2008-ci ildə BMT Baş Assambleyasının 62-ci Sessiyasında Azərbaycan nümayəndə heyətinin təqdim etdiyi "Azərbaycanın işğal altında olan ərazilərindəki vəziyyət" adlı qətnamənin qəbul edilməsində İKT-yə üzv olan dövlətlərin mövqeyi həlledici rol oynayıb.

Təşkilatın bu ilin fevralında keçirilən İKT Xarici İşlər Nazirlərinin 36-cı iclasında da analoji mövqeyi bir daha vurğulanıb. İclasda bir daha qeyd olunub ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edib və BMT-nin məlum 4 qətnaməsini yerinə yetirməyib. Quruma üzv olan ölkələrin Xarici İşlər Nazirlikləri Ermənistanı işğaldan əl çəkməyə çağırıb.

Təşkilatın Azərbaycanın bir nömrəli probleminin həllində ölkəmizə verdiyi dəstək bununla da yekunlaşmır. 2009-cu ildən İslam Konfransı Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya Ədalət!" kampaniyası keçirilir. Kampaniya çərçivəsində Xocalı qətliamının adı İsveçdə yaradılmış və virtual aləmdə geniş vüsət almış "Beynəlxalq Müharibə Qurbanları Memorialı" arxiv layihəsinə daxil edilib. Layihədə kampaniyanın rəsmi saytına istinad edilərək Dağlıq Qarabağ müharibəsi zamanı erməni silahlı qüvvələri tərəfindən Xocalı şəhərində xüsusi amansızlıqla öldürülən qurbanların siyahısı yerləşdirilib, faciə saytın istifadəçilərinə XX əsrin ən dəhşətli qətliamı kimi təqdim edilib. Xocalı qətliamının adı Əlcəzair, Srebrenitsa, Darfur, Madaqaskar, Nigeriya, Ruanda, Vyetnam və başqa yerlərdə törədilmiş soyqırımları və qətliamlarla bir sırada çəkilib.

Bununla yanaşı, 2010-cu ilin yanvarın 31-də İslam Konfransı Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının Uqandanın Kambala şəhərində keçirilən və 51 ölkənin parlament nümayəndələrinin iştirak etdiyi VI konfransında "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasına dəstək çərçivəsində xüsusi qətnamə qəbul edilib. Qətnamədə bildirilib ki, İslam Konfansı Təşkilatı Parlament İttifaqı İslam Konfransı Gənclər Forumunun baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə irəli sürülən və erməni hərbi birləşmələri tərəfindən Azərbaycanın Xocalı şəhərində dinc əhaliyə qarşı törədilmiş kütləvi qırğın haqqında tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına yönələn "Xocalıya ədalət" beynəlxalq kampaniyasını dəstəkləyir: "Üzv dövlətlərin parlamentlərini insanlığa qarşı bu cinayəti düzgün və müvafiq şəkildə tanımağa, sözügedən kampaniyaya milli və beynəlxalq səviyyədə tam dəstək verməyə çağırır".

Qeyd etmək lazımdır ki, bu sənəd beynəlxalq təşkilatlar tərəfindən Xocalı faciəsini insanlığa qarşı cinayət kimi tanıyan ilk qətnamədir. Qeyd edilməlidir ki, qətnaməni qəbul edən dövlətlərin sırasında Ermənistanın da üzv olduğu Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Birliyinin nümayəndələri də iştirak ediblər. Bu isə Azərbaycan həqiqətlərinin daha bir beynəlxalq təşkilat tərəfindən də qəbulunun təməli sayıla bilər.

Qeyd olunmalıdır ki, "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində əldə olunan ilk uğur İKT Xarici İşlər Nazirləri tərəfindən Xocalı faciəsini kütləvi qırğın kimi qiymətləndirmək barədə qətnamənin qəbul edilməsi sayıla bilər. 2009-cu ilin iyul ayında isə İKT Gənclər Forumu ilə İSESKO

arasında imzalanmış anlaşma nəticəsində Xocalı faciəsi haqqında məlumatın İKT ölkələrinin tarix dərsliklərinə daxil edilməsi barədə razılıq əldə olunub. Bundan əlavə, ötən ilin dekabrında BMT çərçivəsində keçirilən konfransda Xocalı soyqırımı Ruanda, Srebrenitsa, Xolokost kimi dünya tərəfindən tanınmış soyqırımları ilə yanaşı, İnsan Haqları günündə gündəmə gətirilib və bununla əlaqədar BMT-də konfrans keçirilib.

Pərviz SADAYOĞLU
"Yeni Azərbaycan"
3 may 2011-ci il. №77. Səh. 7

***

"Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində 2012-ci ildə bir milyona yaxın imza toplanacaq

Merkez.az xəbər verir ki, bu barədə Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) Baş katibi Elşad İsgəndərov bildirib. Onun sözlərinə görə, DƏ-İKGF tərəfindən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində soyqırımın 20-ci ildönümü ilə bağlı gələn il silsilə tədbirlər həyata keçiriləcək. Kampaniya çərçivəsində beynəlxalq ictimaiyyətə faciə ilə bağlı sənədli filmin təqdim olunması və 50-dək xarici ölkədə kütləvi aksiyaların keçirilməsi planlaşdırılır.

İslam Əməkdaşlıq Təşkilatının üzvü olan 57 ölkədən 51-nin DƏ-İKGF-nin də üzvü olduğunu deyən E. İsgəndərov bildirib ki, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində Forum bir sıra proqramlar həyata keçirib.

Nigar Etibar
"Mərkəz"
24 noyabr 2011-ci il. №215. Səh. 12

***

YAP Gənclər Birliyi "Xocalı soyqırımını tanı!" kampaniyasına start verib

Kampaniya çərçivəsində ilk olaraq Xocalı soyqırımını əks etdirən fotoşəkillər və statistik rəqəmlər Fransa prezidenti Nikola Sarkoziyə, bu ölkənin Senatının və Milli Assambleyasının, həmçinin, hökumət üzvlərinin elektron ünvanlarına göndərilib.

Fransa Senatı tərəfindən uydurma "erməni soyqırımı"nı inkar edənlərə qarşı məsuliyyət müəyyən edən qanunun qəbul edilməsi Azərbaycan cəmiyyətinin kəskin etirazı ilə qarşılanıb. Azərbaycan gəncliyinin aparıcı qüvvəsi olan Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi (YAP GB) də Senatın bu addımına ciddi etiraz edir. Belə ki, YAP GB-nin üzvləri bununla bağlı hər bir senatora etiraz müraciəti ediblər. Müraciətdə bu sənədin heç bir fakta əsaslanmadığı qeyd olunur, eləcə də, ermənilərdən məzlum xalq obraz yaratmaq cəhdləri pislənilir.

YAP-ın gəncləri Fransa parlamentarilərindən tarixdə baş verməmiş hadisəyə görə qanun qəbul etməyi yox, Ermənistan silahlı qüvvələri tərəfindən 20 il öncə törədilmiş Xocalı soyqırımını tanımağı tələb ediblər. Yeri gəlmişkən, Yeni Azərbaycan Partiyasının Gənclər Birliyi Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində növbəti addım atıb. Belə ki, dünəndən etibarən YAP gəncləri "Xocalı soyqırımını tanı!" kampaniyasına start verib. Kampaniya çərçivəsində nüfuzlu beynəlxalq təşkilatlara, tanınmış siyasətçilərə, dövlət və hökumət nümayəndələrinə, parlamentarilərə Xocalı soyqırımını əks etdirən fotofaktların və statistik göstəricilərin ünvanlanması nəzərdə tutulur.

İlk olaraq isə partiyanın Gənclər Birliyinin adından Fransa prezidenti Nikola Sarkoziyə, bu ölkənin parlamentinin yuxarı və aşağı palatasının-Senatın və Milli Assambleyanın, həmçinin, hökumətinin hər bir üzvünə fərdi qaydada "Xocalı soyqırımını tanı!" başlığı altında müraciət ünvanlanıb.

Kampaniya ilə bağlı YAP Gənclər Birliyinin mərkəzi ofisinin rəhbəri Sərraf Hüseynov bildirib ki, Fransa Senatı tərəfindən məlum qanunun qəbul olunması Türkiyəni narahat etdiyi kimi ona qardaş olan Azərbaycanı da narahat edir: "Azərbaycan ictimaiyyətinin fəal hissəsi olaraq YAP gəncləri kimi məsələyə münasibətimizi bildirmək qərarına gəldik. Fransa uydurma "erməni soyqırımı"nı tanımaqdansa, yaxın keçmişdə baş verən Xocalı soyqırımına diqqət yetirməlidir. Ona görə də, ilk olaraq "Xocalı soyqırımını

tanı!" kampaniyasını Fransadan başlamalı olduq. Burada Xocalı soyqırımını əks etdirən fotolar və hadisə haqqında statistik məlumat da əksini tapıb. Bildiyiniz kimi, bu il Dağlıq Qarabağ probleminin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun yaradılmasının 20 ili tamam olur. Fransa da Minsk qrupunun həmsədrlərindən biridir. Amma uydurma "erməni soyqırımı" ilə bağlı qanun qəbul etməsi ilə Fransa artıq özünün qərəzli mövqeyini ortaya qoymuş oldu. Ona görə də, biz bu kampaniya çərçivəsində ilk olaraq Fransanın prezidentinə, parlamentarilərinə, hökumət nümayəndələrinə Xocalı soyqırımı haqqında məlumat göndərməyi qərara aldıq. Bu kampaniya fevral ayının sonuna qədər davam edəcək. Xocalı soyqırımını əks etdirən faktlar bu müddət ərzində Fransa prezidenti və uydurma "soyqırımı" haqqında qanunun müəllifi olan Valeria Boyerin elektron ünvanına isə hər gün göndəriləcək".

S.Hüseynov onu da bildirib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya Ədalət!" kampaniyası həyata keçirilir, bu soyqırımın dünyada tanıdılması istiqamətində böyük işlər görülür. Onun fikrincə, bu işlərin davamlılığı öz effektini verir: "Biz də belə qərara gəldik ki, bu kampaniyanı yalnız bir gün ərzində yox, indidən başlayaraq fevralın sonuna qədər davam etdirək və bu faktları təkrar-təkrar elektron ünvanlara göndərək. Bu məsələ Fransa ilə məhdudlaşmır, Xocalı soyqırımı haqqında həmin məlumatlar digər dövlətlərə və beynəlxalq təşkilatlara da göndəriləcək. Məsələn, ATƏT-in, Avropa Şurasının rəsmi şəxslərinə, Rusiyanın parlamentarilərinə, ABŞ-ın konqresmenlərinə, rəsmi nümayəndələrinə, "erməni soyqırımı"nı tanıyan digər şəxslərə bu məlumatlar göndəriləcək. Eləcə də, bu faktları təkcə BMT-nin Baş ofisinə deyil, onun təşkilatlarının elektron ünvanlarına da göndərəcəyik. Onlar bilməlidirlər ki, tarixdə mövcud olmayan hadisələri qabardıb millətləri bir-birinə qarşı qoymaqdansa, yaxın keçmişdə baş verən Xocalı soyqırımına münasibət bildirmələri daha yaxşı olardı".

YAP Gənclər Birliyinin sədr müavini Aygün Əliyeva da bildirib ki, Fransa parlamentinin belə bir qanun qəbul etməsi Azərbaycan ictimaiyyətinin haqlı narazılığına səbəb olub. Onun sözlərinə görə, demokratik dəyərlərin beşiyi sayılan Avropada belə bir qərarın qəbul olunması təbii ki, Azərbaycan tərəfindən də birmənalı qarşılanmır: "YAP Gənclər Birliyi olaraq biz də istədik ki, məhz bu hadisəyə öz münasibətimizi bildirək. Çünki bu, həm hüquqi, həm də tarixi baxımdan səhv bir addımdır. İstər insan hüquqları baxımından, istərsə, Avropa İnsan Haqları Konvensiyasına görə,

insanların ifadə və düşüncə azadlığını məhdudlaşdırmaq olmaz. Bu qərar isə insanların fikir azadlığının boğulması deməkdir. Fransa həm də ATƏT-in Minsk qrupunun həmsədri olduğu üçün bu qərarı qəbul etməməli idi. Düşünürəm ki, bu, təkcə Türkiyəyə qarşı yönəlmiş qərar deyil, həmçinin, Azərbaycana qarşı yönəlib. Türkiyə ölkəmizin strateji müttəfiqidir. Və hadisələrə münasibətimizi bu səviyyədə göstərməliyik. Biz gənclər olaraq, ilk növbədə, Fransanın 1000 nəfərə yaxın nümayəndəsinə bu müracəti göndərmişik. Əsas məqsədimiz ondan ibarətdir ki, tarixdə olmayan məsələni qabartmaqdansa, yaxın keçmişdə baş verən, canlı şahidlərinin olduğu faciələri tanımaları lazımdır. Biz bundan sonra da Qarabağ həqiqətlərinin beynəlxalq təşkilatlara çatdırılması istiqamətində mühüm iºlər görəcəyik".

Məsələ ilə bağlı YAP Gənclər Birliyinin mərkəzi ofisinin təşkilati işlər üzrə koordinatoru Vüsalə Niftəliyeva isə bildirib ki, Fransada erməni diasporu və lobbisinin güclü olması faktdır və bu qərar hansısa siyasi qüvvənin seçkilərdə qalib gəlməsi üçün atılan addımlardan biridir. "Amma bu qərarla Fransa Senatı Avropa dəyərlərini heçə saymış oldu. O cümlədən, Fransa humanizm prinsipindən çıxış etmədiyini nümayiş etdirdi. Heç bir həqiqətə söykənməyən bu qanun bütün Türk dünyasına qarşı yönəlib. Amma bütün bunların əvəzində Xocalı soyqırımını tanımaq daha ədalətli olardı. Ona görə də, bu istiqamətdə işlərimizi davam etdirəcəyik. Gənclər olaraq məsələyə biganə yanaşmırıq. Bildiyiniz kimi, bu günlərdə Avropa Şurasında Xocalı soyqırımı haqqında sənəd yayılıb və sənəddə Xocalının insanlığa qarşı cinayət olduğu bildirilir. Mən inanıram ki, həyata keçirdiyimiz tədbirlər nəticəsində dünya Xocalı soyqırımını tanıyacaq. Bunun üçün əlimizdən gələni edəcəyik".

Qeyd edək ki, fransız dilində Xocalı soyqırımı ilə bağlı faktları əks etdirən məlumatda məhz bunlar yer alıb: "1992-ci il fevralın 25-dən 26-na keçən gecə. Azərbaycan Respublikası, Xocalı şəhəri. Erməni hərbi birləşmələri Xocalı şəhərinə hücum etmişdir. Bu amansız hücumun nəticəsində Xocalı əhalisindən 613 nəfər öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz zülm və işgəncələrə məruz qalmışdır. 150 nəfərin taleyi hələ də məlum deyildir.

Xocalıda öldürülmüş 613 nəfərdən 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri qoca insanlar olmuşlar.

8 ailə bütövlükdə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 uşaq isə valideyinlərindən birini itirmişdir.

Əlavə xatırlatma: Azərbaycanın ərazisinin 20 faizi erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. Bir milyondan yuxarı azərbaycanlı öz yaşayış məskənlərindən qovulmuş, minlərlə insan həlak olmuşdur. Ermənistanın Azərbaycana qarşı təcavüzü BMT Təhlükəsizlik Şurasının 1993 - cü ildə qəbul etdiyi qətnamələrlə - 822, 853, 874, 884 - pislənmiş və işğal olunmuş ərazilərin azad olunması tələb edilmişdir. Münaqişənin sülh yolu ilə aradan qaldırılması məqsədilə, 1992-ci ildə yaradılmış ATƏT - in Minsk qrupunun bu il 20 ili tamam olur. Ancaq hələ də Azərbaycanın işğal olunmuş torpaqları Ermənistan ordusunun nəzarəti altındadır. Fransa ATƏT-in Minsk qrupunun həmsədr ölkəsidir. Biz sizə müraciət edirik:

BƏS, SİZ, FRANSA QANUNVERİCİLƏRİ-SENATORLAR, PARLAMENTARİLƏR, HÖKUMƏT ÜZVLƏRİ, XOCALI SOYQIRIMINA NƏ ZAMAN MÜNASİBƏT BİLDİRƏCƏKSİZ? ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi, Fransa Azərbaycanın işğal olunmuş torpaqlarının Ermənistan ordusundan azad edilməsini nə vaxt tələb edəcək?".

Bir daha vurğulayaq ki, eyni məzmunda müraciətlər müxtəlif dillərdə xarici ölkələrin parlament və hökumət üzvlərinə göndəriləcək və bu aksiya davam etdiriləcək.

Nardar BAYRAMLI
"Yeni Azərbaycan"
28 yanvar 2012-ci il. № 16. Səh. 4

***

"Xocalıya Ədalət!" kampaniyası çərçivəsində Niderland parlamentinə faciənin iyirminci ildönümü ilə əlaqədar müraciət və bu soyqırımın tanınmasına dair 1 milyon yerli vətəndaşın imzalar toplusu təqdim edilmişdir

Fevralın 14-də "Xocalıya Ədalət!" kampaniyasının Niderlandda fəaliyyət göstərən nümayəndələri, "Azərbaycanın Holland Dostları" Cəmiyyətinin təmsilçiləri Azərbaycan diasporunun digər fəalları ilə birgə Niderland parlamentinin xarici əlaqələr komissiyasının rəhbəri Nebahat Albayrak, bu komissiyanın katibi T.Van Toor, Niderland Əmək və Xristian Demokrat partiyalarından parlamentin deputatları Yeroen de Lange və Coşkun Görüzlə görüşmüşlər.

"Xocalıya Ədalət!" kampaniyasının yerli əlaqələndirici komitəsinin sədri, Niderlandın milli qəhrəmanı, Oranje-Nassau Kral ordeni cəngavəri Gert van Dam Xocalı soyqırımı barədə ətraflı məlumat verərək, 20 il öncə ermənilər tərəfindən mülki azərbaycanlılara qarşı törədilmiş bu beynəlxalq cinayətə məsuliyyət daşıyanların cəzalandırılmasını tələb etmiş və bu faciənin Niderland parlamentində gündəmə gətiriləcəyinə ümidvar olduğunu bildirmişdir. Çıxışının sonunda Gert van Dam parlament nümayəndələrinə "Qarabağ" adlı kitabını təqdim edərək, dünyanın ən demokratik ölkələrindən biri sayılan Niderland Krallığının parlamenti və ictimaiyyəti tərəfindən Xocalı faciəsi ilə bağlı Avropa dəyərlərinə əsaslanan ədalətin bərpa edilməsi üçün dəstək xahiş etmişdir.

Daha sonra "Azərbaycanın Holland Dostları" Cəmiyyətinin icraçı direktoru Marion van der Vegt söz alaraq bildirmişdir ki, 100 il öncə ermənilərlə bağlı hətta tarixçilər tərəfindən sübuta yetirilməyən naməlum hadisələrə siyasi don geydirmək əvəzinə, cəmi 20 il bundan əvvəl Xocalıda törədilmiş və artıq tam təsdiqlənmiş vəhşiliklərə Niderland və beynəlxalq birlik tərəfindən hüquqi və siyasi qiymət verilməlidir.

Gert van Dam və Marion van der Vegt Xocalı soyqırımına siyasi və hüquqi qiymət verilməsini tələb edən "Milyon imza - bir istək" toplusunu təqdim etmiş, Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş torpaqlarının tezliklə azad ediləcəyinə, regionda sülhün və insan hüquqlarının bərqərar olunmasına Niderland parlamentinin də öz töhfəsinin verəcəyinə ümidvar olduqlarını bildirmişlər.

Eyni zamanda, ATƏT-in və Avropa Şurası Parlament Assambleyasının üzvləri olan bu deputatlar Xocalı soyqırımına dair müraciətin Niderland parlamentində baxılmasına nail olacaqlarına söz vermişlər.

Niderland parlamentinin xarici əlaqələr komissiyasının rəhbəri Nebahat Albayrak bu yaxınlarda Vyanada ATƏT ilə Avropa Şurasının birgə təşkil edəcəyi toplantıya qatılacağını və bu məsələnin iclasın gündəliyinə salınması üçün çalışacağını qeyd etmişdir.

Görüşdə iştirak etmiş Niderland jurnalistləri Azərbaycan nümayəndə heyətinin müraciətinin Niderland parlamentinə təqdim olunmasını yerli mətbuatda geniş işıqlandırmışlar.

"Xalq qəzeti"
18 fevral 2012-ci il. N 39. Səh. 2

***

"Xocalıya Ədalət!" kampaniyası çərçivəsində İstanbulda rəsm və foto sərgisi açılmışdır

Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclik Forumunun (DƏİKGF) təşkilatçılığı ilə "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində İstanbuldakı "Taksim" metrosunun sərgi salonunda Xocalı soyqırımının 20-ci ildönümü ilə bağlı rəsm və foto sərgisi açılmışdır.

Sərginin açılış mərasimində çıxış edən DƏİKGF-nin nümayəndəsi Nabat Qaraxanova 2008-ci ildə Forumun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində görülmüş işlərdən ətraflı danışmışdır. Məhz bu səylər nəticəsində keçən ay İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı Xocalı qətliamını soyqırımı kimi tanımış, Pakistan, Meksika parlamentləri də müvafiq addımlar atmışlar. Türkiyə və Azərbaycanda bütün gənclər bu təşəbbüsə daha çox dəstək olmalı, Xocalı soyqırımının bütün dünyada tanınması üçün səylərini birləşdirməlidirlər.

N.Qaraxanova bildirmişdir ki, Türkiyə parlamenti Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclik Forumunun tədbirlərinə diqqəti artırmışdır. Yaxın günlərdə Türkiyə Böyük Millət Məclisində Xocalı soyqırımı haqqında kitabın təqdimatı, rəsm və foto sərgisi təşkil olunacaqdır.

Azərbaycanın İstanbuldakı baş konsulu Həsən Zeynalov Forumun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə aparılan "Xocalıya Ədalət!" kampaniyasının öz bəhrəsini verdiyini, artıq bütün dünyada bu soyqırımının geniş tanıdılması prosesinin davam etdiyini vurğulamışdır. Baş konsul Xocalı qətliamının BMT-nin Soyqırımı Konvensiyasının bütün maddələrinə uyğun olduğunu, vəhşicəsinə qətlə yetirilmiş dinc insanların məhz etnik mənsubiyyəti - türk olduqları üçün soyqırımına məruz qaldıqlarını demişdir.

Azərbaycan Gənclər və İdman Nazirinin müavini İntiqam Babayev, Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının baş katibi Xəlil Akınçı, Milli Məclisin deputatı, "İrəli" gənclər hərəkatının sədri Ceyhun Osmanlı, Mərmərə Universitetinin dosenti Nəsrin Sarıəhmədoğlu Xocalı soyqırımı və Azərbaycanda əsrlər boyu ermənilərin törətdikləri qətliamlardan ətraflı bəhs

etmişlər. Onlar Türkiyə vətəndaşlarını, habelə qardaş ölkədə yaşayan azərbaycanlı və digər xalqların nümayəndələrini fevralın 26-da Taksim meydanında Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar keçiriləcək mitinqə qatılmağa dəvət etmişlər.

Xocalı sakini Anar Yusifov bildirmişdir ki, bu soyqırımında onun 18 qohumu erməni vandalizminin qurbanı olmuş, bir çoxu isə itkin düşmüşdür. Bu şəhidlərin ruhu o zaman dinclik tapacaqdır ki, Xocalı və işğal edilmiş digər ərazilərimiz azad olunacaqdır. Bunun üçün lazım gələrsə, xalqımız hərb yolu ilə torpaqlarımızı düşmən tapdağından qurtaracaqdır.

Sonra mərasim iştirakçıları Xocalı soyqırımı haqqında sənədli filmə baxmış, sərgi ilə tanış olmuşlar.

Oqtay BAYRAMOV
AzərTAc**-ın xüsusi müxbiri, **İstanbul
"Xalq qəzeti"
18 fevral 2012-ci il. N 39. Səh. 2

* * *

"Xocalıya Ədalət!" kampaniyası 2012-ci il üçün tədbirlər proqramını açıqlamışdır

Fevralın 22-də İslam Konfransı Gənclər Forumunun (İKGF) baş katibi, səfir Elşad İsgəndərov "Xocalıya Ədalət!" kampaniyasının 2012-ci il üçün tədbirlər proqramı ilə bağlı mətbuat konfransı keçirmişdir. AzərTAc xəbər verir ki, konfransda çıxış edən Elşad İsgəndərov hazırda Xocalı soyqırımının 20 illiyi ilə əlaqədar "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində dünyanın bir sıra ölkələrində tədbirlərin keçiriləcəyini demişdir.Aksiyaların 50-dən çox ölkədə keçirildiyini deyən Elşad İsgəndərov buna bir neçə amilin təsir göstərdiyini bildirmişdir. O, İKGF-nin təşəbbüsü ilə 51 ölkənin parlament nümayəndələrinin Xocalı qırğınını soyqırımı aktı kimi tanımasının kampaniya fəalları üçün böyük stimul olduğunu demişdir. İKGF-nin baş katibi aksiyaların Xocalı soyqırımının 20 illiyi ilə üst-üstə düşməsinin tədbirlərə əlavə kütləvilik verdiyini, bu təşəbbüsə istər diaspor, istərsə də xarici ictimai təşkilatları təmsil edən yeni qurumların da qatıldığını bildirmişdir.

E.İsgəndərov fevralın 14-dən başlayaraq Niderland, Polşa, Macarıstan, İsveçrə, BƏƏ, Ukrayna və Türkiyənin bir sıra şəhərlərində Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində konfransların, "dəyirmi masalar"ın, rəsm sərgilərinin, etiraz nümayişləri və digər məlumatlandırma aksiyalarının keçirildiyini demişdir. O, bu tədbirlər içərisində Hollandiya Parlamentinə ünvanlanmış Xocalı soyqırımına hüquqi qiymət verilməsini tələb edən müraciətə 1 milyon imzanın toplanmasını və Budapeştdə faciəni ilk dəfə hüquqi məsuliyyət kimi dəyərləndirən konfransın keçirilməsini yüksək qiymətləndirmişdir.

Bildirilmişdir ki, fevralın 24-də Sarayevoda Xocalı və Srebrenitsa qətliamları qurbanlarının xatirəsini əbədiləşdirən ikili abidələrin açılış mərasimi keçiriləcəkdir. Mərasimdə "Xocalıya Ədalət!" kampaniyasının təşəbbüskarı, İKGF-nin Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyeva, eləcə də Bosniya və Herseqovinanın hökumət nümayəndələrinin iştirak edəcəyi gözlənilir. Tədbir çərçivəsində Dobrınya gimnaziyasının tələbələri üçün "Xocalı" filmi də nümayiş etdiriləcəkdir.

Fevralın 28-də isə Moskvada "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində Avropa kinematoqrafçıları tərəfindən çəkilmiş Xocalı soyqırımından bəhs edən filmin təqdimatı keçiriləcəkdir.

Kampaniya çərçivəsində fevralın 22-dən 29-dək Buxarestdə Rumıniya Yazıçılar İttifaqı və Diplomatik Akademiyada Xocalı faciəsinə həsr olunmuş konfransların keçirilməsi planlaşdırılır. Fevralın 26-da isə Buxarestin mərkəzi meydanında Xocalı qırğını ilə bağlı məlumatlar və fotolar paylanılacaqdır.

Ottava, Toronto və Monrealda fəaliyyət göstərən Azərbaycan icmalarının iştirakı ilə ölkə parlamentinin, eləcə də Ermənistanın bu ölkədəki səfirliyi qarşısında planlaşdırılan etiraz mitinqi isə fevralın 24-də keçiriləcəkdir.

Fevralın 23-dən 26-dək isə Berlində "Almaniyada Xocalı günləri" proqramı çərçivəsində bir neçə tədbir keçiriləcəkdir. Alman professoru R.Kipkenin "Azərbaycan-Ermənistan münasibətləri və Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi", kanadalı alim S.Teylorun "Uzlaşmayan ziddiyyətlər: Türkiyə, Ermənistan və Azərbaycan" kitablarının təqdimatı keçiriləcəkdir. Həmçinin "Xocalı uşaqların gözləri ilə", "Ağdam ruhlar şəhəri" rəsm sərgisinin, "Biz geri qayıdacağıq" bədii filminin nümayişi də planlaşdırılır.

Estoniyada fevralın 26-da keçiriləcək tədbirdə Avropa Şurası Parlament Assambleyasının estoniyalı məruzəçisi, "Azərbaycan məktubları" kitabının müəllifi Andres Herkel çıxış edəcəkdir. Tədbirdə Avropa Parlamentinin beş deputatı da iştirak edəcəkdir.

İstanbulun Taksim meydanında isə fevralın 26-da ASAİF-in təşkilatçılığı və "Xocalıya Ədalət!" kampaniyasının əməkdaşlığı ilə "Biz hamımız Xocalıdanıq" şüarı altında etiraz nümayişi keçiriləcəkdir.

Tədbir çərçivəsində Fransa Milli Assambleyasının binasında fevralın 27-də "Xatirə səciyyəli qanunlar və bilinməyən soyqırımlar" adlı beynəlxalq konfrans keçiriləcəkdir. Tədbirdə fransalı senatorların, bu ölkədə akkreditə olunmuş səfirlik nümayəndələrinin, eləcə də bir sıra alimlərin iştirakı da gözlənilir.

Kiyevdə Ukrayna Azərbaycanlıları Gənclər Birliyinin təşkilatçılığı ilə fevralın 23-24-də kampaniya çərçivəsində ölkə ictimaiyyətini məlumatlandırmaq məqsədilə soyqırımından bəhs edən filmin nümayişi olacaqdır. Həmçinin Kiyevdəki beynəlxalq təşkilatların nümayəndəlikləri qarşısında etiraz aksiyasının keçirilməsi də planlaşdırılır.

Brüsseldə fevralın 28-də Xocalı qırğınına həsr olunmuş "dəyirmi masa" keçiriləcəkdir. Tədbirdə Milli Məclisin deputatı Rövşən Rzayev, Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli, Xocalı faciəsinin şahidi Anar Usubov çıxış edəcəklər. Tədbir çərçivəsində qarabağlı uşaqların rəsm əsərlərindən ibarət sərgi də təşkil olunacaqdır. Həmin gün Avropa Komissiyasının qarşısında Şuman meydanında Azərbaycan-Belçika Dostluq Cəmiyyətinin təşkilatçılığı ilə Xocalı soyqırımı ilə bağlı etiraz nümayişi keçiriləcək, Avropa və Belçika Parlamentlərinin deputatlarına müraciət ünvanlanacaqdır.

Baş katib kampaniyanın Facebook səhifəsinə dəstək verən istifadəçilərin sayının 50-dən artıq ölkədən olmaqla 30.000 nəfəri keçdiyini də diqqətə çatdırmışdır.

E.İsgəndərov Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə irəli sürülən, faciənin mənəvi və siyasi-hüquqi sahədə tanınmasına yönəlmiş "Xocalıya Ədalət!" kampaniyasının dünyanın 35-dən çox ölkəsində uğurla həyata keçirildiyini demişdir.

Sonda jurnalistlərin sualları cavablandırılmışdır.

"Azərbaycan". *23 fevral 2012-ci il. N 43. Səh. 4*

***

Xocalı soyqırımı haqqında "Sonu olmayan dəhliz" adlı sənədli filmin siqnal variantının təqdimatı keçirilmişdir

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva tədbirdə iştirak etmişdir.

Martın 11-də Heydər Əliyev Fondunun dəstəyi ilə "Nizami" Kino Mərkəzində "Qafqazda sülh" beynəlxalq layihəsi çərçivəsində Avropa kinematoqrafçılarının birgə istehsalı olan "Sonu olmayan dəhliz" adlı sənədli filmin siqnal variantının təqdimatı olmuşdur.

Təqdimat "Xocalıya Ədalət!" beynəlxalq məlumat kampaniyası çərçivəsində keçirilmiş və Xocalı faciəsinin 20 illiyinə həsr olunmuşdur.

Təqdimat mərasimində Azərbaycanın birinci xanımı Mehriban Əliyeva iştirak etmişdir.

Böyük Britaniya, Litva, Estoniya və Finlandiya kinematoqrafçılarından ibarət yaradıcı qrupun çəkdiyi film 1992-ci ilin 26 fevral gecəsində baş vermiş insan faciəsindən bəhs edir.

Heydər Əliyev Fondunun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyeva tədbirdə çıxış edərək filmin yaradıcı qrupunun işini yüksək qiymətləndirmişdir.

"Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının təşəbbüskarı Leyla xanım Əliyeva bildirmişdir ki, bu film Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rol oynayacaqdır. Xocalı soyqırımı nəinki Azərbaycan xalqının, eləcə də bu faciə haqqında heç olmasa bir dəfə məlumat almış və onun nəticələrini görmüş hər bir vicdanlı insanın ağrısıdır.

Leyla xanım Əliyeva demişdir: "Xocalı faciəsi Azərbaycan xalqının və hər birimizin silinməz ağrısıdır. Bu hadisə 20 il bundan əvvəl baş verib, lakin öldürülmüş günahsız insanların xatirəsi daim ürəyimizdə yaşayacaqdır. Göstəriləcək film xarici jurnalistlər tərəfindən hazırlanmışdır. Bu film 1992-ci il fevralın 26-da Xocalıda törədilən faciədən bəhs edir. Fikrimcə, bu film həmin dəhºətli hadisələri dəqiqliyi ilə və faktlarla əks etdirir. Bildiyiniz kimi, bu il Azərbaycan xalqı Xocalı faciəsinin 20 illiyini qeyd edir və biz bununla əlaqədar dünyanın bir çox yerlərində müxtəlif tədbirlər keçirmişik. Bu dəhşətli faciədə günahsız yerə öldürülən və işgəncəyə məruz qalan qocaların, qadınların və körpələrin xatirəsi daim ürəyimizdə yaşayacaqdır. Biz inanırıq

ki, bu dəhşətli faciə tezliklə beynəlxalq qiymətini alacaq, hadisənin günahkarları isə cəzalandırılacaqlar".

Daha sonra Leyla xanım Əliyeva qeyd etmişdir ki, 2012-ci ildə İslam Konfransı Gənclər Forumunun xətti ilə Xocalı faciəsinin siyasi və hüquqi aspektlərdən tanınması, o cümlədən ədalətin tam bərqərar olması istiqamətində fəaliyyət davam etdiriləcəkdir.

Tədbirdə filmin əsasını təşkil edən müstəqil tədqiqatın müəllifi, litvalı jurnalist Riçardas Lopaytis çıxış edərək demişdir: "Ağdamda könüllü kimi yardım etdiyim vaxtlar və daha sonra münaqişə bölgəsinə etdiyim səfərlər zamanı şahidi olduğum hadisələri öz gündəliyimdə yazırdım. Keçən illər ərzində mən yazılarıma dəfələrlə qayıdıb: "Kim? Niyə? Nə üçün?" suallarına cavab tapmağa çalışırdım. Biləndə ki, mənim həmyerlilərim, kinematoqrafçılar bu suallarla və bir növ şahid kimi mənim qeydlərimlə maraqlanırlar, filmdə iştirak etmək qərarına gəldim".

Jurnalist daha sonra qeyd etmişdir ki, filmdə Ermənistan və Azərbaycanda münaqişəyə dair rəsmi dairələrin mövqeyi əksini tapmamışdır. Ona görə də hər iki ölkədə yaradıcı heyətin mövqeyi ilə razılaşmayanlar da ola bilər. Mənim üçün əsas olan bütün dünyanın Xocalı haqqında bilməsidir. Məhz bu, ədalətin bərpa olunmasının əsas şərtidir.

Leyla xanım Əliyevanın və "Xocalıya Ədalət!" kampaniyasının fəaliyyətini yüksək qiymətləndirən litvalı jurnalist, həmçinin qeyd etmişdir ki, kampaniyanın peşəkarcasına aparılması və obyektivliyi, çəkiliş qrupuna siqnal nümayişinin məhz kampaniya çərçivəsində keçirilməsi haqqında qərar qəbul edilməsinə təsir göstərmişdir. "Mən çox istərdim ki, bu film Ermənistanda da göstərilsin. Bu, dialoqun başlanmasına, heç olmasa, humanitar xarakter daşıyan bu məsələdə ortaq məxrəcin tapılmasına kömək edərdi", - deyə R.Lopaytis əlavə etmişdir.

Dövlət və hökumət nümayəndələrinin, Milli Məclisin deputatlarının, tanınmış elm və mədəniyyət xadimlərinin iştirak etdiyi tədbirdə film nümayiş olunmuşdur.

Böyük məharət və zəhmət hesabına ekranlaşdırılan filmdə Xocalı dəhşətləri bir daha tarixi faktlarla öz əksini tapmışdır. Faciə zamanı əsir düşmüş xocalılı musiqi müəllimi, rusiyalı hərbi fotomüxbir, ailəsinin əksər üzvlərini Xocalı qırğınında itirmiş və əsir düşmüş qadın, 1992-ci ilin fevralında öz taleyində dönüş yaratmış litvalı jurnalist Riçardas Lopaytisin faciədən 20 il sonra başladığı müstəqil jurnalist araşdırmasının iştirakçıları olmuşlar. Filmdə müxtəlif insan taleləri ilə bərabər, SSRİ-nin süqutu

dövrünə və Qarabağ münaqişəsinə dair şahidlərin xatirələri də öz əksini tapmışdır.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri keçmiş sovet imperiyasının 366-cı motoatıcı alayının şəxsi heyətinin və ağır texnikasının köməyi ilə Xocalı şəhərində dinc əhaliyə qarşı törədilmiş kütləvi qırğın nəticəsində 613 nəfər qətlə yetirilmiş, 1000-dən çox adam yaralanmış, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmiş, 150 insan isə itkin düşmüşdür.

"Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyası Heydər Əliyev Fondunun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2009-cu ildə irəli sürülmüşdür. Hazırda faciənin mənəvi və siyasi-hüquqi cəhətdən tanınmasına yönəlmiş bu kampaniya dünyanın 35-dən çox ölkəsində uğurla həyata keçirilir.

Bu ilin yanvarında İKGF-nin təşəbbüsü ilə 51 ölkəni özündə birləşdirən İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqı Xocalı faciəsini soyqırımı aktı kimi tanımışdır. Oxşar qərarlar Meksika və Pakistan parlamentlərində də qəbul edilmişdir.

Tədbirin iştirakçılarına Leyla Əliyevanın ideya müəllifi olduğu, ingilis və rus dillərində hazırlanmış "Xocalı. 20 il, 10 hekayət. Bunlar həqiqət ola bilərdi..." kitabları təqdim edilmişdir.

"Xalq qəzeti"
13 mart 2012-ci il. N 58.Səh. 7

***

"Sonu olmayan dəhliz", yaxud Günayın səssiz harayı

Mart ayının 11-də Heydər Əliyev Fondunun dəstəyi ilə "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində Xocalı faciəsinin 20 illiyinə həsr olunmuş filmin təqdimatında iştirak etdik. Film Böyük Britaniya, Litva, Estoniya və Finlandiya kinematoqrafçılarından ibarət yaradıcı qrupun birgə əməyinin məhsulu idi. Film Xocalı soyqırımının törədildiyi tarixdə yəni, 1992-ci ilin fevralın 25-dən 26-na keçən gecədə baş verən hadisələrə işıq tuturdu. Qeyd etmək lazımdır ki, film həmin gün törədilən soyqırımı faktına

yeni yanaşma olmaqla modern təbliğat metodlarına cavab verən tərzdə çəkilmişdir.

Film həm hadisə zamanı soyqırıma məruz qalmış insanların ümumi taleyindən bəhs edir, həm də bir neçə ailənin fərdi faciəsində lokalizə edilərək həm ümumi statistik xarakter, həm də fərdi emosional xarakter daşıyırdı. Filmin rejissoru və yaradıcı heyəti içərisində yer alan jurnalist hadisənin iştirakçısı olduğu üçün bu, bir növ həm də həmin jurnalistin həyatından epizodlar idi. Bir sözlə, film yüksək peşəkarlıq və keyfiyyətlə çəkilmişdi və Xocalı soyqırımını dünya ictimaiyyətinə olduğu kimi təqdim edə biləcək keyfiyyətdə idi.

Filmdə litvalı jurnalist o dövrdə bu hadisələrin iştirakçısı olub və o faciə şəraitində tanıdığı insanlarla sonra da əlaqə saxlamaqla həmin insanları çəkdiyi filmin qəhrəmanları kimi təqdim edib. Filmin orijinallığı ondan ibarət idi ki, bu, birbaşa insanların emosialarına, duyğularına müraciət etməklə ümumi soyqırımı kimi ifadə etdiyimiz söz birləşməsinin altında nə qədər dərin kədərli, faciəvi və qeyri-insanı hadisələrin olduğunu göstərir.

İkigünlük körpənin faciəvi taleyi

Təqdim edilən filmin qəhrəmanlarından biri həmin gecə (bir gün öncə) dünyaya yenicə körpəsini gətirmiş anadır. Bu ananın körpəsi cəmi 2 gün əvvəl dünyaya göz açıb. Həyata vəsiqə alar-almaz erməni vandalları tərəfindən törədilən vəhşiliklərin şahidi olub. Filmdə müəllif həmin gecə soyqırımından qaçıb xilas olmağa çalışarkən anasının qucağından yerə düşən bir körpənin o dövrdə lentə alınmış kadrlarını nümayiş etdirir. Sonda isə həmin qız artıq 19 il sonra on doqquz yaşlı gənc kimi kadrlarda yer alır. Amma bu gənc aldığı zədə nəticəsində danışa bilmir. Valideynləri onun adını Günay qoyublar. Təəssüf ki, Günay 19 yaşında olsa belə, günü ayı görsə də insanlara həyat bəxş edə, bu gözəlliklərin adını belə söyləyə bilmir. Əslində, Günay o dövrdə əlbəttə ki, nə baş verdiyini anlamamışdı. Sonrakı illərdə də Günay nə olduğunu, necə olduğunu bilməmişdi. Çünki o, əqli və zehni baxımdan bu hadisələri anlayacaq vəziyyətdə deyildi. O gecə baş verən hadisə Günayı dünya həqiqətlərini dərk etməkdən məhrum etmişdi. Amma buna baxmayaraq, soyqırımının baş verdiyi gecə Günayın yaddaşında iz buraxmasa belə, onun baxışlarında kök salmışdı. Filmin sonunda hələ film çəkilərkən sağ olan və ailəsi ilə birlikdə yaşayan Günay kadrlarda əks olunur. Qeyri-müəyyən nəzərləri ilə yaradıcı heyətinin ona verdiyi suallara

laqeyd-laqeyd baxır. Əslində, bu laqeydlikdə bir tənə, bir çağırış, bir haray var. Bu haray - ƏDALƏT İSTƏYİ harayıdır. Sanki bu soyqırımının bütün fiziki və mənəvi əzabları Günayın baxışlarında toplaşıb. Ona görə də filmdə Günayın baxışlarının səssiz harayı onu seyr edən hər bir insanın qəlbini riqqətə gətirməklə ədalətə səsləyir. Bu baxışlar əlbəttə ki, təkcə Günayı qorumağa deyil, onu həm də xoşbəxt etməyə borclu olan bizlərə yönəlmiş baxışlar deyildi. Bu baxış eyni zamanda dünyaya, bəşəriyyətə, bütövlükdə insanlara doğru dikilmişdi. Bu baxışlardakı haray, çırpınış insanları ədalətə çağırırdı. Görəsən, biz insanlar milliyətimizdən asılı olmayaraq, Günayın bu harayına cavab verə biləcəyikmi?! Günayın baxışının istədiyi bu ədaləti nəhayət bərpa edə biləcəyikmi?!

Danışa bilsəydi görəsən, Günay bizlərə nə deyərdi...

Filmin sonunda kadrlarda yazılan yazılardan məlum olur ki, Günay 2011-ci ildə dünyasını dəyişib. Film çəkiləndə Günayın anasının dediyi arzular dilə gətirilir: "Bircə bu qızı müalicə etdirə bilsəydim", - deyir. Görəsən, Günay müalicə olunsaydı, nələr danışardı, nələr anladardı. Görəsən, Günayın hafizəsi yerində olsaydı, nə istədiyini hansı sözlərlə və necə deyərdi?! Amma bunlar olmadı. Məncə, Günay deyə biləcəyi, demək istədiyi sözləri baxışları ilə ən gözəl şəkildə dedi. Bizlər o baxışdakı harayı bu gün dilimizlə, bu baxışlardakı ədalət istəyini bu gün sözlərimiz, yazımız, qələmimizlə dünyaya çatdırmalıyıq və çatdırırıq.

Filmdə təqdirəlayiq məsələlərdən biri də, baş vermiş hadisələrin məntiqli izahı və erməni iddialarına onların öz dili ilə cavab verməsi idi. Yaradıcı heyətin və ideya müəlliflərinin məharətlə istifadə etdiyi metod filmdə ermənilərı ifşa edir. Kadrlarda Xocalıya hücum planını hazırlayan bir hərbçi və bir hərbi komandir danışdırılır. Onların hər ikisi iddia etməyə çalışırlar ki, Xocalı vacib strateji bir nöqtə olduğundan, müharibə şəraitində oranın boşaldılması şərt idi və ordan əhalinin tərk edilməsi ilə bağlı bir neçə dəfə xəbərdarlıq edilmişdi. Çox böyük məharətlə filmdə erməni hərbi cinayətkarlarının irəli atdığı bu iddia onların öz dilləri ilə alt-üst edilir.

Soyqırımı törədənlərin etirafları

Və ən sonda, nəhayət, filmdə erməni hərbi cinayətkarlarının söylədikləri onların böyük komandirlərinin və ən böyük cinayətkarın dili ilə etiraf edilir. Hər nə qədər bu cinayətkarlar filmdə özlərini suçsuz kimi

təqdim etməyə çalışsalar da Sarkisyan adlanan cani - o dövrdə Xocalı soyqırımı hadisəsində birbaşa iştirak edən və əlində silah o kadrlarda görünən cani, sonda Böyük Britaniya qəzetlərinin birinə verdiyi müsahibəsində soyqırımını belə etiraf edir: "Azərbaycanlılar inanmırdılar ki, biz dinc əhalini qırarıq, onlara qarşı silah işlədə bilərik. Lakin biz Xocalıda bu soyqırımı törətməklə, dinc əhalini qətlə yetirməklə bu stereotipi qıra bildik".

Məhz Xocalı soyqırımını törətmiş və bu işə rəhbərlik etmiş bir şəxsin rəsmi etirafının filmdə öz əksini tapması hesab edirik ki, olduqca vacib bir fakt olmaqla həm də bir yenilik idi. Bu, bizə imkan verir ki, gələcəkdə Xocalı soyqırımını törədənlərin beynəlxalq hərbi tribunalda cəzalanmasını hüquqi baxımından əsaslandıraq.

Filmdə Xocalı soyqırımını törədən cinayətkarların cinayət əməlləri, qeyri-insani hərəkətləri çox dəqiqliklə öz əksini tapıb. İdeyanın düzgün qoyulması çəkiliş zamanı məhz bu soyqırımına məruz qalmış insanların və həmin gecə faciə ilə üzləşmiş insanların filmin qəhrəmanı kimi seçilməsi, iki ailənin timsalında bu faciənin dünya ictimaiyyətinə anladılması Xocalı soyqırımının dünyaya tanıdılmasında keyfiyyətcə yeni bir metodun tapılması deməkdir. Eyni zamanda, filmdə faciəni törədənlərin öz dilləri ilə soyqırımı törətdiklərini etiraf etmələri də təbliğat baxımından da bizə böyük üstünlük verir. Həmçinin, Xocalı soyqırımının beynəlxalq ictimaiyyət tərəfindən hüquqi nöqteyi-nəzərdən qiymətləndirilməsi üçün bizə yeni əsaslar yaratmış olur. Filmin sonunda bir erməni etiraf edir ki, bu, insanlığa qarşı törədilmiş bir cinayətdir və erməni olaraq, həmvətənlərinin həmin hərəkətlərdən utanır. Bu etiraf da ilk olmaqla əlbəttə ki, müsbət bir haldır. Filmdə erməni qeyd edir ki, mən əminəm ki, biz Xocalı soyqırımını törədənlərin cəza aldıqlarını yaşadığımız dövrdə görəcəyik.

O gün gələcək..!

Biz də əminik ki, görəcəyik. Amma bizim arzumuz bir az daha fərqlidir. Biz onların cəzalandırıldığını görənlərin sırasında deyil, biz onları cəzalandıranların sırasında olmalıyıq. Onları biz cəzalandıracağıq. Başqaları cəzalandırsa hesab edirik ki, biz Günayın səssizcə haray çəkən baxışları, eləcə də öz vicdanımız qarşısında daima özümüzü günahkar hiss edərik. Ona görə də biz əlbəttə ki, Xocalı soyqırımını törədənlərdən hesab soracağıq. Hesab edirəm ki, bu film Günayın səssiz harayını, Günayın baxışlarından

dalğa-dalğa içimizə axan və qəlbimizi parçalayan ədalət istəyinə verilən cavablardan biri idi. "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində həyata keçirilən bu layihə Günayın səssiz harayının film vasitəsilə dünyaya çatdırılması idi. Əminik ki, ölkəmizdə həyata keçirilən dövlət və ordu quruculuğu işi nəticə etibarı ilə torpaqlarımızın azad olunmasına, günahsız insanlarımızın qisasının alınmasına gətirib çıxaracaqdır. O gün gələcək, mütləq gələcək! O günü bizlərə hər gün biraz daha da yaxınlaşdıran addımlardan biri də Heydər Əliyev Fondunun çəkdirdiyi "Sonu olmayan dəhliz" filmidir...

Hikmət BABAOĞLU
"Yeni Azərbaycan"
14 mart 2012-ci il. №47.Səh. 4

***

"Xocalıya Ədalət!" kampaniyası çərçivəsində 100-dən çox məcburi köçkün ailə ərzaq ilə təmin olunmuşdur

"Xeyirxahlıq nümunəsini Leyla xanım Əliyevadan götürürük..."

İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun (İƏT GF) mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə elan edilmiş "Xocalıya Ədalət!" beynəlxalq məlumat və təşviqat kampaniyasının təşkilatçılığı, həmçinin İƏT Gənclər Forumu Avrasiya Regional Mərkəzinin (İƏT GF ARM) və Azərbaycan Gənc Sahibkarlar Şəbəkəsinin (AGSŞ) fəal iştirakı ilə müqəddəs Ramazan ayı münasibəti ilə "Qızılqum" sanatoriyasında məskunlaşmış Xocalıdan və digər işğal edilmiş bölgələrdən olan 100-dən çox məcburi köçkün ailəsinə bayram ərzaq bağlamaları paylanmışdır.

Ərzaq İƏT GF və AGSŞ-in təşəbbüsü ilə bir neçə gün əvvəl təşkil edilmiş xeyriyyə iftarı proqramından yığılan ianələrin hesabına alınmışdır.

Artıq üçüncü ildir ki, İƏT GF-nin təşəbbüsü ilə Ramazan ayında xeyriyyə iftarları təşkil olunur. İlk dəfə iki il əvvəl bu cür xeyriyyə iftarından toplanmış vəsait bir və ya hər iki valideynindən məhrum uşaqların olduğu ailələrə, keçən Ramazanda toplanan vəsaitlər Somalidə aclıq fəlakəti ilə üzləşmiş insanlar üçün ərzaq toplayan kampaniyaya bəxş edilmiş, builki isə aztəminatlı qaçqın və məcburi köçkün ailələrinə paylanmışdır.

Bu ildən həmin kampaniyaya AGSŞ də qoşulmuşdur. Qeyd edək ki, bu təşkilat təsis qurultayı keçən il Bakıda keçirilən və İƏT GF-nin təşəbbüsü ilə yaradılmış "İslam ölkələri Gənc Sahibkarlar Beynəlxalq Şəbəkəsinin" milli qurumu kimi bu il qeydiyyatdan keçərək fəaliyyətə başlamışdır.

İƏT GF ARM-in rəhbəri Elçin Əsgərov bildirmişdir: "Xeyriyyə iftarlarının təşkilinin əsas məqsədi imkansız ailələrə yardım və dəstək göstərilməsi kimi Azərbaycanda əvvəllər daim mövcud olmuş xeyriyyə ənənələrinin dirçəldilməsi, bu ənənələrə yerli iş adamlarının cəlb edilməsi, İslam dininin insansevərlik missiyasını praktik ənənəyə çevirmək təşəbbüsü olmuşdur. Bu cür xeyriyyə aksiyalarının gələcək illərdə də təşkil edilməsi nəzərdə tutulmuşdur".

GSŞ-nin prezidenti Xalıq İldırımzadə isə demişdir ki, başçılıq etdiyi qurum İƏT GF ilə əməkdaşlıq edərək xeyriyyə aksiyalarını təkcə Ramazan ayı və iftarlar ilə məhdudlaşdırmaq fikrində deyildir. Bu ildən yardım aksiyalarının daha geniş və əhatəli təşkil edilməsi, onlara daha çox qurumun, fiziki şəxslərin, iş adamlarının cəlb edilməsi, kimsəsiz uşaqlar, imkansız ailələr üçün milli layihələrin icrası da nəzərdə tutulmuşdur. "Xeyirxahlıq nümunəsini İƏT Gənc Sahibkarlar Şəbəkəsinin yaradılmasının təşəbbüskarı Leyla xanım Əliyevadan götürürük", - deyə X.İldırımzadə vurğulamışdır.

"Xalq qəzeti"
23 avqust 2012-ci il. N 186. Səh. 2

***

Vyana Forumunda "Xocalıya Ədalət!" kampaniyasının təqdimatı keçirilib

Avstriyanın paytaxtında keçirilən Avropa ölkələrində təhsil alan azərbaycanlı tələbələrin Vyana Forumu çərçivəsində oktyabrın 27-də "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyasının növbəti illər üçün fəaliyyət planı müzakirə edilib.

Əvvəlcə forumda iştirak edən 100-ə yaxın xaricdə təhsil alan azərbaycanlı tələbəyə və Azərbaycan Respublikasının Avropanın 30 ölkəsində akkreditə olunmuş səfirlərinə "Xocalıya Ədalət!" kampaniyasının fəaliyyəti və kampaniya çərçivəsində əldə olumuş uğurlar barədə məlumat verilib.

Daha sonar kampaniyanın gələcək strategiyası ilə bağlı təkliflər müzakirə edilib. Müzakirələr zamanı kampaniyanın Azərbaycan və xüsusilə Xocalı soyqırımı barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində rolunun əhəmiyyəti xüsusilə vurğulanıb, xaricdə təhsil alan hər bir tələbənin kampaniyanın işində yaxından iştirakının zəruriliyi qeyd edilib.

Xatırladaq ki, "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyası 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə irəli sürülüb. Kampaniya Xocalı soyqırımı və Qarabağ münaqişəsi barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində səmərəli fəaliyyət göstərir.

AzərTAc
27 oktyabr 2012-ci il

***

"Xocalıya Ədalət!" - İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət başçıları kampaniyasına tam dəstək vermişlər

Qahirə Kommünikesi Xocalı qətliamını soyqırımı aktı kimi tanımışdır

İslam Əməkdaşlıq Təşkilatının (İƏT) quruma üzv ölkələrin dövlət başçılarının iştirakı ilə fevralın 6-7-də Misirin paytaxtı Qahirədə keçirilən XII sessiyası Xocalı faciəsini soyqırımı aktı və insanlığa qarşı törədilmiş cinayət kimi tanımışdır.

Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏİKGF) Qahirə sammitində iştirak edən nümayəndəsi Elməddin Mehdiyevin AzərTAc-a verdiyi məlumata görə, həmin qərar zirvə görüşünün yekun Kommünikesində bütün üzv ölkələrin konsensusu əsasında əksini tapmışdır.

İKGF-nin mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyeva tərəfindən təsis edilmiş "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası Kommünikenin "Humanitar məsələlər" başlığı altında qəbul edilən bəndində 57 ölkənin dövlət başçıları tərəfindən alqışlanmışdır. Həmin bənddə "1992-ci ilin fevralında Ermənistan Respublikasının hərbi qüvvələri

tərəfindən Xocalıda törədilən qətliam soyqırımı və insanlığa qarşı cinayət" adlandırılır. Bu bəndə əsasən, üzv dövlətlər kampaniyanın işində fəal iştirak etməyə, milli və beynəlxalq səviyyədə bu soyqırımı aktının insanlığa qarşı cinayət kimi tanınmasına səy göstərməyə çağırılır.

DƏİKGF-nin İstanbul ofisinin əməkdaşı Elməddin Mehdiyev sənədin əhəmiyyətini vurğulayaraq bildirmişdir ki, 2008-ci ilin mayında DƏİKGF-nin mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyətə başlayan kampaniya Xocalıda baş verənlər haqqında dünya ictimaiyyətini məlumatlandırmaq və hadisəyə beynəlxalq ictimaiyyət tərəfindən hüquqi-siyasi və mənəvi qiymətin verilməsi məqsədini daşıyır. Bu baxımdan faciənin mühüm beynəlxalq sənədlərdə öz əksini tapması və tanınması kampaniyanın fəaliyyət istiqamətlərindən biri olmuşdur.

Bu çərçivədə DƏİKGF-nin apardığı iş nəticəsində Xocalı faciəsi 2012-ci ilin noyabrında Cibutidə keçirilən İƏT Xarici İşlər Nazirləri Şurasının 39-cu sessiyasında insanlığa qarşı cinayət və soyqırımı aktı kimi tanınmışdır. Bu ilin yanvarında Sudanın paytaxtı Xartumda keçirilən İƏT Parlamentlər İttifaqının 8-ci sessiyası da DƏİKGF-nin hazırlamış olduğu qətnamə əsasında faciəni insanlığa qarşı cinayət və soyqırımı aktı kimi tanımışdır.

Bütün bu işlərin məntiqi davamı olaraq Qahirə zirvə görüşündən əvvəl İKGF-nin baş katibi Elşad İsgəndərov təşkilata üzv ölkələrə kampaniyaya dəstək verilməsi ilə bağlı məktub göndərmiş və zirvə görüşündə İƏT-in ən ali orqanı səviyyəsində kampaniyanın apardığı haqq işə tam dəstəyini vermişdir.

E.Mehdiyev zirvə görüşündə qərarın qəbul olunması zamanı xüsusi fəallıq nümayiş etdirmiş Azərbaycan Xarici İşlər Nazirliyinin nümayəndə heyətinə, eləcə də bizə dəstək vermiş Türkiyə, Misir, Küveyt və Pakistan heyətlərinə təşəkkürünü bildirmişdir. Vurğulamışdır ki, bu qərar "Xocalıya Ədalət!" kampaniyası qarşısında qoyulan məqsədlərə tam nail olmaq üçün üzv ölkələrdə yeni imkanlar açmış və Xocalı soyqırımının tanınması məsələsini müsəlman dünyasının müştərək hədəfinə çevirmişdir.

"Xocalıya Ədalət!" beynəlxalq kampaniyası 2008-ci il mayın 8-də - Şuşanın işğalının ildönümü günü Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyeva tərəfindən irəli sürülmüşdür. Hazırda faciənin mənəvi və siyasi-hüquqi tanınmasına yönəlmiş bu kampaniya dünyanın 35-dən çox ölkəsində uğurla həyata keçirilir.

"İki sahil"
9 fevral 2013-cü il. №25. Səh. 30

***

İnsanlığa qarşı cinayət

Tarixin müxtəlif dönəmlərində ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqı növbəti belə faciə ilə 1992-ci ilin qarlı qışında Xocalıda üzləşdi. Sovet imperiyasının süqutu ilə yaranan mürəkkəb tarixi və ictimai-siyasi şəraitdə dövlət müstəqilliyini yenicə qazanan Azərbaycanın üzləşdiyi ərazi itkisi ilə yanaşı, əsrin ən dəhşətli faciələrindən birini yaşaması ölkənin yeni tarixinə qara hərflərlə yazıldı.

Heydər Əliyev Fondu Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılmasında mühüm işlər görür

Xocalı faciəsinin dünyada tanıdılması istiqamətində Prezident İlham Əliyevin rəhbərliyi altında ardıcıl və sistemli tədbirlər həyata keçirilir. Hər il Prezident Administrasiyası tərəfindən tədbirlər proqramı təsdiqlənir və icra edilir. Həmçinin Azərbaycanın yeni müstəqillk tarixinə qanla yazılmış Xocalı faciəsi hər zaman ölkəmizdə, dünyanın müxtəlif dövlətlərində yaşayan soydaşlarımız və digər dost xalqların nümayəndələri tərəfindən ürək ağrısı ilə xatırlanır. Faciənin hər ildönümündə dünyanın bir çox ölkəsində Xocalı qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, aksiyalar keçirilir, ermənilərin vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər nümayiş etdirilir. Nüfuzlu qəzetlərdə faciəyə həsr olunmuş məqalələr çap olunur, televiziya və radioda verilişlər səslənir.

Xocalı həqiqətlərinin dünyaya çatdırılması, bu həqiqətlərin beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində görülən işlərdə Heydər Əliyev Fondunun müstəsna rolu var. Məhz bu fondun dəstəyi ilə Xocalı faciəsinin ildönümü hər il dünyanın 100-dən artıq yerində qeyd olunur. Soyqırımına həsr olunmuş silsilə tədbirlər fondun təmin etdiyi təbliğat materialları əsasında həyata keçirilir. Artıq bu fondun səmərəli fəaliyyəti sayəsində əvvəlki illərdən fərqli olaraq indi dünya ölkələri erməni qəsbkarlarının insanlığa sığmayan qətlləri haqqında daha dolğun məlumatlandırılır. Bir sıra dövlətlər, beynəlxalq təşkilatlar, nüfuzlu qurumlar bəşəriyyətə qarşı törədilmiş bu cinayətin əsl mahiyyətini anlayaraq qətliamı kəskin şəkildə pisləyirlər. Fondun həyata keçirdiyi "Qarabağ həqiqətləri"

silsiləsi və işğal olunan ərazilərdə mədəni-tarixi abidələrin dağıdılması ilə bağlı ingilis dilində nəşr olunan kitab və bukletlər də xaricdə yayımlanır.

Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Təşkilatının (İKT) Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyətə başlamış "Xocalıya Ədalət!" kampaniyası ildən-ilə daha da genişlənməkdədir. Artıq bu aksiyaya dünyanın əksər ölkələrində yüzlərlə insan qoşulub.

Ümumiyyətlə, İKT-nin Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumu da Ermənistanın işğalçı mövqeyinin dünya miqyasında pislənməsi istiqamətində fəal iş aparır. Forum hələ 2007-ci ilin payızında Bakıda "Gənclər sivilizasiyaların alyansına tərəfdardır" təşəbbüsü çərçivəsində təsis edilmiş "Sivilizasiyaların alyansı" Beynəlxalq Gənclər Hərəkatına da müraciət edərək, ona tərəfdaşları olan nüfuzlu beynəlxalq təşkilatlar vasitəsilə Ermənistanın həm dinc azərbaycanlıların, həm də öz vətəndaşlarının qanını axıtmış sərsəm rejiminin fitnəkar hərəkətlərini dünya birliyinə çatdırmağı təklif edib. Təklifdə belə fikirlər də yer almışdı ki, Dağlıq Qarabağ münaqişəsinə potensial baxımdan sivilizasiyalararası münasibətlərin kəskinləşməsinə gətirib çıxara biləcək bir münaqişə kimi baxılsın. Ermənistanda hakimiyyətə gəlmiş S.Sarkisyanın bu cür siyasəti dünyanın enerji təhlükəsizliyi üçün mühüm rol oynayan Cənubi Qafqaz regionunda sabitliyin ciddi şəkildə pozulmasına gətirib çıxara bilər. Xatırladaq ki, onlarca ölkənin gənclər təşkilatlarını birləşdirən İKT-nin Gənclər Forumu İslam Konfransı Təşkilatının affilyasiya edilmiş təsisatının və BMT-nin "Sivilizasiyaların alyansı" qurumunun rəsmi tərəfdaşıdır.

İKT Gənclər Forumu idarə heyətinin 2008-ci ilin aprelində Küveytdə keçirilən 6-cı sessiyasında isə Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla Əliyeva forumun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məsələləri üzrə birinci baş əlaqələndiricisi seçildi. Bu, İKT Gənclər Forumunun Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına daha çox diqqət ayırmasında mühüm rol oynadı. Məhz bunun nəticəsi idi ki, həmin il mayın 17-də İstanbulda İKT Gənclər Forumunun və İSESCO-nun təşkilatçılığı ilə keçirilmiş İKT ekspertlərinin ikigünlük iclasında Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət - Qarabağa azadlıq" kampaniyası İKT ekspertləri tərəfindən dəstəkləndi və 26 fevral - Xocalı soyqırımı gününün İKT ölkələrində humanitar fəlakət qurbanlarının xatirəsini anma günü kimi qeyd olunması barədə qərar qəbul olundu. Bundan əlavə, Xocalı qətliamının islam ölkələrində dərsliklərə daxil

edilməsi ilə bağlı təklifin də İKT nazirlərinin toplantısına təqdim edilməsi razılaşdırıldı. İKT-nin üzvü olan ölkələrin xarici işlər nazirlərinin Kampalada (Uqanda) başa çatmış konfransında İKT-nin Gənclər Forumunun sivilizasiyaların alyansı üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın "Xocalıya ədalət - Qarabağa azadlıq" təşəbbüsü təsdiq edildi. Bu barədə İKT xarici işlər nazirlərinin konfransının 35-ci sessiyasında xüsusi qətnamə qəbul olundu. Qətnamənin xarici işlər nazirləri tərəfindən dəstəklənməsi dünyanın 57 ölkəsində müvafiq kampaniyanın həyata keçirilməsi üçün siyasi-hüquqi baza yaradılmasına gətirib çıxardı.

Qətnaməyə görə, İKT üzvü olan ölkələrdə humanitar faciələrin qurbanlarının xatirə günü təsis edilir. Qətnamədə Xocalı faciəsinin də daxil olduğu bu siyahı təsdiq edilməklə yanaşı, XX əsrdə müsəlman ölkələri xalqlarının məruz qaldıqları fəlakətlər, təcavüzlər və etnik təmizləmələr haqqında düzgün informasiyanın yayılması üçün kampaniyalar keçirilməsi nəzərdə tutulur.

2009-cu ilin mayında isə İKT Xarici İşlər Nazirləri Şurasının Dəməşqdə keçirilən 36-cı konfransında nazirlər Gənclər Forumu haqqında qəbul etdikləri yekun qətnamədə "Xocalıya ədalət - Qarabağa azadlıq" kampaniyasını tam dəstəkləyərək üzv ölkələri bu kampaniyada fəal iştiraka çağırmışlar.

2011-ci ilin əvvəllərində isə İslam Konfransı Təşkilatı Parlamentlər İttifaqı Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasına dəstək olaraq bəyannamə qəbul edib. İKT Parlamentlər İttifaqı Şurasının Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən 13-cü sessiyasında şuraya üzv dövlətlərin qəbul etdikləri Əbu-Dabi bəyannaməsində Xocalı faciəsini insanlığa qarşı törədilmiş kütləvi cinayət kimi tanımağa çağırılır. Bu, İKT GF-in təşəbbüsü ilə irəli sürülmüş "İKT GF və İKT Pİ arasında əməkdaşlıq haqqında" qətnamənin şura tərəfindən təsdiqlənməsi nəticəsində baş verib. Qətnamənin 3-cü bəndində qeyd edilib ki, İKT Pİ-yə üzv parlamentlər erməni silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının Xocalı şəhərində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş kütləvi qırğını insanlığa qarşı cinayət kimi tanıyır. Sənəddə üzv dövlətlər qeyd olunan cinayətə milli səviyyədə lazımi qiymətin verilməsinə çağrılırlar. İKT Pİ Şurası Leyla xanım Əliyevanın fəaliyyətini yüksək qiymətləndirib və bu rəy qətnamədə öz əksini tapıb.

Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və hadisənin dünya ictimaiyyəti tərəfindən hüquqi-siyasi və mənəvi qiymətləndirilməsinə nail olmağa yönəlmiş "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyası dünyanın bir çox ölkəsində yüzlərlə könüllü tərəfindən uğurla həyata keçirilib.

Ötən il fevralın 26-da Bakıda Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar keçirilən ümumxalq yürüşü də faciə qurbanlarının xatirəsini ehtiramla yad etmək və erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədi daşıyırdı. Ön sırada Prezident İlham Əliyevin olduğu və 100 minə yaxın insanın iştirak etdiyi bu yürüş göstərdi ki, Azərbaycan dövləti və xalqı Xocalı soyqırımı qurbanlarının qanını yerdə qoymayacaq. Həm qisas alınacaq, həm də düşmən beynəlxalq miqyasda tam ifşa olunana qədər bu istiqamətdə mükəmməl işlər həyata keçiriləcək.

Həyata keçirilən bu cür mühüm işlərin nəticəsidir ki, Pakistan və Meksika parlamentləri, ABŞ-ın ayrı-ayrı ştatları bu qırğının soyqırımı aktı kimi tanınması haqqında qətnamələr qəbul ediblər.

Artıq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində beynəlxalq hüquq və normaları, ədalət meyarı Azərbaycanın tərəfindədir və bunu dünya ictimaiyyəti də birmənalı olaraq qəbul edir. Beynəlxalq birliyin tamhüquqlu üzvü olan Azərbaycan hələlik münaqişənin sülh yolu ilə həlli üçün səylərin davam etdirilməsini zəruri saysa da, ərazi bütövlüyünün pozulması ilə uzun müddət barışmaq niyyətində deyil. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ermənistanın münaqişənin hamılıqla qəbul olunmuş norma və prinsiplərlə həllinə razılıq verməyəcəyi, təcavüzkarlıq siyasətini davam etdirəcəyi təqdirdə, Azərbaycanın öz torpaqlarını azad etmək üçün hərbi əməliyyatlara başlayacağını qətiyyətlə bəyan edib. Bu, Azərbaycan xalqının müstəsna hüququdur və onu heç bir dövlət bu yoldan çəkindirə bilməz. Heç kimdə şübhə yoxdur ki, Ermənistan tezliklə işğal etdiyi əraziləri azad edəcək, həmçinin xalqımıza qarşı ağır cinayətlərə yol verənlər, o cümlədən Xocalı faciəsini törədənlər bir gün ədalət məhkəməsi qarşısında dayanacaqlar.

"Azərbaycan"
22 fevral 2013-cü il. N 41. Səh. 4

* * *

Bakıda "Xocalıya Ədalət!" kampaniyası: siyasi-hüquqi qiymətləndirmədə beynəlxalq əməkdaşlıq və həmrəylik" mövzusunda beynəlxalq konfrans keçirilmişdir

Fevralın 23-də Lökbatan qəsəbəsindəki Heydər Əliyev Mərkəzində Qaradağ Rayon İcra Hakimiyyətinin (RİH) və Yeni Azərbaycan Partiyasının birgə təşkilatçılığı ilə "Xocalıya Ədalət!" kampaniyası: siyasi-hüquqi qiymətləndirmədə beynəlxalq əməkdaşlıq və həmrəylik" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

AzərTAc xəbər verir ki, konfransın iştirakçıları əvvəlcə mərkəzdə ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoymuş, Xocalı faciəsinə həsr edilmiş sərgi ilə tanış olmuşlar.

Konfransı açan Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov Xocalı faciəsinin Azərbaycan tarixində ən qanlı hadisələrdən biri olduğunu vurğulamış, erməni silahlı dəstələri tərəfindən xalqımıza qarşı törədilən, dünyada misli görünməmiş vəhşilik və qəddarlıqdan danışmışdır. Bildirilmişdir ki, bu qanlı soyqırımı nəticəsində bir gecədə Xocalıda günahsız 613 nəfərin, o cümlədən 106 qadın, 63 uşaq, 70 qocanın həyatına son qoyulmuş, 487 dinc sakin ağır yaralanaraq şikəst olmuş, 1275 nəfər əsir və girov götürülmüşdür. İtkin düşmüş 150 nəfərin taleyi indiyədək məlum deyildir.

Vurğulanmışdır ki, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Xocalı faciəsinə siyasi-hüquqi qiymət verilmişdir. Ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Xocalı soyqırımının tanınması istiqamətində məqsədyönlü iş aparır.

Sonra Heydər Əliyev Fondunun Xocalı soyqırımı ilə bağlı hazırladığı film nümayiş olunmuşdur.

Azərbaycan Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov çıxış edərək tədbirin əhəmiyyətini vurğulamışdır. Bildirilmişdir ki, XX əsrin ən qanlı faciələrindən olan Xocalı soyqırımını törədənlər layiq olduqları cəzanı almalıdırlar. Azərbaycanın Xocalı şəhərində erməni silahlı birləşmələrinin keçmiş sovet ordusunun Xankəndidəki 366-cı motoatıcı alayı ilə birgə törətdikləri cinayət bəşər tarixinin ən qanlı səhifələrindəndir. Xocalı faciəsi ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmağın hər bir Azərbaycan vətəndaşının borcu olduğunu deyən Əli Həsənov qeyd etmişdir ki, günahsız insanlara qarşı törədilmiş bu dəhşətli qırğına beynəlxalq aləm hələ də biganəlik nümayiş etdirir.

Ermənilərin xalqımıza qarşı törətdikləri vəhşiliklərdən danışan Əli Həsənov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində 20 faiz torpaqlarımızın işğal olunduğunu və bir milyondan artıq azərbaycanlının öz doğma yurdlarından zorla çıxarıldığını diqqətə çatdırmışdır. Qeyd edilmişdir ki, əhalisinin sayı təxminən yeddi min nəfər olan Xocalı Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin ən iri yaşayış məkanlarından biri idi. Dağlıq Qarabağla əlaqə mühüm strateji əhəmiyyətə malik Xocalı vasitəsilə qurulurdu.

Vurğulanmışdır ki, Xocalıya hücum zamanı dinc əhalinin çıxması üçün dəhliz yaradılmamışdı. Buna görə də şəhərdən çıxmaq istəyən əhalidən 613 nəfər qətlə yetirilmiş, qadınlara, körpələrə, yaşlılara belə, aman verilməmişdir. Soyqırımı qurbanları məhz azərbaycanlı, müsəlman olduqları üçün qətliama məruz qalmışlar.

Diqqətə çatdırılmışdır ki, işğal olunmuş torpaqlarımızda bütün yaşayış məskənləri, incəsənət, mədəniyyət nümunələri, təhsil və səhiyyə ocaqları, bir sözlə, bütün infrastruktur dağıdılaraq yerlə yeksan olunmuşdur. Ermənilər bütövlükdə Azərbaycana qarşı işğalçılıq müharibəsi həyata keçirərək əhalimizin 30 minə yaxınını qətlə yetirmiş, 50 minə yaxın vətəndaşımız yaralanaraq sağlamlığını itirmişdir. Beynəlxalq qurumlar Ermənistanı işğalçı dövlət adlandırmış və Azərbaycan torpaqlarını tərk etməsi tələbini irəli sürmüşlər. Buna baxmayaraq, Ermənistan münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qəbul etdikləri qətnamələrin heç birinə məhəl qoymur.

Əli Həsənov diqqətə çatdırmışdır ki, dünyanın bir neçə dövlətində Xocalı faciəsi soyqırımı kimi tanınmış və bununla bağlı qərarlar qəbul olunmuşdur. Kolumbiya, Meksika, Pakistan, Çexiya və Rumıniya parlamentlərində və müxtəlif strukturlarında Xocalı soyqırımına siyasi qiymət verilmişdir. ABŞ-ın altı ştatında artıq Xocalı soyqırımına siyasi qiymət verilmişdir. Hazırda bu faciənin dünya ictimaiyyətinə çatdırılması istiqamətində mühüm addımlar atılır. Bu istiqamətdə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, konsulluq və nümayəndəlikləri, eləcə də diaspor təşkilatlarımız tərəfindən Xocalı soyqırımı ilə bağlı tədbirlər həyata keçirilir, dünya ictimaiyyəti məlumatlandırılır. Əminəm ki, səylərimiz nəticəsiz qalmayacaq, Xocalı soyqırımına tezliklə bütün dünya ictimaiyyəti tərəfindən müvafiq qiymət veriləcəkdir.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov fevralın 25-dən 26-na keçən gecə Xocalıda ermənilərin

törətdikləri vəhşilikdən danışmışdır. Bu qətliamın ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları ilə əlaqəli olduğunu deyən Əli Əhmədov bildirmişdir ki, hazırda dünyada Azərbaycana qarşı böyük bir ədalətsizlik müşahidə olunur. Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində torpaqlarımızın işğal olunması və bir milyona yaxın soydaşımızın qaçqın, köçkün vəziyyətində yaşaması çox böyük ədalətsizlikdir. Lakin ən böyük ədalətsizlik ermənilərin bu hərəkətlərinə sivil bəşəriyyətin, dünya ictimaiyyətinin biganə yanaşaraq göz yummasıdır. Məhz bu cür haqsızlıqların qarşısının alınmaması Xocalı faciəsinə səbəb olmuşdur.

Dünyanın bir çox ölkələrində Xocalı soyqırımı ilə bağlı anım mərasimlərinin keçirildiyini qeyd edən Əli Əhmədov belə tədbirlərin təşkilinin önəmini vurğulamışdır. Bildirilmişdir ki, bu faciənin dünya ictimaiyyətinə çatdırılması istiqamətində mühüm addımlar atılır. Artıq bir sıra ölkələrdə Xocalı soyqırımı ilə bağlı qərarların qəbul olunması sevindirici haldır. Təəssüf ki, hələ də həmin soyqırımı cinayətini törədənlər cəzalarını almamış, beynəlxalq tribunala verilməmişlər.

Konfransda çıxış edən rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov Xocalıda ermənilərin törətdikləri qətliamlardan danışmış, bu faciənin dünya ictimaiyyəti tərəfindən tanınması istiqamətində görülən işlərin əhəmiyyətini vurğulamışdır. Qeyd edilmişdir ki, bu baxımdan Prezident İlham Əliyevin, Heydər Əliyev Fondunun və bir sıra qurumların gördüyü işlər təqdirəlayiqdir. Bunun nəticəsində artıq bir neçə ölkə bu qanlı Xocalı faciəsini insanlığa qarşı törədilən bir vəhşilik kimi qəbul etməkdədirlər. Bu yaxınlarda Ağ Evin rəsmi səhifəsində yerləşdirilən petisiyalar üçün qısa bir müddətdə tələb olunan səslərin toplanaraq Prezident Barak Obama Administrasiyasının diqqətinin bu məsələyə yönəldilməsi bu istiqamətdə atılan addımlardan biridir. Xocalı faciəsinin dünya tarixində qalması üçün əlimizdən gələni əsirgəməməliyik.

Vurğulanmışdır ki, XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəldilən ən ağır cinayətlərdən biridir.

Xocalı faciəsi ilə bağlı fikirlərini tədbir iştirakçıları ilə bölüşən Milli Məclisinin deputatı Mixail Zabelin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilər tərəfindən şəhərin dinc sakinlərinə qarşı törədilmiş soyqırımı ilə bağlı ətraflı məlumat vermiş, kütləvi qırğın hadisəsinin bəşər tarixində misli görünməmiş cinayət olduğunu diqqətə çatdırmışdır. Qeyd edilmişdir ki, bütün dünya ermənilərin bu vəhşiliyindən xəbər tutmalı və onu törədənlər

cəzalarını almalıdırlar. Xocalı faciəsi Azərbaycan xalqına qarşı misli görünməmiş kütləvi və amansız qırğın aktı və ermənilərin dövlət müstəqilliyimizi, ərazi bütövlüyümüzü hədəf götürmüş məqsədyönlü irticaçı siyasətinin növbəti qanlı səhifəsi olmaqla, insanlığa qarşı yönəlmiş irimiqyaslı cinayət idi.

Konfrans işini bölmə iclasları ilə davam etdirmişdir.

Tədbirdə Azərbaycanın dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, ictimaiyyətin nümayəndələri, eləcə də Türkiyədən, Bolqarıstandan, Ukraynadan, Moldovadan, Makedoniyadan və başqa ölkələrdən ekspertlər iştirak etmişlər.

Fevralın 24-də tədbir iştirakçıları Quba soyqırımı məzarlığını ziyarət edəcəklər və bununla da, konfrans işini başa çatdıracaqdır.

"Azərbaycan"
24 fevral 2013-cü il. N 43. Səh. 2

***

Romada "Xocalıya Ədalət!" kampaniyasının təqdimatı keçirilib

İtaliyanın paytaxtıı Roma şəhərində dünyanın 45 ölkəsində gəlmiş 350 azərbaycanlı gəncin, eləcə də İtaliyanın aparıcı gənclər təşkilatlarını təmsil edən 20 gənc liderin iştirakı ilə Xaricdə Təhsil Alan və Məzun Olmuş Azərbaycanlı Gənclərin (ASAİF) Beynəlxalq Forumu keçirilib.

Forum çərçivəsində Dialor və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumu (DƏ-İKGF) Layihələr Departamentinin rəhbəri Sevinc İskəndərova son illər ərzində "Xocalıya Ədalət!" beynəlxalq informasiya kampaniyası haqqında geniş təqdimatla çıxış edib.

İskəndərova öz çıxışında kampaniyanın əldə etdiyi uğurlardan bəhs edib, xüsusilə, xaricdə təhsil alan azərbaycanlı gənclərini Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və kampaniyanın işində fəal olmağa çağırıb.

"Xocalıya Ədalət!" beynəlxalq informasiya kampaniyası DƏ-İKGF Mədəniyyətlərarası Dialoq üzrə Koordinatoru Leyla Əliyeva tərəfindən irəli sürülüb, hazırda dünyanın 35-dən çox ölkəsindəfaciənin mənəvi və hüquqi-siyasi tanınmasına yönəldilib.

AzərTAc
1 mart 2013-cü il

***

İsraildə "Xocalıya Ədalət!" fotosərgisi açılıb

"Xocalıya Ədalət!" kampaniyası çərçivəsində 2013-cü ilin fevralında Tel-Əviv universitetinin Diaspora Muzeyində açılan fotosərgi İsrailin digər bir böyük şəhəri Netanyada davam edir.

APA-nın xəbərinə görə, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə aparılan "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində İsraildəki fotosərgilərin təşkilini Heydər Əliyevin Fondunun və "STMEGİ" Dağ Yəhudilərinin Beynəlxalq Təşkilatının dəstəyi ilə "İsrail-Azərbaycan" Beynəlxalq Assosiasiyası (Azİz) həyata keçirir.

Ermənilərin Azərbaycan xalqına qarşı törətdiyi soyqırımı əks etdirən sənədli fotolar Netanya şəhərinin mərkəzi kitabxanasında sərgilənir. Sərginin açılış mərasimində Netanya şəhərinin bələdiyyə üzvləri, ictimai təşkilatların rəhbərləri, müxtəlif cəmiyyətlərin təmsilçiləri, şəhər sakinləri və İsrail kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edib. Azİz-in idarə heyətinin üzvü, beynəlxalq münasibətlər üzrə ekspert Arye Qut tədbiri açaraq Dağlıq Qarabağ münaqişəsindən, 1992-ci il fevralın 25-dən 26-na keçən gecənin dəhşətlərindən danışıb. A.Qut bildirib ki, misli görünməmiş vəhşiliklə törədilmiş Xocalı soyqırımı XX əsrin ən dəhşətli faciələrindən biridir: "Bu fotosərgidə gordüyünüz sənədli şəkillər, dəhşətli dərəcədə dözülməz səhnələr Azərbaycan xalqının ürəyində sağalmaz yara açıb. Azərbaycanın ən qədim yaşayış məntəqələrindən biri - Xocalı şəhəri bir gecədə yerlə-yeksan edilərək yandırılıb, dinc əhalisi qətliam edilib. Erməni silahlı qüvvələri və muzdlu dəstələri şəhəri tərk etməyə macal tapmayan əhaliyə aman verməyib. Erməni silahlı birləşmələrinin vəhşiliyi nəticəsində 613 nəfər qətlə yetirilib, 487 nəfər əlil olub, 1275 dinc sakin – qocalar, uşaqlar, qadınlar əsir götürülərək görünməmiş işgəncələrə, təhqirlərə və həqarətə məruz qalıb".

A.Qut deyib ki, dünya bu cinayətin təkcə Azərbaycan xalqına deyil, həm də bütün bəşəriyyətə qarşı yönəldiyini bilməlidir: "Faktlar təsdiq edir ki, Xocalı şəhərinin dinc əhalisinin düşünülmüş şəkildə qətlə yetirilməsi bu insanlara təkcə azərbaycanlı olduqlarına görə kütləvi divan tutmaq məqsədi daşıyıb. Bu gün Ermənistanda yüksək vəzifə tutan insanlar - Seyran Ohanyan, Serj Sarkisyan, habelə, Robert Koçaryan və başqaları törədilmiş

soyqırımın günahkarları kimi beynəlxalq məhkəmə qarşısında cavab verməlidir. Cinayət cəzasız qalmamalı, dünya ictimaiyyəti hərbi-siyasi təcavüzə görə Ermənistana qarşı ittiham irəli sürməlidir. Beynəlxalq qurumlar, dünya ölkələrinin parlamentləri Ermənistanın Azərbaycan ərazisində törətdiyi Xocalı soyqırımına beynəlxalq hüquqi, siyasi qiymət verməlidir".

Tədbirdə çıxış edən Netanya şəhərinin bələdiyyə üzvü, vəkil Vaqif Əliyev qeyd edib ki, Xocalı qətliamı təkcə Azərbaycan xalqına qarşı deyil, bəşəriyyətə qarşı yönəldilib: "Xocalıdakı qanlı qırğınlara həsr olunmuş bu fotosərgi məni çox sarsıtdı. Bu soyqırımın hərbi cinayət və etnik təmizləmə olmasına heç bir şübhə yoxdur".

Netanya şəhəri bələdiyyə şurasının üzvü, "Bizim ev Netanya" təşkilatının sədri Boris Tsirulnik də səyyar fotosərgidəki şəkilləri görüncə sarsıldığını bildirib: "Biz yəhudilər 70 il öncə Holokostu yaşadıq və düşünürdük ki, heç kim daha belə qətliamları yaşamayacaq. Fəqət, 20 il öncə bu qanlı faciəni Xocalı sakinləri yaşadı. Azərbaycanlıları Holokost soyqırımını yaşamış yəhudilər hamıdan yaxşı anlaya bilər".

"İsrail-Azərbaycan" Assosiasiyasının baş direktoru Lev Spivak tədbirdə iştirak etdiklərinə görə hamıya minnətdarlığını bildirib. Spivak Azərbaycan icmasına daim diqqət yetirdiyinə və Xocalı qətliamı ilə bağlı çıxışına görə Netanya şəhər bələdiyyə şurasına təşəkkür edib.

"525-ci qəzet". *11 oktyabr 2013-cü il. №187. Səh. 2*

***

"Xocalıya Ədalət!" Beynəlxalq informasiya kampaniyası yeni aksiyaya başlayır

"Xocalıya Ədalət!" Beynəlxalq informasiya kampaniyası yeni aksiyaya başlayır.

Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumundan AzərTAc-a bildirmişlər ki, Xocalı soyqırımının növbəti ildönümü ərəfəsində bu faciə haqqında daha dolğun və əhatəli informasiyanın yeni, maraqlı və kreativ ideyalar vasitəsilə dünya ictimaiyyətinə çatdırılması üçün öz təkliflərini təqdim etmək istəyən hər bir kəs kampaniyaya müraciət etməyə dəvət olunur.

Aksiyanın məqsədi Xocalıda baş verənlərin beynəlxalq səviyyədə soyqırımı kimi tanıtdırılması yolunda Xocalı faciəsi haqqında məlumatların dünya ictimaiyyəti arasında daha geniş yayılması və akademik səviyyədə görüləcək işlərin miqyasının artırılmasından ibarətdir. Aksiyada həm Azərbaycan, həm də əcnəbi vətəndaşların iştirakı mümkündür.

Aksiyaya dəstək olmaq və iştirak etmək istəyən hər kəs öz təkliflər paketini elektron şəkildə bu il dekabrın 15-dək **jfk.campaign@gmail.com** ünvanına göndərə bilər. Layihələr "Xocalıya Ədalət!" kampaniyasının mütəxəssisləri tərəfindən qiymətləndiriləcək və yekunda seçilmiş təkliflərin təşəbbüskarları ilə görüş keçiriləcəkdir.

"Xocalıya Ədalət!" beynəlxalq informasiya kampaniyası 2008-ci il mayın 8-də - Şuşanın işğalının ildönümü günündə Heydər Əliyev Fondunun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyeva tərəfindən irəli sürülmüşdür. Hazırda faciənin mənəvi və siyasi-hüquqi tanınmasına yönəlmiş bu kampaniya dünyanın 35-dən çox ölkəsində fəaliyyətini uğurla həyata keçirir.

"Azərbaycan"
26 oktyabr 2013-cü il. № 236. Səh. 7

Avropa Parlamentində "Xocalıya Ədalət" kampaniyası çərçivəsində beynəlxalq konfrans keçirilmişdir

Avropa Parlamentinin Brüsseldəki mənzil-qərargahında "Etnik təmizləmə və insanlıq əleyhinə törədilmiş cinayətdən sonra cəzasızlıq və məsuliyyət" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Heydər Əliyev Fondunun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə keçirilən tədbirin məqsədi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması və Xocalı faciəsinə beynəlxalq birlik tərəfindən ədalətli siyasi-hüquqi qiymətin verilməsi olmuşdur.

DƏ-İKGF və Sosial Birlik Naminə Avropa Müsəlmanlarının Təşəbbüsü (EMİSCO) təşkilatı tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun dəstəyi ilə "Xocalıya Ədalət!" beynəlxalq

kampaniyası çərçivəsində keçirilən tədbirdə Avropa Parlamentinin deputatları, Belçikada akkreditə olunmuş xarici ölkələrin səfirləri, müxtəlif beynəlxalq qeyri-hökumət təşkilatlarının rəhbərləri və nümayəndələri iştirak etmişlər.

"Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının əlaqələndiricisi Sevinc İsgəndərovanın verdiyi məlumata görə, konfransın açılışında çıxış edən Avropa Parlamentinin Avstriyadan və Böyük Britaniyadan olan deputatları Karin Kadenbaç və Sajjad Karim bütün dövrlərdə və hər yerdə, xüsusilə də Xocalıda insanlığa qarşı törədilmiş qətliamların dünyada sülh və sabitliyin pozulmasına rəvac verdiyini bildirmiş, bu cür qırğınları bəşəriyyət əleyhinə cinayət kimi dəyərləndirərək pisləmişlər.

Azərbaycanın Belçikadakı səfiri Fuad İsgəndərov, İslam Əməkdaşlıq Təşkilatının Avropa İttifaqı üzrə nümayəndəsi Arif Məmmədov çıxış edərək Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğalı, bir milyondan artıq azərbaycanlının məcburi köçkünə çevrilməsi barədə məlumat vermiş, xüsusi amansızlıqla törədilmiş Xocalı soyqırımının günahkarlarının hələ də cəzasız qaldıqlarını diqqətə çatdırmışlar.

Açılış mərasimindən sonra beynəlxalq konfrans işini panel iclasla davam etdirmişdir.

İclasda Sevinc İsgəndərova tərəfindən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının təqdimatı olmuşdur.

Məruzəçilər Jan Mukimbiri, Mark Barvik, Özbil Bıyıklı, Vüsal Qurbanov və Amir Foratan insanlıq əleyhinə cinayətlərin bütün bəşəriyyətə zərər verdiyini bildirmiş, bu cinayətləri törədənlərin cəzalandırılmasının vacibliyini vurğulamışlar. Onlar Xocalıda törədilən qətliamı pisləmiş, bu faciənin soyqırımı aktı olduğunu bildirmiş və ona Ruandadakı, Srebrenitsa-dakı, Sudandakı soyqırımlar kimi beynəlxalq siyasi-hüquqi qiymətin verilməsinin vacibliyini vurğulamışlar. Müzakirələr zamanı səsləndirilmiş fikirlər sistemləşdirilərək birgə bəyannamə şəklində imzalanmış və beynəlxalq təşkilatlara təqdim edilmişdir.

Xatırladaq ki, "Xocalıya ədalət" Beynəlxalq Təbliğat və Məlumatlan-dırma kampaniyası 2009-cu ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, DƏ-İKGF-nin mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə başlanmışdır. Kampaniyanın fəaliyyəti nəticəsində Xocalı qətliamı İslam Əməkdaşlıq Təşkilatı Dövlət Başçıları Şurası və

Parlament Assambleyası, həmçinin Pakistan və Meksika parlamentləri tərəfindən soyqırımı aktı kimi tanınmışdır.

"Xalq qəzeti"
7 dekabr 2013-cü il. N 270. Səh. 3

* * *

Xocalı faciəsi beynəlxalq təşkilatlar tərəfindən tanınır

Leyla xanım Əliyeva: "Dünya Xocalı barədə bilməlidir ki, bu cür qətllər və cinayətlər gərək heç yerdə təkrar olunmasın"

Müasir dövrümüzdə dünya Azərbaycan reallıqlarına biganə qala bilmir. Həqiqətlər birmənalı, qeyd-şərtsiz qəbul olunur. Buna səbəb ölkəmizin beynəlxalq aləmdə nüfuzu ilə yanaşı, onun gerçəklikləri, inkişafı, sülhsevərliyi, humanizm prinsipləri ilə yaşaması, maddi-mənəvi dəyərləridir. Dünya ilə sərhədsiz münasibət quran Azərbaycan müxtəlif qitələrdə öz sözünü əməli çərçivəsində deyə bilir. İstənilən bir sahədəki nailiyyətlərimiz Azərbaycan məfhumunu dünyaya yaxınlaşdırıb. Bu baxımdan Heydər Əliyev Fondunun da həyata keçirdiyi layihələr geniş sferanın əhatəliyi və əhəmiyyəti baxımından önəmlidir. Sosial, mədəniyyət, səhiyyə, elm, təhsil və digər sahələrdə həyata keçirdiyi layihələr dünya ölkələrində ölkəmizin həqiqətlərini saysız insanlara təqdim edir. Belə ki, fondun dəstəyi ilə keçirilən tədbirlər, gerçəkləşən layihələr Qərb ilə Şərqin qovuşmasında bir körpü rolunu oynayır.

Heydər Əliyev Fondunun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində tədbirləri xüsusi qeyd etməliyik. 1992-ci ildə fevralın 26-na keçən gecə erməni silahlılarının Azərbaycanın Xocalı şəhərinə soxularaq 613 dinc insanı, 63 uşağı, 106 qadını və 70 qocanı qətlə yetirməsi dünya ictimaiyyətinə faktların dili ilə çatdırılır. Belə bir hadisəni törədənlərə dünya ictimaiyyəti tərəfindən hüquqi və mənəvi qiymət verilməlidir. "Dünya Xocalı barədə bilməlidir ki, bu cür qətllər və cinayətlər gərək heç yerdə təkrar olunmasın" - deyən Leyla Əliyeva 2008-ci il mayın 8-də "Xocalıya Ədalət!" beynəlxalq

kampaniyasının keçirilməsi təşəbbüsünü irəli sürüb. Kampaniyanın məqsədi bu faciə barədə dünya ictimaiyyətinə məlumat verməkdir. Artıq neçə illərdir ki, Avropanın, Asiyanın, Afrikanın, Şimali və Cənubi Amerikanın onlarla ölkəsində bu faciəyə həsr olunmuş tədbirlər keçirilir. Tədbirlər çərçivəsində müxtəlif ölkələrin parlamentləri və dövlət qurumları qarşısında etiraz aksiyaları, piketlər, habelə seminarlar, konfranslar təşkil olunur, kitablar nəşr edilir, filmlər çəkilir. "Xocalıya Ədalət!" kampaniyası sayəsində Xocalı faciəsi bir sıra beynəlxalq təşkilatlar tərəfindən tanınıb. Pakistan, Meksika, Çexiya, Kolumbiya, Bosniya və Herseqovina parlamentləri Xocalı faciəsini soyqırımı və Azərbaycana qarşı cinayət aktı kimi tanıyırlar. ABŞ-ın Vest Virciniya, Pensilvaniya, Missisipi, Meyn, Texas, Arkanzas, Oklahoma, Nyu-Meksiko, Tennesi ştatlarının qanunverici orqanlarında da Xocalı faciəsi ilə əlaqədar qətnamələr qəbul edilib.

Bu istiqamətdə tədbirlər davam etdirilir. Artıq dünyada insanlar həqiqəti yalandan ayırmağı bacarır. Xocalı kimi faciələrin dünyanın heç bir yerində təkrar olunmaması naminə Xocalı unudulmamalıdır. Xocalı faciəsi öz miqyasına və qəddarlığına görə bəşəriyyət əleyhinə ən ağır cinayətlərlə bir sıraya qoyula bilər. Bu günlərdə İslam Əməkdaşlıq Təşkilatı Xarici İşlər Nazirləri Şurası Xocalı qətliamını soyqırımı aktı kimi tanıyan növbəti sənəd qəbul edib. Belə ki, dekabrın 9-11-də Qvineyanın paytaxtı Konakridə Nazirlər Şurasının 40-cı sessiyasında belə bir qərar verilib. Qətnamə layihəsində Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya Ədalət!" kampaniyasına dair xüsusi bənd ayrılıb. Bu bənddə "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyası alqışlanır və üzv dövlətlər kampaniyanın işində fəal iştiraka və lazımi səylər göstərməyə çağırılır.

Onu da vurğulayım ki, Xocalı faciəsinin 22-ci ildönümü ərəfəsində Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" kampaniyası yeni aksiya keçirir. Aksiyanın məqsədi Xocalıda baş verənlərin beynəlxalq səviyyədə soyqırımı kimi tanıtdırılması yolunda Xocalı faciəsi haqqında məlumatların dünya ictimaiyyəti arasında daha geniş yayılması və akademik səviyyədə görüləcək işlərin miqyasının artırılmasından ibarətdir.

Xocalı soyqırımı təkcə Azərbaycanın deyil, bütün dünyanın, bəşəriyyətin faciəsidir. Xocalı soyqırımı bütün bəşəriyyətə qarşı törədilən cinayətdir. Həmin insanlar yalnız etnik mənsubiyyətlərinə - azərbaycanlı olduqlarına görə, amansızcasına öldürülüb, işgəncələrə məruz qalıb və şikəst

ediliblər. Xocalı soyqırımı dünya ictimaiyyətinə çatdırılmalı və bu istiqamətdə gerçəkləşən layihələrin coğrafi məkanı ilbəil genişlənməlidir.

Nəzakət Ələddinqızı
"Səs"
14 dekabr 2013-cü il. № 238. Səh. 4

* * *

"Xocalıya Ədalət!" çağırışı artıq beynəlxalq tələbə çevrilir

Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumu bu istiqamətdə
mühüm platformalardan biridir

Vüsal QURBANOV,
Dialoq və Əməkdaşlıq uğrunda
İslam Konfransı Gənclər Forumunun regional ofisinin əməkdaşı

Bu gün Azərbaycan dövlətinin həyata keçirdiyi xarici siyasətin ən mühüm məziyyətlərindən biri ölkəmizin qlobal informasiya məkanında mövqeyini möhkəmləndirməsi, xüsusən erməni diasporunun, Ermənistan dövlətinin və onun havadarlarının ölkəmizə qarşı apardığı informasiya müharibəsinin qarşısının alınması, hücumçu diplomatiya yolu ilə üstünlüyün əldə edilməsidir. Fəxarət hissi ilə deyə bilərik ki, Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində ötən 10 ildə ölkəmizin beynəlxalq nüfuzunun artması Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına əlavə imkanlar yaradıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətlərin dünyaya çatdırılması, Ermənistanın işğal siyasətinin ifşa edilməsi, işğalçı dövlətə beynəlxalq təzyiqin gücləndirilməsi cəmiyyətin hər bir üzvünün, o cümlədən biz gənclərin ümdə vəzifələrindən biridir. Hazırda Azərbaycanın fəal gəncləri öz məsuliyyətlərini dərindən dərk edir, malik olduqları imkanlar çərçivəsində bu məsələdə fəal vətəndaşlıq mövqeyi ortaya qoyurlar. 2004-cü ildə Azərbaycan gənclərinin təşəbbüsü ilə İslam Konfransı Təşkilatının 35 üzv ölkəsindən olan gənclər təşkilatlarının iştirakı ilə təsis

edilən və İKT yanında üzv-qurum statusuna malik olan Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumu (DƏ İKGF) bu vəzifələrin həyata keçirilməsində beynəlxalq status daşımaqla bizim ən mühüm platformalarımızdan biridir. Eyni zamanda, belə bir forum İKT üzv dövlətlərin gənclər təşkilatlarının fəaliyyətini əlaqələndirmək və İKT-nin gündəliyində duran məsələləri beynəlxalq təşkilat və forumlarda müdafiə etmək imkanını yaradıb.

Forum 2007-ci ilin payızında Bakıda "Gənclər sivilizasiyaların alyansına tərəfdardır" Təşəbbüsü çərçivəsində təsis edilmiş "Sivilizasiyaların alyansı" Beynəlxalq Gənclər Hərəkatına müraciət edərək ona tərəfdaşları olan nüfuzlu beynəlxalq təşkilatlar vasitəsilə Ermənistanın və Dağlıq Qarabağdakı separatçı rejimin fitnəkar hərəkətlərini dünya birliyinə çatdırmağı təklif edib. Təklifdə bu fikirlər yer alıb ki, Dağlıq Qarabağ münaqişəsinə potensial baxımdan sivilizasiyalararası münasibətlərin kəskinləşməsinə gətirib çıxara biləcək bir münaqişə kimi baxılsın. Təklifdə göstərilib ki, Ermənistanda hakimiyyətə gəlmiş S.Sarkisyanın bu cür siyasəti dünyanın enerji təhlükəsizliyi üçün mühüm rol oynayan Cənubi Qafqaz regionunda sabitliyin ciddi şəkildə pozulmasına gətirib çıxara bilər.

İKT Gənclər Forumu İdarə Heyətinin 2008-ci ilin aprelində Küveytdə keçirilən 6-cı sessiyasında isə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın forumun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məsələləri üzrə baş əlaqələndiricisi seçilməsi qurumun işinin canlandırılması ilə yanaşı, Azərbaycan həqiqətlərinin məhz gənclərimiz tərəfindən beynəlxalq ictimaiyyətə çatdırılması işinə mühüm təkan verdi, forumun Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına daha çox diqqət ayırmasında mühüm rol oynadı. Məhz bunun nəticəsində həmin il mayın 17-də İstanbulda İKT Gənclər Forumu və İSESCO-nun təşkilatçılığı ilə keçirilmiş iclasda Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət - Qarabağa azadlıq" kampaniyası hər kəs tərəfindən dəstəkləndi və 26 fevral - Xocalı soyqırımı gününün İKT ölkələrində humanitar fəlakətlər qurbanlarının xatirəsini anma günü kimi qeyd olunması barədə qərar qəbul edildi.

Bundan sonra İKT-nin üzvü olan ölkələrin Xarici İşlər Nazirlərinin Uqandada keçirilmiş konfransında "Xocalıya ədalət - Qarabağa azadlıq" təşəbbüsü təsdiq edildi. Bu barədə İKT xarici işlər nazirlərinin konfransının 35-ci sessiyasında xüsusi qətnamə qəbul olundu. 2009-cu ilin mayında İKT Xarici İşlər Nazirləri Şurasının Dəməşqdə keçən 36-cı konfransında nazirlər Gənclər Forumu haqqında qəbul etdikləri yekun qətnamədə "Xocalıya ədalət

- Qarabağa azadlıq" kampaniyasını tam dəstəkləyərək üzv ölkələri bu kampaniyada fəal iştiraka çağırıblar. 2011-ci ildə isə İKT Parlamentlər İttifaqı (İKT Pİ) tərəfindən bu kampaniyaya dəstək olaraq bəyannamə qəbul edilib. İKT Parlamentlər İttifaqı Şurasının Birləşmiş Ərəb Əmirliklərində keçirilən 13-cü sessiyasında şuraya üzv dövlətlərin qəbul etdikləri Əbu-Dabi bəyannaməsində Xocalı faciəsini insanlığa qarşı törədilmiş kütləvi cinayət kimi tanımağa çağırılır. Bu, İKT GF-nin təşəbbüsü ilə irəli sürülmüş "İKT GF və İKT Pİ arasında əməkdaşlıq haqqında" qətnamənin şura tərəfindən təsdiqlənməsi nəticəsində baş verib. Qətnamənin 3-cü bəndində qeyd edilib ki, İKT Pİ-yə üzv parlamentlər erməni silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının Xocalı şəhərində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş kütləvi qırğını insanlığa qarşı cinayət kimi tanıyır. Sənəddə üzv dövlətlər qeyd olunan cinayətə milli səviyyədə lazımi qiymətin verilməsinə çağırılırlar.

2012-ci il yanvarın 30-da İslam Əməkdaşlıq Təşkilatına (2011-ci ildə İKT-yə üzv olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının qərarı ilə təşkilatın adı dəyişdirilərək İslam Əməkdaşlıq Təşkilatı adlandırılıb) üzv dövlətlərin Parlament İttifaqının (İƏT Pİ) İndoneziyada keçirilən 7-ci sessiyasında "Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının təcavüzü" adlı ənənəvi olaraq qəbul edilən qətnaməyə İKGF-nin təşəbbüsü ilə xüsusi bənd əlavə edilib. Xocalı faciəsinə həsr edilən bənddə qeyd edilir ki, konfrans üzv ölkələrin parlamentlərini 2012-ci ildən etibarən 26 fevral 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən dinc azərbaycanlı əhaliyə qarşı həyata keçirilən və soyqırımı xarakteri daşıyan kütləvi qırğını müvafiq şəkildə tanımağa çağırır və Xocalı qırğınını törədənləri məsuliyyətə cəlb etməyi tələb edir.

2008-ci ildən bu vaxtadək 60-dək ölkədə azərbaycanlı gənclərin iştirakı ilə həyata keçirilən "Xocalıya Ədalət!" kampaniyası qarşıya qoyduğu məqsədə çatmaq yolunda mühüm uğurlara imza atıb. Təsadüfi deyil ki, artıq beynəlxalq ictimaiyyət erməni quldur birləşmələri tərəfindən Azərbaycan xalqının başına gətirilən bu soyqırıma münasibətini ortaya qoyur. Azərbaycan ərazilərinin işğaldan azad edilməsini tələb edən, Ermənistanı təcavüzkar dövlət kimi tanıyan çoxsaylı qətnamələr qəbul edən İƏT Xocalı soyqırımını tanıyan ilk beynəlxalq təşkilatdır. Pakistan, Meksika və Kolumbiya kimi dövlətlərin parlamentlərində Xocalı soyqırımı rəsmən tanınıb. Eyni zamanda, ABŞ-ın Xocalı soyqırımını tanıyan və bu cinayəti pisləyən ştatlarının sayı durmadan artmaqdadır. Çexiya Respublikası Avropa

İttifaqının üzvləri arasında Ermənistanı dinc Xocalı sakinlərinin qətliamına görə rəsmən pisləyən və bu hərəkətləri insanlığa qarşı cinayət kimi tanıyan ilk dövlətə çevrilib. Daha sonra isə Bosniya və Herseqovina parlamenti Xocalı faciəsini tanıyan qətnamə qəbul edib.

Prezident İlham Əliyev Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində deyib: "Azərbaycan dövləti erməni faşistlərinin törətdiyi Xocalı faciəsi haqqındakı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və beynəlxalq aləmdə soyqırımı kimi tanıdılması istiqamətində iyirmi ilə yaxındır ki, məqsədyönlü və sistemli iş aparır. Son illərdə "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyası çərçivəsində soydaşlarımızı təmsil edən çoxsaylı vətəndaş cəmiyyəti institutları, gənclər təşkilatları və diaspor qurumları bu sahədə hakimiyyət strukturları ilə birgə səmərəli fəaliyyət göstərirlər. Artıq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzü ifşa olunur və dünya ictimai fikri Xocalı həqiqətlərini qəbul etməyə başlayır".

Göründüyü kimi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin dünya ictimaiyyətinə çatdırılması, Xocalı soyqırımına lazımi hüquqi qiymətin verilməsi işində gənclərimiz mütəmadi olaraq fəaliyyət göstərir, DƏ İKGF kimi nüfuzlu platformadan uğurla yararlanmaqla bu istiqamətdə həyata keçirilən dövlət siyasətinə mühüm dəstək verirlər.

Bu il DƏ İKGF İstanbulda dünyanın 40 ölkəsindən 50-dən artıq universitetini təmsil edən 170-dən çox gənc və 10 minə yaxın tələbə arasında onlayn sorğu keçirib. Sorğuya əsasən, Azərbaycan Prezidenti İlham Əliyev İƏT coğrafiyasında "İlin dövlət başçısı" seçilib. Prezident İlham Əliyev "İlin dövlət başçısı" seçilərkən Azərbaycan Prezidentinin rəhbərliyi altında əldə olunmuş nailiyyətlər, o cümlədən Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi və bu mövqedən İƏT ölkələrinin maraqlarının müdafiəsi, Fələstin Dövlətinə Yardım üzrə İslam Maliyyə Təhlükəsizliyi Şəbəkəsinin təsis konfransı və Qüds şəhərinin inkişafına yardım üzrə donor konfransına 2013-cü ilin iyununda Bakıda ev sahibliyinin edilməsi, bütövlükdə Azərbaycanın İƏT-in islam həmrəyliyi istiqamətində fəaliyyətinə dəstəyi, həmçinin Cənubi Qafqazın ilk məscidi və islam sivilizasiyasının incisi sayılan Şamaxı məscidinin bərpası təşəbbüsləri nəzərə alınıb.

Bu gün Azərbaycanla İƏT arasında sıx əməkdaşlıq mövcuddur. Azərbaycanın haqq mövqeyini ifadə edən İƏT ölkələri həmçinin ölkəmizin BMT Təhlükəsizlik Şurasına seçilməsində də dəstək nümayiş etdiriblər. Prezident İlham Əliyevin uğurlu xarici siyasəti nəticəsində İƏT ölkələri ilə

münasibətlər getdikcə genişlənir. Bundan irəli gələrək İƏT Gənclər Forumunun iştirakçıları arasında da əlaqələr dərinləşir və inkişaf edərək yeni məzmun alır.

"Azərbaycan"
26 dekabr 2013-cü il. N 286. Səh. 5

* * *

Bəşəriyyət tarixində ən dəhşətli kütləvi terror - Xocalı soyqırımı

Leyla Əliyeva: "Bu gün dünyada özgə torpaqlarının işğalına, təcavüzə və kütləvi qətllərə yer yoxdur"

Xocalı faciəsi tarixin amansız soyqırımı kimi Azərbaycanın XX əsr salnaməsinin silinməz hissəsidir. Bu soyqırımı ifadəsinin arxasındakı böyük məna yükü onun bəşəriyyət üçün nə qədər amansız və təhlükəli olduğunu göstərir. Dünya tarixində az sayda yaşanılan soyqırımı insanlığa qarşı bir siyasət olduğundan, irqindən-dinindən asılı olmayaraq, birmənalı qəbul edilir və bunu törədənlərə yüzilliklərin məsafəsində lənətlər yağdırılıb, siyasi toqquşmalarda psixoloji anları yaşadanlar tarixin tribunasında cavab verməli olurlar. Qətiyyətlə demək olar ki, Xocalı faciəsi öz miqyasına və qəddarlığına görə bəşəriyyət əleyhinə olan ən ağır cinayətlərlə bir sıradadır. Xocalı faciəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən dəhşətli səhifəsini təşkil edir.

Dövlət səviyyəsində görülən tədbirlər, eləcə də mövcud hüquqi çərçivələr Xocalı şəhərində azərbaycanlılara qarşı törədilmiş soyqırımına görə cinayətkarların cəzalandırılmasının labüdlüyünə olan inamı gücləndirir.

Xocalı faciəsinə, Ermənistan-Azərbaycan münaqişəsinə dair informasiya materiallarının yayılmasında Heydər Əliyev Fondunun fəal mövqeyini də xüsusi qeyd etməliyik. Heydər Əliyev Fondunun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə irəli sürülən "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyası Xocalı soyqırımı və Qarabağ münaqişəsi barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində səmərəli fəaliyyətdədir. Belə ki, "Xocalıya Ədalət!" kampaniyası Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırmaq məqsədini qarşıya qoyduğundan hazırda bu kampaniya

əksər ölkələrdə keçirilir və onun nəticəsi olaraq İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqı Xocalıda törədilmiş vəhşilikləri soyqırımı kimi tanıyıb. Bundan əlavə, Xocalı dəhşətləri Meksika və Pakistan parlamentləri tərəfindən də soyqırımı kimi qəbul olunub. Faciənin mənəvi və siyasi-hüquqi cəhətdən tanınmasına yönəlmiş bu kampaniya uğurla həyata keçirilir.

"Xocalıya Ədalət!" kampaniyası çərçivəsində yaradılan sayt uğurlu layihələr sırasındadır ki, burada "Xocalı soyqırımı, Xocalıya ədalət" şüarı altında "Qarabağ", "Xocalı", "Fotoarxiv", "Videoarxiv" və "Müraciətlər" bölmələri var. "Qarabağ" bölməsində Qarabağın tarixi, ermənilərin Qarabağa köçürülməsi, erməni təcavüzü və sair materiallar yerləşdirilib. "Xocalı" bölməsində isə "Xocalının alınmasına səbəb olan amillər", "Şahidlərin gördükləri", "Azad dəhliz", "366-cı motoatıcı alayının rolu" və "Xocalıda soyqırımı qurbanları" adlı materiallar var. Bütün bu və ya digər materiallar, foto və videomateriallar Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında mühüm rola malikdir. Münaqişə nəticəsində 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarlarının Azərbaycanın Xocalı şəhərini zəbt edərək, şəhərin 613 dinc sakinini, o cümlədən 106 qadını, 63 uşağı və 70 nəfər ahıl insanı amansızlıqla qətlə yetirməsi müxtəlif vasitələrlə dünya ictimaiyyətinə ötürülür. Bildiyimiz kimi, Heydər Əliyev Fondunun dəstəyi ilə Böyük Britaniya, Litva, Estoniya və Finlandiya kinematoqrafçılarından ibarət yaradıcı qrupun çəkdiyi "Sonu olmayan dəhliz" adlı sənədli filmi 1992-ci ilin 26 fevral gecəsində baş vermiş insan faciəsindən, Xocalı soyqırımından bəhs edir. Bu film Xocalıda törədilən həmin dəhşətli hadisələri dəqiqliyi ilə və faktlarla əks etdirir. Böyük məharət və zəhmət hesabına ekranlaşdırılan filmdə müxtəlif insan taleləri ilə bərabər, SSRİ-nin süqutu dövrünə və Qarabağ münaqişəsinə dair şahidlərin xatirələri də öz əksini tapıb. Təbii ki, belə bir filmin avropalı kinematoqrafçıların əli ilə ərsəyə gəlməsi elə dünya ictimaiyyətini məlumatlandırmaq istiqamətində görülən işlərin davamıdır.

"Xocalıya Ədalət!" kampaniyası çərçivəsində Leyla Əliyevanın ideya müəllifi olduğu, ingilis və rus dillərində hazırlanan "Xocalı. 20 il, 10 hekayət. Bunlar həqiqət ola bilərdi..." kitabları bu dəhşətli faciədən söz açır. ABŞ-ın Vest Virciniya ştatında, İsrailin Afula şəhərində, Romada və onlarla belə xarici ölkələrdə "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində təşkil olunan müxtəlif məzmunlu tədbirlər Azərbaycan həqiqətləri ilə insanları üz-üzə qoyur. Leyla Əliyeva çıxışlarının birində belə deyir: "Biz çox ümid

edirik ki, dünya birliyi səsimizi eşidəcək və bu problem tezliklə öz ədalətli həllini tapacaqdır, çünki bu gün dünyada özgə torpaqlarının işğalına, təcavüzə və kütləvi qətllərə yer yoxdur. Mən inanıram ki, azərbaycanlılar lap yaxın gələcəkdə öz doğma torpaqlarına qayıdacaqlar".

Azərbaycan xalqı Xocalı faciəsinin 22-ci ildönümü ərəfəsindədir. Unudulmayan, ağrılı tariximizi qeyd edir və "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində bununla əlaqədar dünya ölkələrində müxtəlif tədbirlər keçirilir. Belə ki, İsrailin Lod şəhərində Heydər Əliyev Fondunun və şəhər bələdiyyəsinin dəstəyi ilə "İsrail-Azərbaycan" Beynəlxalq Assosiasiyası tərəfindən "Xocalıya Ədalət!" adlı fotosərgi erməni cəlladlarının soyuq qış gecəsində 613 nəfəri məhv etdikləri, çoxlarını görünməmiş işgəncələrə, təhqir və həqarətlərə məruz qoyduqları Xocalı qırğınının bütün bəşəriyyətə qarşı yönəlmiş cinayət olduğunu bir daha nümayiş etdirir. İsrail parlamentinin deputatı Şuli Mualem fotosərgidə gördüklərindən dəhşətə gəldiyini gizlədə bilməmişdir: "İnanıram ki, Xocalı ədaləti zəfər çalacaq, azərbaycanlı qaçqınların hüquqları bərpa olunacaq".

Tədbirdə Lod şəhərinin meri Yair Revivo isə çıxışında Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini pislədiyini bildirib. Bütün bunlar göstərir ki, Leyla xanım Əliyevanın rəhbərliyi ilə aparılan "Xocalıya Ədalət!" kampaniyası beynəlxalq aləmdə böyük rezonans doğurur. Bu gün artıq Xocalı soyqırımına beynəlxalq aləmdə hüquqi-siyasi qiymət verilir.

Nəzakət Ələddinqızı
"Səs"
7 fevral 2014-cü il. № 22. Səh. 5

***

Ukraynada "Xocalı ayı"

Ukrayna Azərbaycanlı Gənclər Birliyinin, Ümumukrayna Gənclər Assambleyasının və ASAİF-in "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində Ukraynada elan etdiyi "Xocalı ayı" ilə bağlı tədbirlərə Odessa şəhərindən start verilib.

UAGB-nin mətbuat xidmətindən AzərTac-a verilən məlumata görə, anım mərasimində iştirak edən azərbaycanlı və ukraynalı gənclər, diplomatlar və bir sıra xalqların diaspor təmsilçiləri öncə Xocalı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Anım mərasimində Ukrayna Azərbaycanlı Gənclər Birliyinin Odessa vilayət təşkilatının sədri Samirə Əliyeva çıxış edərək son iki əsrdə ermənilərin Azərbaycanda həyata keçirtdikləri işğalçılıq və soyqırım siyasətini tarixi faktlarla tədbir iştirakçılarının diqqətinə çatdırıb.

1992-ci il fevral ayının 26-da erməni silahlı dəstələrinin Xocalı şəhərində uşaqlara, qadınlara, qocalara və dinc əhaliyə qarşı həyata keçirdikləri misli görünməmiş vəhşiliklərdən söz açan Azərbaycanın Ukraynadakı səfirliyinin 1-ci katibi Sabir Rzayev, Ukrayna Azərbaycanlı Gənclər Birliyinin sədri Anar Tahirov və digər şəxslər aradan 22 il keçməsinə baxmayaraq dünya birliyinin və beynəlxalq təşkilatların Xocalı soyqırımına hüquqi-siyasi qiymət verməmələrini tarixi ədalətsizlik kimi səciyyələndiriblər.

Mərasimə qatılanlar Heydər Əliyev Fondu tərəfindən hazırlanmış "Xocalı harayı" filminə baxmaqla ermənilərin 22 il bundan öncə azərbaycanlılara qarşı həyata keçirdikləri bəşəri cinayətlə tanış olublar.

"Xocalı faciəsini törədənlər beynəlxalq məhkəmə qarşısında cavab verməlidir". Filmə baxdıqdan sonra bu müraciətlə çıxış edən Odessa meri yanında Gənclər Təşkilatının sədri İnna Tımçik və digər ukraynalı gənclər indiyədək belə bəşəri cinayətə göz yuman dünya birliyini haqqa və ədalətə səsləyərək qeyd ediblər ki, Xocalı faciəsi dünyada baş verən ən amansız qətliamlardan biridir: "Biz təəssüflənirik ki, indiyədək beynəlxalq təşkilatlar belə bəşəri cinayətə hüquqi-siyasi qiymət verməyib. Əminik ki, gec-tez dünya birliyi Xocalı faciəsini soyqırım aktı kimi tanımaq məcburiyyətində qalacaq".

Tədbirdə Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilməsi ilə bağlı beynəlxalq təşkilatlara müraciət qəbul olunub.

"İki sahil"
15 fevral 2014-cü il. № 28. Səh. 6

***

Leyla Əliyeva: «Xocalıya Ədalət!» (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model)» ikicildliyi çapdan çıxmışdır

Əsrlər boyu xarici istilalara, qəsblərə məruz qalmış xalqımızın qan yaddaşında Xocalı faciəsi - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin davam etdiyi son 26 ildə ermənilər tərəfindən törədilmiş ən dəhşətli soyqırımı aktlarından biri dərin iz qoymuşdur.

Ermənistanın bu gün də davam edən hərbi təcavüzü ilə üz-üzə qalmış Azərbaycan ermənilər tərəfindən uydurulmuş "Dağlıq Qarabağ problemi", o cümlədən XX əsr dünya tarixinin ən qəddar soyqırımı aktı olan Xocalı faciəsi haqqında tarixi həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində bünövrəsini ümummilli lider Heydər Əliyevin qoyduğu siyasi kurs bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Heydər Əliyev Fondunun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci il mayın 8-də elan edilən "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyası da bu siyasi kursun həyata keçirilməsində, xüsusilə Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında uzaqgörənliklə düşünülmüş uğurlu bir strategiyadır. "Xocalıya Ədalət!" əslində "Azərbaycana ədalət!" deməkdir. Bu kampaniyaya qoşulmaq isə vətənini, xalqını sevən hər bir azərbaycanlının borcudur.

Yazıçı-publisist, əməkdar jurnalist Vasif Səmədov və tanınmış alim Rövşən Vəlizadənin bu yaxınlarda çapdan çıxmış "Leyla Əliyeva: "Xocalıya Ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model)" ikicildliyi müəlliflərin gərgin araşdırmaları, yorulmadan apardıqları tədqiqatlar nəticəsində ərsəyə gələn dəyərli mənbədir.

AzərTAc xəbər verir ki, "CBS Polyqrafic production" nəşriyyatında nəfis tərtibatla çapdan çıxmış bu kitablar hazırlanarkən Respublika Baş Prokurorluğunun, Milli Təhlükəsizlik və Daxili İşlər Nazirliklərinin birgə yaratdıqları istintaq qrupunun materiallarından və AzərTAc-ın fotoarxivindəki şəkillərdən istifadə edilmişdir.

Kitablar "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyasının 5 illiyi münasibətilə nəşr olunmuşdur.

Bu nəşrlərdə beynəlxalq terrorizmin bir qolu olan erməni terror təşkilatlarının Azərbaycan torpaqlarında tarixin müxtəlif dövrlərində, xüsusilə ötən əsrin son illərində Ermənistan silahlı birləşmələrinin və onların havadarlarının köməyi ilə işğal olunmuş Dağlıq Qarabağ ərazisində, o cümlədən Xocalı şəhərində törətdikləri kütləvi qırğından, vəhşilikdən, soyqırımıdan bəhs edilir.

İkicildlikdə "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində beynəlxalq aləmdə həyata keçirilən təqdirəlayiq tədbirlərdən söhbət açılır. Zəngin fakt və sənədlərlə, sübutlarla əhatələnmiş bu kitab dünyada terrora və zülmə,

işgəncəyə və amansız qətliamlara qarşı mübarizədə tarixi həqiqətlərin önəmli bir toplusu kimi oxucuların diqqət mərkəzində olacaqdır.

Müəlliflərin araşdırmalarına xüsusi rəyin və nəşrə "Ön söz"ün müəllifi Milli Məclisin deputatı, Avropa Şurası Parlament Assambleyasındakı Azərbaycan nümayəndə heyətinin üzvü, AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor Rafael Hüseynovdur.

Rafael Hüseynov ikicildliyə "Ön söz"ündə qeyd etmişdir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın dünya boyu gerçəkləşdirdiyi və çox uğurlu bəhrələr verən "Xocalıya Ədalət!" hərəkatı həm içdən gələn vətənpərvərlik duyğularının hökmü, həm də damarlarında axan qanın diktəsi kimi qavranılmalıdır. Xocalı faciəsini dünya boyunca bir soyqırımı olaraq tanıtmaq həqiqətdə dünya erməniçiliyinin vətənimizə və millətimizə qarşı on illər boyu apardığı soyqırımı siyasətinin anatomiyasını açmaqdır. Kitablarda ortaya qoyulan bir-birindən ifşaedici, danılmaz sübutlar, məntiqi dəlillər bir daha isbat edir ki, Xocalı faciəsi ermənilərin və erməniçiliyin Azərbaycan xalqına qarşı sistemli soyqırımı siyasətinin bariz ifadəsi olmaqla yanaşı, beynəlxalq terrorizmin insanlığa qarşı indiyədək törədilmiş cinayətlərinin ən ağırlarındandır. Düşmənlərimizi bir qədər də yaxşı tanımağımız, dünyanın da bizim hansı düşmənlə üzbəüz olduğumuzu bir qədər də dəqiq bilməsi üçün bu kitabın cildləri ən mötəbər körpülər-dəndir.

AMEA-nın İnsan Hüquqları İnstitutunun Emi Şurasının qərarı ilə nəşr edilmiş monoqrafiyanın baş elmi məsləhətçisi Milli Məclisin deputatı, bu elmi müəssisənin direktoru, hüquq üzrə fəlsəfə doktoru, professor Aytən Mustafayevadır. Onun fikrincə, tədqiq olunan mövzunun yaddaşlardan silinməyən uzun bir tarixi olsa da, bu mövzuya yanaşma tərzi, onun ideyası yenidir. Artıq dünyada böyük nüfuz qazanmış Heydər Əliyev Fondunun vitse-prezidenti, fondun Rusiya Federasiyasındakı nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın "Xocalıya Ədalət!" çağırışına münasibət əvvəlki illərdən tam fərqlidir.

Dünyanın terror tarixində qeyd olunur ki, beynəlxalq terrora qarşı cəmi yeddi strategiya mövcuddur. Heç kəs şübhə etməsin ki, yaşadığımız yüzillikdə yaranmış bu strategiya tarixdə məhz "Leyla Əliyeva strategiyası" kimi qalacaq, təhlil olunacaqdır.

Müəlliflərin məqsədləri Xocalı faciəsinin əsl mahiyyətini, cinayətkarları və onların havadarlarını dünyaya bəyan etmək, ikili standart mövqeyində dayanmış ayrı-ayrı dövlətləri, bəzi beynəlxalq təşkilatları haqqın səsinə səs

verməyə çağırmaq, onları beynəlxalq qurumların bu faciə ilə əlaqədar və eləcə də insan hüquqları və azadlıqları haqqında qəbul edilmiş qərarlarına, müraciətlərinə hörmətlə yanaşmağa çağırmaq, həm beynəlxalq hüquq normaları çərçivəsində, həm də əxlaqlı, saf siyasi yanaşma yolu ilə Xocalı faciəsinə hüquqi və siyasi qiymət vermək istəyidir.

Kitabın mahiyyəti göstərir ki, "Xocalıya Ədalət!" çağırışı beynəlxalq terrora qarşı mübarizədə humanizm dəyərləri üzərində köklənmiş güclü və yeni strateji modeldir. Şübhəsiz, təqdim edilən kitabları oxuyan və obyektiv təhlil edən hər kəs bu modelin böyüklüyünü və əhəmiyyətini dərk edəcək və gələcək mübarizəmiz, qələbəmiz üçün lazımi nəticələr çıxaracaqdır.

Ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın, fondun vitse-prezidenti Leyla Əliyevanın Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində qiymətli kəlamlarının da yer aldığı bu kitab mövzu ilə bağlı çoxsaylı materialları əhatə edir.

Müəlliflər nəşrin birinci cildində yer almış "Xocalıya Ədalət!" yeni yüzilliyin strateji modeli kimi... və ya "Xocalıya Ədalət!" Azərbaycanlılar üçün yeni ideologiya" başlıqlı yazıda qeyd edirlər ki, ideoloji çağırış çərçivəsində biz beynəlxalq terror təşkilatlarının, erməni silahlı birləşmələrinin Dağlıq Qarabağı necə dağıdıb viran qoyduqlarını təhlil etməyi bacarmalıyıq. Belə bir yanaşma metodunu verən "Xocalıya Ədalət!" çağırışı imkan yaradır ki, terrora məruz qalmış insanlarımız və ayrı-ayrı yaşayış məntəqələrimiz haqqında ictimaiyyəti, eləcə də bəşəriyyəti, demokratik institutları məlumatlandıraq. "Xocalıya Ədalət!"in siyasi uğurlarından biri də budur.

Qeyd edilir ki, strateji model olaraq "Xocalıya Ədalət!" çağırışı düzgün seçilmişdir. Böyük əzmkarlıqla yuxusuz gecələr, gərgin zəhmət hesabına dünya miqyasında hazırlanıb keçirilən tədbirlər, görülən işlər, cəsarətli gedişlər, düşünülmüş siyasi kurs öz bəhrəsini vermişdir. Artıq erməni təbliğat maşını "Xocalıya Ədalət!"in qarşısında duruş gətirə bilmir.

Kitabın ulu öndər Heydər Əliyevin 1994-cü il sentyabrın 20-də BMT Baş Məclisinin 49-cu sessiyasındakı çıxışı ilə başlanan ikinci cildində "Xocalıya Ədalət!" çağırışının tarixi zərurətdən yaranması, bu müraciətin siyasi coğrafiyası, onda mədəni irsin qorunması məsələləri araşdırılmış, bu beynəlxalq kampaniya beynəlxalq terrora və müharibəyə qarşı qəhrəmanlıq abidəsi kimi qiymətləndirilmişdir. Qeyd olunmuşdur ki, səhifələrə

köçürülmüş tariximizin qan yaddaşını artıq vərəqləmək vaxtıdır. Bu gün bəşəriyyəti terror nəticəsində zülm və işgəncələrdən əziyyət çəkən milyonlarla insanın taleyi uğrunda mübarizəyə çağıran "Xocalıya Ədalət!" adlı mənəvi bir cəbhə mövcuddur. Nə qədər ki terror və amansızlıq, müharibə var, bu ideoloji cəbhə də həmişə yaşayacaqdır.

İkinci cilddə Xocalı soyqırımı qurbanlarının, ümumilikdə həmçinin azyaşlı, yetkinlik yaşına çatmayanların, rayonun qəsəbə və kəndləri üzrə qətlə yetirilənlərin, diri-diri yandırılanların, faciədən sonra indiyədək itkin düşənlərin və digər istiqamətlərdə konkret siyahılar da yer almışdır.

Kitablarda Azərbaycan, ingilis, türk və digər dillərdən olmaqla yüzlərlə mənbədən, eləcə də internet resursları da daxil olmaqla ümumilikdə 350-dək mənbədən istifadə edilmişdir.

Bəli, bu gün "Xocalıya Ədalət!" dünyanı gəzir, beynəlxalq kürsülərdən insanları haqsızlığa, zülmə və zülmkarlığa, terrorçuluğa... qarşı mübarizəyə çağırır.

Güclü, təkzibedilməz məntiqi fakt və sübutlar, dəlillər və sənədlər əsasında ərsəyə gəlmiş bu kitablar müvafiq mövzuda elmi-tədqiqat aparan alimlərimiz, yazıçı və jurnalistlərimiz, siyasətçilərimiz üçün çox zəngin materiallar toplusudur.

Əminik ki, hər kəs bu nəşrlərdən bəhrələnən "Xocalıya Ədalət!" kampaniyasının fəal iştirakçısına çevriləcək, ədalətin təntənəsinə, zəfər çalmasına öz töhfəsini verəcəkdir.

*"**Azərbaycan**"*
18 fevral 2014-cü il. N 35. Səh. 7

* * *

Xocalı həqiqətləri Qərbi Balkanlarda geniş yayılır

Yadımdadır, mən Qərbi Balkan bölgəsinə yeni gələndə burada insanlar Azərbaycanın tarixi, mədəniyyəti, əldə etdiyi uğurlar barədə çox az məlumata malik idilər. Həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, işğal olunmuş ərazilərimizdə ermənilərin apardıqları etnik təmizləmə nəticəsində yurd-yuvalarından didərgin düşmüş həmvətənlərimiz barədə, demək olar ki, heç nə bilmirdilər.

Bəşəriyyətin yaşadığı ən qanlı faciələrindən biri - Xocalı soyqırımının ildönümü yaxınlaşdıqca dünyanın müxtəlif ölkələrində erməni hərbi təcavüzünün ağır nəticələri, törədilmiş soyqırımı ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması naminə təşəbbüsçüsü Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva olan "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində Azərbaycanın xaricdəki diplomatik nümayəndəliklərinin, eləcə də diaspor və azərbaycansevərlərin bilavasitə iştirakı ilə geniş-miqyaslı tədbirlər həyata keçirilir. Bu baxımdan Azərbaycan Respublikasının Bosniya və Herseqovinadakı diplomatik missiyası da istisna təşkil etmir.

Son dövrdə bütün istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə Azərbaycan-Bosniya əməkdaşlığı dinamik inkişaf edir. Xüsusilə, iki ölkə arasında mədəni əlaqələr zəngin tarixə malikdir. Bosniya-nın paytaxtı Sarayevodakı Qazi Xosrov bəy kitabxanasında dahi Azərbaycan şairləri Nizami Gəncəvinin və Məhəmməd Füzulinin əsərlərinin əlyazmalarının aşkarlanması buna əyani sübutdur. İkitərəfli dostluq əlaqələrinin göstəricisi olaraq 2011-ci ildə Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə Azərbaycan dövlətinin maddi dəstəyi hesabına Sarayevo şəhərindəki Bakı küçəsində yenidənqurma və bərpa işləri aparılmış, həmin il noyabrın 8-də küçənin rəsmi açılış mərasimi keçirilmişdir.

Eləcə də, son vaxtlar iki ölkə rəsmilərinin qarşılıqlı səfərləri həyata keçirilmiş, o cümlədən 2012-ci ilin noyabrın 5-6-da Baş Nazirin birinci müavini Yaqub Eyyubov, 2013-cü il fevralın 18-19-da isə İqtisadi İnkişaf Naziri Şahin Mustafayev və Xarici İşlər Nazirinin müavini Xələf Xələfovun daxil olduğu Azərbaycan nümayəndə heyəti Bosniyada səfərdə olmuşlar.

Azərbaycan və Bosniya xalqlarının taleyində bənzər cəhətlərdən biri də hər iki xalqın amansız təcavüzə məruz qalması, bəşəriyyətə qarşı qəsd kimi dəyərləndirilən faciələr - Xocalı və Srebrenitsa soyqırımlarını yaşamasıdır. Xocalı şəhidlərinin xatirəsinə ehtiram əlaməti olaraq memorial kompleksin məhz Bosniyanın paytaxtında ucaldılması ciddi tarixi, siyasi və mənəvi əhəmiyyət kəsb edir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xocalını işğal etmiş, mühasirəyə düşən şəhərdə qalmış təqribən 2500 sakindən 63-ü uşaq, 106-sı qadın, 70-i ahıl və qoca olmaqla 613-ü amnsızlıqla qətlə yetirilmişdir. Soyqırımı nəticəsində 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmiş,

76-ı uşaq olmaqla 487 nəfər yaralanmış, 1275 nəfər əsir, 150 nəfər itkin düşmüşdür.

2012-ci il fevralın 24-də Sarayevo şəhərində, Dobrinya çayının sahilində Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı ilə Azərbaycan-Bosniya dostluq parkı salınmış, parkda Xocalı və Srebrenitsa soyqırımlarını əks etdirən memorial kompleks yaradılmışdır. Abidənin üzərində "Xocalı soyqırımı qurbanlarının xatirəsinə (Azərbaycan, 25-26 fevral 1992-ci il)" sözləri həkk edilmişdir. Hazırda park və abidə paytaxt sakinlərinin və şəhərin qonaqlarının ziyarətgahına çevrilmişdir.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva açılış mərasimində iştirak etmiş və nitq söyləmişdir. Tədbirdə Bosniya və Herseqovina Rəyasət Heyətinin üzvü Bəkir İzzətbeqoviç, nəqliyyat və rabitə naziri Dəmir Haciç, parlamentin üzvləri, həmçinin ölkənin tanınmış ictimai, dövlət və din xadimləri, ziyalıları iştirak etmişlər. Yeri gəlmişkən, Bosniya və Herseqovina Xocalıda soyqırımı baş verəndən bəri dünyada bu faciənin qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq bütöv memorial kompleksin yaradıldığı ilk ölkədir.

Prezident İlham Əliyevin Balkanlarda müəyyənləşdirdiyi uğurlu xarici siyasət kursunun əməli nəticəsi olaraq Bosniya və Herseqovina Parlament Məclisi Xalqlar Palatasının 2013-cü il fevralın 26-da keçirilmiş iclasında mütləq səs çoxluğu ilə Ermənistanın Azərbaycana qarşı təcavüzünə və Xocalı soyqırımına dair rəsmi sənəd - "Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün tanınması və hörmət olunması" barədə qətnamə qəbul olunmuşdur.

Bosniyada mövcud mürəkkəb ictimai-siyasi şəraitə, çoxsaylı çətinliklərə, təzyiq və maneələrə baxmayaraq, Azərbaycan dövləti tərəfindən qarşıya qoyulmuş vacib məsələnin - Xocalı soyqırımının tanıdılması hər bir azərbaycanlının, "Xocalıya Ədalət!" kampaniyasının uğuru, şəxsən Prezident İlham Əliyevin əməli fəaliyyətinin məntiqi nəticəsi kimi nəzərdən keçirilməlidir. Azərbaycan və Bosniya xalqları arasında dostluq münasibətlərinin daha da inkişaf etdirilməsi, təbliğat işində Xocalı faciəsinə beynəlxalq ictimaiyyət, eləcə də keçmiş Yuqoslaviya üzrə Haaqa Tribunalı tərəfindən soyqırımı kimi rəsmən tanınan Srebrenitsa faciəsi ilə birgə baxılması misilsiz əhəmiyyət kəsb edir.

Avropanın mərkəzində yerləşən, 1992-1995-ci illərdə qanlı müharibəyə səhnə olmuş, Srebrenitsa soyqırımını yaşamış ölkə olaraq Bosniyada yerli parlamentin Xocalı soyqırımını tanıyan sənəd qəbul etməsi, şübhəsiz,

dünyada və Avropada ictimai rəyin formalaşmasında və digər ölkələrin parlamentləri tərəfindən bu cür addımların atılmasında mühüm rol oynayacaqdır.

Şahin HACIYEV, *Belqrad Universitetinin tələbəsi*
"Azərbaycan"
18 fevral 2014-cü il. N 35. Səh. 6

* * *

Xocalısız 22 il

Fəridə Şəmsi
Azərbaycan İstiqlal Muzeyinin direktoru

Düz 22 il əvvəl - 1992-ci il fevralın 26-da erməni işğalçıları xalqımıza qarşı misli görünməmiş cinayətə əl atdılar.

Soyuq qış günündə Xocalıya hücum edən ermənilər əliyalın, heç bir silah-sursatı olmayan əhaliyə divan tutdular. Yüzlərlə soydaşımız - qadınlar, qocalar, uşaqlar amansızcasına qətlə yetirildilər. Xocalının üç min nəfərlik əhalisinin beşdə biri - 613 nəfər güllələndi. Onlardan 106 nəfəri qadın, 59 nəfəri 18 yaşına qədər uşaq və yeniyetmə, 70 nəfəri isə qocalar idi. Erməni cəlladlar 8 ailəni son nəfərinə qədər qətlə yetirdilər. Xocalıda baş verən qətliam nəticəsində 25 azyaşlı uşaq hər iki valideynini itirdi. Bu faciə 230 nəfər uşağın valideynlərindən birini itirməsinə səbəb oldu. Mənfur düşmənlər Xocalını işğal edən zaman şəhər sakinlərindən 487 nəfər əlil oldular. İtkin düşən 115 nəfərin taleyindən isə hələ də heç bir xəbər yoxdur.

Tarix heç nəyi unutmur və 22 il keçməsinə baxmayaraq, bu gün bütün dünya bu faciədən danışır. Hər il olduğu kimi, bu il də Xocalı faciəsinin ildönümü ilə bağlı təkcə respublikamızın şəhər və rayonlarında deyil, xarici ölkələrdə də sərgilər, konfranslar, dinc aksiyalar təşkil olunur.

Xocalı soyqırımı "Beynəlxalq Müharibə qurbanları Memorialı" layihəsinə daxil edilib. "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası İslam Konfransı Təşkilatı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş koordinatoru xanım Leyla Əliyevanın təşəbbüsü ilə 8 may 2008-ci ildə elan edilib, "Xocalıya Ədalət!" kampaniyasının rəsmi internet saytı istifadəyə verilib və orada Xocalı faciəsi qurbanlarının siyahısı nəşr edilib, Qarabağ müharibəsi haqqında geniş məlumat verilib.

Hər il Azərbaycan İstiqlal Muzeyi bu tarixə həsr olunmuş tədbirlər keçirir. Biz, hər dəfə dəhşətli hadisənin şahidləri olan Xocalı sakinləri ilə görüşərək yeni səpkidə bu mövzunu işıqlandırmağa çalışırıq. Ötən illərdə Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Mədəniyyət və İncəsənət Universiteti, Qərb Universiteti, Əzim Əzimzadə adına İncəsənət Kolleci, Tofiq İsmayılov adına "Uşaq Dünyası" qalereyasının iştirakı ilə cavan rəssamların sərgisi keçirilmişdi.

2007-ci ildə olan sərgi müsabiqə xarakteri daşıyırdı. Tələbələrin əsərləri əvvəlcədən anonim şəkildə qoyulub və hər bir bəyənilən əsərə muzeyə gələn qonaqlar tərəfindən nişanlar yapışdırılıb və səsvermənin nəticələri üzrə ən yaxşı əsərlərin müəllifləri fəxri fərman və hədiyyələr ilə mükafatlandırılıb.

Bu növ tədbirlər cavanların fəallığını artırır və yaradıcılıq işi prosesində təsvir etdikləri vəziyyət haqqında düşünməyə və onun tarixini daha dərindən öyrənməyə vadar edir. Cavan rəssamların keçmiş sərgiləri, onların bu dəhşətli hadisənin şahidləri olmamağına baxmayaraq, baş vermiş hadisələrə öz fikirləri və mövqeləri olmuşdur.

2009-cu ildə muzey işçilərində belə bir fikir yarandı ki, "Xocalı həqiqətləri" adlı sərgi keçirilsin və tədbirə Xocalı sakinlərini dəvət edib sərgidə onların baş vermiş dəhşətli hadisə zamanı özləri ilə götürə bildikləri şəxsi əşyaları muzeydə nümayiş olunsun. Bu elə də asan məsələ deyildi. Bu hadisəni yaşamış bir çoxları o hadisəni təkrar yada salmaq istəmirdilər, danışmağa başlayanda isə onları dayandırmaq mümkün olmurdu. Həmin görüşlərdə tanınmış fotoqraf Tahir Cəfərov iştirak edirdi və biz onun sayəsində bugünkü gündə Xocalıların həyatını təsvir edən böyük foto arxiv yığmışıq. "Xocalı həqiqətləri" sərgisində şəkillər ilə bahəm faciə şahidlərinin əşyaları nümayiş olunub. Xocalılar bu əşyaları ürək ağrısı ilə vermişdilər, çünki bu, onların yaxınlarından qalan yeganə xatirə idi. Hər bir ailədə bir və ya iki əşya vardı, axı insanlar öz evlərindən qaçan zaman heç bir əşya götürməyə macal tapmamışlar. Bunlar "Quran", fotoşəkillər, şəxsi sənədlər, uşaq paltarı, kəlağayı, bıçaq və bir-biriləri ilə əlaqədar olmayan və təəssüf ki, özündə dərin faciəli məna daşıyan çox müxtəlif əşyalar idi. Bu əşyalar və sərgidə nümayiş olunan Tahir Cəfərovun şəkillərindən hazırlanmış disk şəhər əhalisinin və şəhərimizə gələn qonaqların diqqətini cəlb etdi.

Xocalı faciəsi mövzusuna bir çox heykəltəraş və rəssamlar müraciət ediblər. Yalnız bir çoxları etiraf edirlər ki, bu, güc və sağlamlığı azaldan çətin bir işdir. Əvvəlki illər ərzində biz bu mövzuya aid fərdi sərgilər keçirmişik.

2006-cı ildə rəssam Sabir Çopurovun qeyri-adi neft üsulu ilə çəkdiyi əsərlərdən ibarət sərgisi, 2010-cu ildə isə Azərbaycanın Xalq rəssamı, heykəltəraş Xanlar Əhmədovun sərgisi keçirilib.

2012-ci ildə rəssam Nazim Məmmədovun fərdi sərgisini təşkil elədik. 2011-ci il fevral ayında Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Xocalı soyqırımı" adlı sərgi-müsabiqə keçirilib və Nazim Məmmədov həmin müsabiqənin qaliblərindən biri olub. Sərgidən sonra rəssam Xocalı faciəsini əks etdirən iki rəsm əsərini Azərbaycan İstiqlal Muzeyinə bağışlayıb və bu əsərlər indi muzeyin ekspozisiyasında nümayiş olunur. 22 fevral 2012-ci ildə "Sənədlər sübut edir" adlı tədbir təşkil olunub.

"Məhkum olunmuş Xocalı" kitabının yazılmasında tanınmış publisist-jurnalist, "Bakinski raboçi" qəzetinin baş redaktor müavini, Qaçqın və Məcburi köçkünlərin müdafiə Mərkəzinin sədri Tatyana Çaladze Respublika Prokurorluğunun arxivində olan materiallardan istifadə etmişdir. Buraya Xocalı faciəsi şahidlərinin istintaq sənədləri, hadisənin baş verdiyi yerə baxış zamanı tərtib olunan protokollar daxildir. İşi yekunlaşdırdıqdan sonra o, 1500-dən çox sənədi muzeyə təhvil verib. Onların bir hissəsi sərgidə tamaşaçılara təqdim olunub.

Muzeyin fondu daim yeni eksponatlarla zənginləşdirilir. Bu il muzeyə Xocalı faciəsi ilə bağlı yeni eksponatlar təqdim olunub. "Yarat!" Müasir incəsənət məkanın iştirakçısı gənc rəssam Mehriban Şəmsəddinskaya özünün "Boşalmış damarlar" adlı əsərini bizim muzeyə təqdim edib. Gənc rəssam Nazim Məmmədov Xocalı faciəsinə həsr olunmuş öz eskizlərini muzeyə hədiyyə edib. Həmçinin, Xocalının müdafiəsi zamanı qəhrəmancasına həlak olmuş Milli qəhrəmanların və şəhidlərin şəxsi əşyaları da muzeyə təqdim olunub. Beləliklə, 2014-cü ilin 25 fevral sərgisində Xocalı faciəsinə həsr olunmuş yeni eksponatlar nümayiş olunacaq.

Bizim muzeyimizin əsas məqsədi - gəncləri vətənpərvərlik ruhunda tərbiyə etməkdir. Bu mövzu hər zaman diqqət mərkəzində olmalı, milli qəhrəmanların, şəhidlərin vətən uğrunda mübarizəsi bugünkü nəslə təbliğ olunmalıdır.

Biz, tariximiz barəsində bütün materialları, o illərin bütün fotoşəkillərini yığmaq, hazırkı nəsillərdə tarixi bilgilərə maraq yaratmaq üçün əlimizdən gələni edəcəyik.

"Palitra"
18 fevral 2014-cü il. N 29. Səh. 12

* * *

"Xocalıya Ədalət!" çağırışına dünya qoşulur

Artıq erməni təbliğat maşını bu kampaniyanın qarşısında duruş gətirə bilmir

"Dünya Xocalı barədə bilməlidir ki, bu cür qətllər və cinayətlər heç yerdə təkrar olunmasın. Biz bu istiqamətdə işimizi davam etdirəcəyik, hələ çox işlər görəcəyik və mən inanıram ki, tezliklə dünyanın bir çox ölkəsi bu soyqırımını tanıyacaq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ədalətli həllini tapacaq. Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək və bütün qaçqınlar və məcburi köçkünlər doğma torpaqlarına, evlərinə qayıdacaqlar". Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın 2008-ci il mayın 8-də elan edilən "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyası çərçivəsində səsləndirdiyi bu fikirlərə artıq dünyanın bir çox sülhsevər xalqları səs verib. Xocalı soyqırımı haqqında həqiqətin dünyada bilinməsi, bu faciənin Azərbaycan xalqına qarşı soyqırımı aktı kimi tanınması üçün həyata keçirilən məqsədyönlü fəaliyyət istiqamətlərindən olan "Xocalıya Ədalət!" kompaniyası soyqırımın tanınması üçün dünya xalqlarını birliyə çağırır.

Heydər Əliyev Fondu bir neçə ildir Avropa, Asiya, Afrika, Şimali və Cənubi Amerikanın 70-dən çox ölkəsində bu faciə ilə əlaqədar tədbirlər keçirir. Tədbirlər çərçivəsində müxtəlif ölkələrin parlamentləri və dövlət qurumları qarşısında etiraz aksiyaları, piketlər, habelə seminarlar, konfranslar keçirilir, kitablar nəşr olunur, filmlər çəkilir. "Xocalıya Ədalət!" kampaniyası sayəsində Xocalı faciəsi bir sıra beynəlxalq təşkilatlar tərəfindən tanınıb. Bu gün etdiklərimizin heç biri Xocalı soyqırımının yaralarını sağalda bilməz. Bizim edə biləcəyimiz yalnız həmin dəhşətli tarixi yad etmək və qətliam zamanı öldürülən və ya ömürlük əlil olan uşaq, qadın və kişiləri unutmamaqdır" - deyə Leyla Əliyeva bildirib.

22 il bundan əvvəl törədilən Xocalı faciəsi əsrlər boyu xarici istilalara, qəsblərə məruz qalmış xalqımızın qan yaddaşında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin davam etdiyi illər ərzində ermənilər tərəfindən törədilmiş ən dəhşətli soyqırımı aktlarından biri kimi anılır. Ermənistanın bu gün də davam edən hərbi təcavüzü ilə üz-üzə qalmış

Azərbaycan ermənilər tərəfindən uydurulmuş "Dağlıq Qarabağ problemi", o cümlədən XX əsr dünya tarixinin ən qəddar soyqırımı aktı olan Xocalı faciəsi haqqında tarixi həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində bünövrəsi Ümummilli Liderimiz Heydər Əliyevin qoyduğu siyasi kurs bu gün prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə elan edilən "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyası da bu siyasi kursun həyata keçirilməsində, xüsusilə Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasında uzaqgörənliklə düşünülmüş uğurlu bir strategiyadır. "Xocalıya Ədalət!" əslində "Azərbaycana ədalət!" deməkdir. Bu kampaniyaya qoşulmaq isə Vətənini, xalqını sevən hər bir azərbaycanlının borcudur.

"Leyla Əliyeva: "Xocalıya Ədalət!"

Yazıçı-publisist, Əməkdar jurnalist Vasif Səmədov və tanınmış alim Rövşən Vəlizadənin bu yaxınlarda çapdan çıxmış "Leyla Əliyeva: "Xocalıya Ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model)" ikicildliyi də "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyasının 5 illiyi münasibətilə nəşr olunub.

Nəşrlərdə beynəlxalq terrorizmin bir qolu olan erməni terror təşkilatlarının Azərbaycan torpaqlarında tarixin müxtəlif dövrlərində, xüsusilə ötən əsrin son illərində Ermənistan silahlı birləşmələrinin və onların havadarlarının köməyi ilə işğal olunmuş Dağlıq Qarabağ ərazisində, o cümlədən Xocalı şəhərində törətdikləri kütləvi qırğından, vəhşilikdən, soyqırımından bəhs edilir.

İkicildlikdə "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində beynəlxalq aləmdə həyata keçirilən təqdirəlayiq tədbirlərdən söhbət açılır. Zəngin fakt və sənədlərlə, sübutlarla əhatələnmiş bu kitab dünyada terrora və zülmə, işgəncəyə və amansız qətliamlara qarşı mübarizədə tarixi həqiqətlərin önəmli bir toplusu kimi oxucuların diqqət mərkəzində olacaqdır.

AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor Rafael Hüseynov ikicildliyə "Ön söz"ündə qeyd edib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın dünya boyu gerçəkləşdirdiyi və çox uğurlu bəhrələr verən "Xocalıya Ədalət!" hərəkatı həm içdən gələn vətənpərvərlik duyğularının hökmü, həm də damarlarında axan qanın diktəsi kimi qavranılmalıdır. Xocalı faciəsini dünya boyunca bir soyqırımı olaraq tanıtmaq həqiqətdə dünya ermənipərəstliyinin Vətənimizə və millətimizə qarşı onillər boyu apardığı soyqırımı siyasətinin anatomiyasını açmaqdır.

Kitablarda ortaya qoyulan bir-birindən ifşaedici, danılmaz sübutlar, məntiqi dəlillər bir daha isbat edir ki, Xocalı faciəsi ermənilərin və ermənçiliyin Azərbaycan xalqına qarşı sistemli soyqırımı siyasətinin bariz ifadəsi olmaqla yanaşı, beynəlxalq terrorizmin insanlığa qarşı indiyədək törədilmiş cinayətlərinin ən ağırlarındandır.

Hüquq üzrə fəlsəfə doktoru, professor Aytən Mustafayeva qeyd edib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın "Xocalıya Ədalət!" çağırışına münasibət əvvəlki illərdən tam fərqlidir: "Heç kəs şübhə etməsin ki, yaşadığımız yüzillikdə yaranmış bu strategiya tarixdə məhz "Leyla Əliyeva strategiyası" kimi qalacaq, təhlil olunacaqdır".

Kitabın mahiyyəti göstərir ki, "Xocalıya Ədalət!" çağırışı beynəlxalq terrora qarşı mübarizədə humanizm dəyərləri üzərində köklənmiş güclü və yeni strateji modeldir. Şübhəsiz, təqdim edilən kitabları oxuyan və obyektiv təhlil edən hər kəs bu modelin böyüklüyünü və əhəmiyyətini dərk edəcək və gələcək mübarizəmiz, qələbəmiz üçün lazımi nəticələr çıxaracaqdır.

Müəlliflərin məqsədləri Xocalı faciəsinin əsl mahiyyətini, cinayətkarları və onların havadarlarını dünyaya bəyan etmək, ikili standart mövqeyində dayanmış ayrı-ayrı dövlətləri, bəzi beynəlxalq təşkilatları haqqın səsinə səs verməyə çağırmaqdır. Həmçinin, beynəlxalq qurumların bu faciə ilə əlaqədar və eləcə də insan hüquqları və azadlıqları haqqında qəbul edilmiş qərarlarına, müraciətlərinə hörmətlə yanaşmağa çağırmaq, həm beynəlxalq hüquq normaları çərçivəsində, həm də əxlaqlı, saf siyasi yanaşma yolu ilə Xocalı faciəsinə hüquqi və siyasi qiymət vermək istəyidir.

Nəşrin birinci cildində yer alan "Xocalıya Ədalət!" yeni yüzilliyin strateji modeli kimi... və ya "Xocalıya Ədalət!" azərbaycanlılar üçün yeni ideologiya" başlıqlı yazıda qeyd edirlər ki, ideoloji çağırış çərçivəsində biz beynəlxalq terror təşkilatlarının, erməni silahlı birləşmələrinin Dağlıq Qarabağı necə dağıdıb viran qoyduqlarını təhlil etməyi bacarmalıyıq. Belə bir yanaşma metodunu verən "Xocalıya Ədalət!" çağırışı imkan yaradır ki, terrora məruz qalmış insanlarımız və ayrı-ayrı yaşayış məntəqələrimiz haqqında ictimaiyyəti, eləcə də bəşəriyyəti, demokratik institutları məlumatlandıraq. "Xocalıya Ədalət!"in siyasi uğurlarından biri də budur.

Qeyd edilir ki, strateji model olaraq "Xocalıya Ədalət!" çağırışı düzgün seçilib. Böyük əzmkarlıqla yuxusuz gecələr, gərgin zəhmət hesabına dünya miqyasında hazırlanıb keçirilən tədbirlər, görülən işlər, cəsarətli gedişlər, düşünülmüş siyasi kurs öz bəhrəsini verib. Artıq erməni təbliğat maşını "Xocalıya Ədalət!"in qarşısında duruş gətirə bilmir.

Bu gün bəşəriyyəti terror nəticəsində zülm və işgəncələrdən əziyyət çəkən milyonlarla insanların taleyi uğrunda mübarizəyə çağıran "Xocalıya Ədalət!" adlı mənəvi bir cəbhə mövcuddur. Nə qədər ki, terror və amansızlıq, müharibə var, bu ideoloji cəbhə də həmişə yaşayacaqdır.

İkinci cilddə Xocalı soyqırımı qurbanlarının, ümumilikdə, həmçinin azyaşlı, yetkinlik yaşına çatmayanların, rayonun qəsəbə və kəndləri üzrə qətlə yetirilənlərin, diri-diri yandırılanların, faciədən sonra indiyədək itkin düşənlərin və digər istiqamətlərdə konkret siyahılar da yer alıb.

Kitablarda Azərbaycan, ingilis, türk və digər dillərdən olmaqla yüzlərlə mənbələrdən, eləcə də internet resursları da daxil olmaqla, ümumilikdə 350-dək mənbədən istifadə edilib.

Bu gün "Xocalıya Ədalət!" dünyanı gəzir, beynəlxalq kürsülərdən insanları haqsızlığa, zülmə və zülmkarlığa, terrorçuluğa qarşı mübarizəyə çağırır.

Türkiyə parlamentində Xocalı soyqırımının tanınması üçün Türkiyə-Azərbaycan dərnəyi qardaş ölkənin parlament üzvlərinə müraciət ünvanlayıb. Sənəddə erməni vəhşiliyinin pisləyən qanun layihəsinin qəbul olunması öz əksini tapıb. Türkiyə-Azərbaycan dərnəyinin hazırladığı müraciətdə bildirilir ki, bir çox ölkələr və müxtəlif beynəlxalq təşkilatlar Xocalı soyqırımı ilə bağlı qərar qəbul edib. Belə ki, 2012-ci ildə Türkiyə Böyük Millət Məclisinin üzvü Sinan Oğan Xocalıda baş verənlərin soyqırımı kimi tanınmasını nəzərdə tutan qərar layihəsinin müzakirəyə çıxarılmasını təklif edib. Müraciətdə həmin qərar layihəsinin yenidən parlamentarilərin müzakirəsinə çıxarılması və dəstəklənməsi tələb olunur. Qərar layihəsinin müəllifi, millət vəkili Sinan Oğan isə həmkarlarının Xocalı soyqırımı ilə bağlı təşəbbüsə dəstək verəcəklərinə inandığını bildirib.

Xocalı soyqırımının Türkiyə Parlamenti tərəfindən tanınması üçün qardaş ölkədə fəaliyyət göstərən soydaşlarımız da səylərini davam etdirir.

"İslahatçı Gənclər" İctimai Birliyi İstanbul Türk Ocağı Gənclik Qolları ilə birgə Türkiyənin İstanbul şəhərində 20-26 fevral tarixlərində Xocalı soyqırımının 22-ci ildönümünə həsr olunmuş "Xocalıya Ədalət!" həftəsi keçiriləcək. Bu barədə məlumat verən birliyin sədri Fərid Şahbazlı qeyd edib ki, artıq ikinci ildir ki, "İslahatçı Gənclər" İstanbul Türk Ocağı Gənclik Qolları ilə birgə Türkiyə ictimaiyyətinin diqqətini Xocalı faciəsinə yönəltmək üçün silsilə tədbirlər həyata keçirir: "Bu həftəlik çərçivəsində müxtəlif konfrans salonları və universitetlərdə Türkiyənin tanınmış ictimai-siyasi xadimlərinin, elm adamlarının, fəal gənclərinin, eyni zamanda

Azərbaycandan gələn qonaqların iştirakı ilə Xocalı dəhşətlərindən bəhs edən çoxsaylı müzakirələr, panellər və görüşlər baş tutacaq. Bununla yanaşı, Türkiyə mediasının diqqətini Xocalı soyqırımı və onun acı nəticələrinə daha çox yönəltmək üçün KİV-lərdə çoxsaylı çıxışlar nəzərdə tutulub. Yaxın günlərdə isə "Xocalıya Ədalət!" həftəsi ilə bağlı təbliğat xarakterli elanlar İstanbulun bütün mərkəzi ünvanlarında yerləşdiriləcək. Həftəlik çərçivəsində təbliğat xarakterli bir sıra digər mühüm addımların da atılması nəzərdə tutulub. Biz Türkiyədəki tərəfdaşlarımızla birgə qardaş ölkə ictimaiyyətinin diqqətini bir insanlıq cinayəti olan Xocalı soyqırımı və Dağlıq Qarabağın ermənilər tərəfindən işğalına yönəltmək üçün əlimizdən gələni edəcəyik". Fərid Şahbazlı eyni zamanda qeyd edib ki, dünyanın bir çox ölkələrində "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində həyata keçirilən tədbirlər 22 il bundan öncə ermənilərin Xocalı şəhərində törətdikləri soyqırımı siyasətinin beynəlxalq ictimaiyyətə çatdırılmasında müstəsna rol oynayıb: "Düşünürəm ki, dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar Xocalı dəhşətlərinin yaşadıqları ölkənin ictimaiyyətinə çatdırılması üçün bacardığını əsirgəməməlidir".

"Khojaly Genocide"

"Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində Koreya dilində Xocalı soyqırımı haqqında sayt fəaliyyətə başlayıb. Azərbaycanın Koreya Respublikasındakı səfirliyinin dəstəyi ilə "BUTA" Azərbaycan-Koreya Tələbə Təşkilatının yaratdığı "Khojaly Genocide" adlı internet və Facebook səhifəsi (www.khojaly.or.kr, www.facebook.com/KhojalyKR) Koreya ictimaiyyətini bu faciə barədə məlumatlandırmaq məqsədi daşıyır. Saytda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yaranma səbəbləri, 1992-ci ilin fevralında Ermənistan silahlı qüvvələrinin Xocalı şəhərində mülki əhaliyə qarşı törətdiyi soyqırımına aid məlumatlar, foto və videomateriallar yerləşdirilib. Saytda bir neçə ölkənin parlamenti və beynəlxalq ictimaiyyət tərəfindən bu qanlı hadisələrin soyqırımı kimi tanınması, "Xocalıya Ədalət!" kampaniyası haqqında məlumatlar da yer alıb.

Təranə Məhərrəmova
"Kaspi"
19 fevral 2014-cü il. № 29. Səh. 6

* * *

"Xocalıya Ədalət!" kampaniyasının 5 illik fəaliyyəti və perspektivlərinə həsr olunmuş tədbir keçirilmişdir

Fevralın 24-də "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyasının 5 illik fəaliyyətinin yekunları və gələcək planları ilə bağlı tədbir keçirilmişdir.

Kampaniyanın əlaqələndiricisi Nicat Məmmədli tədbiri açaraq indiyədək həyata keçirilmiş layihələr, əldə edilmiş nailiyyətlər, məlumatlandırma sahəsində görülmüş işlər barədə ətraflı məlumat vermişdir.

Bildirilmişdir ki, "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyasının yaradılması təşəbbüsü 2008-ci il mayın 8-də, Şuşanın işğalının ildönümü günü Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tərəfindən irəli sürülmüşdür. Faciənin mənəvi, siyasi və hüquqi müstəvidə tanınmasına yönələn bu kampaniya hazırda dünyanın 40-dan çox ölkəsində uğurla həyata keçirilməkdədir.

N.Məmmədli Azərbaycan Prezidenti İlham Əliyevin 2014-cü il 13 fevral tarixli "Xocalıya Ədalət!" kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncamının tarixi əhəmiyyət daşıdığını və müvafiq istiqamətdə fəaliyyət göstərməyə böyük dəstək olduğunu vurğulamış, dövlətimizin başçısına dərin minnətdarlığını bildirmişdir.

Tədbirdə kampaniyanın əlaqələndiricisi Sevinc İsgəndərova, hüquq məsləhətçisi Vüsal Qurbanov gələcəkdə görüləcək işlər barədə məlumat vermişlər.

Bildirilmişdir ki, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və ona bağlı qurumların qəbul etdiyi sənədlərin əsas müddəaları, o cümlədən faciəyə "kütləvi qırğın" və "insanlığa qarşı cinayət" kimi qiymət verilməsi gələcəkdə bu soyqırımını törədənlərin hüquqi məsuliyyətə cəlb edilməsinə imkan yaradacaqdır.

Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru Fərhad Məmmədov, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun icraçı direktoru Fərhad Hacıyev "Xocalıya Ədalət!" kampaniyasının əhəmiyyətini vurğulamış və müvafiq sahədə işlərin bundan sonra da davam edəcəyini bildirmişlər.

Çıxışlarda bu sahədə akademik araşdırmaların aparılmasının vacibliyi xüsusi qeyd edilmişdir.

Tədbirdə son beş ildə Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işlərə dair elektron təqdimat keçirilmişdir.

Qeyd olunmuşdur ki, kampaniyanın 40-dək ölkədə milli koordinatorluğu yaradılmış, İƏT-in zirvə toplantısı və ona aid qurumlar çərçivəsində faciə ilə bağlı indiyədək 10-a yaxın qətnamə qəbul edilmiş, məşhur amerikalı reper Toni Bləkmənin ifasında "Xocalıya Ədalət!" videoklipi yayımlanmış, avropalı rejissorların iştirakı ilə "Sonu olmayan dəhliz" sənədli filmi çəkilmiş, Qarabağ həqiqətləri ilə bağlı Rusiya ictimaiyyəti üçün iki kitab nəşr olunmuş, bütövlükdə 5 il ərzində 200-dək müxtəlif xarakterli tədbir həyata keçirilmişdir.

Diqqətə çatdırılmışdır ki, yaxın illər ərzində dünyanın aparıcı ölkələrində faciə ilə bağlı elektron sərgilərin təşkili, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi ilə birgə xarici ekspertlərin iştirakı ilə tədqiqatların aparılması üçün təqaüdlərin təsis olunacağı nəzərdə tutulmuşdur.

Tədbirdə çıxış edən "İrəli" İctimai Birliyinin sədri Rauf Mərdiyev, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin əlaqələndirmə şurasının sədri Orxan Əkbərov, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının baş katibi Seymur Hüseynov kampaniya çərçivəsində təmsil etdikləri qurumların birgə fəaliyyətinin vacibliyini vurğulamışlar.

Sonda "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyasının koordinatorluğu ilə "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası və "İrəli" İctimai Birliyi arasında kampaniyanın səmərəliliyini və bundan sonra daha geniş miqyasda fəaliyyətini təmin etmək məqsədilə Anlaşma Memorandumu imzalanmışdır.

*"**Xalq qəzeti**"*
25 fevral 2014-cü il. N 41. Səh. 4

* * *

"Xocalıya Ədalət!" tarixi zərurətdən yarandı

Vasif SƏMƏDOV,
əməkdar jurnalist, yazıçı-publisist,

Rövşən VƏLİZADƏ,
professor, politoloq

Xəbər verdiyimiz kimi, Xocalı soyqırımının ildönümü ərəfəsində yazıcı-publisist, əməkdar jurnalist Vasif Səmədovun və politoloq, professor Rövşən Vəlizadənin "Leyla Əliyeva: "Xocalıya Ədalət!" (Beynəlalq erməni terroruna qarşı yeni strateci model)" üçcildliyinin ilk iki cildi çapdan çıxmışdır. Bu fundamental nəşrdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanin təşəbbüsü və rəhbərliyi ilə aparılan beynəlxalq kampaniyanın genişmiqyaslı işi, Xocalı həqiqətləri ilə bağlı bir sıra mühüm tarixi-hüquqi sənədlər və aksiyanın gedişində əldə edilən uğurlar əhatəli əksini tapmışdır. Müəlliflərin kampaniyanın tarixi əhəmiyyətindən və gedişindən bəhs edən yaxısını oxuculara təqdim edirik.

Ən çətin dəqiqələrdə belə, həqiqəti demək, ədalətin və haqqın keşiyində dayanmaq insandan həmişə, cəsarət tələb edib. Amerikalı sosioloq Rark Robert isə (1864-1944) iddia edir ki, həqiqəti deməklə iş bitmir. Ən başlıca məqamlardan biri dediyin həqiqəti, ədaləti müdafiə etməkdir. Prezident Heydər Əliyevin 30 iyul 1997-ci ildə etdiyi çıxışa (ABŞ, Vaşinqton) diqqət yetirək.

Bu cəsarətli çıxış Azərbaycan və beynəlxalq ictimayyət üçün çox vacib, həm də əhəmiyyətli idi. Ulu öndər Heydər Əliyev Ağ Ev rəhbərliyinə, konqresmenlərə, güclü siyasi xadimlərə, dövlət nümayəndələrinə və iş adamlarına kəskin bir mövqedən xatırladırdı: "Amerika dövlətinin, cəmiyyətinin dünyada ən böyük xüsusiyyəti onun ədalətli olmasıdır. Amma ABŞ Konqresinin belə ədalətsiz hərəkəti (söhbət torpaqlarımızı işğal edən erəməni separatçılarının Konqres tərəfindən müdafiə olunması və ədalətsiz qərarların verilməsindən gedir - V.S., R.V.) Amerikanın ümumi işinə heç uyğun gəlmir. Biz bu məsələləri qaldırarkən bəzən deyirlər ki, bunlar erməni diasporunun, lobbisinin təsiri altında olublar. Mən bəzən düşünürəm - erməni lobbisi Amerikanın hakimiyyət dairələrindən güclüdürmü? Mən belə düşünmək istəmirəm. Mənə deyirlər ki, Amerikada bir milyon erməni

yaşayır. Amerikanın 300 milyon əhalisi var. Əgər bir milyon erməni sizin başınıza bu işi gətirəcəksə, onda bir azdan sonra Amerikada da bir erməni dövləti yaranacaqdır, bu təhlükənin qarşısını alın."

Bu iradəli çıxış, sanki, bir çox diplomatları silkələmişdi. Bu gün isə həmin o cəsurluğu, yəni düşmənə qarşı barışmaz mövqedən çıxış etməyi, ona fürsət və aman verməməyi ən ağır və tənha qalan vaxt "Ədalət yürüşü" ilə düşmənin sinəsindən vurub, ən yüksək tribunalardan yerə salmaq kimi yüksək prinsipləri biz "Xocalıya Ədalət!" çağırışının fəaliyyətində görürük. "Xocalıya Ədalət!" Azərbaycan xalqının ən qüdrətli siyasi, mənəvi-psixoloji səngəridir.

Xocalıya Ədalət!" Beynəlxalq erməni terroruna qarşı mübarizədə yeni strateci model olaraq yaranmışdır. 2008-ci ilin mayın 16-da İstanbuldakı "Qrand Cəvahir" hotelində İslam Konfransı Təşkilatının (İTK) Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumu və İSESKO-nun təşkilatçılığı ilə başlanmış ikigünlük iclasda İKT-nin humanitar faciələr üzrə ekspertləri XX əsrdə müsəlman xalqlarına qarşı törədilmiş soyqırımı aktlarını müzakirə etdilər. İclasda Türkiyə və Azərbaycanın Mədəniyyət Nazirliklərinin nümayəndələri, deputatlar, İslam ölkələri gənclər təşkilatlarının təmsilçiləri və diplomatlar iştirak edirdilər. İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət - Qarabağa azadlıq" kampaniyası çərçivəsində aparılan müzakirələrdə, aksiyalarda ermənilərin xalqımıza qarşı törətdikləri vəhşiliklərdən ətraflı bəhs olunmadaqdır.

Forumun baş katibi Elşad İsgəndərov bildirmişdir ki, son illər dünyada getdikcə artan islamofobiya meyilləri və Qərb ölkələrinin tətbiq etdikləri ikili standartlar ucbatından müsəlmanlara qarşı törədilmiş soyqırımlar lazımi qiymətini almamışdır. Azərbaycanda, Bosniya və Herseqovinada, Türkiyənin şərq vilayətlərində dinc əhalinin vəhşicəsinə qətlə yetirilməsinə dair sənədlər, fılmlər, fotoşəkillər bütün dünyada daha fəal yayılmalıdır. İslam ölkələrində vahid soyqırımı qurbanları gününün təsis edilməsi təklifi də İKT rəhbərliyinə təqdim olunmuşdur. Bütün bu işlərin səmərəliliyinin artırılması məqsədini daşıyan Fəaliyyət Proqramı da geniş müzakirə ediImişdir.

İstanbulda İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumu və İSESKO-nun təşkilatçılığı ilə keçirilmiş İKT ekspertlərinin ikigünlük iclasında yekun sənəd qəbul olunmuşdur. Elşad İsgəndərov bildirmişdir ki, İslam Konfransı Təşkilatının Əməkdaşlıq və

Dialoq Uğrunda Gənclər Forumunun mədəniyyətlərarası və sivilizasiyalararası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət - Qarabağa azadlıq" kampaniyası İKT ekspertləri tərəfindən dəstəklənmiş və 26 Fevral Xocalı Soyqırımı Gününün İKT ölkələrində humanitar fəlakətlər qurbanlarının xatirəsini anma günü kimi qeyd olunması barədə qərar qəbul olunmuşdur.

Bundan əlavə, Xocalı qenosidinin İslam ölkələrində dərsliklərə daxil edilməsi ilə bağlı təklif də İKT nazirlərinin toplantısına təqdim ediləcəyi qeyd olunmuşdur. Qəbul olunmuş sənəddə Xocalı soyqırımının Avropa, Asiya və Afrika ölkələri regional parlamentlərarası Assambleyalarının dialoqu zamanı bəşəriyyətə qarşı kütləvi qırğın kimi tanınması barədə məsələ də qaldırılması da nəzərdə tutulmuşdur. Toplantı iştirakçıları Heydər Əliyev Fondunun Rusiya Nümayəndəliyinin rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə hazırlanmış və Xocalı soyqırımından bəhs edən sərgi ilə, habelə Bosniya və Herseqovinada, Fələstində törədilmiş qətliamlardan bəhs edən fotoşəkillərlə də tanış olmuşlar. Müzakirələrin yekununa dair qəbul olunmuş sənəd İKT Mədəniyyət Nazirləri Şurasına təqdim olunacağı barədə məlumat verilmişdir.

İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin xarici işlər nazirlərinin Kampalada (Uqanda) başa çatmış konfransında İKT-nin Gənclər Forumunun sivilizasiyaların alyansı üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın "Xocalıya ədalət- Qarabağa azadlıq" təşəbbüsü təsdiq ediImişdir. İKT-nin dialoq və əməkdaşlıq uğrunda Gənclər Forumunun (İKT GF) katibliyindən bildirmişlər ki, bu barədə İKT Xarici İşlər Nazirlərinin konfransının 35-ci sessiyasında xüsusi qətnamə qəbul edilmişdir. Qətnamənin bu kampaniyaya həsr ediImiş xüsusi paraqrafının layihəsi Azərbaycan XİN nümayəndə heyəti tərəfindən İKT GF-in ənənəvi qətnaməsinə daxil edilmiş və Ciddədə İKT-nin ekspertlərinin iclasında dəstəklənmişdir.

Qətnamənin Xarici İşlər Nazirləri tərəfindən dəstəklənməsi dünyanın 57 ölkəsində müvafıq kampaniyanın həyata keçirilməsi üçün siyasi-hüquqi baza yaratmışdır. Qətnaməyə görə, İKT üzvü olan ölkələrdə humanitar faciələrin qurbanlarının Xatirə günü təsis edilir. Qətnaməyə əsasən, Xocalı faciəsinin də daxil olduğu bu siyahı təsdiq edilməklə yanaşı, XX əsrdə müsəlman ölkələri xalqlarının məruz qaldığı humanitar fəlakətlər, təcavüzlər və etnik təmizləmələr haqqında düzgün informasiyaların yayılması üçün kampaniyalar keçirilməsi nəzərdə tutulurdu.

Qətnaməyə əsasən, 2009-2010-cu illərdə keçirilmiş Xatirə günü çərçivəsində öncül tədbir kimi, Leyla Əliyevanın "Xocalıya ədalət- Qarabağa azadlıq" təşəbbüsü təsdiq edilmişdi. Qətnamədə İKT üzvü olan ölkələrdə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsi barədə dəqiq məlumatın yayılması, eləcə də kampaniyanın tezisinin imici barədə rəylərin yerləşdirilməsi üçün informasiya veb-portalı yaradılması nəzərdə tutulmuşdur. Kampaniyanın əsas tezisini açıqlayan ən yaxşı fotomaterialları əsasında fotosərgilər təşkil edilir. Həmin fotosərgilər beynəlxalq təşkilatların qərargahlarında təqdim edilir. Mətbuat üçün brifinqdə çıxış edən Leyla Əliyeva onun təşəbbüsünün nüfuzlu beynəlxalq təşkilat tərəfindən bəyənilməsini razılıq hissi ilə qeyd etmişdir. Leyla Əliyeva demişdir: "Bu sənədin qəbul edilməsi Azərbaycan torpaqlarının işğalı faktının beynəlxalq birlik tərəfindən getdikcə daha çox dərk olunmasını və təcavüzkarın mənəvi-siyasi baxımdan daha da təcrid edilməsini əks etdirir. Qətnamə Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqəti İKT üzvü olan ölkələrdə və mədəniyyətlərarası dialoq vasitəsilə qlobal səviyyədə gənc nəslə çatdırmaq üçün imkan yaradır. Qətnamə bu təşəbbüsün həyata keçirilməsində foruma geniş səlahiyyətlər verir. Bir sözlə, qarşıda görüləsi işlər çoxdur". Kampaniya çərçivəsində aparıcı beynəlxalq təşkilatların parlament birlikləri tərəfindən Xocalı faciəsinin soyqırım kimi tanınmasına nail olmaq nəzərdə tutulur. İKT Xarici İşlər Nazirlərinin bundan əvvəl, 2007-ci ilin may ayında İslamabadda keçirilmiş sessiyasında İKT Gənclər Forumunun təşəbbüsü ilə Xocalı faciəsinə siyasi qiymət verilmişdir.

İKT-nin Gənclər Forumu İKT-nin affiliasiya edilmiş təşkilatı statusuna malik olan beynəlxalq qurumdur. Forum 2004-cü ilin dekabr ayında yaradılmışdır. Onun mənzil-qərargahı İstanbulda yerləşir. Azərbaycanın Səudiyyə Ərəbistanı Krallığındakı səfirliyi tərəfindən Xocalı soyqırımının 17-ci ildönümü ilə əlaqədar təşkil edilmiş anım mərasimi və İslam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüşü ilə irəli sürülən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının təqdimatı keçirilmişdi. Ər-Riyad şəhərinin aparıcı konfrans zallarının birində Xocalı faciəsini əks etdirən kitab və materiallardan ibarət guşə yaradılmış, Xocalı soyqırımı və erməni terroru haqqında filmlər nümayiş etdirilmlş, müvafiq çıxışlar və diskussiyalar təşkil olunmuşdu. Eyni zamanda, "Xocalı uşaqların gözü ilə" rəsm sərgisi keçirilmişdi. Tədbirlərdə İslam Konfransı Təşkilatına üzv dövlətlərin, Səudiyyə Ərəbistanı Krallığının dövlət və hökumət üzvləri, eləcə də Ər-Riyaddakı xarici ölkələrin,

beynəlxalq təşkilatların, Azərbaycan və türk diaspor təşkilatlarının və kütləvi informasiya vasitələri nümayəndələrinin iştirakı baş tutdu. Bu, siyasi bir hadisə idi. Azərbaycan tarixinin beynəlxalq erməni terroruna qarşı mübarizədə yeni bir strateji səhifəsi belə yarandı.

Azərbaycanın Misir Ərəb Respublikasındakı səfirliyi İslam Konfransı Təşkilatının Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə elan edilmiş "Xocalıya Ədalət!" Beynəlxalq kampaniyası çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə Misirdə və eyni zamanda, akkreditə olunduğu Liviya Cəmahiriyyəsində tədbirlər keçirilmlşdi. O vaxt həmin tədbirlərdə Azərbaycan icmasının, "Vətən" tələbə təşkilatının, Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələrinin, habelə Misir-Azərbaycan Parlamentlərarası dostluq qrupu üzvləri iştirak etmişdilər. Fevrahn 26-da Misirin ən qabaqcıl xəbər televiziya kanalı olan və bir neçə dildə yayımlanan "Nile Akhbar" kanalında Azərbaycanın Misirdəki o vaxtkı səfiri Faiq Bağırovun müsahibəsi və Xocalı hadisələrindən bəhs edən "Məhv edilmiş şəhər" filmi ərəb dilində nümayiş etdirilmişdi.

Bundan başqa, Heydər Əliyev Fondu tərəfindən faciə ilə bağlı hazırlanmış təbliğat materialları, səfirliyin xüsusi xəbər bülleteni, Misirdə fəaliyyət göstərən "Vətən" tələbə təşkilatı tərəfindən ərəb dilində nəşr edilən "Azərbaycan" qəzetinin faciəyə həsr olunmuş xüsusi sayı, "Xocalıya Ədalət!" kampaniyası və kampaniyanın internet səhifəsi haqqında məlumatlar Misir və Liviyanın Xarici İşlər Nazirliklərinə, parlamentlərinə, Ərəb Dövlətləri Liqasına, bu ölkələrdə fəaliyyət göstərən hökumət və qeyri-hökumət təşkilatlarına, ictimai-mədəni və təhsil müəssisələrinə, kitabxanalara, diplomatik nümayəndəliklərə, beynəlxalq və regional təşkilatların ofislərinə göndərilmişdir.

Beynəlxalq aləmdə, artıq, xanım Leyla Əliyeva fenomeni formalaşmaqda idi. Məsələn, 2009-cu ilin fevralın 24-də Böyük Britaniyanın tanınmış tədqiqat mərkəzlərindən sayılan İmperiya Hərb Muzeyində Xocalı soyqırımı qurbanlarının anma mərasimi və "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma kampaniyasının təqdimat mərasimi keçirilmişdir. Tədbirdə Britaniya Parlamentinin üzvü Mayk Henkok, dövlət qurumlarının, o cümlədən Xarici İşlər Nazirliyinin rəsmiləri, Londonda akkreditə olunmuş səfirliklərin nümayəndələri, Qafqaz regionu üzrə ixtisaslaşmış tədqiqat mərkəzlərinin təmsilçiləri, jurnalistlər, Azərbaycan və türk icmalarının üzvləri iştirak etmişdilər. Tədbiri giriş sözü ilə açan səfir Fəxrəddin

Qurbanov Xocalı faciəsinin xalqımızın tarixində qanlı səhifələrdən biri olduğunu vurğulamış, faciə qurbanlarının yalnız azərbaycanlı olduqları üçün kütləvi qətlə məruz qaldıqlarını qeyd etmişdir. O, eyni zamanda, faciəyə indiyə qədər beynəlxalq ictimaiyyət və əlaqədar beynəlxalq təşkilatlar tərəfindən müvafiq siyasi və hüquqi qiymət verilmədiyinə təəssüf etdiyini diqqətə çatdırmışdır...

Beləliklə 5 ildir ki, "Xocalıya Ədalət!" uğurlu marafonunu ardıcıl davam etdirir.

*"**Xalq qəzeti**"*
26 fevral 2014-cü il. N 42. Səh. 9

***

QARABAĞ UĞRUNDA VURUŞAN KİTAB-SİLAH

yaxud

"Xocalıya Ədalət!" Beynəlxalq Kampaniyasının faktlar qaynağı

*Yazıçı-publisist, əməkdar jurnalist Vasif Səmədov və tanınmış alim, professor Rövşən Vəlizadənin **"LEYLA ƏLİYEVA: "XOCALIYA ƏDALƏT!" (BEYNƏLXALQ ERMƏNİ TERRORUNA QARŞI YENİ STRATEJİ MODEL)"** 2 cildlik monumental kitabı Heydər Əliyev Fondunun vitse-prezidenti, Dialoq və Əməkdaşlıq Uğrunda Islam Konfransı Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Koordinatoru Leyla Əliyevanın rəhbərliyi altında fəaliyyət göstərən "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kampaniyasının 5 illiyinə həsr edilmişdir. Kitaba Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Avropa Şurasının Parlament Assambleyasındakı Azərbaycan Nümayəndə Heyətinin üzvü, AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru, professor Rafael Hüseynov və Azərbaycan Respublikası Milli Məclisinin deputatı, AMEA-nın İnsan Hüquqları İnstitutunun direktoru, hüquq üzrə fəlsəfə doktoru, professor Aytən Mustafayeva tədqiqatın xarakterini, istiqamətini və məqsədlərini açan müfəssəl müqəddimə yazmışlar.*

"Leyla Əliyeva: "Xocalıya Ədalət!" (Beynəlxalq erməni terroruna qarşı yeni strateji model)" ikicildliyi, ilk növbədə, Azərbaycanın ayrılmaz parçası Qarabağın işğaldan azad edilməsi uğrunda Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən *ideoloji-diplomatik mübarizənin*

hazırkı mərhələsində həmin prosesə təkzibolunmaz fakt və dəlillər arsenalı verməsinə görə böyük əhəmiyyət daşıyır. Bu kitab, heç bir şübhə yeri qoymadan, tam mənası ilə sübut edir ki, Ermənistan və onun havadarlarının qabaqcadan planlaşdırılmış ssenari əsasında *Azərbaycanın Qarabağ ərazisini işğal etmələri əvvəldən axıradək qanlı cinayətlərlə baş tutan proses olmuşdur;* torpağı zəbt edilən bir ölkənin müdafiəsiz insanları, ən elementar beynəlxalq hüquq normaları tapdalana-tapdalana, ən antihumanist üsulların amansız tətbiqi ilə qırılıb-çatılmışdır; burada yalnız bir məqsəd olub: İnsanları öldürmək və onların yaşadığı Torpağı ələ keçirmək! Bu prosesin hər iki xəttində – həm müstəqil bir dövlətin – Azərbaycanın Qarabağ ərazisinin işğal edilməsində, həm də hərbi konfliktdə iştirak etməyən silahsız dinc əhalinin soyqırıma uğradılmasında Ermənistan və onun havadarları beynəlxalq hüququn bütün prinsiplərini pozmaqla, azərbaycanlılar nümunəsində bütün insanlığa qarşı böyük cinayət işləmişlər. İndi zaman çatıb. *Dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da qanlı cinayətlərə yol vermiş İnsanlıq Qatilləri cəzalandırılmalı və yalnız özgə torpaqlarını tutmaq məqsədləri ilə həyata keçirilən işğalçılıq faktı qətiyyətlə təsdiq edilərək, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır.*

Bu mənada Vasif Səmədov və Rövşən Vəlizadənin müəllifləri olduğu bu kitab Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin irəli sürdüyü (Cənab Prezident bəyan edir: "Bu gün dövlətin rəsmi qurumları ilə yanaşı, bütün vətəndaşlarımız, soydaşlarımız, geniş ictimaiyyət Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlılara qarşı həyata keçirilmiş soyqırımı siyasəti haqqında həqiqətlərin və faktların dünya parlamentlərinə, beynəlxalq ictimaiyyətə çatdırılması üçün ardıcıl və davamlı fəaliyyət göstərməlidirlər") vəzifələri tam yerinə yetirir və Leyla Əliyevanın 5 il öncə başladığı və artıq dünyanın 50-dən artıq ölkəsinin qoşulduğu "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının humanist mahiyyətini bütün aspektləri ilə göstərərək, insanlığın bu çağırışına daha biganə qalmağın mümkün olmadığını və ermənilərin həm episentr kimi Azərbaycan ərazisində, həm də dünyanın başqa yerlərində törətdiyi beynəlxalq terror aktlarına qanunla adekvat tədbir görülməsi tələbindən çıxış edir.

"Xocalıya Ədalət!" – ədalətsizliyə üsyan deməkdir. Getdikcə böyüyən, beynəlxalq miqyasda tərəfdarlarının sayını artıran bu hərəkatın başında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyeva dayanır. Leyla xanım Əliyevanın üzərinə götürdüyü missiya milli-siyasi mənafelərimizin, ərazi bütövlüyümüzün qorunması vəzifələrinə bilavasitə bağlı olsa da,

daha geniş beynəlxalq spektrdə insan hüquqları ideyasını möhkəmləndirən məzmun kəsb edir. Belə ki, bu aksiyaların həyata keçirilməsi ilə dünya insanları imperiya caynağından qopan, yeni yaranmış müstəqil dövlətlərə kobud müdaxilə ilə separatçılıq meyllərini qızışdırmağın, yerli vətəndaşları terrora, qaçqınlığa, heç nə ilə əvəz olunmayan böyük itkilərə məruz qoymağın necə ağır nəticələr verdiyinə şahid olurlar. İnsanların bir-birinə mərhəmət, şəfqət, xeyirxahlıq hissi oyanır, şərə, ədalətsizliyə, haqsızlığa müqavimət hissi səfərbər olur. Azərbaycanlı qızı Leyla xanım Əliyeva Xocalı faciəsi timsalında insanlıq dramına siyasətçilərdən tutmuş adi vətəndaşlara qədər hamını həssas münasibət göstərməyə çağırır. Onun fəaliyyətinin əsas platformasını təşkil edən humanizm – müharibə və konfliktlərin yaratdığı faciələrə sipər çəkmək iradəsini əks etdirdiyi üçün, görün ətrafına dünyada nə qədər tərəfdaş (onların da ön cinahını gənclər – gələcəyin mübarizləri təşkil edir) toplayıb! Kampaniyanın Xocalı faciəsini soyqırım aktı və insanlığa qarşı cinayət kimi tanımaq tələbi irəli sürən Müraciətini artıq bütün dünyada on minlərlə insan imzalayıb! Azərbaycan milli mənəviyyatının ən yaxşı dəyərlərini – vicdan, ədalətlilik, mübarizlik, insansevərlik keyfiyyətlərini özündə birləşdirən Leyla xanım Əliyevanın fəaliyyəti həqiqətən də dünya birliyində, siyasətdə və əxlaqda humanizm tendensiyasını dərinləşdirən proseslərin mühüm tərkib hissəsidir. Leyla xanım Əliyevanın humanitar istiqamətdəki fəaliyyəti mədəniyyət və incəsənət sferalarını da əhatə etdikcə, həmin fəaliyyətin konturları genişlənir, ideya və məzmun cəhətdən konseptuallaşır. Onun təqdimatında qoyulan problemlər həmişə ürəkdən gəldiyi və reallığı əks etdirdiyi üçün, auditoriyanın da yüksək səmimiyyəti və ilıq reaksiyası ilə qarşılanır. Leyla xanım Əliyeva beynəlxalq məclislərdə Azərbaycan həqiqətlərindən, Azərbaycanın Qarabağda tapdalanan haqqından danışır. Bu sözlər zərif bir azərbaycanlı qadının dilindən deyilsə də, qılınc kimi kəsərli olur. Onun nitqlərinin məntiqi qarşısında insanlığa düşmənliyin çürük ideologiyası tərksilah vəziyyətinə düşür. Leyla xanım Əliyevanın müasir dünyanın mütərəqqi humanizmini dəstəkləyən və irəli aparan fəaliyyəti gerçəkdən güclü iradənin və tükənməz enerjinin təcəssümüdür.

"Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kampaniyasının rəhbəri Leyla xanım Əliyevanın sərrast qeyd etdiyi kimi, ermənilər bu cinayətləri "XX əsrin sonlarında, düz Avropanın kandarında törətmişlərsə", deməli, erməni separatçıları dünyaya sırımaq istədikləri yalanların tam əksinə olaraq, bəşəriyyəti irəli aparanların – suverenitet və

demokratiyaya ehtiram bəsləyənlərin, insanlıq dəyərlərini uca tutanların, müharibəyə "Yox!" deyənlərin deyil, bəşəriyyəti geriyə çəkənlərin – daim savaş və konfliktlərdən bəhrələnənlərin, qan və göz yaşlarına susayanların, humanizmin bütün əxlaqi, mənəvi və siyasi dəyərlərini əzib-tapdalayanların yanındadırlar. Kitabın ortaya qoyduğu, əksəriyyətlə ilk dəfə üzə çıxardığı danılmaz faktlar bir daha sübut edir: əslində, "Böyük Ermənistan" və "fövqəlermәniçilik" – arxaik imperializmin bir fiksiyasıdır ki, hamıdan çox elə ermənilərin özü bu xəstə təxəyyüllərinin ilğım-obrazından ziyan çəkmişlər. Ermənilər tarix boyu dövlətlərarası münasibətlərin qaydalarını riyakarlıqla pozduqlarından və ən yaxın qonşularına belə xəyanətkar pusquda durduqlarından, özlərinə heç bir etibarlı dost-xalq qazana bilməmiş, həmişə böyük dövlətlərin yedəyində getməyə, daha doğrusu, sürünməyə özlərini məhkum etmişlər. Ona görə də qonşularının torpaqları hesabına "böyük dövlət" olmaq arzuları həmişə gözlərində qalmışdır. Ancaq bu arzu öz nüvəsində kin, nifrət, qəddarlıq, hiylə, yalan, rəzalət, düşmənçilik, siyasi əxlaqsızlıq alovunu kükrədərək həmişə ətrafına zəhər saçmışdır. Bu zəhərin region dövlətlərinin sağlam atmosferini bütün mənalarda (psixoloji, siyasi, diplomatik, hərbi-ekspansionist, bakterioloji...) necə korladığını kitab əyani faktlarla sübuta yetirir.

Vasif Səmədov və Rövşən Vəlizadə *ermənilərin soyqırım siyasətinin anatomiyasını* açaraq, ədalətə söykənən insanlığı həmin siyasətin yeridilməsi prosesində baş verən hadisələrə, işlədilən amansız texnologiyalara diqqət yetirməyə çağırırlar. Bu faktlar göstərir ki, ermənilər öz məqsədlərinə çatmaq üçün heç nədən çəkinməmişlər. Müəlliflər Dağlıq Qarabağda, Xocalıda qırğınlar törətmiş 366-cı alaydakı 02270 saylı hərbi hissənin əks-kəşfiyyat şöbəsinin rəisi Vladimir Savelyevin 8 il ərzində (1992 – 2000) BMT, Avropa Şurası, Baş Kəşfiyyat İdarəsi və s. instansiyalara təqdim etdiyi "Məxfi arayışı" və onun ətrafında cərəyan edən hadisələri analitik təhlildən keçirirlər. Xocalı genosidindən dəhşətə gəlmiş bir hərbçi-kəşfiyyatçının bu etiraf-sənədi rus və ermənilərdən ibarət olan həmin alayın necə və hansı şəraitdə yalnız azərbaycanlılardan ibarət olan bu yaşayış məntəqəsini və onun çoxsaylı əhalisini məhv etməsini bəlli edir.

Kitabın müəllifləri araşdırmaları ilə o reallığa da aydınlıq gətirirlər ki, həqiqətən də erməni terrorizminin episentri – Azərbaycandır və bu dağıdıcı zəlzələnin dalğaları bütün dünyaya yayıldığından, o, mahiyyətcə *beynəlxalq terrorizmdir:* beynəlxalq erməni terrorizmi dünyanın bir çox ölkələrində şəbəkələnmiş, başlıca olaraq, dünyanın türk dövlətlərinə (əsasən,

Azərbaycan və Türkiyəyə) qarşı funksiyalaşdırılmış cinayətkar bir qurumun təhlükəli ideologiyasıdır; beynəlxalq erməni terrorizmi sözün əsl mənasında təkcə ayrı-ayrı dövlətləri təhdid edən hadisə deyil, beynəlxalq təhlükəsizliyin özünü sarsıdan, beynəlxalq səviyyədə sabitliyi, dinc-yanaşı yaşamaq prinsiplərini pozan, dövlətlərarası münasibətləri dramatikləşdirən, dünya birliyinə doğru inkişafı ləngidən və xüsusilə, milli dövlətlərin suverenliyinə yönəlmiş fəaliyyətləri təhrik edən antihumanist təmayüldür.

Kitabın əsas mövzusu Xocalı soyqırımı olsa da, əslində, o, bütün Qarabağ faciəsini bütün spektrləri və kəskinliyi ilə əks etdirir. Burada nə tarix, nə psixologiya unudulur: bəlli edilir ki, ermənilərin Azərbaycana qarşı torpaq iddiaları, azərbaycanlılara qarşı əsassız qisasçılığı və absurd düşmənçiliyi etnopsixologiyanın dərin qatlarında cücərdilərək, zaman-zaman yeni nəsillərə ötürülür. Bu isə tarixdə bənzəri olmayan xəstə erməni mənəviyyatının hər dəfə yeni riyakarlıq qiyafəsində, lakin köhnə xislətində peyda olmasına gətirib çıxarır. Ona görə də 1918-ci ildə yenə də rus şovinistlərinin əli və silahı ilə Azərbaycanda qırğınlar törətmiş erməni ilə 1992-ci ilin fevralında Xocalıda soyqırımını həyata keçirən erməni arasında heç bir fərq yoxdur. Müəlliflər hətta genetikanı zədələyən səbəbləri ortaya çıxararkən, alimlərin gəldiyi müvafiq elmi nəticələrə də istinad edirlər. İngilis psixoloqu Maykl Frayd Rusiya Federasiyasının erməni məktəblərində apardığı tədqiqatları digərləri ilə müqayisə edərək yazır: "Rusiya Federasiyasında günəşin rəngini, Orta Asiyada Ay işığından tökülən rəngi, Ermənistanda qara rəngi, Gürcüstanda narıncı rəngi, Azərbaycanda isə dənizin tünd mavi rəngini çox sevirlər. Mənim ən çox qorxduğum qara rəngdir. Çünki qara rəng gen kodlarını terrora hazırlayır" (I c., s. 181).

Kitabın müəllifləri də *ermənilərin qara rəngli beynəlxalq terrorunu* insanlığa yağı kəsilmiş təhlükə mənbəyi kimi xarakterizə edərək, onların bütün əməllərinin "düyün nöqtəsi" olaraq Xocalı faciəsini önə çəkirlər. Müəlliflər göstərilən fakt üzrə Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunun Ekspert Komissiyasının hazırladığı siyasi-hüquqi sənədə istinad edərək, Xocalı soyqırımının beynəlxalq cinayət kimi səciyyəsini verir, həmin soyqırımın belə bir statusda tanınmasının beynəlxalq hüquqi bazasını və nəticələrini müəyyən edirlər: "...Beləliklə, ermənilər tərəfindən Xocalı əhalisi olan etnik azərbaycanlılara qarşı törədilmiş bütün əməllər beynəlxalq hüquq sənədlərinə uyğun olaraq soyqırım kimi qiymətləndirilir və beynəlxalq hüquq prinsiplərinə görə bəşəriyyətə qarşı cinayət sayılır" (I c., s. 175).

Ümumilikdə, Qarabağda, konkret olaraq Xocalıda törədilən müharibə cinayətlərinin, soyqırım aktlarının tarixi köklərini və hazırkı reallıqlarını təhlil edən müəllif-analitiklər həmin cinayətlər prosesinə və 20 ildən artıq davam edən işğal faktına dünya ictimaiyyətinin diqqətini yönəldərək, beynəlxalq erməni terroruna qarşı müqavimət hərəkatını formalaşdırmış "Xocalıya Ədalət!" kampaniyasının həm xalqımız, həm də bütövlükdə tərəqqipərvər bəşəriyyət üçün böyük önəm daşıyan fəaliyyətini qiymətləndirirlər. Göstərirlər ki, "Xocalıya Ədalət!" strateji proqramı – bütün platformasına görə zülmə, ədalətsizliyə qarşı fəal mübarizə hərəkatının layihəsidir; "Xocalıya Ədalət!" beynəlxalq aksiyası – bütün dünyada əzilən, günahsız, təqib olunan, qaçqın və köçkün halına düşən, evlərini, yurdlarını, doğmalarını itirən, işgəncələrə məruz qoyulan milyonlarla insanın faciəli həyat durumuna həssaslığı özündə əks etdirən humanist ideologiyanın həyata keçirilməsidir; "Xocalıya Ədalət!" nidası – bir körpənin belə qana boyanmış telini görmək istəməyənlərin, əksinə, terroru, qanı, dağıntını, fəlakəti vasitə sayanları haqq divanına çəkməyə qüdrəti çatanların getdikcə güclənən səsidir; "Xocalıya Ədalət!" harayı – 2012-ci ilin 22 noyabrında Vatikan qəzetinin yazdığı kimi, *"bəşəriyyətin, bütün əsrlərin çağırışıdır";* "Xocalıya Ədalət!" çağırışı – XXI əsrin dövlətləri və xalqlarının bir-birinə ehtiram ruhunda inkişaf edən münasibətlərinə sədaqətin ifadəsidir! Azərbaycan öz kökündən, tarixindən gələn məhz belə yenilməz mənəviyyata, mərd mübarizə əxlaqına malikdir!

Vasif Səmədov və Rövşən Vəlizadənin "Xocalıya Ədalət!" beynəlxalq hərəkatının faktlar qaynağı saydığımız bu sanballı tədqiqatı Qarabağ uğrunda vuruşan kitab-silah funksiyasında nəinki indi, nəinki Qarabağ işğaldan azad edilən prosesdə, hətta azad edildikdən sonra da gərəyimiz olacaq. Çünki, ermənilər çox məkrlidir. Azərbaycanın ərazi bütövlüyü bərpa olunandan sonra da məhz belə güclü faktlar arsenalı ilə gələcək mübarizələrə hazır olmalıyıq!.. Qarabağ uğrunda mübarizənin yeni mərhələsində beynəlxalq erməni terroruna qarşı mükəmməl strateji platformanı modelləşdirən bu əsər danılmaz tutarqalar toplusu, hədəf müəyyənliyi ilə Azərbaycan dövlətinin müstəqilliyinə və ərazi bütövlüyünə yönəlmiş və yönələcək hər cür təxribat və təhdidləri önləməyə, ifşa etməyə açar verən bir ideoloji-diplomatik silahdır əlimizdə.

Rahid ULUSEL
Fəlsəfə üzrə elmlər doktoru, professor
"İki sahil" qəzeti
26 fevral 2014-cü il , №35, səh.14

***

Moskvada Xocalı soyqırımının 22-ci ildönümü ilə əlaqədar anma tədbiri keçirilib

Fevralın 27-də Moskvanın "AZIMUT Moscow Olympic" otelinin konfrans salonunda Xocalı soyqırımının 22-ci ildönümünə həsr olunmuş anma tədbiri keçirilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti, Fondun Rusiya nümayəndəliyinin rəhbəri, "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının təşəbbüskarı Leyla Əliyeva tədbirdə iştirak edib.

Mehmanxananın foyesində Heydər Əliyev Fondu tərəfindən təşkil edilmiş "Uşaqlar və müharibə" mövzusunda rəsm sərgisi nümayiş olunub. Rəsmlər uşaq evlərinin sakinləri tərəfindən çəkilib.

Leyla Əliyeva tədbirdə çıxış edib:

- Bu gün biz "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası çərçivəsində Xocalı soyqırımı qurbanlarının xatirəsini yad etmək üçün toplaşmışıq. Bu kampaniya 5 il əvvəl Moskvada start götürmüşdür. Kampaniyanın başlıca məqsədi 22 il əvvəl Azərbaycanın Xocalı şəhərində törədilmiş faciə haqqında həqiqi informasiyanı dünya ictimaiyyətinə çatdırmaqdır. Artıq 5 ildir ki, bu fevral günlərində dünyanın 70-dən çox ölkəsində müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin nümayəndələri Xocalı faciəsinin qurbanları barədə haqq səslərini ucaldırlar.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərini ələ keçirdilər və nəticədə 613 nəfər dinc sakin, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca amansızlıqla qətlə yetirildi, min nəfərdən çox insan şikəst oldu. Bu faciə Azərbaycan tarixində ən dəhşətli, qanlı və müdhiş səhifələrdən biridir. Əlbəttə, bu gün biz nə etsək də o günahsız adamları həyata qaytara, öz yaxınlarını itirmiş insanların dərdini yüngülləşdirə, hər bir azərbaycanlının ürəyindəki yaranı sağalda bilməyəcəyik. Lakin "Xocalıya Ədalət!" kampaniyası çərçivəsində bu müddət ərzində böyük iş görülmüş və nəticələr əldə edilmişdir. Mən son 5 ildə bu kampaniyanın başlıca layihələrindən və nailiyyətlərindən sizə danışmaq istərdim. Ötən 5 ildə dünyanın 70-dən çox ölkəsində hər il Xocalı ilə bağlı konfranslar, sərgilər təşkil olunur. Kampaniyanın saytı 5 dildədir. Bu gün "Xocalıya Ədalət!" kampaniyasının çağırışı BMT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) tribunalarından, dünyanın hər yerində universitetlərdə, gənclər klublarında, habelə məscidlərdə, kilsələrdə

və sinaqoqlarda səslənir. Bu çağırış cavabsız qalmamışdır. Kampaniya nəticəsində 6 ölkənin və ABŞ-ın 14 ştatının parlamentləri Xocalı faciəsini soyqırımı aktı kimi tanımışdır. Bir neçə gün bundan əvvəl İƏT-in üzvü olan 53 ölkənin parlamentləri xüsusi qətnamə ilə təsdiq etmişlər ki, Xocalıda soyqırımı törədilmişdir. Bundan əvvəl İƏT-in üzvü olan 57 dövlətin başçıları tərəfindən analoji sənədlər qəbul olunmuşdur. Ankara, Sarayevo, Haaqa, Mexiko şəhərlərində Xocalı abidələri ucaldılmışdır. Keçən il iyulun 9-da – Srebrenitsa qurbanlarının milli matəm günündə Sarayevonun mərkəzində bütün gün ərzində işıqlandırılmış monitorda "Xocalıya Ədalət!" çağırışı səslənmişdir. Xocalı haqqında müntəzəm olaraq kitablar çap edilir, bukletlər, məlumatlar nəşr olunur, filmlər çəkilir. Bu filmlərdən birinin qəhrəmanı, helikopter pilotu Leonid Kravets bu gün bizimlədir. Mən 1992-ci ildə günahsız insanları xilas edərkən göstərdiyi cəsarətə, bu faciə haqqında bütün həqiqəti danışmaqla nümayiş etdirdiyi igidliyə görə ona "çox sağ olun" deyirəm.

Bu gün kampaniyamızın fəaliyyətinin yeni mərhələsi başlanır. Biz əldə etdiklərimizlə kifayətlənmək niyyətində deyilik, irəlidə hələ çox layihələrimiz və tədbirlərimiz vardır. İnanıram ki, dünyada Xocalı hadisələrini soyqırımı kimi tanıyan ölkələrin sayı ildən-ilə artacaqdır. Tezliklə isə dünya birliyi bu faciəyə ədalətli hüquqi və mənəvi qiymət verəcəkdir.

XXI əsrdə kütləvi qətllərə, qanlı qırğına və soyqırımına yer olmamalıdır. Bu gün Azərbaycan müxtəlif sahələrdə uğurları ilə bütün dünyanı heyran qoyan, iqtisadiyyat, idman, mədəniyyət, elm sahələrində dinamik inkişaf edən, abadlaşan güclü, müasir və müstəqil dövlətdir. Azərbaycan regional liderdir. Zaman göstərmişdir ki, Azərbaycan xalqının ruhu qırılmamışdır. Çünki Azərbaycan xalqının ruhunu heç vaxt heç kim heç nə ilə qıra bilməz. İnanıram ki, Azərbaycanın ərazi bütövlüyü tezliklə bərpa olunacaq, bütün qaçqınlar və məcburi köçkünlər doğma yurd-yuvalarına, doğma torpaqlarına qayıdacaqlar.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu "Xocalıya Ədalət!" kampaniyasının təşəbbüskarı olan Leyla Əliyevaya minnətdarlığını bildirib, bu kampaniya sayəsində son bir neçə ildə bir çox beynəlxalq təşkilatların müvafiq qətnamələr qəbul etdiyini, dünyada Xocalıda törədilən hərbi cinayətlərin tanınması prosesinin genişləndiyini qeyd edib.

Mərasimdə Ümumrusiya Azərbaycanlıları Konqresinin prezidenti Məmməd Əliyev, Azərbaycanın Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədri Elşad İsgəndərov, Rusiyanın Yəhudi Dini İcmaları və Təşkilatları

Konqresinin vitse-prezidenti Zinovi Koqan, 1992-ci ildə faciə yerindən videoçəkilişlərin aparıldığı helikopterin komandiri Leonid Kravets çıxış ediblər.

Sonda "Cəhənnəmi görmüş pilot" filmi nümayiş etdirilib, Xocalı faciəsi qurbanlarının xatirəsinə ehsan verilib.

Tədbirdə Rusiya ictimaiyyətinin nümayəndələri, siyasətçilər, Moskvada akkreditə olunmuş diplomatik korpusun, Azərbaycanın Rusiyadakı səfirliyinin əməkdaşları, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin, Ümumrusiya Azərbaycan Konqresinin, Rusiya Azərbaycanlı Gənclər Təşkilatının təmsilçiləri iştirak ediblər.

http://www.leyla-aliyeva.az/activity?cat=7#.Uz5Jjqh_tyw
27 fevral 2014-cü il

***

Böyük Britaniyanın Birmingem Universitetinin internet jurnalında Leyla Əliyevanın beynəlxalq əhəmiyyətli humanitar fəaliyyəti haqqında məqalə yerləşdirilmişdir

Birmingem Universitetinin dövlət idarəetməsi fakültəsinin magistri, azərbaycanlı tələbə Savalan Süleymanlının bu nüfuzlu ali təhsil ocağının 13 dildə yayımlanan "The Linguist Magazine" internet jurnalında ilk dəfə Leyla xanım Əliyevanın beynəlxalq əhəmiyyət kəsb edən humanitar fəaliyyətinə dair "Bəşəri dəyərlərin təbliği millətlərarası münasibətlərin güclənməsinə necə təsir göstərir? Leyla Əliyeva tərəfindən həyata keçirilən müqəddəs missiya" adlı geniş məzmunlu məqaləsi yerləşdirilmişdir.

Məqalədə gənc müəllif bəşəri dəyərlərin təbliğinin dünyada sülh və sabitliyin təmin edilməsində başlıca faktor olduğunu bildirərək, Leyla xanım Əliyevanın təşəbbüsü ilə bu istiqamətdə həyata keçirilən tədbirlərin müasir dünya üçün xüsusi önəm kəsb etdiyini vurğulayır. Bütövlükdə, Leyla xanım

Əliyevanın Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Əməkdaşlıq Təşkilatının Dialoq və Əməkdaşlıq uğrunda Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə Baş Əlaqələndiricisi və Ətraf Mühitin Mühafizəsi üzrə Beynəlxalq Dialoq təşəbbüsünün təsisçisi kimi geniş spektrdə həyata keçirdiyi tədbirlərə nəzər salınır. Bu tədbirlərin Azərbaycanın coğrafi sərhədləri ilə məhdudlaşmadığı, Avropa və Amerika miqyaslarına çıxdığı qeyd olunaraq, bütövlükdə bəşər irsinin qorunmasına, humanist əxlaqın inkişafına xidmət etdiyi bildirilir. Eyni zamanda, Leyla xanım Əliyevanın Dağlıq Qarabağ münaqişəsi həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında göstərdiyi xidmətlərə yer verilərək, bu çərçivədə həyata keçirilən "Xocalıya Ədalət" kampaniyasının uğurlarından bəhs olunur.

http://thelinguistmagazine.org/category/en/

***

Leyla Əliyeva: "Xocalı faciəsində vəhşicəsinə qətlə yetirilən günahsız insanlar heç zaman unudulmayacaq və qəlblərimizdə əbədi yaşayacaqlar"

Fevralın 28-də Moskvanın "Yunost" mehmanxanasında Xocalı soyqırımının 21-ci ildönümünə həsr olunmuş anma tədbiri keçirilmişdir.

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, Fondun Rusiya nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyeva iştirak etmişdir.

"Yunost" mehmanxanasının foyesində Bakının Nizami rayonundakı 1 nömrəli, Suraxanı rayonundakı 2 nömrəli və Xətai rayonundakı 3 nömrəli uşaq evlərində tərbiyə alan, Heydər Əliyev Fondunun keçirdiyi "Uşaqlar və müharibə" rəsm sərgisində iştirak etmiş uşaqların rəsmləri sərgilənmişdir. Leyla xanım Əliyevanın təşəbbüsü ilə Moskvaya dəvət olunmuş balaca rəssamların əl işlərində müharibəyə, zülmə və ədalətsizliyə etiraz əksini tapmışdır. Uşaqlar onları Moskvaya dəvət etdiyinə görə Leyla xanım Əliyevaya təşəkkürlərini bildirmiş, ona Azərbaycanın gerbi və bayrağı əks olunmuş rəsmlərini hədiyyə etmişlər.

Xocalı faciəsini əks etdirən fotoşəkillər asılmış salona toplaşanlar bu soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər. Sonra

"Xocalıya Ədalət!" kampaniyası çərçivəsində Rusiyada həyata keçirilən aksiyalar barədə film nümayiş etdirilmişdir.

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti, Fondun Rusiya nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyeva çıxış edərək bildirmişdir ki, artıq 21 ildir ki, biz Qarabağ münaqişəsinin ən qanlı və dəhşətli səhifələrindən birinin qurbanlarının xatirəsini yad etmək üçün toplaşırıq. İyirmi bir il əvvəl fevralın 25-dən 26-na keçən gecə erməni silahlıları Azərbaycanın Xocalı şəhərinə soxularaq 613 dinc insanı, 63 uşağı, 106 qadını və 70 qocanı qətlə yetirmişlər. Bu 613 günahsız, vəhşicəsinə qətlə yetirilmiş insan heç zaman unudulmayacaq və qəlblərimizdə daim yaşayacaqdır. 1992-ci ilin həmin fevral gecəsi baş verən dəhşətli hadisələrə dünya ictimaiyyəti tərəfindən hüquqi və mənəvi qiymət verilməlidir.

Leyla Əliyeva demişdir: "Dünya Xocalı barədə bilməlidir ki, bu cür qətllər və cinayətlər heç yerdə təkrar olunmasın. Məhz buna görə də biz 2008-ci il mayın 8-də ""Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının keçirilməsi təşəbbüsünü irəli sürdük. Kampaniyanın məqsədi bu faciə barədə dünya ictimaiyyətinə məlumat verməkdir. Kampaniya çərçivəsində artıq 700 mindən çox imza toplanmışdır". Leyla xanım Əliyeva vurğulamışdır ki, Heydər Əliyev Fondu bir neçə ildir ki, Avropanın, Asiyanın, Afrikanın, Şimali və Cənubi Amerikanın 70-dən çox ölkəsində bu faciəyə həsr olunmuş tədbirlər keçirir. Tədbirlər çərçivəsində müxtəlif ölkələrin parlamentləri və dövlət qurumları qarşısında etiraz aksiyaları, piketlər, habelə seminarlar, konfranslar keçirilir, kitablar nəşr olunur, filmlər çəkilir. "Xocalıya Ədalət!" kampaniyası sayəsində Xocalı faciəsi bir sıra beynəlxalq təşkilatlar tərəfindən tanınmışdır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva demişdir: "Hazırda Pakistan, Meksika, Çexiya, Kolumbiya, Bosniya və Herseqovina parlamentləri Xocalı faciəsini soyqırımı və Azərbaycana qarşı cinayət aktı kimi tanımışlar. Bundan əlavə, ABŞ-ın 7 ştatı bu soyqırımını tanımışdır. Biz bu istiqamətdə işimizi davam etdirəcəyik, hələ çox işlər görəcəyik və mən inanıram ki, tezliklə dünyanın bir çox ölkəsi bu soyqırımını tanıyacaq, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz ədalətli həllini tapacaqdır. Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək və bütün qaçqınlar və məcburi köçkünlər doğma torpaqlarına, evlərinə qayıdacaqlar".

Bu tədbirin Ermənistan ilə Azərbaycan arasında uzun müddət davam edən münaqişənin həlli məsələsinə mühüm təsir göstərən Rusiyanın paytaxtında keçirildiyini vurğulayan Leyla xanım Əliyeva demişdir:

"İstərdim ki, dünyanın bütün ölkələrinin vətəndaşları kimi, Rusiya vətəndaşları da bu dəhşətli faciə haqqında həqiqəti bilsinlər. Əlbəttə, bizim bu gün gördüyümüz işlər həlak olmuş insanların həyatını qaytara, sağ qalmış xocalıların yarasını sağalda bilməz. Biz o qadınları, uşaqları və qocaları heç zaman unutmayacağıq".

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu çıxışında bildirmişdir ki, Xocalı faciəsindən sonra Azərbaycan bu problemi dünya ictimaiyyətinin diqqətinə çatdırmağa çalışırdı. Ancaq yalnız son bir neçə ildə Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü siyasəti, Heydər Əliyev Fondunun və böyük dünya aksiyasına çevrilmiş "Xocalıya Ədalət!" kampaniyasının təşəbbüskarı Leyla xanım Əliyevanın səyləri sayəsində dünya üzünü Azərbaycan tərəfə çevirməyə başlamışdır. Səfir demişdir: "Bu, göstərir ki, artıq dünyada insanlar həqiqəti yalandan ayırmağa başlamışlar. Biz və gələcək nəsillər bu cür faciələrin dünyanın heç bir yerində təkrar olunmaması naminə Xocalını unutmamalıyıq".

Sonra Ümumrusiya Azərbaycan Konqresinin prezidenti Məmməd Əliyev, 1991-1992-ci illərdə Füzuli rayonunun hərbi komendantı olmuş, qəhrəmanlığına və vətəndaş mövqeyinə görə Azərbaycan Milli Məclisinin fəxri medalına layiq görülmüş istefada olan general-leytenant Aleksandr Volox, "Xocalıya Ədalət!" kampaniyasının əlaqələndiricisi Nicat Məmmədli çıxış edərək Xocalı faciəsinin dünya tarixində ən qanlı soyqırımı olduğunu vurğulamış, bu faciənin səbəbkarları barədə həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində görülən işlərdən danışmışlar.

Sonda Moskvaya dəvət olunmuş balaca rəssamlar Xocalıya həsr olunmuş şerlər söyləmişlər.

Tədbirdə Rusiya ictimaiyyətinin nümayəndələri, siyasətçilər, Moskvada akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, Azərbaycanın Rusiyadakı səfirliyinin əməkdaşları, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin, Ümumrusiya Azərbaycan Konqresinin, Rusiya Azərbaycanlı Gənclər Təşkilatının təmsilçiləri iştirak etmişlər.

AzərTAc
28 fevral 2014-cü il

* * *

Hörmətli oxucu! Sizə "Xəbərlər Qovluğundan" bölümündə təqdim etdiyimiz materiallar ölkəmizin dövri mətbuat səhifələrində dərc edilmiş "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kampaniyasının yarandığı gündən bu günədək – 5 illik fəaliyyətindən bəhs edən tarixi salnaməsidir. Əlbəttə, kampaniyanın beynəlxalq aləmdə keçirdiyi tədbirlər və onların əhəmiyyəti barədə dünya mətbuatında da kifayət qədər materiallar çap olunmuşdur. Lakin bizim məqsədimiz oxucuların diqqətini Heydər Əliyev Fondunun dəstəyi ilə "Xocalıya Ədalət!" kampaniyasının 5 il ərzində keçdiyi tarixi yolu respublika mediasının təqdimatında verməklə kampaniyanın həyata keçirdiyi tədbirlərin ölkəmiz üçün nə dərəcədə zəruri, əhəmiyyətli olduğuna cəlb etmək idi. Əgər kampaniyanın 5 illik fəaliyyətinə diqqət yetirsək, görərik ki, bu çətin, lakin şərəfli, humanist işdə qarşıya qoyulmuş məqsədlərə doğru nə qədər sevindirici irəliləyişlər olmuş, uğurlu nəticələr əldə edilmişdir. Beləliklə, beynəlxalq aləmdə Xocalı soyqırımına hüquqi, siyasi və mənəvi qiymət verilməsi istiqamətində kampaniyanın məqsədyönlü, səmərəli fəaliyyəti nəticəsində ölkəmiz siyasi, hüquqi dividentlər əldə etmişdir. "Xəbərlər Qovluğundan" göründüyü kimi, "Xocalıya Ədalət!" kampaniyası öz müqəddəs və şərəfli missiyasını haqq, ədalət, zəfər çalanadək yorulmadan davam etdirəcəkdir.

Bu işdə tarixçilərimiz, siyasətçilərimiz, hüquqşünaslarımız, jurnalistlərimiz, elmi ictimaiyyət əl-ələ verib "Xocalıya Ədalət!" kampaniyasının tarixi müqəddəs missiyasının həyata keçirilməsində konkret fəaliyyətləri ilə kömək etməlidirlər. Bu baxımdan, hələ görüləsi işlərimiz, elmi, tarixi, hüquqi aspektdən araşdırılması zəruriyəti yaradan problemlər də mövcuddur: *ermənilərin siyasi və dini strukturlarının hüquqazidd fəaliyyəti; ermənilərin cinayətkar strukturları; ermənilərin hüquqazidd əməllərində Rusiya (İmperiya) mərhələsi; ermənilərə havadar dövlətlər və bunun tarixi səbəbləri; ermənilərin hüquqazidd əməllərində sovet və postsovet (Rusiya) mərhələləri; cinayətkar erməni sindikatının beynəlxalq aksiyaları; ermənilərin Azərbaycana və azərbaycanlılara qarşı törətdikləri müxtəlif cinayətlər; etnik cinayətlər və ya bəşəriyyətə qarşı cinayətlər; elmi-mədəni və konfessional cinayətlər; ərazi cinayətləri; toponimik cinayətlər və s.* bu kimi kökündən araşdırılması zəruri olan məsələlər çoxdur. Şübhəsiz, bu mövzuda yazılmış materiallar da vardır. Lakin mövcud materiallardan kifayətlənməyərək bu və ya digər tədqiq edilməli digər vacib məsələlərə diqqət daha da artırılmalıdır. Bunlara lazımi səviyyədə nail olmaqla, "Xocalıya Ədalət!" kampaniyasının tarixi fakt arsenalını daha da zənginləşdirər, təkzibedilməz, elmi, tarixi faktlar hədəfə sərrast vura biləcək silahımız olar. Belə faktlar, elmi mənbələr kifayət qədərdir. Millət, vətən, dövlət və dövlətçilik təəssübkeşliyi də başlıca amalımız kimi!

SOYQIRIMI İNSANLIĞA QARŞI AMANSIZ CİNAYƏTDİR

Əsl soyqırımı haqqında həqiqətləri real tarixi faktlar əsasında, dəlillərlə müntəzəm surətdə dünya dövlətlərinə və ictimai fikrinə çatdırmaq, bu hadisələrin ilhamçılarını və təşkilatçılarını bəşəriyyətə tanıtdırmaq bizim, indiki nəslin müqəddəs vəzifəsidir.

Heydər ƏLİYEV
Ümummilli lider

Bəşər tarixində zaman-zaman soyqırımıları törədilmiş, günahsız yerə insanlar irqinə, dininə və milliyyətinə görə qanına qəltan edilmişdir. Lakin, tarix indiyədək ermənilərin törətdiyi qədər dəhşətli və iyrənc formalarda həyata keçirilən qəddarlıq, vəhşilik və vandalizmə şahidlik etməmişdir. Erməni daşnaklarının insanların nifrətinə səbəb olan bu vəhşiliyi bütün zamanlarda özünü qabarıq şəkildə göstərmişdir. XX yüzillik boyu erməni cəlladları tərəfindən xalqımıza qarşı dəfələrlə törədilən qanlı qırğınlar bütün dəhşətləri ilə insan zəkasına sığmayan və dilə gətirilməsi mümkün olmayan bir faciədir və xalqımıza qarşı əsl genosid siyasətidir. Erməni millətçiləri tarix boyu ən qəddar və rəzil mübarizə formalarından istifadə edərək öz istəklərini reallaşdırmağa cəhd etmiş və bu yolda dəridən-qabıqdan çıxmışlar. Xüsusilə, XIX-

XX əsrlərdə çar Rusiyası və sovet imperiyasının havadarlığıyla onların Azərbaycan türklərinə qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır.

Erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan soyqırımı və təcavüz siyasətinin iki yüz ildən artıq tarixi vardır. Bu siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, həmin ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduğu "Böyük Ermənistan" dövləti yaratmaq idi. Öz mənfur və təhlükəli siyasətlərini gerçəkləşdirmək üçün onlar müxtəlif üsul və vasitələrdən, tarixin saxtalaşdırılmasından, siyasi təxribatlardan istifadə edərək, dövlət səviyyəsində davakar millətçiliyi və separatizmi ilə qonşu xalqlara qarşı təcavüzü həyata keçirmişlər. Bu məqsədlə Ermənistanda və ayrı-ayrı xarici dövlətlərdə "milli-mədəni", dini, siyasi və hətta terrorçu təşkilatlar qurmaqla, erməni diasporunun və lobbisinin imkanlarını səfərbər ediblər. XIX əsrin birinci rübündə Rusiya və İran arasında gedən müharibələr nəticəsində Azərbaycanın ikiyə bölünməsi ilə azərbaycanlıların əsrlərlə yaşadıqları ata-baba torpaqlarına - İrəvan, Zəngəzur, Göyçə və Qarabağa İran və Türkiyədən ermənilərin məqsədli şəkildə kütləvi köçürülməsinə start verilmiş, burada demoqrafik vəziyyət süni surətdə dəyişdirilmişdir. Mərhələ-mərhələ gücləndirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadıqları ata-baba yurdlarından qovularaq deportasiyaya, kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğınlar xalqımızın qan yaddaşında əbədi iz buraxıb. Ötən əsrin əvvəllərindən başlayaraq ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırımı və deportasiya siyasəti 1918-1920-ci illərdə xüsusilə genişlənmiş və Azərbaycan xalqını Yer üzündən tam silmək kimi iyrənc niyyətlərini bütün çılpaqlığı ilə üzə çıxarmışdır. Həmin illərdə ermənilərin Azərbaycanda törətdikləri milli qırğın haqqında bizə çatan tarixi sənədlərdəki faktlar Şamaxıda, Qubada, Muğanda, Göyçayda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıların amansızlıqla qətlə yetirildiyini, şəhər və kəndləri talan edilərək dağıdıldığını sübut edir. Azərbaycanın ayrı-ayrı bölgələrində olduğu

kimi, Bakıda da həmin illərdə azərbaycanlıların soyqırımı həyata keçirilmiş və şəhər erməni silahlı dəstələri tərəfindən dağıdılmışdır. 1918-ci ilin mart ayının son günlərində ümumilikdə Azərbaycanda rəsmi məlumatlara əsasən, 50 minə yaxın əhalini ermənilər xüsusi amansızlıqla qətlə yetirmişlər. Mart qırğınları haqqında Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Y.Kluge yazır: "Ermənilər müsəlman əhalisini işgəncələrlə öldürür, şəmşirlərlə parçalayır, süngü ilə dəlik-deşik edir, körpə uşaqları süngüyə keçirir, cəsədlərin burun, qulaq və başlarını kəsir, evlərə od vurub, sakinlərqarışıq yandırır, qadınları soyundurur və saçlarını bir-birinə bağlayaraq tüfəngin qundağı ilə ölüncəyə qədər döyürdülər". Kluge ermənilər tərəfindən üzü divara çevrilərək itlərə gəmirdilən azərbaycanlıların şəkillərini də çəkmişdir. Bu faktlar erməni daşnak qaniçənlərinin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərin kiçik bir hissəsidir və ancaq 1918-ci ilin mart ayının son üç günündə törədilən Bakı qırğınını əks etdirir.

1918-ci ildə erməni bandaları insanlara qarşı vəhşiliklər etdikləri kimi, mədəniyyət abidələrini və tarixi abidələri də vəhşicəsinə dağıdır, məscidləri yandırır, memarlıq incisi sayılan binaları yerlə-yeksan edirmişlər. Mart qırğını haqqında olan mənbələrdə göstərilir ki, ermənilər bir çox qədim binaları, o cümlədən Cümə məscidini, İsmailiyyə binasını top atəşinə tutaraq dağıtmışlar. Həmin dövrü əhatə edən, 1918-ci ildə Bakının dağıdılmasını əks etdirən tarixi foto şəkillər də tarixçilərin yazdıqlarını əyani şəkildə təsdiqləyir.

1918-ci ilin mart soyqırımı zamanı Bakı şəhərində 11 min nəfərədək türk-müsəlman öldürülmüşdür. Onların çoxunun meyitləri tapılmamışdır. Çünki şahidlərin dediklərinə görə, ermənilər meyitləri od-alova bürünmüş evlərə, dənizə və quyulara atırdılar ki, cinayətin izini itirsinlər. Bakının şəhər camaatından 400 milyon manatlıq daş-qaş və əmlak talan olunmuşdur. Xalqın bir çox ziyarətgahları və tarixi abidələri dağıdılıb yerlə-yeksan edilmişdir. Uzaqvuran topdan açılan atəş nəticəsində Təzəpir məscidi zədələnmişdir.

Həmin dövrdə qədim Azərbaycan şəhəri Şamaxı da dəhşətli talan və vəhşiliklərə məruz qalmışdı. Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında 7 cild, 925 vərəqdən ibarət materiallar toplanıb. Tarixi mənbələrdən aydın olur ki, Şamaxının müsəlmanlar yaşayan hissəsinin hamısına od vurulmuşdu, 13 məhəllə

məscidi və məşhur müqəddəs ocaq - Cümə məscidi yandırılmışdı. Erməni quldurları minlərlə dinc adamı qətlə yetirmişdi. Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 azərbaycanlını qətlə yetirmişdilər. Onlardan 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri uşaq olmuşdur. Bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339,8 milyon manat olmuşdur. Əvvəlcədən qurulmuş plana görə daşnak-bolşevik qoşunu Şamaxını işğal etdikdən sonra Quba qəzasına daxil olmalı idi. S.Şaumyan Cənubi Qafqazda böyük Ermənistan dövləti yaratmaq üçün bütün imkanlardan istifadə edirdi ki, Azərbaycan müstəqil dövlət kimi mövcud olmasın. Ermənilər bolşeviklərin köməyi ilə Quba qəzasında üç dəfə qırğın törətmişlər. Ermənilərin vəhşilikləri nəticəsində 1918-ci ilin ilk 5 ayı ərzində üst-üstə 16 mindən çox insan məhv edilmişdir. 1918-ci ilin qırğınları zamanı daşnak-bolşevik birləşmələri Quba qəzasında 162 kəndi dağıtmışdılar ki, bunlardan 35-i hazırda mövcud deyil.

Azərbaycanlılara qarşı törədilən soyqırımı və etnik təmizləmə siyasətinə, torpaqlarımızın məqsədyönlü şəkildə işğal edilməsi kimi qanunsuz hərəkətlərə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri M.Hacınski 1918-ci il iyulun 15-də Azərbaycan hökumətinə müraciət edərək Azərbaycan ərazisinin 4 ay ərzində özlərini bolşevik adlandıran erməni silahlı hissələri tərəfindən parçalandığını, müsəlman əhalisinin həyat və əmlakları üzərində ağlasığmaz vəhşiliklər törədildiyini, eyni zamanda, həmin quldur dəstələrinin təşkilatçıları tərəfindən göndərilən yalan məlumatlara əsasən respublikamız haqqında Avropada tamamilə əks ictimai rəyin formalaşdırıldığını göstərmiş, həm ümumdövlət, həm də zərərçəkən əhalinin maraqlarının müdafiəsi, bütün zorakı hadisələrin qeydə alınması, onların başvermə şəraitinin, təqsirli şəxslərin və dəymiş ziyanın məbləğinin müəyyənləşdirilməsi üçün xüsusi qurumun yaradılmasını, komissiyanın işi barədə məlumatların əsas Avropa dilləri olan rus, fransız, alman və türk dillərində geniş yayılmasını təklif etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti xarici işlər nazirinin müavini F.Xoyskinin 1918-ci il 31 avqust tarixli qərarına əsasən, Ələkbər bəy Xasməmmədovun rəhbərliyi altında Gəncə Dairə Məhkəməsinin üzvləri İsmayıl bəy Şamxəliyev və Andrey Fomiç Novatski, həmin məhkəmənin prokuroru Nəsrəddin bəy Səfikürdski, Nikolay Mixayloviç Mixaylov,

V.Qudvillo və Mirzə Cavad Axundzadədən ibarət Fövqəladə İstintaq Komissiyası yaradılmışdır.

Komissiya il yarım ərzində - 1918-ci ilin avqustundan 1919-cu ilin noyabrınadək erməni millətçiləri tərəfindən türk-müsəlman əhalinin kütləvi surətdə məhv edilməsini və ona külli miqdarda maddi ziyan vurulmasını əks etdirən böyük həcmdə kompleks materialların toplanmasına müvəffəq oldu. FHK tərəfindən toplanmış istintaq materialları 36 cild və 3500 vərəq təşkil etməklə Bakı, Şamaxı, Quba, Nuxa şəhərlərində, Bakı və Gəncənin ətraf ərazilərində, habelə Şamaxı, Quba, Cavad, Nuxa, Göyçay, Ərəş, Lənkəran qəzalarında, Qarabağda, Zəngəzurda və Azərbaycanın digər rayonlarında ermənilərin törətdiyi dəhşətli cinayətləri sübut edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış istintaq komissiyasının hesabatında bu hadisələr zamanı ölənlərin sayının 20 mindən çox olduğu bildirilir. Lakin Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatdırılmasına imkan verməmişdir.

Paris Sülh Konfransına yollanan Azərbaycan nümayəndə heyəti Avropa dillərinə tərcümə edilmiş həmin materiallardan ibarət 6 cild və 95 fotoşəklin surətlərini böyük dövlətlərin başçılarına və beynəlxalq təşkilatlara təqdim etmişdi. 1919-cu ilin mayında Parisdəki Azərbaycan nümayəndə heyətinin sərəncamına əsasən komissiya tərəfindən hazırlanmış əlavə material, 95 fotoşəkil və 80-nə yaxın diapozitiv göndərilmişdi. Həmin kolleksiyadan olan və uzun müddət biryolluq itmiş hesab edilən bu ifşaedici fotolar yalnız 2011-ci ildə Amerikada tapılmış və hazırda əsilləri Avropanın məşhur Beynəlxalq Sosial Tarix İnstitunun arxivində saxlanmaqdadır.

Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 1918-ci ildə yaratdığı Fövqəladə İstintaq Komissiyası tərəfindən ermənilərin həmin ilin aprel-may aylarında Quba qəzasında dinc müsəlman əhalisini kütləvi şəkildə qətlə yetirməsi, bütöv kəndləri, yaşayış evlərini, məscidləri və ictimai binaları yandırması, qız və qadınların kütləvi şəkildə zorlanması və digər zorakı cinayətlər törədilməsi faktları üzrə istintaq aparılmış, cinayət törətmiş şəxslərin o dövrün "Uqolovnoe Ulojenie" adlandırılan Cinayət Qanununun müxtəlif maddələri ilə ittiham olunmaları barədə qərar qəbul edilmişdir.

Azərbaycan xalqına qarşı erməni millətçiləri tərəfindən yeridilən soyqırımı siyasətinin bariz nümunəsi kimi onların Quba qəzasında törətdikləri və öz amansızlığı ilə seçilən cinayətlər barədə yeni faktların aşkara çıxarılmasının

tarixi əhəmiyyəti xüsusi qeyd olunmalıdır. Belə ki, 2007-ci il aprelin 5-də Quba şəhər stadionunda aparılan tikinti və yenidənqurma işləri zamanı ərazidə içərisində çoxsaylı müxtəlif yaş və cins qruplarına məxsus skeletlərdən ibarət kütləvi insan məzarlığı aşkar edilmişdir.

Quba şəhərində kütləvi insan məzarlığının aşkar edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğunda müvafiq araşdırmalar aparılmışdır. Prokurorluğun araşdırmaları zamanı Siyəzən, Şabran, Quba, Xaçmaz və Qusar rayonlarının bir çox sakinlərinin, o cümlədən göstərilən hadisələrin bilavasitə şahidlərinin izahatlarında 1918-ci ilin mart və aprel aylarında erməni millətçiləri tərəfindən Azərbaycan kəndlərinin talan edilərək yandırılması, azərbaycanlıların işgəncə verilərək öldürülməsi və digər ağır cinayətlər törədilməsi bir daha öz təsdiqini tapmışdır.

1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan və Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra da bədnam qonşularımız adət etdikləri çirkin metodlarla azərbaycanlıları daimi yaşadıqları ərazilərdən çıxarmış, eləcə də qonşu respublikaların torpaqları hesabına "ərazilərini" böyütmüşlər. 1920-ci ildə Zəngəzuru və Azərbaycan torpaqlarının bir hissəsini Ermənistan SSR-in ərazisi elan etmişlər. 1923-cü ildə SSRİ rəhbərliyinin qərarı ilə Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağ "muxtar vilayət" elan edilmişdir. Sonrakı dövrdə isə ermənilər bu ərazilərdəki azərbaycanlıların deportasiyası siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atmışlar. Onlar 1943-cü ildə Tehranda keçirilən konfransda İranda yaşayan ermənilərin sovetlər birliyinə köçürülməsinə icazə verilməsi xahişi ilə SSRİ xarici işlər naziri V.Molotova müraciət ünvanlamışlar. İosif Stalinin buna razılıq verməsi isə faktiki olaraq azərbaycanlıların 1948-53-cü illərdə kütləvi şəkildə Ermənistandan deportasiyasının əsasını qoymuşdur.

Stalin tərəfindən imzalanmış SSRİ Nazirlər Sovetinin "Kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli 4083 saylı və köçürülmənin tədbirlər planı haqqında 10 mart 1948-ci il tarixli qərarları ilə bu məsələ artıq SSRİ-nin dövlət siyasəti səviyyəsinə çatdırılmış, yüz minlərlə azərbaycanlının Ermənistandan deportasiyası Ermənistan ərazisindəki azərbaycanlıların qədim məskənləri olan dədə-baba torpaqlarının boşaldılması üçün nəzərdə tutulmuşdur. SSRİ Nazirlər Sovetinin bu qərarları

Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur. Bu qərarlar əsasında 1948-1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar.

Erməni millətçiləri ötən əsrin 50-ci illərindən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasını daha da genişləndirmişlər. Ermənistanda yaşayan azərbaycanlı əhalinin hüquqları ermənilər tərəfindən kobudcasına pozulmuş, ana dilində təhsil almalarına əngəllər törədilmiş, onlara qarşı repressiyalar həyata keçirilmişdir. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilmiş, tarixdə misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş vermişdir. Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılmışdır.

1988-ci ildə keçmiş SSRİ rəhbərliyinin ermənipərəst siyasətindən istifadə edən davakar erməni millətçiləri Ermənistan ərazisində etnik təmizləməni başa çatdırmaq niyyəti ilə azərbaycanlıların yaşadıqları rayon və kəndlərə basqınlar etməyə, onları doğma torpaqlarından qovaraq "türksüz Ermənistan" siyasətini planlı şəkildə həyata keçirməyə başlamışlar. Ermənistan hökuməti, bədnam "Qarabağ" və "Krunk" komitələri, Eçmiədzin kilsəsinin nümayəndələri SSRİ rəhbərliyinin himayəsi ilə azərbaycanlıların qovulması prosesində minlərlə qanlı aksiyalar törətmişlər. Etnik təmizləmə nəticəsində Ermənistanın 185 yaşayış məntəqəsi boşaldılmış, 250 mindən artıq azərbaycanlı, 18 min müsəlman-kürd ev-eşiyindən zorla qovulmuşdur. Minlərlə şəxs qəddarlıqla döyülüb işgəncə verilməklə qətlə yetirilmiş, qaçıb canlarını qurtarmağa çalışan yüzlərlə soydaşımız güllələnmiş, yandırılmış, əzab və işgəncələrə dözməyərək ölmüşdür. Digər bir qismi isə suda boğulmaqla, asılmaqla, elektrik cərəyanına verilməklə, başları kəsilməklə qətlə yetirilmişlər.

Ermənistan ərazisinin azərbaycanlılardan təmizlənməsini başa çatdırdıqdan sonra Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağı Ermənistana ilhaq etmək üçün 1988-ci ildən başlayaraq Ermənistanın silahlı qüvvələri və Dağlıq Qarabağdakı qanunsuz erməni silahlı birləşmələri ilə

birlikdə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində azərbaycanlılara aid yaşayış məntəqələrini işğal etmək məqsədilə fəal döyüş əməliyyatlarına başlamışlar.

Etnik təmizləmə məqsədilə aparılan əməliyyatların xronoloji ardıcıllığına diqqət yetirək:

- 1988-ci ilin fevral-mart aylarında Əsgəranda, Zəngibasarda, Vedibasarda, o cümlədən Mehmandar, Şirazlı, Xamisə, Sidli kəndlərində azğınlaşmış erməni yaraqlıları tərəfindən azərbaycanlıların vəhşicəsinə qətlə yetirilməsi və 100-dən artıq evin qarət edilib yandırılması;

- 1990-ci ilin mart ayının 23-dən 24-nə keçən gecə Qazax rayonunun Bağanis-Ayrım kəndinin dağıdılması, bir ailənin diri-diri ocaqda yandırılması;

- 1988-1991-ci illərdə Xankəndi şəhərinin Kərkicahan qəsəbə sakini Georgi Sarkisyanın ermənilərdən ibarət mütəşəkkil cinayətkar qruplar yaradaraq azərbaycanlıların evlərinə mütəmadi silahlı basqınlar etməsi;

- 22 dekabr 1991-ci il tarixdə erməni silahlı dəstələrinin Əsgəran rayonunun azərbaycanlılar yaşayan Meşəli kəndinə silahlı basqın edərək 25 nəfər dinc sakini qətlə yetirməsi, 40-dan artıq yaşayış evlərini yandırıb, kənd sakinlərinin əmlaklarını və mal-qarasını talan etməsi;

- 10-11 fevral 1992-ci il tarixdə erməni silahlılarının Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərini top, raket, pulemyot silahlarından, zirehli texnikalardan atəşə tutmaları nəticəsində 15 nəfərin öldürülməsi;

- 15-17 fevral 1992-ci il tarixlərində Xocavənd rayonunun Qaradağlı kəndinin əsir götürülmüş 116 nəfər silahsız dinc əhalisinin 67 nəfərinin erməni təcavüzkarları tərəfindən amansızlıqla qətlə yetirilməsi və digər dəhşətli cinayətlərə prinsipial siyasi və hüquqi qiymətin verilməməsi, preventiv tədbirlərin görülməməsi Xocalı soyqırımına zəmin yaratmış oldu.

25 fevral 1992-ci ildə isə erməni silahlı dəstələri sovet ordusunun 366-cı motoatıcı alayının komandir heyəti ilə birlikdə Xocalı şəhərinə hücum edərək dinc əhalini kütləvi surətdə, xüsusi amansızlıqla və işgəncə verməklə öldürmüş, külli miqdarda dövlət əmlakını, xüsusi mülkiyyətdə olmuş əmlakı məhv etmiş, çoxsaylı dinc əhaliyə divan tutaraq onları girov götürmüşdür.

Ermənistanın apardığı təcavüzkar müharibə və törədilən zorakılıq nəticəsində 10 minlərlə Azərbaycan vətəndaşı şəhid olmuş, 50 mindən artıq həmvətənimiz yaralanmış və əlil olmuş, 900 yaşayış məntəqəsi, 100 min

yaşayış binası, 600-dən artıq təhsil və 250 tibb müəssisəsi, yüzlərlə sənaye, kənd təsərrüfatı müəssisələri, zavod, fabrik dağıdılmış, respublika ərazisinin 20 faizini təşkil edən 17 min kvadrat kilometrdən artığı işğal olunmuş və 1 milyona qədər azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Dağlıq Qarabağ və Azərbaycanın digər işğal olunmuş ərazilərində ermənilərin törətdikləri ağır cinayət faktları ilə bağlı prokurorluq və digər hüquq-mühafizə orqanları 1988-ci ildən erməni silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağ və Azərbaycanın digər işğal olunmuş ərazilərində, həmçinin Ermənistanda saxlanılan azərbaycanlı əsir və girovlara dözülməz işgəncələr verilməsi, onların bir qisminin öldürülməsi, şikəst edilməsi, təxribat və terror aktlarının törədilməsi, əhalinin məcburi köçürülməsi, yaşayış məntəqələrində maddi sərvətlərin, tarixi mədəniyyət abidələrinin dağıdılması, habelə ermənilərin törətdikləri digər ağır cinayət faktları ilə əlaqədar ayrı-ayrı cinayət işləri başlayaraq istintaq aparmışlar. Xalqımıza qarşı törədilmiş bu ağır cinayətlərin istintaqı və onlara hüquqi qiymətin verilməsi, həmin cinayətlərin təşkili və törədilməsində iştirak etmiş təqsirkar şəxslərin müəyyənləşdirilib mövcud qanunvericiliyə əsasən cinayət məsuliyyətinə cəlb olunması, habelə beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması faktları ilə bağlı beynəlxalq təşkilatlar qarşısında müvafiq vəsatətlər qaldırılması məqsədi ilə 18 dekabr 2003-cü il tarixdə Azərbaycan Respublikasının Baş prokurorunun, daxili işlər və milli təhlükəsizlik nazirlərinin əmri ilə birgə istintaq-əməliyyat qrupu yaradılmışdır. Qeyd edilən cinayətlər üzrə müxtəlif vaxtlarda icraatı dayandırılmış cinayət işləri üzrə icraat təzələnməklə, istintaq aparılması həmin qrupa həvalə edilmişdir. Respublika Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Zakir Qaralovun 2005-ci il 5 may tarixli qərarına əsasən cinayət işinə prosessual rəhbərliyin həyata keçirilməsi respublika hərbi prokuroruna həvalə edilmişdir.

Həmin cinayət işlərinin Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, beynəlxalq hüquq pozmalarına və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin, Cinayət Prosessual Məcəlləsinin tələblərinə uyğun həyata keçirilməsini, işlərin hərtərəfli, tam və obyektiv aparılmasını, səmərəliliyini, operativliyini təmin etmək məqsədi ilə həm icraatdakı, həm də istintaqı dayandırılmış cinayət işləri tərəfimizdən yenidən hərtərəfli və diqqətlə öyrənilmiş, törədilmiş cinayətlərin miqyası, xarakteri və spesifik cəhətləri nəzərə alınmaqla vahid istintaq-əməliyyat planı hazırlanaraq təsdiq

edilmişdir. Həmin planda cinayət işinə birləşdirilmiş hər bir iş üzrə araşdırılmalı xüsusatlar, həyata keçirilməli istintaq hərəkətlərinin tarixi ayrı-ayrı bəndlərdə öz əksini tapmışdır. Cinayət təqibi üzrə toplanmış materialların həcminin böyüklüyü, şübhəli, təqsirləndirilən və zərərçəkmiş şəxslərin, həmçinin araşdırılmalı olan xüsusatların sayının çoxluğu, eyni zamanda həmin cinayətlərin törədilmə üsul və vasitələri, xarakteri nəzərə alınaraq işin aşağıdakı 4 istiqamət üzrə istintaq edilməsi müəyyənləşdirilmişdir.

1. Ermənistanın silahlı birləşmələri, Dağlıq Qarabağdakı qanunsuz erməni silahlı dəstələri və SSRİ (MDB)-nin 366-cı alayının azərbaycanlılara qarşı törətdikləri soyqırımı;

2. Yenə yuxarıdakı subyektlər tərəfindən əsir və girov götürülmüş Azərbaycan vətəndaşlarına qarşı işgəncələr verilməsi;

3. Ermənistan Respublikasının xüsusi xidmət orqanları tərəfindən Azərbaycan Respublikası və vətəndaşlarına qarşı terrorçuluğun maliyyələşdirilməsi, təşkili və həyata keçirilməsi;

4. Birinci bənddəki subyektlər tərfindən Azərbaycan Respublikası və vətəndaşlara vurulmuş ziyanın müəyyənləşdirilməsi ;

Qanunsuz erməni silahlı birləşmələri tərəfindən Dağlıq Qarabağ və işğal olunmuş digər ərazilərdə törədilən cinayət əməlləri 1 oktyabr 2000-ci il tarixdə qüvvəyə minmiş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 16-cı fəslində nəzərdə tutulmuş sülh və insanlıq əleyhinə cinayətlərə aid edilmişdir. Cinayət işinin istintaqı hərbi prokurorluq orqanlarında son dövrlərdə keçirilən islahatlardan sonra daha da sürətlənmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"na müvafiq olaraq Azərbaycan Respublikası Hərbi Prokurorluğunda Xüsusi istintaq şöbəsi yaradılmış, qeyd olunan cinayət işinin istintaqı həmin şöbəyə həvalə edilmişdir. Cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik Respublika Hərbi Prokurorluğuna həvalə edildiyi vaxtdan hal-hazıradək 15000-ə yaxın istintaq hərəkəti aparılmış, o cümlədən 9000-ə yaxın şəxs şahid və zərərçəkmiş qismində dindirilmiş, 3000-dən artıq şəxs zərərçəkmiş şəxs, 200-ə yaxın şəxs zərərçəkmiş şəxsin hüqüqi varisi qismində tanınmış, 900-dən artıq məhkəmə-tibbi, kompleks

məhkəmə-əmtəəşünaslıq və mühasibatlıq və digər ekspertizalar təyin edilərək müvafiq rəylər alınmış, ayrı-ayrı istintaq hərəkətlərinin başqa ərazidə aparılmasına dair 400-dən artıq qərar qəbul edilmiş, 500-ə yaxın baxış, götürmə, maddi sübut kimi tanıma ilə əlaqədar istintaq hərəkətləri keçirilmiş, müxtəlif təşkilatlara 2000-ə yaxın sorğu göndərilmişdir.

Cinayət işi üzrə hal-hazıradək sülh və insanlıq əleyhinə, müharibə cinayətləri törətdiyi müəyyən olunmuş 248 nəfər, onlardan Xocalı soyqırımı üzrə 39 nəfər, Qaradağlı soyqırımı üzrə 12 nəfər, Bağanıs-Ayrım soyqırımı üzrə 18 nəfər, Meşəli soyqırımı üzrə 9 nəfər, Kərgicahan soyqırımı üzrə 47 nəfər, işgəncə faktları üzrə 35 nəfər, terrorçuluq faktı üzrə 3 nəfər, digər epizodlar üzrə 85 nəfər, habelə ümumi cinayətlər kateqoriyasına aid banditizm, qəsdən adam öldürmə, qanunsuz silah saxlama, cinayət barədə məlumat verməmə və s. cinayətlər törətmiş 48 nəfər, yəni, cəmi: 296 nəfər barəsində təqsirləndirilən şəxs qismində cəlb etmə qərarı çıxarılmış, məhkəmə qərarına əsasən barələrində həbs-qətiimkan tədbiri seçilmiş və axtarışları ilə əlaqədar müvafiq sənədlərin aidiyyəti orqanlara göndərilməsi təmin edilmişdir.

1988-ci ildən başlamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tarixində ən müdhiş hadisələrdən biri Xocalıda baş vermiş soyqırımı olmuşdur. Bu hadisə XX əsrin ən dəhşətli və qəddar faciələrindən biridir. Xocalı faciəsi tarixdə bizə məlum olan Babi Yar, Xatın, Liditse, Sonqmı, Srebrenitsa faciələri ilə eyni səviyyədə durur. Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir.

Konkret olaraq Xocalı şəhərində törədilən soyqırımı cinayəti ilə əlaqədar mühüm faktlar müəyyən olunub.

İstintaqla müəyyən edilmişdir ki, 25 fevral 1992-ci il tarixdə, saat 22 radələrində Ermənistandan Azərbaycan Respublikası ərazisinə qanunsuz keçirilmiş silahlı qüvvələr, habelə Dağlıq Qarabağın millətçi ermənilərindən təşkil olunmuş qanunsuz silahlı birləşmələrı MDB-nin 366-cı motoatıcı alayının komandir heyəti və hərbi texnikası ilə birgə Xocalı şəhərinə hücuma keçmişlər. Hücumda 366-cı alayın komandiri Zarviqorov Yuri Yureviç və mayor Ohanyan Seyran Muşeqoviçin komandanlığı altında alayın 2-ci batalyonu, Nabokix Yevgeni Aleksandroviçin komandanlığı altında 3-cü

batalyonu, həmçinin 1-ci batalyonun qərargah rəisi Çitçiyan Valeriy İsaakoviç, habelə alayda xidmət edən 50-dən çox erməni və digər millətlərdən olan zabit və gizirlər iştirak etmişlər. Hücum zamanı 90-dan çox tank, piyadaların döyüş maşını, top, D-30 qaubitsası və digər müasir hərbi texnikadan istifadə olunmuşdur. Hücumdan əvvəl şəhər şiddətli artilleriya atəşinə tutulmuş, sonra çoxsaylı ağır tanklar, PDM və zirehli transportyorlar şəhərə daxil olmuş, dinc əhali xüsusi amansızlıqla qətlə yetirilmişdir. Bu zaman azğınlaşmış erməni quldurları mülki əhaliyə, o cümlədən qadınlara, uşaqlara, qocalara aman vermədən müxtəlif çaplı odlu silahlardan atəş açmış, tank, PDM və digər texnikanın altında əzməklə qətlə yetirmişlər. İstintaqla müəyyən olunmuşdur ki, qanunsuz erməni silahlı qüvvələri mühasirədən çıxıb qaçmağa cəhd edən qoca, qadın və uşaqları milli mənsubiyyətlərinə görə yollarda, yəni Kətik meşəsində, Naxçıvanik yolunda, Qaraqaya ətrafında, Dəhraz kəndi yaxınlığında, Şelli istiqamətində, Əsgəran asfalt yolunun 86-cı kilometrliyində və digər ərazilərdə amansızlıqla qətlə yetirmişlər. Əsir götürülənlərdən 18 nəfəri Əsgəran rayon daxili işlər şöbəsində işgəncə verilməklə öldürülmüşdür. Hücum zamanı dinc əhaliyə qarşı ağlasığmaz vəhşiliklər törədilmiş, dözülməz işgəncələr verilmiş, insanların başlarının dərisi soyulmuş, müxtəlif əzaları kəsilmiş, gözləri çıxarılmışdır. Qadınların qarınları yarılmış, adamlar diri-diri torpağa basdırılmış və ya yandırılmış, meyitlər zorakılığa məruz qalmışdır. Xocalıda mülki əhalinin düşünülmüş şəkildə qətlə yetirilməsini sübut edən çoxsaylı faktlardan biri də budur ki, həmin gün əhalinin qaçıb qurtarmaq istəyən xeyli hissəsi ərazidən çıxış yollarında əvvəlcədən xüsusi hazırlanmış pusqulardakı qatillər tərəfindən güllələnmişlər.

Müəyyən olunmuşdur ki, Xocalı şəhərinin 5379 nəfər sakini deportasiyaya məruz qalmış, 613 nəfər, o cümlədən 63 nəfər azyaşlı uşaq, 106 nəfər qadın vəhşicəsinə qətlə yetirilmiş, 8 ailə bütünlüklə məhv edilmiş, 487 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri almış, 1275 nəfər əsir və girov götürülmüşdür. Girov götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyildir.

Hazırda Xocalı soyqırımı epizodu üzrə 4000 nəfərə qədər şəxs şahid və zərərçəkmiş şəxs qismində dindirilmiş, 2300 nəfərə yaxın şəxs zərərçəkmiş şəxs qismində tanınmış, 800-dən artıq müxtəlif ekspertizalar keçirilmişdir. Xocalı şəhərinin işğalı ilə əlaqədar dövlət mülkiyyətinə və vətəndaşların

xüsusi mülkiyyətinə dəymiş maddi ziyan müəyyən olunmuş, əşyaların maddi sübut kimi tanınması təmin edilmiş, habelə baxış, götürmə və s. zəruri istintaq hərəkətləri aparılmışdır. Nəticədə 39 nəfərin (onlardan 18 nəfər 366-cı alayın hərbi qulluqçuları, 8 nəfər Xankəndi və Əskəran Daxili İşlər Şöbəsinin əməkdaşları, 5 nəfər digər vəzifəli şəxslərdir) və 8 nəfər mülki vətəndaşın Xocalı soyqırımında iştirakı tam sübuta yetirilmişdir.

İstintaqla müəyyən edilmişdir ki, erməni silahlı qüvvələrinin və Dağlıq Qarabağın silahlı separatçılarının keçmiş SSRİ-nin Xankəndidə dislokasiya olunmuş 366-cı alayının hərbçiləri ilə birlikdə törətdikləri bu əməldə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin "Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında" 1948-ci il 9 dekabr tarixli konvensiyasında və Azərbaycan Respublikası CM-in 103-cü maddəsində nəzərdə tutulmuş soyqırımı cinayətinin tərkibi vardır. Həmçinin cinayət işi öyrənilərkən müəyyən edilmişdir ki, Xocalı soyqırımını həyata keçirən Dağlıq Qarabağdakı silahlı separatçı birləşmələr və MDB-nin Xankəndidə yerləşən 366-cı alayının hərbçiləri tərəfindən dünya dövlətlərinin qəbul etdiyi beynəlxalq hüquq normalarına da riayət edilməmiş, 1949-cu il 12 avqust tarixli "Döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında", "Hərbi əsirlərlə rəftar haqqında" və "Müharibə zamanı mülki əhalinin qorunması haqqında" Cenevrə Konvensiyalarının müvafiq maddələrində nəzərdə tutulan - döyüş əməliyyatlarında bilavasitə iştirak etməyən şəxslərə qarşı onların həyatına və şəxsiyyətinə qəsd etmək, o cümlədən hər hansı şəraitdə öldürmək, şikəst etmək, qəddarcasına rəftar etmək və işgəncə vermək, girov götürmək, insan ləyaqətinə toxunmaq, o cümlədən təhqiramiz və alçaldıcı tərzdə rəftar edilməsi kimi qadağan olunmuş tələblər kobud surətdə pozulmuşdur. 366-cı alayın hərbi qulluqçularının və digər şəxslərin Xocalı soyqırımında iştirakı tam sübuta yetirilmiş və onların Azərbaycan Respublikası CM-in soyqırımına görə məsuliyyət nəzərdə tutan 103-cü maddəsi, habelə sülh və insanlıq əleyhinə, müharibə cinayətlərinə görə məsuliyyət nəzərdə tutan CM-in 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 113-cü (işgəncə), 115.4-cü (müharibə qanunlarını və adətlərini pozma), 116.0.17-ci (zorlama, cinsi köləlik, məcburi fahişəlik, məcburi sterilizasiya, məcburi hamiləlik, habelə cinsi zorakılıqla əlaqədar başqa hərəkətlər etmə) maddələri ilə nəzərdə tutulan cinayəti etməkdə təqsirləndirilən şəxs kimi cəlb olunmaları barədə qərarlar çıxarılmış, barələrində məhkəmələr tərəfindən həbs qətimkan tədbiri seçilmiş və

beynəlxalq axtarışlarının həyata keçirilməsi üçün müvafiq sənədlər İnterpolun Azərbaycan Respublikası Milli Bürosuna göndərilmişdir.

XX əsrin qəddarlıq və cəzasızlıq rəmzinə çevrilmiş Xocalı soyqırımının günahkarları, təşkilatçıları və icraçıları layiqli cəzalarına çatmalıdırlar. Cinayət cəzasız qala bilməz və insanlığa qarşı törətdikləri cinayətlərə görə onların məhkəmə məsuliyyətinə alınacaqları qaçılmazdır.

Tarixi ədalətsizlik üzündən ötən əsrin sonlarınadək xalqımızın üzləşdiyi soyqırımı faktlarına obyektiv qiymət vermək mümkün olmamışdır. Nəinki Azərbaycan xalqı, eləcə də dünya ictimaiyyəti uzun illər bu gerçəkliklərdən məlumatsız qalmış, saxta ideoloji ehkamlar və uydurma tarixi hadisələr nəticəsində yaddaşımız uzun illər tamamilə yad istiqamətdə köklənmişdir. Bədnam erməni millətçilərinin tarixi saxtalaşdırmağa, dünya ictimaiyyətini çaşdırmağa yönəlmiş saxta kampaniyasına qarşı mütəşəkkil müqavimət yalnız ulu öndər Heydər Əliyevin xalqın təkidi ilə 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur.

Ümummilli lider Heydər Əliyevin 1997-ci il 18 dekabr tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərmanı ilə həmvətənlərimizin Qərbi Azərbaycandakı dədə-baba yurdlarından zorla köçürülməsində Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə dövlət komissiyası yaradılmışdır.

Bundan bir müddət sonra 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman erməni millətçilərinin cinayətkar əməllərinə verilən dolğun, obyektiv və hərtərəfli hüquqi-siyasi qiymət olmuşdur. Ulu öndər Heydər Əliyev fərmanda 1918-ci ilin mart hadisələrini geniş şərh etmiş, bolşevik cildinə girmiş erməni daşnaklarının Azərbaycan xalqının başına gətirdiyi müsibətləri dünyaya bəyan edərək bu qanlı əməllərə düzgün siyasi qiymət vermiş və onu Azərbaycan xalqına qarşı törədilən ən böyük faciə adlandırmışdır. Ulu öndərin erməni məkrini tarixi faktların dili ilə ifşa etdiyi fərmanı Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının qorunması baxımından da bir növ proqram sənədidir. Fərmanda deyilir: "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni

qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə geniş miqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə-yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər. Birinci Dünya müharibəsindən, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə adı altında Bakı Kommunası Bakı quberniyasını azərbaycanlılardan təmizləmək niyyəti güdən mənfur plan həyata keçirməyə başladı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi əks olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir".

Azərbaycan tarixində ilk dəfə olaraq ulu öndər Heydər Əliyevin erməni məkrini tarixi faktların dili ilə ifşa etdiyi fərmanında ermənilərin Azərbaycana qarşı təcavüzünün tarixi köklərinə də toxunulur, onların mərhələlərlə törətdikləri soyqırımı və terror siyasətinin mahiyyəti açılır, ölkəmizin hansı tarixi ədalətsizliklərlə üzləşdiyi yeni nəsillərə çatdırılır, xalqımızın qarşılaşdığı müsibətlərin tarixinə siyasi və çağdaş aspektlərinə nəzər salınır. Bu fərman həm də uzun illər gizli saxlanılan, üzərinə qadağalar qoyulan həqiqətləri açır, xalqımızın qan yaddaşını təzələyir. Ümummilli lider Heydər Əliyevin imzaladığı fərman 200 illik işğal və soyqırımı siyasətini açıb göstərən tarixi sənəd olmaqla yanaşı, xalqımızın öz milli-mənəvi dəyərlərinə, tarixi köklərinə, torpağına və vətəninə bağlılığı baxımından da əhəmiyyətlidir.

Azərbaycanlılara qarşı aparılmış soyqırımı və deportasiya siyasətini geniş təhlil edən bu tarixi sənədlə martın 31-i Azərbaycanlıların soyqırımı günü elan edilib. Hər il martın 31-ni azərbaycanlıların soyqırımı günü kimi qeyd etməklə biz bir daha tarixi keçmişə qayıdır, xalqımıza qarşı açıq şəkildə həyata keçirilən hadisələri ürək ağrısı ilə yad edirik. Amma ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımı, deportasiya və işğal siyasətinin intensivliyi bu gün də zəifləməmiş, bədnam qonşularımız təbliğat və

qarayaxma kampaniyasını hətta bir az da gücləndirmişlər. Ermənilər Avropa və Amerikadakı lobbi imkanlarından yararlanaraq "əzabkeş erməni milləti" obrazını yaratmaqda davam edir, beynəlxalq hüquq normalarına meydan oxuyur, bütün yolverilməz vasitələrdən istifadə edərək, əsl soyqırımı haqqında həqiqətləri təhrif etməyə, dünya ictimaiyyətini Azərbaycan torpaqlarının işğalı faktı ilə barışdırmağa çalışırlar.

Bu cür məkrli niyyətlərə baxmayaraq, xüsusən son illərdə erməni yalanlarının dünyada ifşa olunması istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi fəaliyyət daha da güclənmiş, ermənilərə qarşı ideoloji əks-hücum effektiv xarakter almışdır. Azərbaycanın milli problemlərinin beynəlxalq səviyyədə qaldırılması, erməni vandalizminin ifşası istiqamətindəki əzmkar və qətiyyətli fəaliyyət Prezident İlham Əliyev tərəfindən prinsipiallıqla davam etdirilir. Dövlət başçısı xalqımızın haqq səsini dünya ictimaiyyətinə çatdırmaq üçün bütün mötəbər tribunalardan istifadə edir. Bunun nəticəsidir ki, Azərbaycanın həyata keçirdiyi hücum diplomatiyası təcavüzkar Ermənistanı çıxılmaz vəziyyətdə qoymuşdur. Prezident İlham Əliyev bütün görüşlərində, xarici ölkələrə səfərlərində, çıxışlarında Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirən ermənilər ifşa etmiş, soyqırımı cinayəti törədənləri və ona göz yumanları kəskin tənqid etmiş, dünya ictimaiyyətini erməni riyakarlığına son qoymağa çağırmışdır.

Qarşımızda duran əsas vəzifələr xalqımıza qarşı həyata keçirilən soyqırımı haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmaq, bu faciələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmaqdır. Vaxt gələcək dünya birliyi ermənilərin bəşəriyyət üçün həm ləkə, həm də təhlükəli olduğu gerçəkliyi qəbul edəcək və Azərbaycan xalqına qarşı tarixən törədilən cinayətlərə və soyqırımına obyektiv qiymət verəcəkdir.

Son illərdə Azərbaycan həqiqətlərinin dünyada yayılması istiqamətində görülən işlərin miqyası daha da artmaqdadır. Bu məsələdə Azərbaycan dövləti ilə yanaşı Heydər Əliyev Fondu da çox mühüm və tarixi işlər görür. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi fond istər ölkədən kənarda, istərsə də respublikamızda bu istiqamətdə çox vacib layihələr reallaşdırır. Eləcə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın dünya boyu gerçəkləşdirdiyi "Xocalıya ədalət!" kampaniyası bu gün Xocalı hadisələri barəsində dünya ictimaiyyətini

məlumatlandırmaq və beynəlxalq-hüquqi tanınmasına nail olmaq məqsədilə Avropa, Asiya, Afrika, Şimali və Cənubi Amerika ölkələri tərəfindən Xocalı soyqırımının tanınmasına xidmət edir. Beynəlxalq təşkilatlar və 50-dən artıq müxtəlif ölkələrin parlamentlərində Xocalı soyqırımı ilə bağlı sənədlərin qəbuluna nail olunması Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan İslam Respublikası, Bosniya və Herseqovina, Rumıniya, Çexiya və İordaniya parlamentlərinin Xocalı faciəsini soyqırımı və Azərbaycana qarşı cinayət aktı kimi tanıdılmasına imkan vermişdir. ABŞ-nın Massaçusets, Texas, Nyu-Cersi, Corciya, Men, Nyu-Meksiko, Arkanzas, Missisipi, Oklahoma, Tennessi, Pensilvaniya, West Virginia, Konnektikut Florida kimi ştatları Xocalı soyqırımını rəsmən tanımış və böyük zəhmət tələb edən bu şərəfli iş nəticəsində ölkələrin sayı artmışdır.

XX əsrin əvvəllərində erməni quldur dəstələri Azərbaycanın demək olar ki, bütün ərazilərində xalqımıza qarşı soyqırımı törətmişlər. Erməni millətçilərinin xüsusi amansızlıqla və qəddarlıqla törətdikləri kütləvi qırğınların, bəşəriyyət və sülh əleyhinə cinayətlərin tarixin yaddaşına həkk olunması, bütövlükdə Qarabağ hadisələri ilə bağlı obyektiv həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, bu barədə gələcək nəsillərin ixtiyarına tutarlı dəlillərin və ətraflı məlumatların verilməsi məqsədi ilə Respublika Hərbi Prokurorluğunun inzibati binasında Memorial Soyqırımı Muzeyinin yaradılması ilə bağlı Respublika Hərbi Prokurorluğunun təşəbbüsü bəyənilərək bu barədə 2013-cü il iyulun 19-da Baş Prokuror Zakir Qaralov tərəfindən əmr imzalanmışdır. Həmin əmrin icrası ilə əlaqədar Respublika Hərbi Prokurorunun müvafiq sərəncamına əsasən işçi qrupu təşkil edilmişdir. İşçi qrupu tərəfindən qısa müddətdə toplanmış zəngin tarixi sənədlər, faktlar və istintaq materialları əsasında Azərbaycan Respublikası Hərbi Prokurorluğunun inzibati binasında Memorial Soyqırımı Muzeyi yaradılmış və 24 fevral 2014-cü il tarixdə açılışı olmuşdur.

Memorial Soyqırım muzeyi XX əsrin əvvəllərindən bəri bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində həlak olan on minlərlə azərbaycanlının xatirəsinə həsr edilmiş zəngin tarixi sənədlər, xalqımıza qarşı törədilmiş soyqırımı, deportasiya, hərbi cinayətlər barədə xarici və Azərbaycan müəlliflərinin kitablarından ibarət zəngin ədəbiyyat fondu ilə təchiz olunmuşdur.

Muzeyin açılışında Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Elmira Süleymanova, işğal olunmuş rayonlarımızın icra hakimiyyətlərinin başçıları, Milli Məclisin deputatları, xarici ölkə nümayəndələrindən Almaniyanın Sosial-Demokratik Partiyasının üzvü Volkan Baran, «Sam və tərəfdaşları» hüquq firmasının vəkilləri Ersoy Sam, Ulf Peter Brambrink, iş adamı Abdullah Parlaq Göz, Beynəlxalq Assosiasiya – «Avropa Qiymətləndirmə Birliyi» Şurasının baş direktoru Trifonov Nikolay Yuryeviç və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Respublika Hərbi Prokurorluğunda yaradılmış bu muzey Azərbaycan xalqının gələcək nəsillərinin qan yaddaşının qorunmasına və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə xidmət edən qanlı tarixi hadisəni reallığı ilə özündə əks etdirən mərkəzdir. Müstəqilliyimizin bizə bəxş etdiyi töhfələrdən biri də tarixi həqiqətlərimizi obyektiv şəkildə araşdırmaq, bu faktları gələcək nəsillərə olduğu kimi çatdırmaq və əcnəbiləri məlumatlandırmaqdan ibarətdir. Biz bu faciədən ibrət götürməli, dövlətimizə və xalqımıza qarşı yönəlmiş hər cür təcavüzkarlıq, düşmənçilik və təxribatçılıq hərəkətlərinin baş verməsini önləməyi bacarmalı, dünya birliyi isə işğal, soyqırım və terror siyasətinə məruz qalan Azərbaycanın ədalət çağırışlarına hay verməlidir!

Əvvəl "Şərq məsələsi", ondan sonra "erməni vilayəti", sonra "erməni məsələsi", daha sonra "Qarabağ problemi" ilə dünya ictimaiyyətini aldadan erməni millətçiləri gec-tez tarix qarşısında cavab verməli olacaqlar, ona görə ki, dünyanın özü tarixi həqiqətlərdən və canlı tarixin özündən ibrət dərsi götürməli, tarixi həqiqətləri bilməli, türk və Azərbaycan xalqlarının başına gətirilən bütün müsibətləri və soyqırımları anlamalı və obyektiv nəticələr çıxarmaq naminə erməni millətçi-şovinistlərini lənətləməlidir.

Xanlar VƏLİYEV,
Azərbaycan Respublikası Baş prokurorunun müavini –
Azərbaycan Respublikasının hərbi prokuroru,
ədliyyə general-leytenantı

AZƏRBAYCAN RESPUBLİKASI HƏRBİ PROKURORLUĞUNUN MEMORİAL SOYQIRIM MUZEYİ – CANLI TARİX

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun inzibati binasında yaradılmış Memorial Soyqırım Muzeyi faciə gerçəklərinin fakt və sənədlər toplusudur. Az bir müddətdə toplanmış zəngin tarixi sənədlər, faktlar və istintaq materialları əsasında Memorial Soyqırım muzeyi yaradılmış və 24 fevral 2014-cü il tarixdə açılışı olmuşdur.

Muzey 4 bölmədən - tarix, deportasiya-repressiya, soyqırımı və terror bölməsindən ibarət olmaqla 320 kvadratmetr sahədə yerləşmişdir.

Muzeyin girişində asılmış rəsm əsərləri ürəkləri parçalayan insan ağrılarını təcəssüm etdirir. Bu rəsmlər həqiqəti gizlətməyin mümkün olmadığını göstərir. Rəsm əsərləri soyqırımı qurbanlarının matəm sükutunu dərin bir kədərlə özündə əks etdirir. "Xocalı fəryadı" adlı rəsm əsəri buna əyani sübutdur. Muzey xalqımıza qarşı törədilmiş soyqırım, deportasiya, hərbi cinayətlər barədə xarici və Azərbaycan müəlliflərinin kitablarından ibarət zəngin ədəbiyyat fondu ilə təchiz olunub. Bütün bölmələrdə məlumat mərkəzi quraşdırılmışdır. Həmçinin, muzeyin girişində Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar 2012-ci il fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında 100 mindən artıq insanın Xətai rayonu ərazisində ucaldılmış "Ana fəryadı" abidəsinə keçirilmiş yürüşünün irihəcmli fotoşəkli yerləşdirilmişdir.

Muzeyin tarix və deportasiya-repressiya bölmələrində XX əsrin əvvəllərində Azərbaycanın müxtəlif ərazilərinin dağıdılıb viranə qoyulmuş görüntüləri, əhalinin həyat tərzi haqqında fotolar vardır. Muzeydə quraşdırılmış sensor ekranlı monitordakı xüsusi xəritədə ermənilərin ötən əsrdə xalqımıza qarşı ölkəmizin müxtəlif bölgələrində həyata keçirdikləri soyqırımları barədə bir neçə dildə məlumat əldə etmək mümkündür. Burada Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasətinin ifşa olunaraq dünya ictimaiyyətinə çatdırılması istiqamətində gördükləri işlərin və imzaladıqları sərəncamların nümayiş etdirildiyi guşə də yaradılmışdır. Həmçinin, muzeydə Quba, Cavad, Göyçay,

Şamaxı və Bakı qəzaları barədə və bu qəzalarda ermənilərin törətdikləri vəhşiliklər haqqında dolğun məlumatlar vardır. Bu guşələrdə həm də qəzaların əhalisi, müdafiəçiləri, müsəlman qırğınları üzrə Fövqəladə Təhqiqat Komissiyasının məlumatları, sənədləri, Rusiya imperiyası və İran dövləti arasında bağlanmış və Azərbaycanı ikiyə bölən Gülüstan və Türkmənçay müqavilələri, "Azərbaycan xalqına qarşı etnik təmizləmə və soyqırımı siyasətinin deportasiya və sürgün mərhələsi" kompozisiyası, 1930-cu illərdə repressiya qurbanı olmuş Azərbaycan ziyalıları və görkəmli şəxsiyyətləri haqqında cinayət işlərindən götürülmüş fraqmentlər, azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından son deportasiyasını əks etdirən fotoşəkillər sərgilənir.

Muzeyin soyqırımı və terror bölmələrində erməni silahlı birləşmələri və keçmiş sovet ordusunun 366-cı alayının 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərinə birgə hücumunu əks etdirən maket və fotolar, habelə digər eksponatlar yerləşdirilmişdir.

Həmin bölmədə 1992-ci il fevralın 26-da Xocalını və ətraf əraziləri özündə əks etdirən 1:7500 miqyasında topoqrafik maket qurulmuşdur. Respublika Hərbi Prokurorluğu tərəfindən aparılmış ibtidai istintaq materiallarına uyğun olaraq hücum zamanı erməni silahlı birləşmələri və 366-cı alayın bölmələrinin yerləşdiyi ərazilər və onlar tərəfindən xüsusi amansızlıqla kütləvi şəkildə öldürülmüş dinc əhalinin meyitlərinin olduğu yerlər də maketdə öz əksini tapmışdır.

Bölmədə fakt üzrə aparılan cinayət işinin cildləri, hadisə yerinə baxış protokolları, erməni təcavüzkarlarının törətdikləri vəhşilikləri sübut edən əşyalar, ekspert rəyləri, ifadələr, meyitlərin fotoşəkilləri və eləcə də, Xocalıda, Meşəlidə, Qaradağlıda və digər yaşayış məntəqələrində cinayətin izlərini özündə əks etdirən əşyalar yer almışdır. Həmin əşyalar sırasında Meşəlidə bütünlüklə öldürülmüş Novruzovlar ailəsinə məxsus fotoşəkillər, əşyalar, üst geyim paltarları, yarımçıq qalmış toxuma da vardır. Muzeyin eksponatları arasında bütünlüklə öldürülmüş ailələrin, eləcə də qadınların, qocaların, uşaqların fotoşəkilləri və əşyaları da yer almışdır. Erməni terrorçularının istifadə etdikləri partladıcı qurğuların, güllə başlıqlarının hadisə yerindən götürülmüş nümunələri də muzeydə saxlanılır. Memorial Soyqırım muzeyi XX əsrin əvvəllərindən bəri bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində həlak olan on

minlərlə azərbaycanlının xatirəsinə həsr edilmiş zəngin tarixi sənədlər, xalqımıza qarşı törədilmiş soyqırımı, deportasiya, hərbi cinayətlər barədə xarici və Azərbaycan müəlliflərinin kitablarından ibarət zəngin ədəbiyyat fondu ilə təchiz olunubdur.

Muzeyə daimi olaraq hərbi təhsil müəssisələrinin müdavimlərinin və orta məktəblərin yuxarı sinif şagirdlərinin gəlmələri təşkil olunmuşdur. Bununla yanaşı, adi vətəndaşların da muzeyi ziyarət etmələri üçün hər bir şərait yaradılmışdır.

Azərbaycan vətəndaşının milli mənəviyyatına, milli dünyagörüşünə güclü təsir göstərən Muzey eksponatları Qarabağın Azərbaycandan böyük qurbanlar, günahsız qanlar hesabına qoparılmasının sonsuz kədərə bələnmiş, faciə dolu panoram-tablosunu yaradır. Bu – bizim qan yaddaşımız, milli kədərimizin Abidəsidir. Memorial Soyqırım muzeyi, eyni zamanda, xalqımızı Böyük Qələbəyə yetirəcək mübarizəmizin yenilməz vətənpərvərlik ruhu yaradan Məbədidir! Bu Məbəd önündə diz endirib and içək ki, Azərbaycan torpaqlarının bütövlüyü uğrunda, Qarabağ Qalasanın düşmən əlindən azad edilməsi uğrunda döyüşməyə hazırıq!

Hər gün igid Azərbaycan əsgərləri və zabitləri ilə yanaşı xeyli sayda mülki şəxslər, məktəblilər, tələbələr bu muzeyi ziyarət edirlər. **AzərTAC-ın müxbiri Elçin Hüseynov da memorial soyqırım muzeyini ziyarət edənlərdən biridir.** Jurnalist həmkarımız muzeydən qələmə aldığı müşahidələrini, təəssüratlarını ürək yanğısı ilə bizimlə bölüşdü. Onun qeydləri ilə oxucularımızı da tanış edirik:

– İnsanların üz tutduqları məkanlardan biri də muzeydir. Tarix, incəsənət və maddi mədəniyyət nümunələrinin qorunub saxlandığı muzeylər ziyarətçilərə həm mənəvi zövq, həm də əyani informasiya verir. Hər muzey özündə bir tarix yaşadır.

Azərbaycanda müxtəlif sahələr üzrə ixtisaslaşmış muzeylər də bir çox tarixi məqamlara işıq tutur, zəngin ekspozisiyaları ilə maraq doğurur. Belə muzeylərdən biri də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda yaradılmış Memorial Soyqırım Muzeyidir. Yəqin ki, paytaxt sakinlərinin bir çoxu hələ ki, yeni açılmış bu muzey haqqında elə də məlumatlı deyil.

Muzeyə gedəndə orada bu qədər zəngin eksponatlar olacağını güman etmirdik. Amma gümanımızda yanılmışdıq. Elə ilk baxışdan başa düşdük ki, bura sadəcə fotoşəkillərdən bəhs edən muzey deyil. Muzeydə nümayiş olunan

müxtəlif kompozisiya və maketlərə tamaşa etdikcə Azərbaycanın tarixinə səyahət edirsən, tariximizin ən qanlı və kədərli parçaları film lenti kimi gözlərimiz önündə canlanır.

Muzeyin girişində asılmış rəsm əsərləri ürəkləri parçalayan şiddətli ağrıları təcəssüm etdirir. Bu rəsmlər həqiqəti gizlətməyin mümkün olmadığını göstərir. Rəsm əsərləri soyqırımı qurbanlarının matəm sükutunu özündə əks etdirir. "Xocalı fəryadı" adlı rəsm əsəri buna əyani sübutdur. Muzey xalqımıza qarşı törədilmiş soyqırımı, deportasiya, hərbi cinayətlər barədə xarici və Azərbaycan müəlliflərinin kitablarından ibarət zəngin ədəbiyyat fondu ilə təchiz olunub. Bütün bölmələrdə məlumat mərkəzi quraşdırılıb. Həmçinin, muzeyin girişində Xocalı soyqırımının 20-ci ildönümü ilə əlaqədar 2012-ci il fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında 100 mindən artıq insanın Xətai rayonu ərazisində ucaldılmış "Ana fəryadı" abidəsinə keçirilmiş yürüşünün irihəcmli fotoşəkli yerləşdirilib.

İstər-istəməz bura gələnlərdə belə bir dəqiq hökm yaranır ki, Memorial Soyqırım Muzeyi canlı tarixdir.

Tariximizin qanlı və kədərli səhifəsi

Erməni silahlı dəstələri hələ SSRİ dövründə Xankəndi şəhərində yerləşən, zabit və gizirlərinin xeyli hissəsi ermənilərdən ibarət olan 366-cı motoatıcı alayının zirehli texnikası və hərbçilərinin köməyi ilə Azərbaycanın Xocalı şəhərini yerlə-yeksan etmiş, sakinlərə amansızlıqla divan tutmuş, onları vəhşicəsinə, ağlasığmaz işgəncələrlə qətlə yetirmişlər. Erməni təcavüzkarlarının xalqımıza qarşı törətdikləri bu növbəti kütləvi qırğın – Xocalı faciəsi 613 nəfərin, o cümlədən, 106 qadın, 63 uşağın həyatına son qoymuşdur. 1275 dinc sakin əsir götürülmüş, onlardan 150 nəfərinin taleyi hələ də məlum deyildir. 487 nəfər şikəst olmuşdur. 8 ailənin bütün üzvləri öldürülmüşdür. 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Bu cinayətdə 56 nəfər xüsusi qəddarlıq və amansızlıqla qətlə yetirilmişdir.

Bütün bünlar reallıqdır, tariximizin qanlı və kədərli səhifəsidir. Bu statistik rəqəmlər on minlərlə dinc azərbaycanlının taleyini əks etdirir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə… Bu, bir tarixdir. Bu tarixin müəllifi Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edən təcavüzkar Ermənistan və bu bədnam dövlətin başında duran bugünkü rəhbərlikdir. Bu tarixin adı isə **Xocalı soyqırımıdır**.

AZƏRBAYCAN RESPUBLİKASININ
HƏRBİ PROKURORLUĞU

AZƏRBAYCAN RESPUBLİKASININ
HƏRBİ PROKURORLUĞU
MEMORİAL SOYQIRIM
MUZEYİ

DÖVLƏT MÜSTƏQİLLİYİ,
MİLLİ AZADLIQ BİZİM
ƏN BÖYÜK TARİXİ
NAİLİYYƏTİMİZDİR VƏ
BİZ BUNU QORUYUB
SAXLAYACAĞIQ.
HEYDƏR ƏLİYEV

CONSEIL
DE L'EUROPE
Council of Europe
XATİRƏ
KİTABI

И Ш №64324

Ermənistanın əsir götürülmüş azərbaycanlılara
qarşı vəhşiliklərinin dəhşətləri

ДЕЛО


Qan – varlığımız, taleyimiz, qismətimizdir,
Qan – əsil-nəcəb, qan – kökümüz, xislətimizdir.
Qandır bizi biz eyləyən, əsla dəyişilməz,
Qan – yaddaşımız, özlüyümüz, ismətimizdir.
Qan coşsa damarlarda, yıxar dağları insan,
Vulkan kimidir, ruh oyadan qeyrətimizdir.
Torpaq suvarılmazsa qan ilə, Vətən olmaz,
Qan cürətimiz, qüvvətimiz, qüdrətimizdir.
Dövr etməsə qan, can da susar, can qana bağlı,
Haqdandır əmanət, əzəli hikmətimizdir.
«Allah!» dediyin möcüzəni qanda taparsan,
Hər damla – dəniz timsalı, qan – fitrətimizdir.
Qan qaynamasa, sevgi yaranmazdı könüldə,
Qan – cazibə, qan – heyrətimiz, ülfətimizdir.
«Qanmaq» sözü dərk etmək isə, cövhəri «qan»dır,
Qan – duyğumuzun rişəsi, mahiyyətimizdir.
«Qan-qan» deyəni əvvəl-axır qan tutacaqdır,
Qan – dosta məhəbbət, yağıya nifrətimizdir.

Заключение судебно-медицинской экспертизы за № 48 по уголовному делу № 19Д/48565 Тертерской военной прокуратуры
19/D-48531 sayılı cinayət işi üzrə mərhum Hüseynov Bəhruz Arzu oğlunun meyitinin tibbi araşdırılması zamanı müəyyən edilmiş 1 ədəd 5,45 milli çaplı güllə
Tartar Hərbi Prokurorluğundan 19D-48565 sayılı cinayət işi üzrə 48 sayılı rəy

Xocalıya ədalət

Ermənistanın Azərbaycan insanına qarşı bu cinayətlərinin ağır cəzasının veriləcəyi günlər gələcək

1280
1286
1112
1113




ERMƏNİ SİLAHLI BİRLƏŞMƏLƏRİ VƏ
366-cı ALAYIN 1992-ci İL FEVRALIN
26-da XOCALI ŞƏHƏRİNƏ
HÜCUMUNU ƏKS ETDİRƏN MAKET
MİQYAS 1:7500

UNUTMAYAQ!
XOCALI
VƏ
ƏTRAF ƏRAZİLƏR
26 FEVRAL 1992

Hərbi Prokurorluğun Memorial Soyqırım Muzeyinin fotoşəkilləri "Xalq qəzeti"nin foto müxbiri Rafiq Salmanovundur

Azərbaycan Respublikası Baş prokurorunun müavini, Respublikanın Hərbi Prokuroru, Ədliyyə general-leytenantı Xanlar Vəliyevin çıxışından: "1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistanın hərbi birləşmələri və keçmiş sovet ordusunun Dağlıq Qarabağda yerləşən 366-cı motoatıcı alayının şəxsi heyəti Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin 9 dekabr 1948-ci il tarixli "Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında", "Müharibə zamanı mülki əhalinin qorunması haqqında" Cenevrə Konvensiyalarının və digər beynəlxalq hüquq normalarının tələblərini pozaraq Xocalı şəhərinə quldurcasına hücum etmiş, əvvəlcə şəhəri şiddətli artilleriya atəşinə tutmuş, sonra isə çoxsaylı ağır tanklar, PDM və zirehli transportyorlar vasitəsilə şəhərə daxil olmuş, evlərində yatmış dinc əhalini vahiməyə salaraq onları xüsusi amansızlıqla öldürməyə başlamışlar. Bu zaman mülki əhaliyə, o cümlədən, qadınlara, uşaqlara, qocalara aman vermədən, qarşılarına çıxan insanları müxtəlif çaplı odlu silahlardan atəşlər açaraq tank, PDM və digər texnikanın altına salaraq əzməklə, habelə mühasirədən çıxıb qaçmağa müvəffəq olmuş azərbaycanlıları milli mənsubiyyətlərinə görə yollarda, keçidlərdə, meşələrdə təqib edərək xüsusi amansızlıqla və işgəncə verərək öldürmüşlər. Bundan əlavə, meyitlərin xarici müayinəsi, məhkəmə-tibb ekspertizalarının rəyləri və mühasirədən çıxmağa müvəffəq olmuş Xocalı sakinlərinin ifadələri əsasında müəyyən olunmuşdur ki, ermənilərin və 366-cı alayın hərbi qulluqçularının azərbaycanlılara qarşı törətdikləri aşağıdakı ağılasığmaz işgəncə və vəhşilik faktları: baş dərisinin soyulması, qulaq, burun, cinsiyyət üzvlərinin kəsilməsi, gözlərin çıxarılması, erməni qəbrinin üstündə azərbaycanlı başının qurbanlıq kimi kəsilməsi, qadına, qocaya və uşağa da fərq qoymadan hamıya işgəncə verilməsi və qadınların döşlərinin kəsilməsi baş vermişdir."

Memorial Soyqırım Muzeyi bizlərə məhz bu canlı tarixi – əliyalın və dinc Xocalı sakinlərinin başına gətirilən dəhşətli müsibətləri danışır. Burada Xocalının naləsi, xocalıların göz yaşları qorunur. Muzeydə ermənilər tərəfindən qətlə yetirilən uşaqların əşyaları, oyuncaqları, gənclərin şer dəftərləri saxlanılır. Burada ermənilərin mülki Azərbaycan vətəndaşlarına atdıqları güllələr mühafizə olunur.

Ancaq bu tarixi faciə haqqında ilk dəfə danışan xalqımızın ümumilli lideri Heydər Əliyev olmuşdur.

Xocalı soyqırımına ilk siyasi qiymət

Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə respublikada hakimiyyətə qayıdışından sonra erməni millətçiləri tərəfindən Azərbaycan əhalisinə qarşı törədilmiş terror və soyqırımı cinayətləri barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, həmin cinayətlərə düzgün siyasi və hüquqi qiymət verilməsi üçün məqsədyönlü işlər aparılmışdır. Ulu Öndər Heydər Əliyev hər il faciənin ildönümündə keçirilən matəm tədbirlərində iştirak etmiş, Xocalı soyqırımını kədər hissi ilə xatırlamışdır. Xocalı faciəsinin Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan etmiş Ulu Öndər hadisələrə beynəlxalq aləmdə əsl siyasi qiymətin verilməsinin zəruriliyini vurğulamış, bu məsələnin dünya ictimaiyyətinə çatdırılması üçün xüsusi səy göstərmişdir. Ulu Öndər 26 mart 1998-ci il tarixdə imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanı ilə azərbaycanlılara qarşı müxtəlif illərdə mütəmadi olaraq törədilmiş soyqırımı cinayətlərinə, o cümlədən, Xocalı soyqırımına ilk dəfə siyasi qiymət vermişdir. Fərmanda haqlı olaraq dünya ictimaiyyətinə çatdırılır ki, Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir.

Xocalı həqiqətləri dünya miqyasında

Son illərdə Azərbaycan həqiqətlərinin dünyada yayılması istiqamətində görülən işlərin miqyası daha da artmaqdadır. Bu gün ulu öndər Heydər Əliyevin ideyalarını uğurla gerçəyə çevirən Prezident İlham Əliyev Azərbaycan həqiqətlərinin, həmçinin Xocalı soyqırımının təfərrüatlarının dünya ictimaiyyətinə çatdırılması istiqamətində də böyük qətiyyət nümayiş etdirir. Bakının Xətai rayonunda Xocalı soyqırımı qurbanlarının xatirəsinə abidə ucaldılmış, bu abidə Prezident İlham Əliyevin qayğısı ilə yenidən qurulmuşdur. Dövlətimizin başçısı hər il fevralın 26-da dövlət və hökumət nümayəndələri ilə birgə həmin abidənin önünə gəlir, soyqırımı qurbanlarının xatirəsini yad edir. Prezident İlham Əliyev 2012-ci il yanvarın 17-də soyqırımının 20-ci ildönümü ilə əlaqədar "Xocalı soyqırımının iyirminci ildönümü haqqında" xüsusi Sərəncam imzalamışdır.

Bu məsələdə Azərbaycan dövləti ilə yanaşı, Heydər Əliyev Fondunun Prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Fond çox mühüm və tarixi işlər görməklə istər ölkədən kənarda, istərsə də, respublikamızda çox vacib layihələr reallaşdırır. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə fəaliyyət göstərən "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının başlıca layihələri və nailiyyətləri danılmazdır. Ötən 5 ildə dünyanın 70-dən çox ölkəsində hər il Xocalı ilə bağlı konfranslar, sərgilər təşkil olunur, "Xocalıya Ədalət!" kampaniyasının çağırışı BMT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) tribunalarından, dünyanın hər yerində universitetlərdə, gənclər klublarında, habelə məscidlərdə, kilsələrdə və sinaqoqlarda səslənir. Bu çağırış cavabsız qalmamış, 6 ölkənin və ABŞ-ın 14 ştatının parlamentləri Xocalı faciəsini soyqırımı aktı kimi tanımışdır. İƏT-in üzvü olan 53 ölkənin parlamentləri xüsusi qətnamə ilə təsdiq etmişlər ki, Xocalıda soyqırımı törədilmişdir. Bundan əvvəl İƏT-in üzvü olan 57 dövlətin başçıları tərəfindən analoji sənədlər qəbul olunmuşdur. Ankara, Sarayevo, Haaqa, Mexiko şəhərlərində Xocalı abidələri ucaldılmışdır. Xocalı haqqında müntəzəm olaraq kitablar çap edilir, bukletlər, məlumatlar nəşr olunur, filmlər çəkilir.

Tarix ibrət üçündür

Muzeyi gəzdikcə sanki qədim bir tarix kitabını vərəqləyirsən. Hər səhifəsi qanla-qadayla dolu tariximizi danışır muzey. Danışdıqca Qarabağda əcdadlarımızın əzəli məskənlərindən olan Azıx mağarasında yandırılan tonqalların işığı düşən yolda babalarımız görünür. O yolda Qarabağlar türbəsi, Şuşa abidələri, yer üzündən silinmiş Xocalı görünür. O yolda rus şovinistlərinin qabağına düşüb Qarabağın, Zəngəzurun, Göyçənin, Vedibasarın yollarına bələdçilik edən ermənilər də qaralır. Yüz minlərlə soydaşımız Stalinin fitvası ilə dədə-baba yurdlarından Sibir çöllərinə sürgün olunur. O yolda erməni terrorunun qurbanı olan bir milyon didərgin bacı-qardaşlarımız çadır evləri qurur, uçuq-sökük yataqxanalarda xəcalət çəkirlər. Bu xəcaləti isə ermənilər yaradıb. Ancaq çadır evlərindən, yataqxanalardan canımızı qurtarmayınca xəcalətdən qurtula bilməyəcəyik. Bunun üçün isə bizi bürümüş xəcalət hissini düşmənə nifrət hissi ilə əvəz etməliyik. İtirilmiş torpaqlarımıza yiyə durmaq əsas amalımız olmalıdır. Elə muzey də bu amala xidmət etdiyindən gərəkli və dəyərlidir.

Muzeyə daimi olaraq hərbi təhsil müəssisələrinin müdavimləri və orta məktəblərin yuxarı sinif şagirdləri gəlirlər. Bununla yanaşı, adi vətəndaşların da muzeyi ziyarət etmələri üçün hər bir şərait yaradılmışdır. Gəlirlər ki, tariximizi öyrənsinlər. Bu, gənclərin vətənpərvərlik tərbiyəsi üçün çox vacibdir. Çünki tarixi bilmək keçmişinə gedib yenidən özünə qayıtmaqdır. Yalnız bu anda insanın tarixi yaddaşı oyanır. Tarix isə ibrət üçündür.

Bir sözlə, Respublika Hərbi Prokurorluğunda yaradılmış bu muzey Azərbaycan xalqının gələcək nəsillərinin qan yaddaşının qorunmasına və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə xidmət edən ağır bir tarixi hadisəni özündə əks etdirən məkandır.

Azərbaycanın bənzərsiz kurort şəhəri Naftalanda dünyada yeganə və qeyri–adi olan bir muzey var. Bu muzeyin eksponatları qəribə də olsa, atılmış qoltuq ağaclarıdır. Deyilənə görə, bura gələn pasiyentlər bu sanatoriyada müalicə prosedurlarını başa çatdırdıqdan sonra qoltuq ağacları onlara lazım olmurdu. Onlar həmin qoltuq ağaclarını Naftalanda qoyub gedirdilər.

Fikrimizcə, Respublika Hərbi Prokurorluğunda yaradılmış Memorial Muzeyə ermənilər, eləcə də dünyanı təhlükə saçan silahla və ölümlə təhdid edən dövlət başçılarını gətirmək lazımdır. Gördüklərinin onlarda insanlıq və mərhəmət hissi oyadacağına və silahlarını atıb gedəcəklərinə şübhə etmirik.

SON SÖZ ƏVƏZİNƏ
yaxud
BÖYÜK MÜBARİZƏMİZ HƏLƏ ÖNDƏDİR!

Hörmətli oxucu!

Böyük tariximizin daha çox faciəvi məqamlarına diqqət yönəltmək və onlardan ibrət götürmək məramı ilə yazılmış bu üç cildlik kitablarda çirkin olduğu qədər də qanlı əməllərini beynəlxalq miqyasa çıxarmış erməni terrorçularının, erməni şovinistlərinin ötən əsrlərdə Azərbaycan xalqının başına gətirdikləri müsibətlərdən, törətdikləri cinayətlərdən təkzibedilməz faktlarla, sübutlarla kifayət qədər müfəssəl bəhs etdik. İşğalçı erməni quldur dəstələrinin və onların havadarlarının bəşəriyyət üçün nə dərəcədə təhlükəli, zərərli, qorxunc, dəhşətli bir qüvvə olduğunu gördükdən və buna əmin olduqdan sonra, Heydər Əliyev Fondunun vitse-prezidenti, Fondun RF-dakı nümayəndəliyinin rəhbəri, "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kampaniyasının təşəbbüskarı və rəhbəri ***Leyla xanım Əliyevanın*** *necə ağır, məsuliyyətli, ciddi və bəşəriyyəti həmişə narahat edən humanist missiyanı öz üzərinə götürdüyünü təsəvvür etmək çətin deyil. Sənədlərin həqiqətindən danışan bu kitab siz oxucuların gözü qarşısında müasir dünyanın dramatik bir mənzərəsini yaradır.* ***Bu döyüş meydanında iki qüvvə üz-üzə dayanıb: biri – insan həyatına qənim kəsilən, özgə torpaqlarını işğal etmək yolu ilə mənimsəmək üçün ağlasığmaz vəhşiliklər törədən şər qüvvələr, digəri isə, vandalist əməlləri ilə çevrəsinə və dünyaya qan püskürən beynəlxalq erməni terrorçuluğuna qarşı etiraz səsini qaldırmış, xalqına, millətinə, dövlətinə dünya ictimaiyyətindən ƏDALƏT tələb edən humanist qüvvələr. Silahı Ədalət olan bu Ordunun başında Leyla xanım Əliyeva dayanır!***

Qeyd etdiyimiz kimi, Leyla xanım Əliyevanın şəxsində Heydər Əliyev Fondunun keçirdiyi "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası terrora məruz qalmış insanların haqlarının müdafiəsində dünya xalqlarını, dünya birliyini humanizmə, ləyaqətə, nəcibliyə, vicdana, haqqa, ədalətə, yüksək mənəvi dəyərlərə səsləyən strateji bir model kimi bütün xalqlar üçün bəşər tarixində rolu əvəzolunmaz olacaqdır. Yaşadığımız yüzillikdə dünyamızın bu cür çağırışa ehtiyacı olduğunu gələcəkdə tarix özü təsdiqləyərək dəyərləndirəcəkdir.

İnanırıq ki, Leyla adlı bu vətənsevər azərbaycanlı xanımın müqəddəslik və xeyirxahlıqdan yoğurulmuş ***"Ədalət!"*** *çağırışını dünya ictimaiyyəti bəşəriyyət üçün ədalət tələbi kimi qəbul edəcək və haqqın, ədalətin yer üzündə bərqərar olması yolunda səylərini əsirgəməyərək, Şərə qarşı mübarizədə bizimlə həmrəy olacaqlar!*

İstifadə olunmuş ədəbiyyatın siyahısı

Azərbaycan dilində

1. Axundov N. Qarabağ salnamələri. Bakı, 1989
2. Aşırlı A. Türkün Xocalı soyqırımı. Bakı, 2005,.
3. Balayev A. Dağlıq Qarabağ problemi: Mərhələlər, nəticələr, həqiqətlər (siyasi xronika). – "Açıq söz" jur., Bakı, 1990
4. Çəmənzəminli Y. Müstəqilliyimizi istəyiriksə. Bakı, 1994
5. David Xerdiyan. Xaç uğrunda. Livan, "Şərq" mətbəəsi
6. "Erməni xəyanəti: Terror, soyqırım və deportasiya siyasəti", Avropa nəşriyyat servis MMC, Bakı, 2009
7. Əhmədov E. Böyük dövlətlərin Qarabağ münaqişəsinə dair siyasəti. Namizədlik dissertasiyasının avtoreferatı. Bakı, 2001
8. Əliyev H. Azərbaycanlıların soyqırımı haqqında. – "Azərbaycan" qəz., Bakı, 26 mart 1998-ci il
9. Hacıbəyli Ü. Fitnələr qarşısında. Bakı, 1995
10. Hacıyev Q. Vladimir Kazimirovun "Qarabağa sülh" arzusu və əsl niyyəti. Bakı, 2011
11. Həsənov Ə. Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti (Regional təhlükəsizlik). – Heydər Əliyev irsi və Azərbaycanın davamlı inkişaf strategiyası. Bakı, 2006
12. Xocalı qətliamı: erməni qəsbkarlığının qanlı fəsadları. Bakı, 2009
13. Köçərli T. Qarabağ tarixinin saxtalaşdırılması əleyhinə. Bakı, 2002
14. Qaraoğlu F. Ermənilər və həqiqətlər. Bakı, 2007
15. Qurko –Kryajin V. Erməni məsələsi. Bakı, 1990
16. Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri. (Azərbaycan, rus və ingilis dillərində). Bakı, 2010
17. Orucova E. Bizi əsirlikdən qurtarın. Ensiklopedik nəşr. Bakı, 2000
18. Paşayeva Q., Məmmədova H. Xocalı soyqırımı: şahidlərin dilindən. Bakı, 2011
19. Sultanov Z. Xocalı faciəsi. Bakı, 1993

20. Süleymanlı N. Dağlıq Qarabağ münaqişəsinin informasiya modeli. Bakı, 2011
21. Tağıyev Ə. Dağlıq Qarabağ probleminin ideya-siyasi aspektləri. – "Qarabağ dünən, bu gün və sabah". I Ümumrespublika elmi-əməli konfransın materialları. Bakı, 2002
22. Uimz S.A. Ermənistan terrorçu "xristian" ölkənin gizlinləri. (Ermənilərin böyük fırıldaq seriyaları) Aztürk poliqrafiya şirkəti. Bakı, 2004
23. Vəlizadə R. "Şamaxı: 100 il məxfi qrif altında". Bakı, 2014
24. Yaqublu N. Xocalı qırğını. Bakı, 1992
25. Zori Balayan. Ruhumuzun dirçəlişi. "Vanadzor" nəşriyyatı, 1996

İngilis dilində

26. Azerbaijan: Seven years of conflict in Nagorno-Karabakh. In Human Rights Watch / Helsinki. New York, 1994
27. Consequences of Armenian aggression against Azerbaijan. Heydar Aliyev Foundation presents. The series of "The true facts about Garabakh". Baku, 2005
28. Feigl E. Armenian mythomania. Salzburg, 2007
29. Goltz T. Azerbaijan Dairy. A Rogue Reporters Adventures in an Oil-Rich, War-Torn, Post-Soviet Republic. M.E. Sharpe, Ins., Armonk, New York, 1998
30. Joint Statement on Nagorno-Karabakh conflict (Clinton, Yeltsin, Chirac statement). – USIA Wireless File, July 2, 1997.
31. Mehdiyev R. Gorus-2010: Season of theatre of the absurd. Tbilisi, 2010
32. Painful search. – "The Independent" (London), June 12, 1992
33. Swante E. Cornell. Small Nations and Great Powers: A Study of Ethnopolitical Conflict in the Caucasus. Routledge. 2001
34. The state policy of Armenia intending to damage the genetic heritage and to erase the historical memory of the Azerbaijani people. PACE.Doc.10518, 26 April, 2005
35. Tsertsvadze F. The forgotten genocide / trans. N. A. Ohotin/. New York, 2005

Rus dilində

36. Алиев М. Российская Дума обсуждает Карабахский конфликт. – газ. «Зеркало», 22 апреля 1995
37. Ахундов Ф. Разрушители фальсификаций. Том I. Баку, 2012
38. Гасанлы Дж. Хрущевская «оттепель» и национальный вопрос в Азербайджане: 1954–1959. Москва, 2009
39. Геродот. История в девяти книгах. I: 180, 194; III: 93; V: 49, 52; VII: 73
40. А.В.Самедов. Механизмы влияния Российской Федерации и разрешение конфликтов на Кавказе, Баку, 2007.
41. Гольц Т. «The Washington Post» (США), 28 февраля 1992 года.
42. Готлиб В. Тайная дипломатия во время Первой Мировой войны. Москва, 1960.
43. Джавахашвили И. История грузинского народа. Тифлис, 1916.
44. История Азербайджана по документам и публикациям. Баку, 1990.
45. Кочиев Р. Закавказье и Северный Кавказ. Москва, 1970.
46. Мишин М. Одна из историй и антиисторий Кавказа. Москва, 2012
47. Перинчек М. Армянский вопрос в 120 документах из российских государственных архивов. Москва, 2011.
48. Сеидов М. Армянский вандализм. Новосибирск, 2010.
49. Топпер У. Великий обман. Вымышленная история Европы. Санкт-Петербург, 2004.
50. Фурман Д. Несостоявшая революция. Политическая борьба в Азербайджане. (1988-1993 годы). – жур., «Дружба народов», Москва, 1994, № 4
51. Ходжалы – день последний. Баку, 1992
52. Центральная Азия и Кавказ. Лулеа, Швеция, 2002, № 1, 5, 6.
53. Чавчавадзе И. Армянские ученые и вопиющие камни. Баку, 1990
54. Шопен И. Новые заметки на древние истории Кавказа и его обитателей. Санкт-Петербург, 1896
55. Эфендиев О.Ф. Вооруженные конфликты и военные преступления на Центральном Кавказе: международно-правовой аспект. Баку, 2006

Qəzet və jurnallar

56. "İnqilabi Şərq" jurnalı, № 2-3, 1936. Moskva
57. "Nasionalnaya ideya" jurnalı, №6, sentyabr 2008-ci il
58. "Liberasion" qəzeti, 8 noyabr 1988-ci il
59. "Respublika" qəzeti, 26 fevral 1994-cu il
60. "Noev kovçeq" qəzeti, №11-12(57), dekabr, 2002-ci il
61. "Qolos Armenii" qəzeti, 21 dekabr 2006-cı il
62. "Zerkalo" qəzeti, № 219,27 noyabr 2013-cü il
63. "Yeni müsavat"qəzeti, № 113, 4 may 2014
64. "525-ci qəzet"
65. "Azərbaycan" qəzeti
66. "Xalq cəbhəsi" qəzeti
67. "Xalq" qəzeti
68. "İki sahil" qəzeti
69. "Kaspi" qəzeti
70. "Mərkəz" qəzeti
71. "Olaylar" qəzeti
72. "Palitra" qəzeti
73. "Paritet" qəzeti
74. "Səs" qəzeti
75. "Yeni Azərbaycan" qəzeti
76. "Yeni Müsavat" qəzeti
77. "Zaman" qəzeti

İnternet resursları

78. www.heydar-aliyev-foundation.org
79. www.leyla-aliyeva.az
80. www.strategiya.az
81. www.erevangala500.com
82. www.euronews.com/news
83. www.rupolitika.ru
84. www.interfax.ru
85. www.arminfo.info

86. www.analitika.at.ua
87. www.newsru.co.il
88. www.panarmenian.net
89. www.azerigenocide.wordpress.com
90. www.xocali.org/en/
91. www.president.az
92. www.anl.az
93. www.az.wikipedia.org/wiki
94. www.xalqqazeti. com/ az/news/social/19773
95. www.hurriyet.az
96. www.war-memorial.net
97. www.justiceforkhojaly.org
98. www.rospres.com/crime/7926
99. www.thelinguistmagazine.org/category/en
100. www.sia.az/az/news/analysis/395787-xocali-soyqirimi-dunya-metbuatinda
101. www.files.preslib.az/projects/khojali/azkhojali/gl4.pdf
102. www.qafqazpress.az
103. www.karabakhconflict.org

MÜNDƏRİCAT

"Xocalıya Ədalət!" kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 8

Elmi redaktordan. Müasir tarix və beynəlxalq hüquq Xocalı soyqırımına öz ədalətli hökmünü verməlidir 9

Alim mövqeyi. İnsanlıq meyarı ilə 18

Redaktordan. Ədalət uğrunda mübarizənin beş ili 27

Bəşər sivilizasiyasının XX yüzilliyində törədilmiş erməni vandalizmi və Xocalı genosidi şahidlərin dili ilə 36

Mətbuat xülasəsi. Xocalı soyqırımı dünya mətbuatında 66

Millətçi ermənilər ifşa edən faktlar, etiraflar… 95

Bədnam xalq 96

Erməni mənşəli dünya alimləri və elmi ictimaiyyət tarixi həqiqətləri saxtalaşdırmaqda erməni həmkarlarını ittiham edirlər 110

Məşhurlar ermənilər haqqında 121

Qaçqın və Məcburi Köçkünlərə Dövlət Qayğısı 133

Xocalı Soyqırımı - XX əsrin faciəsi 136

Xocali: qısa tarixi məlumat 136

Xocalı faciəsi haqda həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun fəaliyyəti 146

Leyla Əliyevanın rəhbərliyi ilə keçirilən "Xocalıya Ədalət!" kampaniyası bütün xocalıların səsini dünya ictimaiyyətinə çatdırır 160

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişənin nizamlanması, onun beynəlxalq ictimaiyyətə çatdırılması sahəsində həyata keçirilən tədbirlər..... 164

Xocalı rayonundan olan məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi sahəsində dövlət tərəfindən bir çox işlər görülmüşdür. 179

"Xocalıya Ədalət!" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyasının fəaliyyət mexanizmi 189

Mətbuat səlnaməsi – 5 il!. "Xocalıya Ədalət!" Beynəlxalq təbliğat və məlumatlandırma kampaniyasının fəaliyyəti kütləvi informasiya vasitələrində..... 197

Soyqırımı insanlığa qarşı amansız cinayətdir..... 443

Azərbaycan Respublikasi Hərbi Prokurorluğunun memorial soyqırım muzeyi – canlı tarix 461

Son söz əvəzinə yaxud böyük mübarizəmiz hələ öndədir!..... 469

İstifadə olunmuş ədəbiyyatın siyahısı..... 470

VASİF SƏMƏDOV, RÖVŞƏN VƏLİZADƏ

LEYLA ƏLİYEVA: "XOCALIYA ƏDALƏT!"
(BEYNƏLXALQ ERMƏNİ TERRORUNA QARŞI YENİ STRATEJİ MODEL)

Çapa imzalanıb: 02.05.2014.
Formatı 70x100 $^{1}/_{16}$. Həcmi 30 ç. v. Sayı 1000.
Qiyməti müqavilə ilə.

Kitablar hazırlanarkən, Respublika Baş Prokurorluğunun, MTN-nin, DİN-nin birgə yaratdıqları İstintaq qrupunun materiallarından və "AzərTAC"-ın foto-arxivindəki şəkillərdən istifadə edilmişdir. Müəlliflər kitabların hazırlanmasında əməyi olan, qayğısını əsirgəməyən şəxslərə və təşkilatlara, o cümlədən "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kampaniyasına, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Respublika Hərbi Prokurorluğunun, "AzərTAC", "Xalq qəzeti", Prezidentin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin rəhbərliklərinə, Küveytin Beynəlxalq İslam Xeyriyyə Təşkilatı "Asiya Müsəlmanları Komitəsi" beynəlxalq humanitar təşkilatının Azərbaycandakı Nümayəndəliyinə, AMEA-nın İnsan Hüquqları İnstitutuna, nəşrin informasiya təminatı və təşkilati işlərində fəaliyyətlərinə görə Qurban Sadıqova, Müşfiq Vəkilova, Nicat Məmmədliyə və Vüsal Qurbanova təşəkkür edir, minnətdarlıqlarını bildirirlər.

Tərcümə edənlər: Oktaedr Məmmədov
Səbinə Sadıxqızı
Dizayner: Minarə Nərimanqızı
Korrektor: İradə Səmədova
Texniki redakor: Cəsarət Qasımov

mətbəəsində çap olunmuşdur